NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ-1967

# ELMİ ƏSƏRLƏR

İSSN 2224-0829

## *İCTİMAİ ELMLƏR SERİYASI*

# SCIENTIFIC WORKS

## *SERIES OF SOCİAL SCIENCES*

# НАУЧНЫЕ ТРУДЫ

## *СЕРИЯ СОЦИАЛЬНЫХ НАУК*

*№2(67)*

**NAXÇIVAN, NDU, "QEYRƏT"-2015**

# TARİX ELMLƏRİ

**İSMAYIL HACIYEV**
*AMEA Naxçıvan Bölməsi*
*E-mail: ismayil_haciyev@yahoo.com*

**UOT: 316.32**

## XARİCİ DÖVLƏTLƏRİN NAXÇIVANLA BAĞLI SİYASƏTLƏRİNDƏ ERMƏNİ AMİLİ (1917-1921-ci illər)

**Açar sözlər:** *Böyük dövlətlər, ABŞ, İngiltərə, Rusiya, Türkiyə, erməni amili, Naxçıvan*
**Key words:** *Great states, USA, England, Russia, Turkey, Armenian factor, Nakhchivan*
**Ключевые слова:** *Большие государства, США, Англия, Россия, Турция, армянский фактор, Нахчыван*

*XX əsrin əvvəllərində I Dünya müharibəsinin nəticəsində dünyada yaranmış yeni geosiyasi vəziyyətlə əlaqədar Cənubi Qafqazda da müəyyən dəyişikliklər baş verdi: Azərbaycan Xalq Cümhuriyyəti, Gürcüstan Demokratik Respublikası və Ararat Respublikası yarandı. Bu üç müstəqil dövlətlər arasında ərazi mübahisələri vəziyyəti gərginləşdirdi. Xüsusilə, Ararat Respublikası "böyük Ermənistan" yaratmaq arzusu ilə ərazi iddialarına silahlı yolla sahib olmaq üçün fəaliyyətə başladı. Böyük dövlətlərdən - ABŞ, İngiltərə, Rusiya və b. – siyasi, hərbi və maddi kömək alan Ermənistan dövləti azərbaycanlılara qarşı soyqırımı həyata keçirməyə başladı. Böyük dövlətlər Cənubi Qafqazda, Azərbaycanda, eləcə də Naxçıvanda möhkəmlənmək, Naxçıvanı Ermənistana vermək üçün erməni amilindən istifadə edirdi. Azərbaycan rəhbərləri, naxçıvanlıların inadlı mübarizəsi, Türkiyənin ədalətli mövqe tutması böyük dövlətlərin məqsədlərinin gerçəkləşməsinə imkan vermədi.*

Azərbaycana bağlı Naxçıvan bölgəsi XX yüzilliyin əvvəllərində mürəkkəb və çətin hadisələrlə qarşılaşdı. Azərbaycanın bu bölgəsi dörd ölkənin qovşağında yerləşdiyindən çox böyük strateji və geosiyasi əhəmiyyət kəsb edirdi. Bununla əlaqədar yaxın (Türkiyə, Rusiya, İran, Ermənistan) və uzaq (İngiltərə, ABŞ və s.) xarici dövlətlətlər bu dövrdə Naxçıvan bölgəsinə dair müəyyən siyasət yetirmiş və bu siyasətdə erməni amili mühüm yer tutmuşdur. Bir sıra xarici dövlətlərə sığınan ermənilər onların köməyi ilə Azərbaycan torpaqlarına, eləcə də İrəvan, Naxçıvan, Qarabağ və b. ərazilərə köçürülmüşlər. Bu XV əsrdən başlasa da, daha çox XIX əsrin 20-ci illərində kütləvi hal almışdır. Təkcə 1828-ci ilin fevral-iyun aylarında İrandan İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisinə 8249 erməni ailəsi, ən azı 40 min nəfər erməni köçürüldü.[1] Bundan bir az sonar Osmanlı dövləti ərazisindən isə daha 90 min nəfərdən artıq erməni köçürülüb gətirildi.[2] Ermənilər Şimali Azərbaycan torpaqlarına xüsusi məqsədlə, yəni onlara daimi vətən yaratmaq niyyəti ilə köçürülürdü. Erməniləri yerləşdirmək üçün 200 min desyatindən çox dövlət torpaqları ayrılmış, habelə müsəlmanlardan 2 milyon manatlıqdan yuxarı xüsusi torpaqlar da pulla alınaraq ermənilərə paylanmışdır.

Tanınmış rus tədqiqatçısı N.Şavrov yazırdı ki, rəsmi köçürülmüş 124 min nəfər erməni ilə yanaşı, 10 minlərlə erməni ailələri də qeyri-rəsmi surətdə Güney Qafqaza axışmışlar. O qeyd edirdi ki, XX yüzilliyin əvvəllərində Güney Qafqazda yaşayan 1 milyon 300 min ermənin 1 milyondan çoxu yerli əhali olmayıb, Rusiya hakimiyyət orqanları tərəfindən buraya köçürülənlərdir.[3]

Ermənilərin köçürülməsi işi və Azərbaycan torpaqlarında yerləşdirilməsi fasiləsiz davam etdirilirdi. Rusiya imperatoru I Nikolay (1825-1855) ermənilərin köçürülməsinə nəinki şərait yaratdı, həm də onlar üçün "erməni vilayəti" təşkil etdi. Bu, tarix boyu erməni siyasətçilərinin ən

böyük arzusu idi. I Nikolay 1828-ci il martın 21-də "Erməni vilayəti"nin yaradılması haqqında fərman verdi. Həmin fərmana görə, İrəvan və Naxçıvan xanlıqları ləğv edildi, qədimdən Azərbaycan torpaqları olan İrəvan və Naxçıvan xanlıqları və Ordubad dairəsi hesabına "Erməni vilayəti" yaradıldı.[4] "Erməni vilayəti" nin ümumi sahəsi 26.9 min kv.km idi. Köçürülməyədək erməni vilayətində 81.749 nəfər müsəlman və 25.151 nəfər erməni olmuşdur. Kütləvi köçürülmələrdən sonra "erməni vilayəti"ndə ermənilərin sayı 82.377 nəfərə (15.059 ailə) çatdı. Nəticədə "erməni vilayəti"ndə erməni əhalisi müsəlmanları cüzi də olsa, sayca üstələdi.[5]

1840-cı ildə "Erməni vilayəti" ləğv edilərək yerində Gürcü-İmeretiya quberniyası təşkil edildi. 1849-cu ildə İrəvan quberniyası təşkil edilir, Naxçıvan qəzası və Ordubad dairəsi bu quberniyanın tərkibinə daxil idi.

Ermənilərə himayədarlıq edən çarizm onlardan bir əlverişli vasitə və dayaq nöqtəsi kimi istifadə etməyə, Qafqazın sərvətlərinə sahib olmağa və ermənilərin əli ilə Şərqə doğru ekspansiya siyasətini genişləndirməyə çalışırdı. Özünün coğrafi-strateji əhəmiyyətinə görə Azərbaycan o zaman Rusiya imperiyasının xarici siyasət diplomatiyasında əsas yer tuturdu. Çar Rusiyası Cənubi Qafqazın işğalınadək bu regionda Rusiyanın himayəsində olan "erməni dövləti"nin yaradılmasında maraqlı idi. Lakin Güney Qafqazın işğalından sonra bu ərazilərdə ermənilərə ayrıca dövlət qurulmasına çar Rusiyası maraqlı deyildi. Şünki bu hal Rusiyanın imperiya və böyük dövlətçilik siyasətinə zidd idi.

Osmanlı imperiyasını bölüşdürməyə çalışan çar Rusiyası onun ərazisində "erməni dövləti" yaratmaqda maraqlı idi. Təsadüfi deyildir ki, çar II Nikolay söhbətlərinin birində qeyd etmişdi ki, Anadoluda, təbii, ermənilərlə məşğul olacağam, onlara müstəqil bir rejim quracağam.

Çar Rusiyasının siyasətini bolşevik Rusiyası davam etdirdi. Cənubi Qafqazın bolşevikləşdirilməsi üçün V.İ.Lenin S.Şaumyanı Qafqazın müvəqqəti Fövqəladə Komissarı təyin etdi. S.Şaumyanın əsas məqsədi Azərbaycanı parçalamaq, ərazilərinin böyük bir hissəsində "Ermənistan dövləti" yaratmaq idi. 1918-ci ilin Mart soyqırımı da bu məqsədlə törədilmişdi.

Rusiya imperiyasının dağılmasından sonar Cənubi Qafqazda üç respublika öz müstəqilliyini élan etdi. Bu dövlətlər arasında Ararat Respublikası nə ərazisi, nədə ki, paytaxtı olan yeganə respublika idi. Öz respublikalarını "Ararat" adlandıran ermənilər vaxtilə çar Rusiyası tərəfindən köçürüldükləri Azərbaycan torpaqlarına iddialarını ortaya qoymuşdular. 1918-ci il mayın 28-də ermənilər müstəqil dövlətin qurulmasını siyasi mərkəzləri olmadan bəyan etmişdilər. Azərbaycan Xalq Cümhuriyyəti böyük dövlətlərin təzyiqi altında qədim Azərbaycan şəhəri İrəvanı[6] və ona bitişik təxminən 9,5 min kv. km ərazini ermənilərə güzəştə getməyə məcbur oldu. AXC Nazirlər Şurasının sədri Fətəli xan Xoyski və başqaları güman edirdilər ki, bununla ermənilərin bütün ərazi iddiaları bitəcəkdir.

Beləliklə, 1918-ci ilin may ayında qədim Azərbaycan ərazisində erməni daşnak dövləti, 1920-ci il noyabrın 29-da isə bolşeviklərin zor gücü ilə "Ermənistan SSR" yaradıldı. Amerika alimi Səmyuel Vimzin qeyd etdiyi kimi, "… üç min ildən artıq bir müddətdə dövlətçiliyi olmayan, indi isə erməni reallıqlarına deyil, yalnız erməni iddialarına əsaslanaraq ermənilərin dövlət yaratmağa çalışması nəticəsində müttəfiqlərin müstəqil Ermənistan yaratmaq qərarı qəribə görünürdü".[7]

Ararat Respublikası "böyük Ermənistan" yaratmaq xülyası ilə yaşamış və Azərbaycana qarşı ərazi iddiaları irəli sürmüş, bir sıra hallarda iddiada olduqları ərazilərin əhalisini soyqırıma məruz qoymuşdur. Qonşu dövlətlərin Azərbaycana qarşı ərazi iddiaları var idi ki, bunun 7,9 min kv.km-i Ararat Respublikasına aid idi.[8] Onların ərazi iddialarında Naxçıvan mühüm yer tuturdu. Erməni daşnakları və "erməni bolşevikləri" eyni siyasətlə Azərbaycandan torpaq qoparmağa çalışmışlar. Ermənilər Naxçıvan bölgəsini "böyük Ermənistanın" tərkib hissəsi kimi görür və buraya sahib olmaq üçün böyük dövlətlərin hər cür təstəyindən istifadə edirdilər. "Naxçıvan və Şərursuz Ermənistan yaşaya bilməz", - xülyası ilə yaşyan ermənilər hər cür vasitələrdən istifadə edirdilər. 1917-1921-ci illərdə Naxçıvan diyarına silahlı basqınlar etmiş, əhalini soyqırıma məruz qoymuş, Naxçıvanda erməni general-qubernatorluğu yaratmağa cəhd göstərmiş, azərbaycanlılardan 73727 nəfərini (38 faiz) öldürmüş, lakin məqsədlərinə nail ola bilməmişlər. 1920-ci il dekabrın 28-də Ermənistan İnqilab Komitəsi Naxçıvanın müstəqilliyini etiraf etmiş, 1921-ci ilin oktyabrında isə

Qars müqaviləsini imzalamaqla Naxçıvan diyarını Azərbaycan ərazisi olduğunu təsdiq etmişdir. Lakin bu gün də xam xəyallarından geri çəkilməmişdir.

Rusiyanın, İngiltərənin, ABŞ-ın, İranın, Türkiyənin Qafqaz siyasətində, eləcə də Naxçıvanla bağlı siyasətlərində erməni amilini əsas götürmüşlər. Türkiyə Cümhuriyyəti istisna olmaqla, bu dövlətlər qeyri-obyektiv mövqe tutmuş, ermənipərəst siyasətləri, ikili siyasətləri ilə diqqəti cəlb etmişlər.

Rusiya Azərbaycanın müstəqilliyini qəbul etməmiş, Cənubi Qafqazı, xüsusilə Azərbaycanı ilhaq edərkən erməni amilindən yararlanmış, erməni əsgəri gücləri rus ordusuna yardımçı olmuşlar. Rusiya dövlətinin rəhbərlərindən və siyasətini aparan siyasətçilərindən olan V.Lenin, İ.Stalin, G.Çiçerin, Q.Orconikidze və başqaları Ermənistanı sovetləşdirmək üçün bir sıra Azərbaycan torpaqlarını, eləcə də Naxçıvan və Şəruru Ermənistana güzəşt etmək fikrində olmuşlar. RSFSR ilə Ermənistanın daşnak hökuməti arasında 1920-ci il avqustun 10-da müqavilə bağlanmış və bu müqavilədə Qarabağ və Zəngəzur qəzası ilə yanaşı, Naxçıvan diyarı da Ermənistan ərazisi kimi qəbul edilirdi.[9] 1920-ci il noyabrın əvvəlində Bakıda çıxış edən İ.Stalin qeyd etmişdir ki, indiki halda Naxçıvanı Ermənistana vermək olmaz, Ermənistan sovetləşərsə vermək olar.[10] Stalinin bu fikri özünü çox gözlətmədi, təqribən 25 gündən sonra Ermənistan sovetləşdi. Əslində Stalin qeyd olunan fikrini məqsədli söyləmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti və Sovet Azərbaycanı rəhbərlərinin qəti mövqeləri, naxçıvanlıların inadlı və qəhrəman mübarizəsi Rusiyanın Naxçıvanı Ermənistana güzəşt edilməsinə imkan verməmişdir. 1921-ci ilin yanvarında Naxçıvanda keçirilən rəy sorğusunun nəticəsi, Azərbaycan ədliyyə komissarı və Azərbaycanın RSFSR-dəki səlahiyyətli nümayəndəsi Behbud ağa Şahtaxtinskinin V.Leninə müraciətləri[11] Rusiyanın məsələyə obyektiv yanaşmasını məcbur etmiş, Türkiyə nümayəndə heyətinin Naxçıvanla bağlı qəti mövqeyi və obyektivliyi Naxçıvanla bağlı məsələlərin Moskva müqaviləsində düzgün əks olunmasına gətirib çıxarmışdır. Moskva müqaviləsinin üçüncü maddəsinə görə Naxçıvan Azərbaycanın tərkibində saxlanılmış, ona üçüncü dövlətə heç bir zaman verməmək şərti ilə muxtariyyət statusu verilmişdi.[12]

Türkiyə Cümhuriyyəti bəhs olunan dövrdə Azərbaycana, eləcə də Naxçıvan diyarına siyasi, hərbi və maddi yardım göstərmişdir. Naxçıvan nümayəndə heyətinin müraciətindən sonra buraya türk ordusu göndərilmiş və Kazım Qarabəkir Paşa 1918-ci il iyulun 7-də Naxçıvanda qərargahını qurmuşdu. Xəlil bəyin, general Veysəl bəyin başçılığı ilə Osmanlı qoşunları naxçıvanlıların müdafiəsinə kömək etmişdir. Veysəl bəy öz qeydlərində yazmışdır: "Bizim Naxçıvanda olmağımızın əsas məqsədi ermənilərin təcavüzünə mane olmaq idi".[13] Lakin I Dünya müharibəsinin nəticəsi olaraq türk əsgər və zabitləri Naxçıvanı tərk etməyə məcbur olmuşdu. Naxçıvanda Araz-Türk Respublikası yaradılmış (1918 noyabr – 1919 mart), 20 tabor, 500 nəfərlik süvari dəstə və özünümüdafiə dəstələri formalaşdırılmış və erməni basqınlarının qarşısı alınmışdır. N.Nərimanovun "Bəyanatı"ndan narahat olan Türkiyə Rusiya ilə aparılan danışıqlarda Naxçıvanın ərazi taleyini həll etmiş və ona muxtariyyət statusu verilməklə Azərbaycanın tərkibində saxlanılmışdır.

1918-ci ilin noyabrında Bakıya, 1919-cu ilin yanvarında Naxçıvana gələn ingilis qoşunları ikili siyasət aparmış, erməniləri müdafiə etmiş, Naxçıvanda ingilis general-qubernatorluğu yaratmışdı.[14] İngilislərin özlərini bitərəf elan etməsinə baxmayaraq, Naxçıvanın Ermənistana qatılması ideyasını müdafiə edirdilər.

İngilis missiyası ermənilərin Naxçıvana qarşı işğalçılıq hərəkətlərinə nəinki mane olur, əksinə erməniləri silahlandırırdı. Onlar bir tərəfdən Naxçıvanın Azərbaycanın bir hissəsi olduğunu tanıyır, maliyyə və silah vəd edir, digər tərəfdən isə Naxçıvanın daşnak Ermənistanın hakimiyyətinə verilməsi təkliflərini irəli sürürdülər.[15]

İngilis general-qubernatorları F.Lauten və C.Simpson hər vəchlə Naxçıvanın Ermənistana tabe etdirilməsinə çalışırdılar. Onların bilavasitə göstərişi ilə əhalidəki silahlar yığışdırılır, Osmanlı təbələri və Azərbaycan hökuməti tərəfindən Naxçıvana göndərilmiş zabit heyətindən Naxçıvanı tərk etmək tələb olunurdu.

Naxçıvanın "erməni idarəçiliyinə" verilməsini Britaniyanın Qafqazdakı qoşunlarının komandanı Devi 1919-cu il aprelin 17-də Xatisyan ilə Gümrüdə müzakirə etmişdi. Erməni komandiri Dronun Naxçıvanı silah gücünə tabe etdirmək haqqında planı Devinin Simpsonla

görüşündə bəyənilmişdi. General Tomson da onların bu məqsədlərini qəbul etmişdi. Tomson erməni rəhbərlərinə təklif etmişdi ki, Qarabağın və Zəngəzurun Azərbaycana verilməsini qəbul edərlərsə, Qars və Naxçıvanın onların nəzarəti altına keçməsinə kömək edəcəkdir.

İngilis generalı Devi 1919-cu il mayın 2-də Naxçıvana səfəri zamanı Müsəlman Milli Şurasının üzvləri və Naxçıvanın nüfuzlu adamları ilə görüşündə Naxçıvan və Şərur qəzalarının Ermənistan Respublikası ərazisində yerləşdiklərinə görə onun hakimiyyətinin tabeçiliyə keçməli olduqlarını bildirmişdi.[16]

İngilislərin bu rayonları ermənilərə vermək fikrindən dönmədiklərini görən naxçıvanlılar bir sıra şərtlər irəli sürdülər. Bu şərtlərin yerinə yetirilməsi zorla ayrılmış vilayətlərin vəziyyətini qismən yüngülləşdirdi. Naxçıvan bölgəsinin Ermənistan Respublikasının "müvəqqəti idarəçiliyinə" verilməsi barədə ingilis generalı Devi və İrəvan hərbi dəstəsinin rəisi Dro tərəfindən 1919-cu il mayın 3-də birgə əmr imzalandı.[17]

Mayın 14-də general Devi və Ermənistanın baş naziri Q.Xatisyan Naxçıvana gəldilər. Naxçıvanlılar onları kəskin etirazla qarşıladılar və barışmaz mövqelərini onlara çatdırdılar. Lakin naxçıvanlıların etirazları əməli nəticə vermədi və bölgənin əhalisi iyulun sonlarına qədər "erməni idarəçiliyi" altında yaşamalı oldular. Mayın ortalarında daşnak Varşamyanın başçılığı ilə Naxçıvan general-qubernatorluğu yaradıldı. Daşnaklar yalnız Naxçıvan şəhərini və dəmiryolu ətrafındakı əraziləri nəzarətdə saxlaya bilmişdi.

1919-cu il iyulun əvvəllərində ingilis qoşunları Naxçıvanı tərk etməyə başladı. Naxçıvan əhalisi erməni işğalçılarına qarşı tədricən əsl müharibəyə çevrilən azadlıq mübarizəsinə başladı. Ermənilərə qarşı vuruşan könüllülərin sayı 6 minə çatırdı.[18]

Naxçıvan şəhəri ətrafında, Şahtaxtı, Yengicə və Noraşen stansiyalarında hərbi sursat cəhətdən daha üstün olmalarına baxmayaraq, erməni qüvvələri məğlub edildilər, çoxlu silah və sursat, zirehli qatar ələ keçirildi.

Naxçıvan bölgəsində ingilislərin "himayəsi" altında silah gücünə yaradılmış "erməni idarəçiliyi" iflasa uğradı və biabırçılıqla başa çatdı.

ABŞ da Naxçıvanla bağlı siyasətində erməni amilinə əsaslanırdı. 1919-cu ilin yayında Naxçıvan bölgəsində ingilislərin mövqelərinin zəiflədiyini görən ABŞ burada daha fəal siyasət yeritməyə başladı. Qafqazda nüfuz dairəsini qazanmaq uğrunda İngiltərə ilə rəqabətə girən Birləşmiş Ştatlar Şimali Azərbaycanın, xüsusi ilə də Naxçıvan bölgəsinin strateji mövqeyinə mühüm əhəmiyyət verir, ermənilərin bu diyarı ələ keçirmək niyyətlərindən öz məqsədləri üçün istifadə edərək, bölgədə möhkəmlənməyə çalışırdı.[19] ABŞ, əsasən, daşnakpərəst mövqedən çıxış etsə də, bölgəyə kifayət qədər hərbi qüvvə gətirə bilməməsi, yerli azərbaycanlı əhalinin çox güclü müqaviməti, AXC hökumətinin prinsipial mövqeyi və s. görə ikili siyasət yeridirdi. Belə ki, 1919-cu il avqustun 22-də Paris konfransının Ermənistana Ali komissar təyin etdiyi pokovnik V.Haskel Ermənistandakı çıxışında daşnakların bu qəzalara qarşı irəli sürdükləri ərazi iddialarını müdafiə etdiyini bildirmişdi. Avqustun 29-da Bakıda Baş nazir N.Yusifbəyli, xarici işlər naziri M.Cəfərov və b. ilə görüşlərində bölgənin Azərbaycanın idarəçiliyində saxlanacağını elan etmişdi.[20]

ABŞ hökuməti Naxçıvan bölgəsi ilə bağlı məsələlərdə əsasən ermənipərəst mövqe tuturdu. 1919-cu ilin sentyabrında V.Haskel Naxçıvan və Şərur-Dərələyəz torpaqlarını əhatə edən "bitərəf zona" yaradılması layihəsini Azərbaycan hökumətinə təqdim etdi. Bu layihəyə görə "bitərəf zona" polkovnik V.Haskelin təyin etdiyi amerikalı qubernatorun idarəsində olmalı idi. "Bitərəf", yaxud "neytral zona" yaradılması haqqında Haskelin birinci layihəsi yerli hakimiyyət orqanlarının tamamilə Amerika qubernatoruna tabeliyini nəzərdə tuturdu. Bu layihəyə görə Şərur və Naxçıvan qəzaları amerikalı qubernatorun başçılığı ilə müttəfiqlərin idarəsi altında olan zonanı təşkil etməli idi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti V.Haskelin layihəsini qəbul edə bilməzdi. Hələ 1919-cu il fevralın 28-də AXC hökuməti Naxçıvan general-qubernatorluğu yaratmış və Bəhram xan Naxçıvanskini qubernator təyin etmişdi.[21] Xarici işlər naziri M.Cəfərovun V.Haskelə göndərdiyi teleqramda "bitərəf zona" yaradılmasına qəti etiraz olunur, bölgənin yalnız Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Amerika general-qubernatorluğu tərəfindən idarə edilməsinə razılıq verilirdi.

V.Haskelin layihəsi əsasında Naxçıvanda general-qubernatorluğun yaradılması yerli azərbaycanlı əhalinin də kəskin etirazına səbəb oldu. 1919-cu il sentyabrın 9-da yerli əhalinin Haskelə təqdim etdiyi tələbnamədə, eləcə də həmin ilin oktyabrın 1-də Naxçıvanda S.Cəmillinskinin, Xəlil bəyin və Kalbalı xanın V.Haskelin nümayəndəsi A.Robenzonla görüşündə Naxçıvan, Şərur, Dərələyəz, Vedibasar və Milistan əhalisinin əksəriyyətinin Azərbaycan türkləri olduğunu, bu ərazilərin iqtisadi, siyasi, mədəni və strateji cəhətdən Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu və öz qanları ilə azadlıq qazandıqlarını nəzərə çatdırmışdı.[22]

Müttəfiqlərin Ali komissarının Azərbaycan üzrə müvəkkili Ceyms Rey 1919-cu il oktyabrın 16-da Müsəlman Milli Şurasına və Kalbalı xana göndərdiyi məktubunda Naxçıvan və Şərur rayonlarının müttəfiq idarəçiliyində saxlanıldığını, orada Amerika general-qubernatorluğunun yaradıldığını, ABŞ ordusunun mühəndisi, polkovnik Edmond L.Dellinin ona baçşı təyin edildiyini və oktyabrın 23-də Naxçıvana gəlib vəzifələrinin icrasına başalayacağını çatdırırdı.[23]

1919-cu il oktyabrın 24-də Naxçıvana gələn C.Rey S.Cəmillinski, Kalbalı xan və Xəlil bəylə görüşündə V.Haskelin Naxçıvanda general-qubernatorluq yaradılması haqqında bəyanatını elan etdi. Bəyanatda, həmçinin bölgədə yaşayan xalqların sayına görə erməni və azərbaycanlılardan ibarət Mərkəzi Şuranın yaradılması, bölgədən Azərbaycan və Ermənistan qoşunlarının çıxarılması, dəmiryolun və teleqrafin qubernatorun nəzarəti altında qalacağı, idarəetmə xərclərinin yerli büdcə hesabına ödənilməsi bildirilirdi.[24] Lakin Naxçıvan rəhbərləri öz mövqelərində qalaraq C.Reyin təkliflərini qətiyyətlə rədd etdi. Ertəsi gün ictimaiyyətin geniş nümayəndələri amerikalı nümayəndələr ilə görüşündə də əhalinin yalnız Azərbaycan hökumətini tanıdığını amerikalı nümayəndələrin nəzərinə çatdırıldı. Bölgənin azərbaycanlı əhalisinin güclü müqaviməti ilə rastlaşan C.Rey Delinin burada general-qubernator kimi deyil, müttəfiqlərin Ali komissarlığının nümayəndəsi kimi qalması ilə razılaşdı.

Beləliklə, Naxçıvan əhalisinin inadlı mübarizəsi və Azərbaycan hökumətinin ciddi səyləri nəticəsində ermənilərin bölgəni "bitərəf zona"ya çevirmək və orada Amerika general-qubernatorluğu yaratmaq yolu ilə Naxçıvanı Azərbaycandan ayırmaq cəhdləri boşa çıxdı. Məqsədlərinə nail ola bilməyən Amerika nümayəndələri 1919-cu ilin sonu – 1920-ci ilin əvvəllərində Naxçıvanı birdəfəlik tərk etdi.[25]

Şimali Azərbaycanla, eləcə də Naxçıvanla sərhədə malik olan İran dövləti beynəlxalq şəraitdən asılı olaraq AXC-yə müxtəlif münasibətlər bəsləmişdi. Əvvəlcə AXC-nin suverenliyini tanımadı, hətta, respublikanın "Azərbaycan" adlandırılmasına etiraz etdi.[26] Azərbaycan ingilislərin nəzarətindən xilas olduqdan sonra İranın Azərbaycan Respublikasına münasibəti dəyişdi. Oktyabr ayında (1919) AXC-nin Tehranda rəsmi diplomatik nümayəndəliyi yaradıldı.[27] Nümayəndəliyin başçısı İsmayıl xan Ziyadxanov idi.

Diplomatik nümayəndəlik İranda danışıqlar aparırdı. Danışıqların birində Azərbaycan nümayəndəliyi İrandan tələb etdi ki, ermənilərin fitvası ilə Naxçıvana qarşı düşmən hərəkətlərinə son qoysun. Belə ki, İran erməniləri Naxçıvan üzərinə hücumlarda yaxından iştirak edir, İran hökuməti daşnakların Naxçıvandan 60 min azərbaycanlını Cənubi Azərbaycana köçürmək barədə planına qarşı çıxmırdı. Tehran, ingilis və ermənilərin təhriki ilə Naxçıvanı zəiflədib, ermənilərin planlarının gerçəkləşməsi üçün münasib şərait yaratmağa meyilli idi.

1920-ci il yanvarın əvvəllərində Adil xan Ziyadxanov AXC-in İran səfiri təyin edildi.İranın Azərbaycana, eləcədə Naxçıvana qarşı haqsız iddiaları onun nəzərinə çatdırıldı. 1920-ci il martın 20-də İran hökuməti Azərbaycan Respublikasının suverenliyini tanıdı, iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzalandı.

Erməni daşnaklarının İran vasitəsi ilə Naxçıvana yiyələnmək arzuları da baş tutmadı.

Böyük dövlətlərin, xüsusilə Rusiya, İngiltərə, ABŞ və başqalarının Naxçıvanda möhkəmlənmək siyasəti erməni amilinə əsaslansa da yerli azərbaycanlıların və Azərbaycan hökumətinin inadlı və məqsədəuyğun fəaliyyətləri nəticəsində puç oldu.

## ƏDƏBİYYAT


1. Qlinka S.N. Opisanie pereseleniya armyan azerbaydjanskix v predelı Possii. Moskva, 1831, s.131.
2. Aktı, sobrannıe Kavkazskoqo Arxeoqraficeskoyu Komissiyu (AKAK), tom VII, Tiflis, 1878, sənəd 829, s.845.
3. Şavrov N. Novaya uqroza russkomu delu v Zakavkaze: predstoyaşaya rasprodaja Muqani inorodçam. SPb., 1911, s.63.
4. Polnoe sobranie zakonov Possiyskoy imperii. Sobr. vtoroe, t.III. SPb., 1830, s.272-273.
5. Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı: "Şərq-Qərb", 2007, s.15-16.
6. Səməd Sərdariniya. İrəvan müsəlman sakinli vilayət olmuşdur. Bakı: "Zərdabi", 2014, 224 s.
7. Səmyuel A.Vimz. Ermənistan-terrorçu xristian ölkənin gizlinləri (ermənilərin böyük fırıldaq seriyaları). I c., Bakı: "Oka", 2004, s.252.
8. Nəbizadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı: "Ay-Ulduz", 1996, s.201.
9. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild. Bakı: "Elm", 2008, s.50.
10. Rusiya Federasiyası Prezidentinin Arxivi (RFPA), f.17, siy.2, iş 34, v.3.
11. B.Şahtaxtinskinin V.Leninə məktubu. 01.03.1921// Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivi, f.5, siy.1, iş 2796, v.3-3 (arxası).
12. İsmail Soysal. Tarihçeleri ve açıklamaları ile birlikte Türkiyenin siyasal andlaşmaları. I cilt (1920-1945). 2 baskı. Ankara, 1989, s.33-38.
13. General Veysel Unuvar. İstiklal harbinde bolşeviklerle sekiz ay. 1920-1921. İstanbul, 1949, s.4.
14. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996, s. 88.
15. Hacıyev A. Qars və Araz-Türk respublikaları tarixindən. Bakı: Azərnəşr, 1999, s. 60.
16. Azərbaycan Respublikası Dövlət Arxivi (AR DA), f. 27, siy.4, iş 20, v. 21.
17. AR DA, f. 27, siy. 4, iş 20, v. 26.
18. Musayev İ.Göstərilən əsəri, s. 143.
19. Musayev İ.Göstərilən əsəri, s. 170.
20. Yenə orada.
21. AR DA, f. 894, siy.2, iş 102, v.2.
22. Zeynalova T.M.Azərbaycanda milli dövlət quruculuğu tarixindən (1920-1930-cu illər). Bakı: "Elm", 2004, s. 20.
23. Musayev İ.Göstərilən əsəri, s. 176.
24. İbrahim Ethem Atnur. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921), Ankara, Türk Tarih Kurumu, 2001, s. 233.
25. Hacıyev A.Göstərilən əsəri, s. 97.
26. Əzizov T. Azərbaycan XX əsrin əvvəllərində. Bakı: "Zaman", 1997, s. 196.
27. Nəsibzadə N. Göstərilən əsəri, s. 192.


## ABSTRACT


**İsmail Hajiyev**


**Armenian factor in the foreign states` policy connected with Nakhchivan (1917-1921th years)**


Some changes have been happened in South Caucasus according to the new geopolitical condition formed in the world result of the First World War at the beginning of XX century. Azerbaijan Democratic Republic, Georgia Democratic Republic and Ararat Republic were established. The territory conflicts among these three independent states tightened the situation. Especially Ararat Republic began to activities in armed way for to comes true their "great Armenia" creation wishes and territory claims. The armenians who received political, military and material help from great states - as USA, England, Russia etc. began to implement genocide against Azerbaijanis. The great states were used from Armenian factor for to become strong in South

Caucasus, Azerbaijan and the same in Nakhchivan and tried to give Nakhchivan to the rule of Armenia. Azerbaijan leaders, Nakhchivan population`s persistence fighting, taking a just position of the Turkey did not give chance to great states to comes true their aims.


**РЕЗЮМЕ**

**Исмаил Гаджиев**

**Армянский фактор в политике зарубежных государств в отношении Нахчывана**

В связи с возникшим новым геополитическим положением после I Мировой войны в конце XX века, на Южном Кавказе тоже произошли некоторые изменения. Создались три республики – Азербайджанская Народная Республика, Грузинская Демократическая Республика и Араратская Республика. Территориальные конфликты между этими республиками осложняли положение. Особенно, Араратская Республика, мечтая о создании «великой Армении» прибегла к вооруженным действиям. Получая политическую, военную и материальную помощь от великих держав – США, Англии, России и др., государство Армения начала геноцид против азербайджанцев. Большие государства в целях укрепления своих позиций на Южном Кавказе, Азербайджане, а также Нахчыване пользовались армянским фактором. Упорная борьба азербайджанского правительства и нахчыванцев, справедливая позиция Турции воспрепятствовала осуществлению коварных замыслов больших государств.



NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**

**FİRUDİN RZAYEV**
*AMEA Naxçıvan Bölməsi*
*firudinr@yahoo com.tr*

**UOT: 572.9**

# NAXÇIVANLILARIN ETNOGENEZİ TARİXİNDƏ KƏNGƏR TÜRKLƏRİ

**Açar sözlər**: *etnooykonim kank, Kəngər, şumer, kanqyuy, Kanqir.*
**Key words:** *etnooykonim, kanq, Kanqar, sumer, kanqyuy, Kanaqir.*
**Ключевые слова:** *этноойконим, канг, Кангар, шумер, кангюй, Канагир.*

Qaynaq və salnamə məlumatlarında m.ö. minilliklərə bağlı olduğu sübuta yetən, lakin, tarixi proseslərdə iştirakı, eləcə də əraziləri haqqında müxtəlif fikirlər söylənilmiş proto Azərbaycan tayfalarından biri də Naxçıvan ərazisində hələ m.ö. II minilliyin əvvəllərindən məskunlaşmış Kəngər boyları olmuşdur. Bu tayfalar oğuzların Kanq tayfaları kimi tədqiq edilmiş, ayrıca bir türk boyu olduğu göstərilsə də, tam tədqiq edilməmişdir. Azərbaycan, eləcə də Naxçıvan əhalisinin qədim torpaqlarından siyasi oyunla qoparılaraq Cənub və Qərb Azərbaycan torpaqlarına qatılıb fars, erməni hakimiyyəti altına düşən Maku, İrəvan xanlığı bölgələrində də bu tayfalar geniş yayılmış, əhalinin etnogenezində xüsusi yer almışlar. Bu gün belə bu tayfaların Naxçıvan ərazisində çox qədimlərdən yerli sakinlər olmasına, ərazinin ictimai siyasi mühitində əsaslı rol oynadıqlarına dair xeyli tarixi faktlar mövcuddur. Qeyd edək ki, Kəngər tayfaları qədim mənbələrə istinad olunmadan tədqiq edilmiş, ilk dəfə olaraq tərəfimizdən ən qədim dövrlərə aidlikləri tarixi faktlara və yazılı salnamələrə istinadən araşdırılmışdır. Bəs tədqiqatlarda kəngərlər necə araşdırılmışdır?

R.Özdək oğuzları "Üç oxlar", "Boz oxlar" bölərək, Boz oxlara Qayı, Bayat, Alkaravlı, Karaavul, Yazır, Döyər, Dodurqa, Yaparlı, Avşar, Karkın, Bəydili, Kızık, Üç Oxlara isə Bayındır, Beçənə, Çavuldur, Çəbni, Salur, Eymur, Alayuntlı, Ürəgir, Yiğdir, Büqdüz, Yıva, Kınıq boylarını daxil edir. Burada Kınıq boyları kəngərlər hesab edilir, lakin tarixləri haqqında heç bir fikir söylənilmir (36, s.1).

Digər bir mənbədə "Boz ok" boyları Kayı, Bayat, Alkaevli, Karaevli, Yazır, Dögər, Dodurqa, Yaparlı, Afşar, Kızır, Bəydilli, Qarxın, "Üç ok" boylarına isə Bayandır, Peçene, Çavuldur, Çepni, Salur, Eymur, Alayuntlu, Yüregir, İqdir, Büqdüz, İva, Kınık adlı 24 boy daxil edilir (44). Burada da kınıqlar kəngərlər hesab olunur, lakin bu tayfaların tarixi və ərazisindən məlumat verilmir.

Təəssüflə qeyd edək ki, azərbaycanlıların yerli tayfaları olmuş kəngərlər sovetlər dövrü nəşr olunmuş Azərbaycan Sovet Ensiklopediyasında (tərtib edənlər təbii ki, azərbacanlı alimlər idi) onlar ehtimal şəklində eramızın əvvəllərində ərazimizə peçeneqlərlə birgə hunların tərkibində "gəlmə tayfalar" kimi təqdim edilirlər. Naxçıvanda onların məskunlaşması isə V əsrə aid edilir (2, s. 352).

M.H.Vəliyevin (Baharlı) tədqiqatlarında da belə fikirlə qarşılaşırıq O, heç bir mənbə göstərmədən Şimal və Cənub Azərbaycana qədim türk tayfalarının IX əsrdə (826-836-cı illər) ərəblərə qarşı qalxan üsyanı yatırmaq üçün gəldiklərini yazır. Ərəblərin dəvəti ilə Amu Dərya tərəfdən gələn türklər arasında cavanşirli, kayı, kəngər, xələc, türkmən, cığatay, səlcuq və s. türk tayfaları göstərən müəllif, kəngərləri "kanqlı", "xəngə" kimi peçeneqlərin övladları hesab edir (31, s.41).

K.N.Smirnovun "Naxçıvan əyalətinin tarixi və etnoqrafiyasına dair materiallar" əsərində ön söz müəllifi Əziz Mirəhmədov M.H.Vəliyevə istinadən onun fikirlərini təkrarlayır və Kəngər tayfalarının Monqolstandan gəlib, Türk, Azərbaycan, Gürcüstan, İran ərazilərində, 120 min ailə ilə Naxçıvanda da məskun olduqlarını yazır. K.Smirnov isə Naxçıvan ərazilərinə kəngərlərin gəlişini XI əsrə aid edir və guya Kəngərli bəylərinin dediklərinə görə min il bundan əvvəl xəlifələrin çağrışı

ilə onlar Zaqafqaziyanın işğalında ərəblərə yardım edərək Qarabağ və Naxçıvanda məskunlaşdıqlarını qeyd edir. Burada Kəngərli orduları, komandirləri haqqında geniş məlumat verən müəllif, 1803-cü ildə onların böyük güc olduqlarını göstərir (39, s. 10-18, 36). Əgər biz burada "min il əvvəl" ifadəsindəki məlumatı nəzərə alsaq, hadisələr I əsr ərəb işğalı dövrünə təsadüf edir. Göründüyü kimi bu fikirlər sadəcə məlumat xarakteri daşıyır.

Çin mənbələrinin m.ö.II yüzilliyə aid məlumatlarıda da elmi baxımdan maraqlıdır. Burada Usun tayfalarından Şimal-Qərbdə Kanqyuy (Kəngər) dövlətinin adı çəkilir və bu tayfaların Xarəzmin Şimal-Qərbindən gəldikləri vurğulanır. Mənbədə Cənub-Şərqi Asiyada kiçik Kanqar adasından paleolit dövrünə aid arxeoloji tapıntıları da qeyd edir ki, onları da burada yaşamış tayfalara aid edilir (42, s. 87; 43, s. 445). Əgər bu məlumatdakı "paleolit dövr arxeoloji nümunələr mədəniyyəti" ifadəsini nəzərə alsqa, bu tarix m.ö. VII minilliy əhatə edir. Deməli Kəngər türkləri bu mədəniyyəti yaradan prototürklərin varisi də ola bilər (-F.R.).

Azərbaycanın qədim mədəniyyətinin ilk inkişaf dövrünü əski prototürklərlə bağlayan İ.Əliyev ərazidə avtoxton (yerli sakinlər) sakinlər olmuş proto-türk etnosları subartu, lulu, quti, turuk, kuman, az, kəngər, zəngi, kassi, sak və s.tayfaların adını çəkir onları m.ö. əsrlərə aid edir (1, s. 86). Akademik İ.Həbibbəylinin yazılarında da kəngərlər Azərbaycan ərazisində e.ə. bulqar, xəzər, oğuz və s. prototürklərlə birgə göstərilir və kəngərlərin bu tayfalarla birgə Manna, Midiya, Atropatena dövlətlərində yerli tayfalar olduğu qeyd olunur (23, s. 32-38).

Qeyd edək ki, Q.Qeybullayevin də bu istiqamətdə böyük zəhməti olmuşdur. O, kəngərlərlə bağlı Strabon, K.Baqryanarodnı, G.Moravig, İbn Xordadbeh, S.Klyaştornı, L.Meliksetbekov, S.Alyarov, S.Yeremyan kimi səyyah və tədqiqatçıların əsərləri, gürcü, erməni, suriya, ərəb mənbələrə istinadən Alban, Aral gölü, Sırdərya, gürcü, erməni, Bütöv Azərbaycan, eləcə də Naxçıvan elində kəngərlərin yayıldığını göstərir. Müəllif, mənbələrədə kanqlı, kanqay, kanqar, kanqaras və s. yazılışlı tayfaların kəngərlər olub m.ö. II əsrdə Kanqyuy adda dövlətlərinin olduğunu yazır. O, "Kəngər"-"kanq əri"nin Qafqazda V əsrdə peçeneqlərin bir qolu olaraq məskunlaşdıqlarını göstərir (27, s. 102-103). V əsr erməni mənbələrinə istinad edən müəllif Qazax rayonu ərazisində "Kəngər torpağı" olduğunu göstərərək kəngərləri peçeneqlərlə bir ittifaqda təqdim edir. Q.Qeybullayev İberiya və Ermənistan sərhədləri arasında Kəngər torpağını , Ararat vadisi ərazisində Kəngər adının mövcudluğunu N.Q.Adons və qədim erməni mənbələrinə istinadən V əsrə aid edir. Burada peçeneqlərlə kəngərlərin birgə İrəvan xanlığı və Gürcüstan arası ərazilərə m.ö. III-II əsrlərdə gəldiyini yazan Q.Qeybullayev, Kol tayfalarını kəngər-peçeneqlərin tərkibində göstərir, kolların indiki Ermənistan ərazisində m.ö. minilliklərdən yaşadığını qeyd edir (26, s. 97, 111-112). Başqa bir kitabında isə, o, kəngərlərin bir qolunun Qarabağ adlandığını, Naxçıvandakı Qarabağlar kəndinin bu tayfa adından yarandığını və eramızın əvvəllərindən Qazax-Ağstafa, İberiya və Ermənistan sərhədləri arasında, Naxçıvan ərazilərində məskun olduqlarını yazır (25, s. 98-100; 28, s. 30-31).

Qeyd edək ki, tayfa adları və əski sözlərimiz ilkin yaranışda əsasən birhecalı olmuşdur. Biz bu varianta şumer dilini quruluşunu təhlil edən görkəmli dilçi alim T.Hacıyevin tədqiqatlarında da rast gəlirik və şumer dilini bir çox alim türk dili sayır (9, s.193). T.Hacıyev də şumer türk dil qruluşunu müqayisəli təhlil edərək şumerlərdəki 24 sait və samit səsləri (6 sait 18 samit) dilimizdəki səslərlə müqayisə edərək, onların eyni kökə aid olduğuna elmi sübutlar göstərir (15, s. 21-24).

Biz T.Əhmədovun yazılarında kəngərlər bir türk boyu olaraq mənbələrdəki kanqlı etnonimi ilə eyniləşdirilir, Ç.Vəlixanov və N.Zeydlitsə istinad onların m.ö. III əsrdən mövcudluğu, bir qisminin VII əsrdə peçeneq və xəzərlərə, digərlərinin isə XII əsrdə monqollara qarışdıqları, Orta Asiya və monqollardakı osmanlıların bu gün belə "Xanqar" adlandıqları göstərilir (11, s. 158). Bəzi mənbələrdə isə kəngərlər qızılbaş tayfaları hesab edilir (13, s. 12).

K.Ş.Şaniyazov öz yazılarında kəngərləri peçeneq türkləri ilə bir ittifaqda kıpçaq, ıstı, cəlayir, üçoktı, srqalı, çançklı tayfaları ilə birgə Kanqli kimi göstərir, onların qərbə axınının erkən dövrlərdə başladığını, erməni və gürcü mənbələrində isə eramızın I-IV əsrlərində Qafqazın Kəngər dağlarında onların məskunlaşdığını göstərir (40, s. 39-40, 131). Əgər burada "erməni gürcü mənbələri" nəzərə alınarsa biz bu mənbələrin XVII-XIX əsrlərdən formalaşdığını görürük. Çünki ermənilərin rus siyasəti ilə ərazilərimizə köçürülməsi 1820-ci ildən sonra başlamış, gürcülər isə XVII əsrdə Metix

(Mati, Maday adındandır-F.R.) qalası ətrafında kiçik bir knyazlıq kimi göstərilir. Burada müəllifin hansı mənbəyə əsaslandığı qaranlıq qalır və bütün bunlar ümumiləşdirilmiş bir versiya kimi ortalığa çıxır.

Türk müəllifi Zeki Toğan Güney Qafqaza köçmüş Türk boyları Bulqarlar, Hunlar, Barsillər (Barsulalar, Borçalılar), Xəzərlər arasında Kəngər tayfalarını da göstərməklə bu tarixi prosesin miladın ilk yüzillərində baş verdiyini yazır. O, Suriyalı müəllif Abas Katina istinadən Bulqar boylarının məskunlaşdığı ərazini m.ö. 120-ci ildə Qars tərəflərində göstərir (41, s. 98). 2007-ci ildə çıxan "Azərbaycan tarixi" kitabında isə Azərbaycana yerləşmiş Kəngər boylarının adı ilə ərazidə Qavarn Kangaraç məntəqə adı olduğu, erməni tarixçisi Paparlı Qazar, eləcə də Süryani mənbələrində Kəngər və onların ərazisi haqqında qiymətli məlumatlar verdiyi yazılır, lakin dəqiq tarix göstərilmir (3, s. 175-176).

A.Məmmədovun "Kəngərlər" kitabı da elmi cəhətdən maraq doğurur. O, basien-peçeneqlərin m.ö. I minilliyin ortalarında Sırdərya çayının orta axınında bir dövlət qurduqlarını və dövlətin eramızın IV əsrinə qədər yaşadığını, adını isə Sırdəryanın sıldırım sahilində qədim Kanq qalasından götürdüyünü yazır. IX əsr ərəb müəlliflərinə istinad edən A.Məmmədov, Sırdəryanı Kanqar adlandırır, Kanq sözünün fars dilində "kanal" sözündən əmələ gəldiyini təkzib edən müəllif, qədim türk dillərində kanq/qanq sözünün "çayın sıldırımlı hündür sahili", "sıldırımlı qaya" mənasında olduğunu göstərir. O, Kanq qala adının m.ö. VII əsrə aid "Avesta"da Kanqha, m.ö. IV əsrə aid hind eposu "Mahabharata"da Kanqı, VI-X əsrlərə aid farsdilli mənbələrdə isə Kanqdez (dez "qala") mənasında izah edir. Bu sözün Orxon-Yenisey türk runi yazılarında Kanq, Çin mənbələrində Kanqyuy kimi təkrarlandığını yazan A.Məmmədov m.ö. son əsrlərdə Kanq dövlətində yaşayan qədim türklərin "kənqər" yazılışını etnonim qəbul edir. O, Kanq dövlətinin əsasını basien-peçeneqlərin qoyduğunu, bu dövlətdən kənarda yaşayanların "kəngər" adını daşıdığını qeyd edir (30, s. 5-7). Yeri gəlmişkən qeyd edək ki, bu gün belə Cənub Azərbaycanın fars eləcə də azərbaycanlı əhalisi uydurma "Fars körfəzi"nin ərəb mənbələrində Bəsrə-Kəngər körfəzi adlandığını, Təbriz, Urmiya, Türkənbur ərazilərində yaşayan azərbaycanlıların "Kəngər körfəzi" kimi təqdim etdiklərini görürük (Şəxsi müşahidə-F.R.).

S.E.Malovdan sonra Orxon-Yenisey yazılarını gözəl araşdıran A.S. Amanjolov Gül-tegin abidəsindəki yazılarda "kenqeres" sözünü tayfa adı qəbul edir. O, Keneres toponimini kəngərlərlə bağlayıb IX əsr ərəb mənbələrində bu tayfa adının qeyd olunduğunu "kenqer, kenqir" kökünü tayfa adı, -es sonluğunu isə -es/eş adlıq halın donmuş, arxaikləşmiş şəkilçisi kimi qəbul edir. Daha sonra müəllif Sırdəryanın aşağı axarında Kanqar çayı, müasir Qazaxstan ərazisində Kenqir çayı, Ulutau dağlarında Sarıkenqir, Karakenqir, Jazdıkenqir adlarını, Sarısu çayının bir qolu Kenqir, Sarısu-Kenqir hövzə adlarının bu tayfa adından gəldiyini yazır (5, s. 41). Əgər bura qədər olan tədqiqatların nəticələrinə diqqət etsək, kəngərlər Peçeneq, Monqol, Hun, Xəzər, Bulqar, Barsil, Qızılbaş və s. tayfaların daxilində göstərilirlər və bu məlumatlar ziddiyyətli olmaqla tam təsdiq olunmur.

Bəs əsl həqiqətdə kəngərlər kimdir, "Oğuznamə"yə necə düşmüşlər? Təbii ki, F.Rəşidəddinin "Oğuznamə" əsəri bu istiqamətdə ən etibarlı və əsas mənbə olaraq qalmaqdadır. Tərəfimizdən bu dastan üzərində aparılan müqayisələrdə bəzi məqamlar daha aydın görünür. Oğuz hakimiyyətə gəldikdən sonra əmiləri və qohumları ilə döyüşür, onlar üzərində qələbə çalır, bundan sonra çadır qurdurub şənlik etmək istəyir. O, arxadan kömək məqsədiylə gələn, ona qoşulan tayfaya "uyğur", yəni "arxadan gələn", Oğuza kömək edərək düşməni pərən-pərənə salıb, onların qənimətlərini ələ keçirib araba düzəldərək onun ardınca gələn başqa bir qəbiləyə isə "Kanqlı", yəni "arabaçılar" adını verir (14, s.12-13). Əgər "Oğuznamə"dən götürülmüş bu ifadələrə diqqət etsək, istər Uyğur, istərsə də Kanqlı türkləri əsərdə "köməyə gələn başqa qəbilə" kimi təqdim olunurlar. Deməli Kanqlı-Kəngər tayfaları Oğuza sonradan qoşulub ona kömək edən, ilk araba düzəldən, başqa qəbildən olan tayfalardır. Bu tarixi məlumatlar onların oğuzlardan da qabaq tarix səhnəsində olub sonralar Oğuz tayfa ittifaqına qoşulduğunu əsaslı şəkildə sübut edir (-F.R.). Burada bir məsələni xüsusi qeyd edək ki, "Oğuznaməni" ilk dəfə fars dilindən tərcümə edən L.A.Xetaqurova olmuş, etnik dastan kimi öyrənən alimlər isə V.V.Radlov, V.V.Bartold, P.Pelyo, V.Banqdan və b. olmuşlar. Bu yazılarda isə bir-birini təkzib edən xeyli fikir və faktlarla qarşılaşırıq (ətraflı bax, 6, t.

II, I h. s. 63; 7, t. V, s. 473-486; 34, s. 21-28; 35, t. I, kt. I, s. 140-143). Əgər bu faktlar müqabilində kəngərlər oğuz boyları deyilsə, bəs onda bu türklərin ana yurdu harada olmuşdur və onlar hansı boydan gəlirlər?

B.A.Litvinskinin Və S.Q.Klyaştornunun yazılarında m.ö. II yüzillikdə Kəngər türklərinin Kanqyuy adlı dövlətlərinin olduğu və bunun kəngərlər olduğu göstərilir. Müəlliflər bu tayfalara ərazi olaraq Baykal gölü, Amu dərya və Sır Dərya çaylarının ətrafları göstərilir. Problemə tayfa adının etimoloji izahı yönündən də diqqət edən S.Q.Klyaştornı, "kanqlı" sözünü "çay kənarında yaşayanlar" kimi izah edib Kanqxa, Kanq, Kanqu, Tarban-Kanqar kimi toponimik adları misal göstərir (22, s. 150,166, 169-171; 29, s. 46, 55, 134-146). Təbii ki, bu etimoloji izah bir qədər səthi xarakter daşıyır. Çünki qədim türk dillərində su/çay adları adətən-"bu, bia" kimi işlənirdi ki, biz hazırda areal tük dilində *bulud, bulaq, bulama* kimi sözlərdə bunun arxaik izlərini görürük (-F.R.). Lakin yazılı salnamələrdə "Kəngər", "kanqlı", "kanqay", "kanqyu", "kinqir" kimi düşən Kəngər tayfa adının yazılışlarında biz "bu, bia, biu" komponentlərini görmürük. Bu yazılışlardakı "kan" və sağır nun-nq ilə işlənən "kanq" sözü qədim türklərdə "kan-xaqan", "başçı", "şəhzadə" mənalarında rütbə bildirirdi. Tayfa adları isə qədim türklərin inancı dairəsindəki tanrı adlarından formalaşırdılar.

B.Çıdendambaevin araşdırmalarında da yeni versiya mövcuddur. Burada kəngərlər saxaların tərkibində göstərilir (10, s. 44–45). Biz tədqiqatlarımızda Şu türklərindən danışarkən sakların-saxaların "Şu-Saka" dastanında bu boylarla bərabər olduqlarını qeyd etdik. Bu versiya Şu-Saka-Kəngər boylarının eyni ittifaqda m.ö. III minilliyə dayandığını sübut edir (37, s. 336).

K.Ş.Şaniyazov və A.Ş.Kadırbayevin tədqiqatlarında isə Çin yazısı "Yuan-şi" mətninə istinadən Kanqlı tayfaları "vançzu" kimi ayrıca dövlətdir və keraitlər kəngər boylarının əcdadlarıdır və buna dair elmi faktlar göstərilir (20, s. 117; 40, s. 40). Biz bu məlumatla bağlı mənbələrə diqqət etdikdə keraitləri qədimdə onların nayman, uysun, kanqlı, kıpçaq, arqın (arqun), konurat, cəlairlə birgə kazax xalqını təmsil etdiklərini, hazırda onların Baykal ətrafında, eləcə də Şərqi Qazaxstan, Altay ətrafında, Monqolstanın Bayan-Ulqiy oymağında yaşayan tayfalar olaraq görürük (4, s. 36; 16, s. 41-44).

A.T.Qaydarov Kəngər oğuz boylarının dil qruluşunu hələ m.ö. III-I əsrlər qədim türk dilləri ilə bağlayır (21, s. 39-47.). Bu fikri digər bir mənbə də təsdiq edir. Qədim türk Azərbaycan yazılı abidəsi "Avesta"da da biz "Kanqlı" tayfa adı ilə rastlaşırıq (12 s. 141). Bu isə m.ö. VII əsrə təsadüf edir, bu mövcud elmi və tarixi faktlar isə bir təsadüf deyil Azərbaycan xalqının, o cümlədən də Naxçıvan əhalisinin uzaq minilliklərə söykənən keçmişinin tarixi izləridir (-F.R.).

Elmi cəhətdən əhəmiyyətli olan bir tarixi fakta da nəzər salmaq istərdik. Azərbaycan xalqının etnogenez və qədim yazıları haqqında qiymətli fikirləri olan Firudin Ağasıoğlu Subərlərin tarixi ilə bağlı məlumatında m.ö. IV-II minilliklərə aid Akkad yazılarında Bağdaddan aşağı İkiçayarasının Kienqir-Kəngər adlandığını yazır. Şumer mətnindən götürülən bir sətirdə Ki-en-qi-Kəngər sözünün qalan sözlərlə birlikdə mənasını açıqlayaraq, bu sözün həqiqətdə Kəngər olduğunu sübut edıən müəllif, şumerlərin özlərini "kəngər", "kəngər adamı", bəzən də Kəngər ölkəsinin sakini kimi Kəngərli adlandırdıqlarını yazır (8, s. 155). Burada qədim Bağdad isə qədim Azərbaycan şəhəridir və bu halda torpaqlarımız qədim şumerlərlə həmsərhəd olmuşdur (-F.R.). Bu yazılara istinad edən Y.Oğuz və B.Tuncay oz tədqiqatlarında, O.Süleymanov, Ə.Cavad, Y.Yusifov və b. istinadən Kəngər tayfalarını qonşu xalqların "kəngər", "kinqir", "qarabaş", "qarapapaq" adlandırdıqlarını yazırlar. Bununla bərabər müəlliflər mənbələrdəki 60-dan yuxarı Şumer sözlərinin eynilə dilimizdə işləndiklərini göstərmiş, elmi cəhətdən xeyli faktlara müraciət etmişlər (33, s. 122, 131-137).

Əgər göstərilən bu faktlara diqqət etsək, Kəngər boyları m.ö. ən azı III minillikdən tarix səhnəsində idilər. Biz yuxarıda da qed edək ki, "Oğuznamədə" kəngərlər "Kanq" kimi verilir və araba düzəltdiklərinə görə belə adlanırlar (14, s. 13). Burada Kanqlı-kəngər Dəniz xanın son oğlu kimi verilsə də, bu "Oğuznamə"nin tərcüməsi və sistemləşdirilməsində iştirakı olmuş müəlliflərin ya bilərəkdən təhrifi, ya da tərcümə zamanı yol verdikləri səhvdən irəli gəlmişdir. Biz yuxarıda "Oğuznamə"yə istinadən qeyd etdik ki, istər Uyğur, istərsə də Kanqlı türkləri köməyə gələn başqa qəbilələrdir. Bu isə Kanqlı-Kəngər tayfalarının Oğuzdan öncə tarix səhnəsində olduqlarını və Oğuz tayfaları olmadığını sübut edir. Əgər Kəngər boyları ilk araba düzəldən tayfalardısa, bu türk

xalqlarının Yunan, Assur, Het və s. dövətlərdən öncə döyüş arabalarına sahib olduqlarını da ortalığa çıxarır. Bu da kəngərlərin oğuzlardan qabaq tarix səhnəsində olub, onlara sönra qoşulduğunu əsaslı şəkildə sübut edir (-F.R.).

Bəs Kəngər sözü haradan gəlirdi və mənası nəyi izah edirdi? Biz tədqiqatlarımızda prototürk tayfa adlarının onların inancında yer alan Tanrı adları ilə nominasiya-adlanma ənənəsindən bəhs etmişik (37, s. 19).

Ümumdünya mifinin məlumatlarında qədim Azərbaycanın m.ö. minilliklərə aid "Avesta" yazılı mifik dastanının "Yaşt" bölməsində Kanqxa tanrı və Vara qala adına rast gəlirik. Bu Tura nəslindən (bu nəsil "dindar", "mömin", "pak", "ədalətli", "insaflı" adlanırdı) gələn bu ad olmaqla "Kanq sığınacağı" mənasını daşıyırdı. Toponim kimi Həmədan- qədim Midiya paytaxtı Ekbatan yaxınlığında Kanqavar adında da qalan bu Vara məbədi 7 qızıl divarlı –sığınacaq abidə idi və Herodotun yazılarında da xatırlanır (32, s. 619). Əgər burada "Kanqxa" sözünün etimoloji izahına diqqət etsək, ad Kanq tayfa adı, xa/ka-"şöhrətli" və Vara/böri-"qurd" mənalarında qədim türk sözlərindən yaranmışdır (10, s. 118; 38, s. 607). Bu sözlər Kanqxa Vara adını "Şöhrətli qurd Kanq" mənasında qədim türk mifi Qurdla izah edir. Lakin bu tarix m.ö. VII yüzildən önə getmir.

S.Kramerin qədim şumerlərin "Biqamıs" (Bəzən Gilqamış) dastanında biz maraqlı və xüsusi elmi əhəmiyyətli bir məlumatla da qarşılaşırıq. Bu əsərə mif istiqamətində diqqət etdikdə Anu və ya An baş göy tanrısı, Enlil hava, Enki bilik, Ninmah (Ninhursaq) ana tanrı, Nanna Sin Ay tanrısı, Utu (Uti Şamaş) Günəş tanrısı, Ecem Kueen soylular tanrıçası (kraliça), İnnana (İştar) eşq və bərəkət tanrısının adlarıdır. Burada Ziggurta tanrı adı da çəkilir lakin onun daşıdığı mifik yük göstərilmir. İlk torpağı yaradan Anu (göy) Eril və Ki (Kin, yer) tanrılarının birliyindən Enlil hava tanrısı doğulur. Enlillə onun anası Kinin birləşməsindən Ninnuha -Uca tanrı yaranır (19, s. 80-83). Burada Kin və ya Kinq yer tanrısıdır. Biz prototürklərin öz adlarını tanrı adından götürməsinə istinad edərək Kəngər tayfa adının Kinq yer tanrısı adından yarandığını düşünürük və bu izahı doğru hesab edirik (-F.R.).

Naxçıvan ərazisində Kəngər tayfa adından formalaşmış 8 etnooykonim qeydə alınır ki, bunların da etimoloji izahları elmi cəhətdən əhəmiyyətlidir. Bu adlarda Kənəgir və Kanager ə≈i, ə≈a, ə≈e səsəvəzlənmələri ilə (şəkil-şikil, xəngəl-xingəl kimi) Kəngər tayfa adından, Kankan- Kanq tayfa adı və an-mənsubluq şəkilçisindən, Kəynərli -y samiti əlavə olunmaqla tayfa adını daşıyırlar. Burada Canqur adı c≈ç≈k səsəvəzlənmələri ilə, Künlü adı **nq** qovuşuq samiti (sağır nun) nəzərə alınmaqla Kanqlı, Kənurəs adı əs/as- "zəka", "ağıl" sözüylə (18, s. 13) "Zəkalı Kanqlar" mənalarında izah olunurlar (17, s. 36, 6,169,159, 160,180,183).

Beləliklə Kəngərlərlə bağlı bütün müqayisələri, etimoloji izahlardan ortalığa çıxan leksik və fonetik hadisələrin m.ö. minilliklərə aidliyini əsas götürüb aşağıdakı elmi nəticələri deyə bilərik:

1. Kəngərlər oğuzların Kınıq qolu deyil, ayrıca prototürk tayfası olmuşdur;
2. Ərazi olaraq Kəngər tayfaları m.ö. III minillikdə tarix səhnəsində olmaqla Dəclə və Fərat arasında məskun olmuşlar;
3. Kəngərlər m.ö.II minillikdə Dəclə və Fərat çayları arasından müxtəlif istiqamətdə, əsasən Çin və Qafqaza doğru yayılmışlar;
4. Kəngər tayfa adı qədim türklərin adlanma üslubu və adətlərinə uyğun olaraq Şümer tanrısı adından yaranmışdır.

## ƏDƏBİYYAT


1. Алиев, И.Г. Очерк истории Атропатены. Баку: Азернешр, 1989, 160 s.
2. Azərbaycan Sovet Ensiklopediyası. Vc. Bakı : Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası, 1981, 592 s.
3. Azərbaycan tarixi. Bakı: Çıraq, 2007, 400 s.
4. Авляев Г.О. К вопросу о происхождении кереитов и их участии в этногенезе средневековых ойратов Джунгарии и калмыков Поволжья // Проблемы этногенеза калмыков. Элиста, 1984, с. 36.
5. Аманжолов А.С. История и теория древнетюркского письма. Алматы : Мектеп, 2003, 360 s.

6. Бартолд В.В. Очерки истории туркменского народа. Сочинения. Т. II, ч 1, Москва: Издательство Восточной литературы, 1963, 662 s.
7. Бартольд В.В. Турецкий эпос и Кавказ. Сочинения. Т. V, Москва: Наука, 1968, 757 s.
8. Cəlilov F.A.. Azər xalqı. Bakı: Çıraq, 2005, 432 s.
9. Церен Э. Библейские холмы. Москва:Правда, 1986, 480 s.
10. Цыдендамбаев Ц.Б. Бурятские исторические хроники и родословные. Историко-лингвистическое исследование. Улан-Удэ: Бурят.кн.изд-во,1972. 662 s.
10.Дрвнетюркский словрь. Ленинград: Наука.1969, 676 с.
11. Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları. Bakı: Universitet nəşr., 1991, 312 s.
12. Əliyarov S.. "Kitabi Dədəm Qorqud" əlyazmaları üzərində çalışmalar//Azərbaycan filologiya məsələləri. III. Bakı:Elm, 1991, s.141.
13. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı:Elm, 1996, 106 s.
14. Fəzlullah Rəşidəddin. Oğuznamə, Bakı: Azərnəşr. 1992, 72 s.
15. Hacıyev T. Azərbaycan ədəbi dili tarixi. I c. Bakı: ADU nəşri, 1976, 155 s.+
16. Хойт С.К. Кереиты в этногенезе народов Евразии: историография проблемы. Элиста: Изд-во КГУ, 2008, 82 s.
17. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
18. Жуковская И.А. Заметки о монгольской антропонимии /Ономастика Востока.
19. Kramer S.N. Tarix Şumerdən başlanır. Bakı: Kasımi, 2009, 280 s.
20. Кадырбаев А.Ш. Канглы: племя или государство? // Письменные памятники и проблемы истории культуры народов Востока. М., 1986. Материалы XX годичной научной сессии ЛО ИВ АН СССР, Ч.1., 1985, s. 117. +
21. Кайдаров А.Т. К историко-лингвистической характеристике канглы (кан) // Тюркская ономастика. Алма-Ата, 1984. с.39-47.+
22. Кляшторный С.Г. Древнетюркские рунические, памятники. Москва: Наука 1964, 215 s.
23. Габибейли Иса. Зарождение и развитие идеи азербайджанства//«Литературный Азербайджан».-2012.-№10. s.32-38. +
24. Qeybullayev Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 278 s.
25. Qeybullayev Q.A. Qarabağ. Etnik və siyasi tarixinə dair. Bakı: Elm, 1990, 248 s.
26. Qeybullayev Q.A. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992, 138 s.
27. Гейбуллаев Г.А. К этногенезе азербайджанцев. Т. I, Баку: Элм, 1991, 548 с.
28. Гейбуллаев Г.А. Топонимия Азербайджана. Баку: Элм, 1986, 192 с.
29. Литвинский Б.А. Кангюйско-сарматский фарн. Душанбе: Донищ, 1968, 199 с.+
30. Məmmədov A. Kəngərlər. Baki: Azərnəşr, 1996, 131 s.+
31. Məmmədhəsən Vəliyev (Baharlı). Azərbaycan. Bakı: Elm, 1993, 192 s.
32. Мифы народов мира. Энциклопедия. Т. I, Москва: Советская энциклопедия. 1987, 671 с.
33. Oğuz Y., Tuncay B. Türkün gizli tarixi. Bakı:APOSTROF, 2009, 496 s.
34. Радлов В.В. Вопросы об уйгурах.// Приложениек 70 тому Записок АН, № 2, СПб., 1893, с.21-28+
35. Рашид ад-Дин. Сборник летописей. Пер. С персидского языка Хетагурова Л.А. Москва-Ленинград: Изд. АН СССР., т. I, кн. I, 1952, 221 с.
36. Rəfiq Özdək. Türkün qızıl kitabı. II cild. Bakı:Yazıçı, 1993, 232 s.
37. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c.(m.ö.VI-III minilliklər). Bakı:ADPU nəşriyyatı., 2013, s. 277, 529 s..
38. Севортян Э.В. Этимологический словарь тюркских языков.Т. I, Москва:Наука,1974, 777 с.
39. Смирнов К.Н.. Материалы по истории и этнографии Нахчыванского края. Баку:Озан, 1999, 156 s.+
40. Шаниязов К.Ш. К этнической истории узбекского народа. Ташкент: ФАН, 1974,

344 с.+
41. Togan Z.V. Azerbaycan, İslam Ansiklopedisi, II. C., İstanbul: Diyanet Vakfi Yayinları, 1961, 453 s.+
42. Всемирная история. Т. I, Москва: Госиздат, 1956, 746 с.
43. Всемирная история. Т. II, Москва: Госиздат, 1956, 899 с. Москва: Наука, 1980, с. 13, 228 с.
44. http://turkmenhistory.narod.ru/oguzhistory.html

## ABSTRACT

**Firudin Rzayev**

**KANQAR TURKS IN THE ETHNOGENY OF NAKHCHIVAN PEOPLE**

The article deals with the ancient Kanqar kins which have taken part in the history of Nakhchivan ethnogeny. Their historical passed way b.c. III millennium till our century has been investigated by author in different facts.

Ancient prototurk Kanqar kins are investigated for the first time in the article. The author has been investigated the words forming by kanqar/kanq/kanqyuy component on basic of ancient source and proved that Kanqar are turkish kins.

Many turkish elements kanq/kanqar considerable calligraphy have been found out in the geographical names with this component. The lexical-semantic characters of oykonims belong to Kanqar turks has been investigated by the author in the article. Result of these investigations the author get more new scientific facts.

## РЕЗЮМЕ

**Фирудин Рзаев**

**ТЮРКИ КАНГАРЫ В ИСТОРИИ ЭТНОГЕНЕЗЕ НАХЧЫВАНЦЕВ**

Статья посвящена об участии в этногенезе Нахчывана к древним кангарам. Автор статьи, исследуя путь исторических развитий этих племен, выявил, что на исторической арене они были с шумераи. Опираяс к многочисленным данным их появления на территории Нахчывана, было отнесенао к II тысячелетию до н.э.

Тема связанной с этими племенами до тех пор не была исследована учеными. Автор статьи первый раз коснулся к этй проблеме и выявил, что слово «Канг» связаны с тюркскими элементами это имя одного древнетюркского-азербайджанского племени.

Лексико-семантические единицы связанные с компонентом канг/кангюй/кангар, подтверждают, что это имя одной древнетюркской племени. Были еще выявлены много интересные и научные результаты, которые тесно связаны общеазербайджанской и общетюркской историей и с распространением племени Кангар. Путём всестороннего анализа выявлены, многие научные результаты.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Azərbaycan MEA-nın müxbir üzvü* Ə.Quliyev

**FƏXRƏDDİN CƏFƏROV**
*E-mail: faxraddin_cafarov@mail.ru*

**UOT: 930**

# NAXÇIVAN ZƏHMETKEŞLƏRİ 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ

*Məqalədə Böyük Vətən Müharibəsi illərində Naxçıvanın mərd oğul və qızlarının düşmənə qarşı qəhrəmanlıqla vuruşmalarından, muxtar respublikamızda xalq təsərrüfatının ayrı-ayrı sahələrində görülən işlərdən danışılır. Həmçinin, məqalədə Naxçıvan zəhmetkeşlərinin vətənpərvərliyindən, arxa cəbhədə görülən işlərdən, orduya hərtərəfli köməkliyindən, döyüşçülərə sovqat və hədiyyələrin göndərilməsindən, müdafiə fonduna pul və qiymətli əşyaların göndərilməsi haqqında məlumat verilir.*

**Açar sözlər:** *Qəzənfər Əkbərov, Səfiyyə Sultanova, "Azərbaycan kolxozçusu" tank dəstəsi, Hacıyev Əjdər, "Qırmızı Bayraq" ordeni.*

**Key words:** *Gazanfar Akbarov, Safiyya Sultanova, Hajiyev Ajdar, The Order of the "Red Banner" , "Azerbaijani Farmer" group of tank.*

**Ключевые слова:** *Газанфар Акперов, Сафия Султанова, танковая колонна «Азербайджанский колхозник», Аджар Гаджиев, орден «Красного знамени».*

Xalq tərəfindən heç də təsadüfi olmayaraq Böyük Vətən müharibəsi adlandırılmış ötən müharibədən qazanılmış tarixi qələbədən yetmiş il keçir. Bu qələbə bir çox xalqlar kimi Azərbaycan xalqının misilsiz igidliyi və verdiyi sarsıdıcı qurbanlar hesabına əldə edilmişdir.

Araşdırılan arxiv sənədlərindən məlum olur ki, Böyük Vətən müharibəsi illərində muxtar respublikadan 29500 nəfərdən çox naxçıvanlı düşmənə qarşı rəşadətlə vuruşaraq ölkəmizin istiqlaliyyəti, xalqımızın azadlığı uğrunda misilsiz şücaət göstərmiş, saysız-hesabsız qurbanlar vermişdir. Müharibə illərində 15500 nəfərə qədər naxçıvanlı həlak olmuşdur [1.v.3].

Həmçinin sənədlərdə 324 nəfərin naməlum həlak olması, 994 nəfərin naməlum itkin düşməsi və müharibənin gedişində 3691 nəfərin yaralanıb, şikəst halda Naxçıvana qayıtması göstərilir.

Böyük Vətən müharibəsində göstərdikləri şücaətə görə həmyerlilərimizdən üç nəfəri: Qəzənfər Əkbərov, Abbas Quliyev və Nəcəfqulu Rəfiyev Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüşdür. Səkkiz nəfər Lenin ordeni, 1 nəfər I, II, III dərəcəli Şöhrət ordeni, 102 nəfər "Şöhrət ordeni'nin" ayrı-ayrı dərəcələri, 105 nəfər I və II dərəcəli "Böyük Vətən Müharibəsi" ordeni, 315 nəfər "Qırmızı Ulduz", 29 nəfər "Qırmızı Bayraq" ordenləri ilə təltif olunmuşdur. Minlərlə döyüşçü müxtəlif medallar və ali baş komandanlığın təşəkkürünü almışdır [1.v.12].

Arxiv sənədlərindəndən aydın olur ki, müharibənin ilk günlərində vətənimizin ayrı-ayrı yerlərində keçirilən saysız-hesabsız mitinq və yığıncaqlar xalqın tam birliyinin parlaq nümunəsinə çevrildi. O, ağır, qanlı-qadalı günlərdə fəhlələr, qulluqçular, kolxozçular və ziyalılar dəstə-dəstə hərbi komissarlığa gəlir, döyüşən ordu sıralarına göndərilmələrini xahiş edirdilər. 1941-ci il 22 iyulda olan məlumata görə Naxçıvan MSSR-dən 1127 nəfər kommunist, 2156 nəfər komsomolçu, 3208 nəfər bitərəf ordu sıralarına yola düşmüşdür [2.v.6].

Muxtar respulikamızın zəhmətkeşləri hökumətin alman faşistlərini məhv etmək üçün bütün ölkəni vahid ordugaha çevirmək haqqındakı göstərişlərini həyata keçirərək şəhər və kəndlərdə xalq qoşunu dəstələrinə yazılır, qırıcı batalyonlar təşkil edir, idarə və müəssisələrdə, evlərdə özünü müdafiə dəstələri yaradılır. 1941-ci il 22 iyul tarixə olan məlumata görə Muxtar Respublika üzrə 10 min 595 nəfər xalq qoşunu sıralarına yazılmışdır. Bunlardan 3 min 208 nəfəri qadınlar olmuşdur [2.v.2].

Böyük Vətən müharibəsi cəbhələrində mərdliklə vuruşan Naxçıvanın oğul və qızlarından bir çoxu Qafqazın ətəklərindən Berlinə qədər şanlı döyüş yolu keçmiş, vətən uğrunda qanını belə əsirgəməmişdir. Bu qəhrəmanlardan partizan dəstəsinin komandiri Əli Babayev və Buhenvald qəhrəmanı, mərd döyüşçü Əkbər Ağayev, İtalya partizan hərəkatının fəal iştirakçısı Cəlil Rəfiyev, general-mayor Akim Abbasov, Nemət Kərimov, Əjdər Hacıyev, Adil Cəfərov, Qurban Qurbanov, Bağır Bağırov, Yusif Qasımov, Sadıq İsmayılov, Baloğlan Rüstəmov, Kazım Kazımov, Bünyad İsmayılov, Həsənalı Səfərov, Yunis Zeynalov, Yaqub Zalov, Əkbər Məmmədov, İbrahim Məmmədov, Bəxtiyar Kərimov, Əli Kərimov, Ənvər Hacıyev, Mirməmməd Seyidov, Allahverdi Kərimov, Zeynalabdin Kazımov, Ağoş Mirişli, Həmid Mürsəlov, Əli Şeyxov, Əli Əliyev, Yunis Əliyev, Hacı Rzayev, Əli İsmayılov, Hüseyn Rzayev və on minlərlə naxçıvanlı ölkəmizdən çox-cox uzaqlarda belə ümumi düşmənə qarşı ölüm-dirim mübarizəsi aparmışlar.

Həmyerlilərimizin vətən müharibəsi cəbhələrində göstərdikləri qəhrəmanlıqlar haqqında siyasi rəhbərlərin, komandirlərin və eləcə də özlərinin ata-ana, bacı-qardaşlarına, Naxçıvan zəhmetkeşlərinə, partiya komitəsinə, respublika hərbi komissarlığına və işlədikləri təşkilatın əmək kollektivinə göndərdikləri barıt qoxulu məktublar bu günə kimi dövlət arxivində mühafizə olunur.

Barıt qoxulu məktublardan biri, Böyük Vətən müharibəsi iştirakçısı, Naxçıvan (Babək) rayon Cəhri kənd sakini Qasımov Yusif Səfəralı oğlu haqqında "N" qoşun hissəsi komandirinin siyasi hissə üzrə müavini kapitan Hüseynov yoldaşın 21 dekabr 1943-cü ildə Naxçıvan Vilayət Partiya Komitəsinə göndərdiyi məktubunda yazır: "Sizlərə salam göndərməklə bildirmək istəyirəm ki, Sizin rayonun Cəhri kənd sakini Qasımov Yusif Səfəralı oğlu bölməmizin ən cəsarətli döyüşçülərindən biri kimi komandanlıq tərəfindən həmişə qiymətləndirilməkdədir. O, topun tuşlayıcısı vəzifəsində işləyir. Qasımov yoldaş silahının yaxşı ustası olmuşdur. O, son günlərdə öz topu ilə düşmənin 3 tankını, 5 müşahidə, 8 pulemyot nöqtələrini məhv etmiş və 200-dən artıq hitlerçi qırmışdır.

Komandanlıq Qasımov yoldaşı ali dövlət mükafatına təqdim etmişdir. Kapitan: Hüseynov."

Yusif Qasımov göstərdiyi şücaətə görə "Qırmızı Ulduz", "Qırmızı Bayraq", "Vətən Müharibəsi" ordenləri ilə və bir çox medallarla təltif olunmuşdur. Y.Qasımov Melitopol və Taqanroq, Dnepr, Visla, Oder və Neyse çaylarının sahillərində gedən döyüşlərdə, həmçinin faşist Almaniyasının ürəyi olan Berlində gedən döyüşlərin iştirakçısı olmuşdur.

Bu məktub isə 13 nəfər naxçıvanlı gənc döyüşçünün: baş serjant Məmməd Bağırov, Həmid Mürsəlov, İsmayıl İsmayılov, serjant Zeynalabdin Kazımov, Əli Şeyxov, Əli Əliyev, Yunis Əliyev, Bəhlul Əliyev, Qəşi Abbasov, baş serjant, starşina Ağoş Mirişli, kiçik leytenant Müzəffər Məmmədov, Qocayev və kiçik siyasi rəhbər İslam Səfərlinin Naxçıvan rayon gənclərinə 1942-ci ildə göndərdikləri məktubdur. Məktubda döyüşçülərimiz yazırlar: "Naxçıvanın bütün zəhmətkeşlərinə, kolxozçularına, kolxozçu qadınlarına, fəhlələrinə, fəhlə qadınlarına, ziyalılara bizdən alovlu qızıl əsgər salamı.

Biz komsomol sırasında böyümüş və tərbiyə almış gənclərik. Biz əlimizə silah alaraq əziz vətənimizin müdafiəsinə qalxmışıq. Vətən uğrunda son damla qanımız qalana qədər vuruşacağımıza və azğın düşmənə qarşı sarsıdıcı zərbələr vuracağımıza and içirik...

...Naxçıvan gəncləri! Biz özümüzün və Sizin alçaq alman faşistlərinə olan kininizi süngümüzə yığaraq, əclaf düşmənlərimizin köksünə çalacağıq. Biz düşmənlə mərdcəsinə vuruşduğumuz kimi, Siz də təsərrüfatda, dəzgah başında namusla çalışın. Cəbhəni və ölkəni hər cür məhsulla bol-bol təmin edin. Siz bunu yaxşı bilin ki, həyat mərdlərin, qoçaqların və həyat uğrunda mübarizə edənlərindir. Biz Sizi əmin edirik ki, alçaq faşizmin məhv edilməsində qəhrəmanlıqla vuruşanların ilk sırasında olacağıq" [3.1942, 29 avqust].

O zaman bu cəsur döyüşçülərin sırasında orta məktəbi yenicə bitirmiş, hamımızın yaxşı tanıdığımız sevimli şairimiz İslam Səfərli də var idi. Onlar Naxçıvandan cəbhəyə gedərkən 13 nəfər olmuşlar.

Böyük Vətən müharibəsi iştirakçısı, Naxçıvan sakini Əjdər Hacıyev isə 7 dekabr 1944-cü il tarixdə Naxçıvan Vilayət Partiya Komitəsi adına göndərdiyi məktubunda yazırdı: "Hörmətli H.Nəcəfov yoldaş! Döyüşən ordudan hərarətli salam göndərməklə əhvalınızı soruram. Bu gün qalibiyyətli döyüş əməliyyatından sonra Sizə məktub yazmağı qərara aldım. Bir dəqiqə belə

yadımdan çıxmırsınız, xüsusilə son gecə yola düşərkən Naxçıvan Vilayət Partiya təşkilatı adından mənə verdiyiniz tapşırıqları bacardıqca əla yerinə yetirirəm. Hərbi Akademiyada oxuyanda bütün dərslərdən əla qiymət almışam. 1943-cü ilin iyul ayından cəbhədəyəm. Yenə də öhdəmə düşən hərbi vəzifəni layiqincə yerinə yetirməklə 7 dəfə Ali Baş Komandanlığın təşəkkürünü və iki dəfə isə "Vətən Müharibəsi" və "Qırmızı Ulduz" ordenləri ilə təltif edilmişəm. İki dəfə ağır, bir dəfə yüngül yaralanıb döyüş meydanından çıxmamışam.

Mən olan hissədə Naxçıvandan bir çox yoldaşlar var. Onları həmişə başıma toplayıb söhbət edirəm və Naxçıvan zəhmetkeşlərinin etimadını qazanmağı onlardan tələb edirəm. 416-cı Taqanroq diviziyasının bayrağını daha da yüksəldirik. Sağlıq olsun, müharibə qalibiyyəti ilə alnıaçıq qayıdacağıq.

Hər bir naxçıvanlının iki-üç ordeni, medalı döşlərini şöhrətləndirir. Naxçıvan rayonunun Nehrəm kəndindən mayor Əli Əliyev, Təzəkəndli baş leytenant Məmməd Məmmədov, Mahmudkəndli (Noraşen rayonu) mayor M. Mahmudov, Cabbar Hüseynov, Şahbuz rayonundan üç ordenli kəşfiyyatçı T.Məmmədov bizim hissənin adlı-sanlı komandiri və döyüşçüləridir.

Biz naxçıvanlılar öz döyüş tariximizə Melitopol, Taqanroq, Nikolayev, Odessa, Kişinnyov şəhərlərini yazmaqla 4 min kilometrə kimi şücaətli döyüş yolumuz var. Yüzlərlə kənd və minlərlə sovet adamlarını əbədi olaraq alman faşist işğalçılarının zülmündən azad edib, şən həyatlarını bərpa etmişik.

Bizim hissəmizin adı Azərbaycan zəhmetkeşlərinin adı ilə sıx bağlıdır. Hər yeni qalibiyyətimiz üçün Bakı fəhlələri 10 min tonlarla artıq neft verir. Azərbaycan kolxozçuları öz qəhrəman əməkləri ilə pambıq, taxıl, ət, yağ və başqa kənd təsərrüfatı planlarını vaxtından əvvəl və artıqlaması ilə yerinə yetirir. Bu da bizim əsgərlərin, komandirlərin fəxridir.

Naxçıvanlı döyüşçülərin salamını həmyerlilərimizə yetirməyinizi rica edirik. Hörmətlə: mayor Əjdər Hacıyev. 7 dekabr 1944-cü il." [4.v.14].

Muxtar Respublikamızın mərd oğulları ilə çiyin- çiyinə vuruşan qızlarımız da olmuşdur. O vaxt Naxçıvanın bir çox qızları düşmənin məhv edilməsində bilavasitə iştirak etmək üçün könüllü olaraq cəbhəyə yola düşmüşlər və müharibənin ilk günlərindən 100-ə qədər naxçıvanlı qız hitlerçi işğalçılara qarşı qəhrəmancasına vuruşmuşlar. Onlar vətən sevgisinə sadiq qalaraq cəbhədə igidlik, fədakarlıq nümunələri göstərmişlər.

Yüzlərlə komsomolçu qızlar kimi müharibənin ilk günlərində hərbi komissarlığa ərizə verib könüllü olaraq ordu sıralarına yollanan Səfiyyə Sultanova, Zərifə Camalbəyova, Firuş Məmmədəliyeva, Surə Allahverdiyeva, Fövqiyyə Cəfərova, Dilbər Təhməzbəyova, Səkinə Quliyeva, Zina Şirzadova, Asiya Hüseynova, Vera Abbasova, Səkinə Vəliyeva və başqaları Naxçıvan Tibb məktəbində tibb bacısı və feldşer ixtisasına yiyələnərək cəbhəyə getmiş, hərbi qospitallarda, batalyonlarda xidmət etmişlər.

Naxçıvan MR Dövlət Arxivində olan sənədlərdən aydın olur ki, 1941-ci ilin iyul ayında Muxtar Respublika üzrə kolxoz sədrlərinin, idarə-müəssisə rəhbərlərinin və işçilərinin müşavirəsi keçirilmişdir. Bu müşavirədə faşist işğalçılarına qarşı qəhrəmanlıqla vuruşan döyüşçülərimizin ailələrinə yardım göstərmək məqsədilə yardım fondlarının təşkil edilməsi və ön cəbhədə vətənimizin müdafiəsində qəhrəmanlıqla vuruşan əsgərlərə hədiyyələr göndərilməsi müzakirə edilmişdir. Dövlət tərəfindən ayrılmış komissiyaların və həmçinin zəhmətkeşlərin təşəbbüsü ilə cəmi 4 ay ərzində Muxtar Respublika üzrə müdafiə fonduna 1.208.000 manat nağd pul, 1.727.000 manatlıq istiqraz vərəqəsi, 7 kq 700 qram qızıl-gümüş toplanaraq dövlət bankına verilmiş, tədarük məntəqələrinə 66,1 ton taxıl, 64,3 ton ət, 2155 kq yun, 897 kq yağ, 10,6 ton tərəvəz, Qızıl Ordu döyüşçülərinə 3634 cüt yun corab, 1461 cüt yun əlcək, 3546 dəsmal, 120 ədəd balınc üzü, 160 ədəd mələfə və xeyli alt-üst geyimləri toplanıb cəbhəyə göndərilmişdir [2.v.8].

1941-ci ildə Azərbaycanın qabaqcıl qadınlarının ölkəmizin müdafiə fondunun möhkəmləndirilməsi haqqında müraciətinə qoşulan Naxçıvan qadınlarından Rübabə Talıbova qızıl qol saatı, 300 manat pul, 800 manatlıq istiqraz vərəqəsi, evdar qadın Quliyeva Leylan 3,5 qram qızıl, 2 mis qazan və 300 manatlıq istiqraz vərəqəsi, Abbasova Sidiqə bir qızıl üzük, 300 manat dəyərində istiqraz vərəqəsi, Həsənova Qumru 650 manat pul, 1000 manat istiqraz vərəqəsi, Abbasova Züleyxa-qızıl üzük, Abbasova Vəsilə qızıl sırğa, Fətullayeva Əqiyyə bir qram qızıl, 1500

manatlıq istiqraz vərəqəsi, Səfiyeva Pəri 1 qızıl boyunbağı 900 manatlıq istiqraz vərəqəsi, Qədimova Simuzər qızıl üzük, 2 gümüş qaşıq, 800 manat pul və 1000 manatlıq istiqraz vərəqəsi, Aslanova Məryəm 600 manat pul, 2000 manatlıq istiqraz vərəqəsi, Qədimova Lida 2 qızıl üzük, 1500 manatlıq istiqraz vərəqəsi, Xəlilova Təyyibə 8 qram qızıl, 300 manat pul, qızıl sırğa, Kazımova Güllü 1 qızıl üzük, 500 manatlıq isriqraz vərəqəsi, Əliyeva Xavər 300 manat pul, 500 manatlıq istiqraz vərəqəsi, Behbudova Gülabə bir qızıl üzük, 1000 manatlıq istiqraz vərəqəsi, Səkinə Rzalı 6 qram qızıl, 300 manat pul, 500 manatlıq istiqraz vərəqəsi, 10 kq mis təhvil vermişlər.

Əbrəqunus (Culfa) rayon kolxozları, kolxozçular və işçi xidmətçiləri tərəfindən 22 avqust 1941-ci il tarixə kimi dövlət müdafiə fonduna 6700 kq buğda, 145 baş qoyun, keçi, 17 baş donuz, 1 baş inək, 127 kq yağ, 440 kq pendir, 7000 kq üzüm, 1000 kq kartof, 210 ədəd yumurta, 250 kq noxud, 465 kq yun, 4 kq bal, 410 kq mis qırıntısı və 3410 kq qara metal toplayıb göndərmişlər.

Şahbuz rayonunun kolxozçuları Nurs kənd kolxozu tərəfindən 13 qoyun, 2 öküz, 1 donuz, 50 kq yağ, 200 kq pendir, Türkeş kənd kolxozu 15 qoyun, 300 kq üzüm, 500 kq buğda, 300 kq qarpız, Gecəzur kənd kolxozu 200 baş qoyun, 10 baş keçi, 500 kq kartof, 500 kq ət, Gömür kənd kolxozu 105 baş qoyun və Kükü kənd kolxozu 15 baş qoyun və 15 baş keçi vermişlər.

Ordubad rayon zəhmətkeşləri 1941-ci ilin 6 ayında (iyul-dekabr) müdafiə fonduna 243108 manat nağd pul, 249620 manat istiqraz vərəqəsi, 7013 kq ət, 122 kq yun, 52 kq yağ, 24 kq bal, 268 kq pendir, 7624 kq buğda, 545 kq arpa, 35 kq noxud, 1326 kq kartof, 255 ədəd dəri, 2 kq 37 qram gümüş, 77 qram qızıl, 70900 kq qara metal, 5412 kq rəngli metal, 1200 kq qurğuşun, Qızıl Ordu döyüşçülərinə isə 18 ədəd isti alt köynəyi, 143 ədəd isti atl paltarı, 34 ədəd şalvar, 73 ədəd yun adyal, 1242 ədəd balınc üzü, 65 ədəd balınc, 121 ədəd mələfə, 596 kq yun, 195 ədəd dəri, 165 ədəd dəsmal, 47 ədəd qutu bağlama və s. əşyalar göndərmişlər.

10 sentyabr 1941-ci ilə kimi Şərur rayon zəhmətkeşləri müdafiə fonduna 23179 manat nağd pul, 111135 manat istiqraz vərəqəsi, 2707 qram qızıl, 10632 kq taxıl, 11.478 kq ət, 354 kq yağ, 1088 kq yun, 2533 kq mis, 70212 kq qara metal, 52 cüt yun corab, 10 cüt yun əlcək, 2 ədəd isti paltar toplayıb göndərmişlər.

Rayon zəhmətkeşlərindən rayon dükanının işçisi Zeynalova bir aylıq zəhmət haqqı, bir qızıl üzük, bir isti kürk, 3 cüt yun corab, 3 cüt əlcək, bir cemper, 3 kq mis, Daşarx kənd sovetinin sədri Xədicə Hüseynova bir ədəd gümüş papiros qutusu, bir cüt qızıl sırğa, bir aylıq zəhmət haqqı, 300 manat istiqraz vərəqəsi, 2 cüt yun corab, 2 cüt yun əlcək, 1 sırıxlı pencək, Yengicə sənaye artelinin sədri Mirəli Seyidov 10 günlük zəhmət haqqı, 500 manat istiqraz vərəqəsi, 4 qram qızıl, bir isti pencək, Şərur rayon orta məktəbinin müəllimi Cəfərova Şura 6 günlük zəhmət haqqı, 1000 manat istiqraz vərəqəsi, 9 qram qızıl, rayonun uşaq bağça müdiri Nadirova Gövhər 10 günlük zəhmət haqqı, 1000 manat istiqraz vərəqəsi 3 qram qızıl, 5 kq mis müdafiə fonduna verməklə, müharibə qurtarana kimi 3 günlük zəhmət haqqısını verəcəyini bildirmişdir.

Şərur rayonundan olan cəbhəçi anası K. Əliyeva 1941-ci ilin oktyabrında şəxsi bağlama hazırlayıb Moskvanın müdafiəçilərinə ana məhəbbəti ilə dolu məktubunda yazırdı: "Qoy mənim bu balaca ana sovqatım sizin düşməni məhv edən əllərinizi qızdırsın. Düşmənə qəzəbinizi artırsın, qələbənizi yaxınlaşdırsın."

20 noyabr 1941-ci il tarixə kimi Qızıl Ordu döyüşçülərinə Şərur rayon zəhmətkeşləri tərəfindən 411 ədəd yarımşuba, 656 baş xırda buynuzlu heyvan dərisi, 150 ədəd əlcək, 49 ədəd isti papaq, 80 ədəd sırıxlı, 40 ədəd yun köynək, 16 ədəd isti alt paltarı, 22 ədəd mayka, 625 cüt yun corab, 2 çəkmə, 3 kürk, 371,5 kq yun, 20 adyal, 30 balınc üzü, 216 cib dəsmalı, 993 üz dəsmalı, 148 ağ köynək, 117 ədəd əl-üz sabunu, 66 paltar sabunu və sair əşyalar göndərilmişdir.

1941-ci ilin 6 ayında və 1942-ci ilin birinci və ikinci rüblərində Naxçıvan (Babək) rayon zəhmətkeşləri müdafiə fonduna və qızıl əsgərlərə 230 sırıxlı pencək, 1.980 cüt yun əlcək və yun corab, 940 dəst isti alt paltarı, 2.220 ədəd dəri, 413 kq yun, 1kq 12 qram qızıl, 6 kq gümüş, 872.000 manat pul, 1.255.000 manat istiqraz vərəqəsi və sahibsiz uşaqlar üçün 11.467 manat pul vermişlər.

Müdafiə fondunun möhkəmləndirilməsi haqqındakı hökumətin göstərişlərini alqışlayan evdar qadınlar qiymətli hədiyyələrini belə müdafiə fonduna vermişlər. Bunlardan Səkinə Məmmədova 3 qızıl üzük, Rübabə Talıbova 9 qram qızıl, Leyla Rzayeva 9 qram qızıl, Şura Bektaşi 3 qızıl üzük, Səkinə Rzalı 6 qızıl üzük və başqalarını göstərmək olar.

Ümumiyyətlə, 1941-ci ilin iyun ayından, 1943-cü ilin oktyabr ayına kimi Naxçıvan (Babək) rayonu üzrə Qızıl Orduya və alman faşist işğalçıları zülmündən azad olunmuş rayonlara aşağıdakı köməkliklər edilmişdir. Müdafiə fonduna: 1 kq 12 qram qızıl, 2 kq 961 qram gümüş, 343960 manat pul, 1200.055 manat istiqraz vərəqəsi, 172600 kq qara metal, 7018 kq rəngli metal, 40000 kq taxıl və 81 baş qoyun. Müdafiə hektarlarına: 21169 kq taxıl və 833 kq noxud. Tank koloniyasının inşası üçün 2880203 manat nağd pul və gənc pionerlər adına hərbi təyyarənin inşası üçün 329000 manat nağd pul, döyüşən orduya 3823 ədəd bağlama, ümumi çəkisi 13133 kq olan 34 baş heyvan, 6582 cüt yun corab və əlcək, 273 ədəd sırıxlı, 150 cüt keçə çəkmə, 2558 ədəd dəri, 946 dəst alt paltarı və köynəyi, 124 ədəd jilet, 98 ədəd isti papaq və isti paltar alınması üçün 31633 manat pul köməkliyi edilmişdir [5.v.108].

Alman faşist işğalçılarından azad olunmuş rayon əhalisinə 29672 manat nağd pul, 309 baş xırda və iribuynuzlu heyvan, 23177 kq taxıl, 1097 ədəd dəri, 150 kq yağ, 1257 ev əşyaları və sair toplanaraq göndərilmişdir [5.v.109].

Naxçıvan zəhmətkeşləri cəbhədə döyüşçülərimizə bayram (oktyabr inqilabının 25-ci ildönümü münasibətilə) hədiyyələri və isti paltar göndərməklə ölkənin müdafiəsi fonduna xeyli vəsait toplayıb vermişlər. Onlar 1942-ci ilin sentyabr-oktyabr aylarında qəhrəman döyüşçülərə və ölkənin müdafiəsi fonduna 60 kürk, 45 köynək, 25 dəst isti alt paltarı, 1033 cüt yun corab, 79 cüt keçə çəkmə, 127 cüt yun əlcək, 30 ədəd qulaqlı papaq, 20 sırıxlı pencək, 10 jilet, 35 qoyun, 2625 ədəd qutu sovqat, 13719 manat nağd pul vermişlər [6.1942, 7 noyabr].

Naxçıvan şəhərindəki 1nömrəli orta məktəbin müəllim və şagirdləri döyüşən Qızıl Ordu əsgərlərinə bayram münasibətilə 900 manat dəyərində 10 qutu sovqat, bundan başqa Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığının işçiləri 11, poçt-teleqraf kontorası işçiləri 10, Böyükdüz, Vayxır və Kültəpə (Naxçıvan(Babək) rayonu kənd kolxozunun əməkçiləri hərəsi 10 qutudan ibarət bayram sovqatı göndərmişlər [7.1942, 3 noyabr].

1942-ci ilin dörd ayında muxtar respublika üzrə müdafiə fonduna 1milyon 208 manat nağd pul, 1 milyon 727 manat istiqraz vərəqəsi, 7 kq 700 qram qızıl-gümüş toplanaraq dövlət bankına verilmişdir. Cəbhəyə 66,1 ton taxıl, 64,3 ton ət, 10,6 ton tərəvəz, milyonlarla kq yağ və yun, 3634 cüt yun əlcək, çoxlu geyim göndərilmişdir [8.v.109].

1942-ci ildə Qızıl Ordu üçün taxıl fondu yaradılması haqqında qərara uyğun olaraq Naxçıvan zəhmətkeşləri cəbhə üçün 881 ton taxıl, 630 ton çəltik, 2741 kq quru meyvə və sair yola salmışlar.

1942-ci il iyunun 25-də Naxçıvan Muxtar Respublika gəclərinin Naxçıvan şəhərindəki parkında (Böyük bağda) birinci antifaşist mitinqi keçirilmişdir. Bu yığıncaqda müdafiə fonduna 325000 manatadək nağd pul, döyüşçülər üçün 10 min dəst isti paltar, Qara Dəniz Donanması üçün 12000 manatlıq hədiyyə göndərilməsi qərara alınmış və bu qərar tezliklə yerinə yetirilmişdir [9.1942, 28 iyul].

1942-ci ilin iyul ayında isə Şərur rayon gənclərinin antifaşist mitinqi olmuşdur. Həmin mitinqdə komsomolçu-traktorçu Səkinə Mustafayeva çıxış edərək demişdi: "...lazım gələrsə biz traktorçu qızlar da öz traktorumuzu böyük tanklarla əvəz edərək düşmən üzərinə gedəcəyik." Səkinə Mustafayeva çıxışının sonunda gənc kolxozçulara müraciətində dedi: "Mən, sizi bol məhsul uğrunda mübarizəyə çağırıram. Bol məhsul düşmən üzərində qələbə deməkdir!" [10.1942, 11 iyul]

Şərur rayonunun zəhmətkeşləri, xüsusilə komsomolçu gənclər daima vətənimizi yırtıcı düşməndən mərdliklə təmizləməkdə olan şanlı Qızıl Ordunun 416-cı Taqanroq diviziyasının qorxmaz döyüşçülərinə 1943-cü ilin sentyabr ayında 21 kq yağ, 560 yumurta, 200 dəftər, 70 qələm, 53 paket, 275 iynə, 39 sap, 10 litr spirtli içki və başqa şeylər toplayıb göndərmişlər. Rayonun Mahmudkənd kolxozunun üzvləri bu sahədə daha yaxşı iştirak etmişdir. Onlar 3 kq yağ, 50 yumurta, 60 iynə, 12 sap, 15 paket və bir baş qoyun toplayaraq göndərmişlər [11.1943, 23 sentyabr].

Naxçıvan Muxtar Respublikası zəhmətkeşləri alman faşist işğalçılarından azad edilmiş Çərkəz vilayətinin zəhmətkeşlərinə və bu vilayətin bərpa edilməsinə 1943-cü ildə 394478 manat pul, 611 sentner taxıl, 994 kq noxud, 1662 kq darı, 1978 kq quru meyvə toplamış və göndərmişdir. Kolxozçular və kolxozçu qadınlar öz şəxsi mal-qaraları hesabına 701 baş qoyun, keçi, 16 inək, 44

baş donuz, 329 kq yağ və 935 kq yun vermişlər. Bundan başqa 8 kq bal, 512 kq pendir, 35 toyuq, 10 pud duz vermişlər.

Muxtar respublikamızın zəhmətkeşləri çoxlu miqdarda geyim və ev əşyaları, o cümlədən 1.831 müxtəlif qab-qacaq, 206 yataq paltarı, 472 geyim paltarı, 260 cüt corab, 138 cüt əlcək, 15 palaz, 30 uşaq çarpayısı, 9 stol və stul toplayaraq göndərmiş, kənd təsərrüfatı, rabitə və səhiyyə işlərində istifadə etmək üçün 5 kotan, 2 dəyirman daşı, 93 müxtəlif tibb alətləri və 128 ayrı-ayrı rabitə materialları toplayaraq göndərmişdilər [12.v.18].

29 sentyabr 1943-cü ildə Naxçıvan şəhər və rayon müəllimlərinin yığıncağı keçirilmişdir. Yığıncaqda müəllimlər Çərkəz vilayətinin bərpa edilməsində və alman faşist zülmündən azad edilmiş çərkəzlilərə kömək göstərməkdə fəal iştirak edəcəklərini bildirmişlər.

Yığıncaqda iştirak edənlər muxtar respublikanın bütün müəllimlərinə məktub qəbul etmiş, onları da çərkəzlilərə yardım etməyə çağırmışlar.

Həmin məktubda deyilir: "Alman faşist quldurları qəhrəman Qızıl Ordumuzun zərbələrini Tivin, Moskva, Stalinqrad ətraflarında və Oryol, Kursk, Belqord, Xarkov istiqamətlərində yaxşıca dadmışlar. İndi Hitlerin "məğlubedilməz" şərəfli diviziyaları Dnepr sahillərində dalbadal məhv edilir və sürətlə qərbə doğru qaçırlar.

Hər gün yüzlərlə şəhər və kəndlərimiz həyasız düşməndən təmizlənir. İndi bizim əsas vəzifəmiz alçaq faşist köpəklərinin müvəqqəti ağalıq etdikləri yerlərdə dağıdılmış, külə döndərilmiş kəndləri və şəhərləri bərpa etməkdən, əsarətdən qurtararaq zəhmətkeşlərə qardaşlıq köməyini genişləndirməkdən ibarətdir.

Biz bu vəzifəni yerinə yetirməyə başlayaraq ikinci növbədə 25.000 manat pul, 500 dəftər, 500 ədəd müxtəlif kitab və sair verməyi öhdəmizə almışıq.

Həmin yığıncaqda müəllimə Xanım İmanova, avqust ayı maaşını (480 manat), 1 çarpayı, 1 balınc, Yevgeniya İbrahimova 450 manat pul, 1 yorğan, Fatma Məmmədova 300 manat pul, 1 adyal, müəllim Murad Tutayuk 690 manat, İdris Səlimov 594 manat, Hüseyn Mirzəyev (Şıxmahmud kəndindəki məktəbin müəllimi) 650 manat pul vermişlər [13.v.10].

Həmçinin, Naxçıvan Muxtar Respublika zəhmətkeşləri müharibə illərində alman-faşist işğalçılarından azad edilmiş Stavropol ölkəsinin əməkçilərinə 423840 manat pul, 8348 pud buğda, 4168 pud arpa, 429 pud düyü, 700 pud noxud, 901 pud meyvə qurusu, 450 baş qaramal, 226 baş davar, çoxlu paltar və müxtəlif ev əşyaları göndərmişlər.

Stalinqrad vilayətinə isə 132795 manat pul, 881 pud taxıl, 2741 kq quru meyvə, 1134 baş iribuynuzlu və xırdabuynuzlu heyvan, 946 cüt corab, 521 cüt əlcək, 836 kq yun, 305 ədəd alt paltarı, 994 kq noxud, 1556 kq kartof, 6972 kq çəltik, 44 baş donuz, 314 kq yağ, 38 kq bal, 512 kq pendir, 35 ədəd quş, 10 pud duz, 1743 ədəd ev əşyaları, 189 ədəd mələfə, 15 ədəd palaz və 30 ədəd uşaq çarpayısı toplayaraq göndərmişdilər.

Naxçıvan (Babək) rayon zəhmətkeşləri müharibənin ilk günlərindən cəbhəyə yekdilliklə böyük yardımlar etmişlər. Belə ki, 1 kq 12 qram qızıl, 6 kq 965 qram gümüş, 556.502 manat pul, 1.541.055 manat istiqraz, 47.000 kq taxıl, 414 kq yağ, 1700 kq noxud, 100 baş donuz, 106 baş iri və xırdabuynuzlu heyvan, 300 kq kartof, 179.618 kq qara və rəngli metal, tank dəstəsi üçün 2.918458 manat və təyyarə dəstələri yaradılmasına 329.000 manat nağd pul vermişlər.

Rayonun kolxozları tərəfindən əkilmiş müdafiə hektarlarından 839 kq noxud, 50.139 kq taxıl, Qızıl Ordu döyüşçülərinə 4.523 bağlama (16.136 kq), 50 baş heyvan, 30.600 manat pul, 500 litr araq və şərab, 7.250 cüt yun corab və geyim paltarı toplanaraq döyüşçülərə göndərilmişdir.

Döyüşçülərə isti paltar alınması üçün Naxçıvan Dövlət Bankına 31.663 manat nəğd pul verilmişdir. Bunlardan əlavə kolxoz və kolxozçuların artıq olan taxıllarından dövlət qiyməti ilə 500 ton taxıl satılmışdır.

Naxçıvan (Babək) rayonun kolxozçuları, fəhlə və qulluqçuları cəbhəçi ailələrinə xüsusi qayğı göstərərək birdəfəlik 48.037 kq taxıl, 22400 manat nağd pul, heyvanların saxlanması üçün 125 ton yem, 236 kq ət, 100 kq yağ, 6.000 müxtəlif yeyinti şeyləri, südündən istifadə etmək üçün 96 qoyun və keçi, 50 ton yanacaq və bunlardan başqa süd, pendir, üzüm və sair ərzaqla yardım etmişdir.

Alman faşist işğalçılarından azad olunmuş rayonların əhalisinə Naxçıvan (Babək) rayon zəhmətkeşləri tərəfindən Çərkəz muxtar vilayətin bərpası üçün 297927 manat nağd pul, 26574 kq taxıl, 686 baş iri və xırdabunuzlu heyvan, 82 kq yağ, 508 ədəd dəri, 574 kq yun, 3953 ədəd müxtəlif ev və geyim şeyləri toplanaraq göndərilmişdir.

Naxçıvan (Babək) rayon zəhmətkeşləri tərəfindən 1943-cü ilin yanvar ayında "Azərbaycan kolxozçusu" tank dəstəsinin yaradılması və qırıcı təyyarələrin artırılması fonduna 2.087.463 manat və təyyarə hazırlanması fonduna isə 497781 manat vermişdilər.

Tank dəstəsi yaradılması və təyyarə hazırlanması fonduna yardım edilməsi işində qabaqcıl kolxozlardan: Cəhri kənd kolxozunun kolxozçu qadınları tərəfindən 263300 manat, Didivar kənd kolxozunun kolxozçu qadınları tərəfindən 135500 manat, Nehrəm kənd kolxozunun kolxozçu qadınları tərəfindən 130000 manat, Əznəbürd kənd kolxozçu qadınları tərəfindən 97000 manat yardım edilmişdir [13.v.3].

23 fevral 1943-cü ildə Qızıl Ordunun 25-ci ildönümü münasibətilə Şərur rayon zəhmətkeşləri, kolxozçu qadınları alman işğalçılarının zülmündən azad edilmiş ölkələrin əhalisinə yardım olaraq 110 baş qoyun-keçi, 645 pud buğda, 244 pud arpa, 11 pud çəltik, 49 pud noxud, 11 min ədəd yumurta, 4 baş iribuynuzlu mal, 205 cüt əlcək, 389 cüt corab, 62 alt paltarı, 118 köynək, 4 şalvar, 11 sırıxlı, 161 dəri, 104188 manat pul, 99 kq yun, 11 ədəd adyal, 19 dəsmal, 131 qaşıq və fincan, 27 fufayka, 14 döşək, 42 balınc, 100 ədəd mis qab, 85 boşqab, 5 kürk, 5 cemper, 8 palaz və cecim, 15 kq tütün toplayaraq göndərmişlər.

1 mart 1943-cü ildə Şərur rayon ZDS İK-nin iclasında tank dəstəsinə və təyyarə eskadronuna edilən köməkliklər haqda məsələ müzakirə edilmiş və yığıncaqda qeyd olunmuşdur ki, 1 mart 1943-cü ilə kimi Şərur rayon kolxozçuları tərəfindən tank dəstəsinin və təyyarə eskadronunun yaradılması üçün 3.800.000 manat nağd pul və 4980 pud taxıl təhvil verilmişdir.

Rayonun kolxoz sədrlərindən Bəhman Cəfərov 70000 min manat, Abbas Hüseynəliyev 40000 min manat, Xanım Məmmədova 50000 min manat, Məmməd Əliyev 350000 min manat, Hüseyn Əliyev 100000 min manat nağd pul təhvil vermişlər.

Naxçıvan Muxtar Respublikasında yaşayan hərbi qulluqçu ailələrinə dövlət təminatı şöbələrinin vasitəsilə 1943-cü ildə 12.930.142 manat yardım verilmişdir.

1943-cü ildə əsgər ailələri uşaqlarından yaşlılara 2514, bağçalara 9398, uşaq evlərinə 449 nəfər, cəmi 12361 nəfər uşaq müəssisələrinə cəlb edilmişdir. Ata-anasını itirən uşaqlardan 93 nəfəri Muxtar Respublika Zəhmətkeşləri tərəfindən oğulluğa və qızlığa götürülmüşdür. 1931 əsgər ailəsinə xəstəxanalarda və 20000 nəfərdən yuxarı isə poliklinikalarda və evlərdə tibbi yardım göstərilmişdir.

Əsgər ailələrinə 1943-cü ildə bir çox kənd təsərrüfatı məhsulları ilə yardım edilmişdir. Məsələn, 3134 ailəyə 141 ton 440 kq ət, 668 ailəyə 1 ton 146 kq yağ, 806 ailəyə 1 ton 439 kq pendir, 3301 ailəyə 172 min 115 ədəd yumurta, 3068 ailəyə 6186 ədəd dəri və 772 ailəyə bir ton 142 kq yun, 14613 ailəyə 174 ton 774 kq ərzaq, o cümlədən, 131 ton 833 kq taxıl, 5622 cüt ayaqqabı, 2705 dəst paltar, 6981 sentner odun, mal-qaraları üçün 9073 sentner yem, 1 ton 159 kq sabun, 1260 metr parça, 1000 dəstdən yuxarı alt paltarı, 100 metrdən çox bez, tənzif, 183 ipək baş yaylığı, 648 cüt ayaqqabı və sair yardım olunmuşdur [13.v.36-38]

Qızıl əsgər ailələrinə mənzil kirası üzrə 36000 min manat güzəşt verilmiş, bundan başqa 165 otaq verilmiş, 706 ailənin evi təmir edilmişdir.

Müharibə illərində cəbhəyə kömək üçün Ordubad rayon zəhmətkeşləri "Azərbaycan kolxozçusu" tank koloniyasına və təyyarə hazırlanması üçün 1.950.250 manat istiqraz, 77 ton rəngli və qara metal, 4500-ə qədər bağlama, 2 kq qədər qızıl, gümüş və çoxlu miqdarda isti paltar və ərzaq məhsulları toplanıb göndərilmişdir.

Bundan başqa qızıl əsgər ailələrinə kömək məqsədi ilə 61860 kq taxıl, 16533 kq müxtəlif ərzaq məhsulları, 4236 cüt ayaqqabı, 1620 ədəd paltar, 3873 sentner yanacaq (odun), 2862 ədəd cürbəcür sənaye malları toplanıb verilmişdir.

Qızıl əsgər ailələrindən 183 nəfərinin evi təmir edilmiş, 37 nəfərə isə yeni yaşayış evləri, 428 nəfər isə dirrik yerləri verilmişdir. Bu müddət ərzində Ordubad rayonunun qızıl əsgər ailələrinə 3.229.672 manat yardım edilmiş və hərbi ailələrə pensiya verilmişdir.

Müharibə illərində sahibsiz uşaqların tərbiyə edilməsinə xüsusi diqqət yetirilirdi. 1942-ci ildə 2 uşaq evində 200 uşağın tərbiyə edilməsinə 583.800 manat pul sərf edilmişdirsə, 1943-cü ildə 400 uşağı əhatə edən 3 uşaq evinə 1.056.300 manat, 1944-cü ildə isə 1.108.900 manat pul buraxılmışdır [13.v.9].

Müharibə illərində Muxtar Respublikanın gəncləri də (komsomolçuları) ordunun müdafiə qüdrətinin daha da möhkəmləndirilməsinə doğru yönləndirilən bütün kampaniyalarda fəal iştirak etmişlər.

Gənc komsomolçular tərəfindən müdafiə fonduna 300 qram qızıl, 1 kq 561 qram gümüş, 15 ədəd qızıl üzük, 11 ədəd qızıl qolbaq, 5 ədəd qızıl saat və bir çox şeylər vermişdilər [14.v.20].

Komsomolçu gənclər "Azərbaycan kolxozçusu" tank dəstəsi fonduna 1.369.709 manat nağd pul vermişdilər. Müharibə dövründə komsomolçu gənclərin qüvvəsi ilə 6631 ədəd isti geyim paltarları və 436708 manatlıq sovqat bağlama toplayaraq ön cəbhədəki döyüşçülərimizə göndərmişdilər.

16 yanvar 1943-cü ilə qədər Naxçıvan Muxtar Respublikasının rayonları üzrə komsomolçuların və pionerlərin "Azərbaycan koxozçusu" tank dətəsinə yığdıqları vəsait aşağıdakı kimi olmuşdur: Naxçıvan (Babək) rayonu üzrə-230000 manat, Şərur rayonu üzrə-381645 manat, Ordubad rayonu üzrə-50433 manat, Şahbuz rayon üzrə-41718 manat, Əbrəqunus rayonu üzrə-35000 manat, Culfa rayonu üzrə-10000 manat, cəmi-748796 manat. "Azərbaycan gənc pionerləri" tank dəstəsinə yığılan pul vasaiti aşağıdakı kimi olmuşdur: Naxçıvan (Babək) rayon üzrə-780000 manat, Şərur rayon üzrə-318000 manat, Ordubad rayonu üzrə-98970 manat, Şahbuz rayon üzrə-4000 manat, Əbrəqunus rayonu üzrə-550 manat, cəmi: 410447 manat toplanaraq ödənilmişdir. "Azərbaycan gənc pionerləri" hərbi təyyarənin inşası üçün rayonlar üzrə: Naxçıvan (Babək) rayonu üzrə-24710 manat, Ordubad rayon üzrə-11504 manat, Şahbuz rayonu üzrə-3180 manat, Əbrəqunus rayonu üzrə-2000 manat, Culfa rayonu üzrə-6000 manat, cəmi: 120.114 manat pul toplanaraq verilmişdir [14.v.3].

Naxçıvan zəhmətkeşləri, o cümlədən respublika komsomolçuları və pionerləri, xüsusilə Tambov kolxozçularının təşəbbüsünə cavab olaraq "Daha çox tank verək" tank dəstələrinin yaradılması fonduna 1.279.357 manat pul toplayıb keçirmişlər. Məsələn, Şərur rayonunun Siyaqut kənd orta məktəbinin V sinif şagirdi pioner Hüseynov Əmir Abbas oğlu 5000 manat, Dəmirçi kənd orta məktəbinin V sinif şagirdi pioner Həsənov Əli Əhməd oğlu 2400 manat, pioner Mustafayeva Xavər İlyas qızı 25000 manat, Məmmədov Cəlil Baba oğlu 20.000 manat "Azərbaycan gənc pioneri" tank dəstəsinin inşası fonduna keçirmişlər. Bundan başqa Dəmirçi məktəbinin pionerləri bir gün ərzində 26.836 manat toplayıb həmin fonda keçirmişlər [15.v.2].

Şərur rayonun Maxta kənd məktəbinin komsomolçu və pionerləri "Azərbaycan gənc pionerləri" tank dəstəsinin yaradılması üçün 13.550 manat taplayıb keçirmişlər. Qarabağlar kənd məktəbinin komsomolçu və pionerləri bu işə daha böyük təşəbbüslə qoşulmuşlar. VII sinif şagirdi Mədətov Qaraş Mədət oğlu 31 dekabr 1942-ci ildə kəndin gənclərinin yığıncağında çıxış edərək, tətildə qazandığı 10.000 manat pulu tank dəstəsinin fonduna verdi. Q.Mədətovun çıxışından sonra 15 gün ərzində məktəbin pioner və komsomolçuları "Azərbaycan gənc pioneri" tank dəstəsinin fonduna 15.000 manat pul keçirdilər.

Bundan başqa Şərur rayon Qıvraq kənd kolxozunun komsomolçu gəcləri 11.000 manat, Sərxanlı kənd kolxozunun 7 komsomolçusu 12.000 manat pul və 1000 kq taxıl, Yengicə kənd kolxozunun komsomolçusu Məmmədova Lətifə 2500 manat pul və 150 kq darı, Düdəngə kənd kolxozunun komsomolçusu Şirəliyev Həsən 6000 manat, Kürtcülü kəndinin sakini kolxozçu İbrahimov Abbas 8000 manat, Ulya-Noraşen kənd kolxozunun gənc kolxozçusu Mahmudov Ləzgi 5000 manat, Keştaz kənd kolxozunun komsomolçusu Ceyran Qəzənfərov 5000 manat nağd pulu "Azərbaycan gənc pioneri" tank dəstəsinin yaradılması fonduna keçirmişlər.

Naxçıvan (Babək) rayonun pioner və kolxozçuları da bu təşəbbüsə qoşulmuşlar. Qaraxanbəyli kəndinin "28 aprel" adına kolxozun gənc komsomolçusu Cəfərov Rza Qara oğlu tətil zamanı qazandığı 20000 manat, Mərzə kənd kolxozunun komsomolçusu Hüseynəliyeva Zeynəb İbrahim qızı 10.000 manat, Xalxal kənd kolxozunun komsomolçuları 10.000 manat, Bulqan kənd kolxozunun komsomolçuları 8.000 manat, kolxozun komsomol təşkilat katibi Abbasov Şirəli 2.000

manat və 60 kq buğda, kolxozun üzvü Bağırov Məmmədəli 3.000 manat, 100 kq buğda və 1 qoyun, Qaraçuq kəndinin komsomolçuları və pionerləri "Azərbaycan kolxozçusu" tank dəstəsinin inşasına 35.000 manat pul və 2.000 kq buğda toplayaraq keçirmişlər [15.v.13].

Naxçıvan Muxtar Respublikası üzrə təkcə yanvar 1943-cü ilə kimi "Azərbaycan kolxozçusu" tank dəstəsinə 6.779.771 manat və hərbi təyyarələrin tikintisi üçün 2.326.406 manat pul yığılıb göndərilmişdir.

Müharibə kolxozların inkişafina və gəlirinin artmasına mane ola bilməmişdir. 1943-cü ilə nisbətən 1944-cü ildə kolxozların gəliri 80% artmışdır. Naxçıvan MSSR sənayesi 1944-cü ildə məhsul buraxılışını 1941-ci ilə nisbətən 15% artırmışdır.

Müharibə illərində zəhmətkeşlər tərəfindən Muxtar Respublikada dövlətə kənd təsərrüfatı məhsulları planları xeyli artıqlaması ilə yerinə yetirilmişdir. Əgər 1940-cı ildə Naxçıvan Muxtar Respublikası üzrə dövlətə 2899 ton taxıl verilmişdirsə, 1944-cü ildə 3861 ton taxıl verilmişdir ki, bu da 1940-cı ilə nisbətən 962 ton artıq, yaxud 133,8 faiz təşkil edirdi. 1944-cü ildə dövlətə 1310 ton ət təhvil verilmişdir ki, bu da 1940-cı ildəkindən 202 ton yaxud 18,3 faiz artıq olmuşdur. 1940-cı ildə dövlətə 40 ton kartof təhvil verilmişdirsə, 1944-cü ildə isə 148 ton olmuşdur ki, bu da 1940-cı ilə nisbətən 370 faiz təşkil edir. 1944-cü ildə kolxozçularımız və kolxozçu qadınlarımız dövlətə 641 tərəvəz təhvil vermişdilər. Dövlətə yumurta təhvili 1944-cü ildə 1940-cı ilə nisbətən 215 faiz olmuş, yağ təhvili isə 8000 kq yaxud 122 faiz artıq verilmişdir.

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin və Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 11 yanvar 1944-cü il tarixli qərarı ilə alman faşist işğalçılarından azad edilmiş rayonların və vilayətlərin respublika kolxozları şərəfinə qısa bir müddət 450 baş öküz, bundan başqa 120 baş inək, 1700 baş qoyun və keçi, 80 baş donuz göndərilmişdir [16.v.13].

1944-cü ilin altı ayı ərzində Muxtar Respublika üzrə 690 nəfər hərbi qulluqçu ailəsi işə düzəldilmişdir. Hərbi qulluqçu ailələrindən 8802 nəfərin uşağı uşaq müəssisələrinə qəbul edilmişdir.

Bundan başqa 1944-cü ilin 6 ayı ərzində hərbi qulluqçu ailələrinə dövlət yardımı olaraq 2.752.349 manat birdəfəlik yardım edilmiş, 57 ailə mənzillə təmin olunmuş, 176 ailənin evi təmir edilmiş, 2781 ailəyə paltar, 4321 ailəyə ayaqqabı, 17942 ailəyə 155763 kq ərzaq və 5367 ailəyə sənaye malları verilmişdir.

Böyük Vətən müharibəsi illərində Şahbuz zəhmətkeşləri ölkənin müdafiə fondunun və Qızıl Ordu döyüşçülərinin kənd təsərrüfatı məhsulları ilə təmin edilməsində az iş görməmişlər. Rayonun kolxozları 1941-ci ildən 1945-ci ilə kimi 507,5 ton ət, 13 ton yağ, 42 ton yun, 541,5 ton taxıl, 1337 ədəd gön, 1626 ədəd dəri vermiş və dövlət tədarükat planlarını artıqlaması ilə yerinə yetirmişlər.

Şahbuz rayon zəhmətkeşləri Böyük Vətən müharibəsində Qızıl Ordu üçün təyyarə və tank dəstələri yaratmaq fonduna 1 milyon 865 min manat pul və 350.000 manatlıq dövlət istiqraz vərəqəsi verilmişdir.

Müdafiə fonduna möhkəmləndirilməsi üçün Culfa rayon zəhmətkeşləri 1945-ci ilin əvvəllərində 421019 manat nağd pul, 201000 manat dövlət istiqraz vərəqəsi, 39 ton ət, 50880 kq taxıl və sair toplayaraq cəbhə üçün göndərmişlər.

Rayonun zəhmətkeşləri "Azərbaycan kolxozçusu" tank dəstəsinin yaradılması üçün öz şəxsi vəsaitlərindən 81236 manat nağd pul və 96000 manatlıq istiqraz vərəqəsi toplayaraq həmin fonda vermişlər.

Həmin qulluqçu ailələrinin vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə Culfa rayonu 1943-1944 və 1945-ci illərdə 488683 manat maddi yardım, 285311 manat təqaüd və 34650 manat birdəfəlik yardım edilmişdir. Bundan başqa hərbi qulluqçu ailələrinə 500 ədəd paltar, 200 metr parça və sair ərzaq məhsulları ilə köməklik edilmişdir.

Müharibə illərində cəbhəyə rayon zəhmətkeşləri tank koloniyası təyyarə eskadronuna 1.950.000 manat nağd pul, 250000 istiqraz vərəqəsi, 77 kq rəngli və qara metal, 4500 ədəd bağlama, 2 kq-a qədər qızıl-gümüş və çoxlu miqdarda isti paltar və ərzaq məhsulları toplayıb göndərmişlər.

Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasının zəhmətkeşləri Böyük Vətən müharibəsi illərində alman faşist işğalçılarının darmadağın etmək üçün müdafiə fonduna 180 milyon 89 min

manat nağd pul, 12 kq qızıl,-gümüş, yarım milyon ton taxıl, 160 min dəstdən artıq isti paltar, 10 mindən artıq bağlama göndərmişlər.

## ƏDƏBİYYAT


1. Nax.MRDA. f .728. s.1, iş.22.
2. Nax.MRDA. f .1. s.1, iş.14.
3. "Şərq qapısı" qəzeti, 29 avqust 1942- ci il.
4. Nax.MRDA. f .314. s.1, iş.365.
5. Nax.MRDA. f .194. s.1, iş.317.
6. "Şərq qapısı" qəzeti, 7 noyabr 1942- ci il № 223.
7. "Şərq qapısı" qəzeti, 3 noyabr 1942- ci il № 221.
8. Nax.MRDA. f .194. s.1, iş.109.
9. "Şərq qapısı" qəzeti, 28 iyul 1942- ci il.
10. "Şərq qapısı" qəzeti, 11 iyul 1942- ci il.
11. "Şərq qapısı" qəzeti, 23 sentyabr 1943- cü il.
12. Nax.MRDA. f .1. s.1, iş.34.
13. Nax.MRDA. f .1. s.1, iş.9.
14. Nax.MRDA. f .1. s.1, iş.18.
15. Nax.MRDA. f .1. s.1, iş.664.
16. Nax.MRDA. f .1. s.3, iş.1.


## ABSTRACT


**Faxraddin Cafarov**

**Farmers of Nakhchivan are in the 1941-1945 years War**

In the article are spoken about brave sons and doughters fighting against the enemy and the works done in the different sectors of the economy during The Great Patriotic War. In the same time are informed in the article about patriotism of Nakhchivan workers, works done in the rear, comprehensive support to the army, presents and sending given to fighters, sending money and valuables to the defense fund.


## РЕЗЮМЕ


**Фахраддин Джафаров**

**Нахчыванские трудящиеся в годы войны с 1941 по 1945**

В статье говорится о героическом сражении против врага храбрых сыновей и дочерей Нахчывана в годы Великой Отечественной Войны, о работе в различных областях народного хозяйства в нашей автономной республике. Также, в статье говорится о патриотизме Нахчыванских трудящихся, о работах проводимых в тылу, о всесторонней помощи армии, об отправке бойцам посылок и подарок, об отправке денег и драгоценностей в фонд обороны.



NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

**ВАГИФ МЯММЯДОВ**
*Нахчыван Дювлят Университети*

**UOT: 930**

# ХЫХ ЯСРДЯ НАХЧЫВАНДА ТЯЩСИЛ

**Ачар сюзляр:** *Тящсил, nizamnamə, seminariya, mədrəsə, məzun*
**Key words:** *Education, charter, seminaries, madrasa, graduating*
**Ключевые слова:** *Образование, устав, семинарии, школы, окончив*

ХЫХ яср Азярбайжанын педагоъи фикир, халг маарифи вя мяктяб тящсили, щямчинин елми-ижтимаи фикир тарихиня хцсуси дювр кими дахил олмущ, ясрин илк онилликляриндян башлайараг гейд олунан сащялярдя мцщцм аддымлар атылмышдыр. Хцсусиля Шимали Азярбайжанын Русийа тяркибиня гатылмасы иля Азярбайжанда халг маарифинин инкишафы йени мярщяляйя дахил олмущдур. Щямин дюврдя дювлят мяктябляринин ачылмасы истигамятиндя атылан аддымлар мцщцм ижтимаи-сийаси вя мядяни щадися кими диггяти жялб едирди. Ясрляр бойу фяалиййят эюстярмиш кющня цсуллу дини мяктяблярин вя мядрясялярин йени типли тядрис мцяссисяляри иля явяз олунмасы щям дя ана дили тялиминин мейдана эялмяси идейасынын ясасыны гойурду. Азярбайжанда йени дцщнжя тярзиня малик олан зийалылар няслинин йетишмяжяйиня зямин щазырланырды. ХЫХ ясрин яввялляриндя Азярбайжанда йени мязмунлу мядрясялярля йанашы, йени типли мяктяблярин дя ясасы гойулмущду.

Щяля ХЫХ ясрин яввялляриндян етибарян Загафгазийанын диэяр реэионлары кими Азярбайжанда да рус дилиндя тящсил верян мяктябляр ачмаг зяруряти мейдана эялди. 1827-жи илдя Тифлисин щярби губернатору Сипйаэин Загафгазийанын бир сыра шящярляри иля йанашы Нуха (Шяки), Газах, Шамахы, Шуша, Бакы вя Губада гяза мяктябляри ачмаг фикрини иряли сцрмцщдц ки, аз сонра бу сийащыйа Нахчыван вя Ордубад да ялавя олунду.

Азярбайжанда халг маарифи тарихинин илк рясми сянядляриндян сайылан Загафгазийа мяктябляринин биринжи Низамнамясиндя Нахчыван вя Ордубад шящярляриндя дя йени типли гяза мяктябляринин ачылмасы эюстярился дя бу мцщцм ишин эюрцлмясиня мане олан сябябляр мювжуд иди. Гейд олунан Низамнамя тясдиг едиляндян сонра Загафгазийанын баш щакими Барон Розен мяркязи щюкумятя рапортларынын бириндя «Ордубад шящяринин ящалиси аз олдуьундан щал-щазырда орада мяктяб ачмаг щеч бир мянфяят вермяз»- дейя наращатлыьыны билдирирдися [1,с.10], щямин дюврдя Нахчыванда ачылмасы нязярдя тутулан йени типли мяктяблярдя тядрис планына дахил едилян шярият, гираят, щцсн-хят, щесаб, рус дили вя ана дилиндян дярс дейя биляжяк ихтисаслы мцяллим кадрларын олмамасы да жидди манея кими гаршыда дурурду. Гейд олунан сябябляр Нахчыванда гяза мяктябляринин ачылмасы ишини бир гядяр лянэитди вя о дюврдян етибарян Нахчыванда мцяллим кадрларына жидди ещтийаж олдуьу рясми даирялярдя дя бир сыра сянядлярдя юз яксини тапды. Щямин дюврдя мювжуд вязиййяти тящлил едян Загафгазийа мяктябляри директору йазырды:

«Нахчыван ящалиси чох олан шящярдир вя ялбяття, бурада мяктябя ещтийаж вардыр. Лакин йерли сакинлярдян мцяллимлик вязифясиня габилиййятли олан адамын олмамасы бурада мяктяб ачылмасыны лянэитди» [2, с.11].

ХЫХ ясрин илк онилликляриндя Нахчыванда мцяллим кадрларына жидди ещтийаж олса да, йерли ящали йени типли мяктябляр ачылмасы идейасына яксяр щалларда мцсбят мцнасибят бясляйир, щятта рус диliня мейлин эцжлянмяси дя йени мяктябляря мцнасибятин ифадяси кими диггяти жялб едирди. Хцсусиля вязифяли вя мадди имканлы шяхслярин рус дилиндя мяктябляр ачылмасы цчцн сяйляри нязяря чарпырды. 1833-жц илдя

Григорйев Санкт-Петербургда чап етдирдийи «Нахчыван йайалятинин статистик тясвири» китабында йазырды: «Йерли ящалидя рус дилини юйрянмяйя бюйцк щявяс вардыр. Бир чох вязифяли шяхсляр артыг рус дилини юйрянмяйя башламышлар вя бюйцк мувяффяйиггятляр ялдя етмишляр. Цмумиййятля, бцтцн ящали онларын ушагларына щям рус дили, щям дя ижтимаи щяйатда зярури олан ибтидаи билик юйрятмяк цчцн шящярдя рус мяктяби тясис етмяйи црякдян арзу едир, щятта йерли башчылардан хащиш едирляр. Нахчыван йайалятини идаря едян Ещсан ханын дедийиня эюря, беля мяктябя шящярдян вя йахын кяндлярдян 200-я гядяр шаэирд йыьылар» [3, с.7].

Загафгазийа мяктябляринин 1829-жу илдя тясдиг олунмуш илк Низамнамясиндя Нахчыванда гяза мяктябляринин ачылмасы нязярдя тутулса да, гейд олунан сябябляр цзцндян щямин мяктябляр ачылмадыьы цчцн 12 май 1835-жи илдя гябул олунмуш икинжи Низамнамядя дя мювжуд гяза мяктябляринин тякмиллящдирилмяси, Шамахыда, Нахчыванда, Губада вя Газах дистансиайсында нязярдя тутулан гяза мяктяблярини ачмаг мясяляси йенидян тясдиг едилмищди [2, с.12].

Загафгазийа мяктябляринин икинжи Низамнамясиня уйьун олараг Нахчыванда илк гяза мяктяби 1837-жи ил мартын 15-дя ачылды [2, с.12]. Нахчыванын щакими эенерал-майор Ещсан ханын оьланлары Исмайыл вя Калбалы ханын хцсуси евиндя ачылмыш мяктябя илк дяфя 20-я гядяр ушаг жялб едилмищди [4].

Нахчыванлылар илк дцнйяви дювлят мяктябинин ачылмасына хцсуси диггят, гайьы эюстярир вя Нахчыванын эляжяк инкишафында бу мяктябин ролуна мцщцм ящямиййят верирдиляр. О дюврцн сайылан адамларындан олан Исмайыл вя Калбалы ханын йени ачылан дцнйяви мяктябя бюйцк ряьбят бясляйиб, бу мяктяби илдя эцмцш пулла 200 манат ийаня щесабына [2,с.13] юз щимайяляриня эютцрмяляри дя бу фикри тясдиг едир.

ХЫХ ясрин 40-жы илляриндя гяза мяктябляринин фяалиййятинин мязмунунда дяйишикликляр етмяк, мяктяблярин ишини тякмиллящдирмяк, бир нюв Русийанын сийасятиня там уйьунлашдырмаг, юлкянин идарячилийи цчцн йарарлы чиновникляр щазырламаг мягсяди иля тяклифляр иярли сцрцлдц.

ХЫХ ясрин орталарында Азярбайжанда йени типли мяктябляр мейдана эялди ки, бунлар да илк дяфя Гафгаз мяктябляринин 1853-жц ил Низамнамяси иля тясис едилди. Бу Низамнамяйя эюря Гафгаз тядрис даиряси ашаьыдакы 4 дирексийайа бюлцндц:

1.Тифлис дирексийасы
2.Кутаиси дирексийасы
3.Ставропол дирексийасы
4.Гара дяниз сащили дирексийасы [2,с.15].

Цмумиййятля, ХЫХ ясрин илк рцбцндян башлайараг Азярбайжанда вя о жцмлядян Нахчыванда йени типли гяза мяктябляринин ачылмасы истигамятиндя ардыжыл иш апарылмасына вя бу мяктяблярин ачылмасына бахмайараг чаризмин Азярбайжанда апардыьы маарифчилик сийасятинин мащиййятини щеч дя эениш халг кцтлясинин тяляб вя ещтийажлары дейил, йухары тябягялярин мянафейи тяшкил едирди. Йяни чаризм Азярбайжанда мяктяб тясис етмякля халгын йухары тябягясини, имтийазлы синифляри юз тяряфиня чякмяйя, онлары гуллуьа жялб етмяйя, бу йол иля милли адят-яняналярдян йайындырмаьа жящд едирди. Загафгазийа юлкяси Баш Идаря шурасынын цзвц, Загафгазийа тядрис щиссяси ряиси Семйоновун бир йазысында Русийа чаризминин Гафгазда, хцсусиля Азярбайжанда маариф ислащатынын мащиййяти там дольунлуьу иля якс олунурду:

«Щцбщя йохдур ки, йухарыда эюстярилян тядбир мцсялман бяйляринин ушагларыны мяктябя эюндярмяйя вадар едяжяк, мцсялман ушаглары рус, эцржц вя диэяр христиан ушаглары иля бирликдя 3-4 ил бир йердя олмагла рус дилини юйряняжяк вя беляликля дя юз дини фанатизмини итиряжяк вя нежя дейярляр руслашажаг: щюкумятин бу юлкяйя мцнасибятиндя башлыжа мянафе дя бундан ибарятдир» [5].

ХЫХ ясрин 30-40-жы илляриндя Азярбайжанда вя о жцмлядян Нахчыванда фяалиййятя башлайан гяза мяктябляринин тядрис просесинин мащиййяти Русийада 1861-жи ил 19 феврал тарихли «Тящкимчилик щцгугунун ляьв олунмасы щаггында» ислащатла

мцяййян гядяр дяйишди. Мялум олдуьу кими 60-жы иллярин яввялляриндян етибарян Загафгазийада, о жцмлядян Азярбайжан мяктябляриндя мцяллим кадрларынын чатышмамасы, мадди –техники базанын олмамасы тярбийя вя тядрис ишинин кейфиййятини хейли ашаьы салмыш, нятижядя бир сыра мяктябляр юз фяалиййятини дайандырмаг мяжбуриййятиндя галмышды. Буна эюря дя 1861-жи ил феврал ислащатынын ардынжа щюкумят «ижтимаи-педагоъи щярякатын эцжлц тясири нятижясиндя мяктяб тящсилинин гейри-мцкяммял системинин бцтцн сащяляриндя ислащат кечирмяйя мяжбур олду» [2,с.59]. Нятижядя 1864-жц ил ийулун 14-дя «Ибтидаи халг мяктябляри щаггында ясаснамя», щямин ил нойабрын 19-да ися «Эимназийа вя проэимназийаларын низамнамяси» тясдиг едилди.

60-жы иллярин маариф ислащатлары Загафгазийаны, еляжя дя Азярбайжаны вя Нахчываны да ящатя етмякля бир сыра тящсил ожагларыны битирмиш мцяллимлярин вя зийалыларын педагоъи фяалиййятя башламаларына зямин йаратмышды. Тарихи ганунауйьунлуг кими «60-жы иллярин маариф ислащатынын дальасы асанлыгла Нахчывана да эялиб чатмышды. Гыса вахтда Нахчыван вя Ордубад мяктябляриндя мцхтялиф тящсил ожагларыны битирмиш габагжыл мцяллимляр педагоъи фяалиййятя гядям гоймушдулар. Шаэирдлярин сайы артмыш, мяктяб китабханалары йарадылмыш, рясм, эимнастика, кянд тясяррцфаты вя сянят дярсляринин, щятта латын дили мяшьяляляринин кечирилмясиня башланылмышды» [6,с.32].

Нахчыван гяза мяктяби бцтцн Загафгазийа тящсил даирясинин диггят мяркязиндя иди. ХЫХ ясрин орталарындан етибарян Тифлис Александровск Мцяллимляр Институтунун, Кутаиси вя Иряван эимназийаларынын мязунларынын ишлямяк цчцн Нахчывана эюндярилмяси бир тяряфдян ГТД-нин Нахчыванда маарифин инкишафына диггяти кими дяйярляндирилдися дя диэяр тяряфдян бу аддым бир баша Нахчыванда маарифин дцнйяви елмляр истигамятиндя инкишафына тякан верирди. Гейд олунан тядрис мцяссисяляринин мязунларындан И.Кузанов, К.Чяркязов, Э.Балчевски, И.Боголйубов, Ж.Бодридзе вя башгалары узун мцддят Нахчыван гяза мяктябиндя рус дили, тарих, щяндяся, щесаб, щцснхят, шярият, рясмхят фянлярини тядрис етмишдиляр [4]. Ихтисаслы мцяллимлярин Нахчыван гяза мяктябиндя эярэин фяалиййятляринин нятижяси иди ки, бу мяктябин бир чох фярглянян вя ялачы мязунлары тящсиллярини давам етдирмяк цчцн мцхтялиф семинарийа вя эимназийалара эюндярилдирди.

Нахчыван гяза мяктябинин мцдири А.Серэейевя эимназийада охумаг цчцн яризя верян Исмайыл бяй Бекташинин мцражиятини нязяря алан Нахчыван гяза губернаторунун тяржцмячи катиби Мирзя Нясир бяй 1863-жц илдя Иряван губернийа халг мяктябляри директоруна эюндярдийи мяктубда йазырды:

«Нахчыван гяза мяктябиндя яла гиймятлярля охумуш Исмайыл бяй Бекташинин Тифлис классик эимназийасында дювлят хяржи щесабына охумасы цчцн лазыми кюмяк етмянизи хащиш едирям» [4].

1868-жи илдян мювжуд гяза мяктябляри иля йанашы Нахчыван гяза мяктяби дя цч ясас синифли мяктябя чеврилди. 7-14 йашлы ушагларын гябул едилдийи щямин мяктябин тядрис планына шярият, ана дилиндян оху вя йазы, рус дили, щесаб, рясмхят, няьмя, эимнастика, жоьрафийа, тарих вя тябиятшцнаслыг фянляри дахил иди.

1874-жц ил май айынын 24-дя тясдиг олунмуш Русийа ХМН-нин «Ибтидаи халг мяктябляри щаггында» низамнамясиня ясасян шящяр вя кяндлярдя ибтидаи тящсил мцяссисяляринин нисбятян эенишлянмясиня шяраит йаранды. Бунунла ялагядар диэяр бир чох мяктябляр кими Гафгаз Тифлис Даирясинин 10 март 1879-жу ил тарихли хцсуси сярянжамы [7, с.56]. иля цчсинифли тядрис мцяссисяси статусу алмыш Нахчыван гяза мяктяби дя 1879-жу илдя шящяр мяктябиня чеврилди [2, с. 74].

Нахчыван шящяр мяктябиндя маарифчи –ижтимаи мцщитин инкишаф етдрилиб эенишлянмясиндя, мцтярягги демократик идейаларын йайылмасында, тядрисин елми ясаслар цзяриндя гурулмасында 21 ийун 1879-жу илдя танынмыш алим-педагог Константин Андрейевич Никитинин (1832-1894) бу мяктябя мцяллим-инспектор тяйин олунмасынын мцщцм ролу олду. Ейни заманда К.А.Никитинин мяктябя рящбярлик етдийи дюврдя (21

ийун 1879-18 ийун 1883-жц илляр) вя ондан бир гядяр сонралар да Фйодор Домашевски, Эеорэи Утургаури, Мирзя Садыг Гулубяйов, Ялимяммяд Хялилов, С.П.Зелински, Мирзя Казым Гулубяйов вя диэяр танынмыш педагоглар [6,с.58-66]. Нахчыван шящяр мяктябиндя педагоъи фяалиййятля мяшьул олдулар. Буна эюря дя щямин мяктябин бир чох танынмыш мязунларынын Нахчыван шящяр мяктябиндя охудуглары дювр онларын «щяйат щягигятлярини дяркетмя мярщяляси [7,с.43], «Ишыглы алямя илк аддым дюврц» [8,с.69] кими сяжиййяляндирилмищдир. Бир сыра елми ядябиййатларда К.А.Никитинин Нахчыван шящяр мяктябиня рящбярлик етдийи дювр «Нахчыван шящяр мяктябинин дирчялмя вя йцксялиш мярщяляси» кими гиймятляндирилмиш вя бу тящсил ожаьынын «аз сонра танынмыш педагог М.Т.Сидгинин Нахчыван шящяриндя тясис етдийи тярбийя мяктябинин (1894) бцнювряси» [6,с.57] олдуьу гейд едилмищдир.

Нахчыван шящяр мяктябиндя мцхтялиф фянлярин тядриси просесиндя тарих вя жоьрафийайа аид верилян биликляр, Русийа, Авропа вя Гярб юлкяляриня даир мялуматлар, Шярг тарихи вя мядяниййяти, йерли дийарщцнаслыг мясяляляринин юйрянилмяси, ахлаг мясяляляриня диггят верилмяси бу тядрис ожаьынын бир тяряфдян дцнйяви мейлляриндян хябяр верирдися, диэяр тяряфдян Азярбайжанын милли тарих вя мядяниййятиня даир елми биликляр ашыланмасынын ясасыны гойурду. Ейни заманда елми-педагоъи ядябиййатларда эюстярилдийи кими: «Нахчыван шящяр мяктябиндяки юз дюврцня эюря зянэин китабхана, дийарщцнаслыг музейи, метеороложи стансийа, нябатат вя вя минероложи кабинетляри дя дцнйяви мцщитин бяргярар олмасыны шяртляндирмищ, милли дцшцнжянин ашыланмасында мцсбят тясир эюстярмищдир» [6,с.60].

1879-жу илдя Нахчыван шящяр ибтидаи мяктябинин биринжи синфиня дахил олан Азярбайжанын бюйцк йазычысы Жялил Мяммядгулузадя щямин мяктябдя охудуьу иллярин юзцнцн дцнйаэюрцшцндя мцщцм рол ойнадыьыны дяфялярля хатырлайараг щямин иллярдя «Икинжи Александрын мцжащидляр тяряфиндян Петербургда эцлляляньмяйи», «Рус вя османлы давасы» кими жидди тарихи-жоьрафи мялуматлары юйряндийини [6,с.58; 55], И.А.Крыловун мцщцм ахлаги-тярбийяви ящямиййятя малик олан «Йолчу вя ит» тямсилини язбярлядийини [9] гейд етмищдир.

Нахчыванда илк гяза мяктябиндян башлайан маарифчилик идейалары ХЫХ ясрин сяксянинжи иляриндян йени-йени мяктяблярин, тящсил ожагларынын йаранмасына, тяшяккцл тапмасына сябяб олурду. Щямин дюврдя Шярур-Дяряляйяз вя Ордубад гязаларында йени кянд мяктябляри йаранды. 1882-жи илдя Гулубяй-Дизя вя Йенэижя, 1885-жи илдя Йамхана, 1896-жы илдя Вянянд, Бянянийар, Мащмудоба, Милах, Биляв, Йайжы вя Сядяряк кяндляриндя йени мяктябляр ачылды.

Азярбайжанда вя о жцмлядян Нахчыванда халг маарифинин инкишафында ясасы 12 сентйабр 1876-жы илдя гойулан [10,с.18] Загафгазийа Мцяллимляр Семинарийасынын чох бюйцк ролу олду.

Загафгазийа Мцяллимляр Семинарийасы мязунларынын (хцсусиля Азярбайжан шюбяси мязунларынын) Иряван губернийасынын мцхтялиф гязаларында вя о жцмлядян Нахчыванда да мцяллим кими педагоъи фяалиййятя башламалары Нахчыванда халг тящсилинин вя ижтимаи фикрин инкишафына йени аб-щава эятирди, маариф тарихинин йени сящифяляри йазылмаьа башлады. Азярбайжанын диэяр йерляриндя олдуьу кими Нахчыванда да дцнйяви тящсиля мейл эцжлянди. 80-жи иллярдян башлайараг ХЫХ ясрин сонларына доьру дювлят щесабына, щямчинин земество вя кянд ижтимаиййятинин кюмяйи иля ачылан мяктяблярин сайы артмаьа башлады.

ХЫХ ясрин сонуна доьру да халг маарифи сащясиндя чаризмин мцртяже сийасят йеритмясиня бахмайараг Азярбайжанда мяктяблярин сайы артыр, елмя маарифя мейл эцжлянирди. 1869-жу илдя Бакы губернийасында 785 шаэирди олан жями 12 мяктяб олдуьу щалда ясрин сонунда, йяни 1899-жу илдя мяктяблярин сайы 138-я, шаэирдлярин сайы ися 11.316 няфяря чатмыщды [2,с.106]. Нахчыван гязасында халг мяктябляри ясасян ХЫХ ясрин 80-жи илляриндян сонра мейдана эялмяйя башлады ки, щямин мяктяблярдян

Йениэижя, Бюйцк Веди, Нещрям, Жящри, Баш Норашен, Шащтахты, Сядяряк, Вянянд, Биляв, Йайжы вя с. кянд мяктяблярини эюстярмяк олар.

Нахчыванда бу мяктяблярин ачылмасы йерли ящали тяряфиндян «бюйцк издищама чеврилир» [2,с.108] байрам ящвал-рущиййяси иля гейд олунурду.

Бу мяктяблярдян ян мяшщуру дюврцнцн мяшщур мцяллими вя педагогу кими танынмыш, Иряван губернаторунун 1892-жи иля аид щесабатында «чох йахшы маарифчи» [11,с.20] кими гиймятляндирилян, Иранын «Шащ Султан Щцсейн» мядрясясиндя тящсил алыб яряб вя фарс дилллярини мцкяммял юйрянян [12,с.5] Мящяммяд Таьы Сидгинин (1854-1904) 1892-жи илдя Ордубад шящяриндя ачдыьы «Яхтяр» («Улдуз») мяктяби иди. «Нахчыван мцщитиндя чох мцщцм щадися» [2,с.285] кими гиймятляндирилян бу мяктяб тялиминин мязмуну вя мащиййятиня эюря рущани мяктяблhouриндян тамамиля фярглянир, бурада йени тялим вя тярбийя цсуллары тятбиг едилирди. О дюврцн рясми сяндяляринин бириндя гейд олунурду ки, «ужгар гязалардан бири олан Ордубадда «Яхтяр»» адында йени бир мцсялман мяктяби ачылмышдыр. Мяктяби Мирзя Таьы адлы бир шяхс тясис етмишдир. Йерли ящали мяктябя о гядяр ряьбят бясляйир ки, онлар юз ушагларыны дини мяктяблярдян чякиндириб «Яхтяр»я гойурлар [11,с.9].

Ордубадда М.Т.Сидгинин ачдыьы «Яхтяр» мяктябинин шющряти чох гыса вахтда эениш йайылдыьындан шящяр ящалиси М.Т.Сидгини Нахчывана дявят едяряк Нахчыванда беля бир мяктяб ачмасыны хащиш едирляр. 1894-жц илдя Нахчыванда М.Т.Сидги «Яхтяр»ин мязмунуна уйьун «Мяктяби-тярбийя»ни ачыр. Йени ачылан «Тярбийя мяктяби»ня чох йцксяк гиймят верян вя щямин тядрис ожаьынын эянж мцяллим вя ядибляр цчцн дя мяктяб щесаб олундуьуну гейд едян Ж.Мяммядгулузадя йазырды: «щямин тязя тцрк мяктяби сявабы ондан ки, ня гядяр тцрк балаларынын тязя цсулла савад вя билик яхз етмяляриня сябяб олур, щямин мяктяб биз йенийетмя мцяллим вя ядибляр цчцн дя бир дарцлфцнцн щесаб олунур» [13,с.472].

«Яхтяр» кими М.Т.Сидгинин «Тярбийя мяктяби» дя тядрисин кейфиййятиня, йцксяк дярс реъиминя, тядрис олунан фянлярин мязмунунун ящатялилийиня эюря диггяти жялб етмякля, бу мяктябин йарадыжысынын ямяйи йцксяк гиймятляндирилирди. Иряван губернийасы халг мяктябляри инспектору 1898-жи илдя Эянжя вя Иряван губернийасы халг мяктябляри директоруна йаздыьы 362 №-ли рапортунда М.Т.Сидгинин фяалиййятинин мцкафатландырылмасыны тяклиф едирди:

«Ону да нязяринизя чатдырмаьы борж билдирям ки, Нахчыван шящяри мцсялман ящалисинин цмуми щюрмятини газанан Мяшяди Таьы Сяфяровун мцсялман ящалиси ичярисиндя рус тящсилинин чичяклянмясиня эюстярдийи гайьы, сяйля ишлямяси тядрис идарясинин мцкафатына лайигдир» [2,с.287].

Ейни заманда М.Т.Сидинин «Тярбийя мяктяби»ндяки фяалиййяти бир сыра маарифчи зийалылары да мяктябдарлыг ишиня щявясляндирдийиндян онлар юз йазышмаларында «Нахчыванда Сидгинин «щярякяти-арифаняси» бизи дя бурада фювгяладя сяй вя гейрятляря шювг едирди» [14] фикрини етираф едирдиляр. Бу етирафлар ися юз нювбясиндя дюврцн маарифчи зийалыларынын ямяли фяалиййяти иля нятижялянир, Азярбайжанын мцхтялиф бюлэяляриндя йени типли мяктяблярин ачылмасы зямининдя иш эедирди.

Нахчыванда халг тящсили яняняляринин тяшяккцлцндя вя эенишлянмясиндя чох бюйцк ролу олан «Мяктяби-тярбийя»нин тяшкили вя фяалиййяти о дювр мятбуатында ящатяли шякилдя тясвир олунур вя шющряти эетдикжя артырды. Беля йазылардан «Гафгаз» гязетиндя чап олунан «Гафгаз хябярляри» башлыглы мягаля даща мараглы иди:

«Бу йени типли мяктябдир. Бурада мядяни халгларын ибтидаи мяктябляриня хас олан бцтцн ади фянляр кечирилир вя бу мяктябин кющня мцсялман мяктябляри иля щеч бир цмуми охшарлыьы йохдур. Мцсялман педагогу Мяшяди Таьы Ордубадски тяряфиндян ясасы гойулмуш бу мяктяб, онун рящбярлийи алтында олуб, йерли мцсялман ижтимаиййятинин хяржи иля идаря олунур» [15].

Дияэр бир мятбуат нцмунясиндя дя ясрин сонуна гядяр бу мяктябин «Нахчыванда йеэаня ролу» [16] гейд олунмушдур.

Нахчыванда  халг тящсили яняняляринин йаранмасында гызларын мяктябя жялб олунмасы да мцщцм тарихи щадися кими диггяти жялб едирди. Нахчыванын халг тящсили тарихинин бир нюв йени мярщяляси щесаб олунан щямин просес «Гафгаз мцсялманларынын тарихиндя йени дюврцн башланьыжы» [17]  кими гиймятляндирилирди.

Цмумиййятля, ХЫХ яср гядим Нахчыван дийарынын маариф тарихиндя хцсуси мярщяля олмуш вя щямин йцзиллик ярзиндя Нахчыван маарифи  йенитипли мяктяблярин ачылмасы, инкишафы иля йадда галмыщдыр.

## ЯДЯБИЙЙАТ


1.Атакишийева  М.  Бакы Дювлят Университетинин тарихи. Бакы: Бакы Университети Няшриййаты, 1991 ( Ы щисся), 364 сящ.
2. Ящмядов  Щ.  ХЫХ яср Азярбайжан мяктяби. Бакы: Маариф,  1985, 300 сящ.
3.Мяммядов В. Жялил Мяммядгулузадя  адына Нахчыван Дювлят Мцяллимляр Институту. Бакы: Чянлибел, 2001, 220 сящ.
4. Нахчыванда илк мяктяб вя тящсилин  инкишаф йолу. «Шярг гапысы» гязети, 28 август 1998-жи ил, № 56 (16673)
5.Нахчыван МДА. ф. 224.с.5.инв.№ 173
6.Щябиббяйли И.  Жялил Мяммядгулузадя  мцщити вя мцасирляри. Бакы: Азярбайжан Дювлят Няшриййаты,  1997,  684 сящ.
7.  Я.Шяриф. «Молла Нясряддин» нежя йаранды. Бакы:  Азярняшр, 1986, 394 сящ.
8.Мирящмядов  Я. Азярбайжан Молла Нясряддини. Бакы:   Йазычы, 1980, 430 сящ.
9. «Молла Нясряддин» ъурналы, 1906, № 21
10. Ящмядов  Щ. Азярбайжан мяктяб вя педагоъи фикир тарихи. Бакы: АБУ, 2001, 320 сящ.
11.  Жяфяров Щ. Нахчыванда тящсил: инкишаф йолу вя имканлары. Бакы:  Елм вя тящсил, 2011, 344 сящ.
12. Ялийев Я.  Нахчыван МССР-ин мядяни инкишафы.  Бакы, 1958, 46 сящ.
13. Мяммядгулузадя  Ж. Ясярляри, Ы жилд, Бакы:  1951, 284  сящ.
14. «Шярги-рус»  гязети, 18 декабр 1903-жц ил
15. «Гафгаз»  гязети, 1896, № 196
16.  «Тифлисский  листок» гязети, 1898, № 114
17. «Новое обозрение» гязети, 1895, № 4115



## ABSTRACT

**Vagif Mammadov**

**Education  at Nakhchivan in the XIX century**

The article deals with the foundation of newly formed schools, interests and successes on this field in Nakhchivan. M.T . Sidqi and another patriot writers  had a great role in the history of the education  and creating new schools.



## РЕЗЮМЕ

**В.Мамедов**

**Образование в Нахчыване в XIX веке**

В статве рассматриваются вопросы об открытии в Азербайджане школ нового  типа начиная с начала XIX века, о процесса, идущем в этом направлении в Нахчыване, а также об успехах, приобретенных в этом сфере.

Исследуется деятельност в М.Т.Сидги и других просветителей-интеллигентов, в создании школ нового типа анализированы этапы истории образавания.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**

**İLQAR KƏNGƏRLİ**

*Naxçıvan Dövlət Universiteti*

**UOT: 930**

# NAXÇIVAN MAARİFİ MÜHARİBƏ DÖVRÜNDƏ (1941-1945-Cİ İLLƏR)

**Açar sözlər:** *Böyük Vətən Müharibəsi, Naxçıvan Muxtar Respublikası, maarif və təhsil*

**Keywords:** *the Great Patriotic War, the Nakhichevan Autonomous Republic, awareness and education*

**Ключевые слова:** *Великая Отечественная Война, Нахчыванская Автономная Республика, просвещение и образование*

Müharibə illəri bütün ölkədə olduğu kimi Naxçıvan MSSR-də də təhsilin bütün formalarının inkişafında çox mürəkkəb və böhranlı mərhələni təşkil edir. Məktəblərinin iş ahənginin pozulması, müəllimlərin xeyli hissəsinin orduya çağırılması, təhsilə ayrılan dövlət vəsaitlərinin azaldılması Muxtar Respublikada məktəb şəbəkəsinin səviyyəsinin də aşağı düşməsinə gətirib çıxardı. Məktəblərin müəllim kadrları, dərslik və dərs vəsaitləri, digər zəruri avadanlıqlarla təmin edilməsi ilə bağlı ciddi problemlər yarandı.

Həmin dövrdə şagird kontingenti də, ibtidai və orta məktəblərin sayı azalmışdı, və bu tendensiya bütün ölkə üçün səciyyəvi idi. İbtidai məktəblərin sayının azalması bir tərəfdən ölkədə ümumi icbari yediillik təhsilə keçidlə bağlı olmuşdusa, digər tərəfdən müharibənin doğurduğu fövqəladə vəziyyətlə əlaqədar idi. Əgər 1940-1941-ci tədris ilində Naxçıvan Muxtar Respublikası üzrə 196 ümumtəhsil məktəbində 30458 nəfər şagird təhsil alırdısa, 1941-1942-ci tədris ilində məktəblərin sayı 153-ə, şagirdlərin sayı isə 18850 nəfərə qədər azalmışdı. Bu hər şeydən əvvəl, müharibənin tələblərinə uyğun olaraq yuxarı sinif şagirdlərinin istehsala, kənd təsərrüfatına geniş cəlb edilməsi ilə əlaqədar idi (2, s.49). Naxçıvan MSSR-də maarif sistemində əsas problem kişi müəllimlərin cəbhəyə getməsi ilə onların sayının kəskin surətdə azalması idi. Müəllimlərə artan kəskin tələbatı ödəmək üçün dərslərin tədrisi qeyri-ixtisas müəllimlərinə, orta təhsillilərə həvalə edilmiş, qadın müəllimlərin sayını artırmaq üçün Naxçıvan Müəllimlər İnstitutuna, Ordubad Pedaqoji Texnikumuna tələbələrin, o cümlədən qızların sayı artırılmış, Naxçıvan şəhərində qadın pedaqoji kursları təşkil edilmişdi. Müəllimlərə olan ehtiyacı nəzərə alaraq Naxçıvan MSSR Maarif Komissarlığı pedaqoji ixtisası olmayan gəncləri, hətta yenicə orta məktəbi bitirmiş qızları tədrisə cəlb etmək haqqında qərar qəbul etməli olmuşdu. Müəllim qıtlığının digər səbəblərindən biri də müəllimlərin digər sahələrdə, idarəetmə strukturlarında məşğul olmaları idi. Bu Muxtar Respublikada ali təhsillilərin, ziyalıların əksəriyyətinin pedaqoji təhsilli olması ilə əlaqədar idi. Müəllimlərin məktəbə qayıtmasının zəruriliyini başa düşən Azərbaycan KM MK və XKS 1943-cü ilin fevralında başqa sahələrdə işləyən və ixtisasca pedaqoq olan kadrların məktəblərə qaytarılması haqqında qərar qəbul etdi (2, s.49-50)

1941-1942-ji tədris ilində Naxçıvan MSSR üzrə 28 orta, 65 yediillik, 60 ibtidai məktəbdə 18850 şagird təhsil alırdı ki, bunların da 6257 nəfərini qızlar təşkil edirdi (1, s.56). 1943-cü ildə Muxtar Respublikada 848 nəfər müəllim işləyirdi ki, onların da əksəriyyəti qadın idi. 1944-cü ildə cəbhədəki vəziyyətin SSRİ-nin xeyrinə dəyişməsi orduya çağrılmış müəllimlərin bir hissəsini tərxis etməyə imkan yaratdı. Müharibənin ehtiyacları üçün alınmış məktəb binaları geri qaytarıldı. Bu isə öz növbəsində məktəblərin sayının artmasına gətirib çıxardı. Ümumiyyətlə, müharibə dövründə 180 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi ki, onlardan 36-cı orta məktəb idi (müharibə ərəfəsində orta məktəblərin sayı 27 idi). Bundan əlavə Muxtar Respublikada 3 texnikum, Müəllimlər İnstitutu, 87 uşaq bağçası (onlardan 60-ı kolxozlarda) pioner düşərgələri, 2 dövlət teatrı, 6 kinoteatr, 101 klub müəssisəsi, 32 Qırmızı guşə və park fəaliyyət göstərirdi (4, 1945, 30 aprel).

1943-cü ildə SSRİ hökumətinin qərarı ilə bütün ölkədə olduğu kimi Muxtar Respublika məktəblərində də şagirdlərin 7 yaşdan etibarən ibtidai məktəblərin birinci sinfinə qəbuluna başlanıldı. Hökumətin 1944-cü ildə qəbul edilmiş digər qərarı ilə şagirdlərin biliyinin qiymətləndirilməsinin 5 ballıq (1,2,3,4,5) sistemi, ibtidai, yediillik və orta məktəbin buraxılış imtahanları müəyyən edildi. Orta məktəbləri əla qiymətlərlə və nümunəvi əxlaqla bitirənlərə qızıl və gümüş medallar verilməsi qaydaları təsdiq edildi.

1943/44-cü tədris ilindən SSRİ XKS-nin qərarı ilə Azərbaycanın Bakı, Gəncə, Şəki, Stepanakert şəhərləri ilə yanaşı Naxçıvan şəhərində də qızlar və oğlanlar üçün ayrıca məktəblər təşkil edildi. Lakin bu addım özünü doğrultmadı və 1954-cü ildə qız və oğlan məktəbləri yenidən birləşdirildi.

Müharibə Naxçıvan Müəllimlər İnstitutunun fəaliyyətinə də ciddi təsir göstəridi. Müharibə başlayan ilk günlərdən institutun müəllim və tələbələrin xeyli hissəsi səfərbər olunaraq cəbhəyə göndərildi. Onların əksəriyyəti öz döyüş hünərləri ilə Naxçıvan gənclərinin layiqli nümayəndələri olduqlarını sübut etdilər. Naxçıvan Müəllimlər İnstitutunun tələbələrindən və məzunlarından 3 nəfəri – Abbas Quliyev, Nəcəfqulu Rəfiyev və Qəzənfər Əkbərov göstərdikləri şücaət və qəhrəmanlığa görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, Əli Babayev, Kamil Qafarov, Həbib Rzayev, Sultan Zeynalov, Əsgər Əhmədov və başqaları igidliklərinə görə ali hərbi orden və medallarla təltif olunmuşdular.

Müəllim və tələbəlrin cəbhəyə göndərilməsi institutun təlim-tədris prosesində müəyyən çətinliklər yaratsa da, mövcud imkanların maksimum səfərbər edilməsi hesabına təhsil ocağı öz potensialını qoruyub saxlaya bilmişdi. Müharibə zamanı institutun qəbul planı ciddi kəsirlə yerinə yetirilmiş, qəbul olunanların xeyli hissəsi də müxtəlif obyektiv səbəblərdən institutu bitirə

bilməmişdi. Müharibə dövründə (1942-1945-ci illərdə) institutun əyani şöbəsini 103 nəfər bitirmiş və pedaqoji fəaliyyətə başlamışdılar (5, s.34).

İnstitutun tələbə kontingenti ilə bağlı problemləri aradan qaldırmaq məqsədilə bütün ölkə ali məktəblərində olduğu kimi Naxçıvan Müəllimlər İnstitutunda qiyabi təhsil forması genişləndirilmiş, 1943-1944-cü tədris ilində instituta 42, 1944-1945-ci tədris ilində 86, 1945-1946-cı tədris ilində 147 nəfər tələbə qəbul edilmişdi (5, s.34). Müharibə dövründə institutu 4 ixtisas üzrə 166 tələbə bitirmişdi (1, s.60). İnstitutda mövcud imkanlar səviyyəsində elmi-tədqiqat və tədris-metodiki işlər aparılır, tələbə və müəllimlər partiya və komsomol orqanlarının siyasi-maarif və təbliğat sistemində yaxından iştirak edirdilər. Obyektiv çətinliklərə baxmayaraq, institutda tədrisin keyfiyyətinin, tələbələrin dərslərin mənimsəmə səviyyəsinin artırılması onların mədəni-məişət problemlərinin həlli üçün lazımi tədbirlər görülürdü. Lakin müəllim kadrlara olan ehtiyaca baxmayaraq tələbələrin biliklərinin qiymətləndirilməsində obyektivlik və prinsiplilik göstərilir, formalizmə, diplom almaq xatrinə, keyfiyyətin kəmiyyətə qurban verilməsinə qətiyyən yol verilmirdi. Məsələn, institutun 1944-1945-ci tədris ilindəki fəaliyyətinə aid sənəddən məlum olur ki, institutdan getmiş 35 nəfər tələbədən 26-nın akademik borcu olmuş, 2 nəfər intizamsızlıq etdiyinə, 6 nəfər isə özbaşınalıq etdiyinə görə təhsil ocağından qovulmuşdu. Bütün bunlar institutun yüksək səviyyəli, vətənpərvər, əzmkar müəllimlərin sayəsində əldə edilmişdi. Müharibənin ağır şərtlərinə baxmayaraq, tələbələrin yüksək savad alması üçün bilik və bacarıqlarını əsirgəmirdilər. Naxçıvan Müəllimlər İnstitutunun 4 nəfər müəllimi (Həsən Qazıyev, Nəsir Məmmədov, Əsəd Cəfərli və Abbas Əsgərov) əməkdar müəllim adını almaları, təkcə onların özlərinin deyil, bütün institutun fəaliyyətinə verilən qiymətin təzahürü hesab edilməlidir (2, s.50-51).

Müharibə dövründə Naxçıvan Müəllimlər İnstitutunda Muxtar Respublikanın ən görkəmli və yüksək ixtisaslı müəllimləri – Murad Tutayuk, Həsən Salayev, Əsəd Cəfərli, İbrahimxəlil Axundov, Abbas Əsgərov, Həsən Qazıyev, Cəfər İmanov, Tofiq Bektaşi, Əbülfəz Həsənov, Həsən Səfərli, Müzəffər Nəsirli, Xəlil Əliyev, Əli Əliyev, Lətif Hüseynzadə tələbələrə elmin əsaslarını öyrətmişlər. İnstitutun kadr potensialının formalaşmasınada, tədris-təlim prosesinin yüksək səviyyədə təşkil olunmasında institutun direktoru işləmiş Əsgər Əhmədovun (1939-1941-ci illər), Əli Hüseynovun (1942-ci il), Nəsir Məmmədovun (1943-1944-cü illər), Cəfər İmanovun (1945-1946-cı illər), müharibədən sonra instituta rəhbərlik etmiş Həsənağa Əbdiyevin (1946-1950-ci illər), Əbülfəz Həsənovun (1951-1952-ci illər), Lətif Hüseynzadənin (1952-1953-cü illər) və Süleyman Süleymanovun böyük xidmətləri olmuşdu.

Ümumi düşmən üzərində qələbədə əhalinin bütün təbələqərinin əməyi var idi. Naxçıvan MR-nın təhsil sisteminin fəaliyyəti də qələbə üçün bütün imkanların səfərbər olunmasına yönəldilmişdi. Müharibənin ilk günlərindən Muxtar Respublika müəllimləri, şagirdləri, bütün təhsil kollektivləri yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirərək vətənpərvərlik hərəkatında yaxından iştirak etmişdilər. Muxtar Respublika məktəbliləri döyüşən orduya isti paltar və sovqat göndərilməsi, müdafiə fonduna vəsait toplanması, döyüşən ordu üçün döyüş texnikasının alınması, cəbhəçi ailələrinə, yaralı döyüşçülərə qayğı göstərilməsi və başqa işlərdə fəal iştirak edirdilər.

Məktəb kollektivləri vətənpərvərlik hərəkatının yeni forması olan müxtəlif növ metal qırıntılarının, kağız tullantılarının toplanması işində də fəal iştirak edirdilər. Bu məqsədlə iməciliklər keçirilir, şagird briqadaları min tonlarla qara və əlvan metal qırıntıları toplayıb təhvil verirdilər. Daha çox metal və kağız toplanması uğrunda rayonlarda məktəblərarası yarışlar təşkil olunurdu.

Müharibənin ilk günlərindən başlayaraq Muxtar Respublikanın sənaye müəssisələrindən, kolxoz və sovxozlardan, mədəni-maarif ocaqlarından minlərlə işçi qüvvəsi, kadr cəbhəyə səfərbərliyə alınmışdı. Ona görə də MR-da dövlət plan və tapşırıqların yerinə yetirilməsində əsas ağırlıq yeniyetmələrin, qadınların və qocaların üzərinə düşmüşdü. İstehsalatdan cəbhəyə gedənlərin yerinə əsasən yeniyetmələr və gənclər, qadınlar tuturdular. Öz atalarını, qardaşlarını cəbhəyə yola salmış oğlan və qızlar sükan arxasında, dəzgah başında, tarlalarda onları layiqincə əvəz etməyə başladılar.

Müharibənin başlanması 1941-ci ilin yayına təsadüf etdiyindən, məhsulu itkisiz yığıb təhvil vermək üçün MR-nın bütün məktəbliləri səfərbər edilmişdi. Məhsul yığımında təkcə kəndlərdə

yaşayanlar deyil, şəhər məktəbliləri də yaxından iştirak edirdilər. 1941-ci ildə kənd təsərrüfatı işlərinə Muxtar Respublikada 3.100 komsomolçu və 3.491 pioner cəlb olunmuşdu (8, 1941, 19 iyul) Kəndlərdə müxtəlif təsərrüfat işlərinin görülməsində məktəblilər kolxoz və sovxozlara yaxından kömək göstərirdilər. (1, s.47-49). Kənd təsərrüfatı maşın və mexanizmlərini idarə etmək üçün, 7-10-cu sinif şagirdləri müxtəlif kurslara və dərnəklərə cəlb olunmuşdular. Yuxarı sinif şagirdlərinin əkin və məhsul yığımına daha geniş cəlb edilməsi üçün geniş iş aparılırdı. Məhsul yığımı ilə əlaqədar dərs saatlarının miqdarı azaldılmış, 16 yaşdan yuxarı məktəblilər, müəllimlər təsərrüfat işlərinə səfərbər edilmişdilər. Ordubad rayonunun müəllim və şagirdləri yay tətili zamanı və istirahət günlərində kolxoz tarlalarında çalışaraq 1942-ci ildə 19.155 əmək günü qazanmışdılar. Müharibə illərində Naxçıvan MSSRdə 153 şagird istehsalat briqadası təşkil edilmişdi ki, onlara 5 minə yaxın şagird cəlb olunmuşdu (3, s.47-48). Təkcə 1942-ci ilin məhsul toplanışı zamanı tarlalarda 364 müəllimin rəhbərliyi altında 5219 məktəbli taxıl yığımına kömək etmişdi. Həmin il Naxçıvan rayonunun 16 məktəbində 659 şagird hər gün kolxoz zəmilərində başaq toplayırdı(1, s. 58).

Ordubad rayonunun müəllim və şagirdləri yay tətili zamanı və istirahət günlərində kolxoz tarlalarında çalışırdılar. Onlar 1942-ci ildə 19.155 əməkgünü qazanmışdılar. Həmin rayonun Dəstə kənd məktəbində 103 nəfər, Parağa məktəbində 87 nəfər, Dırnıs məktəbində 39 nəfər müəllim və şagird birlikdə 3077 əməkgünü qazanmışdılar (1, s. 58).

Müharibə başlanandan bir az sonra Naxçıvan MSSR-in müəllim və şagirdləri Abxaziya MSSR-in xalq maarifi müəssisələri ilə yarışın müqaviləsi imzaladılar. Yarışın şərtlərinə görə hər iki Muxtar Respublikanın xalq maarif kollektivləri müharibə şəraitində təlim-tərbiyə işlərini yaxşılaşdırmağı, müəllim və şagirdləri kənd təsərrüfatı işlərinə cəlb etməyi öz öhdələrinə aldılar. Müqavilənin şərtlərini yerinə yetirmək məqsədilə Noraşen rayonunun Baş Noraşen (indiki Cəlilkənd) məktəbinin şagird kollektivi müəllim Yusif Həsənovun rəhbərliyi ilə 120 hektar sahənin becərilməsinə və məhsulun yığılmasına fəal yardım göstərdi. Həmin məktəbin bu fəaliyyətindən nümunə götürən Axura kənd məktəbinin şagirdləri 46 hektar sahənin becərilməsi və biçilməsi işində iştirak etdilər. Onlar mövsüm ərzində 1310 əməkgünü qazandılar (1, s. 58). 1941-1942-ci illərdə Əbrəqunus rayonunun müəllim və şagird kollektivləri kolxozçulara fəal yardım göstərirdilər. Müəllim H. Əsgərovun və Ə.Əliyevin başçılıq etdiyi şagirdlər kənd təsərrüfatı bitkilərin alaq otlarıdan təmizlənməsi normasını 150-160 faiz yerinə yetirirdilər. Həmin rayonun Ərəzin kənd məktəbinin şagirdlərindən Mədinə Əlsgərova Züleyxa Həbibulayeva Fatma Qarayeva, Səfiyyə Məmmədova, Əliqulu Qəmbərov və b. hər biri 140-200 əməkgünü qazanmışdı. Şahbuz rayonunun mərkəzindəki orta məktəbin müəllimi M.Quliyev, Ordubad rayonu Vənənd kənd orta məktəbinin müəllimi Ə. Məmmədov, Culfa rayonu müəllimlərindən Ə. Əlizadə, Noraşen rayonu Qarabağlar kənd orta məktəbin müəllimi H.Bağırov, Çərçiboğan kənd orta məktəbin müəllimi S. Sadıqova şagird briqadalarına rəhbərlik edirlər (7, s. 20, iş.12,v. 32).

1941-1945-ci illər müharibəsi dövründə ölkənin hər yerində olduğu kimi, Naxçıvan MSSR-də təşkil edilmiş şagird briqadaları kənd təsərrüfatı məhsulları istehsalının yüksədilməsi sahısında böyük iş görürdü .

Şagird briqadalarının üzvləri iş alətlərini də özləri düzəldirdilər. Belə ki, onlar təkcə müharibənin birinci ilində 196 oraq, 67 dəryaz, 127 bel, 98 dırmıq və s. hazırlamışdılar. (7, s.20, iş.285, v.19-20).

Ümumiyyətlə, Naxçıvan MSSR zəhmətkeşlərinin, xüsusən gənclərin yaxından iştirakı və köməklikləri nəticəsində Böyük Vətən müharibəsi illərində alman-faşist işğalçılarını darmadağın etmək üçün müdafiə fonduna 180 milyon 89 min manat nəğd pul, 12 kq qızıl-gümüş, mindən çox bağlama göndərilmişdir. (6,s.6, iş.20, v.41-45).

Naxçıvan məktəbliləri cəbhəyə yardım kampaniyalarında yaxından iştirak edirdilər. Bu vətənpərvərlik hərəkatı müxtəlif formalarda həyata keçirilirdi (1, s.53-55).

Müharibə illərində Muxtar Respublikanın müəllim və şagirdləri arxa cəbhədə əsil vətənpərvərlik nümunələri göstərərək faşizm üzərində qələbənin əldə olunmasına öz töhvələrini vermişdilər. Müdafiə fonduna vəsait toplanmasında şagirdlər xüsusilə fərqlənmişdiər. Məsələn, Noraşen rayonunun Siyaqut kəndindən olan Hüseynəliyev Əmir Abbas oğlu 5000 manat,

Qarabağlar kənd orta məktəbinin 8-ci sinif şagirdi Qaraş Mədətov 10.000 manat, Düdəngə kənd orta məktəbinin şagirdi Həsən Şirəliyev 6000 manat, Dəmirçi kənd orta məktəbinin şagirdi Həsənov Əli Əhməd oğlu 2400 manat, Sərxanlı kənd orta məktəbinin şagirdi Mustafayeva Xavər İlyas qızı 25.000 manat, Naxçıvan rayonunun Qaraxanbəyli kənd orta məktəbinin şagirdi Cəfərov Rza 20.000 manat pul vermişdilər (1, s.56).

Muxtar Respublika məktəbliləri «Azərbaycanın gənc pioneri» adına döyüş təyyarəsinin heyəti üçün 120.114, «Azərbaycanın gənc pioneri» tank heyətinə isə 410.447 manat pul vermişdilər. Bu vəsait gənclərin qazandıqları əməkhaqqı hesabına ödənilmişdi (1, s.56).

Məktəbli gənclər işğaldan olunmuş ərazilərə yardım kampaniyalarında döyüşçü ailələrinə yardım yardım göstərilməsində, uşaq baxçalarına himayə edilməsində də fəallıq göstərirdilər.

Müharibənin qanunauyğunluqları Naxçıvan MR-da təhsilin, maarifin inkişafina öz təsirini göstərsə də, partiya, sovet orqanlarının həyata keçirdiyi siyasi-inzibati, təşkilati tədbirlər təhsil sisteminin, tədris müəssisələrinin fəaliyyətinin iflic vəziyyətinə düşməsinin qarşısını almış, Muxtar Respublika əhalisinin savadlılıq səviyyəsində ciddi geriyədüşmələr baş verməmişdi. Əksinə, müharibənin sonlarında hərbi vəziyyətin Sovet İttifaqının xeyrinə dəyişməsi Naxçıvan MR-da təhsilin ehtiyaclarının ödənilməsi, kadr potensialının bərpa edilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi üçün əlavə addımlar atmağa imkan vermiş, nəticədə MR-da həm müəllimlərin və şagirdlərin, həm də məktəblərin say artımında müsbət dəyişikliklər baş vermişdi.

Müharibə bütün Azərbaycan gəncliyinin, o cümlədən muxtar Respublika gənclərinin mənəvi mətnliyini təsdiq edən ciddi sınaq oldu. Müharibə gənclərimizin mübarizliyini, vətənə sədaqətini, Vətən və Xalq yolunda canlarını belə qurban verməyə hazır olduqlarını nümayiş etdirirdi.

1941-1945-ci illərdə Azərbaycan gəncliyinin döyüş və əmək rəşadəti müasir gənclərimiz üçün örnək olmaqla bərabər, həm də o zamankı təhsil sisteminin, MR-nın məktəb kollektivlərinin ləyaqətli nəsil yetişdirmək bacarığını və təcrübəsini bir daha sübut etmiş oldu

## ƏDƏBİYYAT


1. Cəfərov H. Azərbaycan gənclər hərəkatı yeni inkişaf mərhələsində, Bakı, Nurlan, 2007
2. Cəfərov H. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları, Bakı, Elm və təhsil, 2011
3. Cəfərov H., Hüseynov A., Hacıyev İ. Bilsin ana torpaq, Bakı, Bilik, 1991
4. "Kommunist" qəzeti
5. Məmmədov V. Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan, Əcəmi, 2004
6. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi (NMRDA), fond 2
7. NMRDA, fond 13
8. "Şərq qapısı" qəzeti


## ABSTRACT


**Ilgar Kengerli**


**Education of the Nakhchivan during the war (1941-1945)**


On the basis of literature reviews the status of public education of the Nakhchivan Autonomous Republic during the war of 1941-1945. Highlights the measures taken to alleviate the negative effects of war on education. Briefly analyzes the contribution of Pedagogical team to the victory.


Reyci İsmail zeynalov

## РЕЗЮМЕ


**Ильгар Кенгерли**


**ПРОСВЕЩЕНИЕ НАХЧЫВАНА В ПЕРИОД ВОЙНЫ (1941-1945 ГГ.)**


В статье на основе имеюшейся литературы рассматривается состояние народного просвещения Нахчыванской Автономной Республики в период войны 1941-1945 годов. Освещаются меры, предпринятые для облегчения негативных воздействий войны на образование. Вкратце анализируется вклад педогогического коллектива в общую победу.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**

**MƏMMƏD ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*E-mail: mamed@mail.ru*

**UOT: 572.9**

## MUZEYLƏR MƏNƏVİ SƏRVƏTİMİZDİR

**Açar sözlər:** *Muzey, fond, ekspozisiya, aksponat, kolleksiya, sərvət.*
**Key words:** *Museum, fund, exposition, exhibits, collection, wealth.*
**Ключсвые слова:** *Музеим, фонды, экспозиции, экспанаты, коллекции , богатства.*

Muzeylər sənədli, maddi təsviri, incəsənət dəyərlərində ifadə olunan bəşəriyyət tarixi haqqında çox böyük sayda informasiyanı qoruyub saxlayır. Unikal fondlar, kolleksiyalar, nadir nəşrlər haqqında məlumatlar muzey işçiləri tərəfindən böyük qayğı ilə nəsildən-nəslə ötürülür və muzey sənədlərində toplanır. Bu gün bu qiymətsiz informasiyanı qoruyub saxlamaq, onun açıqlığını və istifadə rahatlığını təmin etmək lazım olan vacib məsələlərdən biridir.

Ən qədim dövrlərdən başlayaraq təşəkkül, təkamül və inkişaf yolu keçmiş, zaman-zaman insanların bu və ya digər tələbatını ödəmək məqsədilə yaradılmış bu nümunələr sonralar mədəniyyət sərvəti, muzey əşyası, muzey eksponatı adlarını almışdır.

Əldə edilmiş bu nadir tapıntıların, milli sərvətlərin müəyyən qismi muzeylərimizdə mühafizə olunub uğurla nümayiş etdirilsə də, digər bir qismi bu gundə də Londonun Viktoriya və Albert, Nyu-Yorkun Metropoliten, Almaniyanın Berlin və Drezden, Sankt-Peterburqun "Ermitaj" Moskvanın Tarix və Şərq xalqları sənəti muzeylərini, silah palatasını, Parisin Luvr muzeyini, İstanbulun Topqapı sarayını və dünyanın digər muzeylərini bəzəyir. İnsan övladı yarandığı gündən öz keçmişini dərk etməyə, onu qiymətləndirməyə çalışmışdır. Tarix boyu baş vermiş sosial-siyasi hadisələrə münasibətimizin formalaşdırılmasında muzeylərimizin rolu əvəzsizdir.

Hər bir yüz illik ictimai quruluşun xüsusiyyətlərinə uyğun olaraq, tarixdə öz izini qoymuşdur. Bir-birindən fərqlənən və elmi əhəmiyyətə malik olan mənəvi və maddi sərvətlər yaratmışdır.

Bəşəriyyətin tərəqqisi prosesində yaranmış maddi və mənəvi sərvətlərin öyrənilməsi əsasında ayrı-ayrı xalqların tarixi və mədəniyyəti dəqiqləşdirilmiş maddi və mənəvi sərvətlərin qorunması, onların öyrənilməsinin ilkin şərtləri yaranmışdır. Belə bir işin öyrənilməsi və tədqiqi isə muzeylərin üzərinə düşür.

Muzeylər mədəniyyət müəssisəsi və elmi mərkəzlər kimi ən dəyərli tarixi məlumatları böyük məsuliyyətlə qoruyub saxlayır. Tarixin keşiyində duran muzeylər elmin beşiyidir.

Dövr dəyişildikcə elmə münasibət də dəyişlir. Lakin elm çox qüvvətlidir. Onun cazibə qüvvəsi bütün sahələri özünə tabe edir. Təsadüfi deyil ki, muzeylər də elmi mərkəzlərə çevrilərək öz varlığının vacibliyini ictimaiyyətə sübut etdi. "Dünyanı gözəllik xilas edəcək" kimi tanınmış fikir muzeylərə də şamil edilə bilər. Çünki muzey latınca "muzeum" sözündən olub incəsənətin bütün komponentlərini özündə əks edən, muzalara həsr olunmuş yer, muzalar məbədi deməkdir.

Son illərdə müxtəlif profilli muzeylərin yaranması eksponatların daha dərindən öyrənilməsinə imkan yaratmışdır.

Azərbaycanda Sovet hakimmiyyəti qurulana qədər xalqımızın zəngin mədəni irsinin nümunələri Qafqaz canişininin Tiflisdəki muzeyində toplanırdı. Çox hallarda heç bir əsası olmadan "İran" və "Türkiyə" mədəniyyəti nümunələri kimi qələmə verilirdi. Azərbaycanda müasir tipli muzeylər XIX əsrin sonu, XX əsrin əvvəllərində meydana gəlsə də, onun sələfi olan kolleksiyaçılıq ənənələrinin tarixi çox qədimdir.

Atabəylər və Səfəvilər dövründə hökmdar saraylarında, məbəd və kilsələrdə qiymətli əşyaların, nadir sənət əsərlərinin, dünyəvi və dini məzmunlu zəngin kitabların, əlyazmaların qorunub saxlandığı məlumdur. Həmin dövrdə qiymətli əşyalar, əsasən xəzinələrdə və saray kitabxanalarında qorunub saxlanırdı. Saray kitabxanası sadəcə kitabxana olmayıb, həm də böyük elm və incəsənət mərkəzi, təhsil ocağı, muzey əşyalarının qorunduğu böyük bir dövlət müəssisəsi rolunu oynayırdı.

Ümumiyyətlə, müasir dövrümüzdə də bəzi kitabxanaların muzey profilinə və zəngin kolleksiya fonduna malik olması ənənəsi heç də az yayılmamışdır. Nyu-Yorkdakı Morqan kitabxanası, Sank-Peterburqdakı M.Y.Saltıkov-Şedrin adına kitabxana zəngin muzey eksponatlarına malik olmaları ilə bütün dünyada şöhrət qazanmışlar. Bu siyahıya qiymətli sənət incilərinin çoxluğu ilə seçilən Paris milli kitabxanasını da əlavə etmək olar. Müasir dövrdə bir çox Azərbaycan kitabxanalarında da mahiyyətcə qiymətli muzey eksponatlarından geri qalmayan nadir kitab fondları, əlyazmalar, albomlar və rəsmlər mövcuddur.

Azərbaycanda muzeylərə dövlət qayğısı ümumimilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra baş verdi. İstər Azərbaycana rəhbərlik etdiyi birinci, istərsə də xalqın qətiyyətli tələbi ilə hakimiyyətə gəldiyi ikinci mərhələdə Azərbaycanda muzeylər sözün əsl mənasında öz qayğıkeş hamisini taparaq qol-qanad açıb inkişaf etmişdir. Bu dövrə qədər muzeylərin sayı 20-dən artıq olduğu halda70-ci illərdən sonra 200-dən artıq oldu. Onların maddi-texniki bazası gücləndirildi. Muzeylərə çoxlu sayda yeni-yeni eksponatlar daxil oldu, binaları yenidən quruldu və yeni muzeylər yaradılmağa başlandı.

Bu mərhələdə müstəqil dövlətin ali təhsilli arxivşünas və muzeyşünaslara ehtiyacı var idi. Belə ki, respublikada müxtəlif profilli 200-dən çox muzey üçün muzeyşünaslıq sahəsində ali ixtisas təhsilli kadrlara ehtiyacının ödənilməsi bu gün çox vacibdir.

Son zamanlar ümumiyyətlə, bütün sahələrdə olduğu kimi Azərbaycan elminin, mədəniyyətinin və incəsənətinin inkişafına göstərilən qayğı getdikcə öz bəhrəsini verməkdədir. Zəngin mədəni irsimizin, milli-mənəvi dəyərlərimizin qorunmasında böyük xidmətlər göstərmiş ümummilli lider H.Əliyevin 2000-ci ilin martında imzaladığı "Muzeylər haqqında qanun"a görə muzey fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipi kimi "milli sərvətlərin saxlandığı muzeylərin və muzey fondlarının mühafizəsinə dövlət qayğısı, onların ilk növbədə maliyyələşdirilməsi" məsələsi dövlət vəzifələri də müəyyənləşdirildi. Muzeylərin saxlanılmasına, inkişafına maddi-texniki bazasının möhkəmləndirilməsinə, muzey kadrlarının hazırlanmasına doğru yönəldilmiş həmin vəzifələrin yerinə yetirilməsi, sözsüz ki, xalqın maddi mənəvi sərvətlərinin, milli irsinin toplayıcısı, qoruyucusu və ötrücüsü olan muzeylərin fəaliyyətində həlledici rol oynamışdır.

Müasir dövrdə muzeylərimizin hərtərəfli inkişaf etdirilməsini təmin etmək üçün Azərbaycan Respublikası Prezidentinin 6 mart 2007-ci il tarixi sərəncamı dövlətimizin muzey və muzeyşünaslıq elminin inkişafına olan qayğısının parlaq ifadəsidir.

Heydər Əliyevin təşəbbüsü və əməli fəaliyyəti ilə Azərbaycanda muzey və muzeyşünaslıq elminin inkişafı, müxtəlif profilli muzeylərin yaradılması, muzeylərimizdə aparılan yenidənqurma və bərpa işləri müasir texnologiyaların tətbiqi kimi tədbirlər zamanın tələbinə çevrilmişdir.

Yeni dövrdə ölkəmizdə muzeyçilik ənənələrinin bərpa edilməsi təşəbbüsləri də qədim Naxçıvan diyarının adı ilə bağlıdır. Görkəmli yazıçı və publisist Cəlil Məmmədquluzadə hələ XIX əsrin sonlarında Naxçıvandakı Nehrəm kəndində diyarşünaslıq muzeyi yaratmaq qərarına gəlmişdi. Çar üsuli-idarəsi şəraitində dövlət orqanlarından heç bir əməli yardım ala bilməyən ədib kəndlilərin, təəssübkeş Naxçıvan ziyalılarının, müəllimlərin və şagirdlərin köməyi ilə həmin ilk muzeyi özü təşkil etmişdi.

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Heydər Əliyev siyasi məktəbinin layiqli davamçılarından biri olan çox hörmətli Vasif Talıbovun muzeylərə olan diqqəti və qayğısı nəticəsində Naxçıvanda dövlət qeydiyyatında 27 muzeylər fəaliyyət göstərir. Muxtar respublikada 20-dən artıq ictimai əsaslarla yaradılmış muzey fəaliyyət göstərir ki, bunların fəaliyyəti müasir dövrün tələblərinə tam mənada cavab verir.

Muzeylər yenidən qurulmuş, onların maddi texniki bazası möhkəmləndirilmişdir.

Bunlardan 10 may 1999-cu ildən fəaliyyət göstərən, ümumimilli liderin adını daşıyan Heydər Əliyev muzeyi, 1998-ci ilin aprelində təşkil olunmuş Naxçıvan Dövlət xalça muzeyi, 2000-ci ildə yaradılmış Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş naxçıvanlıların xatirəsini əbədiləşdirə xatirə muzeyini, 2002-ci ildə Naxçıvan şəhərindəki "Əcəmi" seyrangahında təşkil olunmuş Açıq Səma Altında muzeyi, 2014-cü ildə açılmış Muzey qala kompleksini, 2014-cü ildə Bayraq meydanında yaradılmış Bayraq muzeyi və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın şanlı tarixini özündə yaşadan muzeylərin adını çəkmək olar. Bu günlərdə Şahbuz rayonunun Nurs kəndində açılan Məmməd Arazın ev muzeyi buna əyani misaldır.

Muzeylərimizin yeni həyata qədəm qoyması, onların zənginləşməsi gənc nəslin bu yurdun tarixinin və mədəniyyətinini öyrənməsi baxımından böyük məsuliyyət kəsb etməklə yanaşı onların dünyagörüşünün zənginləşməsində də əhəmiyyətli rol oynayır.

## ƏDƏBİYYAT


1. Rauf Məmmədov "Naxçıvan şəhərinin tarixi oçerki" , Bakı, Elm, 1977. 60s.
2. Nizami Rəhimov "Naxçıvan Muxtar Respublika Dövlət Tarix Muzeyi" (Məlumat-bələdçi) Naxçıvan-2002. 54s.
3. Pirquliyeva Q. "Numizmatikanın əsasları". Bakı Nafta-Press, 2009. 168 s.
4. Azərbaycan Respublikası muzey sərvətlərinin və muzey kolleksiyasının uçotu və mühafizəsinə dair təlimat. Bakı: 2008. 220s.

5. Elfira Qurbanova, Apdin Əlizadə. "Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası". Bakı- "Təkfur"-2011. 271 s.
6. Sabir Əmirxanov "Muzeyşünaslıq". Tədris-metodiki vəsait. Bakı-2012. 111s.

**ABSTRACT**

**Mamed Aliyev**

**Museums are spiritual wealth**

The role of museums in the Azerbaijan history. The article deals with the importance of the museums on training the young generation. It also describes the attention and care of the government upon the museums.

**РЕЗЮМЕ**

**Мамед Алийев**

**Музеим наше духовное богатство**

В статье показана роль музеев в истрии. Азербайджана, значение музеев в воспитании молодого поколения и пристальное внимание государства развитию музеев.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**

**KAMAL MAHMUDOV**
*Lənkəran Dövlət Universiteti*
*kamal-1965@mail.ru*

**UOT: 94(479.24)**

## 50-Cİ İLLƏRİN ORTALARINDA AZƏRBAYCAN SSR-DƏ SİYASİ VƏZİYYƏT VƏ SİYASİ SİSTEMİ TƏKMİLLƏŞDİRMƏK CƏHDLƏRİ

**Açar sözlər:** *siyasi vəziyyət, siyasi sistem, islahat.*
**Key words:** *The political situation, the political system, the reform.*
**Ключевые слова**: *Политическая ситуация, политическая система , реформа .*

XX əsrin 50-ci illəri keçmiş SSRİ-nin bütün respublikalarında olduğu kimi Azərbaycanın da tarixində mürəkkəb ziddiyyətlər və çətinliklərlə xarakterizə olunan dövrüdür. Təkpartiyalı siyasi sistemin, Kommunist partiyasının dövlət, hakimiyyət orqanları, sovetlər, məhkəmə, ictimai

təşkilatlar, o cümlədən həmkarlar ittifaqları və komsomol üzərində amiranə rəhbərliyi və təzyiqi cəmiyyətin yaradıcı qüvvələrini xeyli dərəcədə buxovlayır, öz məqsədlərinə uyğun istiqamətləndirirdi. Mənəvi haçalanma, sözlə iş arasında uyğunsuzluq artırdı.

Kommunistlərin sözdə "humanist, qayğıkeş" milli siyasət kursu tam hakim millətçilik mahiyyəti daşıyırdı. Assimilyasiyaya nəzarət etməklə, məqsədyönlü miqrasiya prosesi ilə milli respublikalarda etnik tərkibi dəyişdirmək, məcburi vahid ünsiyyət vasitəsinin bərqərar olmasını təmin etmək, lazım gələn anda qarşıdurma törədə biləcək bütün münaqişə ocaqlarını, vasitələrini qoruyub saxlamaqla həyata keçirilirdi [6, 74].

Stalin dövründəki nöqsanların, qüsurların böyük bir hissəsi Stalinin şəxsiyyətinə pərəstişdən irəli gəlmiş və bir qismi də Beriyanın himayəçiliyi ilə Azərbaycanda rəhbər partiya və dövlət vəzifələrinə soxulmuş ermənilərin fəaliyyəti ilə bağlı olmuşdur. Bu dövrdə 75 mindən çox (29 min nəfəri ziyalı olmuş) Azərbaycan vətəndaşı – görkəmli partiya və dövlət işçiləri, elm və mədəniyyət xadimləri, qabaqcıl mütəxəssislər həbs olunub, sonra da məhv edilmişlər [7, 9] . Bu dövrdə Azərbaycanda baş vermiş repressiyalar 1934-1953-cü illərdə Azərbaycana rəhbərlikdə birinci şəxs olmuş M.C. Bağırovun adı ilə bağlansa da, repressiyalar bilavasitə mərkəzin göstərişi ilə həyata keçirilirdi. SSRİ-yə daxil olan heç bir müttəfiq respublika bu qeyri-qanuni və faciəli prosesdən kənarda qala bilmədi.

1953-cü il mart ayının 5-də otuz ildən artıq sovet dövlətinə rəhbərlik etmiş Stalinin vəfatı ilə bütöv dövr başa çatdı. [4, 280] Stalinin rəhbərliyi dövründə formalaşmış totalitar rejim şəraitində bütün hakimiyyət bir qrup partiya-dövlət xadiminin əlində cəmlənmiş, geniş xalq kütlələri ölkənin idarə olunması prosesindən kənarlaşdırılmışdı. Buna görə də 1953-cü ildən sonra ölkənin hansı yolla getməsi rəhbər vəzifələrdə olan nüfuzlu şəxslərin mövqeyindən asılı idi.

1953-cü ilin iyun ayında hakimiyyət uğrunda mübarizədə partiya aparatına rəhbərlik edən N.S. Xruşşovun səyi ilə L.P. Beriya həbs edildi. Dövlət orqanları, partiya aparatı vəzifəpərəstlik, millətçilik və xarici kəşfiyyatla əlaqədə təqsirləndirilən Beriyanın tərəfdarlarından təmizləndi.

Stalindən sonrakı dövrün əsas xüsusiyyətlərinin formalaşmasında Nikita Xruşşov aparıcı rol oynadı. Diktatorun ölümü ilə bağlı olan, qısa keçid dövründən sonra ölkədə başlanan islahatlar və eksperimentlər böyük dəyişikliklərə səbəb oldu [10, 202].

N.S. Xruşşov Stalinin şəxsiyyətinə pərəstişi məhv etməklə, populyar tədbirlərlə, islahatlarla partiyada və cəmiyyətdə nüfuz qazanmağa çalışırdı. İctimai tərəqqiyə əngəl olan köhnə siyasi sistemin, bürokratiyanın ifrat cəhətlərini, partiya-təsərrüfat fəallarına qarşı repressiyanı, cəmiyyətdəki vahiməni aradan qaldırmağa cəhdlər göstərildi. Mövcud siyasi sistemin bütün qüsurları yalnız Stalinin şəxsiyyətinə pərəstişin, partiya həyatında "Lenin normalarının" pozulmasının nəticəsi kimi qələmə verilirdi.

Sov. İKP-nin XX qurultayında "sosialist demokratiyasını genişləndirməklə" sistemi, kollektiv rəhbərliyi, partiyadaxili demokratiyanı, xalqla əlaqəni genişləndirməklə partiyanı daha da möhkəmləndirmək kimi qeyri-real tədbirlər müəyyən olundu. Partiyanın Mərkəzi Komitəsi "Şəxsiyyətə pərəstiş və onun nəticələrini aradan qaldırmaq haqqında" (1956-cı il, 30 iyun) qərar qəbul etdi. Stalinizm, şəxsiyyətə pərəstiş tənqid olundu, onun təzahürləri göstərildi, lakin bu hadisəni törədən səbəblər mövcud rejim üçün əlverişli olmadığından açıqlanmadı.

Юзцнцмящдудлащдырмадан данышаркян, она мцяййян юлчц дахилиндя ямял едилмяси хцсуси гейд олунмалыдыр. Инсан юз азадлыгларыны мящдудлащдырмада ифрата вармамалы, ону мцяййян чярчивя дахилиндя щяйата кечирмялидир. Якс щалда, беля бир йанлыш тясяввцр йарана биляр ки, фярд фасилясиз олараг юз азадлыгларыны гурбан веря–веря эетмялидир, бу онун мяняви йеткинлийинин ифадясидир. Яслиндя юзцнцмящдудлашдырманын щцдудлары позулмамалыдыр. Башга сюзля дейился, сямиййятдя сосиал нормалар мясмусу иля инсанын азад истякляри арасында уйьунсузлуг йарандыгда, бунун щеч дя щямишя икинси тяряфин эцзяштя эетмяси йолу иля щялл олунмасына имкан верилмямялидир.

Беляликля, тящлил сцбут едир ки, мцасир дюврдя сямиййят щяйатында баш верян ясаслы дяйишикликляр-демократикляшмя, милли дювлятчилийин мющкямляндирилмяси, щцгуги дювлят гурусулуьу, ящалинин фяаллыг вя шцурлулуг сявиййясинин йцксялмяси просесиндя азадлыгларын мигйасынын эенишляндийи шяраитдя фярдин мцяййян щалларда юзцнцмящдудлащдырмасы сон дяряся зярури олур. Яслиндя бу шяхсиййятин ягидясини, дахили ирадясини вя мяняви йеткинлик дярясясини эюстярир.

Бу мянада З.Щаъыйев щаглы олараг гейд едир ки, «мцряккяб сосиал системлярдя азадлыг иля юзцнцмящдудлащдырманын сых вящдяти зяруридир. Бу юз–юзцнц тянзиметмя вя инкишаф йолу иля ирялиляйян сямиййятин йени структур–функсионал сявиййяйя йцксялмясиндя чох мцщцм ящямиййятя маликдир» (9, с. 176).

Сямиййятдя азадлыьын мигйасы эенишляндикся вя реаллашма васитяляри чохалдыгса, юзцнцмящдудлащдырмайа олан тялябат няинки азалмыр, яксиня даща да артыр. Бу онунла изащ едилир ки, щазырда баш верян мцщцм йениликляр фонунда инсанын дахили дцнйасы вя мяняви йеткинлийи иля баьлы мясялялям даща бюйцк ящямиййят кясб едир. Сосиал ирялиляйишлярин ящатя даиряси вя дяринлийи артдыгса, шяхсиййятин юз азадлыьынын нисбилийини дярк етмяси эцслянир, бу ися ону йцксяк мяняви дяйярляр ясасында фяалиййят эюстярмяйя, мцяййян щалларда егоистик мейллярдян чякинмяйя вя юзцнцмящдудлащдырмаьа сювг едир.

Мцасир сямиййятдя щяйата кечирилмякдя олан щяртяряфли вя ардыъыл демократикляшмя хятти, азадлыьын мязмуну вя кейфиййятиндя принсипся йени тяряфляр,

сяцятляр вя чаларлар йаратмагла мящдудлашмыр. Бунунла йанашы азадлыг иля диэяр цмумбяшяри дяйярляр арасында йени типли ялагя вя мцнасибятляр гярарлашыр ки, нювбяти фясилдя щямин мясяля арашдырылыр.

## ƏDƏBİYYAT


1.Барбур И. Этика в век технологии. М.: Библейско-богославский институт, 2001, 518 с.
2.Гурина М. Философия. М.: Республика, 1998, 540 с.
3.Мехтиев Р.Э. Азербайджан: вызовы глобализации. Баку: Азернешр, 2004, 511 с.
4.Поппер К. Открытое общество и его враги. В 2 т. Т.2 М.: Феникс, 1992, 528 с.
5.Скворцов Л.В. Культура самосознания: Человек в поисках истины своего бытия. М.: Политиздат, 1989, 358 с.
6.Фолконар Т. Творческий интеллект и самоосвобождение: Корзыбское, неаристотелевское и Восточное сознание. М.: «КСП+», 2003, 286 с.
7.Фромм Э. Бегство от свободы. М.: Прогресс, 1990, 272 с.
8.Хялилов С. Шярг вя Гярб: цмумбяшяри идеала доьру. Фялсяфи етцдляр. Бакы: Азярбайъан Университети, 2004, 624 с.
9.Щаъыйев З. Азадлыг вя юзцнцмящдудлашдырма / Азярбайъан Халг Ъумщуриййятинин 80 иллийиня щяср олунмуш Елми конфрансын материаллары. 29 май 1998. Бакы: Бакы университети няшриййаты, 1998, с. 175-176.


## ABSTRACT


**Qarib Allahverdiyev**

**About the necessity of restriction of freedom in a certain degree in society**

In the article, there is analyzed the necessity of restriction of freedom in a certain degree within society. There is explained the opinion about the self-destruction of unrestricted freedom, regulation of restriction by the way of the prohibitions set in the community by legal institutions and social norms, and also by the way of self-restraint. It is explained the positive role of moral values in self-restraint. There is revealed advantages created by self-restraint in dealing with its inner nature with freedom.

Significant changes in social life in the modern period - the democratization and strengthening of national statehood, formation of lawful state, prove the urgency in the process of increasing the activity of the population and the level of consciousness in the conditions of expansion of the scope of freedom in certain cases of self-restraint of the individual. It is shown that with expanding the scope of freedom in society and with increasing the methods of realization, the need for self-restraint does not decrease but, on the contrary, increases even more.


## РЕЗЮМЕ


**Гариб Аллахвердиев**

**О необходимости ограничения в определенной степени свободы в обществе**

В статье анализируется необходимость ограничения в определенной степени свободы в рамках общества. Разъясняются мнение о самоуничтожении неограниченной свободы, регулирование ограничения путем запретов, поставленных в обществе правовыми институтами и социальными нормами и путем самоограничения, положительная роль моральных ценностей в самоограничении. Раскрывается преимущества, созданные самоограничениями в отношениях с его внутренней сущностью со свободой.

Существенные изменения, произошедшие в общественной жизни в современный период – демократизация, укрепление национальной государственности, строение правового государства, доказывают крайнюю необходимость в процессе повышения активности населения и уровня сознания в условиях расширения масштаба свободы в определенных случаях самоограничения индивида. Показывается, что с расширением масштаба свободы в обществе и с увеличением способов реализации потребность в самоограничении не уменьшается, а наоборот еще больше увеличивается.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**

**YUSİF HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 18**

# "MOLLA NƏSRƏDDİN" MƏKTƏBİNİN ESTETİKASI

*Mollanəsrəddinçilik geniş məfhum olduğu*
*kimi, mollanəsrəddinçilərin də sayı və gizli*
*imzaları çox, fəaliyyət dairəsi xeyli genişdir*
*Professor Firidun Hüseynov*

**Açar sözlər:** *"Molla Nəsrəddin", Mirzə Cəlil, fəlsəfə, estetik görüşlər, demokratik*
**Key words:** *"Molla Nasraddin", Mirza Jalil, philosophy, aesthetic views, democratic*
**Ключевые слова:** *«Молла Насраддин», Мирза Джалил, философия, эстетические воззрения, демократический*

"Molla Nəsrəddin" məktəbinin, ümumiyyətlə, onun nümayəndələrinin, o cümlədən eyni adlı jurnalın banisi və naşiri, görkəmli yazıçı və publisist Cəlil Məmmədquluzadənin ədəbi-tənqidi görüşlərindən bu və ya digər dərəcədə xüsusi olaraq bəhs edilsə də (1), bütövlükdə estetikası ayrıca

araşdırılmamışdır.

Azərbaycan MEA-nın müxbir üzvü Əziz Mirəhmədov yazırdı: "Mollanəsrəddinçilik, ilk növbədə çarizmə, yerli istismarçılara, imperializmə qarşı çevrilmiş inqilabi-demokratizm ideologiyası deməkdir…

Mollanəsrəddinçilik ədəbiyyatda realizm və satira, dildə xəlqilik və təmizlik, mətbuatda demokratizm və mübarizə... yolunu tutmuşdu" (2, 256).

"Molla Nəsrəddin" yarandığı gündən son nömrələrinədək XX əsr realist Azərbaycan ədəbiyyatının bayraqdarı kimi həqiqi sənət və ədəbiyyat uğrunda inadla mübarizə apararaq realizmin ön sıralarında olmuşdur.

Öz dövrünün ədəbi güzgüsü olan "Molla Nəsrəddin" jurnalı və onun görkəmli, realist qələm ustaları şeirə, sənətə və ədəbiyyata eyni meyarla, yüksək tələbkarlıqla yanaşır, ədəbiyyatın ideyalılığı, xəlqiliyi və müasirliyi uğrunda dönmədən mübarizə aparırdılar. Bu sahədə onların qələm döyüşü vasitələri xeyli zəngin, rəngarəng idi. Mollanəsrəddinçilərin yazıb çap etdirdikləri əsərlər – elandan, poçt xəbərindən tutmuş, satirik şeir, felyeton, hekayə və iri həcmli nəsr əsərlərinə qədər hamısı yeni, realist sənət nümunələri idi. Bu əsərlər xalqın dolanışığını əks etdirir, gözünü açmağa, tərəqqisinə təkan verməyə xidmət edirdi.

Ədəbiyyatı xalqa yaxınlaşdırmaq, onu xalq məişətinin, xalq azadlıq hərəkatının mübariz carçısına çevirmək mollanəsrəddinçilərin başlıca qayəsi idi. Onlar əməli surətdə, öz orijinal əsərləri ilə realist ədəbiyyat uğrunda mübarizə aparırdılar. Həm də ayrı-ayrı əsərlərində bilavasitə sənət və ədəbiyyat məsələlərinə də toxunur, ideya – bədii cəhətdən dövrün tələblərinə cavab verə bilməyən əsərləri, onların müəlliflərini kəskin tənqid edirdilər. Bu sahədə "Molla Nəsrəddin" jurnalının xidməti müstəsna cəhətdən böyükdür.

Böyük realist M.F.Axundovun ənənələrini davam etdirən "Molla Nəsrəddin" məktəbimin estetikasına istinadən demək olar ki, ictimai məzmunu və forma gözəlliyi olmayan şeir kimsəyə lazım deyil; sənət əsərinin mayasında xalqın dərdinə qalmaq, onun sevincini, kədərini, istək və arzularını əks etdirmək idealı olmalıdır.

Akademik Məmməd Cəfər Cəfərov göstərirdi ki, C.Məmmədquluzadə sadəcə bir neçə əsər qoyub gedən yazıçılardan deyildir. O, cəmiyyət haqqında, vətən haqqında hərtərəfli düşünən, varlığı çox əhatəli bir baxışla dərk edən yazıçılardan olmuşdur. M.C.Cəfərov ədibin yaradıcılığının universal xarakterə malik olduğunu dilə gətirərək, onun əsərlərinin müxtəlif elm adamları üçün maraq kəsb etdiyini vurğulamışdır: "Elə buna görədir ki, onun yaradıcılığı, əsərləri, siyasi-ictimai, mədəni fəaliyyəti yalnız ədəbiyyatşünasların deyil, filosofların, tarixçilərin, hüquqşünasların, sosioloqların, iqtisadçıların, pedaqoqların, psixoloqların, estetiklərin, dilçilərin də diqqətini cəlb etmişdir" (3, 177).

Son 20-25 ildə Cəlil Məmmədquluzadə və "Molla Nəsrəddin" haqqında filoloji əsərlərlə yanaşı, onların fəlsəfi, siyasi-iqtisadi, sosioloji, etik, ədəbi-nəzəri, pedoqoji görüşlərinə, dövlət – hüquq nəzəriyyəsinə aid tədqiqat əsərləri də nəşr edilmişdir. Bunlar göstərir ki, "Molla Nəsrəddin"in, Mirzə Cəlilin yaradıcılığı, fəaliyyəti çox zəngin, hərtərəfli, universal olmuşdur.

Mirzə Cəlil yumorunun fəlsəfi mahiyyət kəsb etdiyini, onun mənaca yüksəldiyini xüsusi qeyd edən tanınmış tənqidçi, nəzəriyyəçi alim, Azərbaycan MEA-nın müxbir üzvü Yaşar Qarayev bu haqda düşüncələrini belə şərh etmişdir: "Satira və yumor hələ heç zaman bizdə bu qədər fəlsəfiləşməmiş və mənaca bu qədər yüklənməmişdi... Qoca Molla Nəsrəddin hələ heç bir zaman bu qədər həqiqət və məna təbəssümü ilə, ən fəci, ən fəlsəfi gülüşlə gülməmişdi…" (4, 265).

Jurnalda deyilirdi ki, "əgər camaatın bəsirət gözü açılmasa, heç bir şey fayda bağışlamaz. Nə hürriyyət, nə məşrutiyyət, nə cumhuriyyət"... Böyük məqsədlərə çatmaq üçün hər şeydən əvvəl "təzə yaşayış yaratmaq lazımdır. Köhnəyə qələm çəkmək lazımdır, yəni müxtəsər, məişətimizin hər bir sahəsində inqilab törətmək lazımdır". Buradan göründüyü kimi, C.Məmmədquluzadənin cəmiyyətin nöqsanlarına qarşı amansız olması belə bir yüksək və müsbət estetik ideal ilə əlaqədar idi! (3, 181).

Professor Mir Cəlal Paşayev C.Məmmədquluzadənin nəzəri-estetik, ədəbi-tənqidi görüşlərinin ideya istiqamətindən bəhs edərək yazmışdır: "Ədəbiyyat və sənət haqqında danışanda ədib öz demokratik fikirlərini təbliğ edirdi. O, böyük rus inqilabçı-demokratları

kimi sənətin məna və vəzifəsini həyata, insanlara xidmətdə görürdü... Ədib sənətkara xalq xadimi kimi baxırdı, onu tarix və mədəniyyət qarşısında məsul bir şəxs sayırdı... C.Məmmədquluzadə rus inqilabçı-demokratları kimi, ədəbiyyatı həyata tabe tutur, onun mənasını, əhəmiyyətini də bunda görürdü" (6, 606-607). Görkəmli ədibin bu fikrində "Molla Nəsrəddin" məktəbinin estetikasının ideya-fəlsəfi mənbəyi açıqlanır.

Ədibin tənqidi və nəzəri-estetik görüşlərindən bəhs edən akademik Kamal Talıbzadə də göstərirdi ki, C.Məmmədquluzadənin ədəbi görüşlərinin təşəkkülündə rus ədəbiyyatı və tənqidinin ciddi təsiri olmuşdur. O, realist rus yazıçılarını dərindən öyrənib qiymətləndirmiş, rus realizmini, onun həqiqətpərəstliyini, məna zənginliyini duyaraq, bu ədəbiyyatın qabaqcıl simalarının əsərlərini müasirlərinə nümunə göstərmişdir. Məsələn, N.V.Qoqolun anadan olmasının yüz illiyinə həsr etdiyi tənqidi felyetonda ədib böyük rus yazıçısının xalq həyatına yaxınlığını ən gözəl bir məziyyət kimi göstərir, onun əməkçi kütlələr içərisində şöhrət tapmasının səbəbini də bununla izah edirdi. C.Məmmədquluzadə realist ədəbiyyatın xüsusiyyətlərindən bəhs açarkən İ.A.Krılov, A.S.Puşkin, N.Qoqol, L.N.Tolstoy, D.İ.Pisaryev, M.Qorki kimi rus yazıçı və tənqidçilərinin əsərlərinə müraciət etmiş, realizmin ayrı-ayrı məsələlərinə öz münasibətini bildirərkən onların əsərlərindən, mülahizələrindən faydalanmış, müasirlərinin diqqətini rus realist ədəbiyyatının yaradıcılarına cəlb etməyə çalışmışdır (4, 223-224).

"Molla Nəsrəddin" məktəbinin estetikasının sosial əhəmiyyətini şərh edən professor Firudin Hüseynov bu haqda belə yazmışdır: "Demokratik mətbuatın yeni ədəbiyyata, realist sənətə dair fikirləri C.Məmmədquluzadə, M.Ə.Sabir, Əli Nəzmi, Ə.Qəmküsar və başqa inqilabçı-demokrat sənətkarların yaradıcılığında daha da dərinləşmiş, püxtələşmiş və inkişaf etdirilmişdir. Böyük realist C.Məmmədquluzadə bu sahədə də bütün mollanəsrəddinçilərin müəllimi, ideya rəhbəri idi. Sənət və ədəbiyyatı həyatın canlı aynası, ictimai mübarizənin kəsərli silahı kimi qiymətləndirən ədib sənətkardan dərin həyat müşahidəsi tələb edirdi» (7, 75). Həqiqətən Mirzə Cəlil başa salırdı ki, əsl sənət yolu V.Şekspirin, İ.F.Şillerin, N.V.Qoqolun, M.F.Axundovun yoludur. Onlar "Hamlet", "Qaçaqlar", "Müfəttiş", "Hacı Qara", "Müsyö Jordan və Dərviş Məstəli şah", "Molla İbrahimxəlil kimyagər" ilə həqiqi səhnə əsəri yaratmaq yolunu göstərmişlər. Bu yol ilə də getmək lazımdır. O, bayağı, əxlaqı pozan əsərlər əvəzinə, klassiklərə geniş yer verməyə, onlardan öyrənməyə çağırırdı.

C.Məmmədquluzadə inqilabi-demokratik ideyalar təbliğ edən tənqidi realizm uğrunda, xalq həyatını, onun böyük əməllərini canlandıran ədəbiyyat yolunda mübarizə aparırdı. Bunun üçün o, hər şeydən əvvəl, həyat həqiqətinə istinad etməyi, həyatı dərindən öyrənib əks etdirməyi ilk şərtlərdən biri sayırdı. Ədib göstərirdi ki, sənətin əsas təsvir obyekti xalqın həyatıdır, odur ki, əlinə qələm alan şəxs "dünyanı yaxşıca tanımalı, təcrübə görməlidir".

Mirzə Cəlilə görə, mövzu, ideya qələm sahibinin xəyal aləmində yaranmır, bunu onda müşahidələri, biliyi, təcrübəsi doğurur. Yazıçı həyatı öyrənməsə, dərk etməsə sənət naminə heç bir şey meydana gətirə bilməz: "...biz bir yazıçı millətik; bizə yağ və pendirdən, süd və qaymaqdan da əfzəl dünyanı yaxşıca tanımaq, təcrübə görmək lazımdır. Bizə gör-götür lazımdır. Bizə tema və mövzu lazımdır. Yəni müxtəsər: bizim yazıçılıq karxanasına həmişə xammal lazımdır ki, karxanamız işləsin, bikar qalmasın" (8, 569). Burada realist sənətim əsl məzmun və mahiyyəti, dəyər və istiqaməti göstərilir.

"Molla Nəsrəddin" və C.Məmmədquluzadə ədəbiyyatın idrak əhəmiyyətini, onun ideyalılığını belə düşünür və buna görə də XX əsrin əvvəllərində burjua estetikasına, "sənət sənət üçündür" nəzəriyyəsinin müxtəlif təzahürlərinə qarşı ardıcıl və amansız mübarizə aparır, ədəbiyyatı, sənəti xalqın azadlığı işinə xidmət etməyə, onu mürtəce qüvvələrə qarşı kəskin silaha çevirməyə çağırırdılar: "...hər bir qələmin öz müqəddəs vəzifəsi var: birinci növbədə millətin xoşbəxtliyi yolunda xidmət etmək" (9, 649). Bu fikir necə də müasir səslənir! Dahi sənətkarın özü həmin nəzəri estetik müddəanı keçdiyi şərəfli ömür və yaradıcılıq yolu ilə praktikada təsdiq etmişdir.

C.Məmmdquluzadə əsl gözəlliyi həyatın özündə görür, burada axtarırdı. Əgər həyat insan ehtiyaclarını ödəyirsə, insanın tələbləri ilə uyğun gəlirsə, onun gözəlliyi də bir o qədər artır. Ədib yazırdı: "İndi kəndlinin qadın barəsində olan gözəllik idealı odur ki, arvadı Hüseynqulugildən gələndə kişisini uzaqdan haraylayıb sevincək ona xəbər verə:

– A kişi, şükür olsun Allaha, bu gecəlik neft tapmışam.

Gözəllik, gözəllik – budur!” (9, 694).

Mirzə Cəlili yazmağa sövq edən, onun əsərlərinə əsl gözəlliyi verən bu həyat həqiqəti idi, xalq həyatına sədaqəti idi. Bütövlükdə ədibin və “Molla Nəsrəddin” dərgisinin ilham mənbəyini hüseynquluların, novruzəlilərin, usta zeynalların həyatı və dünyagörüşü təşkil edirdi.

“Molla Nəsrəddin” Azəbaycan ədəbi dilinin xəlqiliyi uğrunda mübarizə aparırdı. Bunu o, ədəbiyyatda xəlqiliyin əsas cəhətlərindən biri hesab edirdi. Dildə xəlqiliyi ana dilinə böyük ehtiram bəsləməkdə, bir vətənpərvər kimi onun bütün zənginliklərini, gözəlliklərini meydana çıxarmaqda, bu məziyyətlərdən bacardıqca geniş şəkildə istifadə etməkdə görürdü. Mirzə Cəlilin dilə estetik münasibətini belə ifadə etmək olar: ədəbi dil ilə, yazıçının, mətbuatın dili ilə xalq dili arasında, “avam camaatın” dili arasında uçurum olmamalıdır.

Ədəbi dil haqqında dediyi fikirlər C.Məmmədquluzadənin və ümumən “Molla Nəsrəddin”in estetik görüşləri sistemində çox mühüm yer tutur. Sadə xalq dili uğrunda mübarizə, bədii ədəbiyyat və mətbuat dilini mümkün qədər ümumxalq dilinə yaxınlaşdırmaq ədibin realist ədəbiyyat uğrunda mübarizəsinin tərkib hissəsini təşkil edir. “Molla Nəsrəddin” və Mirzə Cəlil XX əsrdə ədəbi dil sahəsində başlanan mübahisələrdə inqilabi-demokratik cəbhəyə başçılıq edir, ona istiqamət verirdilər. Mirzə Cəlil dil məsələləri barədə məqalələrində, felyetonlarında, bədii əsərlərində, xatirələrində təkrar-təkrar yazmış, bunu günün vacib məsələlərindən biri hesab etmişdi: elə yazmaq lazımdır ki, müraciət etdiyin avam camaat səni başa düşə, anlaya, düşünə və nəticə çıxara bilsin. Bunun üçün isə ən yaxşı yol – asan dildə, ana dilində yazmaqdır.

Mirzə Cəlil “Molla Nəsrəddin” jurnalının gördüyü böyük tarixi-mədəni işdə jurnalın dilinin həlledici, mühüm rol oynadığını belə izah edirdi: “Məcmuəmiz türk ölkələrində çox asanlıqla dağılıb öz sözünü onlara çox asan vəchlə yetirə bildi. Bunun səbəbi məhz məcmuənin asan dilidir. Onunçun da bu yolda biz bərk durmuşuq və tərəddüd və şəkk-şübhə etmirik” (8, 727).

XX əsrin ilk onilliklərində Ə.Haqverdiyev, N.Nərimanov, M.Ə.Sabir, Ü.Hacıbəyli, Ö.F.Nemanzadə, F.Köçərli, S.M.Qənizadə, R.Əfəndizadə, Abbasağa Qayıbov kimi yazıçı və mühərrirlər bu dili inkişaf etdirmiş, rövnəqləndirmiş və ümumxalq dili səviyyəsinə qaldırmışlar. Beləliklə, “Molla Nəsrəddin” məktəbi Azərbaycan realistlərinin dilini, onların dil mövqeyini təqdir edir və bu yol ilə getməyə çağırırdı.

Azərbaycan dilinin saflığı, müstəqilliyi uğrunda mübarizənin ön cəbhəsində dayanan “Molla Nəsrəddin” jurnalı nəinki özünün ilk nömrəsindən ana dili məsələsini mühüm proqram vəzifə kimi qarşıya qoymuş, həm də bütün varlığı boyu Azərbaycan dilinin inkişafı uğrunda mübarizə aparmışdır. Jurnalın sadə xalq dilində nəşri faktı özü əsl vətənpərvərlik nümunəsi olmaqla, böyük siyasi və tərbiyəvi əhəmiyyətə malik idi.

O, müstəmləkə zülmü şəraitində və özünün dediyi kimi, mövhumat, xurafat, şəriət zülmətinin qatı qaranlığında xalqın qurtuluşu üçün çarələr axtarmış və düşünmüşdür.

“Molla Nəsrəddin” məktəbi yorulmadan, dərin bir səmimiyyətlə insanpərvərlik, beynəlmiləlçilik, xalqlar arasında mənəvi birlik, dostluq, qardaşlıq, həmrəylik ideyalarını təbliğ edirdi, oxucularını dönə-dönə dini və milli təəssübkeşliyin, mənfur hakim millətçilik və dünya ağalığı iddiasının kökünü kəsməyə çağırırdı.

“Molla Nəsrəddin” mərsiyə və mədhiyə şairlərini, qafiyəpərdazları tənqid edərkən onlara qarşı M.F.Axundovu, N.V.Qoqolu, İbn Sinanı, Ə.Firdovsini, Ə.Camini, Ə.Nəvaini, Füzulini qoyurdu.

C.Məmmədquluzadə epiqonçu şairlərin, hər şeydən əvvəl, yaradıcılıq metodunu tənqid və rədd edirdi. Çünki onlar əllərinə qələm alanda gözlərini həyata, içərisində yaşadıqları aləmə deyil, “göyə axıdıb”, “cənnətin hurilərini xəyal ilə qucaqlayır”, xalqın həyat və məişəti əvəzinə “eşqdən, məhəbbətdən, vüsaldan, kaman qaşlardan, lalədən, bülbüldən, güldən, pəridən, yıldızlı gözlərdən...” yazırdılar. Bu şeir nəşəsi “ilə xumarlanmış, millətin avam, cahil, ac” qalmasına səbəb olan şairləri C.Məmmədquluzadə birdəfəlik aradan çıxarmağa çağırırdı: “Nə qədər ki... dünya mədəniyyəti tərəqqi tapmaqdadır, bizlərdə də xəyalət “mədəniyyəti” şöhrət tapmaqdadır. Orada qələm sahibi öz fikrini sadəcə kağız götürüb ildırım itiliyi ilə dünya və aləmə yayıb, bizlər də sol ovcumuza bir balaca kağız alıb, gözlərimizi göyə axıdıb qafiyə axtarırıq və

məzmununu vəzn və qafiyəyə qurban gətirib şeir yazırıq... İxtiyar məndə olsa, şeir nəşəsini qadağan edərəm, necə ki, tiryək nəşəsi qadağandır" (9, 648-649).

"Molla Nəsrəddin" şeirə, sənətə ciddi yanaşmayan şairlərin üzdəniraq "yaradıcılığına", yerində sayan təqlidçi, nəzirəçi ədəbiyyata "Müxəmməsçilər" adlı satirik şeirlə (10) gülür çeynənmiş təsvir vasitələrindən, mövzulardan, formalardan əl çəkmək istəməyənlərə qarşı çıxış edirdi. O dövrün epiqonçu, təqlidçi, nəzirəçi şeirinə jurnal böyük Sabirin "Dilbər" satirası və bu əsər əsasında çəkilmiş məşhur karikatura ilə öldürücü zərbə vurdu.

"Molla Nəsrəddin" yeni ədəbiyyatı, inqilabi satiranı klassik ədəbiyyata qarşı qoymurdu, əksinə, onun varisi və qanunauyğun inkişafı, davamı və yüksəlişi hesab edirdi. Eyni zamanda, jurnal klassik ədəbiyyatın ənənəvi davamı kimi meydana çıxan mətləbsiz, formalist əsərləri gülüş və sarkazm yolu ilə pisləyirdi.

M.F.Axundovun əsaslandırdığı tənqidi-realist ədəbiyyatın coşğun inkişafı uğrunda fədakar mübariz olan "Molla Nəsrəddin" ədəbi məktəbinin özü, eyni zamanda, yeni ədəbiyyatın ən gözəl nümunəsi idi. Bu jurnalın səhifələrində realizm yeni mütərəqqi keyfiyyətlər kəsb etmiş, həyatda və sənətdə inqilabi-demokratik ideyaların kütləvi təbliği vasitəsinə çevrilmişdi. O, öz böyük tarixi işi ilə yeni dünyanın, yeni ədəbiyyatın təşəkkülünə kömək etmişdir.

"Molla Nəsrəddin" XX əsrin əvvəllərində Azərbaycan mədəni-ictimai fikri tarixinə təkcə dövrün kəskin sosial problemlərini əks etdirməklə daxil olmamışdır. O, eyni zamanda özünü dövrün ədəbi-estetik tələblərinə cavab verən bədii janrlar və formalarla zənginləşdirmişdir. "Molla Nəsrəddin" bütün ədəbi hərəkata bir müasirlik, fəallıq və mübarizlik gətirmişdir" (5, 208-209).

"Molla Nəsrəddin" jurnalı yeni, realist ədəbiyyatdan məzmun, ideya müasirliyi və dolğunluğu ilə yanaşı, rəngarəng forma gözəlliyi də tələb edirdi. İstər jurnalın özündə, istərsə də C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Nəzmi və başqalarının yaradıcılığında forma-janr rəngarəngliyi vardı.

Beləliklə, ümumiyyətlə XX əsr Azərbaycan estetikasının, estetik anlayışların, ədəbi-nəzəri fikrinin inkişafı Cəlil Məmmədquluzadənin və "Molla Nəsrəddin" satirik jurnalının yaratdığı məktəbin adı ilə sıx bağlıdır. Mollanəsrəddinçilərin nəzəri-estetik və ədəbi-tənqidi görüşlərinin demokratik istiqaməti realist ədəbiyyatın və incəsənətin gələcək inkişafı üçün möhkəm zəmin hazırlamış, XX əsr milli estetikasının və tənqidinin formalaşmasına, onun qabaqcıl fikirlərlə zənginləşməsinə güclü təsir göstərmişdir.

## ƏDƏBİYYAT


1. Mirzə İbrahimov. Böyük demokrat. Bakı, 1939; Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (1900-1917-ci illər). Bakı, 1947 (dok. diss.); Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə, II cild, Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1960; Xalid Əlimirzəyev. Cəlil Məmmədquluzadənin ədəbi görüşləri, Bakı, 1964 (nam.diss); Realizm uğrunda mübarizədə. "Azərbaycan" jurnalı, 1963, № 6, s. 168-176; K.Talıbzadə. XX əsr Azərbaycan tənqidi. Bakı, 1966.
2. Mirəhmədov Əziz. Azərbaycan Molla Nəsrəddini. Bakı, Elm, 1980.
3. Məmməd Cəfər Cəfərov. Cəlil Məmmədquluzadə haqqında söz (1966-cı ildə SSRİ Yazıçılar İttifaqının birləşmiş plenimunda söylənmişdir). Sənət yollarında. - Bakı, Gənclik, 1975 (s. 177-186).
4. Cəlil Məmmədquluzadə: həyat və yaradıcılığı. - Bakı, Elm, 1974; Kamal Talıbzadə. Ədəbi görüşləri (s. 212-227); Firudin Köçərli. İctimai-siyasi və sosioloji görüşləri (s. 228-258); Yaşar Qarayev. Yaradıcılıq metodu (s. 259-276)
5. Cəlil Məmmədquluzadə Ensiklopediyası. Bakı, «Şərq-Qərb», 2008.
6. Mir Cəlal Paşayev. Cəlil Məmmədquluzadə. Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə, II cild, Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1960 (s. 605-612).
7. Hüseynov F. Molla Nəsrəddin və Mollanəsrəddinçilər.- Bakı, Yazıçı, 1986.
8. Cəlil Məmmədquluzadə. Dram və nəsr əsərləri. Bakı, Azərnəşr, 1958.
9. Cəlil Məmmədquluzadə. Felyotonlar, məqalələr, xatirələr, məktublar. Bakı, Azərnəşr, 1961.
10. "Molla Nəsrəddin", 1913, № 29.


## ABSTRACT


**Yussif Husseinov**

**Aesthetics of «Molla Nasraddin» school**

The paper deals with aesthetic and theoretical –literary views of "Molla Nasraddin" school, especially discusses conception of literature and art of Jalil Mammadquluzadeh, the founder and publisher of the magazine with the same name and outstanding writer and publicist proceeding from his social-political outlook. It is emphasized that writers and poets of "Molla Nasraddin" magazine were in the front row of realism.

**РЕЗЮМЕ**

**Юсиф Гусейнов**

**Эстетика школы «Молла Насраддин»**

Статья анализирует эстетику и теоретическо-литературные воззрения школы «Молла Насраддин», особенно концепцию о литературе и искусстве основателя и издателя одноименного журнала, выдающегося писателя и публициста Джалил Мамедкулузаде исходя из его социально-политического мировоззрения. Подчеркивается что, писатели и поэты журнала «Молла Насраддин» были в передовых рядах реализма.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**

**QƏHRƏMAN BEHBUDOV**

*Naxçıvan Dövlət Universiteti*

**UOT:101.1**

# MİRZƏ ƏLƏKBƏR SABİR YARADICILIĞINDA İNQİLABİ –DEMOKRATİK FİKİR

**Açar sözlər:** *mütəfəkkir, hambal, kəndli, inqilabçı-demokrat, azadlıq, üsyançı* insanlar, *milli qəhrəman, mübarizə*

**Key words:** *thinker, porter, peasant, revolutionary-democratic, freedom, the rebel people, national hero, fight*

**Ключевые слова:** *мыслитель, революционно-демократический, свобода, революционные идеи, национальный герой, борьба*

Milli ədəbiyyatda tənqidi realizmin əsas yaradıcılarından biri kimi geniş şöhrət qazanmış Mirzə Ələkbər Sabir bədii fikirdə humanizmin və demokratik ideyaların, milli oyanış və dirçəlişin ən fədakar carçılarındandır.

Əsrin əvvəllərindən vətəni Azərbaycanda, doğma Şamaxıda əmələ gələn oyanma, 1905-ci il rus inqilabı ərəfəsində və inqilab dövründə ictimai həyatın bütün sahələrində özünü göstərməyə başlayan canlanma və irəliləyiş M.Ə,Sabirin də həyat və yaradıcılığına, onun dünyagörüşünə öz müsbət təsirini göstərirdi.

Vətəndaş şair yaşadığı dövrdə ayağa qalxmış millətlərin sırasında öz xalqını da görmək istəyirdi. Xalqların ön cərgəsində mənsub olduğu millətlərin də hünərlə addımlamasını ən böyük səadət kimi arzulayırdı. Sabir bu arzunun və bu idealın tez bir zamanda qələbə çalmasına, həyata keçməsinə, tarixi zərurət kimi baxırdı. Şairi həmin zərurətə gətirən azadlıq idealına bəslədiyi sonsuz məhəbbət idi. Çünki şair yaxşı bilirdi ki, "bir millətin şərəfli olması üçün birinci şərt onun istiqlaliyyətidir".

Vətəndaş şair öz satiralarında "əsrin acı həqiqətlərini" sadəcə olaraq göstərməklə kifayətlənmirdi; o oxucunu köhnə, çürümüş mühiti yıxmağa, yeni bir mühit qurmağa çağırırdı; əzilən kütlələrin həm dözülməz həyat şəraitini, həm də köhnə dünyaya nifrətini və işıqlı gələcəyə bəslədikləri möhkəm inamı təcəssüm etdirirdi.

1905-ci il inqilabı Ələkbər Sabirin də gözünü açdı. Zülm və istibdada, mütləqiyyətə, mövhumata və köhnə quruluşa qarşı genişlənən və şiddətlənən inqilabi hərəkat şairin qələminə və ilhamına tamamilə yeni bir istiqamət, yeni bir məzmun və qüvvət verirdi. Şair indi dost və düşməni, şeirin müasir mübarizələrdəki rolunu, vəzifəsini tamam dərk edirdi.

1905-1907-ci illərdə birinci rus inqilabı və onun yetirməsi olan inqilabi – demokratik, satirik "Molla Nəsrəddin" jurnalı Sabir yaradıcılığında tam bir dönüş yaratdı. Şair elə bil yenidən doğuldu, həyata, insanlara, ictimai hadisələrə sənət və ədəbiyyata yeni gözlə baxmağa başladı.

Sabirin "Molla Nəsrəddin" jurnalının səhifələrində dərc olunan hər bir satirası mürəkkəb ictimai hadisələrlə dolu olan zamanın əks – sədası idi. Xalq, xalqın dərdi, xoşbəxtliyi , onu azad görmək arzusu Sabir yaradıcılığının əsasını təşkil edir. "Yaşasın şəhriyari – hürriyyət!" - misrası Sabirin 1905-ci il inqilabından sonrakı bütün yaradıcılığı üçün epiqraf sayıla bilər. O, azadlığı insanlığın ayrılmaz keyfiyyəti hesab edirdi. İnsanlığa xidmət naminə, düşüncəyə azadlıq verilməlidir. Vətəninə və mədəniyyətin yüksəkliyinə nail olmaq üçün azadlıq əldə edilməlidir. Bütün inqilablardan və siyasi mübarizələrdən əsas məqsəd və ideal hürriyyətdir. Azadlıq həyatda zəmanəsində insana onun şəxsiyyətinə və yaradıcı qüdrətinə lazımınca qiymət verilmədiyindən kədərlənən mütəfəkkir bununla belə insanın heç olmasa özünün öz qədir-qiymətini qorumasını tövsiyə edirdi. Çünki mövcud quruluş insana münasibətdə gözlə görünənlərdən artığını etmək iqtidarında deyildi.

Zəmanə insanı istədiyi qədər əzə bilərdi lakin onu ucaltmaq və ona istədiyi haqqını vermək ənənəsindən uzaq idi.Bu nöqteyi nəzərdən Sabir bilavasitə insanın özündən də çox şey gözləyirdi.

Sabir Azərbaycan feodal durğunluğundan birbaşa 1905-1907-ci illərin birin-ci rus inqilabı, coşğun siyasi – ictimai burulğanlar dövrünə, oyanışa, yüksəliş və azadlıq uğrunda mübarizə illərinə keçid dövrünün şairi idi.

Mirzə Ələkbər Sabir inqilab şairi, zəhmətkeş xalqın arzu və istəklərinin tərənnümçüsü idi. Bir çox əsərlərində ayılan fəhlənin, əzilən kəndlinin ardıcıl, ideoloqu kimi çıxış edirdi.

Mütəfəkkir gözlənilən inqilabdan dəhşətə gələn zalımların – xalqı əsarətdə saxlayanların dili ilə deyirdi:

Dəyişib zəmanə indi, dolanıb bütün umurat,
Ayağı çarıqlılar da gəlib istəyir müsavat!
Belə əsrdə məiət bizə xoş keçərmi, heyhat?
Ayılıb yatan cəməat, göz açıb qapalı fələ!"(5;260)

Sənətinin xüsüsiyyətlərinə və qüdrətinə görə Sabir şərəfli bir ad qazanmışdır.İnqilab nəğməkarı ona bu adı yaşadığı konkret ictimai şərait gərgin hadisələrlə dolu siyasi həyat taleyi dilindən düşməyən mərd xalqın ayıq və qədirbilən oxucuları vermişdir.

Üsyankar xalqların tarixində yetişən inqilabçı şairlərin əsl xidməti və böyüklüyü həmin xalqın milli-azadlıq mübarizəsini tərənnüm etməsi ilə ölçülür.Böyük mütəfəkkir Sabir Azərbaycandakı inqilabi fikir hərəkatının misilsiz himnini yaratmışdır.1907-ci idə Azərbaycanın

hərəkatı, əsrinin və zamanının ən qabaqcıl mütərəqqi hadisəsi kimi, şərq xalqlarının oyanmasında, xarici – hərbi müdaxiləyə, imperializm zülmünə, müstəmləkə əsarətinə qəti bir istiqamət vermişdir.

Sabir bu inqilabı yarandığı gündən sona qədər izləmiş, onun cərəyanı boyunca meydana çıxan məsələləri isti – isti qələmə almış, inqilabın yaranmasına səbəb olan və təsir göstərən ictimai amilləri tarixi həqiqətə uyğun bir tərzdə əks etdirə bilmişdir.

Azərbaycanda başlanan və bütün İran ərazisini bürüyən xalq üsyanlarının ictimai zəminini Sabir belə başa düşmüş və izah etmişdir:

Asudəlik bu saat yerdən göyə cahanda,
Var isə vardır ancaq İranda hər məkanda:
Təbrizdə, Sərabda, Xalxalda, Xançobanda,
Qeyrətli Şahsevəndə, hər anda, hər zamanda
Lorlarda, Şıx-Gözəldə, Keşkanda, İsfahanda,
İşlər bütün həqiqət, sözlər bütün güvara,
"Dərda ki, razi – pünhan xahəd şod aşikara".(2;135)

Şairin İran məşrutə hərəkatına həsr elədiyi əsərlər qanlı şahlıq rejiminin üsyankar xalqa zidd cəbhəni təmsil edənləri qamçılamaq, inqilabçıları azadlıq vuruşlarına ruhlandırmaq baxımından görünməmiş gücə, kəsərə malik idi;1905-ci ilin inqilabı məzlum xalqların mənlik şüurunun inkişafına kömək etdi və imperializmin sosial və milli zülmünə qarşı zəhmətkeşlərin fəal inqilabi mübarizəsinin yüksəlməsinə səbəb oldu.Cənubi Azərbaycanda inqilabi hərəkatın artması buna misal ola bilər. Həmin hərəkat 1905-ci ildən1911-ci ilə kimi davam etmiş və İran müctəbidi Məmmədəli şahın devirilməsinə gətirib çıxarmışdı. Bununla əlaqədar olaraq, həmçinin Türkiyədə sultan Əbdülhəmidin istibdadına qarşı milli – azadlıq hərəkatının inkişafını da misal göstərmək olar. Sabir bu hadisələrin hamısına mütərəqqi hadisələr kimi baxır və üsyançıların hər qələbəsini ürəkdən alqışlayırdı.

İnqilabın xalqın milli şüurunun aydınlaşmasında, onun varlığında mövcud olan qəhrəmanlıq əzmini, qoçaqlıq və mərdlik kimi keyfiyyətlərini meydana çıxarmaqdakı dərin siyasi mənasını Sabir belə başa düşmüş və şərh etmişdir:

Basdı, keçdi əhli – İran qatladı hər milləti,
Bildi qədrin, aldı haqqın, qovzadı milliyyəti,
Aldığı məşrutəni parlatdı parlaq qeyrəti,
Əhsənullah, himməti – tam etdi! Amma, millət !...(8;150)

Nümunə gətirdiyimiz bu şeir parçaları Sabirin Azərbaycanda inqilabi hərəkat haqqında qoşduğu alovlu nəğmələr kitabının cuzi bir hissəsidir. Lakin həmin cuzi nümunələr də göstərir ki, Sabir milli azadlıq mübarizəsini xalqın tarixində ən şərəfli, təmiz və əzəmətli hərəkatlardan biri hesab edir. Onun tarixi – siyasi mənasını doğru anlayır, onun təsir gücünü və gələcəyini görüb alqışlayır, əhəmiyyətini təhlil edib əsaslandırır.

Təbriz inqilabçılarının qələbəsini, Cənubi Azərbaycanın azad olduğu günü görmək Sabirin ən böyük istəyi, idealı idi. Bu ali məqsəd uğrunda silaha qurşananlar, onların yenilməz başçısı Səttərxan Sabir poeziyasının sevimli, real qəhrəmanı idi. Mütləqiyyətə qarşı amanasız və aramsız döyüşlərdə yüksək ad çıxaran vətən əsgərlərinin hünəri şairin "Səttərxan" adlı əsərində ideal ucalığa qaldırılır. O, Təbriz torpağını yağıların qara örtüyünə döndərən, bu torpağı azadlıq yolunda tökülən qızıl qanla boyayan, istibdadı zəlil edən, vətənin və millətin namusunu qoruyun, özünü qurtuluş pərvanəsi təki oda – közə vuran Səttərxanı qorxmaz ər, əyilməz igid bir qəhrəman kimi təsvir və tərənnüm edir.

Hali məczubini görüb, qare, demə divanədir,
Nəreyi – şuridəmi zənn etmə bir əfsanədir,
Şairəm, təbim dəniz, şiri – tərim dürdanədir.
Bəhcətim, eyşim, süririm vəcdim əhraranədir.
İncizabım cürəti – mərdaneyi – mərdanədir,
Afərinim himməti – valayi – Səttərxanədir.(9;120)

"Səttərxana" şeirində Tehranda Məclisin buraxılmağa məcbur edilməsindən sonra Cənubi Azərbaycan vilayətlərində, xüsusən Təbriz şəhərindəki yüksək nikbin ovqatın tərənnümü ön

mövqeyə çəkilmişdir. Şair bu mühüm tarixi nailiyyətin əldə edilməsini Səttərxanla İranın azərbaycanlı əhalisinin birliyində axtarmış, azadlıq yolunda qurban getmiş şəhidlərə ümumxalq ehtiramını göz önünə gətirmişdir.

M.Ə.Sabir Azərbaycan xalqının milli qəhrəmanı Səttərxanı "oddan qorxmayan pərvanəyə" bənzədir. Şeirdə Səttərxan və onun möhkəm əqidəli cənublu silahdaşlarına böyük ümumxalq sevgisi və ehtiramı ifadə olunmuşdur. Şair Səttərxanın xidmətlərinin İslam dünyası, geniş mənada insanlıq üçün böyük əhəmiyyətə malik olduğunu xüsusi olaraq vurğulamışdır:

Afərin təbriziyan, etdiz əcəb əhdə vəfa!
Düstü düşmən əl çalıb, eylər Sizə səd mərhaba!
Çox yaşa, dövlətli Səttərxan, əfəndim, çox yaşa!
Cənnəti - əlada peyğəmbər Sizə eylər dua.
Çün bu xidmətlər bütün islamədir, insanədir,
Afərinim himməti – halayi – Səttərxanədir.(9;121)

Sabir göstərir ki, kütləlləri ayağa qaldıran inqilabi hərəkat qarşısında hər hansı bir zorakılıq tədbiri aciz və mənasızdır:

Qılmadı heç yerdə sənə ehtiram.
Atdı camaat daşını, Mir Haşim!...
Durma, götür qaç başını, Mir Haşim!...
Yardımı Səttar başını, Mir Haşim?(7;127)

Bu şeir yalnız müəyyən məmura, siyasi rütbəli şəxsiyyətə qarşı həcv deyildir. Bu, ictimai intibahın parlaq mənzərələrindən birini verən nümunədir. Camaatın hiyləni açdığını, haqq divanının başlandığını, mürtəcelər üçün qaçmaqdan başqa əlac qalmadığını, deyən şair, Səttar xan hərəkatına işarə edərək inqilabi mübarizənin həm dairəsi, həm mənşəyi, həm də yenilməz qüdrəti haqqında fikir söyləyir. Burada gələcək qələbə, azadlıq təranələri lirika ilə yox, ictimai gülüşlə, qəhqəhələr vasitəsilə ifadə edilmişdir. Məscid, minbər ehkamının "libasına bürünən" oğruların üç üzünün açıldığı bir zamanın gələcəyini Sabir dərin bir inam və etiqadla bildirir:

Bir vaxt olar tanır səni hər kəs!(6:142)

Bu dərin etiqad və inam şairin məhz böyük gələcək haqqındakı düşüncələrinin ifadəsidir. Ona ilham verən, qələmini itiləyən, istiqamətləndirən də məhz bu düşüncələrdir. Belə bir məzmunu şairin bir çox əsərlərində izləmək, görmək olar.

Qəhrəman Təbrizdə baş qaldıran və az bir zaman içərisndə ölkənin hər tərəfini bürüyən azadlıq üsyanları tarix boyu qəhrəman, alicənab və müdrik bir xalq kimi tanınmış azərbaycanlıları şöhrətləndirmişdi.

1907-ci ildə İran məşrutəçiləri sədri - əzəm Ətabəyi qətl etdikdə, o zamanın bir sıra mümühərrirləri bu hadisəni İran inqilabının qəti qələbəsi kimi qiymətləndirərək, məşrutəçiləri təbrik edirdilər.Lakin Sabir həmin hadisəyə tamamilə başqa qiymət verdi. O, məşrutəçiləri lovğalanıb arxayınlaşmamağa çağırır, Ətabəyin qətlini belə qiymətləndirirdi:

Kirəm Ətabəy öldü də, topu tüfənginiz hanı?
Bəhri - əmiqi – hərbdə kəştiyi – cənginiz hanı?
Əski hamamdır, əski tas, pəs yeni rənginiz hanı?
Dinmə, danışma, yat balam, sən deyən olmayıb hələ!
    Arxa su dolmayıb hələ!
    Köhnə idarəniz durur,
    Rəngi də solmayıb hələ!(2;123)

1909-cu ilin iyul ayında Məhəmmədəli şah Qacar öz əhdini pozub, birinci İran məclisini silah gücü ilə qovduğu vaxt Sabir onu sonsuz qəzəb və nifrətlə qamçılayırdı.

Arslanlar boynuna saldırıdığın zəncirlər,
Namvərlər qətlinə çəkdirdiyin şəmşirlər.
Atəşi – qəhru qəzəblə yaxdığın təmirlər,
Vəsfə şayandır, həqiqət, etdiyin tədbirlər...
Ümumi – xaqan oğlu, bu qeyrət halal olsun sənə!
Verdiyin məşruteyi -millət halal olsun sənə!(3;231)

Lakin çox keçmədən məşrutəçilər öz sıralarını möhkəmlədib, əks – hücuma keçdilər. İrticanın quldur dəstələri məğlubiyyətə uğradı. Məhəmmədəli şah qaçıb, çar konsulxanasına sığındığı vaxt Sabirin bu münasibətlərlə yazdığı satirada artıq, kədərdən doğan kin, təlaş, nifrət yox, sevincdən doğan acı istehza və gülüş vardır:

Yansın iranlıların arxası, yandı ciyərim,
O yetim Məmdəlidən var yenə bir pis xəbərim,
Belə derlər ki, qoyub taxtı, qaçıb tacı – sərim,
Sığınıb konsula xaqanları iranlıların!
Dərhəqiqətn pis imiş qanları iranlıların!(1;22)

1908-ci ildə Türkiyədə qanuni - əsasi verilməsi xəbərini bir çoxları vəcdlə qarşıladığı zaman, Sabir "Osmanlılar, aldanmayın, Allahı sevərsiz!" stirasını yazdı. Bu şeiri ilə o, respublika üsuli – idarəsi uğrunda mübarizə edən türk inqilabçılarına müraciətlə deyirdi:

Ya liləcəb, osmanlılar, aya, nə qanırsız?
Qanuni - əsasi verilib ya inanırsız?
Mir Haşimü Fəzlullahınız yoxmu sanırsız?
Əksik deyil onlar, vəli sizlər nə tanırsız!
Bir gün tanıyıb onları labüd usanırsız
Ancaq usanırsızsa da, qanə boyanırsız!
Qansızları gic qanmayın, Allahı sevərsiz!
İranlı kii yanmayın, Allahı sevərsiz!(1;24)

Sabir müasirləri olan bəzi uzaqgörməyən şairlər kimi xam xəyallara, boş vədlərə aldanmırdı. O, mürəkkəb ictimai- siyasi hadisələrdən çox ustalıqla baş çıxaran həssas bir sənətkardır. 1906-cı ildə Rusiyada birinci dövlət duması yarandığı vaxt liberal mətbuat dumanı "yeganə azadlıq ümidi" kimi qələmə verib, az qala hürriyyət uğrunda gedən mübarizələrin bayrağına çevirmişdi. Sabir bu zaman dumanı "havada oynaşan qara" buludlara" , xalqın başının uydurulmuş yeni bir hiylə olduğunu açıb göstərirdi.

O zaman Rusiyada, İranda və Türkiyədə hadisələr Sabirin qabaqcadan xəbər verdiyi kimi inkişaf etdi. Sabirin uzaqgörən mütəfəkkir bir şair olduğunu sübuta yetirdi.

Xalqımızın inqilabi fikrinin əvəz olunmaz poetik-idrak və böyük mənəviyyat səhifəsi sayılan dahi Sabirin yaradıcılığı milli-içtimai ideallarıın təntənəsinə milli ləyaqətə insanlıga haqqın ədalətin qələbəsinə qətiyyətli və nikbin çağırışın təcəssümüdür.

Ömrünün son illərində yazdığı kiçik həcmli bir şeirdə "dilbəri – hürriyyət", yəni azadlıq gözəlinə aşiq olduğunu və xalqı sərbəst görmək həsrəti böyük şairin ürəyində hələ inqilabın ilk illərində baş qaldırmış, bütün ömrü və yaradıcılığı boyu onun varlığını bürümüşdür. İnqilab və azadlıq Sabirin ən öncül mövzusudur.

## ƏDƏBİYYAT


1.A.Zamanov,"Sabir gülür". Bakı-1981
2.T.Hacıyev. "Sabir, qaynaqlar və sələflər" , Bakı - 1980
3.M.Ə.Sabir "Hophopnamə" I cild, Bakı-1982
4.M.Ə.Sabir "Seçilmiş əsərləri", Bakı-1976
5.M.Məlikova E.Bayramov, "Azərbaycanın siyasi – hüquqi təlimlər tarixi" (oçerklər) Bakı – 1984
6.M.Əlioğlu "Qəhrəmanlıq və məhəbbbət" , Bakı - 1979
7.M.Cəlal,F.Hüseynov "XX əsr Azərbaycan ədəbiyyatı" Bakı – 1982
8.F.Hüseynov, "Molla Nəsrəddin və mollanəsrəddinçilər" Bakı – 1986
9. İ. Həbibbəyli "Ədəbi – tarixi yaddaş və müasirlik", Bakı-2007


## ABSTRACT

**Revolutionary-democratic ideas in the M.E.Sabir's activity**

This article has been dedicated to the problems of Sabir's revolutionary ideas that he properly immortalized the bright traditions of our centuries-old and also enriched our literature raising it to a new level and gained great glory as a “master of words”.

The author is conducting research about the role of revolutionary struggle for freedom of people. M.E.Sabir has created an unexampled anthem of the revolutionary ideas' movement by glorifying laboring people's desires and dreams, national freedom struggle.

**РЕЗЮМЕ**

**Революционно – демократические идеи в творчестве М.А.Сабира**

Статья,хранящая с достоинством блестящие традиции нашей многовековой поэзии, также с общественной точки зрения возвышая литературу на новый уровенъ, посвящается проблемам революционных идей М.А.Сабира, получившего известностъ знаменитого мастера слова.

Автор проводит исследования роли великого мыслителя в революционнои боръбе народов за свободу. М.А.Сабир, опираясь на мечты и желания трудолюбивого народа, возвышая национальную борьбу за свободу, создал неповторимый гимн революционных идей.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent* N.Rəhimov

НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**

**NOVRUZƏLİ RƏHİMOV**

*Naxçıvan Dövlət Universiteti*

*Novruzrehimov62@mail.ru*

**UOT: 1(091)**

## AZƏRBAYCAN MULTİKULTURALİZMİ MİLLİ-MƏNƏVİ DƏYƏR KİMİ

**Açar sözlər:** multikulturalizm, tolerantlıq, milli-mənəvi dəyər, mədəniyyət, mədəni müxtəliflik.

**Key words:** multiculturalism, tolerance, national and moral values, culture and cultural diversity.

**Ключевые слова:** мультикультурализм, толерантность, национальные и моральные ценности, культура, культурное разнообразие.

Müasir dövrdə dünya dövlətlərinin və beynəlxalq təşkilatların qarşısında duran ən başlıca vəzifələrdən biri insanlar arasında dini dözümlülüyün gücləndirilməsinin, müxtəlif din və mədəniyyətlərə mənsub insanların sülh və əmin-amanlıq şəraitində yaşamasının təmin edilməsidır. Müasir dövrdə dünyanın müxtəlif bölgələrində baş verən hadisələr mədəniyyətlərin müxtəlifliyini qəbul etməyən, digər din və mədəniyyətlərin nümayəndələrinin adət-ənələrinə, həyat tərzinə, əqidə və düşüncəsinə hörmətlə yanaşılmayan cəmiyyətlərdə davamlı sabitliyə və inkişafa nail olmağın qeyri-mümkün olduğunu göstərir. Bu səpkidə qarşıdurma və münaqişələrin baş verməməsi üçün insanlarda digər din və mədəniyyətlərə qarşı dözümlülük və hörmət xüsusiyyətləri gücləndirilməlidir.Bu ənənənin gücləndirilməsi və qorunması məqsədilə Azərbaycanda bir çox əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Danılmaz faktdır ki, Azərbaycan xalqı tarix boyu digər din və mədəniyyətlərə dözümlü münasibət ilə seçilmişdir. Digər din və mədəniyyətlərə dözümlü münasibət, onlarla sülh və qarşılıqlı anlaşma şəraitində yaşamaq Azərbaycan xalqının təbiətindən, insanpərvərliyindən və xoş məramlılığından irəli gəlir. Azərbaycan qədim zamanlardan müxtəlif dinlərin, dini cərəyanların yayıldığı, qovuşduğu, qarşılıqlı anlaşma şəraitində yaşadığı və əməkdaşlıq etdiyi bir məkan olmuşdur.

Mədəni, etnik, dini və s. müxtəlifliklər düzgün tənzimlənmədikdə cəmiyyətin inkişafının müxtəlif sahələrində ciddi problemlərə səbəb olur. Bu müxtəlifliklərin tənzimlənməsində düzgün siyasət modellərindən biri multikulturalizmdir.

Multikulturalizm- müəyyən bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və mədəni müxtəlifliklərin qorunmasına və inkişafına yönələn siyasətdir.

Multikulturalizm fərqli mədəniyyətlərin yanaşı və ya birgə yaşayış tərzidir və azlıqlara öz etnik-mədəni dəyərlərini qorumaq üçün azadlıq verməklə yanaşı onların yaşadıqları cəmiyyətin bütün sahələrində fəal iştirak etmələri üçün hər cür şəraitin yaradılmasıdır.

Multikulturalizm - bir ölkədə müxtəlif mədəniyyətlərin nümayəndələrinin maddi, hüquqi və mənəvi cəhətdən dəstəklənməsinə yönəlmiş demokratik dövlət strategiyasıdır, müxtəlif mədəniyyətlərə tolerant münasibətə əsaslanan dinc, yanaşı yaşama prinsipidir. Yaxud, multikulturalizm özündə mədəni müxtəlifliyin qorunub saxlanmasına və inkişafina yönəlmiş siyasəti, və bu siyasəti əsaslandıran ideologiyanı birləşdirir.

Multikultural dəyərləri müxtəlif mədəniyyətlərə, dinlərə, sivilizasiyalara tolerant münasibət şərtləndirir. Tolerant cəmiyyətdə multikulturalizm mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsinə, müxtəlif xalqları birləşdirən dəyərlər sisteminin formalaşmasına səbəb olur. Demokratiya multikultural cəmiyyətin formalaşmasında ən mühüm amillərdən biridir.

Multikulturalizmin nəzəri əsasını liberalizm, xüsusən də liberalizmin azadlıq, bərabərlik və qardaşlıq kimi dəyərləri təşkil edir. Liberalizmdən fərqli olaraq multikulturalizm fərdlərin deyil, qrupların hüquqlarını ön plana çəkir. Multikulturalizm pozitiv sosial təzahür olaraq cəmiyyətin inkişafi üçün münbit şərait yaradır, etnik münaqişələrin qarşısının alınmasında mühüm rol oynayır və müxtəlif xalqlar arasında etimadı möhkəmlədir.

İslam dinində tolerantlığı müxtəlif inanclı insanlara münasibətdə onlar arasında bir körpü kimi dəyərləndirmək olar və onların qarşılıqlı münasibətlərinin formalaşmasının əsası tolerantlıqdan keçir.

Bir çox Azərbaycan şair və yazıçılarının əsərlərində dini dözümlülük, millətlərarası münasibət, hər bir xalqın adət-ənənələrinə hörmət mövzularına rast gəlirik. Xüsusən də bu məsələlərə Nizami Gəncəvinin poemalarında rast gəlinir. Milli, irqi və dini ayrı-seçkiliyi qətiyyətlə rədd edən Nizaminin qəhrəmanları içərisində türk, fars, ərəb, çinli, hindli, zənci, yunan, gürcü və s. xalqların nümayəndələrinə rast gəlirik.

O, qara dərili zəncini açıq qəlbə və digər müsbət xüsusiyyətlərə malik insan kimi dəyərləndirir:

Zəncinin zahiri qaradır, ancaq,
Sən ağzından çıxan saf sözlərə bax.
Zənci dəmir kimi qara, parlaqdır,
Üzü qaradırsa, ürəyi ağdır! [3,89 ]

M.Şəbüstəri göstərirdi ki, dinlər, etiqadlar, inanclar, ibadət və itaətlər arasında heç bir fərq yoxdur. İnsanları dini, irqi, cinsi və s. əlamətlərinə görə fərqləndirmək, müsəlmanı xristiandan, birini başqasından üstün tutmaq olmaz. Çünki son məqsəd bütün dinlər və etiqadlar üçün yeganə məbud olan Allahdır. İnsanları fərqləndirən yalnız onların mütləq olan Haqqı və onun həqiqətlərini hansı dərəcədə dərk etmələri, cahillikləri və kamillikləri, bu yolda tutduqları məqamdır. [2,136-137]

Alman filosofu və sosioloqu Yurgen Habermasa görə, multikulturalizmin əsas prinsipi mədəni həyatın müxtəlif formalarının bərabər hüquqlarla yanaşı mövcud olması, azlıqla çoxluğun bərabər hüquqlara malik olmasıdır.

Müxtəlif xalqlara, millətlərə, dinlərə tolerant münasibət azərbaycanlıların mentalitetinə xas olan keyfiyyətdir. Azərbaycan bəşəriyyətin humanizm prinsiplərinə sadiq, tolerant və multikultural ölkə kimi tanınmaqdadır. Multikulturalizm Azərbaycanda əsrlərdən bəri formalaşmağa başlamış və bu gün isə ölkəmizdə alternativi olmayan həyat tərzinə çevrilmişdir.

Ardıcıl olaraq Beynəlxalq Humanitar Forumun Bakıda keçirilməsi onu göstərir ki, Azərbaycan mədəniyyətlərarası dialoqun mərkəzi, həmçinin humanitar məsələlərin müzakirə olunduğu məkana çevrilmişdir.

Azərbaycanda tarixən müxtəlif xalqların və dinlərin nümayəndələri bir-birinə çox yaxın qonşuluq şəraitində yaşamışdır. Lakin tarixdə heç bir zaman indiki kimi bu ərazidə məskən salan müxtəlif xalqların və dinlərin nümayəndələrini birləşdirən vahid siyasi ideya və dövlətçilik marağı olmamışdır.

1995-ci ildə bilavasitə Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə hazırlanan Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsi ilə mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarına hörmət təmin olundu. [1] Bununla yanaşı, Ümummilli liderin hakimiyyətə qayıdışından sonra qəbul edilən bir cox qanunlarda Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verildi. "Mədəniyyət haqqında" qanunun 11-ci maddəsi ilə dövlət Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə önəm verdiyini bir daha sübut etdi. Eləcə də "Təhsil haqqında" qanunda hər kəsin öz dilində təhsil almaq hüququ və ayri-seçkiliyə yol verilməməsi məsələsi öz əksini tapdı. Bu məqsədlə milli azlıqların məskunlaşdığı Azərbaycanın bir sıra rayonlarında ali təhsil müəssisələri və kolleclərin filialları açıldı, ölkənin radio və televiziya kanallarında milli azlıqların dillərində verilişlər yayımlanması ənənəsi qoyuldu. Həmin ərazilərdə yerli telekanallar fəaliyyət göstərməyə başladı. Milli azlıqların dilində qəzet və jurnallar nəşr olunmağa başladı.

Lakin bütün bunlarla yanaşı, respublikanın ən başlıca sərvəti əsrlərdən bəri bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər də zəngin olar..." Ulu öndərin Azərbaycanda milli azlıqlarla bağlı siyasəti beynəlxalq qurumlar tərəfindən də hər zaman müsbət qarşılanıb. Azərbaycan Avropa Şurasına üzv qəbul olduqdan sonra "Milli azlıqların müdafiəsi haqqında" Çərçivə Konvensiyasına, Regional dillər arasında Çərçivə Konvensiyasına qoşuldu.

Mədəniyyətlərin dialoqu və qarşılıqlı zənginləşmə, xalqların sosial-mədəni inkişaf təcrübəsini, dünya mədəniyyətinin tarixi qanunauyğunluqlarını bilmək və yaradıcı şəkildə istifadə etmək qloballaşma şəraitində Azərbaycanın davamlı, rəqabət qabiliyyətli və təhlükəsiz inkişafı üçün mühüm nəzəri və praktik əhəmiyyət kəsb edir. Qloballaşma müasir dünyanın siyasət, iqtisadiyyat, mədəniyyət, elm, texnologiya və s. sahələrində yeni keyfiyyət dəyişiklikləri ilə şərtlənən mürəkkəb proseslərdə özünü göstərir.

Qloballaşmanın mərkəzində insan maraqları olduğundan onun ayrı - ayrı dövrlərdəki inkişaf meylləri də həmin maraqların reallaşdırılmasından asılı olmuşdur[ 4 ]

Öz varlığını davam etdirmək üçün bəşəriyyət birgəyaşayış yollarının axtarışında ümumi tale üçün birgə məsuliyyət hissini bərabər bölüşməlidir. Bu axtarışın uğurunu isə yalnız tolerantlıq, həmrəylik, yüksək mədəniyyət, multikulturalizm təmin edə bilər. Ulu öndər Heydər Əliyev söyləyirdi: "Yüksək tolerantlıq ilk növbədə yüksək mədəniyyətin təzahürüdür". Yüksək mədəniyyət uzun əsrlər boyu hər bir xalqın əldə etdiyi maddi və mənəvi sərvətlərin məcmusudur.

Mədəni mübadilə və qarşılıqlı zənginləşmə, xalqların sosial-mədəni inkişaf təcrübəsini, dünya mədəniyyətinin tarixi qanunauyğunluqlarını bilmə və yaradıcı şəkildə istifadə etmə qloballaşma şəraitində Azərbaycanın davamlı, rəqabət qabiliyyətli və təhlükəsiz inkişafi üçün mühüm nəzəri və praktik əhəmiyyət kəsb edir. Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir. Digər mədəniyyətlərin mahiyyətini, xüsusiyyətlərini, tarixini və nailiyyətlərini öyrənmədən, onlara qarşı tolerant münasibət, onların nümayəndələrinə hörmət mümkün deyil, qarşılıqlı anlaşma, mədəniyyətlərin və sivilizasiyaların dialoqonu qurmaq mümkün deyil.

Mədəniyyətlərarası münasibətlərdə bu vaxta qədər mövcud olan "mədəni hegemonluq", üstünlük, "hakim mədəniyyət", "biz və qeyrilər" kimi paradiqmalar ömrünü başa vurmaqdadır. Yeni düşüncə tərzinin formalaşması, düşüncə böhranının dəf edilməsi üçün isə hələ zaman lazım olacaq. Bəşəriyyətin özünü qlobal - tam kimi hiss etməsi, əsrlər boyu insanlığın arzusunda olduğu bu ideyanın gerçəkləşməsi tarixi zərurətə çevrilsə də, ona doğru irəliləmək o qədər də asan deyil.

Lakin təkzibedilməz bir həqiqət var: öz varlığını davam etdirmək üçün bəşəriyyət birgəyaşayış yollarının axtarışında ümumi tale üçün birgə məsuliyyət hissini bərabər bölüşməlidir. Bu axtarışın uğurunu isə yalnız tolerantlıq, həmrəylik, yüksək mədəniyyət, multikulturalizm təmin edə bilər.

N. Tusi "Əxlaqi-Nasiri" əsərində nəzəriyyə ilə təcrübənin, elmlə əməlin əlaqəsindən danışır. Tusiyə görə, bunların vəhdəti olmadan inkişaf və kamillik qeyri-mümkündür. [6,15. ]

Mədəniyyətlərin və sivilizasiyaların dialoqonu qurmaq üçün, qarşılıqlı anlaşma üçün başqa mədəniyyətlərin mahiyyətini, xüsusiyyətlərini, tarixini və nailiyyətlərini öyrənmək lazımdır.

Mədəniyyətlərarası münasibətlərdə yeni düşüncə tərzinin formalaşması üçün bəşəriyyətin özünü qlobal - tam kimi hiss etməsi, multikultural dəyərlərin həyata keçirilməsi lazımdır. Ona görə də dünyanın elm adamları, din xadimləri, siyasi liderlər bir araya gəlir, sivil birgəyaşayış prinsiplərinin bərqərar olması üçün yollar, modellər axtarırlar. Təşkil olunan hər görüşün, konfransın amalı da mədəniyyət və sivilizasiyaların qarşılıqlı anlaşması istiqamətində səmərəli fəaliyyət yollarını axtarmaqdır.

Qeyd etmək lazımdır ki, Bakıda keçirilən Beynəlxalq Humanitar Forumda iştirak edən müxtəlif ölkələrdən toplanmış nümayəndələr də multikulturalizmin Azərbaycan modelini yüksək qiymətləndirmişlər. Azərbaycan modeli həm dinlərin bərabər inkişaf imkanlarını və etnik qrupların birgə yaşamasını təmin edir, həm də digər inanc və mədəniyyətlərə mənsub olan müxtəlif qruplara hörmətin və təmsilçiliyin təqdim edilməsini özündə birləşdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev III Bakı Beynəlxalq Humanitar Forumunda etdiyi açılış nitqində bildirmişdir: Azərbaycanda hökm sürən ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycan dözümlülük, tolerantlıq məkanı olmuşdur. Bu gün müstəqil Azərbaycan öz siyasətini bu möhkəm təməl üzərində qurur. Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir.

Bakı humanitar forumları, eləcə də son on ildə ölkədə keçirilmiş müxtəlif beynəlxalq konfrans və tədbirlər ölkə siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Respublika ərazisində mövcud olan bütün dillərin, dinlərin, mədəniyyətlərin, etnosların nümayəndələrinin bərabər imkanlar əsasında birgə yaşaması, elmin, təhsilin, qanunvericiliyin və insan kapitalının inkişafına yönəlmiş gələcək rifahın müəyyən edilməsi, bu siyasətin Azərbaycanın digər ölkələrlə münasibətlərinin formalaşmasında prinsipial məsələlərdən biri kimi qarşıya çıxması ölkəni tolerantlıq və multikulturalizmin təmin edildiyi model dövlət olması ilə yanaşı, bu dəyərlər ətrafında beynəlxalq diskursun təşkil edildiyi mərkəzə çevirmişdir. 15 noyabr 2013-cü ildə prezident İlham Əliyev Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzinin açılışında iştirakı zamanı qeyd etmişdir ki, belə bir mərkəzin açılması Azərbaycanda dinlərarası münasibətlərin göstəricisidir. Bu fakt Azərbaycanın tarixən tolerant və çoxkonfessiyalı ölkə olduğunu bir daha sübut etməklə

yanaşı, ərazisindəki dini baxışların inkişaf etdirilməsi üçün dövlət dəstəyinin yüksələn xətt üzrə getdiyinin nümunəsidir. Təbii ki, müasir Azərbaycanda çoxmədəniyyətlilik və müxtəlif konfessiyaların bərabər yaşaması üçün göstərilən diqqət tarixən ölkənin dövlətçilik ənənələrinin əsasını təşkil etmişdir.

Qeyd etdiyimiz kimi, çoxmillətli Azərbaycan artıq dünyanın nəzərində nümunəvi bir dövlətdir. Azərbaycan dünyanın multikulturalizm, tolerantlıq, dözümlülük, humanitar əməkdaşlıq mərkəzinə çevrilmişdir.

Azərbaycanda bütün xalqlar, toplumlar, fərqli dil və din mənsubları ortaq məxrəcə gələ bilirlər. Azərbaycan minilliklər boyu müxtəlif xalqların azad, sərbəst və heç bir maneə ilə rastlaşmadan yaşadığı bir məmləkətdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi: "Multikulturalizm başqa xalqın nümayəndəsinə hörmət, başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə bütün xalqları birləşdirir.

Modernləşmə və Azərbaycançılıq ideologiyası da ölkəmizdə multikulturalizmin yaranması və inkişafında əsas amildir. Bu ideologiyanın əsasını millilik, dünyəvilik, sosial ədalət, demokratiya, milli tərəqqi, insan hüquq və azadlığına riayət təşkil edir. Bu ideologiya Azərbaycanı özünə vətən qəbul etmiş, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların vəhdət şəklində, dostluq, hətta qohumluq, qonşuluq, əmin-amanlıq şəraitində yaşadığı, mədəniyyətlərinin inkişaf etdiyi ümumi talelərini əks etdirən, multikulturalizm göstəricisi olan mənəvi fenomendir.

Cəmiyyətin tarixi inkişafının məhsulu olan tolerant düşüncə tərzi, müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrindən ibarət insan birliklərin birgəyaşayışının nəticəsidir. Tolerantlığın əsasını müxtəlif fəlsəfi-tarixi, mədəni-mənəvi prinsiplər təşkil edir. Tolerantlığın fəlsəfi-əxlaqi kateqoriya kimi məzmununu aşkar etmək onun əhəmiyyətini müəyyənləşdirməyə kömək edir.

Ölkəmizdə bütün tarixi dövrlərdə tolerantlıq yüksələn xətt üzrə inkişaf etmişdir və tarixi ənənəyə söykənən və uzun əsrlik tolerantlıq mühiti formalaşmışdır. Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsaslarını ölkənin qədim dövlətçilik tarixi, o cümlədən, bu ənənələrin inkişafı özündə ehtiva edir. Tarixi ənənələrə nəzər salsaq görərik ki, tariximizin ayrı-ayrı dövrlərində bu ciddi məsələ özünü müsbət tərəfdən büruzə verib. Məsələn, istər Səfəvilər dövləti, istər XIX-XX əsrlər maarifçilik dalğası, istərsə də Xalq Cümhuriyyəti dövründə Azərbaycan ərazisində yaşayan digər etnik xalqlar və dini qrupların nümayəndələrinin təmsilçiliyini özündə birləşdirmiş, bu siyasi davranış XX əsrin sonlarında ulu öndər Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası formasına çevrilmişdir. Bu da faktdır ki, Heydər Əliyev bu ideologiyanın ən gözəl izahını 2001-ci il noyabrın 9-da Dünya Azərbaycanlılarının Birinci Qurultayı zamanı etdiyi çıxışında «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, azərbaycanlıyam» sözləri ilə ifadə edib və dünya azərbaycanlılarını öz milli-mənəvi dəyərlərini unutmamağa, bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyası ətrafında birləşməyə çağırıb. Bu kəlam Azərbaycan coğrafiyası daxilində yaşayan müxtəlif mədəniyyətlərin həmrəyliyinə təkan verib. Bu həmrəyliyin əsasını isə tolerantlıq və multikulturalizm təşkil edir. Bir sözlə, azərbaycançılıq ideologiyası ölkə daxilində müxtəlif mədəniyyətliliyin və dini dözümlülüyün əks olunduğu vahid bir dəyərlər sistemidir. Bundan belə qənaətə gəlmək olar ki, bizə tarixən xas olan tolerantlıq dini dözümlülük və etnik bərabərlik mənasında işlədilir. Azərbaycanın timsalında dözümlülük və bərabərlik həm də dini konfessiyaların və etnik qrupların birgə mövcudluğu, əməkdaşlığı və bərabər imkanları üçün qarşılıqlı hörmət və münasibətlər sistemi olaraq qəbul edilir. Məhz bu səbəbdən də XXI əsrin Azərbaycanı bu münasibətlər sistemini özündə cəmləşdirərək müasir dünyanın tolerantlıq simvollarından birinə və digər cəmiyyətlər üçün örnək modelinə çevrilib. Dini tolerantlığın bir həyat tərzinə çevrildiyi Azərbaycan ərazisində üç səmavi dinin (yəhudilik, xristianlıq və islam) və eyni zamanda, müxtəlif inancların qarşılıqlı hörmət şəraitində yaşaması tarixi ənənələrin, müasir zamanda isə müvafiq qanunvericiliyin və məqsədyönlü dövlət siyasətinin göstəricisidir.

Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə bütün xalqları birləşdirir. Azərbaycanda müxtəlif milli-mənəvi və konfessional birliklər öz xüsusiyyətlərini hərtərəfli şəkildə inkişaf etdirmək imkanına malik olaraq həm də, başqa mədəniyyətdən də yararlanaraq, istifadə etmək

imkanına malikdir. Ölkədə multikulturalizmin yaranması və inkişafında modernləşmə və Azərbaycançılıq ideologiyası da əsas amildir. Bu ideologiyanın əsasını millilik, dünyəvilik, sosial ədalət, demokratiya, milli tərəqqi insan hüquq və azadlığına riayət təşkil edir. Bu ideologiya Azərbaycanı özünə vətən qəbul etmiş, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların vəhdət şəklində, dostluq, hətta qohumluq, qonşuluq, əmin-amanlıq şəraitində yaşadığı mədəniyyətlərinin inkişaf etdiyi ümumi talelərini əks etdirən, multikulturalizm göstəricisi olan mənəvi fenomendir. Digər bir aspekt isə ondan ibarətdir ki, Azərbaycançılıq ideologiyası yalnız ölkə ərazisində yaşayan müxtəlif etnik və dini mənsubiyyətli insanların göstəricisi yox, o həm də geosiyasi sərhədə və məkanların ayırdığı, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı da bir ideya-fəlsəfi, mədəni məkanda bütövləşdirən gücdür. Azərbaycançılıq - cəmiyyətin sosial-mədəni, siyasi və hüquqi nizamlanmasının, insanları mənən səfərbər edən və vəhdətinin əsas faktorudur.

Qeyd olunan bu aspektlər Azərbaycanı çoxmillətli, çoxdilli, multikultural, demokratik vətəndaş cəmiyyəti quruculuqlu ölkə kimi tanıtmışdır. Azərbaycanın multikultural stereotipləri qlobal tədbirlərdə də təsdiq olunur. 2011-ci il Bakı Forumunda iştirak edən Y.Jdanov multikulturalizmin inkişafı barədə belə fikir söyləmişdir: "Planetdə başqa elə bir bölgə yoxdur ki, buradakı kimi onlarla xalq çox uzun müddətə və birlikdə yaşamış olsun. Bu füsunkar çoxçalarlılıq bütün bəşəriyyətin dəyərli xəzinəsi hesab oluna bilər. Yəqin buna görədir ki, bu ölkənin ictimai-elmi fikri millətlərarası münasibətlər, əməkdaşlıq və qarşılıqlı anlaşma probleminə dünyanın diqqətini bu qədər cəmləşdirməyə çalışır. Azərbaycanın tarixi təcrübəsi bu baxımdan dəyərli və intəhasızdır". Məhz bu kimi baxışlar ölkədə multikulturalizmin inkişafını göstərən reallıqdır. Bu reallıqda bir dəlil multikulturalizmə həsr edilmiş "Bakı Beynəlxalq Humanitar Forumu", orada iştirak edən müxtəlif ölkələrin ölkəmizin multikultural siyasətini təqdir etməsidir. İkincisi isə demokratik, tolerant, multikultural dövlət kimi Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzvü seçilməsi faktıdır.

Qeyd etdik ki, ölkəmizdə yaşayan eyni bir doğma ailə kimi tarixi gerçəklik, genetik-etnik yaddaş və qarşılıqlı münasibətlərin ötürücüsü olan müxtəlif xalqlar: talış, ləzgi, avar, kürd, tatar, udin, tat və başqaları da özünü azərbaycanlı adlandırır.

Azərbaycanda yaşayan müxtəlif xalqların mənəvi yaddaşı tarixi inkişaf mərhələsində zərdüştlükdən üzübəri dünyanın bütün əsas dinlərinin ən ülvi, bəşəri dəyərləri ilə zənginləşərək, mədəniyyət və mənəviyyatın çoxsaylı cəhətlərini özündə miras saxlamışdır. Azərbaycanda multikulturalizm göstəricisi özünün rəngarəng tərkibi ilə fərqlənən və bu müxtəlifliyin etnik-milli mənbələrini qorumuş, burada yaşayan etnik-dini birliklərin qarşılıqlı münasibəti və mədəniyyəti, folklor, dialekt, adət, məişət tərzi, inam sistemi və s. müxtəlifliyin vəhdətini müəyyən edən obyektivlikdir.

Qanunvericiliklə hər bir millətin, dinin nümayəndəsinə öz millətinə bərabər hüquq və azadlıqlar verən, irqi ayrı-seçkiliyin heç bir şəkildə təzahürlərinə rast gəlinməyən, millətlərin yanaşı yaşadığı, möhkəm əlaqələrə malik olduğu və bir-birinə mühüm dəyərlər aşıladığı Azərbaycan mədəni nümunələrin, dəyərlərin əlaqələndiricisi - körpüsüdür. Elə buna görə də, ölkəmizin adı yüksək tolerantlıq sərgiləyən dövlətlərin siyahısında ən yüksək yerlərdən birini tutmaqdadır.

Bir sözlə, müasir Azərbaycan multikulturalizm modeli həm dinlərin bərabər inkişaf imkanlarını və etnik qrupların birgə yaşamasını təmin edir, həm də digər inanc və mədəniyyətlərə mənsub olan müxtəlif qruplara hörmətin və təmsilçiliyin təqdim edilməsini özündə ehtiva edir.

Azərbaycan türkləri mehriban, qonaqpərvər, sülhsevər və humanist olduğu üçün respublikamızda yaşayan digər xalqlar özlərini hərtərəfli ifadə edə bilirlər. Azsaylı xalqların hüquqları hər zaman qorunub və onlara ana dilini, mədəniyyətini, dinini yaşatmaq üçün şərait yaradılıb. Ona görə də Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, ictimai fikrinin formalaşmasında, eləcə də ölkəmizin ərazi bütövlüyünün qorunmasında bütün millətlərin nümayəndələri də örnək ola biləcək vətənpərvərlik nümayiş etdirmişlər.

Beləliklə, milli-mənəvi dəyərlərimizə və multikulturalizm dəyərlərini yüksək tutan dövlət siyasətinə əsaslanaraq qeyd etmək lazımdır ki, müasir dövrdə artıq Azərbaycan yüksək tolerantlıq nümunəsi, müxtəlif xalqların və dinlərin nümayəndələrinin yanaşı, sülh və təhlükəsizlik şəraitində yaşadığı ideal və arzuolunan ölkə kimi dəyərləndirilməkdədir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, "Qanun" nəşriyyatı. 2010.
2. Babayev Y. Təriqət ədəbiyyatı: sufizm, hürufizm. Ali məktəblərin filoloji fakültələri üçün dərs vəsaiti. Bakı, «Nurlan», 2007. 128 s.
3. Nizami Gəncəvi. İskəndərnamə. (İqbalnamə). Bakı, "Lider nəşriyyat", 2004, 256 səh.
4. Süleymanova E. Qloballaşan dünyada insan hüquqları. Qloballaşma və informasiya cəmiyyətinin problemləri. (elmi məqalələr toplusu). Bakı, 2011. 227 səh
5. Şükürov A. Qloballaşmış cəmiyyətlər: dünən, bu gün, sabah. Bakı, "Azərbaycan Universiteti nəşriyyatı" 2006. 191s.
6. Tusi Xacə Nəsirəddin. Əxlaqi-Nasiri. Bakı, "Lider nəşriyyat", 2005,



## ABSTRACT

**Novruzali Rahimov**

**Azerbaıjan multıculturalısm as a natıonal and moral value.**

In the scıentıfic article ıs explaıned the phılosophıcal concept of the multıculturalısm essence. It analysed also Azerbaıjanı multiculturalısm as natıonal and moral values. Shows the values of the Azerbaıjanı model of multıculturalısm.



## РЕЗЮМЕ

**Новрузали Рагимов**

**Азербайджанский мультикультурализм как национально-нравственная ценность.**

В научной статье объясняется философская концепция сущности мультикультурализма. В нем анализируется также азербайджанский мультикультурализм в качестве национальных и нравственных ценностей. Показывается значение азербайджанской модели мультикультурализма.



NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)



НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**



**QƏRİB ƏSGƏROV**

*Azərbaycan Respublikasnın Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
*esgerov.qerib@box.az*



**UOT:316.32**


# AZƏRBAYCAN-NATO ƏLAQƏLƏRİ: MİLLİ TƏHLÜKƏSİZLİK KONTEKSİNDƏ


**Açar sözlər:** *xarici siyasət, dövlət təhlükəsizliyi, milli təhlükəsizlik, geosiyasət, inkişaf*
**Key words:** *foreign policy, state security, national security, geopolicy, development*

**Ключевое слова**: *внешний политика, государственный безопасность, национальный безопасность, геополитика. развитие*

Beynəlxalq münasibətlərin subyekti kimi hər bir dövlətin nüfuzu onun həyata keçirdiyi milli inkişaf və təhlükəsizlik siyasəti ilə bilavasitə bağlıdır. Suveren dövlət kimi, Azərbaycan Respublikası bu gün daxili və xarici siyasət vasitələrindən istifadə edərək mövcud təhlükəsizlik mühitində təhdidlərin nəzarət altında saxlanılmasına və aradan qaldırılmasına, habelə ölkənin milli maraqlarının təmin edilməsinə yönəlmiş milli təhlükəsizlik siyasətini formalaşdırır və həyata keçirir. Bu siyasətin əsas elementləri müstəqilliyin, suverenliyin, ölkənin ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunması təşkil edir.

Azərbaycan xalqı sorağı minilliklərdən gələn tarixi boyu olduqca mürəkkəb şəraitlərdə yaşamış, böyük mədəniyyət yaratmış, dövlətlər qurmuş, varlığını sübuta yetirmiş və inkişaf edib formalaşmışdır. Ölkəmizin çoxəlverişli təbii-coğrafi mövqeyi ona istər yaxın qonşu, istərsə də uzaq dövlətlərin diqqətini daim cəlb etmiş, bu maraqdan irəli gələn təcavüzkar niyyətlər həmin mürəkkəb şəraiti səciyyələndirmişdir. {1.3}

Təbii ki, müasir dünyada baş verən fundamental dəyişikliklər Azərbaycan Respublikasından və onun vətəndaşlarının maraqlarından yan keçmir. Buna görə də ölkəmizin milli təhlükəsizlik və xarici siyasəti beynəlxalq aləmdə baş verən hadisələrin axarını və transmilli qloballaşma prosesinin xüsusiyyətlərini nəzərə almalı və bu sahədə mövcud olan bütün vasitələrdən istifadə etməlidir.

Marsel Merl vurğulayır ki, ”xarici siyasət dövlətin fəaliyyətinin “xaricə” yönəlmiş hissəsidir, yəni daxili siyasətdən fərqli olaraq onun hüdudlarından kənara mövcud problemlərin həlli ilə məşğuldur.Bu baxımdan ölkənin milli təhlükəsizliyinə xaricdən ola biləcək istənilən təhdidlərin vaxtında qarşısının alınması düşünülmüş xarici siyasi kurs tələb edir.

Azərbaycanın yerləşdiyi coğrafi mövqeyi hər cəhətdən istər geosiyasi, istərsə də strateji baxımdan önəm kəsb edir. Onun tutduğu geosiyasi, geoiqtisadi və geostrateji mövqe, yürütdüyü daxili və xarici siyasət dünyanın və regionun aparıcı dövlətlərinin maraqlarına toxunur və onların diqqətindən kənarda qalmır. Bu reallıq həm bölgənin, həm də ölkənin daxili təhlükəsizlik mühitinə birbaşa təsir göstərir. ABŞ və Qərbi Avropanın böyük ölkələri, regionun Rusiya, Çin, Türkiyə, İran kimi böyük dövlətləri və b. geosiyasi aktorlar Cənubi Qafqazda, Orta Asiya və bütövlükdə Avrasiyada öz maraqları çərçivəsində fəal geosiyasət reallaşdırır ki, bu da Azərbaycanın həm regional, həm də beynəlxalq maraqlarından yan keçmir.

Məhz regiondakı gərgin siyasi vəziyyətdən qorunmaq üçün Azərbaycan bu gün həm qonşuluq siyasətində, həm də digər region ölkələrlə olan münasibətlərində balanslaşdırılmış siyasət yürütməkdədir. Bu siyasətin əsas vəzifələri aşağıdakılardır:

- ölkənin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü, təhlükəsizliyini qorumaq və bunları beynəlxalq təhlükəsizlik sistemi ilə əlaqələndirmək.
- mənafeyi Azərbaycanın milli maraqları ilə həmçinin dövlətçilik maraqları ilə uyğun gələn ölkələrlə daha sıx əməkdaşlıq, müttəfiqlik etmək. Bu imkanlardan istifadə edərək beynəlxalq sistemdə mövqeyini möhkəmləndirmək
- regionda baş vermiş hər hansı bir gərginliyin və ya münaqişələrin aradan qaldırılmasına səy göstərmək.
- xalqın mənafeyinə uyğun xarici iqtisadi siyasət yeritmək, ölkə iqtisadiyyatını beynəlxalq iqtisadi sistemdə təmsil etmək.
- xarici ölkələrlə elmi, mədəni, humanitar əlaqələr qurmaq və bu kimi təşkilatlarda fəal iştirak etmək.

Azərbaycanın müstəqilliyinə qarşı yönələn bütün təhlükələrin aradan qaldırılması, milli təhlükəsizliyin təmin edilməsi, Ermənistan tərəfindən həyata keçirilən separatizm və işğalçılıq siyasətinin qarşısının alınması və bu məqsədlə bölgədə və dünyada müttəfiqlərin qazanılması ölkənin xarici siyasətinin əsas prioriteti hesab olunur.

Azərbaycan Respublikası xarici siyasətinin ən önəmli prioritetlərindən biri Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlıdır. Burada əsas olaraq Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq

normaları çərçivəsində həllinə nail olmaq götürülür. Bu məsələ həmçinin Azərbaycanın milli təhlükəsizlik siyasətinə bir başa daxildir.

Bundan əlavə region dövlətlərlə maraqların üst-üstə düşməsini təmin etmə və qarşılıqlı əməkdaşlıq çərçivəsində hərəkət etmək istiqamətini də xüsusi vurğulamaq lazımdır. ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə keçmiş müşaviri və geostrategiya üzrə dünya miqyasında tanınmış Z.Bjeziniskinin fikirlərindən aydın olur ki, böyük enerji resurslarına malik olan Xəzər regionu XX-XXI əsrlərin qovşağında təkrarən dünyada ən başlıca geosiyasi əhəmiyyət daşıyan bir məkana çevrilmişdir. Bu isə o deməkdir ki, regionun faydalı və təbii ehtiyat baxımından ən zəngindövləti olan Azərbaycan bu gün dünya siyasətinin əsas aparıcı dövlətləri olan Rusiya ilə ABŞ arasındakı çəkişmələrin meydanına çevriləcək.{6.170}Rusiya Federasiyası heç bir halda özünün maraq dairəsində olan keçmiş sovetlərə daxil olan dövlətləri qərbə güzəştə getmək istəmir.Qərb isə regiondakı maraqları naminə hər cür vasitələrə əl atmaqdan çəkinmir.Belə şəraitdə region dövlətlərinin, xüsusən də Azərbaycan Respublikasının təhlükəsizliyinin təmin olunması problemi gündəmə gəlir.

Bütün bunlar bu regionun həssas olmasından və super güc sayılan ABŞ və Rusiyanın bölgədəki ortaq maraqlarını nəzərə alaraqdan həyata keçirilir. Məhz, bu baxımdan balanslaşdırılmış siyasətin yürüdülməsi hal-hazırda məqsədə uyğun hesab edilir. Çünki bu regionda hər hansı bir gərginliyin və ya münaqişənin yaranması, ilk növbədə, böyük enerji ehtiyatlarına və layihələrinə malik olan Azərbaycan üçün arzu olunmaz haldır. Belə hallarda həmçinin ölkənin suverenliyi və milli təhlükəsizliyi təhdid altına düşmüş olur. Bu, nəinki Azərbaycan üçün, həmçinin regionun digər qonşu dövlətləri üçün də səciyyəvi xarakter daşıyır.

Regionda dünyanın aparıcı dövlətlərinin maraqlarının toqquşduğu bir şəraitdə Azərbaycan Respublikası öz maraqlarını qorumaq üçün müxtəlif beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq etməyə məcburdur. Azərbaycan özünün milli təhlükəsizliyini təmin etmək və xarici siyasətindəki prioritetlərini həyata keçirmək üçün bir sıra beynəlxalq təşkilatlarla yaxından əməkdaşlıq edir. Bu istiqamətdə əməkdaşlığın yaradılması Azərbaycanın xarici siyasət prioritetlərin əsas tərkib hissələrindən birirdir.

Bu təşkilatlar içərisində Şimali Atlantika Hərbi Alyansı – NATO xüsusi önəm daşıyır. NATO-nun qəbul etdiyi prinsiplər, təhlükəsizlik sistemi Azərbaycanın milli mənafeyinə və təhlükəsizliyinə cavab verir. Həmin prinsiplərin bəzilərinə nəzər salaq. {3.212}

- kollektiv təhlükəsizlik. hər bir özv olan dövlətin kollektiv təhlükəsizliyini təmin edilir
- demokratiya-sülh, insan hüquqları, suverenlik, ərazi toxunulmazlığı qorunur
- konsensus- qərar ümumi razılıq əsasında qəbul edilir
- qarşılıqlı təhlükəsizlik -üzv olan dövlət hərbi büdcələri haqqında məlumat verir, birgə hərbi təlimlər planlaşdırır və həyata keçirir.

NATO yarandığı dövrdən etibarən ümumi təhlükəsizliyin əldə edilməsi üçün məsuliyyətin bütün üzvlər arasında bərabər bölgüsü prinsipi əsasında fəaliyyət göstərmişdir ki, bu da son nəticədə özünün səmərəliliyini sübut etdi .{4.27} Bu qurumun Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsində yürütdüyü təhlükəsizlik siyasəti onun region ölkələri ilə imzaladığı "Sülh namını tərəfdaşlıq" və "Fərdi tərəfdaşlıq" kimi proqramlar çərçivəsində həyata keçirilir.

Azərbaycan MDB dövlətləri arasında NATO-nun Sülh naminə tərəfdaşlıq (SNT) proqramına qoşulan ilk tərəfdaş dövlətlərdən biridir. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev 4 may 1994-cü ildə NATO-nun mənzil qərargahına səfəri zamanı SNT-yə qoşulmaq haqqında SNT Çərçivə Sənədini imzalamışdır. NATO ilə gələcək əməkdaşlıq sahələrini müəyyən etmək məqsədilə Azərbaycan SNT Təqdimat sənədini hazırlayaraq 1996-cı ilin aprelində Alyansa təqdim etmişdir. İkitərəfli əməkdaşlığa hərbi əməkdaşlıq, hərbi modernizasiya, silahlı qüvvələr üzərində demokratik nəzarət, təhlükəsizlik məsələləri üzrə siyasi məsləhətləşmələr, sülhməramlı əməliyyatlar, təhlükəsizlik sektorunun islahatı, mülki-fövqəladə planlaşdırma, təhlükəsizliklə əlaqədar elmi, iqtisadi və ətraf mühit üzrə əməkdaşlıq kimi sahələr daxil olunmuşdur.

NATO-nun Azərbaycanda "Sülh Naminə Tərəfdaşlıq proqrmı"nın əsas məqsədləri aşağıdakılardır:
1.müdafiə qüvvələri üzərində demokratik nəzarət həyata keçirmək
2.milli müdafiəni planlaşdırmaq, ölkələr arasında sülh və sabitlik yaratmaq

3.humanitar əməkdaşlıq yaratmaq
4.hərbi təlimlərin birgə hazırlığı, birgə əməliyyat və döyüş hazırlığını həyata keçirmək.

NATO-nun Azərbaycanın milli təhlükəsizliyinin təmin olunmasında rolunu nəzərə alan Ümummilli lider Heydər Əliyev deyirdi:"Biz NATO - ya gənc Azərbaycan dövlətinə Qərb dünyası ilə sıx və çoxtərəfli qarşılıqlı münasibətlər yaratmaqda təcrübəsindən bəhrələnməkdə kömək etməyə qadir olan bir təşkilat kimi baxırıq"{5.347}

Azərbaycan Respublikası Avratlantik strukturları ilə tərəfdaşlığı bütövlükdə Avratlantik məkanında ümumi təhlükəsizliyə, iqtisadi inkişafa və demokratiyaya dəstək verəcək vasitə kimi görür. Azərbaycan Respublikası Avropa və Avratlantik məkanında qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasında NATO ilə birgə işləyir və təhlükəsizliyin bölünməzliyi prinsipinə zidd coğrafi və siyasi ayrı-seçkilik olmadan Avropada və yerləşdiyi regionda vahid təhlükəsizlik sisteminin qurulması yükünü bölüşmək əzmindədir. Azərbaycan Respublikası Avratlantik Tərəfdaşlıq Şurası və NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində NATO ilə mümkün olan tərəfdaşlıq vasitələrindən tam gücü ilə istifadə edir. Bu baxımdan Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı NATO ilə əməkdaşlığın yaxın və orta perspektivdə daha da gücləndirilməsi yolunda mühüm bir vasitədir. Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planından Azərbaycan Respublikasının təhlükəsizlik sektorunun islahatlar yolu ilə NATO standartlarına yaxınlaşdırılması və siyasi dialoqun inkişaf etdirilməsi üçün bir mexanizm kimi bundan sonra da istifadə olunacaqdır. Avropa məkanına daha sıx inteqrasiyanın zəruriliyi mövqeyindən çıxış edən Azərbaycan Respublikası Avropa İttifaqı ilə çoxşaxəli qarşılıqlı əlaqələr yaratmışdır.

Azərbaycan NATO-nun müxtəlif proqramlarına qoşulsa da öz maraqlarını bu əməkdaşlıq çərçivəsində daim qorumuşdur. Belə ki, NATO üzvü olan ölkələr ilə yanaşı regionun aparıcı dövləti olan Rusiya Federasiyası ilə də sıx əməkdaşlıq edərək özünün balanslaşdırılmış siyasətini uğurla həyata keçirmiş və bununla da milli təhlükəsizliyini təmin etməyə çalışır. Bildiyimiz kimi NATO, bir tərəfdən bölgə ölkələrini Rusiyanın geosiyasi və hərbi geostrateji təsirindən çıxararaq öz maraqları çərçivəsində istifadə etmək istəyir, digər tərəfdən isə onların siyasi-hərbi idarəçilik strukturlarını Avrova standartlarına uyğunlaşdırmaqla öz təsiri altında saxlamaq istəyir. Belə şərait bölgə ölkələrindən adekvat və d üşünülmüş siyasət tələb edir. Məhz öz təhlükəsizliyini qorumaq üçün Azərbaycan Respublikası NATO-ya üzvlüyü özünün əsas hədəfi kimi deyil, ölkənin beynəlxalq və regional təhlükəsizliyini təmin etmək vasitəsi kimi qəbul etmiş və bu qurumla əməkdaşlıq etməyi ona üzvlük məsələsindən daha üstün tutmuşdur. {2.244}

Bu gün Azərbaycanın NATO üçün hərbi-geostrateji əhəmiyyətini artıran amillərdən biri də onun zəngin təbii resurslara malik olan Xəzər hövzəsinə çıxışının olması və İranla qonşu dövlət olmasıdır. NATO Azərbaycan ərazisindən üçüncü dövlətə qarşı istifadə etməkdə maraqlı olsa da , Azərbaycan özünün təhlükəsizliyi məsələsini öndə tutara daim bu fikrə qarşı çıxmışdır. Azərbaycanın öz milli təhlükəsizliyi naminə ortaya qoyduğu bu mövqe təbii ki, NATO ilə hərbi tərəfdaşlıq məsələlərinə də mənfi təsir göstərmiyə bilməzdi. Nəzərə alsaq ki, söhbət Azərbaycanın milli təhlükəsizliyinin təmin olunmasından gedir, onda aparılan siyasətin nə dərəcədə əhəmiyyətli olduğunu bir daha görmüş olarıq.

Azərbaycanın xarici siyasətimizin ən önəmli vəzifə və prioritetlərindən biri Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normalrı çərçivəsində həllinə nail olmaqdır. Bu məsələ həmçinin Azərbaycanın milli təhlükəsizlik siyasətinə bir başa daxildir. Bu məsələdə bəzi dövlətlərin məsələyə ikili standartla yanaşması Azərbaycanı narahat etməklə yanaşı, milli maraqlarına da cavab vermir. Xüsusilə də ATƏT-in məsələyə qeyri obyektiv, ikili standartlarla yanaşması bu problemin həllinin yubanmasına gətirib çıxarıb. Azərbaycan tərəfi rəsmi olaraq bu məsələyə dəfələrlə öz narazılığını bildirmişdir. Çünki, problem nə qədər çox yubanarsa bölgədəki gərginlik də bir o qədər artar və yeni bir müharibənin başlanmasına belə gətirib çıxara bilər.

Azərbaycan- NATO əlaqələrinin inkişaf etdirilməsinə sonrakı mərhələlərdə Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə olan biganə münasibət, münaqişənin həlli üçün qətiyyətli addımların atılmaması olmuşdur. Xüsusən ABŞ-ın bu məsələyə qeyri-prinsipial və ikili yanaşması Azərbaycanın ictimai rəyində mənfi qarşılanmışdır ki, bu da sonralar tərəflər arasında hərbi təhlükəsizlik sahəsində əməkdaşlıqda bir daha özünü göstərmişdir.

Bütün bunlara baxmayaraq, Azərbaycanın təhlükəsizliyində Avropanın təhlükəsizlik sistemi mühüm rol oynayır. Nəzərə alsaq ki, Avropanın təhlükəsizliyinin təmin olunmasında həlledici rolu NATO oynayır, bu baxımdan Azərbaycanın da bu təşkilat ilə əlaqələrinin inkişaf etdirilməsi tam zərurətə çevrilib.

1997-ci ildən Azərbaycan öz qoşunlarını NATO standartlarına uyğunlaşdırmaq istiqamətində Planlaşdırma və Analiz Prosesinə qoşuldu. Bakı Ali Ümumqoşun Komandirlər məktəbində " NATO.SNT" kafedrası yaradıldı. SNT çərçivəsində sülhqoruma əməliyyatlarında iştirak etmək üçün sülhməramlı bölük yaradıldı. Azərbaycan hərbi qüvvələrinin nümayəndələri NATO xətti ilə keçirilən " Kooperativ Bear-98,"SMX-98", "Kooperativ Key-98" təlimlərində iştirak etmişdilər.

Azərbaycan Respublikasının Milli Məclisi 21 noyabr 1997-ci ildə Azərbaycan Respublikasının NATO-nun Brüssel şəhərində yerşən qərargah mənzilində diplomatik nümayəndəliyinin yaradılmasını təsdiq etmişdir.Bəzi tədqiqatçılar hesab edirlər ki, Azərbaycanın NATO ilə əmakdaşlıq etmə məqsədi Ermənistanın da qoşulmuş oldğu Rusiyanın rəhbərlik etdiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) cavab olaraq atılan addımdır. Ancaq NATO öz növbəsində 2004-cü il İstanbul sammitində Cənubi Qafqaz və Mərkəsi Asiya regionlarını özünün strateji əhəmiyyətli zonaları olduğunu bildirən sənəd qəbul edərək özünün də regionla əməkdaşlıqda maraqlı olduğunu göstərdi. Bu gün Azərbaycan-NATO əlaqələri yüksək səviyyədə inkişaf edir və müasir dövrüntələblərinə tamamilə cavab verir. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri çərçivəsində, 29 aprel 2009-cu il tarixində NATO-nun o zamankı Baş katibi Yaap de Hoop Sxefferlə görüşündə də növbəti dəfə təsdiqlənmişdir. NATO-nun mənzil-qərargahında baş tutan görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və NATO-nun Baş katibi Yaap de Hoop Sxeffer mətbuat nümayəndələri qarşısında bəyanatlarla çıxış etmişlər. Azərbaycanın NATO üçün regionda mühüm rol oynayan ölkə olduğunu vurğulayan Yaap de Hoop Sxeffer enerji təhlükəsizliyinə toxunaraq bildirib ki, "enerji təhlükəsizliyinin dünyada böyük əhəmiyyət kəsb etdiyi bir dövrdə Azərbaycanın rolu daha da artıb". Dağlıq Qarabağ münaqişəsinə də münasibət bildirən cənab Sxeffer qeyd edib ki, "28 NATO ölkəsi Dağlıq Qarabağ probleminin həllinin suverenlik və ərazi bütövlüyü prinsipi əsasında tapılması fikrini müdafiə edir. NATO Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində birbaşa rol oynamasa da, hesab edir ki, münaqişənin həllində ərazi bütövlüyü prinsipi əsas götürülməlidir.

Tərəfdaşlığın gələcəyi və NATO-nun regiona siyasəti ilə bağlı Azərbaycan hesab edir ki, Avro-Atlantika təhlükəsizliyi böhranların idarəolunması sahəsində imkanların artırılması, etibarlı nəqliyyat dəhlizlərinin yaradılması və enerji təhlükəsizliyi kimi sahələrin inkişaf etdirilməsindən asılıdır. Bütün bunlar Tərəfdaşlığın bir institut kimi daha da inkişaf etdirilməsini tələb edir. Tərəfdaşlığın inkişaf etdirilməsi NATO ilə 3 pilləyə əsaslanan təhlükəsizlik əməkdaşlığının inkişaf etdirilməsinə şərait yaratmalıdır: siyasi yekdillik (political unanimity), hüquqi ahəngdarlıq (legal harmony) və əməli uyarlılıq (practical interoperability).

Belə inkişaf NATO-nun hazırda artan qlobal rolu çərçivəsində və Sülh Naminə Tərəfdaşlıq proqramının Çərçivə Sənədində əks olunmuş prinsiplər əsasında fəal, Avropa dəyərlərini bölüşən və beynəlxalq hüquqa hörmətlə yanaşan tərəfdaşlara təhlükəsizlik qarantiyalarının verilməsini ehtiva etməlidir. Təhlükəsizlik qarantiyalarının verilməsi beynəlxalq hüququn pozulmasının qarşısını alır və beynəlxalq münasibətlərdə sabitliyi təşviq edir.

Azərbaycanın hərbi-geostrateji durumu, bu sahədə yürütdüyü siyasət və atdığı addımlar həm Qərbin, xüsusilə ABŞ, AB və NATO-nun, həm də Rusiya, İran və Çin kimi region ölkələrinin diqqət mərkəzində dayanır. Regionun Rusiya, İran və Türkiyə kimi güclü ölkələri ilə həmsərhəd olması, dünyada və bölgədə balanslı, tarazlaşdırılmış xarici siyasət aparması, heç bir hərbi-strateji bloka üzv olmaması, əksər ölkələrlə tərəfsiz əməkdaşlıq etməsi və s. geosiyasi addımları onun təhlükəsizlik mühitinə və beynəlxalq imicinə təsirsiz ötüşmür. Bu mənada Azərbaycanın davamlı olaraq müstəqillik illərində yürütdüyü dinc tətəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq siyasəti ona "regionda geosiyasi gərginliyi azaldan və bərabərhüquqlu əməkdaşlıq mühiti yaradan konstruktiv dövlət" imici qazandırmışdır.Bu amil dünya birliyində ölkəmizə etibarlı və sözübütöv

tərəfdaş imici qazandırmış, Xəzər hövzəsi və Cənubi Qafqazda onun reallaşdırdığı transmilli layihələrə diqqəti artırmış və bölgədəki geosiyasi roluna ciddi maraq yaratmışdır.

Bu gün bütün dünyada təhlükəsizlik anlayışı dövlətlərin malik olduğu müdafiə potensialı ilə ölçülərək yalnız hərbi hazırlıq sahəsini əhatə etmir. Müasir dövrdə ayrı-ayrı dövlətlərin və bütövlükdə regionların təhlükəsizliyi siyasi, iqtisadi, xüsusilə isə enerji təhlükəsizliyinin təminatı baxımından səciyyələndirilir. Xüsusilə, iqtisadi təhlükəsizlik ölkənin milli təhlükəsizliyinin mühüm tərkib hissəsi olub, dövlətin geosiyasi gücü hesab edilməklə müstəqilliyin möhkəmlənməsinə xidmət göstərir.

## ƏDƏBİYYAT


1.R.Mehdiyev:Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi.Bakı 2001. Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı.171s.
2.Ə.Həsənov.Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı-2011.Nəşriyyat evi. 423 səh.
3.Abbas Piriyev.Siyasi strategiya və milli təhlükəsizlik problemi.Bakı-2002. Çaşıoğlu .527s.
4.Azər Əzimli: Azərbaycan- NATO münasibətləri(1992-2000) Bakı-2001.Adiloğlu 256s.
5.Heydər Əliyev: Müstəqillik yollarında, I cild. Bakı, 1997.423s
6.Hikmət Babaoğlu " Azərbaycan Respublikasının dünya siyasətində yeri və rolu" Bakı, 2009. Çinar 328 s.



## ABSTRACT

**Garib Askerov**

**Azerbaijan-NATO connection.:at the context of national safety**

NATO-Azerbaijan relations date back to 1992, when Azerbaijan joined the North Atlantic Cooperation Council (later renamed the Euro-Atlantic Partnership Council in1997. Relations between Azerbaijan and NATO were given asignificant impetus, when on 4 May 1994, the President of Azerbaijan Heydar Aliyev signed the *Partnership for Peace Framework Document a*nd Azerbaijan joined the *PfP Programme*. The Partnership for Peace Programme has proved to be a very successful mechanism in promoting and developing defence co-operation and military interoperability between NATO and partner nations, that enables us to engage in joint crisis management and peace support operations.

**In 1996,** Azerbaijan submitted its PfP Presentation Document to NATO and its *first Individual Partnership Programme* was adopted. The annual Individual Partnership Programme is prepared between NATO and Azerbaijan to meet the goals, objectives and requirements stemming from the PfP Presentation Document of the Republic of Azerbaijan. Azerbaijan was also **the first country in the region** to sign a **Status of Forces Agreement (SOFA)** with NATO in 1996.

**In 1997,** Azerbaijan was among one of the first post-soviet Republics that joined the *Planning and Review Process. For* the PARP cycle of 2000-2002, Azerbaijan accepted 27 Partnership Goals (PGs), while for the PARP cycle of 2004-2006, the number of PGs taken by Azerbaijan increased to 33. Many PGs have been implemented, and some, due to specific constraints, partially implemented or transferred to the next PARP cycles. PGs are focused on achieving military interoperability with NATO troops through introduction of NATO's political-military, military, training and technical standards.

Azerbaijan was among the first countries to express its intention to *join Individual), Partnership Action Plan (IPAP* which was suggested to partner nations by Alliance *as a new* PfP mechanism at the NATO Prague Summit *in 2002.* An official *"letter of intent"* was submitted to NATO Secretary General Lord Robertson, during his visit to Azerbaijan on 15 May 2003.

**On 27 May 2005,** Azerbaijan's IPAP document containing concrete objectives and actions on significant domestic reform was agreed by the North Atlantic Council and subsequently approved by President Ilham Aliyev.**In 2007,** Azerbaijan successfully completed its first IPAP cycle and

started together with NATO International Staff (IS) to elaborate new IPAP document for the second, 2007-2009 cycle.**In 2010**, Azerbaijan completed its second IPAP cycle and started together with NATO International Staff (IS) to elaborate the third IPAP document for the 2011-2012 cycle.**In 2011,** NATO and Azerbaijan agreed their third Individual Partnership Action Plan.


**РЕЗЮМЕ**

**Гариб Аскеров**

**Взаимотношение Азербайджан- НАТО в контексте национальный безопасность**

Сейчас очень широко обсуждаются вопросы, связанные с обеспечением безопасности на европейском континенте. Новое время принесло с собой новые проблемы, для решения которых старые институты оказались неэффективными. Организация Североатлантического договора стремится стать основным гарантом стабильности в Европе, но возникает вопрос, возможно ли все-таки появление альтернативной военной структуры в рамках Европейского Союза, который в последнее время активизировал свою внешнюю политику и политику в сфере безопасности. Значительное влияние на осознание и формирование национальных интересов оказывают национальные ценности - это фундаментальные нормы, выражающие особую значимость определенных духовных и материальных благ для существования и развития нации. Мир ценностей - это, прежде всего, мир культуры в широком смысле слова, это сфера духовной деятельности человека, его нравственного сознания, его привязанностей - тех оценок, в которых выражается мера духовного богатства личности. Иерархия национальных интересов страны определяет и систему ее национальных целей. Национальные цели - это основополагающие ориентиры в деятельности государства, общества и отдельных граждан по реализации и защите национальных интересов.
Национальные цели - наиболее подвижный элемент в системе национальной безопасности, они определяются и формируются в обществе через призму национальных ценностей и интересов.



NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Hüquq üzrə fəlsəfə doktoru, dosent* Y.Hüseynov

НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**



**SEVİNC ABBASOVA**

*Naxçıvan Dövlət Universiteti*



**UOT: 316-32**


# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA GENDER QANUNVERİCİLİYİNİN TƏŞƏKKÜLÜNÜN BƏZİ MƏSƏLƏLƏRİ (1993-1997-Cİ İLLƏR)


**Açar sözlər:** *Heydər Əliyev, Azərbaycanda hüquqi dövlət quruculuğu, dövlət qadın siyasəti, gender bərabərliyi, gender qanunvericiliyi*

**Key words:** *Heydar Aliyev, construction of the legal state in Azerbaijan, national women's policy, gender equality, the gender legislation*

**Ключевые слова:** *Гейдар Алиев, строительство правового государства в Азербайджане, государственная женская политика, гендерное равенство, гендерное законодательство*

1993-cü ildə Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışı Azərbaycan qadınının inkişafına, müxtəlif sahələrdə özünü gerçəkləşdirilməsinə şərait yaratdı. Heydər Əliyevin qətiyyətli addımları nəticəsində qadınların ictimai-siyasi transformasiyası, onların dövlət idarəçiliyində təmsilçiliyi, bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olması, dövlət idarəçiliyi kursunun prioritet istiqamətlərindən birinə çevrilmişdir [**1**, 106].

1990-cı illərin əvvəlləri – mübaliğəsiz söyləyə bilərik ki, xalqımızın ən yeni tarixinin ən faciəvi, ən ağrılı-acılı, ən itkili dönəmidir. Tarixdə elə dövrlər olur ki, cəmiyyətin həyatında baş verən dəyişikliklər son dərəcə yüksək intensivlik kəsb edir. Və bu qəbil dəyişikliklərin istər miqyası, istərsə də məzmunu dövlətin və millətin varlığını sual altına alır. Adətən bu cür dəyişikliklər xarici təsirlərlə əlaqədar baş verir [**2**, 3]. Bəhs edilən dövrün siyasi mənzərəsi araşdırılarkən belə bir önəmli məqam xüsusi vurğulanmalıdır ki, 1990-cı illərin əvvəlində istər daxili, istərsə də xarici (geosiyasi) amillər üzündən Azərbaycanın nəinki müstəqil bir dövlət kimi perspektivləri, ümumiyyətlə milli varlığının özü son dərəcə ciddi təhlükələrlə qarşılaşmışdı. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin yazdığı kimi, "mənfi ictimai-siyasi proseslərin gedişi təkidlə tələb edirdi ki, Azərbaycanı tamamilə dağılmaq və ya parçalanmaq təhlükəsindən yalnız sözün həqiqi mənasında tarixi miqyaslı, həm Azərbaycan millətinə xas olan mühüm dəyərlərin müəyyən toplusunun təcəssümü rolunda, həm də qeyri-standart siyasi qərarların güclü və iradəli mənbəyi rolunda çıxış etməyə qadir olan şəxsiyyət xilas edə bilər. Yalnız böyük dövlət xadimi milləti xilas edə, onun ideyasını həyata keçirə bilər" [**3**, 10].

Tale xalqımıza ən yeni tarixinin ən mürəkkəb, ən keşməkeşli dönəmində belə böyük dövlət xadimini – Ulu Öndər Heydər Əliyevi nəsib etdi. Təsadüfi deyildir ki, məhz Ulu Öndərin təməlini qoyduğu inkişafın Azərbaycan modeli siyasi və sosial transformasiyaların uğurlu örnəyi kimi qavranılmaqdadır. Heydər Əliyevin 1990-cı illərin ilk yarısında fəaliyyəti öz məzmununa görə siyasi hərc-mərclikdən sistem nizamına, faktiki iqtidarsızlıqdan dəqiq strukturlaşdırılmış hakimiyyət düzəninə doğru hərəkəti təmsil edirdi. 1993-1994-cü illərdə Heydər Əliyev hüquqi düzəni, və deməli, sabitliyi təmin edən dövlət-hüquq yaradıcılığı üzərində diqqətini cəmləşdirmişdi. Ulu Öndərin o dönəmdəki siyasi kursu ilk növbədə dövlətin hüquqi dayaqlarının, onun güc tərkib hissəsinin möhkəmləndirilməsinə yönəlmişdi.

1994-cü ilin oktyabr – 1995-ci ilin mart aylarında xaricdən yönəldilən və idarə olunan hərbi-siyasi müxalifətin çevriliş cəhdlərinin qarşısının alınmasından, "Azərbaycanda zor gücünə, silahlı dəstələrdən istifadə etməklə hakimiyyətə gəlmək ənənəsinə son qoyulduqdan" [**4**] sonra ölkəmizin ən yeni tarixinin artıq keyfiyyətcə yeni mərhələsi başlanırdı. Yeni mərhələnin səciyyəvi xüsusiyyətləri kimi sabitliyin tamamilə bərqərar olması, siyasi və dövləti institutların, hakimiyyət strukturlarının formalaşmasının başa çatdırılması çıxış edirdi. "Azərbaycan dövlətçiliyinin milli identifikasiyasının başlıca ehkamları məhz həmin dövrdə formalaşmışdır" [**5**, 17].

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də hüquqi dövlətin Azərbaycan modelini yaratması olmuşdur. Bu istiqamətdə ən mühüm addım 1995-ci ilin noyabrın 12-də müstəqil Azərbaycan dövlətinin konstitusiyasının ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi idi. Prezident İlham Əliyevin 21 yanvar 2013-cü il tarixli "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" sərəncamında vurğulandığı kimi, "Ölkəmizin Əsas Qanunu – Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsiplərinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissəsidir" [**6**]. Bu konstitusiya Azərbaycan tarixində ilk dəfə olaraq müasir demokratiya standartlarına tamamilə cavab verməklə, ölkədə gedən institusional dəyişiklikləri dünyanın qabaqcıl ölkələrinin hüquqi-normativ təcrübə və praktikalarına uyğun məcraya yönəltmişdi. Təsadüfi deyildir ki, konstitusiyanın 158 maddəsindən 48-si, başqa sözlə, təqribən üçdə biri sırf insan hüquq

və azadlıqlarının təminatına yönəlmişdi. Əsas qanunun 7-ci maddəsi bəyan edirdi: “Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır” [**7**, 5]. Müasir Azərbaycan Konstitusiyasında konstitusionalizmin klassik ideyası öz əksini tapmışdır: insan hüquq və azadlıqlarının prioriteti; siyasi plüralizm; hakimiyyətlərin bölgüsü; konstitusion nəzarət institutu və s. Konstitusiya “ictimai müqavilə” olaraq dövlət, cəmiyyət və fərd arasında münasibətləri müəyyən etdi, insan hüquqlarının prioritetini özündə təsbit etdi. O, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və digər beynəlxalq müqavilə və konvensiyalarda insan hüquqlarına dair nəzərdə tutulmuş müddəaları tam şəkildə ehtiva edir. Konstitusiyanın ikinci bölməsinin “Əsas insan və vətəndaş hüquqları və azadlıqları” adlanan üçüncü fəsli hüquq və azadlıqların təminatı və müdafiəsi mexanizmlərini müəyyənləşdirir [**7**, 10-24]. Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası həm birinci nəsil (şəxsi və siyasi hüquqlar), həm də ikinci nəsil (sosial-iqtisadi və mədəni hüquqlar) insan hüquqlarını ehtiva etməklə, Azərbaycanda hüquqi dövlətin sonrakı inkişafının, ölkədə vətəndaş cəmiyyəti quruculuğunun qüdrətli təməlinə çevrildi.

Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının qarantı olan Konstitusiya qadın haqları və azadlıqlarının da ən ali qanunvericilik səviyyəsində təminatçısıdır. Onlar dövlətimizin Ana Qanununun “Əsas hüquqlar, azadlıqlar və vəzifələr” adlanan ikinci bölməsində özünün dolğun ifadəsini tapmışdır. Azərbaycan Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını təşkil edir. Azərbaycanın aparıcı genderşünaslarından R. Mirzəzadənin yazdığı kimi, “burada əsas məsələ həyatın bütün sahələrində qadın və kişilərin təkcə bərabər imkanlarla təmin edilməsində deyil, ən əsası, qadının sosial müdafiə obyektindən aktiv hərəkətdə olan şəxsiyyətə çevrilməsində, cəmiyyətdəki mövqeyinin köklü surətdə dəyişilməsindədir” [**8**, 283].

Konstitusiyanın 25-ci maddəsində deyilir ki, kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. Əsas Qanunun 55-ci maddəsində göstərilir ki, Azərbaycan vətəndaşlarının, eləcə də qadınların dövlət orqanlarına seçmək və seçilmək hüququ, eləcə də referendumda iştirak etmək hüququ var [**7**, 10, 19]. Bu müddəa ölkə qanunvericiliyinin digər hüquqi-normativ aktlarında da öz təsbitini tapmışdır. Ümummilli lider Heydər Əliyevin 1995-ci ilin avqustun 12-də imzaladığı “Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında” qanunun 2-cü maddəsində bəyan edilirdi ki, “Mənşəyinə, siyasi baxışlarına, sosial və əmlak vəziyyətinə, irqi və milli mənsubiyyətinə, cinsinə, təhsilinə, dilinə dinə münasibətinə, məşğuliyyət növünə və xarakterinə görə Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarının birbaşa, dolayısı ilə və ya başqa şəkildə məhdudlaşdırılması qadağandır” [**9**].

Konstitusiyanın 25-70-ci maddələrində o cümlədən cinsi əlamətə görə ayrı-seçkilik qoymadan əsas insan hüquq və azadlıqlarına dair müddəalar hüquq bərabərliyinin hüquqi-normativ zəminini təşkil edir. Yeri gəlmişkən, qeyd edərdik ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 154-cü maddəsi ayrı-seçkiliyə yol verilməməsi ilə əlaqədar konstitusiyada təsbit edilmiş müddəaların pozulmasına dair kifayət qədər ciddi sanksiyalar nəzərdə tutur [**10**, 105].

Əsas qanunun 34-cü maddəsinə görə, ər ilə arvadın hüquqları bərabərdir. Həmçinin həmin maddədə nikahın könüllü razılıq əsasında bağlanılması haqqında müddəa da yer almışdır.Yeri gəlmişkən, o dövrdə qüvvədə olan “Nikah və ailə” məcəlləsinin müvaqfiq maddələri də ailədə hüquq bərabərliyini təsbit edirdi; məcəllə qadın və kişinin bərabər şəxsi hüquqlara və əmlak hüququna malik olduğunu açıq şəkildə bəyan edirdi. Həmçinin ər-arvaddan hər biri istədiyi məşğuliyyəti, sənəti və yaşayış yerini seçməkdə azad idi [**11**, 6, 11].

Konstitusiyanın 42-ci maddəsi qadınlar və kişilərin eyni təhsilalma hüququna malik olduğunu nəzərdə tutur. Dövlət pulsuz ümumi təhsilə təminat verir [**7**, 13-14, 16].

Azərbaycan Respublikasının 1994-cü ilin dekabrın 1-də qüvvəyə minmiş “Məzuniyyətlər haqqında” Qanunu qadınlara ictimai istehsalatda əməyi uşaqların tərbiyəsi ilə birləşdirməyə imkan verən daha əlverişli şərtlərin yaradılmasını nəzərdə tuturdu. Məsələn, əsas və əlavə məzuniyyətlərin müddətindən asılı olmayaraq, 14 yaşınadək iki uşağı olan qadınlara 3 təqvim günü, bu yaşda üç və daha çox uşağı olan, həmçinin 18 yaşınadək əlil uşağı olan qadınlara isə 6 təqvim günü müddətində əlavə məzuniyyət verilir (maddə 12). Sözügedən qanunda hamiləlik dövründə və doğuşdan sonrakı

dövr üçün işləyən qadınlara 126 təqvim günü müddətində ödənişli məzuniyyət də nəzərdə tutulmuşdur (maddə 22) [**12**, 7, 12; **13**, 46-48]. Həmçinin qanunun 23-cü maddəsində deyilirdi ki, "bilavasitə uşağa qulluq edən valideynlərdən biri... uşağın 3 yaşı tamam olanadək ona qulluq etməkdən ötrü qismən ödənişli məzuniyyət almaq hüququna malikdir" [**12**, 12].

Azərbaycanda qadın hüquqlarının və gender bərabərliyinin keşiyində duran 150-yə yaxın sənəd imzalanmışdır. Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası qadın hüquqlarının qorunması üzrə demək olar ki, bütün mühüm beynəlxalq sənədlərə qoşulmuşdur. 1992-ci il avqustun 4-də Azərbaycan Respublikası BMT-nin "Qadınların siyasi hüquqları" üzrə 1952-ci il konvensiyasına, 1995-ci il iyunun 30-da "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması" haqqında konvensiyasına, 2000-ci ildə isə onun Əlavə Protokoluna, 1996-cı il mayın 31-də "Nikaha daxil olmağa razılıq, minimal nikah yaşı və nikahların qeydə alınması haqqında" 1962-ci il tarixli konvensiyasına, haabelə "Ərdə olan qadınların vətəndaşlığı haqqında" 1957-ci il və "İnsanlarla ticarət və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında" 1949-cu il tarixli konvensiyalarına qoşulmuşdur. 1993-cü ilin iyulun 3-də Azərbaycan Respublikası Milli Məclisi Beynəlxalq Əmək Təşkilatının əvvəllər SSRİ tərəfindən qəbul olunmuş konvensiyalarının qüvvəsinin Azərbaycan Respublikası ərazisinə şamil edilməsi haqqında qərar çıxarmışdır. Digər konvensiyalarla yanaşı ölkəmiz BƏT-in 1951-ci il 29 iyun tarixli "Bərabər əməyə görə kişilərə və qadınlara bərabər əmək haqqı verilməsi haqqında", 21 iyun 1935-ci il tarixli "Qadınların müxtəlif yeraltı işlərdə və şaxtalarda əməyinin məhdudlaşdırılması haqqında", 28 iyun 1952-ci il tarixli "Analığın mühafizəsi haqqında" konvensiyalarına qoşulmuşdur [**14**, 100-108; **15**, 12].

BMT Konvensiyaları arasında şübhəsiz ki, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya (CEDAW) xüsusi önəmə malikdir. Fəslin ilk paraqrafında da qeyd etdiyimiz kimi, qadınların fərdi və kollektiv hüquqlarının müdafiəsi nöqteyi-nəzərindən əsas beynəlxalq sənəd olan bu konvensiya "qadınlara qarşı ayrı-seçkilik" anlayışının dəqiq tərifini verməklə, qadınların cəmiyyətdə yeri və rolunu səciyyələndirən problemlərin geniş spektrini əhatə edir. Əslində bu konvensiyaya qoşulmaqla Azərbaycan Respublikası bir daha hüquqi, demokratik dövlət quruculuğu ideyasına tərəfdarlığını təsdiq etməklə yanaşı, qadın hüquqlarının müafiəsi və əməli surətdə həyata keçirilməsi sahəsində sivil dünya üçün artıq yaşam normasına çevrilmiş ən qabaqcıl standartlara qatıldığını nümayiş etdirmiş olurdu. Hökumətin sonrakı addımları bu hadisənin quru bəyanat yox, həqiqətən qadınlarımızın ictimai-siyasi və sosial-iqtisadi həyata daha fəal cəlb olunmaları istiqamətində möhkəm hüquqi baza olduğunu sübut etdi. Qeyd etməliyik ki, Azərbaycan Respublikası sözügedən konvensiya üzrə ilk hesabatını BMT-nin müvafiq Komitəsinə 1997-ci ilin sentyabrında təqdim etmişdi [**16**]. Məruzədə Azərbaycanın müstəqillik əldə etdikdən sonra üzləşdiyi problemlər ətraflı şərh edilmiş, bu problemlərin Ermənistan Respublikasının açıq təcavüzü, ölkəmizin ərazisinin 20%-nin işğal olunması, 1 milyona yaxın vətəndaşın öz yurdlarından didərgin düşməsi səbəbilə daha da ağırlaşması zəngin statistik məlumatlara istinadən xüsusi vurğulanmış, ölkədə qadınların vəziyyətindəki dəyişikliklərin təsviri verilmişdir. Orada həmçinin Azərbaycan Respublikasında insan hüquqlarını təmin edə ümumi hüquqi əsaslar təfərrütlı şəkildə açıqlanmışdır. Bu zaman Konstitusiyanın müvafiq maddələrindən zəruri sitatlar gətirilmişdir. Məruzədə o illərdə qüvvədə olan qanun və məcəllələrdə qadınların hüquqi bərabərliyi (o cümlədən hələ 1991-ci ilin iyunun 27-də qəbul edilmiş "Azərbaycan Respublikasında əhalinin məşğulluğu haqqında" qanunla əmək münasibətləri sahəsində təsbit edilmiş gender bərabərliyi) prinsipinin, habelə qadınlara münasibətdə ayrı-seçkiliyə qarşı müddəaların hansı formada əks olunmasının xülasəsi verilir. Gətirilmiş bilgilərə əsasən, respublikanın dövlət və təsərrüfat idarəçiliyi orqanlarının aparat işçilərinin 1/3-ni qadınlar təşkil edirdi. Ölkəmizin 1990-cı illərin ortalarında xaricdəki səfirliklərində 15 qadın çalışırdı ki, onlardan 1-i səfir, 1-i müşavir, 5-i attaşe və 8-i texniki işçi idi [**16**, 17]. Məruzədə həmçinin qeyd olunurdu ki, əksər Azərbaycan qadınları yüksək səviyyəli təhsil almışlar və 1996-cı ildən etibarən ali təhsil alan qızların sayı oğlanların sayını üstələmişdir. Lakin kişilərlə müqayisədə daha çox sayda qadın işsizdir və az sayda qadın qərarların qəbul edilməsi səlahiyyətlərinə malik vəzifələrdə təmsil olunmuşlar.

BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Komitəsinin XVIII sessiyasının 1998-ci il yanvarın 20 və 23-də keçirilmiş iclaslarında Azərbaycanda Konvensiyanın həyata keçirilməsi haqqında hesabat məruzəsi dinlənilmişdir. Yeri gəlmişkən, həmin sessiyada Azərbaycanı Fatma Abdullazadənin başçılığı altında rəsmi nümayəndə heyəti təmsil edirdi [**17**, 317].

Sözügedən qurum özünün yekun şərhlərində məruzəni bəyəndiyini bildirmişdi: "Komitə ratifikasiyadan 1 il keçdikdən sonra məruzənin təqdim edilməsini yüksək qiymətləndirir və buna rəğmən, yüksək səviyyəli nümayəndə heyəti tərəfindən əlavə şifahi məlumatların mükəmməl şəkildə təqdim olunmasını alqışlayır" [**18**, 6]. Bununla yanaşı, Komitə hələ də görüləsi işlərin zəruri olduğu problem sahələri də göstərirdi. Ora Fəaliyyət Platformasının icrası ilə əlaqədar hökumət tərəfindən müvafiq planın hazırlanmaması, ölkənin inkişaf prosesində qadınların hərtərəfli iştirakı üçün ardıcıl və müfəssəl strategiyaya şərait yaradan milli mexanizmlərin rolunun hələ də dəqiqləşdirilməməsi, de-yure və de-fakto bərabərliyi arasında uyğunsuzluqların hələ də mövcudluğu, qadınlar (o cümlədən ali təhsillilər) arasında yoxsulluğun və işsizliyin faiz dərəcəsinin artması, ana, həmçinin uşaq ölümünün narahatlıq doğuracaq səviyyədə olması, qadınlara qarşı məişət zəminində zorakılıq hallarının çoxalması, qadınlar arasında vərəm və yoluxucu xəstəliklərin yayılması, kənd yerlərində qadınların vəziyyəti, qaçqın qadınların qeyri-müəyyən maddi və psixoloji şəraitləri və s. məsələlər daxil idi. BMT strukturunun Azərbaycan tərəfinə təqdim etdiyi təklif və tövsiyələr də göstərilən problemlərin çözümü ilə əlaqəli idi. Tövsiyələrdə həm qadınların sosial və iqtisadi status və durumlarının yaxşılaşdırılmasına dair istəklər, həm də qadınların müvafiq qanunvericilik vasitəsi ilə irəliləməsi üçün milli mexanizmlərin rolunun müəyyənləşdirilməsi ilə bağlı müddəalar yer almışdı [**18**, 7-11].

Təbii ki, "Yekun şərhlərdə" qeyd olunan problemlərin böyük əksəriyyəti sosial-iqtisadi xarakterə malik idi; onlar keçid dövrü və sistem transformasiyaları ilə şərtlənmişdi və ilk növbədə Ermənistanın ölkəmizə qarşı təcavüzü nəticəsində daha ağır miqyas və məzmun kəsb etmişdi. Azərbaycan hökuməti bu problemlərin həllini öz fəaliyyətinin prioritet istiqaməti hesab edirdi və onların aradan qaldırılması sahəsində mühüm addımlar atırdı.

2000-ci ilin iyun ayında Azərbaycan Respublikası "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyanın Fakultətiv Protokolunu da imzalamışdır. Bu protokolun əsası ondan ibarətdir ki, hər bir şəxs "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması" Komitəsinə fərdi qaydada müraciət edə bilər [**19**, 29].

1997-ci ildə respublika hökuməti ilə olan razılaşmaya əsasən, BMT İnkişaf Proqramının "Gender və İnkişaf" layihəsinin bir hissəsi kimi Azərbaycanda Rəna İbrahimbəyovanın koordinatorluğu ilə "Gender İnkişafda" layihəsinin reallaşdırılmasına başlanıldı. Bu layihənin çərçivəsində genderlə əlaqəli institusionallaşma üzrə təşkilati məsələlər haqqında məlumatların yayılması və yenicə yaradılmış Dövlət Komitəsinə yardımlar göstərilməsi həyata keçirilirdi. Bu layihə ilk növbədə CEDAW Konvensiyasına uyğun olaraq respublikada gender münasibətlərini araşdırmaq və Azərbaycan qanunvericiliyinin gender ekspertizasını həyata keçirmək məqsədləri güdürdü [**20**, 2]. Layihənin reallaşdırılması dövründə bir sıra tədbirlər keçirimiş, müxtəlif bülletenlər buraxılmışdır [Bu layihə haqqında ətraflı məlumat üçün bax: **21**, 99-109].

1999-cu ilin iyulun 1-nə kimi Azərbaycanda qadınların əmək hüquqları hələ 1971-ci ilin dekabrın 10-da qəbul edilmiş "Əmək Qanunları Məcəlləsi" ilə tənzimlənirdi. Qanunun qəbulundan ötən vaxt ərzində ona 46-dək əlavə və dəyişiklik edilmişdi. Sözügedən məcəllə sovet etakratik-patrimonialist ruhunda tərtib edilmişdi; ona tam müvafiq olaraq qadınların əmək hüquqları dövlətin xüsusi qayğı və himayə obyekti kimi qavranılırdı. Təsadüi deyildir ki, məcəllənin XII fəsli "Qadınların əməyi" adlanırdı və qadınların əmək münasibətləri sahəsində geniş hüquqlarını təsbit edirdi. Onlar sırasında hamiləliklə və ya uşağı yedizdirməklə əlaqədar səbəblərə görə qadınları işə qəbul etməkdən imtinanın, hamilə qadınların, 1 yaşa çatmamış uşaqları olan, uşağa qulluq etmək üçün məzuniyyət hüququndan istifadə edən qadınarın işdən çıxarılmasının, ağır işlərdə və əmək şəraiti zərərli işlərdə qadın əməyinin tətbiqinin, hamilə qadınların və 2 yaşına çatmamış uşağı olan qadınların gecə işinə və iş vaxtından artıq işlərə cəlb edilməsinin yasaqlanması, gecə işlərində qadın əməyinin məhdudlaşdırılması və s. müddəalar yer almışdı. Qanunla həmçinin hamilə və yaş yarıma

çatmamış uşaqları olan qadınların daha yüngül işə keçirilməsi, hamilə qadınlara sanatoriya və istirahət evi putyovkaları verilməsi, maddi yardım göstərilməsi, qadın əməyinin geniş tətbiq edildiyi müəssisələrdə, təşkilatlarda ana və uşağa xidmətin təşkili nəzərdə tutulmuşdu [**22**, 63-67]. Yeri gəlmişkən, Heydər Əliyevin tövsiyəsi ilə 1996-cı ildə Əmək Qanunları Məcəlləsinin 173-cü maddəsində edilmiş dəyişiklik ilə 3 yaşına çatmamış uşağı olan qadınların işdən çıxarılması qadağan edilirdi [**13**, 25-26].

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev cənablarının 1997-ci ilin iyunun 26-da imzaladığı "Əhalinin sağlamlığının qorunması haqqında" qanunun 17-ci maddəsi ilə hər bir qadın hamiləlik, doğuş və doğuşdan sonrakı dövrdə dövlət səhiyyə sisteminin müəssisələrində ixtisaslaşdırılmış tibbi yardımla pulsuz təmin olunurdu [**23**, 6]. Bununla da ölkəmizin ali hakimiyyəti "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasının 12-ci maddəsi üzrə nəzərdə tutulmuş müvafiq öhdəliyə tam əməl etmiş olurdu.

Beləliklə, 1993-1997-ci illər istər hüquqi dövlət quruculuğu, istərsə də gender qanunvericiliyinin formalaşması sahəsində olduqca mühüm mərhələni təşkil edir. Ümummilli liderin tarixi xidməti onda idi ki, qadınlarımızın əvvəlki onilliklərdə əldə etdikləri və Modern çağı üçün səciyyəvi olan sosial və mədəni nailiyyətlərinin nəinki tam və ya qismən itirilməsinə, yaxud da involyusiyasına yol verilmədi, əksinə, gender inkişafı baxımından qabaqcıl dünya təcrübəsinin ölkəmizdə tədricən tətbiq olunmasının zəruri qanunvericilik əsasları yaradıldı. Bu zaman Azərbaycanın sosiomədəni şərtləri və xüsusiyyətləri, eləcə də sovet dövrünün emansipasiya praktikalarının zəngin təcrübəsi də nəzərə alınırdı. Azərbaycan Respublikası bəhs edilən dönəmdə gender bərabərliyinin təminatına yönəlmiş demək olar ki, bütün beynəlxalq konvensiyalara və sazişlərə qoşulmuş, istər ölkənin Əsas Qanununda, istərsə də müxtəlif qanunvericilik aktlarında və müvafiq məcəllələrdə hüquqi bərabərlik prinsipini dönmədən həyata keçirmişdi. Əminliklə söyləyə bilərik ki, BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" konvensiyasında nəzərdə tutulan bir çox prinsipial müddəa 1993-1997-ci illərdə özünün qanunvericilik həllini tapmışdı. Məhz həmin illərdə əldə edilmiş təcrübə və yaradılmış hüquqi-normativ baza sonrakı dövrdə gender düzəninin yeni institusional səciyyə kəsb etməsini, qadınlarımızın ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında daha fəal iştirakını, gender bərabərliyinin de-jure səviyyədən tədricən de-facto səviyyəyə keçidini təmin edən mühüm şərtə çevrildi.

## ƏDƏBİYYAT


1. Azərbaycan qadını naminə. Bakı: Heydər Əliyev İrsini Araşdırma Mərkəzi, 2010, 372 s.
2. Лапин Н.И. Кризисный социум в контексте социокультурных изменений // Мир России, 2000, №3, с.3-47
3. Mehdiyev R. Müstəqil Azərbaycan milli ideyanın təcəssümü kimi // "Strateji təhlil" jurnalı, 2011, №1 (2), s.7-35
4. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümü münasibəti ilə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 20 mart 2001-ci il // "Azərbaycan" qəz., 2001, 23 mart, № 64, s.1
5. Mehdiyev R.Ə. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. II cild (məqalələr, çıxışlar, müsahibələr). Bakı: "XXI – Yeni Nəşrlər Evi", 2007, 672 s.
6. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (21 yanvar 2013-cü il, № 2679) // Azərbaycan qəz. 2013, 22 yanvar, № 14, s. 1
7. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 68 s.
8. Mirzəzadə Rəna. Gender: Cəmiyyət. İnsan hüququ. Siyasət (fəlsəfi, tarixi və siyasi-hüquqi istiqamətlər). Bakı: Adiloğlu, 2003, 420 s.
9. "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında" Azərbaycan Respublikasının Qanunu // http://e-qanun.az/files/framework/data/9/f_9441.htm
10. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2012, 324 s.
11. Azərbaycan SSR nikah və ailə məcəlləsi. Bakı: Azərnəşr, 1988, 75 s.

12. “Məzuniyyətlər haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı: “Qanun” jurnalına əlavə, 1996, 18 s.
13. Quliyeva Z., Həsənova M. Azərbaycan qadınlarının hüquqları. Bakı: “Azərbaycan” nəşriyyatı, 1998, 72 s.
14. Bərabər hüquqlar, bərabər imkanlar (Hüquqi təminatın əsasları). Bakı: Əbilov, Zeynalov və oğulları, 2001, 223 s.
15. Azərbaycan Respublikasının BMT-nin “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” konvensiyası üzrə 4-cü dövri hesabatı, 68 s. // http://scfwca.gov.az/up/news/article/2012/cedaw_az_ministries[1].pdf
16. Первый периодический доклад Азербайджанской Республики по Конвеции ООН «О ликвидации всех форм дискриминации по отношении женщин, 16 сентября 1996 г., 24 с. // http://docstore.ohchr.org/SelfServices/FilesHandler.ashx?enc=6QkG1d%2fPPRiCAqhKb7yhsgcjdm0xgERNaIXh22nhTUkRBTX33QoxcrH5phsewVOBTFPmt0OGzUrCW0JpR64J78aL7hj4gl1VeYK%2fVYLa2C1bGid6XfMJ%2f3ZyrtbI6pF1
17. İbrahimova G. Azərbaycan qadını: Tarix və Gerçəklik. Bakı: Elm, 2009, 500 s.
18. Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında konvensiya. Azərbaycan Respublikasının ilkin, ikinci və üçüncü dövri birgə hesabatları üzrə Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsinə dair Komitənin yekun qeydləri və tövsiyələri. Bakı: GNS POLIQRAF, 2007, 28 s.
19. Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq konvensiyaların milli qanunvericilikdə təsbiti. Bakı: Qanun, 2003, 58 s.
20. Отчет Государственного Комитета по Делам Женщин Азербайджанской Республики по вопроснику для правительств, касающийся осуществления Пекинской платформы действий (1995 год) и решений двадцать третьей специальной сессии Генеральной Ассамблеи ООН (2000 год). Баку, 2004, 32 с.
21. İbrahimova G. Heydər Əliyev və Azərbaycan qadını. Bakı: Adiloğlu, 2007, 236 s.
22. Azərbaycan Respublikasının Əmək Qanunları Məcəlləsi. Bakı: Qanun, 1998, 108 s.
23. “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı: “Biznesmenin bülleteni” nəşriyyat evi, 1997, 25 s

## ABSTRACT

**Abbasova S.Z.**

**Heydar Aliyev and some of the issues of formation of gender legislation in the Republic of Azerbaijan (1993-1997)**

In the present article outlines the process of formation is considered in the context of gender legislation forming a legal state in the Republic of Azerbaijan. It is emphasized that Azerbaijan has become a developing country with a stable political institutions and a functioning social and economic model is largely due to the strategic course of the national leader Heydar Aliyev. It is emphasized that the merit of the outstanding statesman of Azerbaijan lies in the fact that he not only prevented the retreat from those socio-cultural and politico-legal conquests of women achieved in the previous decade, but formed the fundamental basis of gender legislation of a new type, is based on international best practices. At the same time take into account both the historical and socio-cultural features of Azerbaijan and the rich heritage of the Soviet emancipatory practices. During the review period the Republic of Azerbaijan joined to many international conventions and agreements in the field of gender equality, while applying the principles of equality in the Constitution and in the adopted legislation and codes. One can say with confidence that many of the fundamental provisions of the UN Convention "On the Elimination of All Forms of Discrimination against Women" found its legislative decision in 1993-1997.

## РЕЗЮМЕ

**Аббасова С.З.**

## Гейдар Алиев и некоторые вопросы становления гендерного законодательства в Азербайджанской Республике (1993-1997 гг.)

В представленной статье в общих чертах рассматривается процесс становления гендерного законодательства в контексте формирования правового государства в Азербайджанской Республике. Подчеркивается, что Азербайджан превратился в развивающееся государство со сформировавшимися политическими институтами и функционирующей социально-экономической моделью во многом благодаря стратегическому курсу общенационального лидера азербайджанского народа Гейдара Алиева. Подчеркивается, что заслуга выдающегося государственного деятеля Азербайджана заключается в том, что он не только предотвратил отступления от тех социально-культурных и политико-правовых завоеваний женщин, достигнутых в предыдущие десятилетия, но сформировал фундаментальные основы гендерного законодательства нового типа, опирающие на передовой мировой опыт. При этом учитывались как исторические и социокультурные особенности Азербайджана, так и богатое наследие советских эмансипаторских практик. За рассматриваемый период Азербайджанская Республика подключилась ко многим международным конвенциям и соглашениям в области гендерного равноправия, при этом претворяла в жизнь принцип равенства как в конституции, так и в принятых законодательных актах и кодексах. Можно с уверенностью утверждать, что многие принципиальные положения Конвенции ООН «О ликвидации всех форм дискриминации по отношении женщин» нашли свое законодательное решение в 1993-1997 годах.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru,* professor M.Rzayev

**OSMAN HACIYEV**
*Bakı Dövlət Universiteti*
*osmanhaciyev@mail.ru*

**UOT:316.343.654**

# AZƏRBAYCAN RESPUBLİKASINDA ORTA SİNİF CƏMİYYƏTİN MODERNLƏŞMƏSİNİN SUBYEKTİ KİMİ

Müasir informasiya cəmiyyətində sosial həyatın müxtəlif sahələrini əhatə edən modernləşmə prosesləri sosial strukturdan yan keçmir. Cəmiyyətin sosial strukturunda bu prosesin ən mühüm göstəricisi orta sinfin kəmiyyət və keyfiyyətcə inkişafıdır. Orta sinif, modernizasiya, bazar iqtisadiyyatı və demokratiya paralel şəkildə formalaşan eyni prosesin – cəmiyyətin bütün sferalarında həyata keçirilən zəruri islahatların nəticələridir. Azərbaycan cəmiyyətində bu prosesin öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Akademik R.Mehdiyev bu münasibətlə milli modernləşmə anlayışından istifadə edir. O, milli modernləşmə anlayışı adı altında Azərbaycan cəmiyyətinin siyasi, milli və iqtisadi hədəflərini müəyyənləşdirir. R.Mehdiyev yazır: "Milli modernləşmə dedikdə biz üç məsələnin həllini başa düşürük [1, 4]:

- vətəndaş həmrəyliyinin təmin edilməsi və demokratik təsisatların və ənənələrin təkmilləşdirilməsi, habelə müvafiq sosial sistemlərin formalaşdırılması;
- səmərəli və möhkəm iqtisadi sistem yaradılması və onun ümumavropa strukturuna daxil edilməsi, habelə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsi;
- Azərbaycançılığın və milli "Mən"in mahiyyətinin başa düşülməsinin üstünlük təşkil etdiyi möhkəm sosio-mədəni mühitin qurulması.

Göründüyü kimi cəmiyyətdə modernləşmə prosesinə gedən yol iqtisadi, sosial və siyasi islahatlardan keçir. Yenilikçi orta sinif bu sahədə başlıca rola malikdir. Modernləşmə prosesinin uzun müddət əvvəl başlandığı ABŞ və Qərbi Avropada orta sinfin öz inkişafında iki mərhələdən keçdiyinin şahidi oluruq. Birinci mərhələni – XVII-XIX əsrlərdə formalaşan və XX əsrin ortalarına qədər mövcud olan kiçik və orta burjuaziyadan (mülkiyyətçilərdən) ibarət köhnə orta sinif təşkil edir. XX əsrin ortalarında bu təbəqəni yeni orta sinif əvəz etdi. Yeni orta sinfin əsasını maddi mülkiyyət deyil, peşəkar fəaliyyət təşkil edir. Əgər industrial mərhələdə köhnə orta sinif əsas rol oynayırdısa, postindustrial mərhələdə cəmiyyətin sinfi strukturunda əsas yeri yeni orta sinif tutur.

Azərbaycanda yeni orta sinif inkişaf etmiş ölkələrdəki anoloji təbəqələrdən müəyyən qədər fərqlənir. Bu, özünü daha çox peşəkarlıq, sosial mühitə uyğunlaşma və kəmiyyət göstəricilərində biruzə verir. Buna görə də onu tamamilə Qərb tipinə uyğun "yeni orta sinif" adlandıra bilmirik. Bununla belə, o, Azərbaycan reallığı üçün doğurdan da yenidir. Bu sinif tamamilə yeni sosial-iqtisadi təbiətə malikdir. Orta sinfin bu nümayəndələri Azərbaycan reallığı üçün yeni olan sahələrdə çalışırlar. İri biznes sahəsində çalışan menecerlər, maliyyə bazarında, marketinq sahəsində çalışan mütəxəssislər şəxsi istehsal vasitələrinə sahib olmadan öz bacarıq və biliyini satması hesabına orta sinfin strukturunda kifayət qədər dayanıqlı yerə sahibdirlər. Digər tərəfdən, Azərbaycanda yeni orta sinfin əsasını təşkil edə biləcək təbəqələrin sosial bazasının formalaşma potensialı da kifayət qədər böyükdür. Xalq təsərrüfatında çalışan ali və orta ixtisas təhsilli işçilər yeni orta sinfin əsas sosial bazasını təşkil edə bilər. Təqribi hesablamalara görə onlar çalışanların 28%-ni təşkil edir. Lakin, onların əksəriyyətinin gəlirləri hələ yüksək sosial statusu təmin etməyə imkan vermir. Keçid dövründə mütəxəssislərin bir qismi çıxış yolunu xaricə miqrasiya etməkdə görürdü. Məsələn, 1998-ci ildə bir milyondan çox adam xarici ölkəyə işləməyə getmişdir [3, 436]. Digər qismi isə biznes, kiçik və orta sahibkarlıqla məşğul olsa da, onların böyük əksəriyyəti öz peşələrinə sədaqətini göstərərək çətin şərtlər daxilində yaşamağa məcbur oldular. Bununla bağlı digər problem ondan ibarətdir ki, həmin mütəxəssislərin əksəriyyəti öz biliklərini müasir tələblərə cavab verən səviyyəyə

çatdıra bilməmişlər. Onlardan az qismi isə öz maddi vəziyyətini yaxşılaşdırmağın, yaradıcı və intellektual potensialını reallaşdırmağın əsas vasitəsi kimi bazar iqtisadiyyatına keçidi yüksək qiymətləndirərək müasir biliklərə yiyələnmiş və bunun əsasında dəyişilən şəraitə kifayət qədər adaptasiya ola bilmişlər. Təqribi hesablamalara əsasən bu qrup mütəxəssislərin yalnız 15 %-ni təşkil edir. Bu gün cəmiyyətimizdə yeni orta sinfin bir qismini bazar iqtisadiyyatına uğurla adaptasiya oluna bilən bu mütəxəssislər təşkil edirsə, digər qismi xaricdə və Azərbaycanda müasir təhsil görmüş, bu sahədə ixtisaslaşmış gənclərdən ibarətdir. Aparılmış tədqiqatın nəticələrinə diqqət yetirsək görərik ki, yeni iqtisadi sistemə keçid nəticəsində cəmiyyətimizdə bir çoxları öz peşələrini ya tamamilə dəyişməyə, ya da yeni peşə vərdişləri qazanmağa məcbur olmuşlar. Bunu 2006-cı ildə aparılmış tədqiqatın nəticələrini özündə əks etdirən aşağıdakı cədvəldən də görə bilərik [4, 68]:

İqtisadiyyatda aparılan islahatlar Sizin peşə həyatına necə təsir göstərmişdir?(%-lə)

| Cavablar | Faizlə |
|---|---|
| Mənim peşəm bu gün aktual deyil | 3,3 |
| Müasir dövrdə ehtiyac duyulan yeni peşəyə yiyələnmişəm | 2,8 |
| İqtisadi islahatlar insandan daha böyük məsuliyyət tələb edir | 3,3 |
| İqtisadi islahatlar insana daima özünütəkmilləşdirməyə stimul verir | 39,4 |
| Peşəmi dəyişmişəm | 14,4 |
| Suallara cavab verməyə çətinlik çəkənlər | 6,1 |
| Bilmirəm | 30,7 |

Göründüyü kimi yeni iqtisadi mənzərə rəyi soruşulanların əksəriyyətinin (63%) peşə həyatına bu və ya digər şəkildə təsir göstərmişdir. Onların bir qismi peşələrini dəyişmiş, digər qismi isə yeni peşə vərdişləri öyrənməyə, daimi özünü təkmilləşdirməyə məcbur olmuşlar. Respondentlərin 37%-i isə baş verən iqtisadi dəyişiklikləri çətinliklə dərk edir.

Cəmiyyətdə sabitlik və tərəqqinin, demokratikləşmə prosesinin hərəkətverici qüvvəsi sayılan orta sinfin əhatəsinin genişlənməsi məhz geniş iqtisadi, sosial və siyasi tədbirlərin həyata keçirilməsi sayəsində mümkündür. Orta sinif ictimai münasibətlər sistemində aparıcı mövqeyə sahib olur. İqtisadi cəhətdən fəal və azad, təşəbbüskar, islahatlara meylli bu sinif daim mütərəqqi ideyaları dəstəkləyir, inkişafı buxovlayan bürokratizmə, konservatizmə qarşı çıxır. Bu mənada Azərbaycanda orta sinfin maddi əsasını təşkil edən sahibkarlığın, biznes mühitinin inkişafı istiqamətində atılan addımlar həm də respublikamızda demokratik islahatların iqtisadi yüksəlişə paralel şəkildə davam etdirilməsinə, siyasi, hüquqi, iqtisadi, sosial və digər sferalarda mühüm inkişafın əldə olunması üçün etibarlı zəmindir. Bu baxımdan, Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il Sərəncamı ilə “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının hazırlanması və buradan irəli gələn məsələlərin həlli istiqamətində işlərin aparılması təqdirəlayiq hesab olunmalıdır. Belə bir konsepsiyanın hazırlanması zərurəti ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyması ilə bağlıdır [5, 6]. Adı çəkilən konsepsiyada cəmiyyətimizdə orta sinfin inkişafı məsələlərinə xüsusi diqqət yetirilir: “bu konsepsiya çərçivəsində Azərbaycanda “mütləq yoxsulluq” problemi yenə də daim diqqət mərkəzində olacaqdır. Bununla yanaşı ölkədə əhalinin orta təbəqəsinin genişlənməsi, həmin təbəqənin rolunun gücləndirilməsi başlıca məqsədlərdən biridir. Dünya ölkələrinin təcrübəsi göstərir ki, orta təbəqənin güclü olduğu ölkələr həm siyasi, həm də iqtisadi, sosial və s. aspektdən daha sabit və yüksək inkişaf potensialına malik olur” [5, 12].

Azərbaycan filosofu İlham Məmmədzadə orta sinif və vətəndaş cəmiyyəti anlayışlarını eyni konteksdən nəzərdən keçirərək yazır ki, “Azərbaycanda orta sinif formalaşır və orta sinif vətəndaş cəmiyyəti ideyasını qəbul edir. Vətəndaş cəmiyyəti əsasən orta sinfin tələbidir. Orta sinif ideyası vətəndaş cəmiyyətinin inkişafı ilə sıx bağlıdır. Avropa və ya ABŞ-ın orta sinfinin həm maaşı

yüksəkdir, həm təhsili keyfiyyətlidir, həm səhiyyə sistemi, həm pensiya təminatı və s. Bir sözlə, onun imkanları daha genişdir. Yəni, onların təkcə özləri və ailələri haqda deyil, cəmiyyət haqqında da düşünmək və qayğılanmaq imkanları var. Bu, vətəndaş cəmiyyəti quruculuğu üçün çox mühüm və vacib amildir. Ona görə də belə orta sinfin yaratdığı vətəndaş cəmiyyəti də güclü, çevik və ədalətli olur" [6, 8]. Söylənilən fikirlərin davamı olaraq qeyd edə bilərik ki, Qərbdə orta sinfin malik olduğu belə geniş funksiyalar onun stratifikasiya sisteminin mərkəzində tutduğu böyük və mühüm yeri ilə bağlıdır. Burada uzun inkişaf tarixinə malik olan orta sinif təşkilatlanmış, qrup mənafeyini dərk edən sosial birlik kimi çıxış edir. Düşünürük ki, öz inkişafının bazar iqtisadi modeli mərhələsinə yenicə qədəm qoyan Azərbaycan orta sinfi də müəyyən müddətdən sonra cəmiyyətimizdə eyni funksiyaları həyata keçirmək gücünə malik olacaqdır.

Müasir Azərbaycan cəmiyyətində müxtəlif təbəqələrə məxsus gəlirlərin müəyyənləşdirilməsi və bunun əsasında nəticələrin çıxarılması sosial strukturun təhlili ilə bağlı ən mürəkkəb məsələlərdəndir. Lakin, rəsmi rəqəmlərə istinad edərək deyə bilərik ki, son illərdə görülən tədbirlər nəticəsində Azərbaycanda yoxsulluğun səviyyəsi 49 faizdən 5 faizə qədər azalaraq, inkişaf etmiş ölkələrin göstəricisinə yaxınlaşmışdır [7]. Yoxsulluğun azalması ilə bərabər, ölkədə əmək haqlarının, pensiya və sosial müavinətlərin artması da davam edir. Rəsmi statistikaya əsasən, 2012-ci ildə iqtisadi fəal əhalinin sayı 4 milyon 688 min 400 nəfər olmuşdur. İqtisadi fəal əhalinin ümumi sayından məşğul olanlar 94,8 faiz (4 milyon 445 min 300), işsizlər isə 5,2 faiz (243 min 100) təşkil etmişdir. Rəsmi işsiz statusu alan şəxslərin sayı 36 min 791 nəfər olmuş, onlardan 934 nəfəri işsizliyə görə sosial müavinətlə təmin olunmuşdur. 2003-2011-ci illərdə yeni açılmış iş yerləri 1 milyon 700 min olmuşdur. 2013-cü ildə ölkəmizdə orta aylıq əməkhaqqı 425,1 manat, o cümlədən, dövlət sektorunda 344,6 manat, özəl sektorda isə bu rəqəm 542,3 manat təşkil etmişdir [7]. 2014-cü ilin statistikasına görə ölkədə 1 milyon 277 min 53 nəfər pensiyaçı vardır. Son illər təyin olunmuş orta aylıq pensiyaların məbləği artan xətt üzrə gedir. Məsələn, 2008-ci ildə bu rəqəm 62,9 manat, 2009-cu ildə 95,8 manat, 2010-cu ildə 100,4 manat, 2011-ci ildə 112,9 manat, 2012-ci ildə 145,1 manat, 2013-cü ildə 152 manat, 2014-cü ildə isə bu rəqəm 170,5 manat olmuşdur [7]. Təhlil əsasında deyə bilərik ki bu artım bütün növ sosial müavinətlərə də aiddir.

Beləliklə, iqtisadi inkişafdan ən çox sabit azgəlirli işçilər bəhrələnmişdir. Bu vəziyyət cəmiyyətdə sosial ədalətin bərqərar olmasında müsbət meyldir. Artıq ölkədə "azgəlir sahibləri"nin "orta gəlir sahibləri"nə çevrilməsi prosesi müşahidə olunmaqdadır. Son illər beynəlxalq iqtisadi təşkilatların ("Moody`s", "Standard & Poor`s", "Fitch Ratings") hesabatlarında da Azərbaycan iqtisadiyyatı ilə bağlı yüksək qiymətləndirmələrə rast gəlinir. Azərbaycan Dünya Bankının adambaşına düşən Ümumi Milli Gəlir təsnifatına görə "yuxarı orta gəlirli" ölkələr qrupuna digər MDB dövlətləri ilə müqayisədə daha tez daxil olmuş və bununla yanaşı, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının insan inkişafı ilə bağlı 2010-cu il üzrə hesabatına əsasən, "orta insan inkişafı" ölkələri qrupunu tərk edərək, "yüksək insan inkişafı" ölkələri qrupuna yüksəlmişdir [5, 5].

Beləliklə, milli gəlirin və buna paralel olaraq orta aylıq əmək haqlarının artımı kontekstində, Azərbaycanda demokratiyanın və sabitliyin təminatı olan güclü orta sinfin formalaşması prosesi davam edir. Azərbaycanda əmək haqlarının orta illik səviyyəsi ölkədəki adambaşına düşən milli gəlir səviyyəsinə yaxınlaşır. Yaxın zamanlarda bu prosesin pozitiv istiqamətdə inkişaf edərək, orta illik əmək haqqı ilə adambaşına düşən milli gəlir səviyyəsinin eyniləşəcəyi gözlənilir. Məhz bu zaman Azərbaycanda güclü və sabit orta sinfin formalaşmasının ilkin mərhələsi sona çatacaqdır.

Azərbaycanda varlı, orta və yoxsul təbəqələrin sosial ierarxiya sistemində tutduğu yeri konkret rəqəmlərlə göstərməyə çalışsaq, hansı mənzərə ilə qarşılaşmış olarıq? Onların kəmiyyət göstəriciləri necədir?

Bu məsələ ilə bağlı tədqiqatımızda həm rəsmi statistikaya, həm də müstəqil iqtisadi araşdırmalara istinad etmişik. Lakin, Azərbaycanda istər Dövlət Statistika Komitəsi, istərsə də iqtisadi tədqiqatlarla məşğul olan qruplar müxtəlif sahələrin araşdırılması ilə məşğul olsalar da, orta sinfin neçə faiz olması haqda bir rəqəm söyləyə bilmirlər. Bu, həm də Azərbaycan reallığında hələ orta sinfə aid olmanın standartlarının tam müəyyənləşdirilməməsi ilə bağlıdır. Azərbaycanda yoxsul, orta və varlı sinifləri təsbit edən iqtisadi hədlər hələ də müəyyənləşməyib. Hələlik

Azərbaycanda sosial təbəqələşmənin bir həddi bəllidir: adambaşına aylıq gəliri 93 manatdan aşağı olan ailə yoxsul hesab olunur. Fikrimizcə, bu, aylıq gəliri 93-150 manat civarında olan ailələrin orta sinfə aid edilməsinə əsas vermir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən Azərbaycanda yoxsul təbəqə əhalinin 5%-ni təşkil edir. Ancaq rəsmi statistikaya görə, bura bölgələrdə pay torpaqlarına sahib olub, müəyyən səbəblərdən (texnika, gübrə və s. çatışmazlığı) ondan yararlana bilməyən insanlar daxil deyil.

Azərbaycanda orta sinfin gəlirlərini, istehlak standartlarını müəyyənləşdirmək üçün həm də onun tərkibinin müxtəlifliyini nəzərə almaq lazımdır. Beləki, dövlət qulluğu ilə bağlı olan şəxslərdən tutmuş, kiçik və orta sahibkarlıq nümayəndələri, menecerlər və ziyalılara qədər geniş əhatəyə malik olan orta sinfin tərkibinin müxtəlifliyini nəzərə alaraq onu yuxarı orta təbəqə, orta orta təbəqə və aşağı orta təbəqəyə ayırmaq olar. Yuxarı orta təbəqə əsasən iri şirkət və firmaların menecerləri, orta sahibkarlıqla məşğul olan şəxslər, ticarət obyektlərinin sahibləri və dövlət idarələrinin müxtəlif sahələrində əsasən rəhbər vəzifələri tutan insanlardan ibarətdir. Əksərən istehsal vasitələri üzərində mülkiyyət hüququna malik olan və dövlət idarələrində çalışan yuxarı məmur kütləsinin də bir qismini əhatə edən bu qrupu, zənnimizcə, "orta sinfin elitar təbəqəsi" də adlandırmaq olar. Orta təbəqənin orta qatında da əsas kütlə özəl müəssisələrdə çalışır, yaxud kiçik ticarət obyektlərinin sahibləridir və onlardan bəziləri mənzillərini icarəyə verir. Ziyalıların bir qismi, o cümlədən, yüksək ixtisaslı tibb personalı və ali təhsil müəssisələrində çalışan dosent, professor heyətini də orta təbəqənin orta qatına aid etmək olar. Büdcədən maliyyələşən idarələrdə çalışan kiçik məmur kütləsi, xırda biznes və fərdi sahibkarlıqla məşğul olanlar, həmçinin, orta ixtisaslı tibb işçiləri və məktəb müəllimləri aşağı orta təbəqəyə daxildir. Orta təbəqənin yuxarı və orta qatının əsas gəlir mənbəyi kimi əsas iş yerindən aldıqları əmək haqqı və bir qayda olaraq, şəxsi biznesdən daxil olan yüksək gəliri göstərmək mümkündür. Aşağı qatın nümayəndələrinin əksər hallarda əlavə gəlir mənbəyi olmur və onlar əsas iş yeri hesabına dolanırlar. Azərbaycanda orta sinfin aşağı qatının aylıq gəlirini şərti olaraq 500 manat, orta qatın aylıq gəlirini 1000 – 1500 manat, yuxarı qatın gəlirini isə 1500 manatdan yüksək kimi müəyyənləşdirmək olar.

Azərbaycan reallığında orta sinfi təşkil edən müxtəlif qrupların ailə büdcəsinin formalaşmasında əvəzçilik və ya ikinci iş yeri çox mühüm rol oynayır. Bu, daha çox büdcə təşkilatlarında çalışanlara, həmçinin idarəetmə vəzifələrində olmayanlara aiddir. Bu insanların əlavə gəlir mənbəyini əsasən, iqtisadiyyatın özəl sektoru təşkil edir. 2004-cü ildə aparılan sosioloji tədqiqata əsasən respondentlərin yarısından çoxu məşğulluqlarından asılı olmayaraq ötən il ərzində maddi vəziyyətlərini yaxşılaşdırmaq və müxtəlif yollarla öz ailələrini əlavə qazancla təmin etmək istiqamətində çalışmışdır [8, 29]:

Şəkil 3.7 Respondentlərin maddi vəziyyətlərini yaxşılaşdırmaq üçün əl atdıqları tədbirlər:



1 – iş vaxtından artıq işləmək
2 – əlavə işləmək
3 – qohum və dostlardan kömək
4 – barter
5 – şəxsi təsərrüfat
6 – xaricdə işləmək
7 – heçnə

Göründüyü kimi respondentlərin yarıdan az bir hissəsi əlavə gəlir yollarını axtarmamışdır. Onların sırasına dövlət məmurları (17,5%), təqaüdçülər (15,5%), evdar xanımlar (22,9%) və işsizlər (16,4%) daxildir.

Azərbaycan orta sinfinin istehlak standartlarının da müəyyənləşdirilməsi vacibdir. Bu zaman orta sinif nümayəndələrinin nəyə qənaət etdiklərini bilmək lazımdır. İlk növbədə, qeyd etmək lazımdır ki, orta sinfin yuxarı qatını fərqləndirən əsas əlamət gəlir deyil, toplanmış əmlak və sərvətdən ibarətdir. Gəlir orta sinfin orta və aşağı qatlarının əsas xüsusiyyəti hesab olunur. Orta sinfin yuxarı qatının nümayəndələri ümumiyyətlə heç nədə qənaət etmirlər. Xaricdə istirahət, bağ evləri, bahalı maşın, bahalı ev avadanlığı və s. cəhətdən yüksək təmin olunmuş bu qrup, maddi cəhətdən heç bir sıxıntı çəkmir. Orta qata xas olan cəhət istirahətə qənaət etməkdir. Aşağı qatın nümayəndələri geyim və keyfiyyətli qidaya qənaət edir [9, 28].

Rusiya Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun orta sinfin həcminə dair apardığı tədqiqatlara əsasən burada əhalinin 20-25 faizi (təqribən 28 milyon nəfər) orta sinfə aid edilir. Bu rəqəm Q.A.Zdravomıslovun 2001-ci ildə apardığı tədqiqat nəticəsində orta sinfin həcminə dair aldığı 18%-lik nəticədən bir qədər fərqlənir. Rusiyalı ekspertlərin orta sinfə aid olmaq üçün müəyyənləşdirdiyi kəmiyyət göstəricilərinə 550 dollarlıq aylıq gəlir, bir minik avtomobili, adambaşına 21 kvadratmetr mənzil, ildə bir dəfə istirahət etmək imkanı və s. daxildir. Orta sinfin müəyyənləşdirilməsinin qərb normativində adambaşına düşən mənzil sahəsinin həcmi (21 kvadratmetr) eyni olsa da, maaş (2000-2500 dollar) və minik avtomobilinin sayı (bir yox, bir neçə) fərqlidir. Dünya bankı isə orta sinfə daxil olmanın minimum iqtisadi həddini 3470 dollar müəyyənləşdirib. ABŞ-da bu rəqəm 3160 dollar, Almaniyada 2000 avro, Belçikada isə 1150 avro təşkil edir [10, 85].

Müxtəlif iqtisadi təhlillərə əsaslanaraq deyə bilərik ki, Azərbaycanda orta səviyyədə yaşamaq üçün adambaşına gəlir ən azı 500 manat olmalıdır. Hazırda respublikada orta aylıq əmək haqqı 425,1 manat təşkil edir [217]. Son illər Azərbaycanda adambaşına düşən mənzil sahəsi Rusiya və Avropa ölkələrindəki orta sinif həddinə yaxınlaşır. Məsələn, əgər 2001-ci ildə orta hesabla hər sakinə düşən ümumi mənzil sahəsi 14,6 kvadratmetr idisə, 2012-ci ildə bu rəqəm 17,8 kvadratmetr, 2013-cü ildə isə 18,6 kvadratmetr təşkil etmişdir [7]. Lakin, Avropa ölkələrində orta statistik ailə 6 il ərzində mənzil almaq imkanına malikdirsə, hələki Azərbaycanda bu, yalnız 20 ildən sonra mümkündür. Dövlət bu sahədə olan çətinliyi gənc ailələrə ipoteka kreditlərinin verilməsi yolu ilə aradan qaldırmağa çalışır.

Azərbaycanda orta sinif Qərb ölkələrində olduğu kimi geniş əhatə dairəsinə və imkanlara malik olmasa da, bir sıra mühüm, üstün əlamətlərilə digər sosial qruplardan fərqlənir. Bu xüsusiyyətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Cəmiyyətdə digər təbəqələrlə müqayisədə iqtisadi maraqların təmin olunmasına imkan verən bazar iqtisadiyyatına uyğunlaşmanın yüksək səviyyəsi. Burada əsas yeri sahibkarlıq fəaliyyəti tutur;
- Yüksək sosial mobillik və çeviklik;
- Öz imkanlarından maksimal istifadə imkanları. Burada əsas yeri yüksək keyfiyyətli iş qüvvəsi və özünün "insani kapital" dəyərinin gələcəkdə də artırılması tutur;
- Digər təbəqələrlə müqayisədə dövlətə fərqli münasibət. Orta sinif dövlətə özünün praqmatik münasibəti ilə seçilir. Həyatından əsasən məmnun olan bu sinif onlar üçün bu şəraiti yaradan dövlətə cəmiyyətdə sabitliyi təmin edən yüksək qurum kimi yanaşır;
- Orta sinif cəmiyyətdə özünün sosial aktivliyi ilə seçilir;
- Bazar münasibətlərinə meyillilik, fərdi azadlığın yüksək qiymətləndirilməsi, xüsusi mülkiyyətin önəmi və s. Bunlar orta sinfin əksər nümayəndələri tərəfindən qəbul edilən dəyərlərdir.

Azərbaycan cəmiyyətində bir çoxları "sosial dövlət" modelinin tərəfdarlarıdır. Azərbaycan dövləti də özünü məhz sosial yönümlü elan etmişdir. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir. Sosial dövlət modelində fərdi azadlıq ikinci dərəcəli əhəmiyyət kəsb etsə də, "ümumi rifah" ön plandadır. Bu model özündə dövlətin iqtisadiyyata aktiv müdaxiləsini və güclü sosial müdafiə sistemini birləşdirir. Orta sinif nümayəndələrinin bu sahədəki baxışları isə bir qədər fərqlidir. Belə ki, onların əksəriyyəti "sosial bərabərlik" cəmiyyətinə

yox, fərdi azadlıqların yüksək dəyərləndirildiyi "bərabər imkanlar" cəmiyyətinə üstünlük verir. Çünki, bu təbəqənin insanı kifayət qədər aktivdir, peşəkar göstəriciləri yüksəkdir, onun əsas resurslarını peşəkar təcrübə və bilik, insani kapital təşkil edir, onlar öz həyatını özü qurmağı bacarır.

Bütün bunları nəzərə alaraq deyə bilərik ki, biz istənilən cəmiyyətin özəyini təşkil edə biləcək orta sinfin formalaşması imkanlarını, onun cəmiyyətdə modernləşmə proseslərinə təsirini nəzərdən keçirdik. Aydınlaşdırdıq ki, orta sinfin formalaşması və inkişafı yeni reallıqlarla, ilk növbədə sosial – iqtisadi münasibətlər sferasının inkişafı, iqtisadiyyatda struktur dəyişiklikləri və effektli sosial siyasətlə birbaşa bağlıdır. Bizim təhlil göstərdi ki, cəmiyyətin bu vacib qrupu özündə ictimai istehsal sistemində mühüm yer tutan, yüksək təhsilli və peşəkar olan, sosial ierarxiyada özünü orta vəziyyətdə görən, islahatlara meylli insanlardan ibarətdir. Bu əlamətlərə görə biz onları cəmiyyətin modernləşməsinin əsasını təşkil edən vahid sosial birlik hesab edə bilərik.

## ƏDƏBİYYAT


1. Mehdiyev R.Ə. Keçid cəmiyyətində demokratiya. Azərbaycan qəz., Bakı, 2007, 24 may.
2. Məmmədzadə İ.R. Azərbaycansayağı modernləşmə haqqında // Azərbaycan bu gün və sabah, Bakı, 2008, № 2, s.6-9
3. Hacıyev Z.C. Fəlsəfə. Bakı: "Təhsil" NPM, 2010, 640 s.
4.Азимова Р.Д. Средний класс в социальной стратификации общества переходного периода. Баку: Элм, 2006, 103 с.
5."Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası. http://www.president.az/files/future_az.pdf, 39 s.
6. Məmmədzadə İ.R. Azərbaycanda orta sinif formalaşır və orta sinif vətəndaş cəmiyyəti ideyasını qəbul edir // Vətəndaş cəmiyyəti, Bakı, 2009, № 3, s.7-9
7. Azərbaycanın statistik göstəriciləri // www.stat.gov.az


## ABSTRACT


**O.Gadjiyev**



**The middle class of Azerbaijan Republic as a subject of modernization of the society**

The modernization in the Azerbaijani society and the important role that the middle class plays in this process is considered in the article. The impact of the reforms conducted to the life of the population is analyzed.



8.Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası. İlham Əliyevin Prezidentliyinin 365 günü və vətəndaş cəmiyyəti. Sosioloji tədqiqat. Bakı: Polygraphic production, 2004, 490 s.
9. Тихонова Н.Е. На пути к новой стратификации российского общество // Общественные науки и современность, 1998, № 3, с.24-37


## РЕЗЮМЕ


**О.Гаджиев**



**Средний класс Азербайджанской Республики как субъект модернизации общества**

В статье рассматривается модернизация азербайджанского общества и важнейшая роль среднего класса в этом процессе. Исследуется влияние проводимых в обществе реформ на жизнь населения.



10. Фахрутдинова Е.В. Дуалистический характер взаимообусловленности качества жизни населения и среднего класса в современной экономической системе // Экономические науки, 2011, № 12 (85), с.83-87


---


NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

**РАМИЛЬ АСЛАНОВ**
*Bakı Dövlət Universiteti*
*e-mail: ramilaslanov@mail.ru*

**УДК: 141.45**

# СОВРЕМЕННЫЕ УГРОЗЫ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ

**Açar Sözlər:** *informasiya təhlükəsizliyi, informasiya cəmiyyəti, təhdid, informasiya resursları, telekommunikasiya sistemləri, terrorizm, hüquq mhafizə orqanları, qanunvericilik.*

**Key words:** *information security, information society, threat, information resources, telecommunication systems, terrorism, law enforcement bodies, legislation.*

**Ключевые Слова:** *информационная безопасность, информационное общество, угроза, информационные ресурсы, телекоммуникационные системы, терроризм, правоохранительные органы, законодательство.*

Рассматривая в рамках настоящей статьи, современные угрозы информационной безопасности, представляется необходимым определить и предотвратить такие угрозы, как деятельность международных террористических, экстремистских и преступных сообществ, организаций, групп и отдельных правонарушителей, представляющая угрозу информационным ресурсам и критически важным структурам государств. Отмечается, что информационная преступность, информационный терроризм являются противоправными действиями, однако они отличаются характером преследуемых целей. Автор приходит к выводу о том, что правовое урегулирование проблем противодействия использованию Интернета в террористических и экстремистских, а также в иных противоправных целях, необходимо для обеспечения информационной безопасности личности, общества и государства.

Одной из первоочередных задач, стоящих перед мировым сообществом в XXI веке, является, как уже отмечалось, построение информационного общества. В связи с этим неизбежно встает вопрос обеспечения правового регулирования уже сложившихся и возникающих общественных отношений, связанных с его формированием.

На современном этапе столь динамичного развития и применения информационных технологий неизбежно возникает проблема защиты общества от их использования в преступных целях. Преступность в сфере высоких технологий не имеет границ и составляет угрозу международной безопасности.

Возрастающее значение информации и развитие информационных технологий, их роль в современной жизни общества являются несомненными достижениями в этой области. Неслучайно XXI век называют информационным, и этому, конечно, способствует развитие глобальных информационных систем и, в первую очередь, Интернета.

Siyasi rejimdən, ənənələrdən, ərazinin həcmindən və əhalinin sayından, nəqliyyat və kommunikasiya vasitələrinin inkişaf dərəcəsindən asılı olaraq bu və ya digər cəmiyyətdə siyasi iştirakçılığın birbaşa və dolayısı yolla (nümayəndəli) əlaqələndirilməsi müxtəlif şəkildə ifadə edilir. Vətəndaşların siyasi iştirakçılığının ən əhəmiyyətli formaları siyasi partiyalar, ictimai-siyasi təşkilatlar və hərəkatlardır. Sosial subyektlərin siyasi həyatda iştirakçılığının digər başlıca vasitəsi ilə seçkilərdir.

Bu və ya digər siyasi rejimdə vətəndaşların siyasi həyatda iştirakı fərqli xüsusiyyətlər kəsb edir. Məsələn, qeyri-demokratik rejimlər olmaq etibarilə, avtoritar rejimdə əhali siyasətdə iştirakdan tamamilə və ya qismən uzaqlaşdırılırsa, totalitar cəmiyyətdə əhalinin böyük əksəriyyəti mövcud rejimi müdafiə etmək məqsədilə mərasim mahiyyətli səfərbərlik sayəsində siyasətdə iştirakçılığa cəlb olunur. Demokratik rejimdə isə siyasi iştirakçılıq siyasi sosiallaşma və siyasi tərbiyə funksiyalarını həyata keçirir. Əgər totalitar cəmiyyətdə siyasi etirazların və narazılığın formaları qadağan olunursa, demokratik rejimdə siyasi etirazların formalarına yol verilir. Vaxtilə Platon və Aristotel vətəndaşların polisin (dövlətin) işlərində iştirakının zəruri olub-olmadığını təhlil etmək əsasında belə qənaətə gəlmişlər ki, bir dövlət quruluşundan digərinə keçmək üçün siyasətdə iştirakın özünəməxsus əhəmiyyəti vardır.

Yeni dövrdə siyasi həyatda iştirakın əhəmiyyətli ideyası daha da zənginləşir. Siyasi həyatda iştirak hakim dairələrin siyasi strategiyasının ideal modelini yaratmaq üçün vasitə (Makiavelli), suverenliyin və müxtəlif idarəetmə üsullarının daşıyıcısı (Boden), idarəetmənin forma və prinsipi (Monteskye) kimi çıxış edir. Müasir siyasi elmdə siyasətdə iştiraka aid nəinki xüsusi nəzəriyyə işlənib hazırlanmışdır, eləcə də politoloji konsepsiyaların formalaşmasında siyasətdə iştirakçılıq ideyasından istifadə edilir.

Vətəndaşların siyasətdə iştirakının konkret növləri, üsulları, səviyyəsi və formaları, həmin iştirakçılığın intensivliyi və nəticələri mövcud cəmiyyətin siyasi sisteminin funksional xüsusiyyətlərini, onun siyasi rejiminin spesifikliyini və xüsusilə cəmiyyətin siyasi mədəniyyətinin səciyyəvi xüsusiyyətləri ifadə edir və həmçinin müəyyənləşdirir. Demokratiyanın tərəqqisi və cəmiyyətin müasirləşməsi xeyli dərəcədə vətəndaşların siyasi sferada iştirakının genişlənməsi ilə bağlıdır.

Qeyd etmək vacibdir ki, bütövlükdə siyasi fəaliyyət siyasi mədəniyyətin təzahürünün son nəticəsi kimi çıxış edir. Bu cəhət siyasi iştirakçılığa da aiddir. Siyasi mədəniyyət siyasi sistemin fəaliyyəti prosesində siyasi münasibətlərin xarakteristikası kimi çıxış edir. Bu mənada o, siyasi modernləşmənin məzmununa aid olan xüsusi mənəvi fenomen kimi səciyyələnir. Cəmiyyətin sosial-siyasi təsisatları məhz, maddi və mənəvi mədəniyyətin «qovuşuğunda» yerləşir. Bu cəhət siyasi mədəniyyətin xüsusiyyətlərində özünü daha aydın göstərir.

## ƏDƏBİYYAT

1. Данилов А.Н. Переходное общество: Проблемы системной трансформации А.Н.Данилов. – Мн: Университетское, 1997, 360 с.
2. Основы политической науки. Часть II. М, Аспект-пресс. 1993, 240 с.
3. Шестопал Е.Б. Очерки политической психологии. М.: Наука, 1990, 120 с.
4. Токвиль А.де. Демократия в Америке. М., Аспект-пресс, 1993, 490 с.
5. Əfəndiyev M. Siyasi elm. Bakı:Siyasət, 2010, 700 s.

## ABSTRACT

**Elnur Hajaliyev**

**Political modernization in the context of political process**

In article the essence of concept of political process reveals. Essence, the contents, features and stages of political process, proceeding from the general concept of process. The special attention of political modernization in the context of political process is here too paid, the interrelation of these two processes is investigated. The author especially allocates political participation as the basic element of the content of the political modernization connected with political process locates communication of political participation with a political regime.

## РЕЗЮМЕ

**Эльнур Гаджалиев**

**Политическая модернизация в контексте политического процесса**

В статье раскрывается сущность понятия политического процесса. Сущность, содержание, особенности и этапы политического процесса, исходя из общего понятия процесса. Здесь также уделяется особое внимание политической модернизации в контексте политического процесса, исследуется взаимосвязь данных двух процессов. Автор особо выделяет политическое участие как основной элемент содержания политической модернизации, связанной с политическим процессом, обосновывается связь политического участия с политическим режимом.

---

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**

# ARXEOLOGİYA VƏ NUMİZMATİKA

**FƏXRƏDDİN SƏFƏRLİ**
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya*
*və Arxeologiya İnstitutu*
*E-mail: hacifexreddin@yahoo.com.tr*

**UOT: 572.9**

## ADLARI EPİQRAFİK ABİDƏLƏRDƏ AŞKAR EDİLMİŞ GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR
### (III məqalə)

**Açar sözlər**: *Epiqrafik abidə, kitabə, şəxsiyyət, Möminə xatın, Bikə Sultan.*
**Key words**: *Epigraphic monument, inscription, indentify, Momina khatun, Bika Sultan.*
**Ключевые слова**: *Эпиграфический памятник, надпись, личность, Момине хатун, Бике Султан.*

Naxçıvan Muxtar Respublikası ərazisində orta əsrlərdən indiyədək gəlib çatan epiqrafik abidələrdə adları qalan şəxsiyyətlərin bir hissəsi qadınlardır. Feodal üsul idarəsinin və şəriət qanunlarının hakim olduğu orta əsrlər zamanı hicaba uyğun olaraq qadınlar üçün bir sıra qadağalar qoyulmasına baxmayaraq Naxçıvan bölgəsində qadın məzarları üstündə də yazılı abidələr qoyulmuşdur. Bölgə ərazisində indiyədək qadınların xatirəsinə həsr olunmuş 50-yə yaxın kitabə tədqiq olunmuşdur. Bu qadınların bir hissəsi sadə vətəndaşlar olsa da onların içərisində bir sıra görkəmli şəxsiyyətlərin, o cümlədən dövlət başçılarının, sufi təriqətlərinə mənsub xanəgah şeyxlərinin arvadlarına, analarına, əsilzadələrə və başqalarına da təsadüf olunur. Bu qadınların bəziləri yaşadıqları dövrün ictimai-siyasi və mədəni həyatında, hətta dövlətin idarə olunmasında fəal iştirak edir, xeyirxah əməllərlə məşğul olurdular. Bu məqalədə həmin qadınlardan bəziləri haqqında bəhs olunacaqdır.

**1. Möminə xatın.** Bu görkəmli qadın – şəxsiyyətin adı Naxçıvan şəhərində, Atabəylər meydanında, indiki Əcəmi seyrəngahında əzəmətlə ucalan Möminə xatın türbəsinin üzərindəki kitabələrdən birində qalmışdır. Möminə xatın İraq Səlcuq sultanı II Toğrulun arvadı olmuşdur. Sultan Toğrul 1135-ci ildə vəfat etdikdən sonra taxt-tacda onu əvəz edən Sultan Məsud onun dul arvadı Möminə xatını vaxtilə vəzir əs-Sumayrami tərəfindən qul kimi satın alınan, II Toğrulun sarayında yüksək qabiliyyəti, bacarığı sayəsində böyük nüfuz qazanan, bu səbəbdən də Sultanın şəxsi məmlükləri sırasına keçirilən və Sultan mətbəxinin başçısı vəzifəsinə, həmçinin Sultanın azyaşlı oğlu Arslanşahın atabəyi təyin edilən, artıq bu zamanlardan Sultanın arvadı Möminə xatının hörmət və ehtiramını qazanan, beləliklə sarayda böyük nüfuz sahibi olan, hətta əmir rütbəsinədək yüksələn Şəmsəddin Eldənizlə evləndirir. Möminə xatının Atabəy Şəmsəddin Eldənizlə bu izdivacından Atabəy Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan adlı iki oğlu və bir qızı dünyaya gəlir. Möminə xatın 1175-ci ildə vəfat etmişdir. Ölümündən sonra Naxçıvan şəhərində dəfn olunan Möminə xatının qəbri üzərində əri Atabəy Şəmsəddin Eldəniz əzəmətli türbə ucaldılması haqqında əmr vermişdir. Ancaq Şəmsəddin Eldəniz özü də Möminə xatının ölümündən bir ay sonra dünyasını dəyişdıyı üçün, türbə atasını hakimiyyətdə əvəz edən Atabəy Məhəmməd Cahan Pəhləvan tərəfindən inşa etdirilmiş və onun inşası hicri qəməri təqvimi ilə 582-ci ilin məhərrəm ayında (24.03 – 23.04.1186-cı il) başa çatdırılmışdır.

Şəmsəddin Eldəniz hələ Arslanşahın atabəyi olduğu zamanlardan dövrünün görkəmli şəxsiyyətlərindən biri və İraq Səlcuq sultanlığının, sonralar isə Atabəylər sarayında böyük nüfuz və söz sahibi olan Möminə xatının hörmət və ehtiramını qazanmış və bu ağıllı qadın onun ən yaxın

məsləhətçisinə çevrilmişdi. Şəmsəddin Eldəniz isə öz növbəsində bütün ömrü boyu Möminə xatının tövsiyə və tapşırıqlarını nəzərə almış, məhz buna görə də heç bir vaxt saray intriqalarına, fitnə-fəsadlara, çəkişmələrə uymamışdı. Şəmsəddin Eldəniz Atabəylər dövlətini yaratdıqdan sonra da bu vəziyyət beləcə davam etmiş, Möminə xatın dövlətin siyasi həyatında fəal rol oynamışdır. O ağlı və bacarığı sayəsində sarayda yaranan ziddiyyətləri aradan qaldıra bilmiş, hətta 1161-ci ildə İraq sultanlığında hakimiyyətə keçmiş oğlu Arslanşahla əri Şəmsəddin Eldəniz arasında yaranan ziddiyyətləri aradan qaldıra və onlar arasında normal münasibətlərin yaranmasına nail olmuşdu. Möminə xatının oğlu Arslanşaha dediyi və qaynaqların bizə çatdırdığı aşağıdakı sözlər onun nə qədər ağıllı, diplomat bir qadın olduğunu açıq-aydın göstərir: "Sən Sultan taxtındasan, o (Şəmsəddin Eldəniz) və onun hər iki oğlu da (Atabəy Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan) sənin qulluğunda durub, düşmənlərinlə vuruşur, rəqiblərinə qalib gəlirlər, sənin canın isə bütün bunlardan azaddır. Atabəy nə eləyirsə eləsin, bağışlasın, ya tutub assın, bütün bunlar sənin məmləkətini möhkəmlətmək, hakimiyyətini bərkitmək üçündür..." (1, s. 48). Bu cür ağıllı və cəsarətli manevrləri sayəsində Möminə xatın Şəmsəddin Eldənizin hakimiyyətinin möhkəmlənməsinə və bütün sultanlığın gerçək sahibinə çevrilməsinə nail olmuş, Arslanşah isə dövlət başçısı rolunun formal icrası ilə məhdudlaşdırılmış şəxsə çevrilmişdi (1, s. 48).

Məhz bu müsbət və nadir keyfiyyətlərinə görə bütün ömrü boyu Naxçıvanda yaşayan və orada da torpağa tapşırılan Möminə xatının qəbri üzərində dahi Azərbaycan memarı Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilən türbənin əsas kitabəsində onun adı "dünyanın və dinin şöhrəti, islamın və müsəlmanların şərəfi" kimi titul və epitetlər ilə müşayiət olunmuşdur.

Bir sıra tədqiqatçıların fikrincə Möminə xatın Şəmsəddin Eldənizin deyil, onun oğlu Atabəy Məhəmməd Cahan Pəhləvanın arvadı olmuşdur. Ancaq Azərbaycan Atabəyləri dövlətinin gözəl tədqiqatçısı akademik Ziya Bünyadov sələflərinin istinad etdikləri orta mənbələrinin və dövriyyəyə yeni daxil olunan qaynaqların təqdim etdiyi məlumatları müqayisəli şəkildə təhlil etmiş və belə bir nəticəyə gəlmişdir ki, Möminə xatın Atabəy Şəmsəddin Eldənizin arvadı, Məhəmməd Cahan Pəhləvanın anası olmuşdur.

**2. Cahan Qudi xatın.** Bu görkəmli qadın – şəxsiyyətin adı Kəngərli rayonunun Qarabağlar kəndində indiyədək nisbətən salamat vəziyyətdə gəlib çatan memarlıq kompleksinə daxil olan qoşa minarəni birləşdirən baştağın üzərindəki kitabədə qalmışdır. Kitabənin mətninin tərcüməsi belədir: "Bu binanın [tikilməsini] Cahan Qudi xatın əmr etdi (8, s. 390). Cahan Qudi xatının şəxsiyyəti hələlik tam olaraq dəqiq aydınlaşdırılmamışdır. Orta əsr tarixçisi və dövlət xadimi, XIII-XIV yüzilliklərdə yaşamış Fəzlullah Rəşidəddinin "Cami ət-Təvarix" əsərində verdiyi məlumatlardan aydın olur ki, monqol hökmdarı, Hülakülər (Elxanilər) dövlətinin banisi Hülakü xanın (1258-1265) arvadlarından birinin adı Qutuy xatın olmuşdur (11, s. 16). Qutuy xatın Elxanilər sarayında böyük nüfuz və söz sahibi olmuş, ağlı və bacarığı sayəsində yaşadığı dövrdə, xüsusilə oğlu Sultan Əhmədin hakimiyyəti illərində (1282-1284) (7, s. 18) Hülakülər dövlətinin idarə olunmasında yaxından iştirak etmişdir (11, s. 104). Fikrimizcə baştağın üzərindəki kitabədə adı çəkilən Qudi xatınla Qutuy xatın eyni adamdır.

Kitabədə baştağın inşa tarixini bildirən tarix qalmamışdır. Ona görə də XII yüzillikdə Əcəmi Naxçıvani tərəfindən inşa edilməsi ehtimal edilən minarələri birləşdirən baştağın Qudi xatının yaşının kamillik dövrünün təsadüf etdiyi XIII yüzilliyin II yarısında inşa edilməsini ehtimal etmək olar.

**3. Həvva Bədr Bikə xatın.** Bu qadının adı isə Culfa bölgəsinin Xanəgah kəndindən təxminən 1 km şərqdə yerləşən Xanəgah kompleksinə daxil olan əsas türbənin cənub tərəfində XV əsrin sonlarında Həvva Bədr Bikə xatının özü tərəfindən inşa etdirilən türbə-məscidin kitabəsində və xanəgah kompleksinin şərq divarının yanındakı qəbri üzərində qoyulan sənduqə tipli xatirə abidəsinin baş tərəfində həkk edilən epitafiyada – məzar kitabəsində qalmışdır.

Türbə-məscidin ərəb dilində iki sətirdə həkk olunmuş kitabəsinin məzmunundan aydın olur ki, bu abidəni hicri təqvimi ilə 901-ci ildə (21.09.1495 –08.09.1496-cı il) bir müddət xanəgahda fəaliyyət göstərən sufi təriqəti mənsublarına rəhbərlik etmiş Şeyx Hacı Lələ Məliyin qəbri üzərində Həvva Bədr Bikə xatın adlı qadın inşa etdirmişdir (6, s. 61, 260).

Bu qadının adına ikinci dəfə keçən yüzilliyin 80-ci illərində Əlincəçay xanəgahının şərq divarı yanında abadlıq işləri aparılarkən torpağın altından aşkar olunmuş sənduqə tipli qəbirüstü xatirə abidəsinin üzərindəki kitabədə rast gəlinmişdir. Kitabənin mətni belədir: "Bu bağça qazı Məcd əd-Dinin qızı, mərhumə Həvva Bədr Bikənindir" (6, s. 63, 261; 8, s. 44).

Xanəgahın divarları yanında dəfn olunması göstərir ki, Həvva Bədr xatın xanəgahda yaşamış, öldükdən sonra orada da dəfn olunmuşdur. Orta əsr qaynaqları təsdiq edirlər ki, təriqət başçıları, xanəgah rəhbərləri olan şeyxlər ailə üzvləri ilə birlikdə xanəgah komplektlərinə daxil olan xüsusi yerlərdə yaşamışlar və öldükdən sonra isə xanəgahda və ya ətrafında dəfn olunmuşlar. Bu fakta, həmçinin xatirəsinə möhtəşəm türbə-məscid tikdirməsinə söykənərək ehtimal etmək olar ki, Həvva Bədr Bikə xatın XV əsrin II yarısında xanəgahda fəaliyyət göstərən sufi təriqəti mənsublarına-dərvişlərə rəhbərlik edən Şeyx Hacı Lələ Məliyin arvadı olmuşdur. Görünür, o əri ilə birlikdə xanəgahda yaşamış, əri öldükdən sonra isə xatirəsini əbədiləşdirmək üçün onun qəbri üzərində möhtəşəm xatirə abidəsi – türbə-məscid inşa etdirmişdir.

Həvva Bədr Bikə xatının qəbirüstü xatirə abidəsi üzərində tarix həkk edilməmişdir. Ancaq inşa etdirdiyi türbə məscidin kitabəsinin məlumatından aydın olur ki, 1495-1496-cı illərdə, abidənin inşası başa çatan vaxt o sağ imiş. Buradan belə bir nəticəyə gəlmək olar ki, ərinin ölümündən sonra Həvva Bədr Bikə xatın bir müddət xanəgahda yaşamış, vəfatından sonra xanəgahın şərq divarı yanında dəfn olunmuşdur. Bu fakta, həmçinin xanəgah ətrafından tapılmış dıgər abidələrlə oxşar cəhətlərinə görə müqayisəsinə əsasən ehtimal etmək olar ki, Həvva Bədr Bikə xatın XV əsrin sonu – XVI əsrin əvvəllərində vəfat etmişdir.

Xanəgah rəhbəri Şeyx Hacı lələ Məliyin arvadı olmasına, həmçinin xatirəsinə hazırlanmış qəbirüstü abidənin kitabəsinin məlumatlarına əsasən demək olar ki, Həvva Bədr Bikə xatın əsil nəcabətli ailədən çıxmış bir xanım olmuşdur. Türbə-məscidin kitabəsində adı "kəramətli, əzəmətli xatın" epitetləri ilə müşayiət olunan Həvva Bədr Bikə xatının məzar kitabəsində isə atası Məcd əd-Din "qazı" titulu ilə təqdim olunmuşdur. Şəriət hakimi qazı Məcd əd-Din kimi görkəmli şəxsiyyətin qızı olan Həvva Bədr Bikə xatının özü xanəgahda fəaliyyət göstərən sufi təriqətinin mənsubu, yaxud da təəssübkeşi olmuşdur. Şəriət hakimi – qazı qızı olmasına, həmçinin ərinin xatirəsinə möhtəşəm türbə məscid tikdirməsinə əsasən demək olar ki, o çox imkanlı qadın olmuşdur və bu səbəbdən də xanəgahda fəaliyyət göstərən təriqət mənsublarını lazım olduqda yeməklə və pulla təmin etmiş, başqa xeyriyyəçilik işlərini də keçirmişdir (6, s. 262).

**4. Qureyş Şahbanu.** Qureyş Şahbanunun adı Culfa bölgəsindəki Əlincəçay xanəgahında aşkar olunmuş və Naxçıvan Dövlət Tarix Muzeyinə təhvil verilmiş, mərmərin xüsusi növü oniksdən hazırlanmış özünə məxsus sənduqə tipli qəbirüstü xatirə abidəsi üzərindəki məzar kitabəsi vasitəsi ilə elmi dövriyyəyə daxil olmuşdur (1979). Kitabənin mətninin tərcüməsi belədir: "Bu bağça əmir Ərəbşahın qızı Qureyş Şahbanunundur. 848-də (20.04.1444 – 08.04.1445-ci il)" (2, s. 34; 12, s. 58)

Kitabədən məlum olur ki, Qureyş Şahbanunun atası Ərəbşah əmir titulu daşımışdır. Deməli, yüksək hərbi rütbə daşıyan bu adam Qaraqoyunlu dövlət aparatında böyük məqam sahibi olmuşdur. Belə yüksək rütbəli bir şəxsiyyətin qızı olmasına, həmçinin xanəgah ətrafında dəfn olunmasına əsasən ehtimal şəklində olsa da demək olar ki, Qureyş Şahbanu xanəgahda fəaliyyət göstərən dərvişlərin rəhbərlərindən birinin arvadı olmuş, əri və ailəsi ilə birlikdə xanəgahda yaşamış, öldükdən sonra orada da dəfn olunmuşdur.

**5. Mikeysə xanım.** Mikeysə xanımın adı Əlincəçay xanəgahında bərpa işləri zamanı torpağın altından tapılmış və mühafizə üçün Naxçıvan Dövlət Tarix Muzeyinə təhvil verilmiş oniksdən hazırlanmış özünə məxsus sənduqə tipli qəbirüstü xatirə abidəsi üzərində həkk olunmuş kitabədən aşkar olunmuşdur. Kitabədən aydın olmuşdur ki, nəfis şəkildə hazırlanmış "bu bağça Kamil Şeyx Hacı Hilalullahın qızı, mərhumə Mikeysə xanımındır" (12, s. 57).

Yaşadığı dövrdə tutduğu mövqe haqqında fikir yürütmək üçün kitabədə Mikeysə xanımın adına elə bir titul və ya epitet əlavə olunmamışdır. Ancaq onun atası kitabədə "şeyx", həm də "kamil şeyx" titulu ilə təqdim olunmuşdur. Bu titul göstərir ki, Hacı Hilalullah XV yüzillikdə Əlincəçay xanəgahının rəhbər şeyxlərindən biri olmuşdur (4, s. 21-27). Bu fakta əsasən demək olar ki, Mikeysə xanım atası ilə birlikdə xanəgahda yaşamış, ehtimal ki, xanəgahın rəhbər şeyxlərindən birinə ərə getmiş və orada yaşamasını davam etdirmişdir. Öldükdən sonra isə orada dəfn

olunmuşdur. Sənduqə üzərindəki başqa bir kitabədən məlum olur ki, o hicri 897-ci ildə (14.11.1491 – 22.10.1492) vəfat etmişdir.

**6. Bikə Sultan.** Bu qadının adı Culfa rayonunun Xanəgah kəndinin cənub-şərq tərəfində yerləşən qəbiristanlıqda özünün qəbri üzərində qoyulmuş qırmızımtıl rəngli dağ daşından hazırlanmış sənduqə tipli qəbirüstü xatirə abidəsi üzərindəki məzar kitabəsi vasitəsi ilə bəlli olmuşdur. Kitabədə yazılmışdır: "Məlik Məhəmmədin qızı, mərhumə Bikə Sultanın vəfatı. Doqquz yüz dördüncü il (19.08.1498 – 07.08.1499)" (2, s. 42-43).

Kitabədə Bikə Sultanın şəxsiyyəti, yaşadığı, XV əsrdə tutduğu mövqe və s. haqqında fikir söyləmək üçün əsaslı bir fakt və ya nişanə olmasa da, onun xatirəsinin üzərində gözəl kitabələr və incə, nəfis ornamentlər həkk edilmiş gözəl xatirə abidəsi hazırlanması göstərir ki, imkanlı ailəyə mənsub bir adam olmuşdur.

**7. Xanım Əta Mülk.** Bu qadının adına Ordubad şəhərinin "Malik İbrahim" qəbiristanlığında özünə məxsus qəbrin üzərində qoyulmuş başdaşı tipli qəbirüstü xatirə abidəsi üzərində həkk edilən kitabədə rast gəlinmişdir. Ərəb dilində altı sətirdə yazılan kitabənin mətni belədir: "Bu bağça böyük sədr Rükn əd-Din amid əl-Mülkün – onun yatağı sərin olsun – qızı, mərhumə, günahları bağışlanmış xanım Əta Mülkündür. Onun ölümü səkkiz yüz on birinci il, məhərrəmin on ikisində [baş verdi] (07.06.1408-ci il)" (5, s. 66; 13, s. 42-43).

Kitabədən aydın olur ki, mərhumə xanım Əta Mülkün atası Rükn əd-Din XIV əsr Azərbaycan dövlət aparatında mühüm vəzifələrdən sayılan "böyük sədr" vəzifəsində çalışmışdır. Orta əsr müəllifləri tərəfindən "yüksək vəzifə" kimi dəyərləndirilən və qaynaqlarda "sədr", "sədr əl-əzəm", "sədr əl-müəzzəm", "sədr əl-kəbir" və s. kimi təqdim olunan sədr vəzifəsini tutan adamlar böyük imtiyazlara malik olaraq bəzən dövlət aparatında üçüncü yeri tutmuşlar.

Kitabədə mərhumənin atası böyük sədr Rükn əd-Dinin adına əlavə olunan "amid əl-mülk" titulu isə orta əsrlər zaman dövlətin əsas vəzifələrindən sayılan vəzirlik məqamını tutan adamlara verilirdi. Bu titul göstərir ki, xanım Əta Mülkün atası Rükn əd-Din XIV əsrin sonu – XV əsrin əvvəllərində Azərbaycan dövlət aparatında böyük sədr və vəzir vəzifəsini icra etmişdir.

Ancaq çox təəssüf ki, belə görkəmli bir şəxsiyyətin qızı olan xanım Əta Mülkün özü, yaşadığı dövrdə cəmiyyətin həyatında tutduğu mövqe və s. haqqında müəyyən fikir söyləmək üçün kitabədə elə bir fakt və ya işarə yoxdur. Ancaq xatirəsinə gözəl bir xatirə abidəsi düzəldilməsi və qəbiristanlığın mərkəzində yerləşən Şeyx Əbu Səidin (xanım Əta Mülkdən 51 il əvvəl ölmüş və həmin qəbiristanlıqda dəfn olunmuşdur) xanəgahının yanında dəfn olunmasına əsasən ehtimal etmək olar ki, o zəmanəsinin sayılıb-seçilən, cəmiyyətin həyatında nüfuz sahibi olan bir şəxsiyyət olmuşdur.

**8. Ziba xanım.** Ziba xanımın adı Ordubad şəhərinin şərq tərəfində yerləşən "Malik İbrahim" qəbiristanlığında qeydə alınmış özünə məxsus sənduqə tipli qəbirüstü xatirə abidəsi üzərindəki epitafiyanın – məzar kitabəsinin məlumatları əsasında elmi dövriyyəyə daxil olmuşdur. Kitabənin mətnində oxuyuruq: "Bu bağça əmir Bədi ül-Mülkün qızı, alim, abid, kəramətli xatın Ziba xanımındır" (5, s. 68-69).

Ziba xanım kitabədə "alim", "abid", "kəramətli xatın" kimi titul və epitetlərlə təqdim olunmuşdur. Həyatını ibadətə həsr edən səmimi dindar mənasına gələn "abid" titulunun sufi anlamını, həmçinin Ziba xanımın XIV əsrdə sufi şeyxi Şeyx Əbu Səid tərəfindən qəbiristanlığın mərkəzində qurulan xanəgahın yaxınlığında dəfn olunmasına, həmçinin alim olmasına əsasən demək olar ki, Ziba xanım yaşadığı XV-XVI yüzilliklərdə həmin xanəgahda fəaliyyət göstərən sufi təriqətinin üzvü və ya təəssübkeşi olmuşdur. Yüksək vəzifəli şəxs, hərbçi-sərkərdə Əmir Bədi ül-Mülk kimi görkəmli şəxsiyyətin qızı olması onun imkanlı şəxs olduğunu və mənsub olduğu xanəgaha maddi yardım göstərdiyini söyləməyə əsas verir. Ehtimal etmək olar ki, o da haqqında bəhs olunan Həvva Bədr Bikə xatın kimi xanəgah rəhbərlərindən birinin arvadı olmuşdur (6, s. 63-64).

**9. Xanbikə.** Bu qadının adı Ordubad şəhərindəki "Malik İbrahim" qəbiristanlığında tədqiq edilən başdaşı tipli qəbirüstü xatirə abidəsinin üzərində həkk edilən kitabə vasitəsi ilə elmi dövriyyəyə daxil olmuşdur. Kitabənin mətni belədir: "Ey rəhmlilərin rəhmlisi! Bu bağça Sultan Sadi bəyin qızı, mərhumə, günahları bağışlanmış, pak həyat tərzi keçirən, salehə [qadın]

Xanbikənindir. Doqquz yüz səksən birinci il (03.05.1573-22.04.1574-cü il)" (5, s. 71-72; 13, s. 47-48).

Kitabənin məlumatlarından aydın olur ki, xatirəsinə belə bir abidə hazırlanmış Xanbikə bəy qızı olmuşdur. Həmçinin onun adına əlavə olunan epitetlər göstərir ki, o dindar, mömin bir qadın olmuş, haramlardan çəkinmiş, özünün pak həyat tərzi ilə tanınmış, xeyirxah əməlləri ilə məşhur olmuşdur.

**10. Səkinə.** Səkinənin adı Ordubad şəhərindəki "Malik İbrahim" qəbiristanlığında dəfn olunduğu qəbrin üzərində qoyulan başdaşı tipli qəbirüstü xatirə abidəsi üzərindəki kitabədən məlum olmuşdur. Mətni Quran ayəsi və mənzum parçadan ibarət olan kitabədən aydın olur ki, o Şeyx Molla Kərimin qızı olmuş və hicri 1119-cu ildə (04.04.1707 – 22.03.1708) vəfat etmişdir (5, s. 84 ).

Daşıdığı "Şeyx" və "Molla" titulları göstərir ki, Səkinənin atası Kərim məşhur din xadimi olmuş, Ordubad şəhərinin sosial-siyasi və mədəni həyatında yaxından və fəal iştirak etmişdir.

**11. İzz Şərəf xanım.** Nəsirəddin Tusi nəslinə mənsub olan bu qadının adı Ordubad şəhər Came məscidinin ətrafında abadlıq-bərpa işləri aparılarkən torpağın altından aşkar edilən və mühafizə üçün Naxçıvan Tarix Muzeyinə təhvil verilən mərmərdən hazırlanmış başdaşı tipli qəbirüstü xatirə abidəsi üzərindəki epitafiyadan məlum olmuşdur. Məzar kitabəsinin mətni belədir: "Quran LV-26. Mərhum, bağışlanmış Mirzə İnayət ən-Nəsiri ət-Tusinin qızı, mərhumə, günahları bağışlanmış İzz Şərəf xanımın vəfat tarixi: rəcəbəl-mürəccəb ayının əvvəli, çərşənbə günündə. 1169 (07.04.1756-cı il)" (5, s. 93; 13, s. 65-66).

Kitabədən göründüyü kimi xatirəsinə mərmərdən gözəl başdaşı hazırlanmış İzz Şərəf xanım görkəmli alim Nəsirəddin Tusi nəslindən olan Mirzə İnayət adlı adamın qızı olmuşdur. Səfəvilər zamanından başlayaraq irsi olaraq Ordubad şəhərini idarə edən Nəsirəddin Tusi nəsli Ordubadın sayılıb-seçilən tayfalarından olmuşdur. Onlar Ordubad şəhərini irsən idarə etməklə bərabər həm də bölgənin iri feodalları kimi çoxlu kəndlərə, torpaq sahələrinə malik olmuşlar. Ehtimal etmək olar ki, Mirzə İnayət də Ordubad şəhərinin siyasi, iqtisadi və mədəni həyatında mühüm rolu olan şəxsiyyət olmuşdur.

İzz Şərəf xanımın şəxsiyyəti haqqında tutarlı fikir söyləmək mümkün olmasa da, şəhərin baş məscidi olan Came məscidinin yanında dəfn olunması onun heç də sıradan bir vətəndaş olmadığını göstərir. Müsəlman şərqində Came məscidləri yanında əsasən görkəmli şəxsiyyətlər dəfn olunduğundan burada dəfn olunması onun nüfuzlu ailəyə mənsub olmasından irəli gəlməklə yanaşı, özünün cəmiyyətin həyatında mənsub olduğu mövqedən də qaynaqlana bilərdi.

**12. Bacıxanım.** Bu qadının adı Ordubad şəhərinin "Malik İbrahim" qəbiristanlığında olan qəbrinin üstünə qoyulan başdaşı üzərində həkk edilən kitabədə aşkar olunmuşdur. Mərhumə Bacıxanım kitabədə belə təqdim olunmuşdur: "Şeyx Məhəmmədin qızı Bacıxanım təkəbbür dünyasından köçdü. 1233 (11.11.1817 – 30.10.1812-cı il)" (5, s. 106; 13, s. 78).

Kitabədən məlum olur ki, Bacıxanımın atası "şeyx" olmuşdur. Bu titulun sufi anlamını əsas götürərək deyə bilərik ki, mərhumə Bacıxanımın atası Məhəmməd sufi şeyxi olmuş və Ordubad şəhərində fəaliyyət göstərən sufiliklə bağlı mərkəzlərdən birinin, ehtimal ki, elə Malik İbrahim qəbiristanlığının mərkəzində yerləşən XIV yüzillikdə Şeyx Əbu Səid tərəfindən yaradılan, XVIII yüzillikdə də fəaliyyət göstərən xanəgahın rəhbər şeyxlərindən olmuşdur (5, s. 135).

Orta əsrlər zamanı, islam dini ehkamlarının hökmran olduğu bir dövrdə Naxçıvan ərazisində yaşayan və vəfat etdikdən sonra qəbirlərinin üstünə qoyulan abidələrdə adlarının qeyd olunmasını heç də təsadüfi hal kimi qiymətləndirmək olmaz. Müsəlman epiqrafikası üzrə tanınmış tədqiqatçılardan olan tacik alimi A.Muxtarovun ( s. 69) və dağıstanlı alim Ə.Şıxsəidovun ( s. 328) fikrincə orta əsrlər dövründə bir sıra qadınların xatirəsinə möhtəşəm xatirə abidələrinin hazırlanması, onların əcdadlarının və ya özlərinin sosial vəziyyəti, kübar mənşəyi ilə əlaqədar olmuş, həmin qadınlar əsasən vəzifəli, imkanlı və zəmanəsinin sayılıb-seçilən şəxsiyyətlərinin ailə üzvləri olmuşlar. Bu fikri olduğu kimi haqqında bəhs etdiyimiz qadınlara da aid etmək olar.

## ƏDƏBİYYAT


1. Naxçıvan ensiklopediyası. 2 cilddə, cild 2. Naxçıvan: 2005, 376 s.
2. Səfərli H.F. Culfa bölgəsinin epiqrafik abidələri. Bakı: Elm, 2002, 80 s.

3. Səfərli H.F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı: Elm, 2003, 392 s.
4. Səfərli H.F. Kamil Şeyx Hacı Hilalullah. AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Naxçıvan, 2008, № 1, s. 21-27.
5. Səfərli H.F. Ordubad şəhərinin müsəlman epiqrafikası abidələri. Bakı: MBM, 2009, 192 s.
6. Səfərli H.F. Naxçıvanda sufiliklə bağlı mərkəzlər Bakı: Elm və təhsil, 2013, 328 s.
7. Əbu Bəkr əl-Qütbi əl Əhəri. Tarix-e Şeyx Uveys. Bakı, 1984.
8. Алескерзаде А.А. Надписи архитектурных памятников Азербайджана. Эпохи Низами / Архитектура Азербайджана. Эпохи Низами. Москва-Баку, 1947, с. 369-390.
9. Мухтаров А. Намогильные кайраки с женскими именами (ХЫВ-ХВЫ вв). В кн. Древность и средневековье народов Средней Азии. История и культура. Москва, 1978, с. 69-76
10. Неймат М. Корпус эпиграфических памятников Азербайджана. Том 3, Баку, Yeni nəşrlər evi, 2001, 216 с.
11. Рашид-ад-дин Ф. Джати ат-Таварих (Сборник летописей). Том III, Баку, 1957.
12. Сафаров Ф.Я. Эпиграфические памятники из Ханикаха на Алинджачай Нахичеванской АССР / Археологические и этнографические изыскания в Азербайджане (1976). Баку: Элм, 1979, с. 57-59.
13. Сафаров Ф.Я. Арабо-персоязычные надписи Нахичеванской АССР (XVI-XIX вв) как историко-культурные памятники. Диссертация на сосискание ученой степени канд. ист. наук. Баку, 1987, 179 с. НАИИ НАН Азербайджана. Инв. № 8383.
14. Шихсаидов А. Эпиграфические памятники Дагестана X-ХВЫЫ вв. как исторический источник. Москва, Наука, 1984, 464 с.

**ABSTRACT**

**Fakhraddin Safarli**

**eminent personalities obtained in the epigraphic monuments**

The article deals with the prominent fiqures in the scientific revolution has reached till nowadays through epigraphic monuments (Momina khatun, Qudi khatun, Havva Badr Bika khatun, Mikeysa khanum, Bika Sultan and so on.) in the territory of Azerbaijan. Reserches showed that these personalities mainly belonged to the aristocratic families and they played an important role in the political and social life of their lives.

**РЕЗЮМЕ**

**Фахреддин Сафарли**

**выдающийся личности, имя которые выявлены в эпиграфических памятниках**

В статье рассматриваются о выдающихся личностях (Мумине хатын, Гуди хатын, Хавва Бадр Бике хатын, Микейса ханым, Бике Султан и др.), имени которые выявлены благодаря эпиграфическим памятникам, дошедших до нас на территории Нахчывана. Было известно, что эти личности принадлежали к аристократическим семьям и играли важную роль в социально – политической жизни своего времени.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

**ZEYNƏB QULİYEVA**
*AMEA Naxçıvan Bölməsi*
*zeyneb_guliyeva@yahoo.com.tr*

**UOT: 902**

# NAXÇIVANIN DƏMİR DÖVRÜ KERAMİKASININ ORNAMENTAL TƏHLİLİ

**Açar sözlər:** *Naxçıvan, muzey, Dəmir dövrü, ornament, keramika.*
**Key words:** *Nakhchivan, museus, Iron Age, ornament, ceramic.*
**Ключевые слова:** *Нахчыван, музей, Железний век, орнамент, керамика.*

Naxçıvanın maddi mədəniyyətinin böyük bir hissəsi burada fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeylərində mühafizə olunmaqdadır. Onların timsalında Naxçıvanda mövcud olmuş arxeoloji mədəniyyətləri, onların özünəməxsus xüsusiyyətlərini, həmçinin mədəniyyətlər arası tarixi əlaqəni izləmək mümkündür. Hər bir diyarşünaslıq muzeyi aid olduğu regionun tarixini əks etdirir. Şərur və Şahbuz mezeylərində saxlanılan Dəmir dövrü keramikası həmin rayonların ərazisində yerləşən Aşağı Daşarx nekropolu (1, c. 15), Qarabulaq nekropolu, Zeyvə nekropolu, Dəmirçi nekropolu (8, s. 245), Çapacaq kurqanları (10, s. 27) Qazxan nekropolu (8, s. 245, 249), Kolanı, Kükü nekropolları, həmçinin Sarıdərə, Hakkıxlıq kimi arxeoloji abidələrin spesifik xüsusiyyətlərinin ortaya çıxarılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Bu dövrün keramikası üçün əsasən konik, bikonik formalı, dəyirmi, bəzən də halqadabanlı qablar, ağız hissədə yerləşən qulpşəkilli çıxıntılar və göbələk şəkilli çıxıntılar, həmçinin bəzi qablarda kiçik üçkünc formalı ayaqlar və çıxıntı şəkilli oturacaqlar xarakterikdir. Bu əlamətlər küpə, kasa, parç, çölmək, qədəh, xeyrə tipli qablarda nümayiş olunur.

Küpələri boğaz formalarına görə 2 qrupa bölmək olar: geniş ağızlı, silindirik boğazlı küpələr və dar boğazlı ağzı xaricə doğru qatlanmış küpələr. Birinci tipə aid küpələrin Dəmirçi nekropolundan tapılan nümunəsi qısa boğazlı olub, üzərindəki bəzəmə motivi ilə diqqət çəkir. Qabın boğazına yaxın yerdə üçbucağı xatırladan bir cərgə çərtmə naxış və dövrələmə sünbülü naxışlar salınmışdır. Zeyvə nekropolundan aşkar edilən nümunə isə naxışsızdır və ağız kənarları xaricə doğru meyilləndirilmişdir. Silindrik boğazlı küpələrin Dəmirçi nekropolundan tapılan nümunələrindən birinin çiyni üzərindəki göbələkvari çıxıntı Xocalı-Gədəbəy mədəniyyətinin təsirini əks etdirir. Şahbuz muzeyində saxlanılan nümunələrdən biri tək qulplu olub oturacağından gövdəsinə doğru xəfif konnelyur ornament çəkilmişdir. Silindirik-konik boğaza malik olan kiçik həcmli küpənin hündürlüyü 8 sm, ağız diametri 5,5 sm, oturacaq diametri isə 4 sm-dir (ŞahbuzTDM, inv. №2813). Bu tip qabların bənzərlərinə Elazığ bölgəsinin materialları arasında rastlanmışdır (14, resim 4, 7). Dar boğazlı küpələrin Şahbuz muzeyindəki nümunələrindən biri boz-qəhvəyi rəng üzərində səliqə ilə və dəqiqliklə çəkilmiş ornamentləri və hündür dar boğazı ilə fərqlənir. Küpənin hündürlüyü 14,5 sm, ağız diametri 7,5 sm, oturacaq diametri 5,5 sm-dir (İnv. №8). Dəmirçi Qarabulaq və Zeyvə nekropollarının materialları arasında yer alan bu tip küpələrin analoqları isə Anadolu abidələrindən məlumdur (12, resim 23,8).




Şəkil 1. Şahbuz muzeyinin Dəmir dövrü keramikası

(inv. 1-№2718; 2-№2507; 3-№852; 4-№1720).

Kasalar əsasən ağız quruluşuna görə fərqlənirlər: ağzı kənara doğru genişləndirilmiş kasalar, ağzı az miqdarda içəriyə doğru yığılan kasalar, düz ağızlı olanlar. Birinci tip kasalar Qarabulaq və Dəmirçi keramikası içərisində üstünlük təşkil edir, prototiplərinə isə Yıldıztəpə, Diləktəpə, Koyunuşağı abidələrində rast gəlinmişdir (11, resim 39, 9-10; resim 10, 1-2; resim 3, 11; resim 33, 6). Düz boğazlı kasalar daha çox Zeyvə, Dəmirçi nekropollarından aşkar edilmiş və quruluş baxımından Yıldıztepe keramikası ilə yaxındır (10, resim 39, 15-16). Lakin Yıldıztəpə keramikasından fərqli olaraq daxildən və xaricdən kannelyur formalı batıq naxışlarla bəzədilmişdir. Ağzı az miqdarda içəriyə doğru yığılan kasalara Dəmirçi, Qarabulaq, Zeyvə materialları arasında rastlanmışdır. Zeyvədən tapılan kasa dəyirmi gövdəyə və ayrıca çıxıntı şəklində olan kiçik oturacağa malik olması ilə diqqət çəkir. Bu tip qabın Dəmirçi nekropolundan tapılan nümunəsi isə dəyirmi gövdəli olsa da oturacaq hissəsində üçkünc formalı kiçik ayaqları və bir tərəfində yerləşən uzun dəstəyinin olması ilə fərqlənir. Bu tip uzun dəstəkli qabın bənzəri Kolanı nekropolundan məlumdur (7, şəkil 25, 13). Qeyd etmək lazımdır ki, bu tipdə olan qablar az miqdarda aşkar edilmişdir. Naxçıvan abidələrindən yalnız Şahtaxtı materialları içərisində 1 nümunə ilə təmsil olunmuşdur. Şərqi Anadolu ərazisində isə bu tip qabların bənzərləri Yıldıztəpədən və Samantəpədən aşkar edilmişdir (12, resim 39, 21).

Naxçıvan muzeylərinin Dəmir dövrü materialları arasında bir neçə nümunə ilə təmsil olunan parçlardan biri silindrik boğazlı, dəyirmi gövdəli olub, çiyin hissəsini gövdəsi ilə birləşdirən ziqzaq şəkilli qulpu ilə diqqət çəkir. Qulpu istisna olmaqla, belə parçların bənzərləri Taşlıcabayır məzar təpəsindən tapılmışdır (14, s. 158-159, fig. 1). Digər parç Qarabulaqdan tapılan qulpsuz və naxışsız, silindrik formalıdır (ŞTDM. Inv.№451).

Çölmək tipli qabların əksəriyyətinin çiyni üzərində olan göbələkvari rudimentar qulplar onların Xocalı-Gədəbəy mədəniyyətinin məhsulu olduğunu özündə əks etdirir. Bu qabları boğazlı və boğazsız olmaqla iki tipə ayırmaq olar. Birinci tipə aid olan çölməklərdən biri Dəmirçi nekropolundan üzə çıxarılan boz-qara rəngli, boğazsız qabdır. Ağzı içəriyə doğru yığılmış, dəyirmi quruluşa malik olan bu qabın boğaza yaxın hissəsində üfüqi istiqamətdə olan iki qulpu da ortadan şaquli istiqamətdə və kiçik ölçüdə deşilmişdir. Bu qabın bənzərinə, lakin tək qulplu formasına Elazığ-Bingöl abidələrindən olan Çinaz I yaşayış yerində rast gəlinir (12, resim 5, 1). İkinci tipə aid olanlar qısa və az miqdarda xaricə doğru qatlanmış boğazları ilə fərqlənirlər. Bu tipli çölməklər müxtəlif ornamentlərlə naxışlanmış nümunələrlə təmsil olunur və çoxluq təşkil edirlər. Dizə, Qarabulaq, Qazxan nekropolunda bu qabların müxtəlif çeşidləri aşkar edilmişdir. Zeyvə nekropolundan tapılan bu tip qablardan biri bikonik formaya malik olub, boz-qara rəngdədir. Qabın genişlənmiş hissəsində dövrələmə çəkilmiş basma xətt istisna olmaqla naxışsızdır (ŞTDM. Inv. №103).

Xeyrələr iki forma ilə diqqət çəkir. Bunlardan birincisi kiçik oturacağa malik olub ağız hissəyə doğru getdikcə genişlənir. Konik formada olan bu qab xaricdən kannelyur formalı cızma xətlərlə naxışlanmış, oturacağında isə çərxifələk işarəsi təsvir edilmişdir. İnteryeri oturacaq hissədə naxışsız olsa da ağız kənarında qabı dövrələyən iki cərgə xətt çəkilmiş, içərisi çiçək ləçəklərini xatırladan yarımdairələrlə doldurulmuşdur. İkinci tip qab üçayaqlı olması ilə fərqlənir (Şəkil 1, 3). Ağız kənarı 2 qoşa dairə şəklində kiçik ölçüdə deşilmiş, interyerinə ziqzaq şəkilli cızma ornament çəkilmişdir. Boz rəngli gildən hazırlanmış bu qabın ağız diametri 27 sm, hündürlüyü 6 sm-dir (ŞahbuzTDM, inv. №12).

Qədəhlər digər qablarla müqayisədə azlıq təşkil edir. Şahbuz rayon Tarix Diyarşünaslıq muzeyinin Dəmir dövrü eksponatları arasında onların qulplu və qulpsuz formaları əsasən boz və qara rənglərlə təmsil olunur (Şəkil 1, 1). Şərur rayon Tarix Diyarşünaslıq Muzeyində mühafizə edilən belə qablardan biri boz-qara rəngdə olub, tək qulpludur. Qabın ornamentasiyası xaricdən boğaz hissəsini dövrələyən iki cərgə batıq xətdən ibarətdir. İnteryerdən isə qabın oturacağı ətrafina çəkilmiş iç-içə dairələr və şaqli formada qabın gövdəsinə doğru qaldırılmış simmetrik xətlərlə naxışlanmışdır. Gövdəsində yerləşdirilmiş tək qulpu sınmışdır. Qeyd etmək lazımdır ki, bu tip qabın naxışsız və bir qədər primitiv qaydada hazırlanmış nümunəsinə Şahtaxtı nekropolunda (11, şəkil 4,

8), qulplu və basma xətlərlə naxışlanmış formasına isə Culfa keramikasında rastlanmışdır (5, şəkil 1, 42, 49).

Çıraqlar bu dövrün qabları içərisində orijinal quruluşu ilə fərqlənir. Onların Şahbuz muzeyində mühafizə edilən nümunəsi boz-qəhvəyi rənglidir. Qabın bir tərəfində rudimentar qulp, əks tərəfində isə çaynikə məxsus lüləyi var (Şəkil 1, 2). Gövdəsində 3 cərgə batıq xətt çəkilmiş bu qabın hündürlüyü 12,5 sm, ağız diametri 27 sm, oturacaq diametri isə 8,5 sm-dir (İnv. №10). Digər çırağın ağzı sınsa da ümumi formasını qoruyub saxlamışdır (ŞTDM DK-01).

Qabların ornamentasiyasında orijinallıq daha çox müşahidə olunur. Bu dövrün ornamentasiyası əsasən 4 formada tətbiq edilmişdir:

1. Qabartma üsulu ilə çəkilmiş ornamentlər;
2. Batıq formalı ornamentlər;
3. Çərtmə üsulu ilə çəkilmiş ornamentlər;
4. Cızma xətlərlə çəkilmiş ornamentlər (Şəkil 2, I,II,III,IV).

Birinci qrupa aid olan bəzəmə stili relyefik ornamentlərlə təmsil olunmaqla əsasən ilana bənzər və dairələrlə ifadə olunmuşdur (Şəkil 1, 3; Şəkil 2, 1, 2). Heydərabad Tarix Diyarşünaslıq muzeyindəki fraqmentin üzərində qabartma üsulla çəkilmiş ilanvari ornament istər forması, istərsə də üslubuna görə Erkən və Orta Tunc dövrü ornamentasiyası ilə oxşarlıq təşkil edir. Şahbuz rayon Tarix Dioyarşünaslıq muzeyinin eksponatlarından olan Dəmir dövrü küpəsi üzərində çəkilmiş üçbucaqların künclərində olan qabarıq dairələr düymə şəkilli və yastı forması ilə fərqlənsə də Erkən Tunc dövründə tətbiq edilən qabartmaların bir qədər dəyişik forması hesab edilə bilər. Boz rəngli gildən hazırlanmış bu qabın hündürlüyü 11 sm, ağzının diametri 8 sm, oturacağının diametri isə 7 sm-dir (ŞTDM, inv.№852).




Şəkil 2. Dəmir dövrü keramikasındakı ornamentlərin tətbiq etmə üslubları.




Şəkil 3. Dəmir dövrü keramikasındakı ornamentlərin növləri

İkinci üslub qabların üzərində çəkilmiş batıq şəkilli ornamentlərlə təmsil olunur. Onların içərisində batıq üçbucaqlar, dairələr, dalğavari və novşəkilli formalar üstünlük təşkil edir (Şəkil 2, 3,4; Şəkil 3, 2,4,5,6). Şahbuz muzeyinin eksponatlarına aid olan boz rəngli qədəhin gövdəsində 8 ədəd novşəkilli ornament çəkilmişdir (Şəkil 1, 1). Tək qulplu olan bu qabın hündürlüyü 14 sm, ağzının diametri 8 sm, oturacağının diametri 6 sm-dir (İnv. №2718). Muzeydəki Dəmir dövrünə aid küpələrdən birinin fraqmenti üzərində çəkilmiş batıq ovalvari dairələr simmetrikliyi ilə diqqəti cəlb edir (İnv. №88). Bu dövrün relyefik bəzəmə üslubunun Kür-Araz ornamentasiyası ilə oxşarlıq təşkil etməsi Dəmir dövrü mədəniyyətinin mənşəyi ilə bağlı bəzi məsələlərə aydınlıq gətirə biləcək faktlardan sayıla bilər.



Şəkil 4. Dəmir dövrünün relyefik (1), cızma (2), konnelyur (3) və çərtmə (4) naxışlı keramikası.

Çərtmə üslubla çəkilmiş ornamentasiya Dəmir dövründə geniş yayılmışdır. Maraqlı cəhət bu üslubun özündə müxtəlif kompozisiyaların yaradılmasıdır. Keramika üzərində bu üsulla tətbiq edilən ornamentlər sünbül şəkilli, dalğavari, ziqzaqlar və paralel xətlərlə ifadə olunmuş növlərinə rast gəlinir (Şəkil 2, 5,6; Şəkil 3, 4). Bu tip ornamentasiya Kolanı, Kükü, Zeyvə, Sədərək abidələri və digərlərinin Dəmir dövrü keramikasında kifayət qədər tətbiq edilmişdir.

Dördüncü tipə aid olan cızma naxışlara Dəmir dövrü ilə bərabər Erkən Tunc dövrü keramikasında da rast gəlinir. Şahbuz muzeyinin Dəmir dövrünə aid olan eksponatlarından biri üzərində cızma üslubla ziqzaq ornamentasiya çəkilmişdir (ŞTDM DK-8). Digər iki qabın üzərində isə bu üsulla kannelyur formalı xətlər çəkilmişdir. Bunlardan biri kiçik ölçülü bikonik formalı küpə olub, hündürlüyü 8 sm, ağız diametri 5,5 sm, oturacaq diametri isə 4 sm-dir (ŞTDM, inv. №2507). Tək qulplu, silindirik boğazlı digər küpənin isə hündürlüyü 10,5 sm, ağız diametri 6,5 sm, oturacaq diametri isə 3,5 sm-dir (ŞTDM DK-7).

Ümumiyyətlə, Naxçıvanın Dəmir dövrü keramikasının ornamentasiyasında tətbiq edilən 4 üsuldan 3-ü Erkən Tunc dövrü ilə az və ya çox dərəcədə analogiya yaradır. Bu fikir ornament tiplərində də öz təsdiqini tapır. Dalğavari ornamentlərin qabarıq və batıq növləri, ziqzaqlar, romblar (Şəkil 2, 7, 8) və digər ornamentlər hər iki dövrün sevilən bəzək növləri olmuşdur (Şəkil 3, 6,7). Erkən Tunc dövründə geniş yayılmış damğalar Dəmir dövründə kəmiyyətcə azalmış olsa da keyfiyyətcə daha təkmil formada mövcud olmuşdur. Buna 6 ədəddən ibarət batıq üçbucaq şəkilli qrafemləşmiş damğanın, həmçinin konsentrik dairə içərisində çəkilmiş çərxi-fələk işarələrinin timsalında misallar göstərmək olar (Şəkil 3,8).

Dəmir dövrünün ornamentasiyası bu dövrün əsas parametrlərini əks etdirən ziqzaq, çərtmə, kannelyur, dalğavari ornamentlərlə, bəzən də çərxifələk işarələri və digər simvollarla təmsil olunan fərqli impulslarla diqqət çəkirlər. Xələcin Dəmir dövrü təbəqəsinin materialları arasında yer alan fraqmentin (ŞTDM №3443) və Zeyvə keramikalarından birinə aid olan fraqmentin maraqlı cəhətlərdən biri naxışlamada günəşin şüalarını xatırladan batıq enli xətlərlə salınan ornamentlərin meydana çıxmasıdır (Şəkil 3, 7). Həmçinin Aşağı Daşarx keramikası üzərində salınan sünbülşəkilli çərtmə naxışlar orijinallığı ilə diqqəti cəlb edir (ŞTDM №755). Qabların oturacaqlarında salınan çərxifələk işarəsi dini-fəlsəfi motivdə olmaqla, qədim dövr insanlarının dünya və axirət həyatı haqqında düşüncələrini əks etdirir. Günəşi simvolizə edən şüaşəkilli elementlər səma cisimlərinə sitayişlə bağlı olmuş, sünbülü naxışlar insanların məşğuliyyətində taxılçılığın mühüm yer tutduğunu göstərir (Şəkil 3, 4,7). Bir sözlə, qədim yerli tayfalar suyun dalğasını, yaxud ilan müdrikliyini (dalğavari naxışlar), ildırımın çaxmasını (ziqzaqlar), günəşin möhtəşəmliyini (saçaqvari-şüaşəkilli naxışlar), axirət həyatına inanclarını (çərxifələk işarəsi), əkinçilik (sünbülü naxışlar) və maldarlığın (qoç-keçi fiqurları) başlıca məşğuliyyət sayılmaqla, ictimai-iqtisadi həyatlarının əsas nüanslarını keramikaların "şəkil dili" ilə xələflərinə çatdırmışlar.

Beləliklə, Naxçıvanın Dəmir dövrü abidələrindən əldə edilən keramikanın muxtar respublikanın rayonlarında yerləşən Tarix-Diyarşünaslıq muzeyində saxlanılan nümunələrinin timsalında bu dövrün ornamentasiyasında lokal xüsusiyyətlərlə yanaşı Azərbaycanın digər regionları ilə, o cümlədən Xocalı-Gədəbəy mədəniyyəti ilə ənənəvi bağlılığını izləmək mümkündür. Digər tərəfdən bu dövrün ornamentasiyası Dəmir dövrü mədəniyyətində əvvəlki arxeoloji mədəniyyətlərin bəzi parametrlərinin davam etdiyini nümayiş etdirir ki, bu da bəhs edilən dövrün mənşəyinin öyrənilməsi baxımından xüsusi əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan arxeologiyası. Altı cilddə, I cild. Bakı: Şərq-Qərb, 2008, 448 s.
2. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванский АССР. Баку: Элм, 1982, 316 с.
3. Aşurov S.H. Qarabulaq qəbristanlığı // Azərbaycan dövlət quruluşunun bərpa edilməsinə həsr olunmuş elmi konfransın əsərləri. Bakı, 1991, s. 9-11.
4. Aşurov S.H. Naxçıvanda arxeoloji tədqiqatlar (2001-2002- ci illər) Bakı: Nafta-Press, 2003, 120 s .

5. Aşurov S.H., Baxşəliyev V.B. Şərurda arxeoloji tədqiqatlar // Azərbaycanda arxeoloji tədqiqatlar. Bakı: Xəzər Universiteti, 2008, 152 s.
6. Aslanov Q.M., Kəsəmənli H.P. Daşkəsən rayonunun Xaçbulaq kəndindəki bir qrup daş qutu qəbir haqqında // Azərbaycan SSR EA Xəbərləri (tarix, fəlsəfə, hüquq), 1975, № 1, s. 81-84.
7. Baxşəliyev V.B. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.
8. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti (e.ə. VI-I minilliklərə aid arxeoloji abidələr əsasında). Bakı: Elm, 2004, 320 s.
9. Baxşəliyev V.B . Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 304 s.
10. Müseyibli N.Ə. Qədim Sədərək, Nafta-Press, Bakı, 2003, 104 s.
11. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri. Bakı, Elm, 1993, 184 s.
12. SevinV. Elazığ-Bingöl yüzey araştırması, s. 451-500 // VI Araştırma sonuçları toplantısı // Ankara, 1988.
13. Seyidov A.Q., Baxşəliyev V.B, Məmmədov S.M., Aşurov S.H. Qədim Şərur. Bakı, 2012, 466 s.
14. Özdoğan M. Taşlıcabayır kazısı, s. 158-159, fig. 1 // Türkiye arkeolojisi ve Istanbul Universitesi, (1932-39).

**ABSTRACT**

**Zeyneb Guliyeva**

**Ornamental features of Nakhchivan ceramics of the Iron Age**

In the article analyzed archaeological materials of necropoleis Iron Age discovered were in the Iron Age. Typology of ceramic wares, the morphological analysis of the cultures that existed in this region, of this period as being the product of a local culture, the culture of the Khojaly-Gedabekh affected, as well as Nakhchivan, the Middle East, Eastern Anatolia and the use of cultural and economic ties. The specific feature of this period reflected on the ceramic that was found the necropoleis of Gazkhan, Dize, Ashakhi Dasharx, Demirchi, Garabulakh, Kolani, Kulus, Saridere. Ceramic ornament patterns reflects on the sociol-economic life of the ancient indigenous tribes, including the employment and the ideology.

**РЕЗЮМЕ**

**Зейнеб Кулиева**

**Особенности орнаментов Нахчыванской керамики периода Раннего Железа**

В статье исследованы, орнаментация на керамических изделий Нахчывана, эпохи раннего железа. Отмечается, что эти памятники носить локальной характер и одновременно отражает некоторых элементов археологическая культура Ходжалы – Гедебека а также, Ближного Востока и Восточной Анатолии. Характерные черты этого периода было отражено особенно в керамических материалах, найденных некропольях Ашагы Дашарх, Газхан, Гарабулак, Демирчи, Дизе, Коланы, Кюлюсь, Сарыдере и т. д. Орнаментация на керамических изделий отражает на социально- экономической жизни древних племен, в том числе занятости и идеологию.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü* V.Baxşəliyev

**TOĞRUL XƏLİLOV**
*AMEA Naxçıvan Bölməsi*
*Email: x.toqrul@gmail.com*

**UOT:902**

# ORDUBAD RAYONUNUN SON TUNC-ERKƏN DƏMİR DÖVRÜ BƏZƏK ƏŞYALARI

**Açar sozlər:** *Son Tunc-Erkən Dəmir dövrü, Naxçıvan, arxeoloji abidələr, muncuqlar, baş və boyun bəzəkləri.*

**Key words:** *Late Bronze – Early İron age, Nakhchivan, archaeological monuments, beads, head and neck ornaments.*

**Ключевые слова:** *Эпохи поздней бронзы -раннего железа, Нахчыван, археологические памятники, бусы, головные и шейные украшения.*

Naxçıvan Muxtar Respublikasının bütün bölgələri kimi Ordubad rayonunun ərazisi də arxeoloji, memarlıq abidələri ilə zəngindir. Bu bölgə arxeoloji cəhətdən XIX əsrin ortalarından etibarən öyrənilmişdir. 1851-1852-ci illərdə rus şərqşunası M.Xanıkov Ordubadın bir sıra kəndlərində kəşfiyyat xarakterli tədqiqatlar aparmışdır. 1894-cü ildə Dumberq Xaraba-Gilanda olmuşdur. O bu abidədən üzərində ərəb dilində epiqrafiq yazı olan iki ədəd qəbirüstü daş lövhə aparıb Qafqaz muzeyinə təhvil vermişdir (23, s. 149-153). 1913-1914-cü illərdə Moskva Arxeoloji Cəmiyyətinin Qafqaz şöbəsi tərəfindən Xaraba-Gilan şəhər yerində ilk dəfə kəşfiyyat xarakterli arxeoloji qazıntılar aparılmışdır. Tədqiqat zamanı abidədən əldə olunmuş arxeoloji materiallar Tblisdəki Qafqaz Muzeyinə təhvil verilmişdir. Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsi tərəfindən 1925-ci ilin sentyabr ayından 1926-cı ilin iyun ayına qədər Xaraba Gilanda V.M. Sisoyev tərəfindən aparılan arxeoloji qazıntının maliyyələşdirilməsi üçün 300 min manat pul ayrılmışdır. Həmin dövrdə V.M. Sisoyev orada bir neçə qəbir və sərdabə tədqiq etmşdir (16, s. 4-5). 1926-cı ildə Ordubad bölgəsində Ə.Ələsgərov tərəfindən kəşfiyyat xarakterli arxeoloji tədqiqat aparılmışdır. Bu zaman əldə olunmuş materiallar Azərbaycan Tarix Muzeyinə təhvil verilmişdir. 1968-ci ildə V.H.Əliyevin rəhbərliyi ilə Gəmiqayada ilk arxeoloji tədqiqatlar aparılmışdır (3). Abidədə 1969, 1970-1979, 1988-1990, 2002-2005-ci illərdə aparılan arxeoloji tədqiqatlar zamanı oradakı qayaüstü təsvirlər sistemli şəkildə öyrənilmişdir. Xaraba-Gilan abidəsində sistemli arxeoloji tədqiqatlar 1976-ci ildən etibarən başlanılmışdır. Həmin dövrdə Naxçıvan arxeoloji Ekspedisiyasının Xaraba-Gilan dəsdəsi V.H. Əliyevin rəhbərliyi ilə orta əsr şəhər yerinin şimal-şərq hissəsində arxeoloji qazıntı aparmışdır. 1977-1978-ci illərdə Sumbatan yaşayış yeri, 1983-1984-cü illərdə Sumbatan, 1980-1982-ci illərdə Muncuqlutəpə, 1982-1985-ci illərdə Xalı-Keşan, Mərdangöl nekropollarında B.İ. İbrahimlinin rəhbərliyi ilə arxeoloji tədqiqatlar aparılmışdır. Muncuqlutəpə nekropolunda Son Tunc-Erkən Dəmir dövrünə aid 33 qəbir öyrənilmişdir (6, s. 14-41). Bu qəbirlərdən xeyli miqdarda arxeoloji materiallar aşkar edilmişdir. B.İ. İbrahimlinin rəhbərliyi ilə Xaraba-Gilan arxeoloji ekspedisiyası tərəfindən 2003-2004-cü ildən etibarən Ordubad rayonundakı arxeoloji abidələrin öyrənilməsi sahəsində aparılan tədqiqatlar daha da sürətlənmiş, geniş miqyaslı arxeoloji araşdırmalar aparılmışdır. Plovdağ yaşayış yeri və nekropolunda bu gün də tədqiqatçı B.İ. İbrahimlinin rəhbərliyi ilə Xaraba-Gilan arxeoloji ekspedisiyası tərəfindən arxeoloji tədqiqatlar aparılır. 2005-ci ildə V.Baxşəliyevin rəhbərliyi ilə Gəmiqaya ətrafında apardığımız arxeoloji tədqiqatlar zamanı Son Tunc-Erkən Dəmir dövrünə aid bir neçə yeni abidə-Demyələr, Qumluq, İlikliqaya yaşayış yerləri və nekropolları da qeydə alınaraq tədqiqata cəlb edilmişdir.

İstər əvvəlki dövrlərdə, istərsə də son dövrlərdə Ordubad rayonundakı arxeoloji abidələrdən Son Tunc-Erkən Dəmir dövrünə aid xeyli miqdarda bəzək əşyaları aşkar edilmişdir. Onları hazırlandıqları materiala görə iki qrupa bölmək olar:

1. Müxtəlif minerallardan (əqiqdən, pastadan, firuzədən və s.) və balıqqulağından düzəldilən bəzəklər.
2. Metal bəzəklər.

**Müxtəlif minerallardan (əqiqdən, pastadan, firuzədən və s.) və balıqqulağından düzəldilən bəzəklər**. Əqiqdən, pastadan, firuzədən və digər minerallardan, balıqqulağından düzəldilmiş bəzəklər muncuqlar və asmalardır. Onları düzəldilərkən parçalama, doğrama üsullarından istifadə edilmişdir. Muncuqlardan boyun, baş, qol bəzəklərində geniş istifadə edildiyindən onları ayrıca bir qrupa aid etmək bir qədər çətinlik törədir. Onların bir qrupu sadə düzəldilmişdir. Bəzilərinin üzəri cızma üsulu ilə müxtəlif həndəsi ornamentlərlə (sınıq, dalğalı xətlərlə, bucaqlarla və b.) naxışlanmışdır. Muncuqların içərisndə əqiqdən, ağ rəngli pastadan düzəldilənlər nisbətən çoxluq təşkil edir. Bunun başlıca səbəbi Azərbaycanın bu minerallarla zəngin olmasıdır.

Azərbaycanın digər bölgələrində olduğu kimi Naxçıvanda, onun ayrılmaz tərkib hissəsi olan Ordubad rayonundakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən tapılmış muncuqlardan hər biri özünə məxsus elmi əhəmiyyət daşıyaraq bir sıra elmi nəticələrin əldə olunmasına köməklik edir. Belə maraqlı arxeoloji tapıntılardan biri 2012-ci ildə III Plovdağ nekropoplundakı 2 № li kurqandan tapılmış badamı formalı, ensiz tərəfində deşiyi olan ağ mərmərdən və uzunluğu 5-7 sm, eni 7-8 mm, qalınlığı 4-5 mm olan ağ rəngli pastadan düzəldilmiş muncuqlardır. Pasta muncuğun üzəri dairəvi basma naxışlarla bəzədilmişdir. Naxışlar həm muncuğa xüsusi gözəllik verir, həm də insanların dini-ideoloji görüşləri ilə bağlı müəyyən kompozisiyanı əks etdirir. Bu tip muncuğun Plovdağ abidələrində ilk dəfə aşkar edilməsi, ağ mərmərdən düzəldilmiş badamı formalı, ensiz tərəfində deşiyi olan muncuqların isə Gilançay vadisinin Erkən Dəmir dövrü üçün xarakterik olduğu tədqiqat nəticəsində müəyyən edilmişdir. (17, s. 152-153).

Ordubad rayonundakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən əldə olunmuş maraqlı muncuq nümunələrindən bir qrupunu şüşədən düzəldilənlər təşkil edir. Bunun əsas səbəblərindən biri ondan ibarətdir ki, Naxçıvanın bütün bölgələrində olduğu kimi, Ordubad rayonunun ərazisindəki Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən az miqdarda bu tip muncuqlar aşkar edilmişdir. Arxeoloji abidələrdən şüşə muncuqların az aşkar edilməsi ilə bağlı tədqiqatçılar tərəfindən müxtəlif fikirlər irəli sürülmüşdür. Onların qarşılıqlı iqtisadi-mədəni əlaqələr nəticəsində Yaxın Şərq ölkələrindən gətirildiyi bildirilmişdir. Tədqiqatçıların fikirləri ilə əldə olunmuş arxeoloji materialları müqayisəli şəkildə öyrənsək görərik ki, təbii vulkanik şüşə olan dəvəgözü daşı qədim zamanlardan insanlara məlum olubdur. Süni yolla şüşə sonrakı dövrlərdə istehsalı edilmişdir. Hər bir ölkədə onun istehsalı məhsuldar qüvvələrin inkişaf səviyyəsindən asılı olmuşdur. Şüşə istehsal etmək üçün şüşə qumundan (kvars qumu), təbii sodadan, metal tozları və ağac külündən xammal hazırlanmışdır. Hazırlanmış xammal $1400^0$-$1600^0$ temperaturada bişirildikdən sonra şüşə halına gəlmişdir. Bişirilmə zamanı metal tozlarının müxtəlifliyi və bişirilmə hərarəti şəffaf olan şüşənin rənginə təsir etmişdir. Mis tozu şuşəyə yaşıl və qırmızı, marqans tozu bənövşəyi və yaxud tünd qəhvəyi, sürmə, qurğuşun tozu sarı, qalay tozu süd rəngi, kobalt tozu isə açıq bənövşəyi rəng vermişdir. Onun istehsalı zamanı əsasən iki texniki metoddan istifadə olunmuşdur. Həmin metodlardan birini ərimiş xammalın xüsusi qəliblərə tökülməsi vasitəsiylə şüşə düzəldilməsi təşkil edir. Digər metod ərimiş xammalın xüsusi borular vasitəsiylə üfürülməsindən ibarətdir. Şüşənin istehsalı çox çətin olduğu üçün ilk vaxtlar ondan ancaq bəzək əşyası kimi istifadə edilmişdir. Belə bəzəklər dünyanın bütün yerlərindəki qədim dövr arxeoloji abidələrində əsasən imtiyazlı şəxslər tərəfindən istifadə edilmişdir. Buna görə də, ehtimal etmək olar ki, Azərbaycanın bütün bölgələrində olduğu kim, Ordubad rayonundakı Son Tunc-Erkən Dəmir dövrünə şüşə bəzək əşyalarının tapıldığı qəbir abidələrinin bir qrupu da imtiyazlı şəxslərə, varlı tayfa başçılarına aid olmuşdur.

Şüşənin ilk dəfə harada istehsal edilməsi ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Çində e.ə. V-III əsrlərdə, Romada e.ə. I əsrdə, Azərbaycanda isə eramızın I-II əsrlərində şüşənin istehsal

edilməsini sübut edən faktlara vardır (1, s. 586). Tədqiqatçıların bir çoxu onun ilk vətəninin Misir, bir qismi isə Babilistan olduğunu qeyd etmişlər. Mənbələrdə ən qədim şüşə nümunəsinin Misirdə, ilk şüşə əridilən kürənin isə Şərqi Fələstində aşkar edildiyi qeyd edilir . Şərqi Fələstindəki şüşə əridilən kürənin e.ə. III minilliyə aid olduğu, Misirdən tapılan ən qədim şüşə nümunəsinin e.ə. IV-I minilliyə aid ehramlardan tapıldığı qeyd olunur (13, s. 74-75). Onun Misirin ozündə istehsal olunduğu və ya gətirilmə olması dəqiqləşdirilməsə də, arxeoloji materiallar əsasında sübut olunmuşdur ki, e.ə. 2800-ci ildə bu ərazidə rəngli şirdən (qlazurdan) istifadə edilmişdir. 1891-1892-ci illərdə Misirdə arxeoloji qazıntılar aparan F.Petrinin fikrinə görə ən qədim şüşə istehsalı mərkəzi Mesopotamiyanın şimal hissəsi olsa da, ehtimal etmək olar ki, onun istehsalı Qafqazda Misirdən də qabaq mövcud olmuşdur. Qafqazda şüşənin qədim zamanlardan istehsal olunduğunu sübut edəcək faktlar hələlik çox olmasa da onun istehsalında istifadə olunan kömür ağacları (palıd, vələs və b.), soda yataqları və şüşə qumunun Xəzər sahilində, Xırdalanda, Qarabağda və Azərbaycanın başqa yerlərində kifayyət qədər olduğu mənbələrdə öz əksini tapmışdır. Daşkəsənin kobalt yataqları təkcə Azərbaycanda deyil, həm də bütün Yaxın Şərqdə məşhur olubdur. Aparılan arxeoloji araşdırmalar zamanı Gürcüstandakı arxeoloji abidələrdən aşkar olunmuş şüşə bəzəklər e.ə. III minilliyin sonu-II minilliyin əvvəlinə, Xaçbulaq, Şamxor, Cəlilabad (13, s. 73), Dovşanlı, Xocalı, Borsunlu, Bəyimsorov (3, s. 50) abidələrindən tapılanlar e.ə. I mnilliyin əvvəlinə, e.ə. X-XI əsrlərə, Dəmyələr, Plovdağ, Şahtaxtı, Qızılburun abidələrindən əldə olunanlar isə Orta və Son Tunc dövürlərinə aiddirlər. F.Petrinin fikri fərziyyə olaraq qalıb bugünə kimi sübut olunmasa da, son illərin tapıntıları bu fərziyyənin həqiqətə uyğun olduğunu qeyd etməyə əsas verir.

**Metal bəzəklər.** Ordubad rayonundakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən əldə olunmuş metal bəzəklər tuncdan və dəmirdən düzəldilmişdir. Onları istifadə məqsədinə görə şərti olaraq beş qrupa bölmək olar.

1. Baş bəzəkləri.
2. Sinə və ya boyun bəzəkləri.
3. Geyim bəzəkləri.
4. Qol bəzəkləri.
5. Ayaq bəzəkləri .

**Baş bəzəkləri.** Ordubad rayonundakı arxeoloji abidələrdən aşkar edilmiş Son Tunc-Erkən Dəmir dövrünə aid baş bəzəkləri dingələrdən, saç borularından, sırğalardan və digər arxeloji materiallardan ibarətdir.

Dingələr bir qayda olaraq döymə üsulu ilə düzəldilmişdir. Onlar formac iki əsas tipə bölünürlər. Birinci tipə daxil olan dingələrın ucları xaricə qatlanmışdır (tab. I, 16). İkinci tip dingələr düz uclu düzəldilmişdir (tab I, 17). Onların bənzərləri Naxçıvandakı digər Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrlə yanaşı Gədəbəy, Gəncəçay (26, s. 58), Quşçu (24, s. 134, 140) Mingəçevir (7, s. 20, tab. XVII), Dolanlar, Xaçbulaq (30, tab. IV) və s. yerlərdəki kurqan, daş qutu və torpaq qəbirlərdən əldə olunmuşdur. Saç boruları dingələrdən fərqli olaraq xırda hörüklərə keçirilmişdir. Onların bir qrupunu yastı metal lövhəni dairəvi şəkildə ağız-ağıza qatlamaqla düzəldiblər. Bəziləri isə tunc və ya dəmir məftildən spiralvarı formada hazırlanmışdır.

Sırğaları forma və xüsusiyyətlərinə görə bir necə tipə bölünür:

Birinci tipə uclarından biri düz, digər ucu qatlanan sırğalar daxildir (tab. I, 18, 19, 20). Muncuqlutəpə (6, s. 40), Dəmyələr (9, s. 84-93) və digər nekrolollardan əldə olunmuş bu tip sırğaların bənzərləri Sarıdırə (10, s. 23), Şahtaxı (5, tab. XXXIII, 14, 22) və başqa abidələrdən də aşkar edilmişdir.

İkinci tip sırğalar kəsikdə yuvarlaq olan tunc məftildən ucları açıq formada düzəldilmişdir (tab. II, 2, 3) . Muncuqlutəpə, Mərdangöl (6, tab. XXXII, 1, 6-8; tab. LVIX, 8), Dəmyələr (9, s. 84-93) nekropollarından əldə olunmuş bu tip sırğaların əksəriyyəti sadə düzəldilmişdir, bəzilərinin üzərinə əqiqdə, pastadan, balıqqulağından düzəldilmiş muncuqlar keçirilmişdir. Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid Sarıdərə, Kolanı (10, s. 28), Boyəhməd (27, s. 18) və digər abidələrdə də bu tip sırğalar aşkar edilmişdir.

Üçüncü tip sırğaların ucları bitişik və ya bir-birinin üzərnə mindirilmiş formadadır (tab. I, 1, 4). Dəmyələr (9, s. 84-93), Mərdangöl (6, tab. LXXIII, 9, 11, 12) nekropolundan və başqa

abidələrdən tapılmış bu tip sırğalardan bir qrupunun üzərinə ucları açıq formada düzəldilmiş sırğalar kimi əqiqdən, pasta və balıqqulağından düzəldilmiş muncuqlar keçirilmişdir. Onlar Sarıdərə, Kolanı (10, s. 28, 43), Boyəhməd (27, s. 22), Qızılburun (31, şəkil 13, 13-15) abidələrindən tapılmış bir qrup sırğalarla bənzərlik təşkil edir.

Dördüncü tipə daxil olan sırğaların uclarından biri spiral şəkilində, digər ucu düz düzəldilmişdir (tab.II, 5, 6). Muncuqlutəpə (6, tab. LV, 17-19), Dəmyələr (9, s. 84-93) abidələrindən əldə olunmuş bu tip sırğaların oxşarları Kolanı, Sarıdərə (10, s. 28, 43) nekropollarında aşkar edilmişdir. Digər sırğalar kimi bu tip sırğaların da bir qrupunun üzərinə əqiqdən, pastadan, balıqqulağından və b. minerallardan düzəldilmiş muncuqlar keçirilmişdir.

Beşinci tipə spiralvari formada düzəldilmiş sırğalar daxildir (tab. II, 7, 8, 9). Muncuqlutəpə (6, s. 20), Qumluq nekropollarından tapılmış bu tip sırğaların bənzəri Qızılburun (31, şəki 13, 6) nekropolundan aşkar edilmişdir.

Altıncı tip sırğalar aypara formasındadır. Bu tip sırğalar III Plovdağ, Rəsul dərəsi nekropollarından aşkar edilmişdir. Onlar döymə üsulu ilə sadə düzəldilmişdir. Bəzilərinin üzərinə ağ rəngli pasta muncuq keçirilmişdir.

Naxçıvanın digər bölgələri kimi Ordubad rayonunun ərazisindəki Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən əldə olunmuş sırğaların bənzərləri Mingəçevirdə (7, tab. XVII, 21, 28), Xanlarda (8, s. 85), Nadirbəy təpəsində (18, tab. II, 6), Gədəbəydə, Xocalıda, Çovdarda (32, s. 78; 13, s. 375) və başqa həmdövr abidələrdə aşkar edilmişdir.

**Sinə və ya boyun bəzəkləri.** Ordubad rayonundakı arxeoloji abidələrdən aşkar edilmiş Son Tunc-Erkən Dəmir dövrünə aid sinə və ya boyun bəzəkləri asmalardan, boyunbağılardan ibarətdir.

Asmalar daşdan, müxtəlif meneralladan, sümükdən və tuncdan düzəldilmişdir. Tunc asmalar bir neçə tipə bölünür:

Birinci tipə hər iki tərəfi spiralvari formada qatlanmış eynək şəkilli asmalar daxildir (tab. II, 10). Mərdangöl, Muncuqlutəpə (6, s. 52, 55) nekropollarından tapılmış bu tip asmaların əksəriyyəti tökmə, bəziləri döymə üsulu ilə hazırlanmışdır. Onların bənzərləri III Sarıdərə, Kolanı (10, s. 29, 45), Qızılburun (31, şəkil 12, 1), Mingəçevir, Xanlar, Gəncəçay və başqa abidələrdə aşkar edilmişdir (32, s. 82).

Dördüncü tip asmalar quş fiquru formasındadır (tab II, 11, 12). Onun üzəri üçbucaqlardan, bucaqlardan, kiçik dairələr və bucaqformalı şəbəkələrlə bəzədilmişdir. Üzərində boyundan asmaq üçün kiçik çıxıntı şəklində deşik qoyulmuşdur. Muncuqlutəpə (6, tab. LIV, 5, 6) nekropolundan tapılan bu tip asmaların bənzərləri Sarıdərə, Kolanı (10, s. 29, 49), Qızılburun (22, s. 66), Çovdar, Şamxor, Xaçbulaq, Gədəbəy (32, s. 74-88), Quşçu (24, s. 113) və s. abidələrində aşkar edilmişdir.

Beşinci tipə zınqırov formalı asmalar daxildir (tab. II, 13). Muncuqlutəpə nekropolundan tapılmış bu tip asmalardan birinin üzəri bir-birinin içərisində yerləşdirilən bucaqformalı həndəsi ornamentlə naxışlanmışdır. Bu tip asmalar Sarıdərə (10, şəkil 16, 3, 4, 9), Qızılburun (21, s. 217-240) Mingəçevir, Dolanlar, Çovdar (30, tab. XIII, 1-11) və s. abidələrdən tapılmışdır.

Boyunbağılar hazırlanma texnologiyasına görə iki qrupa bölünürlər. Onlardan bir qrupu tökmə, bəziləri isə döymə üsulu ilə düzəldilmişdir. Döymə üsulu ilə hazıranmış boyunbağılar nisbətən yoğun tunc məftildən hazırlanmışdır. Onu düzəldərkən tunc məftil döyülərək dördtilli şəklə salınıb, sonra tən ortadan eyni üsulla yastılanmışdır. Həmin hissə hər iki yandan dairəvi kəzlərlə məhdudlandıqdan sonra, xarici səthi və tilləri kəsmə üsulu ilə naxışlanmışdır. Boyunbağılar formaca iki tipə bölünürlər.

Birinci tipə daxill olan boyunbağıların ucları dairəvi şəkildə xaricə qatlanmışdır (tab. II, 14). Onlar bir qrupu sadə düzəldilibdir. Bəzilərinin üzəri xaricdən cızma xətlərlə, həndəsi ornamentlərlə naxışlanmışdır. Bir qrupunun üzərinə əqiq pasta muncuqlar keçirilmişdir. Dəmyələr (9, şəkil 5, 1, 2), Mərdangöl, Muncuqlutəpə (6, tab LXXIII, 10; tab XXIII, 13; tab LXVII, 2) abidələrindən əldə olunmuş bu tip boyunbağıların bənzərləri Boyəhməd (27, s. 22), Sarıdərə (10, s. 28) və başqa abidələrdən tapılmışdır.

İkinci tip boyunbağılar nazik tunc məftildən düzəldilmişdir (tab. II, 16-18) . Üzərinə əqiq, pasta, balıqqulağı keçirilmişdir. Dəmyələr (9, şəkil 5, 3),Xalı-Keşan, Muncuqlutəpə, Mərdangöl (6, tab. V, 16; tab. LV, 17-19; tab LXXIII, 4, 5) abidələrindən tapılmış bu tip boyunbağıların bənzərləri

Sarıdərə, Kolanı (10, s. 44) nekropollarından aşkar edilmişdir. Aparılan müqayisəli araşdırma zamanı məlum olur ki, Ordubad rayonundakı Son Tunc-Erkən Dəmir dövrünə aid bounbağıların bənzərləri Naxçıvanla yanaşı Xocalı (24, tab. 12), Mingəçevir (7, tab. XVII, 17-18), Çovdar, Dolanlar (30, tab. VII) və Cənubi Qafqazdakı digər abidələrdə aşkar edilmişdir.

**Geyim bəzəkləri.** Ordubad rayonundakı arxeoloji abidələrdən aşkar edilmiş Son Tunc-Erkən Dəmir dövrünə aid geyim bəzəkləri düyməlrdən, sancaqlardan, pilləklərdən ibarətdir.

Sancaqlar forma və xüsusiyyətlərinə görə bir neçə tipə bölünür :

Birinci tipə yuvarlaq başlıqlı sancaqlar daxildir (tab. III, 1, 2). Bu tip sancaqların bir qrupu sadə düzəldilibdir. Bəzilərinin başlıq hissəsində bucaqformalı həndəsi naxışlar salınmışdır. Oxşarları Culfa (14, s. 83), Qızılburun (11, ris. 20, 12) və b. abidələrindən tapılmışdır.

İkinci tip sancaqlar dairəvi başlıqlı düzəldilmişdir (tab. III, 3, 4). Onlardan bəzilərinin üzərində deşik açılmışdır. Bu tipə daxil olan sancaqların bəzilərinin ortasında uzunsov formalı deşik açılmışdır. Bir qrupunun üzəri kəsmə xətlərlə naxışlanmışdır. Qızılburun, Qarabağlar nekropollarından (11, s. 72) və digər abidələrdən də bu tip sancaqlar əldə olunmuşdur

Üçüncü tipə yuxarı hissəsi içəriyə qatlanmış sancaqlar daxildir (tab. III,5, 6, ). Bənzərləri Şahtaxtı (5,tab. XXXIII, 3, 4), Culfa (14, s. 83) və başqa abidələrdən aşkar edilmişdir.

Dördüncü tipə şüşə başlıqlı sancaq daxildir. Bu arxeoloji material 2012-ci ildə III Plovdağ nekropolundan tapılmışdır. Onun Plovdağda ilk dəfə aşkar olunduğu tədqiqatlar nəticəsində müəyyən edilibdir (17, s. 153 ).

Bütün tip sancaqların bənzərləri Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrlə yanaşı olaraq Gədəbəydə, Mingəçevirdə, Xaçbulaqda (30, tab. XX, 1-3, 7, 9; tab. XX, 8; tab. XII, 11), Sarıtəpədə (28, s. 38), Quşçuda (24, s. 135), Gəncəçay rayonunda (26, tab. XVI, 7), və digər yerlərdəki həmdövr arxeoloji abidələrdə aşkar edilmişdir.

Düymələr əsasən tökmə üsulu ilə düzəldilmişdir. Azərbaycanın digər yerlərindən tapılmış düymələr kimi Ordubad rayonundakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən tapılmış düymələr dairəvi, yarımşar, konusvari formada düzəldilmişdir. Onların bəzilərinin üzərində kiçik deşik açılmışdır. Bir qrupunun arxa hissəsinə ilgəkvari tunc təbəqə lehimlənmişdir . Bir qrupu sadə düzəldilmişdir, bəzilərinin üzəri cızma xətlərlə, üçbucaqlarla naxışlanmışdır (tab. III, 9, 10). Muncuqlutəp nekropollarından aşkar olunmuş düymələrdən biri naxışlanma motivinə görə, Kolanı nekropolundan əldə olunmuş düymə ilə bənzərlik təşkil edir (tab. III, 9). Onların üzərində üçbucaqşəkilli ornamentlər svastika formasında verilərək naxışlanma motivinə Xocalı-Gədəbəy mədəniyyətinə məxsus bir qrup bəzək əşyasının üzərindəki ornamentlərlə oxşarlıq təşkil edir. Aparılan araşdırma onu qeyd etyməyə əsas verir ki, Ordubad rayonundakı Son Tunc-Erkən Dəmir dövrünə aid düymələrin bənzərləri Kolanı, Sarıdərə (10, s. 45; s. 28) və s. ilə yanaşı Mingəçevir (7, tab. XL, 18), Çovdar, Xanlar, Xaçbulaq (32, tab. XV, 14-18) və digər abdələrdən aşkar edilmişdir.

**Qol bəzəkləri.** Ordubad rayonununun Son Tunc-Erkən Dəmir dövrünə aid qol bəzəkləri bilərziklərdən və üzüklərdən ibarətdir. Azərbaycanın bütün bölgələrində (Mingəçevir, Gəncəçay, Xaçbulaq və s) olduğu kimi Ordubad rayonundakı Mərdangöl, Muncuqlutəpə, Dəmyələr, Qumluq, Plovdağ, Xalı-Keşan və digər abidələrdən Son Tunc-Erəkn Dəmir dövrünə aid kifayət qədər bilərzik və üzük aşkar edilmişdir. Onların bir qrupuna skeletin qol sümüyü üzərində təsadüf edilmişdir. Bəziləri dağılmış skeletin ətrafindaaşkar edilmişdir. Bir qismi tökmə, bəziləri döymə üsulu ilə hazırlanmışdır. Əldə olunmuş maddi-mədəniyyət nümunələrinin hamısı eyni məqsədlə, yəni qol bəzəyi kimi istifadə edilsə də hər birinin özünəməxsus xüsusiyyəti var. Buna görə də istər bilərzikləri, istərsə də üzükləri forma və xüsusiyyətlərinə görə ayri-ayrı qruplaşdırmaq olar. hamısı dairəvi və ya ovalvari formada hazırlanaraq, eyni məqsədlə istifadə edilsə də, bəzi xarakterik xüsüsiyyətlərinə görə fərqlənirlər. Buna görə də onları şərti olaraq bir neçə tipə bölmək olar.

Bilərziklər şərti olaraq üç tipə bölünür:

Birinci tipə lentşəkilli bilərziklər daxildir (tab. III,12). Bu tipə daxil olan bilərziklərin hamısı döymə üsulu ilə hazırlanmışdır. Onların ucları açıq və ya toxunan şəkildə düzəldilmişdir. Əksəriyyəti naxışsızdır, bir qrupunun üzəri çızma xətlərlə, müxtəlif həndəsi ornamentlərlə naxışlanmışdır. Ordubaddakı Son Tunc-Erkən Dəmir dövrünə aid abidələrlə yanaşı Naxçıvandkı

Qızılburun, Culfa, Qarabağlar (11, s. 64, 65), Kolanı (10, s. 44) nekropollarından da bu tip bilərziklər aşkar edilmişdir.

İkinci tip bilərziklər tökmə üsulu ilə düzəldilmişdir (tab. III, 13-15). Lentşəkilli bilərziklər kimi onların da ucları bütöv, bəzən isə bir qədər açıq və bir-birinin üzərinə mindirilmiş formada düzəldilmişdir. Muncuqlutəpə, Mərdangöl (6, tab. XXXVI, 1, 3, 7; tab IV, 1, 2; tab V, 2, 3 ), Dəmyələr (9, səkil 3, 6, 7) ilə yanaşı Qızılburun, Culfa, Qarabağlar, Şahtaxtı (11, s. 64, 65), Kolanı, Sarıdərə (10, s. 27, 44) və digər abidələrdən bu tip bilərziklər aşkar edilmişdir.

Üçüncü tipə ilanbaşlı bilərziklər daxildir (tab. III, 16, 17). Onların bənzərləri Qarabağlar, Şahtaxtı nekropollarında (119, s. 65; 116, s. 90) və digər abidələrdə aşkar edilmişdir. İlanbaşlı bilərziklərin ucları bir qayda olaraq bir-birindən aralıdır. Onların bəzilərinin bir, əksəriyyətinin hər iki ucu ilanbaşı formasında düzəldilmişdir.

Aparılan elmi araşdırma onu göstərir ki, Ordubad rayonundakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən tapılmış bilərziklərin bənzərləri Naxçıvanın digər bölgələri ilə yanaşı Mingeçevirdə, Xaçbulaqda (80, tab. XXV; tab. XXII 1,6,7), Qobustanda (66, tab. X, 10; 157, s.81), Gəncəçay rayonunda (76, tab. VII, 5, 9), Çovdarda, Muğanda (128, tab. XI, 3), Şimali (146, s. 226) və Cənubi Qafqazdakı bir çox həmdövr abidələrdə aşkar edilmişdir (175, s. 165).

Üzüklər əsasən üç tipə bölünür:

Birinci tipə döymə üsulu ilə lenşəkilli formada düzəldilən üzüklər daxildir (tab. III, 18-20) (tab. XIII, 2 Dəmyələr (18. s. 84-87). Bu tip üzüklər Qızılburun (81, şəkil 13, s. 9), Kolanı (13, s. 44) nekropollarından və digər abidələrdən tapılmışdır.

İkinci tip üzüklər spiralvari formlıdır (tab. III, 21). (tab. L IV, 3; Dəmyələr (18, s. 87, şəkil 2, 24))Ş Bu tip üzükləri Kolanı (13, s. 45), Haqqıxlıq (13, s. 33) və başqa nekropollardan daəldə olunmuşdur. Onlar nazik tunc məftildən spiralvari formada düzəldilmişdir.

Üçüncü tipə tökmə üsulu ilə düzəldilmiş üzüklər daxildir. Onların ucları açıq, azca bir-birinə toxunmuş şəkildə və ya ucları bir-birinin üzərinə qoyulmuş şəkildə düzəldilmişdir (tab XIII, 22-25). Bu tip üzüklərin bir qrupu qaşsız, bəziləri qaşlı düzəldilibdir. Qaşlı üzüklərin üzərində əqiqdən, pastadan, firuzədən və digər minerallardan düzəldilən qaşlar qoyulubdur. Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrin çoxundan (Sarıdərə, Kolanı (13, s. 28, 44), Boyəhməd (75, s. 22) və s.) bu tip üzüklər tapılmışdır.

**Ayaq halqaları.** Azərbaycanın bütün bölgələrində olduğu kimi Ordubad rayonundakı Mərdangöl, Muncuqlutəpə, Dəmyələr, Qumluq, Plovdağ, Xalı-Keşan və digər abidələrdən Son Tunc-Erəkn Dəmir dövrünə aid kifayyət qədər ayaq halqaları tapılmışdır. Onlar tökmə üsulu ilə düzəldilmişdir. Formaca birlərziklərlə oxşarlıq təşkil etməsinə baxmayaraq ölçüsünə görə onlardan fərqlənir. Ayaq halqalarının diametri bilərziklərdən böyükdür (tab. III, 26).

Ordubad rayonunun ərazisindəki arxeoloji abidələrdən aşkar edilmiş Son Tunc-Erkən Dəmir dövrünə aid bəzək əşyalarının müqayisəli şəkildə öyrənilməsi nəticəsində belə bir nəticəyə gəlmək olar ki, onlar maddi və mənəvi mədəniyyətimizin öyrənilməsində mühüm yer tutur. Bu dövrdə Azərbaycanın digər bölgələrində olduğu kimi Ordubad rayonunun ərazisində də bəzək əşyalarının hamısı eyni sənətkar emalatxanasının məhsulu olmamış, müxtəlif sənətkarlar tərəfindən düzəldilmişdir. Onları düzəldilməsində Son Tunc-Erkən Dəmir dövründə metallurgiya və metalişləmə sahəsində geniş yayılan tokmə, döymə, naxışlanmasında kəsmə, basma, fleqran, qravürə texniki üsullarından geniş istifadə edilmişdir. Bəzək əşyalarının forma və xüsusiyyətlərinə görə müxtəlif olması onu qeyd etməyə əsas verir ki, bu dövrdə Azərbaycanın digər bölgələrində olduğu kimi Ordubad rayonunun ərazisində də sənətkarlıq inkişaf etmiş, bu sahədə ixtisaslı sənətkarlar yetişmişdir.

## ƏDƏBİYYAT


1. ASE X cild. Bakı: Azərbaycan Sovet Enisklopediyası Baş Redaksiyası, 1987, 608 s.
2. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР, Баку: Элм, 1982, 314 с.

3. Алиев В. Гемигая-сокровищница тайн. Баку: «Вышка», № 228, 28 сентября 1968 года.
4. Алиев В.Г. Культура расписной керамики в Азербайджане, Автореферат диссерт. на соиск. канд. ист. наук, Баку, 1966, 20 с.
5. Агаев Г.Г. Шахтахты в эпохи поздней бронзы и раннего железа. Баку-Москва: Агрыдаг, 2002, 200 с.
6. Асланов Г.М., Ибрагимов В.И., Кашкай С.М. Древние некрополы Хараба Гилана. Баку: Нурлан, 2003, 101 с.
7. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку: Издательство АН Азерб. ССР, 1959, 191 с.
8. Aslanov Q.M. Daşkəsən rayonunun Xaçbulaq kəndindəki bir qrup daş qutu qəbirlər haqqında // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə, hüquq seiyası, Bakı: 1975, № 1, s. 81-94.
9. Baxşəliyev V.B. Dəmyələr nekropolu Erkən Dəmir dövrünün yeni abidəsidir // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2006, № 4, s. 84-93.
10. Baxşəliyev V.B. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.
11. Бахшалиев В.Б. Древняя металлургия и металлообработка на территории Нахичевани. Баку: Элм, 2005, 120 с.
12. Джафаров Г.Ф. Связи Азербайджана со странами Передней Азии в эпохи бронзы и раннего железа. Баку: Элм, 1984, 106 с.
13. Əhmədov Q.M. Bu günə necə gəlib çıxmışıq. Bakı: Az. SSR EA, 1989, 118 s. .
14. Əliyev V.H. Culfa arxeoloji tapıntıları // Azərbaycan SSR Elmələr Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, Bakı: Az SSR EA, 1968, № 3, s. 72-86.
15. Xəlilov T.F. Qumluq nekropolundan toplanılan arxeoloji materiallar // Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı: Nafta-Press, 2008, № 2, s. 98-103.
16. Xəlilov F. Naxçıvanı öyrənən elm cəmiyyəti, Bakı: Nurlan, 2005, 196 s.
17. İbrahimli B., Qədirzadə Q., Xəlilov T. Plovdağın yeni aşkar edilmiş III nekropolu / Azəbaycanda arxeoloji tədqiqatlar 2012, Bakı 2013, s. 150-155.
18. Muradova F.M. Qazax rayonunda tunc dövrü abidəsi (Nadirbəy təpəsi) / AMM, VI c, Bakı: Elm, 1968, s. 51-58.
19. Müseyibli N.Ə. Hacıvəlilər nekropolundan tapılmış arxeoloji materiallar / Şəmkir (arxeoloji irsi, tarixi və memarlığı). Bakı: Çaşıoğlu, 2008, s. 117-128.
20. Мунчаев Р.М. Кавказ на заре эпохи бронзы. Москва: Наука, 1975, 414 с.
21. Мещанинов И.И. Краткие свидения о работах археологической экспедиции в Нагорный Карабах и Нахичеванский край // Сообщ. ГАИМК, вып. I, 1926, с. 217-240.
22. Мещанинов И.И.История Азербайджана по археологическим памятникам // Известия Аз. ФАН СССР, 1944, № 7, с. 65-67.
23. Quliyev A.Ə. Naxçıvanın Orta əsr epiqrafiyalarının tədqiqinə dair, Elmi axtarışlar, Bakı, Nurlan, 2002, s. 149-153.
24. Гумель Я.И. Археологические очерки. Баку: Издательство Аз ФАН СССР, 1941, 166 с.
25. Кушнарева К.Х. Археологические работы в окрестиностях села Ходжалы // МИА ССР, М-Л: 1959, № 67, с. 370-387.
26. Nərimarov I.H. Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı: Az. SSR EA, 1958, 142 s.
27. Novruzlu Ə.I., Baxşəliyev V.B. Culfa bölgəsinin arxeoloji abidələri. Bakı: Elm, 1993, 103 s.
28. Nərimanov I.N. Sarıtəpə yaşayış yerində arxeoloji qazıntılar // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, Bakı, 1959, № 3, s. 37-40.
29. Seyidov A.Q., Baxşəliyev V.B., Novruzlu Ə.I., Babayev V.M. Naxçıvanın və Babək bölgəsinin arxeoloji abidələri. Bakı: Azərbaycan, 1995, 96 s.
30. Sadıqzadə Ş.H. Qədim Azərbaycan bəzəkləri (azərbaycan, rus və ingilis dilində). Bakı: Işıq, 1971, XXX tablo, 78 s.
31. Seyidov A.Q., Baxşəliyev V.B., Novruzlu Ə.I., Babayev V.M. Naxçıvanın və Babək bölgəsinin arxeoloji abidələri. Bakı: Azərbaycan, 1995, 96 s.

32. Sadıqzadə Ş.H. Azərbaycanda Son Tunc və Ilk Dəmir dövrünə aid bəzək əşyalarının təsnifatı / AMM, VII c, Bakı: Elm, 1973, s.74-88.




1-7, 19, 20-Baxşəliyev, 2006; 8-16, 18-Асланов, Ибрагимов, Кашкай, 2003; 17-Xəlilov, 2008

**Tablo I. (1-15-Muncuqlar; 16, 17-Dingələr; 18-20-Sırğalar)**




1, 4, 5, 6, 9, 10-13, 17- Асланов, Ибрагимов, Кашкай, 2003; 2,3, 14-16- Baxşəliyev, 2006; 7, 8- Xəlilov, 2008

**Tablo II. (1-9-Sirğalar; 10-13- Asmalar; 14-18-Boyunbağılar)**




1-6, 9-13, 18, , 24- Асланов, Ибрагимов, Кашкай, 2003;
7, 8, 14, 15,19-21, 23, 28-Baxşəliyev, 2006; 22- Xəlilov, 2008

**Tablo III. (1-8-Sancaqlar; 9, 19-Düymələr; 11-18-Bilərziklər; 19-25-Üzüklər; 26, 27-Ayaq halqaları)**


## ABSTRACT

**Togrul Khalilov**

**The found late bronze-early iron age jewelry in Ordubad region**

In the article it has been learnt the found late bronze-early iron age jewelry in Nakhchivan. Jewelry grouping according to the usage purpose, they have been analysed typological. It has been determined that obtained ornamental things assume scientific importance in Nakhchivan, which has been got from the archaeological monumentis of the late bronze-early iron period. They take important place in the area of learning of our material and spiritual culture.



## РЕЗЮМЕ

**Тогрул Халилов**

**Украшения, найденные в археологических памятниках эпохи поздней бронзы – раннего железа в Ордубадского района**

В статье изучаются украшения, найденные в археологических памятниках эпохи поздней бронзы -раннего железа в Нахчыване. Они по использованию и по цели с группированы и анализируются по типологии. Выяснилось, что обнаруженные предметы украшений имеют научное значения. Они занимают заметные место в сфере изучения нашей материальной и духовной культуры.


---


NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

**RUHİYYƏ RZAYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*E-mail: rihiya.rzayeva@mail.ru*

**UOT: 902**

# SİRABÇAY HÖVZƏSİNİN ENEOLİT DÖVRÜNƏ AİD ƏMƏK ALƏTLƏRİ

**Açar sözlər:** *Naxçıvan, Cənubi Qafqaz, əmək alətləri, oraq dişləri, obsidian.*
**Keywords:** *Nakhchivan, South Caucasus, instruments of labor, blade of sickles, obsidian.*
**Ключевые слова:** *Нахчыван, Южный Кавказ, орудия труда, вкладыши серпов, обсидиан.*

Sirabçay və Qahabçay hövzəsinin abidələrindən aşkar edilən əmək alətləri alətləri olduqca azdır. Onlar başlıca olaraq Eneolit dövrünə aid yaşayış yerlərindən aşkar olunmuşdur. Əmək alətləri dən daşları, sürtgəc, həvəng, dəstə və metal alətlər tökmək üçün hazırlanmış bir gil, bir daş qəlibdən ibarətdir.

Dən daşları alt və üst daşlardan ibarətdir. Onlar başlıca olaraq Qələməbulaq və Zirinclidən aşkar olunmuşdur. Alt dən daşları formaca müxtəlif tipdədir. Alətlər boz rəngli tuf daşından, çay daşından və qum daşından hazırlanmışdır. Birinci tip dən daşları oval formalıdır. Onların alt tərəfi qabarıq, üst tərəfi isə yastıdır. Üzərində işlənmə izləri saxlanmışdır. Alətlər formaca bir-birindən bir qədər fərqlənirlər.

İkinci tipdəkilər iri, boz rəngli tuf daşından hazırlanmışdır. Onların bir qismi sınmışdır. Alt tərəfi qabarıq, üst tərəfi isə yastı olubdır. Bu tip dən daşlarının bənzərləri I Kültəpədən (1, s. 59, tablo V, 1-2), Böyük Kəsikdən (24, s. 204, tablo XXVIII, 1), Ovçulartəpəsindən, Leylatəpədən (25, şəkil VIII, 1) və digər abidələrdən məlumdur. Bu tip alətlər uzun müddət işləndiyindən onların üst hissəsində aşınma izləri qalmışdır.

Üçüncü tipdəkilər uzunsov qayıqvari formadadır. Onların bəzisinin bir tərəfi geniş, digər tərəfi isə enlidir. Daşların üzərində işlənmə izləri vardır. Bu tip dən daşlarının bəzisi qalın, bəzisi isə nazik tuf daşından hazırlanmışdır. Bu tip dən daşları I Kültəpənin Eneolit təbəqəsindən (1, s. 59, tablo V, 3), Sədərəkdən (23, s. 18, tablo I, 1) və digər yaşayış yerlərindən aşkar edilmişdir.

Dən daşlarının bir çoxu parçalanmış vəziyyətdədir. Onların bəzisinin yarısı, bəzisinin isə yalnız bir parçası qalmışdır. Bu tip dən daşları başlıca olaraq boz rəngli nazik tuf daşından hazırlanmışdır.

Zirinclidən aşkar olunan dən daşı uzunsov formalı olub, ortada geniş, uclarda isə ensizdir. Uc tərəfi dəyirmilənmiş, üzərində uzunsov izlər qalmışdır. Zirinclidən xeyli mis minerallarının aşkar olunması bu alətdən filiz üyüdülməsi üçün istifadə olunduğunu ehtimal etməyə imkan verir. Ümumiyyətlə, dən daşları Azərbaycanın qədim əkinçi-maldar tayfaları üçün xarakterik olmuşdur. Bu tip dən daşlarından I Kültəpə və Şomutəpə (27, рис. 8) sakinləri geniş istifadə etmişdir. I Kültəpə və Şomutəpədə bu tip alətlərin müxtəlif tiplərinə rastlanır.

Üst dən daşları Qələməbulaq yaşayış yerindən aşkar olunmuşdur. İki nümunə ilə təmsil olunan sürtgəclər uzunsov dördkünc formalıdır. Onların alt tərəfi işlənmədən aşınmışdır. Bu tip sürtgəclərin bənzərləri I Kültəpə (1, s. 59, tablo XV, 7) və Şomutəpədən (27, рис. 8) məlumdur.

Dən daşları qədim əkinçilik mədəniyyətinin əsas göstəricilərindən biridir. Eneolit dövrünün müxtəlif mərhələlərində istifadə olunan dən daşları funksional və tipoloji cəhətdən olduqca az dəyişmişdir. Bu baxımdan əmək alətlərinin tipoloji təhlili onların xronologiyasını müəyyən etməyə imkan vermir. Bu regionda yerləşən yaşayış yerlərinin mövsümü xarakterli olmasına baxmayaraq əkinçiliyin təsərrüfatda müəyyən yer tutduğunu təsdiq edir. Sirabçay və Qahabçayın yaz aylarında

gursulu olması suvarma əkinçiliyi üçün imkan yaratmışdır. Ehtimal ki, bu yaşayış yerlərinin sakinləri dəmyə əkinçiliklə də məşğul olmuşlar.

Həvənglər dairəvi formalıdır. Qələməbulaqdan aşkar olunan həvəng boz rəngli çay daşından hazırlanmışdır. O dairəvi formalı olub, mərkəzi hissəsində kiçik oyuq vardır. Alətin üst hissəsi işləndiyi için cilalanmışdır. Bu tip həvənglərin qədim nümunələri I Kültəpə (1, tablo. V, 10-11) və Töyrətəpədə (28, s. 18, tablo II, 1) rast gəlinmişdir. Belə həvənglər həmçinin Ovçulartəpəsi (5, s. 95, tablo V, 5), Sədərək (23, tablo I, 4), Leylatəpə (25, şəkil VIII, 2-3 ), Poylu (25, şəkil XXVI, 2, 9) və digər yaşayış yerlərindən aşkar olunmuşdur. Həvənglər qədim dövrlərdən insanların istifadə etdikləri əmək alətlərindən olub demək olar ki, eyni funksiyanı daşımış, başlıca müxtəlif ərzaq məhsullarının əzilməsində istifadə olunmuşdur (21, s. 45). İ.M. Cəfərzadənin həvənglərdən qədim dövrdə su qabı kimi istifadə etməsi ilə bağlı fikri də maraq doğurur (14, s. 61-64). Maraqlıdır ki, hazırda Naxçıvan yaylaqlarında iri qaya parçalarının üzərində oyulmuş çuxurlara rast gəlinir. Etnoqrafik məlumatlara görə bu daşlardan ərzaq məhsullarının hazırlanmasında, bəzilərindən isə heyvanların yemlənməsində istifadə edilmişdir. Bu alətlərdən filizin emalında və saflaşdırılmasında da istifadə oluna bilərdi.

Dəstəklər uzunsov formalı olub çay daşı və digər daş cinslərindən hazırlanmışdır. Onların bəzisi kvatrat formalı olub küncləri dəyirmiləşdirilmişdir. Alətlərin bəzən bir, bəzən isə iki ucundan istifadə olunmuşdur. Alətlərin uc hissəsi istifadə olunduğu üçün cilalanmışdır. Bu tip alətlər I Kültəpə yaşayış yerinin Eneolit təbəqəsindən (1, s. 59-60, tablo V, 14-17), Şomutəpədən (27, s. 204, рис. 5, рис. 8) , Töyrətəpədən (26, s. 91), Ovçulartəpəsindən (5, s. 95, tablo V, 9) aşkar olunmuşdur. Bu tip əmək alətləri də erkən əkinçilik mədəniyyətinə aid abidələrdə geniş yayılmış, qədim əkinçilik mədəniyyətinin vaz keçilməz ünsürü olmuşdur.

Dən daşı, həvəng və dəstək tipli əmək alətləri Ovçulartəpəsi yaşayış yerindən də xeyli miqdarda aşkar edilmişdir. Lakin bu alətlər kifayət qədər geniş nəşr olunmamışdır (5, s. 95, tablo V). Ovçulartəpəsindən aşkar olunan əmək alətlərinin bir qismi haqqında Orxan Əliyevin dissertasiyasında məlumat verilmişdir (15, s. 116-120 , tablo VIII). Qeyd edək ki, bu tip alətlər Azərbaycanın qədim əkinçiləri tərəfindən geniş istifadə olunmuşdur. Bu tip əmək alətləri demək olar ki, Eneolit və Tunc dövrünə aid bütün yaşayış yerlərindən aşkar olunmuşdur.

Obsidian məmulatı. I Kültəpənin Eneolit təbəqəsindən aşkar olunmuş nukleusların araşdırılması onların başlıca olaraq konusvari formada olduğunu göstərir.

Oraq dişlərinin ağzı bəzən bir, bəzən isə hər iki tərəfdən dişəklənmişdir. Lakin dişəkli olmayan plastinkalar da da vardır. Məlum olduğu kimi I Kültəpədən plastinkalar iri həcmli olması ilə fərqlənir (1, s. 55). Lakin Qazax rayonunda kiçik plastinkalardan da oraq dişləri kimi istifadə olunmuşdur.

Oraq dişlərinin bəzisi çaxmaqdaşından hazırlanmışdır. Onlar içərisində qəhvəyi rəngli çaxmaqdaşından hazırlanan iki plastinka xüsusilə diqqətəlayiqair. Onlar dördkünc formalıdır. Plastinkaların alt tərəfi yastı, üst tərəfi isə iki tillidir. Alətlərin ağzı hər iki tərəfdən dişəklənmişdir. Bu tip əmək alətləri Eneolit dövrü üçün xarakterikdir. Ovçulartəpəsində çaxmaqdaşı nukleuslarına da rastlanmışdır. Araşdırmalar çaxmaqdaşının obsidian çatışmazlığını aradan qaldırmaq üçün istifadə olunduğunu göstərir. Ovçulartəpəsindən aşkar olunan obsidian alətlərin tədqiqi lövhələrin bir qisminin yenidən işlənərək əmək aləti kimi istifadə olunduğunu göstərir (22, s. 81-82).

Obsidiandan hazırlanmış oraq dişləri Azərbaycanın qədim əkinçilik mədəniyyətləri üçün xarakterikdir(6, s. 25-28). Bu tip oraq dişləri Şomutəpədən (27, рис. 6, рис. 7), Töyrətəpədən (27, рис. 15), Qarğalartəpəsindən (27, рис. 23), Babadərvişdən (27, рис. 30) və digər abidələrdən məlumdur. Bu tip əmək alətləri Cənubi Qafqaz və Yaxın Şərqin qədim əkinçilik mərkəzlərindən də məlumdur. Şomutəpədə əmək alətlərinin 87%, Töyrətəpədə 83% obsidiandan hazırlanmışdır. Bu vəziyyət digər Eneolit yaşayış yerləri üçün də xarakterikdir (27, s. 99-101). İ.H.Nərimanovun fikrinə görə Azərbaycan abidələrində obsidianın üstünlük təşkil etməsi, çaxmaqdaşına isə heç rastlanmaması ovalıqda yaşayan əhalinin obsidian yataqları ilə əlaqələrini göstərir (27, s. 99). Azərbaycanın qədim yaşayış yerlərindən aşkar olunmuş obsidianın analizi əmək alətlərinin hazırlanması üçün Paravan, Kəlbəcər və Sünik yataqlarından istifadə olunduğunu göstərir (27, s. 97). Naxçıvanda yerləşən I Kültəpənin obsidianı kimyəvi tərkibinə görə Göyhasar və Sünik

yataqları ilə uyğundur. Paravan yatağı üçün xarakterik olan qəhvəyi rəngli obsidiandan Naxçıvan abidələrində az istifadə edilmişdir.

Azərbaycanın bir qrup Eneolit abidələrində, xüsusilə Leylatəpə mədəniyyətinə aid Leylatəpə, Böyük Kəsik, Ağılı dərə kimi abdələrdə əmək alətləri hazırlamaq üçün başlıca olaraq çaxmaqdaşından istifadə edilmişdir. Belə ki, Böyük Kəsikdə əmək alətlərinin 89, 6% çaxmaqdaşından yalnız 10, 4 % obsidiandan hazırlanmışdır (24, s. 33). Buna baxmayaraq Leylatəpə mədəniyyətinə aid Poylu abidəsində əmək alətlərinin 80% obsidiandan hazırlanmışdır (25, s. 59). Leylatəpə mədəniyyəti abidələrində çaxmaqdaşı alətlərin üstünlük təşkil etməsini tədqiqatçılar Mesopotamiya mədəniyyətlərinin, xüsusilə Ubeyd mədəniyyətinin təsiri və bilavasitə bu mədəniyyətin Azərbaycanda yayılması ilə izah etmişlər (24, s. 34-35). Belə ki, Mesopotamiyanın qədim əkinçiləri çaxmaqdaşından hazırlanmış alətlərə üstünlük vermişlər.

Qələməbulaqdan aşkar olunmuş bıçaq tipli lövhə hazırlanma texnologiyasına görə digərləri ilə eynidir. O çaxmaqdaşından hazırlanmışdır. Onun alt tərəfi yastı, üst tərəfi isə iki tillidir. Lövhə uca doğru genişlənərək oval ucluqla tamamlanır. Ağız hissəsi incə və itidir. Ağız hissədə dişəklənmə izləri olmadığından belə hesab etmək olar ki, o qırma üsulu ilə hazırlanmış və təbii şəkildə istifadə olunmuşdur. Eneolit dövründə kifayət qədər təkmil texnologiyanın olmasına baxmayaraq S.N.Bibikovun fikrinə görə az qüvvə tələb edən qırma üsulu uzun müddət əmək alətlərinin hazırlanmasında istifadə olunmuşdur (13, s. 84)

Qaşovlar iki nümunə ilə təmsil olunmuşdur. Onların biri kəsikdə ovaldır. Üst hissəsi boyunca iti tili vardır. Ağız hissəsi qövsşəkilli olub dişəklənmişdir. Digər qaşov kəsikdə üçkünc formalıdır. Qəhvəyi rəngli obsidiandan hazırlanmışdır. Onun uc hissəsi və ağzı yaxşı dişəklənmişdir.

Naxçıvanın Eneolit abidələrinin tədqiqi qaşovların və oraq dişlərinin hazırlanması üçün başlıca olaraq obsidiandan istifadə olunduğunu göstərir. Əmək alətlərinin yenidən işlənərək bir neçə dəfə işlənməsi xammal əldə etməyin çətin olduğunu göstərir (8, s. 17). Lakin, məlum olduğu kimi, Naxçıvanda və onun yaxınlığında Zəngəzur dağlarında zəngin obsidian yataqları olmuşdur. Ovçulartəpəsindən aşkar olunan obsidian alətlərin araşdırılması onların başlıca olaraq Göyəm dağlarından, az miqdarda isə Nemrut dağ (1 ədəd) və Göyhasardan gətirildiyini göstərir. Mərənd Kültəpəsindən (17, s. 1962) əldə edilə obsidianların analizi isə onların başlıca olaraq Sünik, az miqdarda isə Meydan dağ, Nemrud dağ və Göyəmdən gətirildiyini göstərir. Araştırmalar göstərir ki, Naxçıvanın şimalında və onun yaxınlığında yerləşən Göyəm və Sünik yataqları qədim dövrdə Naxçıvan və Urmiya hövzəsində yerləşən qədim əkinçilik mədəniyyətlərinin obsidianla təmin edilməsində əsas rol oynamışdır. Belə nəticəyə gəlmək olar ki, Dərələyəz və Zəngəzur dağları Naxçıvan və Urmiya hövzəsində məskunlaşan qədim əkinçi-maldar tayfaların yaylaqları olmuşdur (17, s. 1963). İlin böyük bir qismi (noyabr-iyun) qar altında olan bu əraziyə yalnız yayda qalxmaq mümkündür. Göyəm və Gəmiqayada, habelə Kəlbəcərdə qədim dövrə aid qaya təsvirlərinin olması yüksək dağlıq zonanın qədim maldar tayfalar tərəfindən məskunlaşdırıldığını göstərir. Yay vaxtı bu yaylaqlara qalxan əhali şübhəsiz ki, bu dağlardakı təbii sərvətlərdən, o cümlədən obsidiandan istifadə etmişdir. Ehtimal ki, maldar tayfalar obsidiandan mübadilə məqsədilə də istifadə etmişlər.

Əmək alətləri arasında Zirincli yaşayış yerindən aşkar olunan gil qəlib də diqqətəlayiq tapıntılardan biridir. O qum, az miqdarda isə saman qarışıq gildən hazırlanaraq sarı rəngdə bişirilmişdir. Qəlibin bir qismi salamat qalsa da onun yastı baltalar tökmək üçün istifadə olunduğu müəyyən edilmişdir. Qəlib bir tərəfli olub üzərində uzunsov, trapesşəkilli çuxur vardır. Qeyd etmək lazımdır ki, Zirincli yaşayış yerinin tədqiqi zamanı həmçinin mis filizininin qalıqlarına da rast gəlinmişdir. Buna görə də bu yaşayış yerinin metalişləmə ilə məşğul olan insanları yarımköçəri məskəni olduğunu da ehtimal etmək olar. Qeyd edək ki, yastı baltalar tökmək üçün qəliblər indiyədək Eneolit abidələrindən aşkar olunmamışdır. Lakin Ovçular təpəsində aparılan qazıntılar zamanı Eneolit dövrünə aid qəbirdən bir deşikli iki ədəd isə yastı balta əldə edilmişdir (22, s. 95, pl. IX). Lakin bu baltaların da bənzərləri indiyədək Cənubi Qafqaz, o cümlədən Azərbaycan abidələrindən indiyədək məlum deyil. Erkən Tunc dövründə də bu tip baltalardan istifadə edilmişdir. I Maxta Kültəpənin tədqiqi zamanı yastı baltalar tökmək üçün daş qəlib aşkar olunmuşdur (7, s. 68).

Məlum olduğu kimi, Azərbaycanın erkən əkinçilik mədəniyyətinə aid abidələrdən xeyli metal məmulatı aşkar olunmuşdur (16, s. 9-10). Arxeoloji tədqiqatlar zamanı müəyyən edilmişdir ki, Azərbaycan, o cümlədən Naxçıvan Cənubi Qafqazın qədim metallurgiya mərkəzlərindən biri olmuşdur (2, c. 11-14; 12, s. 118-120). Eneolit dövrünə aid metal əşyalar Naxçıvanda hələlik I Kültəpə və Ovçulartəpəsindən aşkar olunmuşdur. Erkən Tunc dövründə isə bu ərazidə metallurgiya daha da inkişaf etmişdir. II Kültəpədən (10, s. 86-89; 30, s. 126) metaləritmə kürəsinin qalıqlarının aşkar olunması bunu bir daha təsdiq edir. Erkən və Orta Tunc dövrünə aid təkmil metalişləmə alətlərinin varlığı metalişləmənin yüksək inkişafından xəbər verir (12, s. 34-44). Araşdırmalar Erkən Tunc dövründə metallurgiya və metalişləmənin təsərrüfatın əsas sahələrindən birinə çevrildiyini göstərir (20, s. 84-91).

Metalişləmə sənəti ilə bağlı mühüm tapıntılardan biri də Qahab yaxınlığından aşkar olunan daş qəlibdir (11, s. 114). Qəlib təsadüfən aşkar olunmuş və Babək rayon tarix-diyarşünaslıq muzeyinə verilmişdir. Bu qəlib deşikli tunc baltalar tökmək üçün hazırlanmışdır. Qəlibin hündürlüyü 18, 5 m, ən geniş hissəsinin eni 11, 8 sm-dir. Bu tip qəliblərdə hazırlanan baltaların uzunluğu 15, 5 sm olmuşdur. Bərk cinsli qumdaşından hazırlanan qəlib iki taylıdır. Qəlibin formasına əsasən bu qəlibdə hazırlanan tunc baltaların da formasını bərpa etmək mümkündür. V.B.Baxşəliyevin müəyyən etdiyinə görə bu tip baltaların hazırlanmasında kəsikdə dairəvi olan konusvari gil çubuqlardan istifadə edilmişdir ki, bu sapın möhkəm oturmasına imkan vermişdir (11, s. 114). Cənubi Qafqazda deşikli tunc baltalar tökmək üçün qəliblər I Kültəpə, Qarni və Şenqavitdən aşkar olunmuşdur (19, s. 114-115). Deşikli tunc baltalar Cənubi Qafqazda Kulbakebi, Marneuli, Medjvrisxevi, Karaz və digər abidələrdən aşkar olunmuşdur. Bu baltaın heç biri Qahab nümunəsi ilə bənzər deyildir. Ovçulartəpəsinin Eneolit təbəqəsindən deşikli baltanın aşkar olunması onların hazırlanma texniligiyasının hələ e.ə. V minillikdə mənimsənildiyini göstərir. Qahab nümunəsini dəqiq tarixləmək mümkün olmasa da belə hesab ediril ki, bu qəlib e.ə. V-IV minilliklərin ayrıcında tunc baltalar tökmək üçün istifadə edilmişdir. Qəlib aşkar olunma vəziyyəti, yaşayış yerindən kənarda aşkar olunması həmin dövrdə səyyar metallurqların da olduğunu ehtimal etməyə imkan verir.

Ovçulartəpəsinin Eneolit təbəqəsindən körük ucluğunun tapılması (9, s. 80; 15, tablo XLV, 3) bu dövrdə mühüm texnoloji nailiyyət olan süni üfürmədən istifadə olunduğunu təsdiq edir. Bu tip texnoloji nailiyyətlərin tətbiqi Eneolit dövründə mis-mərgümüş ərintilərinin əldə edilməsinə imkan yaratmışdır (18, s. 449; 31, s. 229-235). Azərbaycanın Eneolit abidələrindən aşkar olunan metal əşyaların tədqiqi Eneolit dövrünün sonunda, xüsusilə Leylatəpədə mis-arsen xəlitəsindən hazırlanmış əşyaların çoxaldığını göstərir (4, s. 40-41) I Kültəpənin alt təbəqələrindən mis-asen-nikel qarışığından hazırlanmış əmək alətinin aşkar olunması (31, s. 43-46) qədim Şərqlə əlaqələri göstərməklə bərabər metal emalında müvəffəqiyyət qazanıldığını da təsdiq edir. Qədim Şərq ölkələri üçün xarakterik olmuşdur nikelli tunc, tədqiqatçıların fikrinə görə, ya idxal olunmuş, ya da idxal olunmuş metal əsasında yaranmışdır. Nikel qarışığına Texut və Leylatəpədən aşkar olunmuş əşyaların da tərkibində rast gəlinmişdir (3, s. 73). İ.R.Səlimxanovun fikrinə görə, qədim metallurqlar nikelli tuncun xüsusiyyətələrinə bələd olduğu üçün nikelli filizi xəlitəyə əlavə etmişdir (31, s. 48). Əlbətdə, bu, Eneolit dövrü üçün yüksək texnoloji nailiyyət idi. Şübhəsiz ki, bu tapıntılar Naxçıvanın mühüm metallurgiya mərkəzlərindən biri olduğunu bir daha təsdiq edir.

Ovçulartəsindən aşkar olunan metal əmək alətləri, Zirinclidən tapılan qəlib Eneolit dövrünün sonunda tökmə texnologiyasının mənimsənildiyini göstərir. Tökmə texnologiyasının mənimsənildiyini Leylatəpə tapıntıları da təsdiq edir (3, s. 73). Leylatəpədən aşkar olunan metal əşyaların tərkibində arsenin yüksək faizi xüsusilə diqqəti cəlb edir (4, s. 40). Onların tərkibində həmçinin yüksək faizli qurğuşuna rast gəlinir. Maraqlıdır ki, Ovçulartəpəsində aparılan araşdırmalar zamanı yaşayış evlərində mis filizi ilə yanaşı qurğuşun filizi də aşkar olunmuşdur. Bu mis və qurğuşunun əridilmək üçün yaşayış yerinə gətirildiyini göstərir. Araşdırmalar Azərbaycanın qədim sakinlərinin qurğuşun qarışığı olan misdən istifadə etmək bacarığına malik olduqlarını göstərir (29, c. 3-99). Faktlar Eneolit dövrünün sonunda digər istehsal sahələri ilə bərabər metal emalının insanların həyatında mühüm rol oynadığını təsdiq edir.

## ƏDƏBİYYAT


1. Абибуллаев О.А. Енеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 s
2. Алиев В.Г., Бахшалиев В.Б. Новые археологические находки по древней металлургии Нахичевани / АЭИА, Баку, 1986, с. 11-14.
3. Алиев Н. Нариманов И. Культура северного Азербайджана в эпоху позднего энеолита. Баку: Agridag, 2001, 144 с.
4. Ахундов Д.И. Об «энеолите» на Южном Кавказе. Археология и Этнография Азербайджана, Баку, 2003, с. 34-39.
5. Aşurov S.H. Naxçıvanda arxeoloji tədqiqatlar. Bakı: Nafta-Press, 2003, 120 s.
6. Aşurov S.H., Baxşəliyev V.B., Marro C. Azərbaycan-Fransa birgə ekspedisiyasının 2006-cı ildə Ovçulartəpəsində apardığı arxeoloji tədqiqatlara dair // 2006-2007-ci illərdə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları. Bakı: Nafta-Press, 2007, s. 25-28.
7. Aşurov S.H.,Baxşəliyev V.B., Hüseynova S.A., Əliyeva F.A, Əliyev O.K. Imaxta qədim yaşayış yerində 2010-cu il qazıntıları. Azərbaycanda arxeoloji tədqiqatlar 2010. Bakı: Xəzər Universiteti, 2011, s. 65-69.
8. Baxşəliyev V., Marro C., Aşurov S. Ovçulartəpəsi. Bakı: Elm, 2010, 154 s.
9. Baxşəliyev V. , Marro C., Aşurov S. Son Eneolit və Erkən Tunc dövrünə aid Ovçulartəpəsi yaşayış yeri / Azərbaycanın erkən əkinçilik dövrü abidələri. Bakı, 2012, s.78-87.
10. Бахшалиев В. Новые находки древней металлургии металлообработки в КюльтепеII // ДАН Азербайджанской ССР, 1986 №2, с.86-89.
11. Baxşəliyev V. Naxçıvanın metalişləmə sənətinə aid yeni tapıntı / Azərbaycan arxeologiyası, 2002, № 3-4, s. 114-116.
12. Бахшалиев В.Б. Металлургия и металлообработка на территории древней Нахичевани. Баку: Элм, 2005 120 с.
13. Бибиков С.Н.Раннетрипольское поселение Лука-Врублевецкая на Днестре // МИА СССР,М.-Л., 1953, № 38, 460 с.
14. Джафарзаде И.М. Следы древнейшей культуры человека на территории Азербайджана. SSRİ EA Azərbaycan filialının Xəbərləri, 1944, № 9, s. 62-66.
15. Əliyev O.K. Azərbaycanın Ovçulartəpəsi Son Eneolit və ilk Tunc dövrü abidəsi. Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2012, 210 s.
16. Əkbərov R.A. Azərbaycan ərazisində erkən metallurgiya və metalişləmə. Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı 1994, 25s.
17. Farhang Khademi, Nadooshan and ect. Provenance Of PrehistoricObsidian artefacts fromKulTepeNorthwestern Iran using X-ray fluorescence (XRF) analysis // Journal of Archaeological Science, 2013, 40, p.1956-1965.
18. Кашкай М.А. Селимханов И.Р. Исследование медно-мышьяковых предметов из ракопок холма Кюльтепе в Нахичеванской АССР // Доклады АН Азербайджанской ССР, 1957, № 4, с. 449-454.
19. Кушнарева К.Х., Чубинишвили Т.Н., Древние культуры Южного Кавказа. М. - Л.: Наука, 1970, 190 с.
20. Исмаилов Г.С. Новые материалы по древней металлургии и металлообработке с юго-восточных салонов Молого Кавказа. Известия АН Аз.ССР. Серия истории, философии и права, 1974, № 3, с. 84-91.
21. Həbibullayev O.H. Kültəpələ arxeoloji qazıntılar. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1959, 134 s.
22. Marro C., Bakhchaliyev V. Ashurov S. Excavation at Ovçulartepesi (Nakhchivan, Azerbaijan). Second Preliminary Report: The 2009-2010 Seasons // Anatolia Antiqua, XIX, 2011, s. 53-100.
23. Müseyibli N. Qədim Sədərək.Bakı:Nafta-Press, 2003, 104 s.

24. Müseyibli N. Böyük Kəsik eneolit yaşayış məskəni. Bakı: Nafta-Press, 2007, 228 s.
25. Нариманов И.Г., Ахундов Т.И., Алиев Н.Г. Лейлатепе. Баку, 2007, 128 с.
26. Нариманов И.Г.,Рустамов Дж. Неолит в Тойретепе // ДАН Азерб. ССР, 1960, т. XVI, № 9, с. 91-102.
27. Нариманов И.Г., Культура древнейшего земледелъцеского - скотоведческого населения Азербайджана. Баку: Элм, 1987, 260 с.
28. Рустамов Д.Н. разведочные работы в Тойретепе // МКА, 1965, т. VI, с. 15-27
29. Рагимова М.Н. Из истории использования свинца в древнем и средневековом Азербайджане. Баку: Элм, 1978, 99 с.
30. Сеидов А.Г. Памятники Куро-Аракской культуры Нахичевани. Баку, Билик,1993, 164 с.
31. Селимханов И.Р, Торосян Р.М. Металлографический анализ древнейших металлов Закавказъя // Советская археология,1969, № 3, с. 229-235.

## ABSTRACT

**Ruhiyye Rzayeva**

**Instruments of labour of the chalcolithic age of Sirabchay valley**

Instruments of labor, including grinding stone and blade of sickles are one of the main indicators of ancient agriculture of Azerbaijan. Despite the fact that to settlements of this region were seasonal, however the revealed instruments of labor speak also about agriculture development. Probably, tribes which occupied these settlements, were engaged in also not irrigation agriculture. It is undoubted that in spring increase of water in the rivers Sirabchay and Kakhabchay created a favorable condition for the irrigated agriculture. Blade of sickles from obsidian and flint also testify to development of agriculture. Studying of a chemical composition of obsidians shows to Kültepe I that they are generally delivered from Geyhasar and Sünik. Researches show that these fields in the ancient time were of great importance for delivery of obsidian to the settlements of Nakhchivan and Urmia basin. It allows to conclude that Daralagez and Zangezur mountains were summer pastures of tribes of Nakhchivan and the Urmia basin. Nakhchivan's monuments located on intermediate situation by the Caucasus and the Ancient East mattered and for delivery of copper ore. The actual materials testify to rapid development of metallurgy in this region.

## РЕЗЮМЕ

**Рухиййе Рзаева**

**Орудия труда эпохи энеолита Сирабчайской долины**

Орудия труда, в том числе зернотерки, терки и вкладыши серпов являются одним из основных показателей древнеземледельческой культуры Азербайджана. Несмотря на то в поселения этого региона были сезонные, однако выявленные орудия труда говорят также о развитии земледелия. Видимо, племена, которые заселяли эти поселения, занимались также неполивным земледелием. Несомненно, что в весне возрастание воды в реках Сираб чай и Кахаб чай создавало благоприятное условие для орошаемого земледелия. О развитии земледелия свидетельствуют также вкладыши серпов из обсидиана и кремня. Изучение химического состава обсидианов Кюльтепе I показывает, что они в основном доставлены из Гегхасар и Сюник. Исследования показывают, что эти месторождения в древности имели большое значение для доставки обсидиана к поселениям Нахчывана и Урмийского бассейна. Это позволяет заключить, что Даралагезские и Зангезурские горы были летними пастбищами племен Нахчывана и Урмийского бассейна. Памятники Нахчывана, расположенные на промежуточном положении Кавказом и Древним Востоком имели значение и для доставки медной руды. Фактические материалы свидетельствуют о бурном развитии металлургии в этом регионе.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü* V.Baxşəliyev

# İQTİSAD ELMLƏRİ

**ASİF ŞİRƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 332.1**

## NAXÇIVAN REGİONUNDA SAHİBKARLIĞIN İNKİŞAFI MƏSƏLƏLƏRİ

**Açar sözlər:** *Sahibkar, mülkiyyət, qanunlar, iqtisadiyyat, iqtisadi fəaliyyət, gəlir, mənfəət, risk*

**Key words:** *Owhership, property, low, economy, economic, activity, income, profit, risc.*

**Ключевые слова:** *Предприниматель, собственность, законы, экономика, экономическая деятельность, дохода, прибыль, риск*

Düşünülmüş, götür-qoy edilmiş tədbirlərin inamla icra edilməsi, davamlı və dayanıqlı tərəqqi sayəsində bütünlükdə ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında əsas iqtisadi göstərici olan ümumi daxili məhsul ardıcıl istiqamətdə artır, sosial-iqtisadi göstərici inkişafın lazımi səviyyəsi təmin olunur, bu əsasda əhalinin həyat səviyyəsi müntəzəm olaraq yüksəlməkdə davam edir. Bütün bu məsələlərin həllində başqa amillər və səbəblərlə yanaşı sahibkarlıq və sahibkarlıq fəaliyyəti əsaslı və çox mühüm rol oynayır, ardıcıl iqtisadi və xidməti sahələrdə onun fəaliyyəti daim genişlənir və möhkəm əsaslarla davam edir. Ölkəmizin sosial-iqtisadi tərəqqisi birbaşa sahibkarlığın inkişafı, möhkəmləndirilməsi ilə bağlıdır və hətta onunla şərtlənir. Çünki bütün dünya ölkələrində xüsusi və dövlət mülkiyyətin əsas formaları və deməli sahibkarlığın da başlıca və aparıcı əsası kimi çıxış edir. Həmçinin buna "Mülkiyyət haqqında" və "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublika Qanunları, digər fərman, sərəncam və tədbirlər mülkiyyət mənsubiyyətindən asılı olaraq sahibkarlıq formalarının iqtisadi və hüquqi əsaslarının müəyyən edilməsinə əsaslı təsir göstərir, belə sahibkarlığa möhkəm təminat və əlverişli şərait yaradılır. Onu da diqqətə gətirmək çox zəruridir ki, məhz yuxarıda göstərilən mühüm və əməli tədbirlər sayəsində qanunauyğun olaraq xüsusi mülkiyyətə əsaslanan xırda (kiçik), orta və iri sahibkarlıq müəssisələri, ticarət və xidmət müəssisələri əsaslı fəaliyyət göstərir, ölkənin iqtisadi və sosial inkişafında xüsusi rol oynayır və ölkədə istehsal olunan ümumi daxili məhsulun həcmində öz gəlirinin çəkisinin daimi artırmaqda irəliləyirlər. Başqa sözlə ölkəmizdə sosial –iqtisadi inkişafın nəticələri əsasən və başlıca olaraq sahibkarlığa güvənir və ona arxalanır. Yeri gəlmişkən göstərmək olar ki, "sahibkar" ərəb sözü olub "yiyə və iş" daha doğrusu "iş yiyəsi" mənasını verir. Onu da göstərmək zəruri hesab edilə bilər ki, Azərbaycan Respublikası Nazirlər Kabineti və Azərbaycan Respublikası Həmkarlar İttifaqı Konfederassiyasının birgə qərarı ilə "sahibkar" həm də "işə götürən" termini ilə birgə işlədilir. Əhalinin məşğulluğunun getdikcə artmasında işsizliyin davamlı olaraq aradan qaldırılmasında və yoxsulluğun azaldılmasında gərgin fəaliyyət kimi sahibkarlıq çox mühüm əhəmiyyət kəsb edir. Sahibkarlıq – işə götürənlər gəlir götürmək, fayda və nəticə əldə etmək məqsədilə yenilikdən, risqdən iqtidarçılıqdan istifadə edilən təsərrüfat, təsərrüfatçılıq fəaliyyətidir. Onu da göstərmək olar ki, fəallıq təşəbbüskarlıq, zərurilik və s. daha geniş mənada sahibkarlıq mülkiyyətinə malik olan və təsərrüfatçılıq edən şəxsin fərdin risk məsuliyyəti və yenilikliyə müşahidə olunan iqtisadi fəaliyyət növü və formasıdır. Sahibkarlığın əsas zəhmətlərini səciyyələndirir. Diqqətə gətirmək çox vacibdir ki, Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafı, onun möhkəmləndirilməsi məqsədilə davamlı kompleks tədbirlər görülüb həyata keçirilmiş və mühüm proses indi də davam etdirilməkdədir. Belə ki, "Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" Qanun götürülmüş və tapşırıqlara əməl edilmiş xüsusi sahibkarlıq fəaliyyəti inkişaf etməyə başlamışdır. Bundan başqa Muxtar Respublikada sahibkarlığın hüquqi

əsasları və vəzifələri barəsində burada daim iş aparılır, sahibkarlarla görüşlər keçirilir. Bundan başqa sahibkar olmaq, sahibkarlıq fəaliyyətinə başlamaq qaydaları və xüsusilə hüquq üzrə sahibkarlar üçün daim fəaliyyət göstərən seminar yaradılmış və səmərəli fəaliyyət göstərməkdədir. Eyni zamanda muxtar respublikanın müvafiq nazirlik və baş idarələri maliyyə orqanları tərəfindən müntəzəm olaraq sahibkarlar üçün treninqlər, məşğələlər qaydaya salınmışdır.

Habelə, muxtar respublikada sahibkarlıq üzrə zəruri olan bütün məşğələlərə aydınlıq gətirmək məqsədilə maliyyə hüququ təşkilatlarının, rəhbərlərinin cəlb edilməsi də məqsədəuyğun sayılmışdır. Onu da göstərmək lazımdır ki, ildə bir dəfə Muxtar Respublika sahibkarlarının görüşü keçirilir və belə tədbirlərdə sahibkarlıq subyektinin ehtiyacları öyrənilir və reallaşdırılması təmin olunur. Bununla yanaşı Muxtar Respublikada sahibkarlığın inkişafının möhkəmləndirilməsi, davamlı və dayanaqlı irəliləyişi üzrə işə köməklik məqsədilə 2006-cı ildə Naxçıvan Muxtar Respublikası Sahibkarlıq Konfederasiyası təsis edilmiş və haliyədə də normal fəaliyyət göstərir. Muxtar Respublikada sahibkarlığın müntəzəm olaraq maariflənməsi ilə əlaqədar Naxçıvan şəhərində Biznes Mərkəzi yaradılmış və onun normal fəaliyyəti təmin edilmişdir. Biznes Mərkəzində sahibkarlara lazımi məsləhət və tövsiyyələrin verilməsi davamlı səciyyə daşıyır. Bu mərkəzdə sahibkarlara kömək məqsədilə alimlərin, mütəxəssislərin, hətta sahibkarlıqla xeyli müddətdən bəri məşğul olan ayrı-ayrı subyektlərin də maarifləndirici imkanlarından, konkret təcrübəsindən geniş və müntəzəm istifadə olunur, sahibkarlıq üzrə əməli təcrübə öyrədilir və digər sahibkarlıq fəaliyyətlərində istifadə edilir.

Naxçıvan şəhər Biznes Mərkəzində sahibkarlar üçün müxtəlif mövzularda daimi fəaliyyətdə olan məşğələlər keçirilməsi qayda və imkanlar da yaradılmışdır. Eyni zamanda muxtar Respublikada 2008-ci ildən “Bir pəncərə” sistemi tətbiq edilmiş, hazırda da fəaliyyət göstərir və lazımi səmərə ilə öz işini davam etdirir. Habelə muxtar respublikanın kütləvi informasiya vasitələrində regionun sahibkarlarından olan verilişlər təşkil edilir və məqalələr dərc olunur. Onu da xüsusi diqqətə gətirmək çox gərəklidir ki, xırda (kiçik), orta sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlər üçün mərkəzləşdirilmiş qaydada texnologiyaların innovasiya və yeniləşdirilməsi məsələsi barəsində yığıncaqlar da keçirilir. Bütün bunlardan başqa muxtar respublikada fəaliyyət göstərən və sahibkarlıqla məşğul olan, subyektlərə daimi olaraq maliyyə yardımı göstərilir, onun başında banklar və bank olmayan kredit müəssisələrdən təminatlı qaydada borclar verilməsinə xüsusi diqqət və qayğı göstərilir. Belə ki, muxtar respublikada yeni yaradılan və fəaliyyətdə olan sahibkarlara 2013-cü ildə 17 milyon 305 min manat məbləğində kredit verilmişdir ki, bunun da 6 milyona yaxını fərdi sahibkarlığın inkişafına 11 milyon manatdan çoxu isə yeni sahibkarlıq fəaliyyətinin yaradılmasına yönləndirilmişdir. Eyni zamanda 2014-cü ilin 9 ayı ərzində bank və digər kredit təşkilatları tərəfindən sahibkarlara 3,5 milyon manat kredit verilmişdir ki, bu da keçən ilin həmin dövründən 13,8 faiz artıqdır. Həmçinin 2014-cü ilin 9 ayında ümumilikdə sahibkarlıq fəaliyyəti sahələrinin yaradılmasına 8 milyon 66 min manat kredit verilmişdir. Bütünlükdə isə son 10 ildə regionda sahibkarlığın inkişafına 150 milyon manat kredit ayrılmış və istifadə edilmişdir.

Belə müəssisələrdə 8 mindən çox adam daimi iş yeri tapa bilmişdir. Onu da diqqətə gətirmək olar ki, hazırda biznes fəaliyyəti göstərən müəssisə, şirkətlərin daha çox hissəsi xüsusi sahibkarlığın boynuna düşür və muxtar respublikada istehsal olunan ümumi daxili məhsulun 87 faizi sahibkarlıq fəaliyyəti göstərən müəssisələrin payına düşür. Cəmi regionda 105 növdə, 459 çeşiddə qeyri-ərzaq məhsulu 231 növdə istehsal olunur ki, bunun da əksəriyyəti demək olar ki, çox hissəsi sahibkarlıq müəssisələrində yaradılır.

Onu da göstərmək lazımdır ki, regionda davamlı və dayaqlı tədbirlərin həyata keçirilməsi sayəsində regionda sahibkarlıqla məşğul olan subyektlərin sayı ildən-ilə artır. Belə ki, 2008-ci ilin əvvəlindən 2011-ci ilin sentyabrı ərzində regionda 271 iri sahibkar və 1059 hüquqi olmadan fiziki şəxs sahibkar qeydiyyatına alınmış, sonrakı illərdə də bu proses sürətlə davam etmişdir. Son 13 ildə 55 dövlət müəssisəsi səhmdar cəmiyyətinə çevrilmişdir. Təkcə son 10 ildə muxtar respublikada ümumi daxili məhsul 13,9 dəfə, sənaye məhsulu 49 dəfə, kənd təsərrüfatı məhsulu 4,7 dəfə artırılmışdır ki, bunların əksəriyyəti demək olar ki, qeyri-dövlət sahibkarlıq müəssisələrində yaradılmışdır. Keçən ilin müvafiq dövrünə nisbətən kredit verilməsi 2014-cü ilin 9 ayı ərzində keçən ilin həmin dövrü ilə müqayisədə 9 milyon 771 min manat təşkil etmiş, 2014-cü ilin yanvar sentyabr aylarında isə kredit verilməsi 35,3 faiz artaraq 13 milyon 212 min manata çatmışdır. 2014-cü ilin axırıncı rübündə də bu

artımın xeyli çoxaldılması gözlənilir. Bu kreditlər kənddə kiçik və orta sahibkarlara verilmişdir. Onu da nəzərə gətirmək olar ki, muxtar respublikada yeyinti və yüngül sənayesində sahibkarlıq üzrə 64 layihənin həyata keçirilməsi kreditləşdirilmişdir.

Sahibkarlıq müəsisələrinin təkcə Naxçıvan və rayon tabeli şəhərləri də deyil, muxtar respublikanın bütün coğrafi ərazilərində yaradılması və inkişafına imkan verilir. Əhalinin bütün fəsillərdə tələbatlarını tam ödəmək üçün ümumi tutumu 11720 ton olan 15 soyuducu anbar tikilmiş və öz funksiyasını yerinə yetirmək üçün fəaliyyətə başlamışdır. Bununla yanaşı 4 iri heyvandarlıq kompleksinin qurulması başa çatmış, istehsal gücü ayda 246 min ədəd yumurta 200 min cücə, 26 ton toyuq əti sahibkarlıq müəssisəsinin istifadəsinə verilmiş, 8 balıq müəssisəsi yaxınlarda istifadəyə veriləcəkdir. Bundan başqa "Asni" qızıl xallı ala balıq təsərrüfatı tərəfindən istehsal gücü ildə 360 ton diri balıq və ayda 600 qab konservləşdirilmiş balıq bölməsi də istifadəyə yönləndirilmişdir. Muxtar respublikanın kəndlərində də sahibkarlığın inkişafına əməlli köməklik göstərilir. Kənd yerlərində fermer təsərrüfatlarının sayı 15 ötüb keçmiş hüquqi şəxs olmadan fiziki sahibkarlıqla məşğul olanların sayı artmaqda və möhkəmləndirilməkdə davam etdirilir. Eyni zamanda heyvandarlıqla məşğul olanlara 2014-cü ilin 10 ayında keçən ilin həmin dövrünə nisbətən verilən kreditlərin həcmi 2 dəfə artırılmışdır. Bütün bunların sayəsində mal-qaranın sayı ildən-ilə çoxalır. Belə ki, 2014-cü ilin son 10 ayında onların sayı iribuynuzlu mal-qara üzrə 112587 başa, qoyun və keçinin sayı isə 668115 başa çatmışdır. Bütün bu göstəricilər sayesində mühüm iqtisadi göstəricilərin də həcmi ildən-ilə artır. Belə ki, 2014-cü ilin son 10 ayında muxtar respublikada ümumi daxili məhsul 1 milyard 808 milyon 516 min manat olmuş, ilin axırınadək onun 2,4 milyard manata çatması gözlənilir.

Həmin dövrdə 743 milyon 886 min manatlıq sənaye məhsulu, 296 milyon 201 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur. Bu dövrdə işləyən əhalinin aylıq gəliri orta hesabla 316 manat olmuşdur. Muxtar respublikanın rəhbərliyi tərəfindən sahibkarlığı xüsusi çəkisinin getdikcə artması və fəaliyyətinin gücləndirilməsi, məhsul istehsalının daha da çoxaldılması məqsədi ilə əlavə əsaslı tədbirlərin həyata keçirilməsi sürətlə davam edir.

## ƏDƏBİYYAT


1. İqtisadi nəzəriyyə. Bakı, 1999-cu il
2. Iqtisadi nəzəriyyə. Moskva, 2009
3. Asaul, A.N.Şəkərəliyeva, A.I.Şirəliyev. Sahibkarlıq fəaliyyətinin təşkili. Bakı, 2006.
4. Naxçıvan Muxtar Respublikası Statistika Komitəsinin materialları 2009/2014-cü illər.


## ABSTRACT


**A.İ.Shiraliyev**


**Developmental issues of avnership in the region of Nakhichivan.**


The article explains the context of owhership activity, analyses the main role of provate property forms in the ownership. The article analyses and investigates the ownership activity and its efficiency in the basis of concrete forms in the Autonomal Republik of Nakhichivan.


## РЕЗЮМЕ


**А.И.Ширалиев**


**Вопросы развития предпринимательства в Нахчыванском регионе.**


В статье рассматривается содержание предпринимательской деятельности, освещается основная роль форм частной собственности в предпринимательской деятельности. В ней классивицируются формы предпринимальства. На конкретном материале анализируется и обобщается предпринимательская деятельность и ее эффектиность в Нахчыванской Автономной Республике.



NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

**NAZİM ƏHMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 330.1**

# HEYDƏR ƏLİYEVİN UĞURLU İNKİŞAF MODELİ NAXÇIVANDA DİNAMİK İNKİŞAFI TƏMİN EDİR

**Açar sözlər:** *Heydər Əliyev, İlham Əliyev, model, iqtisadi inkişaf, sənaye rabitə.*
**Key words:** *Heidar Aliyev, Ilham Aliyev, model, economic development, industry, communication*
**Ключевые слова:** *Гейдар Алиев, Ильхам Алиев, модель, экономическое развитие, промышленность, связь.*

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün dövrlərində ölkənin iqtisadi inkişafını daim diqqət mərkəzində saxlamış və dinamik inkişafi təmin etmişdir. Ulu öndər hələ ölkəyə rəhbərliyin birinci hakimiyyəti dövründə 5 mühüm qərarın qəbul olunmasına nail olmuş və məhz bu qərarların yerinə yetirilməsi nəticəsində iqtisadiyyatın bütün sahələrində inkişaf dövrü başlamışdır.

Keçən əsrin 70-80-ci illərində nəinki ölkə, onun regionları və xüsusilə Naxçıvan Muxtar Respublikası daha sürətlə inkişaf edirdi. İttifaq əhəmiyyətli böyük müəssisələrin Naxçıvanda tikilməsi nəticəsində sənaye potensialı xeyli artmışdı.

Hələ birinci hakimiyyəti dövründə Ulu öndər Heydər Əliyevin ölkədən ayrı düşmüş Naxçıvana xüsusi diqqət yetirməsi öz bəhrələrini verirdi. Burada aparılan tikinti quruculuq işləri nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artmışdır. Müqayisə üçün göstərək ki, həmin dövrdə Azərbaycanda sənaye məhsulunun ümumi həcmi 2,9 dəfə artmışdı. Sənayedə baş verən bu yüksəliş nəticəsində Azərbaycanın sənaye məhsulu istehsalında Naxçıvanın xüsusi çəkisi 1965-ci ildəki 0,7 faizdən 1985-ci ildə 2,3 faizə qalxmışdır [1, s.64].

Lakin sonrakı dövrdə 1988-ci ildən başlayan Azərbaycan – Ermənistan Dağlıq Qarabağ münaqişəsi ölkədə olduğu kimi Naxçıvan MR iqtisadiyyatını da böhran vəziyyətə salmışdır. Artıq 1991-ci ildə keçmiş SSRİ dağılmış, respublikalar öz müstəqilliyini əldə etmiş və bazar iqtisadiyyatı yolu ilə getməyə başlamışlar. Müstəqilliyimizin ilk illərndə ölkədə baş vermiş böhran daha da dərinləşməyə başlamış, istehsal daima aşağı düşmüşdür. Ölkə ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi və bir milyona yaxın əhalinin qaçqın və köçgün vəziyyətə düşməsi də iqtisadi vəziyyəti daha da gərginləşdirmişdir. Məhz belə bir şəraitdə xalq Azərbaycanın nicat yolunu Ulu öndərin hakimiyyətə gətirilməsində görürdü.

Beləliklə, Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycana hakimiyyətə gətirildi və böhrandan çıxış yolları axtarılmağa başladı. Ulu öndər ölkənin inkişafını islahatların aparılmasında görürdü. Çünki dərin iqtisadi böhrana düçar olmuş respublikamızı bu böhrandan çıxarmaq və yeni inkişaf yoluna salmaq yalnız islahatlar yolu ilə mümkün ola bilərdi. Ona görə də Heydər Əliyev hakimiyyətə gələn kimi çıxışlarının birində bəyan etdi ki, “Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması və bazar iqtisadiyyatı, sahibkarlıq yoludur” [2, s.21].

Ümummilli liderimiz H.Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyası ötən dövrlərdə ardıcıl şəkildə həyata keçirilmiş və dinamik inkişafı təmin etmişdir.

Deyə bilərik ki, Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf modeli Azərbaycana böyük uğurlar gətirmişdir. O dövrdə Ulu öndərin yeritdiyi müdrük siyasətin nəticəsidir ki, çox qısa zaman kəsiyində ölkəmiz uğurlu inkişaf yolu keçmiş, dünya dövlətləri arasında lider ölkələr sırasına daxil

olmuşdur. İftixarla demək olar ki, bu gün də Azərbaycan iqtisadi inkişaf sürətinə görə öz liderlik mövqeyini qoruyub saxlamaqdadır.

Qətiyyətlə deyə bilərik ki, 2013-cü ildə Azərbaycan prezidenti seçilən İlham Əliyev Ulu öndərin siyasi kursunu layiqincə davam etdirir.

Qeyd etmək lazımdır ki, İlham Əliyev ölkə prezidenti seçiləndən sonra 24 noyabr 2003-cü il tarixdə "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" ilk fərmanını imzaladı. Bunun ardınca 11 fevral 2004-cü ildə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" qəbul olundu. Baxmayaraq ki, regional inkişafın əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdu, İlham Əliyev isə hakimiyyətə gələndən sonra regional siyasəti daha da genişləndirərək və möhkəmləndirərək bu sahədə ilk regional Dövlət Proqramı qəbul etdi. Azərbaycan Prezidenti İlham Əliyev Ulu öndərin 1993-2003-cü illərdə həyata keçirdiyi siyasətdən bəhs edərək demişdir: "Bu gün Heydər Əliyevin siyasəti Azərbaycanda yaşayır, davam etdirilir və yeni formalarda zənginləşir" [3, s.284].

Regional inkişaf təmin edilmədən bütövlükdə ölkə iqtisadiyyatının inkişafından söhbət belə gedə bilməzdi. 2004-cü ildə qəbul olunmuş birinci regional Dövlət Proqramı 2008-ci ildə çox müvəffəqiyyətlə yerinə yetirilmişdir. Beş il ərzində regionların inkişafı bir tərəfdən güclü, infrastruktur yaradılmasına, iş yerlərinin yaradılmasına xidmət göstərmiş, digər tərəfdən isə miqrasiya meyllərinin qarşısını almışdır. Habelə beş il ərzində regionların iqtisadiyyatına çox böyük sərmayə qoymuş, özəl sektorun inkişafına güzəştli şərtlərlə kreditlər ayrılmış və habelə sahibkarlığın inkişafına böyük dəstək verilmişdir.

Ümumiyyətlə 2009-cu il fevral ayının 23-də Bakının "Gülüstan" sarayında "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" icrasının yekunlarına həsr olunmuş konfransda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "...son beş ildə Azərbaycan iqtisadiyyatı 2,6 dəfə artmışdır, adambaşına düşən gəlir 5500 dollara çatmışdır. Azərbaycanda sənaye istehsalı 2,5 dəfə artmışdır və sənayeləşmə prosesi çox geniş vüsət almışdır. Bunun nəticəsində 776 min yeni iş yeri açılmışdır ki, onlardan da 547 mini daimi iş yeridir. Bunun nəticəsində yoxsulluğun səviyyəsi kəskin şəkildə azalmış, 49 faizdən 13,2 faizə düşmüşdür. Azərbaycanda aparılan uğurlu neft strategiyası və iqtisadi islahatlar nəticəsində büdcə xərclərimiz 12 dəfədən çox artmışdır. İndi valyuta ehtiyatlarımız 18 milyard dollardan çoxdur" [4].

Birinci regional inkişaf Proqramı ölkədə olduğu kimi onun regionlarında da, o cümlədən Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da müvəffəqiyyətlə icra edilmişdir. Regional proqramın yerinə yetirilməsi sahəsində aparılmış məqsədyönlü quruculuq işləri nəticəsində beş il ərzində muxtar respublikada Ümumi Daxili Məhsulun həcmi 4,3 dəfə, sənaye məhsulunun istehsalı 9,3 dəfə, əsas kapitala yönəldilmiş investisiyaların həcmi 5,0 dəfə çoxalmışdır. Kənd təsərrüfatında ümumi məhsul istehsalı 2,1 dəfə artmışdır. Bu dövrdə 37073 yeni iş yeri açılmış, əhalinin real pul gəlirləri 4,0 dəfə artmışdır.

Qeyd etmək lazımdır ki, 2009-cu ildə qəbul olunmuş "2009-2013-cü illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və onlara müvafiq olaraq bu dövlət proqramlarının muxtar respublikada icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər" və "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" muxtar respublikada investisiya potensialından tam və kompleks şəkildə istifadə olunmasını, yeni sənaye, kənd təsərrüfatı, xidmət müəssisələrinin yaradılmasını, məşğulluq probleminin həll edilməsini və sosial məsələlərin həllini şərtləndirmişdir.

Muxtar respublikada iki Dövlət Proqramının icrası və ümumiyyətlə 2003-2013-cü illəri əhatə edən 10 ilin statistik materiallarının təhlili göstərir ki, 2013—cü ildə 2,3 milyard manatlıq ÜDM istehsal olunmuşdur ki, bu da 2003-cü illə müqayisədə 8,4 dəfə çoxdur. 2013-cü ildə hər nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi 2003-cü ilə nisbətən müqayisəli qiymətlərlə 6,9 dəfə artaraq 5423 manata çatmışdır.

Muxtar respublikada 2003-2013-cü illəri əhatə edən son 10 il ərzində sənaye məhsulunun həcmi 49 dəfə, əsas kapitala yönəldilən investisiyalar 16,4 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 4,7 dəfə, nəqliyyat sektorunda yük daşınması 2,6 dəfə, informasiya və rabitə xidmətləri 10,3 dəfə, pərakəndə əmtəə dövriyyəsi 11,1 dəfə, əhaliyə göstərilən pullu xidmətlər 12,9 dəfə, ixracatın həcmi 96,6 dəfə, icmal büdcənin həcmi 12,7 dəfə, əhalinin gəlirləri 10,2 dəfə, hər bir nəfərə düşən gəlirlər 8,8 dəfə, orta aylıq əməkhaqqı isə 9,8 dəfə artmışdır.

Məlumdur ki, sənaye iqtisadiyyatın ən aparıcı sahələrindən biri hesab edilir. Ona görə də muxtar respublikada da sənayenin inkişafina xüsusi diqqət yetirilir. İnkişaf etmiş sənaye ölkələrində sənaye parklarının yaradılması artıq bir ənənə şəklini almışdır. Bu sahədə ölkəmizdə və muxtar respublikamızda da müəyyən işlər görülməkdədir. Aparılan iqtisadi siyasətin davam etdirilməsi və sənayenin modernləşdirilməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 2013-cü il 6 iyun tarixli fərmanı ilə "Sənaye parkları haqqında Əsasnamə" təsdiq olunmuşdur.

Qeyd etmək lazımdır ki, Ulu öndər Heydər Əliyevin iqtisadi inkişaf modelinə uyğun olaraq muxtar respublikada sənayenin inkişafi prioritet istiqamət kimi daim diqqət mərkəzində saxlanılır, sənaye müəssisələrinin sayı və potensialı artmaqda davam edir. Belə ki, son 10 il ərzində sənaye müəssisələrinin sayı 7 dəfə artaraq 2003-cü ildəki 66-dan 2013-cü ildə 438 müəssisəyə çatmışdır. Məhz bu artımın nəticəsində 2013-cü ildə muxtar respublikada 863 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir ki, bu da 2003-cü illə müqayisədə 49 dəfə çoxdur.

Muxtar respublikada aqrar sektorun inkişafi da daim diqqət mərkəzində saxlanılır. Aqrar sahədə aparılan radikal islahatlar, bu sahədə qəbul olunan üç dövlət proqramı, o cümlədən 2005-2010-cu illəri əhatə edən Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafi üzrə, 2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair və 2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafi üzrə dövlət proqramları qəbul olunmuş və aqrar sektorun inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Məhz bu dövlət proqramlarının həyata keçirilməsi nəticəsində muxtar respublikada dinamik inkişaf təmin edilmişdir. 2003-2013-cü illəri əhatə edən son 10 il ərzində muxtar respublikada kartof istehsalı 2,9 dəfə, taxıl istehsalı 41 faiz, tərəvəz istehsalı 24,6 faiz, meyvə və giləmeyvə istehsalı 46 faiz, bal istehsalı isə 2003-cü illə müqayisədə 8,4 dəfə artmışdır.

Muxtar respublikada heyvandarlığın baş sayının artması heyvandarlıq məhsullarının da artmasına səbəb olmuşdur. Beləliklə, muxtar respublika əhalisinin bitkiçilik və heyvandarlıq məhsullarına olan tələbatı əsas etibarilə yerli istehsal hesabına ödənilməkdədir.

Ölkə iqtisadiyyatının mühüm sahələrindən olan nəqliyyat, rabitə və informasiya kommunikasiya sektorunun da əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Hələ sovetlər birliyi dövründə respublikanın sənaye potensialının gücləndirilməsi, xüsusən də elmtutumlu sahələrin genişləndirilməsi ilə birbaşa bağlı olduğunu görən Heydər Əliyev XX yüzilliyin 70-ci illərində bu sahəyə diqqət yetirmiş, informasiya və kommunikasiya texnologiyaları sektorunun bu günkü inkişafının təməlini qoymuşdur.

Azərbaycanda olduğu kimi Naxçıvanda da bu sahədə çox böyük işlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri informasiya-kommunikasiya texnologiyalarının inkişafi istiqamətində həyata keçirilən tədbirlərdən danışarkən demişdir: "Bu gün muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük layihələr həyata keçirilir. 1997-ci ildən başlayaraq muxtar respublikada bütün telefon stansiyaları avtomatlaşdırılmış, fiber-optik kabellər çəkilmiş, yeni poçt şöbələri yaradılmış və digər tədbirlər həyata keçirilmişdir. Qısa zaman kəsiyində görülən işlər muxtar respublikanın informasiya blokadasından çıxmasına səbəb olmuşdur" [5, s.92-93].

Davos Dünya İqtisadi Forumunun "Qlobal informasiya texnologiyaları" hesabatında ölkəmiz Polşa, Bolqarıstan, Türkiyə, Filippin, İndoneziya, Misir, Pakistan kimi iddialı ölkələri də qabaqlamışdır. Həmçinin Beynəlxalq Kommunikasiya İttifaqının hesabatında İKT-nin inkişaf səviyyəsinə görə Azərbaycan son beş ildə inkişaf dinamikasına görə dünyanın ilk 10 ölkəsi arasında yer tutmuşdur. Bütün bunlar onu göstərir ki, ümummilli liderimiz Heydər Əliyevin

müəyyənləşdirdiyi və ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən iqtisadi inkişaf modeli iqtisadiyyatın bütün sahələrində öz bəhrəsini vermişdir.

Hesab edirəm ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Naxçıvanda yeritdiyi uğurlu iqtisadi siyasət məhz Heydər və İlham Əliyevlərin yeritdikləri iqtisadi siyasətin davamı kimi qiymətləndirilməlidir.

## ƏDƏBİYYAT


1.Əhmədov N.H. Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı, "Elm", 2005, s.64,

2.Dövlət idarəçiliyi: sosial-iqtisadi aspektlər. Bakı, 2002, s.21.

3.Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı, "Elm", 2007, s.284.

4. "Gömrük xəbərləri" qəzeti. 29 fevral 2009-cu il, № 8.

5.İsmayıl Hacıyev, Bəxtiyar İsmayılov. Naxçıvan Muxtar Respublikası, "Əcəmi", 2014, s.92-93.

6.Nazim Əhmədov. Heydər Əliyevin inkişaf modeli və Naxçıvanda dinamik inkişaf. Bakı, "Elm və təhsil", 2010, 148 s.


## ABSTRACT


**Nazim Ahmedov**


**Heidar Aliyev's successful development model provides dynamic development in Nakhchivan**


The development model worked out by Heidar Aliyev brought great successes not only to Azerbaijan, but also to the Nakhchivan Autonomous Republic, the constituent part of Azerbaijan. The article analyzes all the fields of the economy in Nakhchivan, and draws attention to the establishment of industrial parks as a priority direction.


## РЕЗЮМЕ


**Назим Ахмедов**


**Успешная модель развития Гейдара Алиева обеспечивает динамическое развитие Нахчывана**


Подготовленная Гейдаром Алиевым модель развития принесла успех не только Азербайджану, но и Нахчыванской Автономной Республике, являющейся её неотъемлемой частью.

В статье анализируются все отрасли экономики Нахчывана и уделяется внимание созданию промышленных парков как приоритетному направлению.



NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**

**AĞARZA RÜSTƏMOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 658.155**

# AQRAR İSLAHATLARIN NƏTİCƏLƏRİ VƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATI İSTEHSALININ MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ

Dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri olan aqrar sahənin inkişafi bu sahənin elmi təhlilini şərtləndirir. Ona görə də Naxçıvan Muxtar Respublikasında bu siyasətin nəticələri təhlil edilməlu və inkişaf istiqamətləri müəyyənləşdirilməlidir.

**Açar sözlər:** *kənd təsərrüfatı, torpaq islahatı, ərzaq təhlükəsizliyi, təchizat, aqrar siyasət*
**Key words:** *agriculture, land reforms, food safety, goods, agricultural policy*
**Ключевые слова:** *сельское хозяйство , земельные реформы , продоволь-ственная безопосност, снабжение, аграрная политика*

Naxçıvan Muxtar Respublikası inkişafda olan çoxsahəli sənaye və aqrar-sənaye respublikasıdır. Sənayedə yerli kənd təsərrüfatı məhsullarının emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur. Elektronika, metal emalı, tikinti materialları və yüngül sənayesi var. Kənd təsərrüfatı, əsasən taxılçılıq, heyvandarlıq, tərəvəzçilik və bağçılıq sahəsində ixtisaslaşmışdır. Muxtar respublikada iqtisadi islahatlar ardıcıl həyata keçirilmiş, torpaq islahatı başa çatdırılmış, azad sahibkarlığın, xüsusi mülkiyyətin və kiçik biznesin inkişafı üçün geniş imkanlar yaradılmışdır.

Naxçıvan Muxtar respublikasının əhalisinin əksəriyyəti (təxminən 70 faizi) kəndlərdə yaşayır və kənd təsərrüfatı ilə məşğul olur. Hazırda muxtar respublikada il ərzində yaradılan əlavə dəyərin orta hesabla üçdə bir hissəsi kənd təsərrüfatının payına düşür.

Azərbaycanda ilk dəfə olaraq torpaq islahatının Naxçıvanda keçirilməsi, torpağın şəxsi mülkiyyətə verilməsi, kolxoz və sovxozların əmlakının özəlləşdirilməsi, burada digər sahələrlə müqayisədə kənd təsərrüfatında islahatların daha sürətlə aparılmasına imkan yaratmışdır. Bu dövr ərzində əldə olunmuş müsbət meyilli dəyişikliklərin dinamikliyini təmin etmək, qarşıya çıxan problemləri aradan qaldırmaq məqsədilə müvafiq qanun və fərmanlar qəbul edilmişdir.

Kənd təsərrüfatının bütün dövrlərində iqtisadiyyatın ən mühüm sahələrindən biri olmaqla ölkə əhalisinin ərzaq, yüngül və yeyinti sənayesi isə xammala olan tələbatının ödənilməsində önəmli rola malik olmuşdur.

Əhalinin istehlak etdiyi gündəlik tələbat məhsullarının 3/4 hissəsi kənd yaşayış səviyyəsini xarakterizə edən maddi istehsal sferası kimi xarakterizə olunur.Kənd təsərrüfatı cəmiyyət həyatında sosial-iqtisadi səciyyə daşımaqla yanaşı eyni zamanda siyasi və strateji əhəmiyyətə də malikdir. Kənd təsərrüfatının sosial-iqtisadi əhəmiyyəti onun önəmli istehsal sahəsi olmaqla cəmiyyətin ilkin təbii ehtiyacının qarşılanmasında oynadığı rolla şərtlənir. İstehsalın digər sahələrindən fərqli olaraq kənd təsərrüfatı zahiri görünüşünə görə sadə deyil çox çətin və spesifik xüsusiyyətlərə malikdir ki, bu da son nəticədə ərzaq təhlükəsizliyinə təsirsiz ötüşmür.

Bu spesifik xüsusiyyətləri aşağıdakı kimi səciyyələndirmək olar:

a) Kənd təsərrüfatında torpaq əsas istehsal vasitəsi kimki çıxış edir.

b) Torpaqdan götürülən məhsullar istehsalı məhsuldarlıqdan və kənd təsərrüfatı-nın inkişafi daha çox istehsal amillərinə əsaslanır.

c) Kənd təsərrüfatının istehsalı mövsümi xarakterə malikdir:yəni iş dövrü isə istehsal dövrü arasında uyğunsuzluğun mövcudluğu.

ç) Kənd təsərrüfatı istehsalı təbii-iqlim şəraitindən asılıdır.

d) Kənd təsərrüfatı istehsalı bioloji –kimyəvi amillərdən asılılığı.

e) Kənd təsərrüfatı istehsalı melorasiya səviyyəsindən asılıdır və s.

Naxçıvan Muxtar Respublikada kənd təsərrüfatının inkişafi üçün zəruri olan şəraitin mövcudluğunu onun tarixən aqrar yönümdə ixtisaslaşmasını şərtləndirir. Xüsusən muxtar respublikada 12 iqlim qurşağının 9-nun bölgədə olması , ilin çox hissəsinin günəşli olması aqrar bölmənin inkişaf etdirilməsi üçün çox əlverişlidir.

Bütün bu deyilənləri nəzərə alsaq demək olar ki, muxtar respublika əhalisinin ərzaq təhlükəsizliyinin təmin olunması aqrar sahənin inkişaf etdirilməsindən bilavasitə asılıdır.

Buna görə də son dövrlərdə Muxtar Respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının yerli məhsullar hesabına ödənilməsinin təmin etmək məqsədilə aqrar sektorda kompleks tədbirlər hazırlanmış və həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" nın icrası istiqamətində ciddi nailiyyətlətlər əldə olunmuşdur.Belə ki,2013-cü ildə Proqramın qəbul olunduğu 2008-ci illə müqayisədə bitkiçilik məhsullarının həcmi isə 2,4 dəfə artaraq 222 milyon 964 min manata,heyvandarlıq məhsullarının həcmi isə 91,9 faiz artaraq 114 milyon 163 min manata çatmışdır.

Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təhcizatının yaxşılaşdırılması məqsədilə "Naxçıvan Aqrolizinq " Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 348 ədədi 2013-cü ildə olmaqla cəmi 1227 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilmişdir.Gətirilmiş texnikalardan 253 ədədi 2013-cü ildə lizinq yolu ilə məhsul istehsalçılarına verilmişdir.Aqroservis xidmətləri şəbəkəsinin işinin təkmilləşdirilməsi məqsədilə "Naxçıvan Aqrolizinq " Açıq Səhmdar Cəmiyyətinin Şahbuz rayon bazası fəaliyyətə başlamışdır.Ötən il ərzində məhsul istehsalçıları 4 min 124 ton mineral gübrə ilə təmin olunmuşlar. 2013-cü ilin məhsulu üçün muxtar respublikada 60 min 127 hektar sahədə əkin aparılmışdır ki, bu da 2012-ci ilin məhsulu üçün əkilmiş sahədən 9 hektar çoxdur.

Ötən il də taxılçılıq əsas əkinçilik sahəsi olmaqla diqqət mərkəzində saxlanılmış, 35 min 324 hektar sahədə taxıl əkilmişdir ki, bunun da 25 min 869 hektarını buğda , 9 min 455 hektarını isə arpa təşkil etmişdir. 2012-ci ilə nisbətən taxıl əkini sahələrinin həcmi 359 hektar artmışdır. Taxıl zəmilərindən 102 min 960 ton məhsul toplanmışdır ki ,bu da 2012-ci illə müqayisədə 1,1 % çoxdur.Artan əhali tələbatını təmin etmək məqsədilə 2013-cü ildə Naxçıvan şəhərində taxılın saxlanılması üçün tutumu 9 min ton olan üç yeni bunker yaradılmış, muxtar respublikada taxılı uzun müddətə saxlamağa imkan verən anbarın həcmi 18 min tondan 27 min tona çatdırılmışdır. Bundan əlavə , Culfa rayonunun Camaldın kəndində su dəyirmanı bərpa olunmuşdur.

Tələbata uyğun olaraq kartofçuluğun inkişafında da müsbət dinamika saxlanılmış və 2013-cü ildə 2957 hektar sahədə kartof əkini aparılmışdır ki, bu da 2012-ci ildə əkilmiş sahədən 126 hektar çoxdur. Əkin sahələrindən 2012-ci ilə nisbətən 4,7% çox, yəni 41296,8 ton kartof yığılmışdır.

2013-cü ildə 109468 ton dənli və dənli paxlalı məhsulu (qarğıdalısız) ,3882,9 ton dən üçün qarğıdalı , 694,9 ton dən üçün günəbaxan , 66497 ton tərəvəz, 39037,5 ton ərzaq üçün bostan məhsulları , 43276,2 ton meyvə ,15112,7 ton üzüm toplanmışdır.

Aqrar sektorun inkişafında mühüm təsir vasitəsi olan soyuducu anbarların yaradılması istiqamətində 2013-cü ildə tutumu 250 ton olan 2 soyuducu anbar istifadəyə verilmiş soyuducu anbarların sayı 17-yə ,ümumi tutumu isə 11 min 970 tona çatdırılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamıilə təsdiq olunmuş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafi üzərində Dövlət Proqramı" nın icrası istiqamətində həyata keçirilən tədbirlər meyvə və tərəvəz istehsalının artımına müsbət təsir göstərməkdədir.2013-cü ildə meyvə istehsalının həcmi bir il öncəyə nisbətdə 3% ,tərəvəz istehsalı isə 1% artmışdır.

Kənd təsərrüfatının əsas sahələrindən biri olan heyvandarlığın inkişafının davamlı olaraq dəstəklənməsi iribuynuzlu mal-qaranın və xırdabuynuzlu heyvanların baş sayının ,ət və süd

məhsulları istehsalının həcminin artmasına müsbət təsir göstərir.2013-cü ildə bu sahənin inkişafi istiqamətində 2 yeni heyvandarıq təsərrüfatı yaradılmış,hazırda 3 heyvandarlıq təsərrüfatının yaradılması üzrə işlər davam etdirilir.Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə 2013-cü ildə heyvandarlıq təsərrüfatında 8515 baş inək və düyə süni yolla mayalandırılmış, əvvəlki ildə mayalandırılmış inək və düyələrdən 6211 baş sağlam buzov alınmışdır.337 başı 2013-cü ildə olmaqla son 5 ildə 1678 baş cins mal-qara muxtar respublikaya gətirilmiş və lizinq yolu ilə fermerlərə verilmişdir.

1 yanvar 2014-cü il tarixdə Muxtar Respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 106 min 215 baş, qoyun və keçilərin sayı isə 635 min 464 baş olmuşdur ki, bu da 1 yanvar 2013 -cü il tarixə olan göstəricilərə müvafiq olaraq 1,4 və 1,6 % üstələmişdir.

Mal-qaranın baş sayının artımı ilə yanaşı cins tərkibinin yaxşılaşdırılması heyvandarlıq məhsullarının qənaətbəxş artımını təmin edir.2013-cü ildə muxtar respublikada diri çəkidə 19501,9 ton ət,78613,1 ton süd istehsal olunmuşdur ki, bu da 2012-ci ildəki müvafiq göstəricilərdən 3,4 və 0.2 % çoxdur.

Daxili bazarda quş əti və yumurtaya olan tələbatın tam şəkildə yerli istehsal hesabına ödənilməsini təmin etmək istiqamətində 2013-cü ildə 14 yeni quşçuluq təsərrüfatı yaradılmış ,hazırda 7 yeni quşçuluq təsərrüfatının yaradılması istiqamətində işlər davam etdirilir.Muxtar respublikada quşçuluq təsərrüfatlarının fəaliyyyətini əlaqələndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Quşçuluq Birliyi yaradılmışdır.

Kənd təsərrüfatının mühüm sahələrindən olan arıçılığın inkişafi 2013-cü il ərzində də davam etdirilmiş və təsərrüfat subyektlərinə 271 min manata yaxın həcmdə kredit verilmişdir.Ötən il 1 arıçılıq təsərrüfatı yaradılmış , hazırda 1 arıçılıq təsərrüfatının yaradılması üzrə işlər davam etdirilir. 1 yanvar 2014-cü il tarixə muxtar respblikada arı ailələrinin sayı 68705-ə çatmış və bir il öncəki göstəricini 5,4% üstələmişdir.Ötən il 1304 ton bal istehsal edilmişdir ki,bu da 2012-ci ildəki müvafiq göstəricidən 11% çoxdur.

Balıqçılıq sahəsinin inkişafi istiqamətində 1 balıqçılıq təsərrüfatının genişləndirilməsi və yeni balıq cinsinin yetişdirilməsi üzrə işlər aparılır.

Ümumilikdə.2013-cü ildə kənd təsərrüfatı sahəsi üzrə təsərrüfat subyektlərinə 14 milyon 784 min manatdan artıq həcmdə kreditin verilməsi təmin olunmuşdur.

Həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi kimi 2013-cü ildə Muxtar respublikada 337 milyon 127 min manatdan çox kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2012-ci ildəki müvafiq göstəricidən 6,9% çoxdur.

Muxtar respublikada melorasiya-irriqasiya sistemlərinin təkmilləşdirilməsinin nəticəsidir ki, torpaqların münbitliyinin saxlanılması və yüksəldilməsi əsasında kənd təsərrüfatı məhsulları istehsalının sabitliyi təmin olunmuş ,az məhsuldar və istifadəsiz torpaqlar yaxşılaşdırılmaqla əkin dövriyyəsinə cəlb edilmişdir.2013-cü ildə 4 nasos stansiyası,3 subartezian quyusu və 11 kəhriz istifadəyə verilmiş, 7 kəhrizin bərpası və ya təmiri hazırda davam etdirilir. Su anbarlarına suyun yığılması, kollektor və drenaj şəbəkələrinin inşası və təmiri, yeni kanalların tikintisi, yaşıllıq zolaqlarının suvarılması üçün su xətlərinin çəkilməsi, nasos stansiyalarının təmiri və yararsız suvarma xətlərinin yenilənməsi işləri davamlı aparılmaqla suvarma suyuna olan tələbat tam şəkildə təmin edilir.Bundan əlavə, muxtar respublikada çayətrafi torpaqların yuyulmasının qarşısının alınması istiqamətində davamlı olaraq sahilbərkitm.

Muxtar respublikada pozitiv meyillərlə səciyyələnən bu sosial-iqtisadi fəallığın təməlində iqtisadi inkişafın sosial yönümlü olması, hər bir vətəndaşın iqtisadi və sosial inkişafda iştirakından asılı olaraq maddi rifahının artırılması, iqtisadiyyatın dövlət tənzimləmə mexanizmlərinin liberallaşdırılması, iqtisadi tərəqqinin əsas meyarlarından olan azad rəqabət, sahibkarlıq və investisiya mühitinin daha da yaxşılaşdırılması, əsassız məhdudiyyətlərin aradan götürülməsi, investisiyaların və sahibkarlığın inkişafının təşviqi üsullarından geniş istifadə olunması və muxtar respublikanın iqtisadi təhlükəsizliyinin təminatı üçün aparılmış kompleks işlər dayanır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası, 1995

2.Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Dərslik. Bakı-2011

3.Новиков В.И, Калашников И.Б, Аграрная политика, Москва 2001

4.“Naxçıvan MR-nın statistik göstəriciləri”. Naxçıvan MR Statistika Komitəsi. Naxçıvan-2014.

## ABSTRACT

**A.Rustamov**

The results of the agricultural reforms and the analyzing of current situation of agriculture in Nakhchivan Autonomous Recpublic

The development of agricultural sphere which is one of the leading economical policy of the state are conditioned this sphere’s scientific analyzing. So in NAR the result of this policy should be analyzed and should define ways of development.

## РЕЗЮМЕ

**А.Рустамов**

Результаты аграрных реформ и анализ существующего положение сельскохозяйственного производства Нахчыванской Автономной Республики.

Рзвитие аграрной отрасли , являющееся одним из приоритетных направ-лений экономической политики государства,обуславливаем научный анализ етой отрасли. Поэтому должны анализироваться резултьтаты этой ролитики и определяться направления развития в Нахчыванской Автономной Республике.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**

**ТЕЙМУР АББАСОВ**
*Нахчыван Дювлят Университети*

**UOT: 332.1**

# АГРАР БАЗАРДА ТЯЛЯБ ВЯ ТЯКЛИФИН МЮВЖУД ВЯЗИЙЙЯТИНИН ГИЙМЯТЛЯНДИРИЛМЯСИ

**Ачар сюзляр**: *аграр базар, тялябат, тяклиф, стратеъи мягсяд, ярзаг мящсуллары, игтисади потенсиал, юзялляшдирмя, тясяррцфат формалары, ярзаг тящлцкясизлийи, сосиал-игтисади инкишаф.*

**Key words:** *agrarian market, demand, supply, strategic pulpose, food products, economic potential, privatization, forms of economy, security of food, social – economic growth.*

**Ключевые слова**: *аграрный рынок, спрос, предложение, стратегическая цель, продовольственная продукция, экономический потенциал, приватизация, хозяйственные формы, продовольственная безопасность, социально-экономическое развитие.*

Тялябат системи бцтювлцкдя игтисади вя сосиал инкишафын консептуал инкишаф истигамятляринин али мягсяди вя щярякят амяля эятирижиси эюстярижисидир. Тялябат системи инкишафла йанашы тякмилляшир, базар типли динамика вя структура кясб едир. Тялябатын формалашмасы вя онун ясас параметрляри йерли шяраит, бюлэц мцнасибятляри вя ящалинин сосиал игтисади характеристикалары цзря детерминляшир, мцяййян ганунауйьунлуглар вя хцсусиййятляр кясб едир. Щяр бир функсионал тяйинатына эюря тялябатын тяснифатлашдырылмасы ресурсларын бюлэцсц вя истифадяси цчцн ясаслар йарадыр, жари вя перспектив ялагялярин вящдятини вя трансформасийа моделини йарадыр. Пассив структур формалашмасындан актив тянзимляйижи вя юзц-юзцня артан игтисади системя кечмяк цчцн тянзимлямя параметрляринин тялябатын юдянилмяси системиня дахил едилмяси сямяряли сосиал-игтисади нятижялярля реаллашыр.

Аграр базарын функсионал тяйинаты онун бир чох ярзаг мящсулларына олан тялябатын юдянилмяси вя бу истигамятдя йени иш йерляриня тялябат, истещсал аваданлыглары вя ямяк ресурсларына, хаммалаолан тялябат, щямчинин игтисади-идаряетмя вя тяшкилати щцгуги вя тящлцкясизлик тялябат системи иля реаллашыр. Тялябат системи пиллявари фаза системиндя бири-биринин тясири иля формалашан мцряккяб игтисади-сосиал, тяшкилати тядбирлярин мяжмуу шякилиндя пиллявари системя чеврилир [1].

Беляликля, 2003-жц илдян юлкянин игтисади вя сосиал инкишафында ящалинин щяйат сявиййяси, реэионларын комплекс инкишафы онларын цмуми мейлляр цзря республика сявиййясиня йцксялдилмяси стратеъи мягсяд олараг тялябат, прогноз ресурс вя програм характерли системли йанашманын ясас реаллашмасыдыр.

Ярзаг програмы кими стратеъи мягсядин ясас мейар вя эюстярижиляри ящалинин вя емал сянайесинин, щямчинин ихражаты йцксялтмякля ялдя олунан валйута ещтийатларыны артырмаьа йюнялдилян кянд тясяррцфаты, сянайе потенсиалыны вя бу сащялярля баьлы инфраструктурун комплекс инкишафыны тямин етмяк вязифяси гаршыда дурур. Реэионларын игтисади потенсиалынын ясас щиссясинин кянд тясяррцфаты вя ящалинин рифащы иля баьлы инфраструктуралар тяшкил едир. Ящалинин мяшьулиййятиндя кянд тясяррцфатынын ролу 40-50% тяшкил едир. Тижарят хидмяти сащяляри цмуми дахили мящсулун формалашмасында 50-60% рол ойнайыр. Мящз ящали вя истещсал тялябатынын юдянилмяси истигамятиндя ярзаг тящлцкясизлийи вя йени иш йерляринин ачылмасы мцстягил игтисадиййатын глобаллашан игтисади шяраитиндя сосиал игтисади тялябатынын юдянилмяси йолудур[2].

Тялябатын юдянилмяси цчцн онлары игтисадиййатын структур сийасятини вя онун ясас истигамятлярини формалашдырыр. Макроигтисади проблем олараг ЦДМ-ун артым темпи иля тялябатын артымы арасында илкин нювбядя таразлыг сийасяти вя тялябатын юдянилмяси йолу иля онун сямяряли варианты йолу иля игтисади артымын ян ялверишли темпи, онун сащя вя ярази структуру истигамятиндя йоллар тапылыр.

Базар игтисадиййаты тялябата уйьун олараг истещсал дахили хярж структуруну, йяни ямяк вя материал хяржляри арасында нисбятляри формалашдырыр. Ямяйин тяшкили вя идаря едилмяси, ямяк тяляби вя тяклифи иля щесабланмыш нормативляр арасында оптимал вариантда щялл олунур. Азярбайжан Республикасында ямяк базарында иш гцввясинин иш йерляриня нисбятян цстцн артмасы, ямяк тутумлу сащялярин инкишафы вя ямяйин тякрар истещсалы цчцн лазым олан ямяйин юдянилмяси тябляьинин ашаьы дцшмясиня сябяб олур.

Беля шяраит ямяк щаггыйа тялябаты, номинал истещлак сябяти бахымындан юдямяк цчцн зярури олан нормативлярдян ашаьы олмасына сябяб олур. Реал ямяк щаггы иля номинал ямяк щаггы вя тялябат цчцн лазым олан нисбятляр дяйишир вя истещсалын щяжминдя аралыг мящсулла сон мящсул арасында нисбятлярин обйектив сямяря тялябатындан дейил, мювжуд базар нисбятляринин уйьун олма нисбятляри ясасында инкишафы иля характеризя олунур.

Ямяйин юдянилмясинин онун йаратдыьы дяйярдян ашаьы олмасы, сон нятижядя сцни олараг щямин сащялярин сон мящсулу артырыр вя бу да рентабеллик сявиййясини йцксялтмиш олур. Ямяйин юзц минимум сявиййядя юдянилмяси дяряжяси базарда иш гцввясиня тялябин онун тяклифиндян йухары олмасына атылан «дондурма сийасятидир». Фикримизжя, инщисар шяраити вя эялирлярин артымына бу йолла тясир етмяк реал мяжму тялябатын ики ясас мязмунжа ейни олан, анжаг натурал вя пула ифадяси арасында олан мадди вя малиййя тялябатынын арасында диспропорсийайа эятирир [4].

Юлкядя олан пулун емиссийасыны кредит ресурсларына вя пул капиталына олан ещтийажларын эизли йолла юдянилмясинин гаршысыны алыр. Мящз игтисади дювриййя юлкядя олан малиййя вя пул крелит вя борж фаизляриня олан тялябаты формалашдырыр.

Тялябат системиндя мадди-яшйа, ямяк вя пул капиталы арасында таразлылыг тялябат системинин апарыжы вя ясас ролун ойнамасына тясир едир. Тялябат формалары щямчинин даща чох жари тялябатла йанашы перспектив мцстявидя формалашыр вя инкишаф едир.

Перспектив тялябат истещсалын вя базарын тяшкили щямчинин идаря олунмасында сащибкарлыьын давамлы инкишафына олан тялябатын юдянилмясидир. Бунун цчцн инвестисийа тялябаты, онун мянбяляри, дахили мянбялярин вя харижи инвестисийа йолу иля истещсалын структурунун тякмиллящдирилмяси нязярдя тутулур. Инвестисийа програмы йениляшмя вя игтисади артым цчцн лазым олан мящсулдарлыьын артырылмасы, рягабят мцщитли шяраитдя даща эялирли ишлямяк цчцн йоллар ахтармагдыр. Инвестисийа тялябаты бцтювлцкдя игтисади вя сосиал инкишаф системиндя щям амил, щям дя онун ялдя едилмяси мянбялярини тапмаг цчцн сямяряли игтисади вя тяшкилати структур сийасят кими чыхыш едир. инвестисийа тялябаты мящз базар игтисадиййаты шяраитиндя трансформасийа вя игтисадиййатын йени сащяляринин приоритет истигамятлярин инкишафы цчцн ясас амилдир. Инвестисийа шяраити, инвестисийа щяжми вя онун структуру цчцн тялябат системидир. Чцнки щяр бир йени игтисади мцщит вя йени технолоэийа, йахуд ямяк щаггынын йцксялдилмясиня олан тялябат, йа эялирлярин артымы вя онун бир щиссясинин йыьым цчцн инвестисийа мягсяди иля истифадяси, йахуд щямин эялирлярин дювлят эялирляринин формалашмасына йюнялдилмяси йолу иля инкишаф етдирилир.

Инвестисийа тялябаты, онун щяжминин мянбяляринин тякмиллящдирилмяси вя щямчинин щямин инвестисийаларын сямяряли истифадяси цчцн шяраит йарадылмасы нязярдя тутулур [3].

Инвестисийа мянбяляри дахили ресурслар вя харижи ресурслар щесабына баш верир. Юлкянин инвестисийа этирян ясас истигамятляри дцнйа базарына чыхарылан мящсулларын мигдары иля мцяййян олунур. Азярбайжан игтисадиййатынын гурулушу, онун игтисади

потенсиалынын технолоъи гурулушу вя базар тялябатына уйьун истещсалы вя емалы инвестисийанын ахынына сябяб олур. Инвестисийа гойулушу макроигтисади сабитлик вя таразлы инкишаф мцщити иля сурятлянир. О жцмлядян, тябии ресурслар, карбощидроэен ещтийатлары, ихражат цчцн нефт вя нефт мящсулларынын артымы инвестисийайа стимул йарадыр.

Нефт сащясинин мящз мцстягил Азярбайжан шяраитиндя 1994-жц илдян харижи дювлятляр вя ширкятлярин малиййя дястякляри иля истифадяси, бцтювлцкдя цмуми игтисади потенсиала олан артымла изащ олунур. Нефт эялирляринин нефт фонду кими сахланылмасы вя истифадяси республика цчцн ясас игтисади вя перспектив потенсиал олан аграр секторун инкишаф тялябатыдыр.

Аграр секторун игтисади потенсиалы йени шяраитдя вя структура трансформасийасы цчцн инвестисийа ещтийажлары тяляб едир. Мящз кечид дюврцндя бу инвестисийаларын вя сосиал мцдафия, гачгын вя кючкцнц олан республика цчцн инвестисийа мянбя кими нефт контрактларынын стратеъи ящямиййятини вя стратеъи истещсал вя сащя гурулушу кими трансформасийа контекстиндя бюйцк ящямиййяти вардыр.

Юкядя тялябат системи юзцнямяхсус, ону формалашдыран тялябатлар иля мящдудлашмыр. Щяр бир тялябат нювцнцн конкрет юдянилмяси йоллары интеграсийа вя глобаллашма шяраитиндя инкишаф едир. Хцсусян елми, технолоъи вя йени информасийа, ютцрцжц гурьулар, дягиг машын вя механизмляр, щямчинин кадр тялябатынын мцасир трансформасийа системиня уйьун щазырланмасы вя тятбиги иля реаллашыр.

Аграр базарын мящз елми ясасларла гурулмасы онун кямиййят вя кейфиййят эюстярижиляринин, базар тяляб вя тяклифинин ящалинин рифащы цчцн бу базарын ясас истигамятляринин тякмиллящдирилмясини ящатя едир. Аграр прогнозлар бцтювлцкдя сосиал-игтисади инкишафда ролу олан юлкялярин тимсалында хцсусиййятляр иля ифадя олунур. Азярбайжанын игтисади вя сосиал инкишафында аграр базарын ролунун олмасы онун тябии-жоьрафи иглим вя ящали ресурсларынын олмасы иля баьлыдыр. Она эюря ки, бу амиллярин щяр биринин инкишафыны тямин етмякля перспектив тялябатын юдянилмясинин игтисади програм ясасы йараныр. Азярбайжан Республикасынын игтисади вя сосиал инкишафынын сурятлянмяси тядбирляри щаггында Азярбайжан Республикасынын Президентинин фярманында аграр секторун инкишафынын консептуал тялябляр бахымындан ясас истигамятляри верилир. Аграр секторда ислащатларын икинжи мярщялясиня башламаг вя бунунла ялагядар лазыми тядбирлярин эюрцлмясини сурятляндирмяк мягсяди иля (техники сервис мяркязляринин тяшкили, фермерлярин техника иля даща бюйцк щяжмдя тямин олунмасы, тохумчулуг базарынын инкишаф етдирилмяси, йени емал мцяссисяляринин йарадылмасы вя с.) тядбирляри ясас эютцрцлцр [6].

Аграр базарын тяшкили вя идаря едилмяси тялябат системиндя бцтцн игтисади тядбирлярин рифащын вя сосиал сащялярин инкишафы иля баьлыдыр. Она эюря дя сурятлянмя мцасир Азярбайжан базар игтисадиййатында артыг кейфиййятжя йени инкишафын ясас амилидир. Чатмамыш сявиййя мцяййян потенсиал формалашдырдыьы цчцн онун ясасында йени сурятли артым тялябат системиндя юдянилмя цчцн ясас жящятдир.

Аграр базарын инкишафы таразлыг вя ящалинин рифащынын йцксялдилмяси тялябаты бахымындан инкишаф етдирилир. Онун истещсал щяжминя олан тялябат йерли сащибкарлыьы стимуллашдырмаг, йени иш йерляринин ачылмасы тялябатындан мейдана чыхыр. Истещсалын юзцнцн тяшкили вя идаря олунмасы, сямяряли коммерсийа фяалиййяти вя сосиал тярягги вя йохсуллуьун ляьви програмына уйьун тялябатларын юдянилмяси иля реаллашыр.

Аграр базарынын истещлак базарында, ямяк вя малиййя базарында тялябаты, онун йени сащя вя ихражат йюнлцлцйц цчцн конструктив лайищялярин инкишафы иля даща да дяринляшир.

Аграр базарын ресурс амилиня олан тялябат щямчинин (онларын бир-биринин явяз едилмяси), инкишаф динамикасы вя структур ресурс тяминаты иля юдянилир.

Аграр базарын ясас ресурс amили олан tорпаг ислащаtы, tорпагдан исtифадянин база tялябиня уйьун исtифадя инtенсивлийини, она капиtал гойулушуну ясасланыр вя прогнозлащдырылыр.

Торпагларын юзялляшдирmяси ислащаtлар tялябаtында mейдана чыхан сtрукtур ислащаtлар олса да, онларын сонракы tякрар исtещсалы, tорпаглардан ялдя олунан эялирлярин исtифадяси вя йахуд бюлэцсц, йенидян бюлэцсц принсипляри норmаtивляриндян хейли асылыдыр.

Беля ки, tорпагларын исtифадяси цчцн исtещлак базарында кянд tясяррцфаtы mящсуллары исtещсалынын щяр биринин сяmяряли варианtы опtиmал исtещсал програmлары цчцн креtерийа киmи гябул олунур.

Аграр базарын ресурс tяmинаtы, mцхtялиф сащяляр, tясяррцфаt форmалары вя ресурс нювляри цзря поtенсиал имканлар вя имканларын бюлэцсцнцн сяmяряли варианtы иля реаллашыр. О жцmлядян, mадди ресурслар, йени tехнолоъи хяtлярин вя уйьун олараг функсионал tяйинаtына эюря инвесtисийа програmлары tяtбиг олунур.

Бу mадди ресурсларын исtифадяси вя онларын даща сяmяряли tяшкили, бцtювлцкдя вя пешя функсионал нювцня, ихtисаслашmа вя исtифадя tехнолоэийасына эюря яmяк ресурсларынын tякрар исtещсалы вя кадр поtенсиалы иля баьлыдыр.

Она эюря дя яmяк базары яmяк ещtийаtларына олан tялябаtын бцtцн нювляри цзря ихtисаслы кадрларын щазырланmасы, онларын яmяйинин сяmяряли исtифадяси вя перспекtив tябии арtыmла йанашы олараг ев tясяррцфаtынын, mцлкиййяt форmалары цзря коопераtивляшmиш яmяк просесинин игtисади ролуну вя онларын mадди неmяtляр, хидmяt базарында ролуну йцксялtmяк йоллары ахtарылыр [8].

Яmяк базары tялябаtы игtисадиййаtын гурулушу, онун mадди, хидmяt, сосиал инфрасtрукtуру вя щяmчинин харижи юлкялярля инtеграсийа сисtеminин дяринлийи вя щяр бир реэионун ролу иля юлчцлцр. Ихражаt йюнлц mящсул исtещсалы, йахуд харижи инвесtисийа ахыны иля йерли яmяк базарында йени иш йерляринин ачылmасы, яразидя яmяк ресурсларына tяляб вя tяклифи tянзиmляйир. Щяр бир сащядя mяжmу tяляб вя tяклифин, сащя цзря спесифика хцсусиййяtляри mейдана чыхыр. Ярзаг базарынын mящсуллар цзря вя реэионлар цзря tяснифаtлащдырылmасы реэионун ресурслары иля вя щяmин реэионун жоьрафи шяраиtи иля ихtисаслашыр.

Яmяк базары, ящалинин tябии арtыmы, онун иш гцввясинин пайы, mиграсийасы вя яmяк ещtийаtларындан исtифадя еtmяк инtенсивлийи вя исtигаmяtляри иля баьлыдыр.

Тябии арtыmын республикада азалmасы tемпи базар игtисадиййаtы шяраиtиндя даща сцряtли харакtер кясб едир. сон иллярдя ящалинин mиграсийасы да баш веир. Миграсийанын ясас motиви mящз иш йерляринин арtыmынын ишчи гцввясинин арtыmына уйьун олmаmасы кясб едир. Ящалинин mиграсийасы ярзаг tялябаtынын вя tяклифинин азалmасына вя йахуд арtmасына tясир едир.

Республикадахили mиграсийа кяндля шящяр арасында mиграсийа йолу иля баш верир. Кяндин сосиал-игtисади инкишафы tялябаt сисtеminин форmалашmасы вя инкишафын ярази бюлэцсц киmи кяндин сосиал-tяminаt сявиййяси иля юлчцлцр. Арашдырmалар эюсtярир ки, Азярбайжан кяндинин mяшьуллуг вя онун ярзаг tялябаtы, щяmчинин эялирлярин форmалашmасында хцсуси аmилляри mювжуддур [163].

Тялябаtын форmалашmасынын конкреt хцсусиййяtляри, mювжуд реал имканлары, йа-худ ресурсларын форmасы вя онларын бир-бирини явяз еtmяси имканлары иля mцяййян олунур.

Азярбайжан Республикасында ящали tялябаtынын поtенсиал имканлары адаmбашына дцшян ресурслар вя эялирлярля юлчцлцр. Онун исtещлак давранышы mящз эялирлярин сtрукtуру вя яmtяя, хидmяt дювриййясиндя tяклифля mцяййянляшир. Эялирлярин пайланmасы вя гцбляшmя сявиййяси исtещлак базарында tялябаtын кейфиййяtини, онун mцmкцн яmtяя вя хидmяt сtрукtуруну mцяййян еtдирmяк вя прогнозлащдырmаьа имкан верир.

Нахчыван Мухtар Республикасынын блокада шяраitи онун сосиал игtисади инкишафы вя tящлцкясизлийин горунmасы онун tялябatыны юзцнmяхсус mейлляр вя mянбяляр щесабына юдяmяк йолларыны доьурур. Илкин нювбядя иш йерляриня tялябat республикада ишсизлийин вя mяскунлашmасынын tяmин олунmасына шяраit йарадыр. Сонрадан Нахчыванын mалиййя tялябatы дювлят бцджяси, йерли бцджяляр вя ящалинин вя сисtеmин инвесtисийа mягсядиня иmкан йарадыр.

Нахчыванда жоьрафи ярази mщщиtи онун иmканларыны республика tялябatы цчцн исtифадя еtmяк иmканларыны йарадыр. О жцmлядян, Авропа вя Асийа дящлизи цчцн Ипяк Йолу, «ТРАСЕКА» tранзиt mягсядляри цчцн исtифадя йолларыны tяmин едир. Нахчыван Мухtар Республикасы даь реэион олдуьу цчцн онун ящалисинин mяшьуллуьуну сtиmуллашдырmаг mягсяди иля дясtяк програmы ясасында сtиmуллар йараtmаг зяруридир. О жцmлядян, Нахчыванын кянд tясяррцфatы mящсулларынын еmалы вя сatышы цчцн дювляt сифариши йолу иля бязи mящсулларын сtиmуллашдырылmасыны tяmин еtmяк mцmкцндцр.

Диэяр tяряфдян Нахчыван Мухtар Республикасында азад игtисади зоналар, бирэя tижаряt mяркязляри йараtmагла щяр иш йерляри йарадылmыш олар, щяm дя ящалинин исtещсал еtдийи mящсулларын реаллашmасына шяраиt йарадылmыш олар [7].

Нахчыван Мухtар Республикасынын яразиси вя иглиm шяраitи кянд вя шящяр ящалисинин щяйаt tярзи чох йахын вя ейни аmилляря mяруз галыр. Беля ки, ящалинин чох щиссяси кянд ящалиси олараг, кянд tясяррцфatы mящсуллары исtещсалы йашаmаг цчцн ясас эялир mянбяисидир. Нахчыванын шящяр вя кянд йерляриндя дювляtдян mалиййялящдирилян вя фярди tясяррцфatда даща чох mяшьул олан ящали олдуьу цчцн онларын исtещлак давранышы вя базарын исtещлак сегmенtиня tясири ейни параmеtрлярля сяжиййялянир [5].

Аграр базарын инкишафы tохуmчулуг вя селексийа, кцбря исtещсалы, tяжщизatы вя исtифадяси цчцн ящяmиййяt кясб едир. Она эюря дя mцасир базар игtисадиййatы шяраitиндя анжаг щазыр mящсула вя хидmяtя tялябatы юлчmяк дейил, щяmин mящсулларын исtещсалы вя исtещлакы цчцн лазыm олан шяраitин форmалашmасы вя инкишафы цчцн зярури олан аmиллярин прогнозлащдырылmасы важибдир.

Тялябаt сисtеmини tякmиллящдирmяк, щяmчинин зярури олан планлашmа вя идаряеtmя mеtод вя йолларыны tякmиллящдирmякля баш верmялидир. Беля ки, mаркеtинг планлашmасы даща апарыжы mейар вя эюсtярижиляр сисtеmи олmаладыр. Мящсулун mаркеtинг сtрукtуру, mаркеtинг сяйи вя mаркеtинг коmплексионал йарадылmасы иля щяйаtа кечирилир. Щяр бир mящсул вя хидmяtин mаркеtинг планлашmасы, онун аmилляринин tядгиги иля mцmкцндцр. Беля ки, mящсул чешиди, онун кейфиййяtи вя tялябatын юдянилmя дяряжясини гиймяtляндирmякля, ящалинин алыжылыг габилиййяtини прогнозлащдырmагла, щяр бир ярazидя mаркеtинг цзря планлар вя tядбирляр щяйаtа кечирилир.

Маркеtинг tядгигинин коmплекс йанашmа вя програmаtик mеtодолоэийайа ясасланmасы, tялябаt сисtеmинин вя онун юдянилmя йолларынын базар mцнасибяtляри шяраitиндя планлы идаря едилmясинин хцсусиййяtляри киmи инкишаф едир.

## ӘDӘBİYYAT


1. Абасов И.Д. Азярбайжанын кянд тясяррцфаты. Бакы, Елм вя тящсил, 2010, 592с.
2. Аббасов Т.А. Кянд tясяррцфatынын ресурс поtенсиалы вя ондан сяmяряли исtифадянин реэионал проблеmляри. Бакы, Елm, с.45.
3. Абдуллайев А. Игtисадиййаt вя игtисади сийасяt. Бакы, «Асийа» няшриййatы, 2003.
4. Балайев Р.Я. Аграр бюлmянин вя ярзаг базарынын tянзиmлянmяси mясяляляри. Мцасир

mярщялядя Азярбайжанда йени игtисади сисtеmя кечидин ганунауйьунлуглары вя проблеmляри

(Азярбайжан Милли Елmляр Академийасы Игtисадиййаt Инсtиtуtу). Коллекtив mонограсийа.

Бакы, Елм, 1998, 498 с.
5. Жябийев Р.М. Азярбайжанда базар инфраструктурунун формалашмасы вя инкишафы. Бакы, 2002, 231 с.
6. Ялирзайев Я.Г. Игтисадиййат: дцшцнжяляр, бахышлар. Бакы, 2002, 465 с.
7. Ялирзайев Я.Г., Ялийев К.Г. Сащибкарлыьын инкишафынын тяминаты. «Игтисадиййат вя аудит»
№2,Бакы, 60 с., 2002.
8. Ялийев К.Г. Базар игтисадиййаты шяраитиндя сащибкарлыьын инкишаф проблемляри. «Игтисадиййат вя айдит» ъурналы №10, Бакы, 53 с., 2003.

**ABSTRACT**

**T.A.Abbasov**

**Evaluation of existing circumstance of demand and supply in agrarian market**

In the article had been carried out on meeting of requirements in the growth of stable ownership as well as organizing of market and perspective demand, manufacture. Issues for this had been researched into improving of production structure in the way of foreign investment and internal resources, its resources, demand of investment. It had been noted that, it means to search ways for working more beneficial competition circumstance, improving of productivity necessary for economic growtli, renovation and byvestment proqram.

**РЕЗЮМЕ**

**Аббасов Т.А**

**Оценка имеющегося положения спроса и предложения на аграрном рынке**

В статье исследованы перспективный спрос, организация производства и рынка, а также в их управлении, изучение спроса в долгосрочном развитии предпринимательства. Для этого рассмотрены вопросы спроса в инвестициях, его источники, внутренние источники и совершенствование структуры производства путем иностранных инвестиций. Отмечено, что инвестиционная программа для производственного роста и инноваций – это поиск путей повышения необходимой производительности, и работы, приносящей больший доход в условиях конкурентной среды.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**

**MÜSLÜM CABBARZADƏ**
*muslum_cabbarzade@yahoo.com*

**UOT 332.146**

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAF PROQRAMLARINDA İQTİSADİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ

*Məqalədə Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları təhlil edilmişdir. Aparılan islahatların iqtisadi təhlükəsizliyin təmin edilməsinə təsiri ilə bağlı araşdırmalar aparılmışdır. Regionun iqtisadi təhlükəsizliyinin yüksəldilməsinə təsir*

*göstərən amillər müəyyən edilərək qiymətləndirilmişdir.*

**Açar sözlər:** *Naxçıvan iqtisadiyyatı, region iqtisadiyyatı, iqtisadi təhlükəsizlik, ərzaq təhlükəsizliyi, xarici iqtisadi əlaqələr.*

**Keywords:** *Nakhchivan economy, regional economy, economic security, food security, foreign economic relations.*

**Ключевые слова:** *Экономика Нахчывана, экономика региона, экономическая безопасность, продовольственная безопасность, внешнеэкономические связи.*

Eksklav şəraitə malik olan Naxçıvan Muxtar Respublikasında iqtisadi təhlükəsizlik sisteminin təşkilati aspektlərini, onun formalaşması və inkişaf xüsusiyyətlərini, habelə maliyyə-kredit, enerji, ərzaq təminatı, informasiya və xarici iqtisadi fəaliyyət sferalarında mövcud olan iqtisadi maraqların qorunması problemlərini öyrənib ümumiləşdirmək əsasında iqtisadi təhlükəsizliyin daha da möhkəmləndirilməsi aktual əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikasının iqtisadi təhlükəsizliyinin təmin edilməsi mövcud reallıqlar baxımından yaşadığımız blokada vəziyyətinin ən mühüm problemlərindən biri hesab edilir. Muxtar respublika daxildə sabit iqtisadi artım tam təmin edilsə də, xarici amillərin iqtisadi inkişafa təsiri daim qalır. Ona görə də həmin amillərin təsirinin qiymətləndirilməsi və nəzərə alınması muxtar respublikanın iqtisadi inkişafında mühüm əhəmiyyət kəsb edir.

Ümummilli liderimiz Heydər Əliyev ölkənin iqtisadi təhlükəsizlik problemlərinin həllini prioritet məsələ kimi önə çəkmişdir. 1993-cü ildən başlayaraq ölkə səviyyəsində xüsusi istiqamət kimi, vahid prinsiplərə söykənən milli inkişaf və təhlükəsizlik siyasəti həyata keçirilməyə başlanmış, onun konseptual əsasları müəyyən edilmişdir (6, s. 10).

Enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində məqsədyönlü və strateji fəaliyyətin əsası 1994-cü ildə "Əsrin müqaviləsi" ilə qoyulmuş, sonrakı illərdə "Energetika haqqında" Azərbaycan Respublikası Qanunu, "Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması" üzrə Dövlət Proqramı qəbul edilmiş, neft və qaz ixrac boru kəmərləri şəbəkəsinin yaradılması və şaxələndirilməsi üzrə uğurlu siyasət həyata keçirilmişdir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün 1995-ci ildən başlayaraq aqrar islahatların hüquqi əsasları yaradılmış və islahatlara start verilmişdir. Ölkə Prezidentinin 2 mart 2001-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı", 25 avqust 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" ölkəmizin ərzaq təhlükəsizliyinin yüksəldilməsində mühüm rol oynamışdır.

Nəqliyyat təhlükəsizliyinin təmin edilməsi ilə bağlı proqramlar qəbul edilmiş, beynəlxalq nəqliyyat dəhlizlərində iştirakçılıqda ölkəmizin milli maraqları yüksək səviyyədə təmin edilmişdir. İnformasiya təhlükəsizliyi sahəsində bir sıra qanunlar qəbul edilməklə informasiya cəmiyyətinə keçidin qanunvericilik bazası təkmilləşdirilmiş, "Azərbaycanın inkişafi naminə informasiya və kommunikasiya texnologiyalarının inkişafi üzrə Milli Strategiya (2003-2012-ci illər)" və bu sahənin inkişafı ilə bağlı bir neçə dövlət proqramı təsdiq edilmişdir.

İqtisadi təhlükəsizliyin təmin edilməsinin hüquqi əsasları 2004-cü ilin 29 iyununda qəbul edilmiş "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununda öz əksini tapmışdır. Qanunda göstərildiyi kimi, Azərbaycan Respublikasının iqtisadi sahədə əsas milli maraqları iqtisadi potensialın artırılmasından, bazar iqtisadiyyatının inkişafi və onun hüquqi əsaslarının təkmilləşdirilməsindən, iqtisadi sabitliyin təmin olunmasından, iqtisadiyyatın inkişafi üçün daxili və xarici investisiyalardan ötrü əlverişli şəraitin yaradılmasından, təbii və maddi sərvətlərin qorunması və səmərəli istifadə edilməsindən, regional və dünya bazarlarının formalaşmasında və fəaliyyət göstərməsində azad və bərabərhüquqlu inkişafın təmin edilməsindən ibarətdir (1).

Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası" dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçimi kimi Avratlantik məkana inteqrasiyasını, bununla yanaşı tarazlaşdırılmış xarici siyasətinin çoxşaxəliliyini vurğulayan,

Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövləti xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur (2).

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında da qloballaşmanın müsbət amilləri ilə yanaşı mənfi yüklü iqtisadi proseslərin də yayılmasına diqqət çəkilmiş, bu proseslərin ümumdünya təsərrüfat inteqrasiyasına cəlb olunmuş ölkəmiz üçün yaratdığı təhdidlərdən qorunmaq, iqtisadi təhlükəsizliyin daha da gücləndirilməsi, yüksək rəqabət qabiliyyətli iqtisadiyyatın formalaşdırılması, ərzaq, enerji, nəqliyyat, informasiya təhlükəsizliyinin, demoqrafik və ekoloji təhlükəsizliyin yüksəldilməsi üçün fəaliyyətin konseptual istiqamətləri müəyyən edilmişdir (3).

Naxçıvan Muxtar Respublikasının inkişafın yeni keyfiyyət mərhələsinə yüksəlməsində son 20 ildə aparılan islahatlar və sosial-iqtisadi inkişafla bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası böyük əhəmiyyət kəsb etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamları ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının regional inkişaf Proqramı (2005-2008-ci illər), "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər), "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı, "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" və digər sənədlərlə muxtar respublikada iqtisadi inkişaf trayektoriyası məqsədli proqramlar müstəvisində müəyyən edilmiş və bu çərçivədə icra edilmiş layihələr iqtisadiyyatın ən müxtəlif sahələri üzrə regionun istehsal potensialını və iqtisadi təhlükəsizliyini daha da möhkəmləndirmişdir.

Qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası nəticəsində muxtar respublikada real sektorun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı və davamlı inkişafa, kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılmasına, yeni müəssisələrin və iş yerlərinin yaradılması nəticəsində əhalinin məşğulluq səviyyəsinin artırılmasına və həyat səviyyəsinin yüksəldilməsinə nail olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 01 sentyabr 2014-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" makroiqtisadi artım dinamikasının gücləndirilməsi, iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edən dövlət sənədidir. Bu proqramda növbəti inkişaf mərhələsinin hədəfləri aşağıdakı istiqamətlərdə nəzərdən keçirilir:

- Ümumi Daxili Məhsul üzrə büdcəyə daxil olan gəlirlərin həcminin artırılması;
- sosial siyasətin davam etdirilməsi və sosial öhdəliklərin yerinə yetirilməsi üçün xərclərin investisiya və sosialyönümlülüyünə üstünlük verilməsi;
- daxili bazarın qorunması, ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına tam ödənilməsi və ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə yerli istehsalçıların stimullaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davam etdirilməsi;
- sosial infrastruktur sahələrin inkişafına yönəldilmiş məqsədyönlü tədbirlərin davamlılığının təmin edilməsi, bu sahələr üzrə müəyyənləşdirilmiş prioritetlərin diqqət mərkəzində saxlanılması;
- qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün daxili imkanların səfərbər edilməsi və büdcə vəsaitindən istifadənin səmərəliliyinin təmin edilməsi (5, s.11).

Göründüyü kimi, proqramın əsas hədəfləri iqtisadi təhlükəsizliyin müxtəlif istiqamətlərdə təmin edilməsinə xidmət edir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi bütün ölkələrin iqtisadiyyatı qarşısında duran ən mühüm və həlli vacib olan iqtisadi problemlərdən biridir. Nəzərdən keçirilən dövrdə muxtar respublikada əsas ərzaq malları üzrə tələbatın ödənilməsi mənbələrinin və özünü təminetmə səviyyəsinin təhlili göstərir ki, respublika əhalisinin mal əti və qoyun əti, quş əti, yumurta, süd və süd məhsulları, habelə meyvə və tərəvəzlə təmin olunma dərəcəsi qənaətbəxşdir.

Ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etdirilmiş, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılmışdır. Yerli istehsal sahələrinin yenidən qurulması və aqrar islahatların uğurla aparılması bir sıra qida

məhsullarının yerli istehsalının artmasına və idxalın azalmasına səbəb olmuşdur.

Enerji təhlükəsizliyinin təmin edilməsi blokada şəraitində fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası üçün olduqca vacib və həyati məsələdir. Bu istiqamətdə son illərdə böyük uğurlar qazanılmışdır. Əhalinin elektrik enerjisinə olan tələbatını daha rentabelli olan su elektrik stansiyaları hesabına təmin etmək üçün ötən beş il ərzində Ordubad rayonunda Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyasının və Şərur rayonunda 20,5 meqavat gücündə Arpaçay Su Elektrik Stansiyasının, 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik Stansiyasının tikintisi başa çatdırılmış və 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilmişdir. Təbii qaz təminatı üzrə görülmüş işlər nəticəsində muxtar respublikada 1 yanvar 2015-ci il tarixə muxtar respublikada 82 min 352 əhali abonenti mavi yanacaqla təmin olunmuşdur.

Muxtar respublika müəssisələrinin xarici bazarlarda möhkəmlənməsinin və yeni bazarlar əldə etməsinin ən mühüm prinsiplərindən biri region iqtisadiyyatının xarici iqtisadi əlaqələr sisteminə səmərəli və uğurlu inteqrasiya edilməsindən ibarətdir. İstər daxili, istərsə də xarici bazarlarda regionun maraq və mənafelərinin tarazlaşdırılması zəruri məhsullara görə daxili bazarın ehtiyaclarının əsasən yerli mənbələr hesabına ödənilməsini, xarici valyutaya olan tələbatın isə ixrac yönümlü fəaliyyət hesabına təmin edilməsini nəzərdə tutur.

Regionun xarici ölkə bazarlarına yüksək rəqabət qabiliyyətinə malik məhsullar ixrac etməsi onun tədiyyə balansında müsbət saldonun yaranmasına, büdcəyə daxilolmaların həcminin artmasına, iqtisadiyyatın kapital və investisiya resurslarına olan tələbatının daxili mənbələr hesabına ödənilməsinə imkan yaradır. Muxtar respublikanın strateji iqtisadi maraqlarının qorunması onun xarici iqtisadi əlaqələr sisteminə hansı səviyyədə inteqrasiya edilməsindən asılıdır. Məhz bu baxımdan daxili və xarici bazarlarda aparılan səmərəli ticarət siyasəti, yerli əmtəə istehsalçılarının iqtisadi maraqlarının ardıcıl sürətdə qorunması və onların iqtisadi cəhətdən stimullaşdırılması muxtar respublikanın iqtisadi təhlükəsizlik sisteminin əsasını təşkil edir.

**Naxçıvan Muxtar Respublikasının xarici ticarət əlaqələrinin dinamikası**

min ABŞ dolları ilə

| Müqayisə predmeti | 2005 | 2008 | 2009 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|
| **Ticarət dövriyyəsi** | **53535,6** | **103747,8** | **220046,5** | **400860,8** | **450914,6** | **511988,9** | **517427,2** |
| o cümlədən: idxal | 50894,0 | 63473,7 | 107759,3 | 78248,5 | 77432,2 | 109573,3 | 108786,9 |
| İxrac | 2641,6 | 40274,1 | 112287,2 | 322612,3 | 373482,4 | 402415,6 | 408640,3 |
| saldo | -48252,4 | -23199,6 | 4527,9 | 244363,8 | 296050,2 | 292842,3 | 299853,4 |
| Əvvəlki ilə nisbətən, faizlə | 137,0 | 112,6 | 212,1 | 155,4 | 112,5 | 113,5 | 101,1 |
| o cümlədən: idxal | 150,4 | 91,7 | 169,8 | 169,3 | 99,0 | 141,5 | 99,3 |
| ixrac | 50,4 | 176,0 | 278,8 | 152,4 | 115,8 | 107,7 | 101,5 |

Mənbə: Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin hesabatları (2005-2014)

Son illər muxtar respublikada rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması, daxili və xarici ticarət fəaliyyətinin liberallaşdırılması və region iqtisadiyyatın dünya təsərrüfatçılıq sisteminə inteqrasiyası sahəsində mühüm tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər mövcud xarici iqtisadi fəaliyyətin və region iqtisadiyyatının beynəlxalq münasibətlər sisteminə inteqrasiyasının iqtisadi səmərəliliyinə xidmət edir. Təcrübə göstərir ki, muxtar respublikada xarici iqtisadi fəaliyyətin

səmərəliliyi bu prosesdə regionun maraqlarının qorunması səviyyəsindən asılıdır. Xarici iqtisadi fəaliyyətdə dövlətin tənzimləyici rolu aşağıdakı parametrlərlə münasibətdə üzə çıxır:

- iqtisadiyyatın inkişafının və istehlakçıların tələbatlarının idxaldan asılılıq dərəcəsi;
- idxal və ixrac arasındakı nisbətin mövcud vəziyyəti;
- yerli istehsalçıların iqtisadi cəhətdən stimullaşdırılması və müdafiə edilməsi.

Muxtar respublikada son 20 ildə aparılmış irimiqyaslı tədbirlər qeyd edilən hər 3 parametr üzrə iqtisadi situasiyanı xeyli yaxşılaşdırmışdır. Artıq daxili bazarda ehtiyac duyulan əsas ərzaq və qeyri-ərzaq məhsullarının, tukinti materiallarının böyük əksəriyyəti muxtar respublika daxilində istehsal olunur. Yerli istehsalın inkişafi nəticəsində 2014-cü ildə muxtar respublikada 352 növdə məhsul istehsal olunmuşdur. Bu məhsulların 117 növü ərzaq, 235 növü qeyri-ərzaq məhsullarıdır. 107 növdə ərzaq, 229 növdə qeyri-ərzaq məhsulları olmaqla, ümumilikdə, 336 növdə məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir.

Xarici ticarətdə uzun illər davam edən idxalın ixracı üstələmə tendensiyası 2009-cu ildən başlayaraq dəyişilmiş, xarici ticarət dövriyyəsi müsbət saldo ilə yekunlaşmışdır. Son 5 ildə isə ixracın idxala nisbəti xeyli yüksəlmişdir. Əgər 2009-cu ildə bu nisbət təxminən 1-ə bərabər idisə, 2014-cü ildə ixrac idxalı 3,75 dəfə üstələmişdir.

Yerli istehsalçıların iqtisadi cəhətdən stimullaşdırılması sahəsində görülən işlərin miqyası da genişlənmişdir. Müasir texnologiyalarla təchiz olunmuş yeni sənaye müəssisələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sənaye məhsulunun dinamik artımını təmin etmişdir. 2014-cü ildə muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün verilən kreditlərin həcmi 33 milyon 548 min 500 manat təşkil etmişdir. Təkcə 2014-cü ildə muxtar respublikada dövlət dəstəyi ilə 47 layihə üzrə istehsal və xidmət obyektləri istifadəyə verilmiş, iqtisadi fəaliyyətin müxtəlif sahələrində 30 layihə üzrə istehsal və xidmət obyektlərinin qurulması isə davam etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın qəbul olunduğu 2008-ci illə müqayisədə bitkiçilik məhsullarının həcmi 2,4 dəfə artaraq 229 milyon 646 min manata, heyvandarlıq məhsullarının həcmi isə 2,1 dəfə artaraq 125 milyon 511 min manata çatmışdır (7). Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı davamlı olaraq yaxşılaşdırılır.

Yaşadığımız blokada şəraiti muxtar respublikanın iqtisadi təhlükəsizliyinin təmin edilməsi baxımından aşağıdakı məsələlərin həlli ön plana keçirmişdir:

- daxili bazarda yerli məhsulların daha çox hakim mövqe tutması;
- yerli istehsalçıların tədricən dövlət tərəfindən proteksionist təmayülə malik məqsədli proqramlar vasitəsilə müdafiə edilməsi;
- iqtisadiyyatda struktur siyasətinin sürətləndirilməsi və səmərəliliyinin yüksəldilməsi;
- xarici bazara məhsul ixracının funksional strukturunun təkmilləşdirilməsi.

İqtisadiyyatda xarici rəqabətin əlverişsiz təsirlərinin neytrallaşdırılması, idxalın və ixracın funksional strukturunun muxtar respublikanın strateji maraqlarına cavab verməsi, muxtar respublika iqtisadiyyatının xarici bazar konyukturundan asılılığının qarşısının alınması istiqamətində aparılmış məqsədyönlü işlər xarici iqtisadi fəaliyyətdə muxtar respublikanın iqtisadi təhlükəsizliyinin yüksəldilməsinə mühüm töhfələr vermişdir.

Muxtar respublika iqtisadiyyatının xarici təhdidlərdən müdafiəsi üçün təcrübədə başlıca olaraq idxaldan asılılıq dərəcəsini azaltmağa imkan verən yerli məhsul istehsalının sahmana salınması və genişləndirilməsi müsbət nəticələrini vermişdir. Lakin, açıq iqtisadiyyat kursu idxalın əvəz olunma probleminə üstünlük verməklə iqtisadi təhlükəsizliyin xarici təhdidlərdən qorunması yoluna alternativlərin tapılmasını da tələb edir. Odur ki, mövcud potensial təhdidləri yenidən qiymətləndirmək və onların aradan qaldırılması üçün tədbirlər işləyib hazırlamaq tələb olunur. Fikrimizcə, bu istiqamətdə muxtar respublikanın maraqları ən ümumi şəkildə onda ifadə oluna bilər ki, birincisi, xarici iqtisadi əlaqələr iqtisadiyyata sabitləşdirici təsir göstərsin, onun struktur dəyişikliklərinin əsas amili kimi çıxış etsin və ikincisi, yerli firmaların xarici bazarlarda mövqeyinin möhkəmlənməsinə və genişlənməsinə, onun dünya təsərrüfatı əlaqələrində rolunun artmasına kömək etsin.

İqtisadi təhlükəsizliyin səviyyəsi miqdar qiymətləndirilməsində üzə çıxır. O, xarici iqtisadi əlaqələrin əmtəə strukturunu və coğrafiyasını, ticarət və tədiyyə balanslarının vəziyyətini, daxili bazarda xarici rəqabət miqyasını, satış və tədarük bazarlarının diversifikasiya dərəcəsini və s. əks etdirən kifayət qədər geniş göstəricilər dəsti ilə xarakterizə oluna bilər. Bu göstəricilərin yaxşılaşması son nəticədə təkrar istehsalın həyata keçirilməsi, iqtisadi artımın təmin edilməsi imkanlarının genişlənməsindən xəbər verir. Bununla əlaqədar olaraq iqtisadi təhlükəsizlik səviyyəsinin daimi monitorinqinin həyata keçirilməsi vacib hesab edilir.

Muxtar respublikanın xarici iqtisadi əlaqələri inkişaf etdikcə bu sferada iqtisadi təhlükəsizlik tədbirlərinin genişləndirilməsinə də ehtiyac vardır. Təsadüfi deyil ki, 2014-2018-ci illərdə muxtar respublikada xarici ticarət fəaliyyətinin prioritetlərinə uyğun olaraq aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- muxtar respublikanın ixrac potensialının gücləndirilməsi, ixracın stimullaşdırılması istiqamətində həyata keçirilən əməli tədbirlərim davam etdirilməsi;
- muxtar respublikada daxili bazarın qorunmasını təmin edən və iqtisadi inkişafa əlverişli şərait yaradan idxal tənzimlənməsinin həyata keçirilməsi;
- ixracatda elektron ticarət xidmətlərindən geniş istifadə imkanlarının araşdırılması və inkişaf etdirilməsi istiqamətində müvafiq işlərin görülməsi;
- xarici ticarətin inkişafi üçün infrastruktur təminatının daha da yaxşılaşdırılması və təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi;
- istehsal olunan malların xaricdə tanınması üçün beynəlxalq sərgi və yarmarkalarda iştirakın stimullaşdırılması;
- xarici ticarət sahəsində uyğun beynəlxalq təcrübədən maksimum dərəcədə istifadə edilməsi (5, s.17-18).

Muxtar respublikada son illər iri miqyaslı investisiya layihələrinin reallaşdırılması ilə bağlı olaraq idxalın strukturunda istehsal təyinatlı malların artımı müşahidə olunur. Son illərdə muxtar respublikanın sosial-iqtisadi inkişafi ilə bağlı qəbul edilmiş müxtəlif dövlət proqamlarında nəzərdə tutulmuş aşağıdakı tədbirlərin həyata keçirilməsi gələcəkdə xarici iqtisadi fəaliyyət sahəsində təhlükəsizliyin astana kəmiyyətindən yüksək səviyyəsinin əldə edilməsini təmin edəcəkdir:

- investisiyanın idarə olunması prosesinin yaxşılaşdırılması;
- iqtisadiyyatın bütün sahələrinə investisiya qoyuluşlarının genişləndirilməsi;
- müasir istehsal avadanlıqlarının idxalının təşviqi istiqamətində müəssisələrin investisiya fəaliyyətinin dəstəklənməsi;
- investisiya resurslarının yerləşdirilməsi üçün rəqabətli müsabiqə mexanizmlərindən geniş istifadə edilməsi, Naxçıvan Muxtar Respublikasının inkişaf proqramlarının hazırlanıb həyata keçirilməsində yerli və xarici investorlar üçün stimulların müəyyənləşdirilməsi;
- yaradılacaq sənaye parklarına yerli və xarici investisiyaların cəlb edilməsi;
- ixracyönümlü istehsal sahələrinin inkişafına yönəldilən investisiyaların artırılması.

Muxtar respublikanın sosial-iqtisadi inkişafını iqtisadi təhlükəsizlik baxımından xarakterizə edən analitik indikatorlar demək olar ki, bütün sahələr üzrə ilbəil yaxşılaşmaqda davam edir. İqtisadi təhlükəsizliyin yüksəldilməsinin səmərəli mexanizmlərinin tətbiqi istiqamətində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər bu sahədə daha optimal situasiyanın yaranmasına əlverişli şərait yaradır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının "Milli Təhlükəsizlik haqqında" Qanunu. Azərbaycan Respublikasının Qanunvericilik toplusu. N 8, 31 avqust, 2004.
2. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası (Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli Sərəncamı ilə təsdiq edilmişdir). http://migration.gov.az/images/pdf/026fa4b410a33801f3dd49643726cf2a.pdf
3. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası. http://www.president.az/files/future_az.pdf
4. "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə

etibarlı təminatına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı.
5. Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Naxçıvan: Əcəmi, 2014, 64 s.
6. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, Letterpress, 2011, s. 10, 440 s.
7. 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı. http://statistika.nmr.az/x_news/news/2014il.pdf

## ABSTRACT

**Muslum Jabbarzade**

**Economic security issues in socio-economic development programs of the Nakhchivan Autonomous Republic**

In the paper analyzed the government programs taking due on socio-economic development of the Nakhchivan Autonomous Republic. Investigations were conducted on the impact of economic reforms to ensure economic security. Were identified and assessed factors affecting to improve the economic security of the region.

## РЕЗЮМЕ

**Муслум Джаббарзаде**

**Вопросы экономической безопасности в программах *социально-экономического* развития Нахчыванской Автономной Республики**

В статье проанализированы государственные программы принимающие в связи *социально-экономического* развития Нахчыванской Автономной Республики. Проведены исследования по влиянии проводимых экономических реформ к обеспечению экономической безопасности. Выявлены и оценены факторы, влияющие на к повышению экономической безопасности региона.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* A.Rüstəmov

НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**

**MEHDİ BAĞIROV**

*Naxçıvan Dövlət Universiteti*

*e-mail: Dr.Mehdi_Bagirov@mail.ru*

**UOT: 316.33**

# AQRAR SFERADA ƏMƏK VƏRDİŞLƏRİNİN FORMALAŞMASINDA TƏLİM-TƏDRİS İSTİQAMƏTLƏRİNİN ROLU

**Açar sözlər:** *aqrar sfera, əmək vərdişləri, təlim istiqamətləri, əməyin təşkili*
**Key words:** *agrarian sphere, work's habits , instructional directions, work forming*
**Ключевые слова:** *аграрная сфера, трудовые навыки, учебные направления, организация труда*

Aqrar sahə istənilən sivil ölkədə insanların ərzaqa, emal sənayesinin isə xammala olan tələbatının ödənilməsində mühüm rol oynayır. Bəhs olunan fəaliyyətin həyata keçirilməsi özü ilə mürəkkəb mexanizmi təcəssüm etdirməklə yanaşı çoxsaylı amillərin təsiri altında formalaşır. Müvafiq faktor təsnifləşdirməsində öncül yerlərdən birini də həmin sahədə fəaliyyət göstərəcək işçi potensialının onun fəaliyyət sirlərini məqsədyönlü şəkildə mənimsəməsi, irihəcmli itkilər hesabına, kortəbii qaydada onların tətbiqinə müraciət etməməsidir.

Problem ilk baxışda sadə görünsə də, mahiyyət etibarı ilə kifayət qəsər mürəkkəbdir, çoxsaylı qarşılıqlı əlaqə və asılılıqların özündə ehtiva etmək iqtidarındadır. Məsələnin birbaşa araşdırılmasına keçməzdən əvvəl onun bazasının, yəni əmək ehtiyatları həcmi və tərkibinin hansı səviyyədə olması haqda təsəvvür yaratmaq yerinə düşərdi (cədvəl 1).

***Cədvəl 1. Ölkə və muxtar respublika əhalisi haqda ilkin informasiya.***

**I. Ölkə əhalisinin sayı, ilin əvvəlinə**

| İllər | Cəmi, min nəfər | o cümlədən | | Ümumi kütləyə nisbətən xüsusi çəkilər, %-lə | |
|---|---|---|---|---|---|
| | | şəhər əhalisi | kənd əhalisi | şəhər əhalisi | kənd əhalisi |
| **1913** | 2339.2 | 555.9 | 1783.3 | 24 | 76 |
| **2010** | 8997.6 | 4774.9 | 4222.7 | 53 | 47 |
| **2011** | 9111.1 | 4829.5 | 4281.6 | 53 | 47 |
| **2012** | 9235.1 | 4888.7 | 4346.4 | 53 | 47 |
| **2013** | 9356.5 | 4966.2 | 4390.3 | 53 | 47 |

**II. Naxçıvan MR iqtisadi və inzibati vahidlərin ərazisi, əhalisinin sayı və sıxlığı**

| İqtisadi və inzibati vahidlərin adları | Ərazi, min kv.km | Əhalinin sayı, min nəfər | | | 01.01.2013-cü il tarixə əhalinin sıxlığı (1 kv. km, nəfər) |
|---|---|---|---|---|---|
| | | 2009-cu ildə keçirilmiş əhalinin siyahıyaalınması üzrə | 01.01.2013-cü il vəziy-yətinə | Müqayisə olunan dövrlər üzrə artım | |
| **Azərbaycan Respublikası üzrə cəmi** | **86.6** | **8922.4** | **9356.5** | **+4,9%** | **108** |
| əsas kütləyə nisbətən | 100% | 100% | 100% | - | 100% |
| **Naxçıvan iqtisadi rayonu - cəmi** | **5.562** | **398.3** | **427.2** | **7,3%** | **77** |
| əsas kütləyə nisbətən | 6,4% | 4,5% | 4,6% | +2,4% | -28,75% |
| *o cümlədən:* | | | | | |
| **a) Naxçıvan şəhəri** | **0.13** | **82.6** | **88.0** | **6,5%** | **677** |
| əsas kütləyə nisbətən | 2,3% | 20,7% | 20,6% | -0,8% | +779% |
| **b) Sədərək rayonu** | **0.15** | **14.0** | **15.0** | **7,1%** | **100** |
| əsas kütləyə nisbətən | 2,7% | 3,5% | 3,5% | -0,2% | +29,9% |
| **c) Şərur rayonu** | **0.81** | **102.3** | **109.4** | **+6,9%** | **135** |
| əsas kütləyə nisbətən | 14,6% | 25,7% | 25,6% | -0,4% | +75,3% |
| **ç) Babək rayonu** | **0.90** | **62.9** | **68.7** | **9,2%** | **76** |
| əsas kütləyə nisbətən | 16,2% | 15,8% | 16,1% | +1,9% | -1,3% |
| **d) Şahbuz rayonu** | **0.92** | **22.7** | **24.0** | **5,7%** | **26** |
| əsas kütləyə nisbətən | 16,5% | 5,7% | 5,6% | -1,6% | -66,2% |
| **e) Culfa rayonu** | **1.00** | **41.2** | **44.5** | **8,0%** | **45** |
| əsas kütləyə nisbətən | 18% | 10,3% | 10,4% | +0,7% | -41,6% |
| **f) Ordubad rayonu** | **0.97** | **45.0** | **47.7** | **6,0%** | **49** |
| əsas kütləyə nisbətən | 17,4% | 11,3% | 11,2 | -1,3% | -36,4% |
| **g) Kəngərli rayonu** | **0.68** | **27.6** | **29.9** | **8,3%** | **44** |
| əsas kütləyə nisbətən | 12,2% | 6,9% | 7,0% | +1,0% | -42,9% |

**III. Ölkə əhalisinin 2013-cü ilin əvvəlinə olan sayına görə kənd yaşayış məntəqələrinin qruplaşdırılması**

| | Kənd yaşayış məntəqələrinin sayı | onlardan əhalinin sayına görə | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | 50-ə qədər | 50-100 | 101-200 | 201-500 | 501-1000 | 1001-2000 | 2001-3000 | 3001-5000 | 5000-dən yuxarı |
| Azərbaycan Respublikası | 4255 | 157 | 178 | 386 | 993 | 975 | 885 | 304 | 181 | 83 |
| Naxçıvan MR | 207 | 4 | - | 14 | 28 | 59 | 63 | 15 | 17 | 7 |
| o cümlədən | | | | | | | | | | |
| Ölkə üzrə göstəriciyə nisbətən xüsusi çəkisi, % | 4,9 | 2,5 | - | 3,6 | 2,8 | 6,1 | 7,1 | 4,9 | 9,4 | 8,4 |
| Muxtar respublika daxilində ümumi kütləyə nisbətən xüsusi çəkisi, % | 100 | 1,9% | - | 6,8 | 13,5 | 28,5 | 30,4 | 7,3 | 8,2 | 3,4 |

**IV. Naxçıvan MR üzrə əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri**

| | Göstəricilər | İllər | | | | | 2008-ci ilə nisbətən 2012-ci ildə |
|---|---|---|---|---|---|---|---|
| | | 2008 | 2009 | 2010 | 2011 | 2012 | |
| 1. | Əhalinin orta illik sayı, min nəfər | **395.2** | **399.9** | **406.2** | **414.3** | **422.9** | **+7,0%** |
| 2. | İqtisadi fəal əhalinin sayı, min nəfər | **193.5** | **207.3** | **211.8** | **216.5** | **221.0** | **+14,2%** |
| 3. | İqtisadiyyatda məşğul olanların sayı, | | | | | | |
| | a) min nəfər | **193.3** | **207.2** | **211.7** | **216.5** | **221.0** | **+14,3%** |
| | b) ümumi kütləyə nisbətən | 48,9% | 51,8% | 52,1% | 52,3% | 52,3% | +7,0% |
| 4. | Aqrar sahədə məşğul olanlar, min nəfər | **29,7** | **30,2** | **30,12** | **30,15** | **30,2** | **+1,7%** |
| | İqtisadiyyatda məşğul olanların sayında aqrar sahədə məşğul olanların xüsusi çəkisi | 15,4% | 14,6% | 14,2% | 13,9% | 13,7% | -11,0% |
| 5. | İqtisadi fəaliyyət növləri üzrə muzdla işləyənlər- cəmi, nəfər | **75676** | **78946** | **85382** | **91099** | **92736** | **+22,5%** |
| | o cümlədən ümumi kütləyə nisbətən | 39,1% | 38,1% | 40,3% | 42,1% | 42,0% | +7,4% |
| 6. | Kənd təsərrüfatı üzrə muzdla işləyənlər | **5176** | **5203** | **5355** | **5419** | **5423** | **+4,8%** |
| | o cümlədən ümumi kütləyə nisbətən | 6,8% | 6,6% | 6,3% | 6,0% | 5,8% | -14,7% |
| 7. | Kənd təsərrüfatı üzrə muzdla işləyən qadınların sayı | **2284** | **2322** | **2447** | **2381** | **2142** | **-6,2%** |
| | o cümlədən ümumi kütləyə nisbətən | 44.1% | 44.6% | 45.7% | 43.9% | 39.5% | -10% |

## V. 2012-ci ildə ölkə və muxtar respublikanın iqtisadi və inzibati vahidlərində əhalinin sayı (min nəfər)

| İqtisadi və inzibati rayonların adları | | Cəmi | o cümlədən: | | Şəhər əhalisi | o cümlədən: | | Kənd əhalisi | o cümlədən: | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | kişi | qadın | | kişi | qadın | | kişi | qadın |
| **Azərbaycan Respublikası üzrə - cəmi** | | **9295.8** | **4616.2** | **4679.6** | **4936.9** | **2435.2** | **2501.7** | **4358.9** | **2181.0** | **2177.9** |
| **Naxçıvan iqtisadi rayonu–cəmi** | | **422.9** | **210.3** | **212.6** | **122.8** | **61.1** | **61.7** | **300.1** | **149.2** | **150.9** |
| *o cümlədən:* | | | | | | | | | | |
| a) | Sədərək rayonu | 14.8 | 7.5 | 7.3 | 2.0 | 1.0 | 1.0 | 12.8 | 6.5 | 6.3 |
| b) | Şərur rayonu | 108.4 | 53.5 | 54.9 | 7.0 | 3.4 | 3.6 | 101.4 | 50.1 | 51.3 |
| c) | Babək rayonu | 67.8 | 33.8 | 34.0 | 3.6 | 1.8 | 1.8 | 64.2 | 32.0 | 32.2 |
| ç) | Şahbuz rayonu | 23.8 | 12.0 | 11.8 | 3.9 | 1.9 | 2.0 | 19.9 | 10.1 | 9.8 |
| d) | Culfa rayonu | 44.0 | 22.0 | 22.0 | 12.6 | 6.3 | 6.3 | 31.4 | 15.7 | 15.7 |
| e) | Ordubad rayonu | 47.3 | 23.5 | 23.8 | 10.8 | 5.4 | 5.4 | 36.5 | 18.1 | 18.4 |
| f) | Kəngərli rayonu | 29.6 | 14.6 | 15.0 | 5.4 | 2.7 | 2.7 | 24.2 | 11.9 | 12.3 |

***Mənbə: cədvəl rəsmi statistika məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.***

Cədvəl məlumatlarından aydın olur ki, ölkə əhalisinin 2013-cü ilin I rübünün sonuna sayı 9356,5 min nəfər təşkil edir, onun "şəhər-kənd" bölgüsü isə müvafiq olaraq 53% və 47%-dir. Təsnifləşdirmənin nəticələrinə görə aydın olmuşdur ki, ölkə ərazisinin 6,4%-ni təşkil edən Naxçıvan Muxtar Respublikasında əhalinin göstəriciləri bir sıra istiqamət üzrə irəliləmişdir. Məsələn, 2009-cu illə müqayisədə 2012-ci ildə artım tempi 7,2% olmuşdur ki, bu da ümumrespublika üzrə analoji göstəricidən 2,3% çoxdur. Həmçinin əgər 2009-cu ildə muxtar respublika əhalisi cəmi məcmunun 4,5%-ni təşkil edirdisə, 2012-ci ildə bu göstərici artaraq 4,6%-ə çatmışdır. Naxçıvan üzrə sıxlıq göstəricisi ümumrespublika üzrə analoji göstəricidən hər $km^2$ hesabı ilə 31 nəfər (və ya 28,75%) az olsa da, illər üzrə muxtar respublikanın daxili göstəricisində bu rəqəm orta hesabla 71,6 nəfərdən 76,8 nəfərə yüksəlmişdir. Onun bütün daxili inzibati bölgülərində əhalinin mütləq sayında artımlar müşahidə olunsa da, orta artım tempi ilə müqayisədə tərəddüd ampletudası -1,3%-dən +1,9%-dək dəyişir. Araşdırılan zaman daxilində rayonlar üzrə artım tempi yüksək olan rayonlar aşağıdakı kimi sıralana bilər: Babək rayonu – 9,2%; Kəngərli rayonu – 8,3%; Culfa rayonu – 8%. Muxtar respublika üzrə orta sıxlıq göstəricisi 77 nəfər olduğu halda, bu göstəricinin ən yüksək həddi Naxçıvan şəhəri üzrə 677 nəfər, ən aşağı həddi isə Şahbuz rayonu üzrə 26 nəfərdir.

Əhalinin ümumi zonal bölgüsü ilə yanaşı onun kəndə aid olan hissəsinə də aydınlıq gətirmək lazımdır. Ölkə üzrə sayı 4255-a bərabər olan kənd məntəqələrinin tərkibində olan 207 məntəqə muxtar respublikanın payına düşür ki, bu da ümumi kütlədə 4,9% deməkdir. Orta məskunlaşma səviyyəsi kimi qəbul olunan 2000 nəfər sakin və ondan yuxarı sayda əhalisi olan məntəqələrin xüsusi çəkisi isə 18,8%-ə bərabərdir. Muxtar respublikanın kənd əhalisinin 58,9%-ı məskunlaşmanın 501-2000 intervalının payına düşür. Nəzərdən keçirilən dövrün sonuna (2012-ci ilə) Naxçıvanda mövcud əhalinin sayında kənd əhalisinin xüsusi çəkisi 71% təşkil edir ki, bunun da təqribən hər beş nəfərindən biri tam mənası ilə yaşı və səhhətinə, iş vərdişləri və biliklərinə görə əmək ehtiyatlarına aid və aqrar sahədə peşəkar çalışa bilmə imkanına malik əhalidən ibarətdir.

Əhalinin məşğulluğu və işsizliyi araşdırılarkən əmək ehtiyatlarını xarakterizə edən bir sıra kom-ponentlərə xüsusi diqqət yetirilməlidir. Əmək vərdişləri, onların aşılanması və formalaşmasında təlim-tədris istiqamətlərinin rolu və xüsusiyyətləri öz spesifik həcm və yön təsiri ilə fərqlənir.

Əgər bir kənddə yaşayan, sağlamlı tələblərə cavab verən fərdləri tammənalı (istehsala yararlı ob-yekt kimi) nəzərdən keçirmək niyyətindəyiksə, bu halda onların nə kimi əmək bilik və vərdişlərinə malik olmaları haqda informasiyaya malik olmalıyıq. Fikrimizcə belə vəziyyət müxtəlif təlim-tədris istiqamətlərinin bir "tavan" altında birləşdirilməsini diktə edir.

***Sxem 1.Aqrar sahədə təlim-tədris istiqamətləri***

**Aqrar sahədə əmək bilik və vərdişlərinin mənimsənilməsinin təlim-tədris istiqamətləri**

| | |
|---|---|
| Özü-özünə məqsədyönlü çalışmanın həyata keçirilməsi | Eyni təsərrüfatda təcrübəli üzvlərdən və ya muzdla çalışanlardan işin sirlərinin öyrənilməsi |
| Müxtəlif səviyyəli təhsil-təlim müəssisələri vasitəsilə ixtisaslı kadrların yetişdirilməsi və onların istehsalata cəlb edilməsi | Kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən başqa aparıcı subyektlərdə təcrübə və s. yollarla işlərin mənimsənilməsi yolu ilə mütəxəssislərin hazırlanması |
| Aqrar sahə üzrə ixtisaslaşan informasiya-konsaltinq və digər analoji subyektlərin təlim-tədris kursları vasitəsilə mütəxəssislərin yetişdirilməsi | Təsnifatda birbaşa ifadəsini tapmayan, lakin aqrar sahədə peşəkarların yetişdirilməsinə şərait yaradan təlim-tədris istiqamətləri |

***Mənbə: sxem məqalənin müəllifi tərəfindən hazırlanmışdır.***

Təsnifatda ifadə edilən istiqamətlər sırasında özüü-özünə məqsədyönlü çalışmaların həyata keçi-rilməsi mühüm yer turur. Belə ki, istənilən (o cümlədən kənddə yaşayan) ölkə vətəndaşı bəlli əmək bilik və vərdişlərinin əldə edilməsini könüllülük prinsipi əsasında həyata keçirmək hüququna malikdir. Müasir dövrdə kütləvi informasiya və elektron hesablama vasitələrinin kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəlməsi təlim-tədris ehtiyaclarının ödənilməsində qeyd olunan yolla gedişə də rəvac verir.

Aqrar sahədə fəaliyyətin həyata keçirilməsində təlim-tədris metodlarından istifadə etmənin istiqamətlərindən biri də eyni subyektdə fəaliyyət göstərənlərin peşə bilikləri ilə mübadiləsini nəzərdə tutur. Ölkəmizin kənd təsərrüfatında mövcud olmuş qədim istehsal ənənələrinin xeyli hissəsi uzun illərdən bəri məhs bu yolla nəsildən-nəsilə ötürülmüş, mərhələ-mərhələ yenilənmiş və təkmilləşdirilmişdir.

Növbəti istiqamət müxtəlif səviyyəli təhsil-təlim müəssisələri vasitəsilə ixtisaslı kadrların yetişdirilməsi və onların istehsalata cəlb edilməsinin təşkilindən ibarətdir. Bu siyahıda peşə-texniki məktəblərdən ali təhsil ocaqlarına qədər olan diapozona malik, aqrar sahədə bəlli bilik və vərdişləri mənimsədən müəssisələr təmsil olunur. Onların təhsilin müxtəlif səviyyələri ilə birlikdə eyni zamanda kənd təsərrüfatı üzrə fəaliyyətin sahə və yönləri haqda ixtisaslaşamaya yol açacaq bölgüsü həyata keçirilməlidir.

Kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən başqa aparıcı subyektlərdə təcrübə və s. yollarla işlərin mənimsənilməsi yolu ilə mütəxəssislərin hazırlanması mövzu üzrə araşdırılması məsləhət bilinən istiqamətlərdəndir. Onun əsas məzmunu işçi heyətinin, real əmək potensialının daim öz fəaliyyətinin keyfiyyət göstəricilərini yüksəltməsidir.

Aqrar sahə üzrə ixtisaslaşan informasiya-konsaltinq və digər analoji subyektlərin təlim-tədris kursları vasitəsilə mütəxəssislərin yetişdirilməsi bəhs olunan istiqamət üzrə mühümlüyünü qorumaqdadır. Kortəbii formada öz düşüncələri ilə bölüşənlərlə müqayisədə müvafiq ixtisaslaşmalar əsasında vahid məkanda toplanan və məqsədyönlü məsləhət və göstəriçləri ilə aqrar istehsalçıları yönəldən subyektlər eyni zamanda qısa vaxt ərzində daha yüksək nəticələrin əldə olunmasının təməlini hazırlayırlar.

Təsnifatda birbaşa ifadəsini tapmayan, lakin aqrar sahədə peşəkarların yetişdirilməsinə şərait yaradan təlim-tədris istiqamətləri də mövcuddur və təyinatı üzrə onlar heç də kiçik kütləni təşkil etmir. Onlara misal olaraq təlim-tədris işlərinin əldə olunmuş texniki vasitələri istehsal edən müəssisələr (onların aid mütəxəssisləri) tərəfindən təşkil olunmasını göstərmək mümkündür.

Sadalanan amillər və situasiyalar aqrar sahədə təlim-tədris istiqamətlərindən istifadənin aktuallı-ğını ortaya qoymuşdur. Onların elmi sürətdə işlənilmiş plan və proqramlar əsasında tətbiqi, məqsəd-yönlü, əsaslandırılmış fəaliyyətin ardıcıl həyata keçirilməsinin gözlənilməsi kənddə formalaşan istehsal prosesinə daha çox və işgüzar, hər bir aqrar "obyektin" dilindən anlayan mühitin yaradıl-masına gətirilib çıxarılacaqdır ki, bu da son nəticədə istehsal həcminin (o cümlədən intensiv yolla) artımının, əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsinin, hətta kənd təsərrüfatının ayrı-ayrı sahələrinin biri digərini tamamlamasının əsaslarındandır.

## ƏDƏBİYYAT

1. **Bağırov M.S.** Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaşmasında

rolu. (monoqrafiya). Naxçıvan. 2014, 130s.
2. **Bağırov M.S.** Aqrar sahənin inkişafi və marketinq prinsiplərindən istifadə. (monoqrafiya). Naxçıvan. 2014, 101s
3. **Bagirov M.S.** Kənd təsərrüfatında istehsal və satış münasibətlərinin formalaşması: müasir vəziyyət və xüsusiyyətlər". (monoqrafiya). Naxçıvan. 2014, 106s
4. **Bağırov M.S.** Aqrar sahədə istehsal və satış münasibətlərinin formalaşmasına təsir edən amillər və münasibətlərin tən-zimlənməsi. AMEA-nın Naxçıvan Bölməsi, Xəbərlər, ictimai və humanitar elmlər seriyası №3, Naxçıvan, "Tusi", 2013, s.286-295
5. **Bağırov M.S.** Naxçıvan Muxtar Respublikasında bitkiçiliyin və heyvandarlığın inkişafında əkinə yararlı torpaqlardan istifadənin əhəmiyyəti. Naxçıvan, NDU, Elmi əsərlər, İctimai elmlər seriyası, № 3 (32), 2013. s.194-199
6. **Bağırov M.S.** Sahibkarlıq subyektləri və istehlakçı cəmiyyətləri: əmtəə mübadiləsi və tərəflərin mənafelərinin təmin edilməsi. "Azərbaycanda yüksək texnologiyaların texniki-iqtisadi problemləri" mövzusunda respublika elmi konfran-sının materialları (10-11dekabr). Azərbaycan Texniki Universiteti, Bakı 2013, s.250-252
7. **Багиров М.С.** Субъекты аграрной сферы и маркетинговые концепции. «Мировая наука и современное общес-тво: актуальные вопросы экономики, социологии и права». Материалы международной научно-практической конференции. Saratov. 2013, с.23-28

**ABSTRACT**

**Mehti Bagirov**

**The role instructional-edicational directions in forming of work's habits in the agrarian sphere**

In this paper were glanced the ituation in the instructional-edicational direction's utilization of the neces-sity to personal staff in agrarian area, talked their classification and some directions in influence of the forming of work's habits.

**РЕЗЮМЕ**

**Мехти Багиров**

**Роль учебно-образовательных направлений в формировании трудовых навыков в аграрной сфере**

В статье обращается внимание на положение использования учебно-образовательных объектов и средств при погашении потребностей на рабочий потенциал аграрной отрасли, повествуется о влиянии каждого из них на организацию труда.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* N.Əhmədov

НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**

**ASƏF QƏRİBOV**
*Naxçıvan Dövlət Universiteti*
*Email: asafqaribov@yahoo.com*

**UOT: 339.9**

## QLOBALLAŞMA VƏ AZƏRBAYCAN İQTİSADİYYATINDA İNKİŞAFIN XARİCİ İQTİSADİ AMİLLƏRİ

**Açar sözlər:** *beynəlxalq ticarət, ixrac siyasəti, iqtisadi mexanizmlər, xarici əlaqələr, tranzit*

**Key words:** *international trade, export politics, economical mechanisms, foreign connections, transit*

**Ключевые слова:** *международный торговля, экспортная политика, экономические механизмы,кредит, внешные отнощение, транзить*

Qloballaşma məhdud iqtisadi mənada istehsal faktorlarının (kapital, əmək, təşəbbüskar, bilgi və mal) və xidmətlər ticarətinin bütün dünya miqyasında sərbəst və ardıcıl hərəkət qabiliyyəti qazanmasıdır. Geniş mənada isə qloballaşma universal siyasi, ictimai və mədəni dəyərlərin milli baryerləri aşaraq lokal norma və rutinlər halını almasıdır. Qloballaşma prosesinə qarşı çıxan və onun zərərli və hətta təhlükəli bir proses olduğunu söyləyən antiqlobalistlərin əsas arqumentlərindən biri də məhz, budur ki, bəzi nüfuzlu beynəlxalq təşkilatlar, transkorporasiyalar və iqtisadi cəhətdən inkişaf etmiş dövlətlər qloballaşma görüntüsü yaradaraq assimilyasiya siyasəti yürüdürlər. Lazım gələndə onlar rüşvət verir, qeyri - demokratik rejimləri, narkotiklərin yayılmasını, terroru dəstəkləyir, monopoliyalar yaradırlar.

Qloballaşmanın gözönündə olan faydalı cəhətlərini sadalamaq olar: ətraf mühitin qorunması sahəsində birgə layihələrin işlənməsi, keçici xəstəliklərə, təbii fəlakətlərə qarşı birgə mübarizə, terrorizmə, mütəşəkkil cinayətkarlığa, demokratiya düşmənlərinə qarşı birgə mübarizə, müharibələrin lokallaşdırılması və dayandırılması uğrunda regional və beynəlxalq təşkilatların birgə fəaliyyət göstərməsi, milli mədəniyyətlərin çulğalanması, təhsil və səhiyyə sistemlərinin açıq fəaliyyət göstərməsi, vahid informasiya məkanının getdikcə inkişaf etməsi, beynəlxalq nəqliyyat və rabitə sisteminin effektli işi, mütərəqqi texnologiyaların bir millətin monopoliyasında qalmaması və s. Tərəfdarları qloballaşmanı onu çoxplanlı, geniş, insan həyatının hər tərəfini əhatə edən, dünyanı transformasiya edən bir proses kimi qiymətləndirirlər. Bu qrup, sahib olduğu bilgi, bacarıq, qabiliyyət, yenilikçilik və yaradıcılıq kimi keyfiyyət üstünlüklərindən dolayı qloballaşmanı öz nöqteyi - nəzərlərindən idarə və təxmin edilə bilən hala gətirməkdən də yararlanırlar(1,s.238).

XX əsrin sonlarından başlayaraq totalitar dövlət iqtisadiyyatından azad bazar prinsiplərinə əsaslanan sərbəst iqtisadi sistemə keçid üçün islahatlar keçirən bri çox ölkələrdə isə bu fərqliliklərin daha çox olduğu üzə çıxıb. Məhz buna görə də, həmin dövrdən başlayaraq iqtisadiyyat elmində sosializmin yaratdığı problemlər- liberallaşma və makroiqtisadi stabillik, iqtisadiyyatın dövlət inhisarından çıxarılması və xüsusi mülkiyyətin inkişafi və ən əsas isə iqtisadi artımın problemləri və onun yaradılmasının əsas amilləri geniş müzakirə obyektinə çevrilib. İqtisadi artımın amilləri dedikdə istehsalın real həcminin artmasına, onun səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsinə imkan verən proseslər başa düşülür. Bu amillər iqtisadi artımın dinamikasını və səviyyəsini müəyyən edir, istehsalın real həcminin artmasına birbaşa təsir göstərir, onun səmərəliliyinin artırılmasında mühüm rol oynayır.

Qloballaşmanın genişlənməsi, ölkələr arasında inteqrasiya proseslərinin güclənməsi nəticəsində son illər dünya ölkələrində iqtisadi artımın əldə edilməsində ekzogen amillər ön plana çıxıb. İqtisadi artımın xarici iqtisadi amillərini aşağıdakı qruplara bölmək olar:

a) iqtisadi amillər: xammal, kapital və digər istehsal amillərinin konyuktura vəziyyəti, transmilli kompaniyaların fəaliyyəti, digər ölkələrdə iqtisadi inkişaf dinamikası və.s;

b) sosial amillər: miqrasiya, sosial bərabərsizlik, sosial problemlər;

c) təbii amillər: təbii fəlakətlər, texnogen təhlükə, qlobal problemlər və s.;

e) ümumdünya inkişaf tendensiyaları: qloballaşma, inteqrasiya, postsənaye-ləşmə və s.(2,s.126).

Digər tərəfdən XXI əsrin əvvəllərində qloballaşma geniş təkrar istehsalın bütün mərhələlərinə təsir göstərməsi dövlətlərarası iqtisadi və inteqrasiya blokları çərçivəsində qiymətlər, əmtəə və xidmətlərin rəqabət qabiliyyətliyi, təhsilin səviyyəsi və keyfiyyəti, səhiyyə, maliyyə və kredit mexanizminin tənzim olunması nəticəsində milli iqtisadiyyatdakı artım aşağıdakı bir-birindən asılı olan determinatlarla müəyyən olunur ki, burda da əsas rol xarici iqtisadi sferaya məxsusdur:

- dünya iqtisadiyyatına inteqrasiya olunan milli iqtisadiyyatların qarşılıqlı əlaqəsi;
- dünya bazarının prioritetləri;
- beynəlxalq rəqabət və milli iqtisadiyyatların rəqabət qabiliyyətliliyinin artırılması;
- istehsal amillərinin, əsasən də insan kapitalının keyfiyyəti və səmərəliliyi;

- daxili məcmu tələbin şərtləri (həcmi, xarakteri və strukturu);
- dövlətin effektiv iqtisadi siyasəti;
- transmilli şirkətlər və bankların siyasəti;

Qeyd edək ki, yuxarıda göstərilən amillər bir-başa və ya dolayı yolla xarici iqtisadi sferaya aiddir. Ancaq dünya ölkələrinin çoxillik təcrübəsi göstərir ki, xarici iqtisadi sferada iqtisadi artıma təsir edən ən əsas amil xarici ticarətdir.

Xarici ticarətin iqtisadi artımın yaradılmasında əhəmiyyəti aşağıdakı kimidir:

- istehsal və ehtiyatlarda olan daxili kəsiri aradan qaldırılır.
- daxildə istehsal edilmiş artıq mallara satış imkanları əldə edilir. Xarici ticarət olmadığı bir iqtisadiyyatda daxili tələbatın kifayət etməməsi iqtisadi ehtiyatlardan səmərəli istifadə edilə bilməz.
- geniş bir bazar əldə edilir.
- rəqabətin genişlənməsi; Xarici ticarət yerli və xarici istehsalçılar arasında rəqabət yaradır.
- daxili bazarda tələb artır.
- iqtisadi dinamizm əldə edilir. Xarici ticarət sahəsində ölkələr bir birinə yaxınlaşır və istər istehsalçılar, istərsə də istehlakçılar digər ölkələrdəki həyat səviyyəsində, istehsal edilən mallardan xəbərdar olurlar və beləliklə də, yeni keyfiyyətli mallara tələb yaranır və yeni ehtiyaclar hesabına iqtisadiyyatda dəyişiklik baş verər.

Xarici iqtisadi əlaqələr ölkə iqtisadiyyatında əsas rol oynayan ölkələrin iqtisadiyyatları təhlil edilərkən çox vaxt iqtisadi ədəbiyyatlarda «paralel xarici iqtisadiyyat» və ya «xarici sektor» termini tez-tez işlədilir. Bəzən buna «ikinci iqtisadiyyat» deyilir ki, bu da beynəlxalq istehsal proseslərini əks etdirir. Ümumiyyətlə, hər bir ölkənin iqtisadi artım əldə etməsi üçün əsasən qarşılaşdığı 3 problem mövcuddur:

1) Elm və texnoloji inkişafın olmaması;
2) Daxili yığımların kifayət etməməsi;
3) İdxalın ixracdan çox olması;

Xarici iqtisadi amillər içərisində beynəlxalq turizm də mühüm rola malikdir. Belə ki, artıq dünya iqtisadiyyatında turizm sektoru sürətlə inkişaf edən bir sektora çevrilib. Keçən əsrin sonlarından başlayaraq qloballaşmanın genişlənməsi, dünya ölkələrində liberallaşma meyllərinin güclənməsi, əmtəə, xidmət, sərmayə və iş gücünün beynəlxalq hərəkətinə manelərin aradan qaldırılması ölkələr arasında turist axınını daha da gücləndirib. İnformasiya cəmiyyətinin inkişafi ilə internetin dünyada daha çox əhali tərəfindən istifadəsi turistlərə getməmişdən öncə ölkələr haqqında daha çox məlumat əldə etməsi, tarixi və mədəni yerlər barədə informasiya toplamasına şərait yaradaraq turizmin inkişafina əsaslı təsir göstərib. Texnoloji inkişaf, nəqliyyat və infrastrukturun müasirləşməsi də son illərdə turizmin inkişafında böyük rol oynayıb (3,s.261).

Maliyyə qloballaşmasının genişlənməsi, ölkələr arasında maliyyə-valyuta əlaqələrinin güclənməsi valyuta məzənnələrinin dəyişməsinin iqtisadi artıma təsirini artırır. Bu baxımdan real valyuta məzənnəsinin artıb azalması təkcə pul emmissiyasının həcmi, qızıl-valyuta ehtiyatlarının vəziyyəti, idxal və ixrac əməliyyatlarının səmərəliliyinə deyil, həmçinin makroiqtisadi göstəricilərə - ÜDM, investisiya qoyuluşu, sənaye məhsullarının fiziki həcm indeksinə təsir göstərir.

İqtisadi artımın xarici iqtisadi amilləri içərisində əsas yerlərdən birini də işçi qüvvəsinin beynəlxalq hərəkəti tutur. Miqrantların ödədikləri pul dünyanın bir çox ölkələrin iqtisadi inkişafinda mühüm rol oynayır. Miqrantların öz ölkələrinə göndərdikləri pul köçürmələri həm daxili tələbin stimullaşdırılması, yoxsulluğun aradan qaldırılması, həm də investisiya qoyuluşun artırılması baxımından iqtisadi artıma təsir göstərir. Məsələn, Avropa və Mərkəzi Asiyanın keçid iqtisadiyyatlı ölkələrinə 2012-ci ildə miqrantlar tərəfindən 29 mlrd dollar köçürülüb ki, bu da bütün dünyanın 8 %-ni və inkişaf etməkdə olan ölkələr üzrə isə 12% təşkil edir(4,s.32). Bir çox ölkələrdə xarici investisiyalardan sonra miqrantların ödədikləri pullar ikinci əsas paya malikdir. Miqrasiya həmçinin miqrantların getdiyi ölkə üçün də əhəmiyyətlidir. Xarici ixtisaslı işçi qüvvəsindən istifadə edilməsi iqtisadi artımı stimullaşdırır və ölkə iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin artırılmasında mühüm rol oynayır.

Digər tərəfdən miqrantlar tərəfindən daxil olan pul vəsaitləri makroiqtisadi artım üçün pozitiv effekt verir. Ölkələrarası reqressiya göstərir ki, bu vəsaitlər uzunmüddətli iqtisadi artım dinamikasına az da olsa, müsbət təsir göstərir. Ən əsası isə xaricdən gələn pul vəsaiti aztəminatlı ev təsərrüfatlarında yoxsulluğun azaldılmasında xüsusi rol oynayır. Aparılmış araşdırmalara görə, kasıb ölkələrdə ev təsərrüfatlarının xərclərinin 20%-dən çoxu bu vəsaitlər hesabına ödənilir. Miqrasiya yüksək olan ölkələrdə isə xaricdə işləyən vətəndaşlardan daxilolmalar əmtəə və xidmətlər ixracının 10%-ə qədərini təşkil edir.

Beləliklə, Azərbaycanda iqtisadi göstəricilərin təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, son illər baş vermiş iqtisadi dəyişikliklər müsbətdir, ancaq buna baxmayaraq hələ də sonrakı dayanıqlı inkişafın qarşısını ala biləcək elementlər mövcüddur. Belə ki, makroiqtisadi göstəricilərin artması iqtisadi artımın kəmiyyət tərəfidir. Əsas məsələ iqtisadi artımda keyfiyyət dəyişikliklərinə nail olmaqdır. Bu baxımdan ölkədə yaradılan iqtisadi artımın əsas amillərinin araşdırılması və milli hesablar sisteminin əsas göstəriciləri arasındakı ziddiyyətlərin aşkar edilməsi zəruridir. Ən əsas məsələ iqtisadiyyatda və ixracda diversifikasiyanın həyata keçirilməsidir. Hər bir ölkə üçün ixracın strukturunun diversifikasiyası 3 əsas yolla həyata keçirilir.

Birincisi, ənənəvi ixrac assortimentindən kənara çıxmamaqla mövcud olanın optimalaşdırılması ilə.

İkincisi, mövcud olan xammal və materialların emal edilməsi ilə xammal-aralıq məhsul-hazır məhsul zəncirvari prosesi ilə.

Üçüncüsü, əvvəllər ixrac edilməyən, amma dünya bazarında tələbat olan yeni malların istehsal edilməsi və ixraca cəlb olunması yolu ilə. İqtisadi şəraitdən asılı olaraq diversifikasiya ixraca mövcud ixtisaslaşmadan böyük olmayan korrektlər edilməsi, innovasiya-ixracın çeşidlərinin modernləşdirilməsi və dünya bazarının tələbi ilə.

Qeyd edək ki, artıq Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatına kifayət qədər inteqrasiya olunub. Onun bazar iqtisadiyyatı statusu əksər ticarət partnyorları, o cümlədən, Avropa Birliyi və ABŞ tərəfindən tanınıb. Azərbaycan beynəlxalq təşkilatlar və inteqrasiya blokları daxilində fəal iştirak edir. Hazırda Azərbaycanda açıq tipli bazar iqtisadiyyatı formalaşdırıldığından xarici iqtisadi əlaqələr sahəsində qarşıya qoyulan məqsədlərə çatılması və vəzifələrin həll edilməsi üçün müvafiq tədbirlərin görülməsi zəruridir. Bu istiqamət təkcə rəqabətqabiliyyətliliyn artırılması baxımından deyil, həmçinin Azərbaycanın xarici iqtisadi əlaqələri və bütünlükdə iqtisadiyyatda stabilliyin qorunub saxlanılması baxımında əhəmiyyətlidir. İxracın diversifikasiyası üçün əsas tədbirlərdən biri xidmətlərin ixracının, xüsusi olaraq nəqliyyatın, o cümlədən isə tranzit daşımalarının artırılması vacibdir. Azərbaycanın coğrafi mövqeyi, bu sahədə hazırlanan layihələr nəqliyyat xidmətlərinin artırılması üçün çox böyük potensial imkanlar olduğunu göstərir. Bunun üçün gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi və nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi prioritet vəzifələrdən biridir. Makroiqtisadi əhəmiyyətlilik baxımından ən perspektivli sahələrdən biri nəqliyyat infrastrukturunun inkişafıdır. Bu sahənin iqtisadi inkişafda keyfiyyət baxımından rolu yanacaq-energetika komleksi ilə müqayisədə daha yüksəkdir. Çünki nəqliyyat sektoru daha çox elmtutumlu və innovasiyaya əsaslanan sahədir. Əgər uzaq perspektivdə yanacaq-energetika kompleksinin ÜDM-in yaradılmasında rolu azalacaqsa, nəqliyyatın təsiri ilbəil artacaq.

Fikrimizcə, xarici iqtisadi əlaqələrdə iştirak edən müəssisələrin sayının artması, ixrac edilən əmtəə və xidmətlərin nomenklaturasının genişlənməsi və ən əsası isə kiçik biznesin xarici fəaliyyətə qoşulmasına şərait yaradan strategiyanın formalaşdırılması və bütünlükdə ixracın stimullaşdırılması, həm də kiçik bizneslə məşğul olan müəssisələrin rəqabətqabiliyyətliliyinin artırılması baxımından tədbirlər görülməsi zəruridir. Eyni zamanda ixracın diversifikasiya edilməsində əsas məsələlərdən biri olan elmtutumlu malların ixracının genişləndirilməsi və Azərbaycan müəssisələrinin dünya iqtisadiyyatına uğurlu inteqrasiyası üçün istehsal amillərinin beynəlxalq mübadiləsi prosesində iştiraklarının aktivləşdirilməsidir.Azərbaycanda xarici iqtisadi əlaqələrin liberal-laşdırılması, istehsalın artırılması, kapital qoyuluşunun genişlənməsi və makroiqtisadi göstəricilərin dünya səviyyəsinə çatdırılması ilə yanaşı insan kapitalının inkişaf etdirilməsi yerinə yetirilməsi zəruri olan prioritet istiqamətlərdən biridir.

## ƏDƏBİYYAT


1.Kərimov C.H., Orucov A. A., İsrafilov H. A. Dünya iqtisadiyyatı. Bakı: Nurlan, 2007, 726 s.

2.Vəliyev Д.Ə. Qloballaşma şəraitində Azərbaycanın dünya maliyyə bazarına inteqrasiyası :təmayüllər, problemlər, perspektivlər. Bakı: Azərbaycan Universitetinin nəşriyyatı, 2006, 239 s.

3. Azərbaycan rəqəmlərdə 2012 . Bakı: Səda , 2013.34 s.

4.Vavilov E.V. , Borodlina L.P. , Международная торговля. Moskva. Kosmos, 2013. 298 s.

5.Azərbaycan Respublikasının Statistik göstəriciləri 2012, Bakı: Nurlar, 2013. 49 s.

6. www.referat.ru



## ABSTRACT

**Asaf Qaribov**

**Globalization and economic development external economic factors of Azerbaijan**

Development is investigated of the international commercial relations of Azerbaijan historical and stages, basic principles of forming of the export politics in the article. Rules accepted in the international level with special, existing mechanisms and equitable partner have been shown stages of the being. Existing situation of the connections and perspectives of development have been analysed with Azerbaijan between world countries.



## РЕЗЮМЕ

**Асаф Гарибов**

**Глобализация и внешнеэкономические факторы развития экономики Азербайджана**

В статье расматривается история развитии международные торговые отношении и основные принципы, этапы формировании экспортный политики Азербайджана. Экономика Азербайджана является частью мировой экономики и не может успешно развиваться в отрыве от него. Главной задачей внешнеэкономических связей Азербайджана является создание благоприятных внешных экономических условий для расширенного воспроизводства внутри страны, чтобы обеспечить высокую конкурентоспособность внешнем рынке и повысить экономическую эффективность экспорта.



NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* N.Əhmədov



НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**



**MEHRİBAN İMANOVA**
*Naxçıvan Dövlət Universiteti*
*e-mail: marketinq05@mail.ru*



**UOT: 332.1**


# REGİONAL SİYASƏT VƏ SƏNAYENİN İNKİŞAF İSTİQAMƏTLƏRİ


**Açar sözlər:** *dövlət siyasəti, tarazlı inkişaf, özəl sektor, sənayeləşmə, sənaye parkları*

**Key words:** *public policy, balanced development, private sector, industrialization, industrial parks*

**Ключевые слова:** *государственная политика, сбалансированного развития, частный сектор, индустриализация, промышленные парки*

XX əsrin sonu Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi həyatının bütün sahələrində xüsusi əhəmiyyət kəsb edən köklü dəyişiklik baş verdi və Azərbaycan öz dövlət müstəqilliyini əldə etdi. Müstəqil Azərbaycanın qarşısında duran ilk vəzifə bütün cəhətlərdən ölkənin maraqlarına cavab verən iqtisadi inkişaf istiqamətlərini müəyyənləşdirməkdən ibarət idi. Bunun üçün birinci növbədə ölkənin malik olduğu imkanlardan və təbii sərvətlərdən səmərəli istifadə etməklə iqtisadiyyatın sahə strukturunun təkmilləşdirilməsi, istehsal olunan məhsulların rəqabətə davamlı son məhsul kimi dünya bazarına çıxarılması, idxalı əvəz edən məhsul istehsalının artırılması, regionlar arasında yaranmış fərqlərin aradan qaldırılması məqsədilə regional inkişafın tarazlaşdırılması dövlət siyasətinin əsasını təşkil edirdi.

Tarazlı inkişaf dedikdə, iqtisadiyyatın sahədaxili və sahələrarası nisbətlərinin qorunması, iqtisadi inkişaf məqsədlərinin təmin olunmasına əlverişli şəraitin yaradılması, əmtəə, kapital və əmək bazarında tələb və təklifin bərabərliyi nəzərdə tutulur. Tarazlı inkişafın əsasını iqtisadi potensialdan effektiv istifadə olunması ilə xarici iqtisadi əlaqələrin müsbət saldosunun və məşğulluq səviyyəsinin təmin olunması, ekoloji tarazlığın qorunması təşkil edir. Bütün bu məsələlərin həlli tarazlı inkişafın vasitələri olan xarici iqtisadi siyasət, pul-kredit siyasəti, ekoloji, struktur və regional siyasətin həyata keçirilməsi nəticəsində mümkün olur (1, s.123).

Müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafının təmin olunmasınada dövlət siyasəti mühüm rol oynadı və qarşıya qoyulan məqsədlərin yerinə yetirilməsi üçün həyata keçirilən dövlət siyasəti inkişafı düzgün istiqamətə yönəltməklə dinamik artıma nail olundu. Dövlətin sosial – iqtisadi siyasətinin mühüm istiqamətlərindən birini regional inkişaf siyasəti təşkil edir. Regional inkişaf siyasətinin əsas məqsədi ölkədaxili regionların inkişafında iqtisadi və sosial nisbətlərin formalaşması, bütün regionların əhalisinin bərabər imkana malik olması üçün iqtisadi fəaliyyətin ədalətli yerləşdirilməsi və hər bir regionun istehsal potensialının səmərəli istifadəsi ilə əhalinin məşğulluq və həyat səviyyəsinin yüksəldilməsindən, ümummilli rifahın əldə olunmasından ibarətdir. Regional siyasətin reallaşdırılması vasitələrindən biri məqsədli kompleks proqramların hazırlanması üsuludur. Regional proqramlar məqsədli kompleks proqramlarının bir növüdür. Bu proqramlar problemlərin həll edilməsi üçün resursların cəmləşdirilməsinin, həmçinin elmi-texniki, sosial-iqtisadi inkişafın regional strategiyasının idarəedilməsi və tənzimlənməsini təmin edir (3, s.105). Son illərdə regionların inkişafı sahəsində əhəmiyyətli uğurlara imza atması bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin səmərəliliyini təsdiqləyir.

Müstəqilliyinə qovuşan Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifə regionların iqtisadi sərvətlərinin dövriyyəyə cəlb edilməsilə neftdən gələn gəlir hesabına qeyri - neft sektorunun inkişaf etdirilməsi idi. Bu regonal siyasətin strateji məqsədləri respublikanın əmək ehtiyatlarından, təbii ehtiyatlardan, iqlim şəraiti, maliyyə imkanlarından, xarici investisiya və elmi-texniki potensialdan səmərəli istifadə etməklə müxtəlif təsərrüfatçılıq formalarının inkişafına və iqtisadi rayonlarda onların daha səmərəli yerləşdirilməsinə nail olmaqdan ibarət idi. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən regionların iqtisadiyyatının gücləndirilməsi məqsədilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) I Dövlət Proqramı və "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2009-2013-cü illər) II Dövlət Proqramı" mükəmməl bir konsepsiya kimi həyata keçirilərək özünü doğrultdu. Son on ildə ölkə üzrə Ümumi Daxili Məhsul 3,2 dəfə, qeyri-neft sektoru isə 2,6 dəfə artdı.

Dövlətin regional sosial-iqtisadi siyasəti Naxçıvan Muxtar Respublikası qarşısında da pespektiv vəzifələr qoydu, onun yerinə yetirilməsini təmin edəcək idarəetmə və tənzimləmə mexanizmi hazırlandı, tətbiqi stimullaşdırıldı. Bu proqramlardan irəli gələn vəzifələri icra etmək üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 09 iyun 2005-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" və 2009-cu il 28 may tarixli Fərmanı ilə "Naxçıvan

Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq olunaraq həyata keçirilməsi muxtar respublikanın sosial-iqtisadi həyatında əsaslı bir dönüş yaratdı. Proqramların icrası nəticəsində ciddi iqtisadi uğurlara nail olundu, sürətli inkişaf üçün zəngin potensial formalaşdı, muxtar respublika iqtisadiyyatında həyata keçirilən tarazlaşdırılmış iqtisadi siyasət öz bəhrəsini verdi. Proqramın icrası muxtar respublika iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasında, sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, kommunal xidmətlərin yüksəldilməsində, nəticədə əhalinin məşğulluq səviyyəsinin artması ilə onların maddi rifah halının daha da yaxşılaşdırılmasında müstəsna rol oynamışdır.

Regional sosial-iqtisadi inkişafda yüksək tempin davamlılığını təmin etmək məqsədilə operativ və səmərəli tədbirlərin həyata keçirməsi artıq dövrümüzün reallığı ilə bağlı olduğu üçün ölkə Prezidenti tərəfindən 2014-2018-ci illəri əhatə edən üçüncü dövlət proqramı imzalandı. Yeni dövlət proqramının muxtar respublikada reallaşdırılması üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq olundu (5). Bu proqram yaxın beş il ərzində bütün sahələrdə inkişafın perspektiv əsaslarını formalaşdırmaqla muxtar respublikanın yeni inkişaf mərhələsinin əsasını qoyur. Naxçıvan Muxtar Respublikasının inkişafının yeni mərhələsinin əsas hədəfi iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə və dünya təssərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, yaxin beş ildə regionda dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Onun əsas xüsusiyyəti qarşıda duran məqsədlərin daha yüksək səviyyəli, geniş istiqamətli və zamanın tələblərinə uyğun olması ilə bağlıdır. Proqramda əks olunan tədbirlərin reallaşması nəticəsində əldə olunacaq inkişaf meylləri iqtisadi sistemin yeni texnoloji bazasının formalaşmasına istiqamətlənir və daha çox elmtutumlu sahələrə yönəlir. Növbəti proqramda da aparılan siyasətin sosialyönümlü olması artıq bir ənənə halına çevrilmişdir. Yəni, nəzərdə tutulan tədbirlərin həyata keçirilməsində xərclər daha çox investisiya və sosial istiqamətdə yönəldiləcək.

İki böyük dövlər proqramının həyata keçirilməsi nəticəsində iqtisadi artımın makroiqtisadi göstəricilərindən biri olan Ümumi Daxili Məhsul ötən 10 ildə 13,9 dəfə, hər bir nəfərə düşən Ümumi Daxili Məhsul 12 dəfə yüksəlmişdi (6). Bu göstərici insanların yaxşı yaşaması üçün lazım olan əsas şərtlərdən biri olub, iqtisadi fəaliyyətin təkmilləşdirilmiş ölçüsüdür. Yüksək Ümumi Daxili Məhsula malik olan ölkə və ya region öz vətəndaşlarının qayğısına yaxşı qalır, onların hərtərəfli inkişafına diqqət yetirir, insanların maddi ehtiyaclarını ödəməklə onlarda insani keyfiyyətlərin inkişaf etdirilməsinə geniş imkanlar yaradır. Hazırda Ümumi Daxili Məhsulun tərkibində əsas yeri 87%-lik payla özəl sektor tutur. Bu da muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün əlverişli biznes mühitinin yaradılması və sahibkarlıq fəaliyyətinin stimullaşdırılması ilə istehsal və xidmət sahələrinin əhatə dairəsinin genişləndirilməsini göstərir. Yerli özəl sektorun inkişafına əsaslanan iqtisadiyyatın daha da inkişaf etdirilməsi və istehlak bazarında yerli məhsulların payının artırılmasına nail olmaq olduqca əhəmiyyətlidir. Hər bir regionda uzunmüddətli və dayanıqlı iqtisadi yüksəlişin əsasını müəyyənləşdirən faktor kiçik və orta sahibkarlığın inkişafı səviyyəsidir və sivilizasiyalı bazar iqtisadiyyatının formalaşmasının ən başlıca meyarlarından biri, elə sahibkarlıq fəaliyyətidir. Muxtar respublikanın inkişafı ilk növbədə sahibkarlığın inkişafından asılı olduğu üçün qarşıdakı beşillikdə də bu fəaliyyətin dəstəklənməsi zəminində onların maliyyə təminatının artırılması və güzəştli kreditlərin verilməsinin davam etdirilməsi diqqət mərkəzində saxlanılacaq. Eyni zamanda biznes infrastrukturunun müasir tələblər səviyyəsində formalaşdırılması, bazarda azad rəqabət prinsiplərinin qorunub saxlanması, sahibkarlıq fəaliyyətinin informasiya təminatı sisteminin müasir tələblər səviyyəsində qurulması, ixracyönümlü məhsulların xarici bazarlarda mövqeyinin gücləndirilməsi kimi tədbirlərin icra olunması proqramda öz əksini tapmışdır.

ÜDM-in strukturunda ilk yerə sənaye sahəsinin 29 %-lik payla sahib olması son 10 ildə muxtar respublikanın əldə etdiyi ən böyük nailiyyətdir. Muxtar respublika artıq sənaye regionu kimi tanınır və təhlil edilən dövr ərzində sənaye məhsulları istehsalı 49 dəfə yüksəlmişdir. Sənayeləşmənin bu cür yüksək proseslə davam etməsinə muxtar respublikanın malik olduğu zəngin

təbii ehtiyatlar geniş baza yaratdığından yeni sənaye sahələrinin yaradılması ilə keyfiyyətli məhsul istehsal etmək, müasir texnologiyalardan istifadə və məhsul çeşidlərini yeniləməklə onun rəqabətqabiliyyətini artırmaq, nəinki daxili bazara, həm də xarici bazara inteqrasiyanı təşkil etmək dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

Ölkə iqtisadiyyatında getdikcə daha çox diqqət cəlb etməyə başlayan məsələlərdən biri sənaye sferasında atılan addımlar və burada regionların potensialından daha geniş şəkildə istifadə olunması məsələsi olduğundan Azərbaycanda sənaye parklarının yaradılması getdikcə geniş vüsət alır. Belə parkların yaradılması xaricdən müvafiq məhsul idxalının azalmasında mühüm rol oynamaq iqtidarındadır. Xarici ölkələrin təcrübəsi göstərir ki, sənaye parkları sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq imkanına sahibdir. Buna görə də müxtəlif sənaye sahələrini inkişaf etdirmək istəyən, ölkə iqtisadiyyatının tarazlı inkişafında maraqlı olan dövlətlər iqtisadi siyasətlərində sənaye parklarının yaradılmasına xüsusi önəm verir. Türkiyə, Almaniya, Polşa, Latviya, Rusiya, Çin və Cənubi Koreya təcrübələri göstərir ki, sənaye parklarının yaradılması ölkə iqtisadiyyatının ixrac, rəqabət qabiliyyətinin, idxalı əvəz edən məhsulların istehsalının artırılması, ətraf rayonlarda məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir. Aparılan iqtisadi siyasətin davam etdirilməsi və sənayenin modernləşməsi istiqamətində islahatların həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 6 iyun tarixli Fərmanı ilə "Sənaye parkları haqqında Əsasnamə" təsdiq olunmuşdur. Təsdiq edilmiş Əsasnamə sənaye parkının yaradılması üçün qanunvericilik bazası olaraq, onun idarə edilməsi və bu ərazidə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyərək muxtar respublikada sənayeləşmənin yeni mərhələsinin başlanğıcını qoyur. Növbəti proqram təkcə, yeni sənaye müəssisələrinin yaradılması deyil, həm də onların beynəlxalq standartlar və müasir texnologiyalar əsasında qurulmasını tələb edir. Dağ-mədən sənaye müəsisələrinin fəaliyyətinin bərpası, texnoparkların, sənaye komplekslərinin, sənaye şəhərciklərinin və tibb sənayesinin yaradılması kimi əhəmiyyətli tədbirlərin həyata keçirilməsi də proqramda öz əksini tapmışdır.

Bütün cəmiyyətlərdə sənaye üçün xammal bazası kənd təsərrüfatı məhsulları hesab olunur. Muxtar respublikada sənayenin aparıcı sahələri yeyinti və yüngül sənayesi olduğundan kənd təsərrüfatı muxtar respublika sənayesinin inkişafı baxımından əhəmiyyətli bir sahə sayılır.Dövlət Proqramlarının icrası dövrü ərzində kənd təsərrüfatında məhsul istehsalının stimullaşdırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi istiqamətində görülən işlər də regionların iqtisadi mənzərəsinin dəyişməsində əhəmiyyətli rol oynamış, muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalı son 10 ildə 4,7 dəfə artımla müşahidə olunmuşdu. Əldə olunan nəticədə "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" müstəsna rol oynamışdır. Yeni emal müəssisələrinin yaradılması, məhsul istehsalçılarına dövlət maliyyə yardımının göstərilməsi, güzəstli sərtlərlə gübrə satışının təskili, məhsulun satısı üçün yarmarkaların keçirilməsi kənd təsərrüfatı sahəsində məhsul istehsalının həcminin ilbəil artmasına səbəb olmuş, əhalisinin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və daha da yaxşılaşdırılması, təbii fəlakətlər zamanı ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə dövlət ehtiyatlarının yaradılmışdır.Yeni proqramda kənd təsərrüfatı sahəsində sığorta sisteminin inkişaf etdirilməsi istehsalın fasiləsizliyini təmin etmək və maddi itkilərin əvəzinin ödənilməsi ilə istehlakçılar üçün stumul yaradacaq. Üzümçülük plantasiyalarının salınması, baramaçılığın bərpa edilməsi, balıqçılığın inkişaf etdirilməsi emal sənayesinin xammal ehtiyatını təmin etməklə məhsul istehsalının artırılmasına və ixrac istiqamətində yönəldilməsinə təkan verəcək (4).

Beləliklə, yeni proqram islahatların modernləşməsi istiqamətlərini özündə əks etdirməklə onun əhəmiyyətini daha da artırır. Əmin ola bilərik ki, bu proqram da növbəti beşillik dövrdə yeni iqtisadi meyarları müəyyən etməklə, makroiqtisadi dinamikanı möhkəmlədəcək və qarşıdakı mərhələdə sənayenin inkişafının sürətlənməsini təmin edəcək. Artıq təcrübə göstərir ki, muxtar respublikamızın gələcək inkişafına möhkəm zəmin yaradan, elmi-təcrübi cəhətdən əsaslandırılmış

bu dövlət proqramının icrası da uğurla həyata keçiriləcək və sosial-iqtisadi tərəqqi təmin ediləcəkdir.

### ƏDƏBIYYAT


1. Allahverdiyev H.B., Qafarov K. S., Əhmədov Ə.M. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: BDU, 2002, 448 s.
2. Əjdərov T. Bazar iqtisadiyyatı şəraitində Azərbaycan sənayesinin inkişaf istiqamətləri. Bakı: BDU, 2000, 258 s.
3. Nuriyev Ə.X. Regional siyasət və idarəetmə. Bakı: Elm, 2004, 348 s.
4. www.mdi.gov.az/files/uploader/iqtisadi_inkisaf.docAzərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlərt Proqramı. Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
5. http://serqqapisi.az/index.php/resmixronika/5012-nakhdzh-van-mukhtar-respublikas-n-n-2014-2018-dzi-illaerdae-sosial-izhtisadi-inkishaf-doevlaet-prozhram
6. http://statistika.nmr.az/ Naxçıvan MR DSK



### ABSTRACT

**Mehriban Imanova**

**Regional development policy and development trends of the industry in the autonomous republic**

In the scientific article the effectiveness of the state policy in the field of regional development tasks broad interpretation,as a result of the implementation of state programs have been adopted as successes achieved in the autonomous republic's economy has been analyzed, industry`s future development directionsis shown.



### REЗЮМЕ

**Мехрибан Иманова**

**Региональная политика развития и отраслевые тенденции**

Государственная политика в области региональных задач в области развития в статье и комментариев по широкому кругу эффективности была принята в результате реализации государственных программ были проанализированы в результатах, достигнутых в экономике автономной республики, будущие направления развития отрасли представлены.



NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* T.Abbasov



НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**



**NURİYYƏ İBRAHİMOVA**

*Naxçıvan DövlətUniversiteti*

*E-mail: nuriyye.ibrahimova@gmail.com*



**UOT: 332.1**


## NAXÇIVAN MUXTAR RESPUBLİKASIDA AQRAR SAHƏNİN DAYANIQLI İQTİSADİ İNKİŞAFI

Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da inkişaf dövrü müşahidə olunur. Muxtar respublikamız sürətli inkişaf yolunda olan regionların içərisində ön sırada durur.

Məqalədə muxtar respublikada 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunları, 2014-cü ildə qarşıda duran vəzifələr səmərəli investisiya siyasətinin həyata keçirilməsi və aqrar sahədə olan uğurlu nəticələr şərh edilmişdir.

**Açar sözlər:** *investisiya, ərzaq məhsulları, sahibkarlıq, nailliyyət, inkişaf*

**Key words:** *investigation, entrepreneurship, development, food, openers, achievement*

**Ключовые слова:** *инвестиция, продовольственные товары, предпринимательство, достижения, развития*

XXI əsrin dördüncü ilini yaşayırıq. Təməli ötən əsrin 90-cı illərinin ortalarında qoyulan inkişaf prosesi XXI yüzilliyin arxada qalan dövründə böyük sürətlə davam etdirilib. Bir-birindən uğurla başa çatan hər bir il özünün cahanşümul nəticləri ilə tariximizə yazılır. Artıq 2013-cü il də ən yaxın tariximizə çevrilməklə böyük naliyyətlər ili kimi xatırlanır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında söynəlinən birillik inkişaf tariximizi ortaya qoydu. İclasda ölkə başçısı cənab İlham Əliyevin həm giriş həm də yekun nitqində qazanılan uğurlar peşəkarlıqla təhlil edildi. Gələcəkdə bu uğurların daha da artırlması üçün mövcud imkanların yetərincə olduğu diqqətə çatdırıldı.

Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə olunur.

Qeyd etməliyik ki, bu gün muxtar respublikamız sürətli inkişaf yolunda olan regionların içərisində ön sırada durur.Buna nail olmaq üçün qədim diyarımizda başlıca amil olan sabitlik təmin edilib. Sabitlik, yurd yerinə bağlılıq,dünənə ehtiram, sabaha cavabdehlik hisslərinin başlıca amil olduğu bu yurd yerində istənilən nəticəyə nail olmaq mümkündür. Bunu 2013-cü il dekabr ayının 28-də keçirilmiş dördüncü çağırış Naxçıvan Muxdar Respublikası Ali Məclisinin səkkizinci sesiyasının materialları da bir daha təsdiqləyir. Sessiyada Ali Məclis Sədrinin dərin elmi təhlilə əsaslanan məruzəsinə nəzər saldıqda görürük ki, muxtar respublikamız 2013-cü ili də yüksək göstəricilərlə başa vurub. Belə göstəricilər 18 il əvvəl başlanan yeni inkişaf yolunun davamı, dahi Heydər Əliyev siyasi kursunun əməli bəhrələridir. Bu bəhrələri həyatımızın bütün sahələrində görürük və fəxr edirik ki, dünya dəyərlərinə uyğun şəkildə müasirləşən, Qərb və Şərqin sivil həyat tərzini özündə ehtiva edən, beynəlxalq simpozium və görüşlərin ev sahibinə çevrilən Naxçıvan artıq qibtə olunacaq bir diyara çevrilib. Ötən il "Heydər Əliyev ili"ndə qazanılan uğurların daha çox olması da təbiidir. Çünki muxtar respublikamızada gedilən yolu ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur.Bu yoldan kənarda heç bir qələbədən danışmaq olmaz. Ali Məclis Sədrinin sessiyadakı məruzəsində dediyi kimi: "***Heydər Əliyev ili"nin uğurları bir daha göstərdi ki, xalqı əmin amanlığa qovuşdurmağa, sabit inkişafı təmin etməyə qadir olan yeganə yol- əsası ümumilli lider Heydər Əliyev tərəfindən qoyulan quruculuq və inkişafının yeganə aparıcı qüvvəsi kimi qəbul edilir.***

***Böyük öndərimizin yubileyinə Naxcıvan Muxtar Respublikası da öz töhfəsini vermiş, 2013- cü ildə bütün sahələrdə inkişaf təmin olunmuş, makroiqtisadi göstəricilər daha da artmışdır.***

Belə ki, 2 milyard 337 milyon manatdan çox Ümumi Daxili Məhsul istehsal olunmuşdur ki, bu da bir il əvvəlki müvafiq göstərici ilə müqayisədə 10 faiz çoxdur. Onun hər bir nəfərə düşən həcmi də 2012-ci illə müqayisədə 9 faiz artaraq 5 min 420 manata çatmışdır. Ümumi Daxili Məhsulda maddi istehsal sektorunun 65 faizlik paya malik olması iqtisadi inkişafda da yanıqlığın təmin edilməsinin konkret göstəricisidir.

Sosial iqtisadi inkişaf üzrə əldə olunmuş naliyyətlərin daha da artırılması səmərəli investisiya siyasəti aparılması nəticəsində mümkün olub. Belə ki, 2012-cü ildə bütün maliyyə

mənbələri hesabına əsas kapitala investisya qoyuluşlarının həcmi 1 milyard 38 milyon təşkil edir.Yeni istehsal sahələrinin yaradılması muxdar respublikada sahibkarlıq mühitinin daha da gücləndirilməsinə imkan verib. Bunun üçün kreditləşmə porsesləri geniş vüsət alıb. Sessiyada bu məsələlərə də toxunan Ali Məclisin Sədri deyib: “***2013-cü ilin ötən dövrü ərzində muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən həyata keçirilən 42 milyon 800 min manata yaxın kreditləşmənin 17 milyon 305 min manatı yaxud, 40 faizi sahibkarlıq fəliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərə verilmişdir. Sahibkarlıq subyektlərinə göstərilən maliyyə dəstəyinin 5 milyon 960 min manatı fərdi sahibkarlığın inkişafına , 11 milyon 345 min manatı isə özəl bölmədə yeni istehsal sahələrinin yaradılmasına yönəldilmişdir”.***

Sahibkarlığın inkişafi üçün yaradılmış əlverişli şərait fəaliyyətinin bu növünə olan marağın ildən-ilə artması ilə nəticələnib. 2013-cü ildə sahibkarlıq fəaliyyəti ilə bağlı 24 hüquqi və 1162 fiziki şəxs müraciət edib, onların hamısı qeydə alınıb.Bu bir daha göstərir ki, sahibkarlıq subyektlərinin sayı ilbəil davamlı olaraq artır.Sahibkarların sayının artması , öz növbəsində, muxtar respublikada istehsal olunan məhsulların və göstərilən xidmətlərin çeşidinin də artmasına, muxtəlif məhsullara olan tələbatın yerli istehsal hesabına ödənilməsinə, idxaldan asılılığın aradan qaldırılmasına müsbət təsir göstərir. Artıq bu gün muxtar respublikada 115 növdə, 459 çeşiddə ərzaq , 231 növdə , 529 çeşiddə qeyri ərzaq məhsullarının istehsalı üçün bütün imkanlar vardır. 2013-cü ildə 106-ı ərzaq və 226-ı qeyri ərzaq olmaqla , 332 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Qeyd edək ki, yeni istehsal sahələrinin yaradılması daxili tələbat məhsulları istehsalı ilə yanaşı, məşğulluq problemləri həllinə də əhəmiyyətli təsir göstərib.2013 cü ildə 2127 yeni iş yeri açılıb. Onun 92 faizi və ya 1960-ı daimi iş yerləridir.

Sosial iqtisadi sahədə əldə olunan nailiyyətlər əhali rifahının davamlı yüksəlişinə səbəb olub. Belə ki, 2013-cü ildə bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği artaraq 377 manata çatıb. Bəhs olunan dövrdə əhalinin gəlirləri 2012-ci ildə müqayisədə 7 faiz artaraq 1 milyard 737 milyon manatdan çox olub.

Gəlirlərin həcmində müşahidə olunan irəliləyiş əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsində, istehlak bazarında əmtəə dövriyyəsinin və pul xidmətlərinin artımında özünü daha qabarıq şəkildə göstərir. 2013-cü ildə muxtar respublikanın istehlak bazarında əhaliyə 1 milyard 289 milyon mantdan çox istehlak malları satılıb və pullu xidmətlər göstərilib.

Muxtar respublikada həyata keçirilən sosial və iqtisadi islahatların uğurlu nəticələri Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinin qeyd olunduğu və “Muxtariyyət ili” elan edilmiş 2014-cü ilin ilk yarımili ərzində də qorunub saxlanılmışdır.

Bu dövr ərzində Naxçıvan Muxtar Respublikasında tarixi-mədəni irsin qorunub saxlanılmasını, müasir şəhərsalma, istirahət və turizm infrastrukturunun yeniləşdirilməsini, abadlıq-quruculuq işlərinin davam etdirilməsini, habelə “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda müəyyən olunmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 aprel tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 5 milyon manat vəsait ayrılmışdır.

İlin əvvəlindən ötən altı ay ərzində muxtar respublikada 1 milyard 14 milyon 85 min manatlıq Ümumi Daxili Məhsul istehsal olunmuşdur ki, bu da bir il öncəki müvafiq göstəricini 2,4 faiz üstələmişdir. 2014-cü ilin yanvar-iyun aylarında hər bir nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi ötən ilin müvafiq dövrünə nisbətən 2,3 faiz artaraq 2323,8 manat (2962,9 ABŞ dolları) səviyyəsində olmuşdur. Ümumi Daxili Məhsulun tərkibində ilk yeri 31,5 faizlik payla sənaye sahəsi, ikinci yeri isə 22,8 faizlik payla tikinti sahəsi tutmuşdur.

2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 2014-cü ilin yanvar-iyun ayları ərzində sənaye məhsulunun həcmi 1,5 faiz, əsas kapitala yönəldilən investisiyalar 1,6 faiz, kənd təsərrüfatının ümumi məhsulu 6,4 faiz, nəqliyyat sektorunda yük daşınması 2,3 faiz, informasiya və rabitə xidmətləri 2,1 faiz, o cümlədən mobil rabitə xidməti 1,2 faiz, pərakəndə əmtəə dövriyyəsi 2,4 faiz, əhaliyə göstərilən pullu xidmətlər 4,1 faiz, ixracın həcmi 10,1 faiz, əhalinin gəlirləri 3,4 faiz, hər bir nəfərə düşən gəlirlər 1,8 faiz, orta aylıq əməkhaqqı isə 2,1 faiz artmışdır.

Muxtar respublikada sənayenin müxtəlif sahələrinin inkişafina yönəlmiş kompleks tədbirlər nəticəsində istehsalın dayanıqlığı təmin edilmiş və dinamik məhsul istehsalına nail olunmuşdur. Cari ilin ilk yarımilində muxtar respublikada 471 milyon 580 min manat həcmində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da ötən ilin müvafiq dövründəki göstəricini 1,5 faiz üstələyir. Sənaye məhsulu istehsalının 95,8 faizi malların, 4,2 faizi isə xidmətlərin payına düşmüşdür. Dövlət sektorunda 32669 min manatlıq, qeyri-dövlət sektorunda isə 438911 min manatlıq sənaye məhsulu istehsal edilmişdir. İstehsal olunan məhsulun 93,1 faizi özəl sektorun payına düşmüşdür.

2014-cü ilin məhsulu üçün 35749,7 hektar sahədə taxıl əkilmişdir ki, bunun da 29697,7 hektarı payızlıq, 6052 hektarı isə yazlıq taxıldır. Bir il öncəyə nisbətdə taxıl əkini sahələrinin həcmi 425,7 hektar artmışdır. Taxıl zəmilərinin 26274,1 hektarında buğda, 9475,6 hektarında isə arpa əkilmişdir. Hazırda taxıl biçini davam edir.

Tələbata uyğun olaraq kartofçuluğun inkişafında da müsbət dinamika saxlanılmış və 2014-cü ildə 2962 hektar sahədə kartof əkini aparılmışdır ki, bu da 2013-cü ildə əkilmiş sahədən çoxdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçirilən tədbirlər meyvə və tərəvəz istehsalının artımına müsbət təsir göstərmişdir. 2014-cü ilin yanvar-iyun aylarında meyvə istehsalının həcmi bir il öncəyə nisbətən 0,2 faiz, tərəvəz istehsalı isə 1,4 faiz artmışdır. Hazırda meyvə və tərəvəz yığımı davam edir.

Kənd təsərrüfatının əsas sahələrindən biri olan heyvandarlığın inkişafının davamlı olaraq dəstəklənməsi iribuynuzlu mal-qaranın və xırdabuynuzlu heyvanların baş sayının, ət və süd məhsulları istehsalının həcminin artmasına öz təsirini göstərməkdədir. 2014-cü ilin ilk yarımili ərzində bu sahənin inkişafı istiqamətində 3 heyvandarlıq təsərrüfatı yaradılmış, hazırda 1 heyvandarlıq təsərrüfatının yaradılması və 1 heyvandarlıq təsərrüfatının genişləndirilməsi üzrə işlər davam etdirilir.
Heyvandarlıq sahəsində yüksək məhsuldarlıq göstəricilərinə nail olunması əsas məqsəd kimi qəbul olunub. Bunun səmərəli təşkilində isə süni mayalandırma mühüm rola malikdir. 2014-cü ilin yanvar-iyun aylarında heyvandarlıq təsərrüfatlarında 3881 baş inək və düyə süni yolla mayalandırılmışdır. Əvvəlki ildə mayalandırılmış inək və düyələrdən 2758 baş sağlam buzov alınmışdır. Bununla yanaşı, yüksək məhsuldarlıq göstəricilərinə malik olan mal-qaranın xüsusi çəkisi də davamlı olaraq artırılmaqdadır.

1 iyul 2014-cü il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 113 min 871 baş, qoyun və keçilərin sayı isə 701 min 872 baş olmuşdur ki, bu da 1 iyul 2013-cü il tarixə olan göstəriciləri müvafiq olaraq 2,6 və 2,8 faiz üstələmişdir. 2014-cü ilin yanvar-iyun aylarında muxtar respublikada diri çəkidə 10500,8 ton ət, 45754,5 ton süd istehsal olunmuşdur ki, bu da 2013-cü ilin yanvar-iyun ayları ilə müqayisədə müvafiq olaraq 2,3 və 0,5 faiz çoxdur.
Daxili bazarda ət və yumurtaya olan tələbatın tam şəkildə yerli istehsal hesabına ödənilməsi istiqamətində tədbirlər davam etdirilir. İlin əvvəlindən ötən dövr ərzində 3 quşçuluq təsərrüfatı yaradılmışdır. Hazırda 2 quşçuluq təsərrüfatının yaradılması və 1 quşçuluq təsərrüfatının genişləndirilməsi istiqamətində iş aparılır.

Kənd təsərrüfatının mühüm sahələrindən olan arıçılığın və balıqçılığın inkişafi məqsədilə tədbirlər görülmüş, cari ilin ilk yarımili ərzində 1 arıçılıq təsərrüfatının yaradılması və 1 balıqçılıq təsərrüfatının fəaliyyətinin genişləndirilməsi ilə bağlı işlər aparılmışdır.
Ümumilikdə, cari ilin ilk yarımili ərzində kənd təsərrüfatı subyektlərinə 8 milyon 404 min manatdan çox həcmdə kreditin verilməsi təmin olunmuşdur ki, bu da bir il öncəki müvafiq göstəricidən 24 faiz çoxdur.

2014-cü ilin yanvar-iyun aylarında 100 milyon 254 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2013-cü ilin müvafiq dövründəki göstəricini 6,4 faiz üstələyir.

## ƏDƏBİYYAT

1. Abbasov T.A. Naxçıvan MR-də aqrar bazarın formalaşması və inkişafının xüsusiyyətləri. Bakı: 2005, ADPU-nun mətbəəsi, 301 s.
2. http://www.azstat.org/region/az/001.shtml<http://www.azstat.org/region/az/001.shtml> Azərbaycan Respublikası Statistika Komitəsinin saytı. Naxçıvan iqtisadi rayonu.
3. "Naxçıvan Muxtar Respublikası -90". Elmi-publistik jurnal, 2014

4. “Daha bir uğurlu il”. Şərq qapısı qəzeti, 2014-cü il 15 yanvar
5. “Naxçıvan – soragi min illiklərdən gələn qədim Azərbaycan diyarıdır”. Nax.MR – 90”. Xalq qəzeti, 2014-cü il 10 iyun
6. “Naxçıvanın tarixi inkişafı çox mühüm və şərəfli dövrünü yaşamaqdadır”. Arazın səsi qəzeti, 2014-ci il 10 yanvar
7. “İnkişafın Naxçıvan modeli”. Şərq qapısı, 2012-ci il 13 iyul
8. www.economy.gov.az
9. http://www.azstat.org/region/az/001.shtml<http://www.azstat.org/region/az/001.shtml> Azərbaycan Respublikası Statistika Komitəsinin sayti.
10. Naxçıvan MR. Statistika komitəsinin materialları. 2013
11. N.H.İbrahimova. Regionda aqrar sahənin istehsal iqtisadi əlaqələrinin təkmilləşdirilməsi istiqamətləndirilməsi Naxçıvan, 2013, 121 s.
12. M.S.Bağırov. Kənd təsərrüfatında istehsal və satış münasibətlərinin vəziyyəti və xüsusiyyətləri. Naxçıvan, 2014, 106 s.
13. M.S.Bağırov. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaşdırılmasında rolu. Naxçıvan, 2014, 129 s.

**ABSTRACT**

**Nuriyai brahimova**

**The sustainable development of agricultural branch in Nakhchivan**

In observed the period of development in Nakhchivan as every place of Azerbaijan. Our autonomous republic in the first place among the regions in development.
The article deals with the results of social economical development in 2013, the duties in 2014, the successful results in agricultural development and the policy of invests station.

**РЕЗЮМЕ**

**Нурия Ибрагимова**

**Устойчивое развития аграрной отрасли в Нахчыванской Автономной Республике**

Как и во всех местностях Азербайджана в Нахчыване наблюдается эпоха развития. Автономная республика в результате нахождения районов на пути усовершенствования стоит на передовых позициях.

К статьте повесвуется об итогах социально-экономического развития автономной республики, об обязанностях поставленных на 2014-ый год, о претворении в жизнь еффективной инвестиционной политики и о благонолучных итогах в аграрной сфере.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* T.Abbasov

НАХЧЫВАН ДЮВЛЯТ УНИВЕРСИТЕТИ. **ЕЛМИ ЯСЯРЛЯР, 2015, № 2 (67)**

NAKHCHIVAN STATE UNIVERSITY. **СЖЫЕНТЫФЫЖ WОРКС, 2015, № 2 (67)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 2 (67)**

**KƏMALƏ TƏHMƏZBƏYOVA**

*Naxçıvan Dövlət Universiteti*

**UOT: 330.1**

# ГЛОБАЛ МЦНАСИБЯТЛЯРİN FORMALAŞMASI VƏ ИНКИШАФ ИСТИГАМЯТЛЯРИ

**Açar sözlər:** *Qloballaşma, İEÖ, İEOÖ, BMT, ÜTT, inteqrasiya, ticarət*

**Key words** : *innovation, export marketinq, progress, qlobalization*
**Ключевые слова:** *инновация, экспорт, маркетинг, экономический прогесс, глобализация*

Бейнялхалг мцнасибятляр илк юнся юзцнц садя тисарят ялагяляри формасында эюстярмиш вя кортябии шякилдя базарлар васитяси иля тянзимлянмищдир. Бу мцнасибятляр мцяййян сябяб вя мягсядляр зямининдя баш вермищдир. Инсанларын сцрятли артымы вя инкишафы йени тялябляр доьурмущ, лакин бу тяляблярин юдянилмяси мадди немятлярин чатышмазлыьы иля мцшайiят олунмущдур. Демяли юдянилмяйян тяляб артыглыьы формалашмыш вя инсанлар бу тялябляри юдямяк мягсядиля даща мцнбит торпаглар, сярвятляр ахтарышына чыхмыщдылар. Йени мяканларын, юлкялярин, мядяниййятлярин, сярвятлярин мцхтялифлийи вя ейни заманда тяляб олунан малларын диэяр юлкялярдя мювжудлуьу, тижарят ялагяляринин йаранмасына сябяб олмушду. Беляликля харижи ялагяляри доьуран илкин сябяб юдянилмяйян тялябдирся бу ялагялярин айры-айры шяхсляр тяряфиндян эениш вцсят алмасынын ясл сябяби даща чох газанмаг арзусу олмущдур. Сонралар харижи тижарят дювриййясинин ящямиййятини Давид Рикардо «Sийаси игтисад вя верэи ганунларынын принсипляри» ясяриндя даща айдын якс етдирмищдир. Д.Рикардо йазырды: "Харижи тижарят ялагяляри нисби цстцнлцк принсипини нязяря алмагла щяйата кечирился даща чох файда вя мянфяят эятиряр." Д.Рикардонун нисби цстцнлцк нязярийяси азад тижарят принсипляри ясасында щяйата кечириля билярди. Лакин дювлятлярарасы тижарят маневрляринин олмасы бу просеси лянэидирди. Бу мягсядля дя Д.Рикардо щюкумяти беля маневрлярдян ял чякмяйя чаьырды, лакин бу чаьырышлары жавабсыз галды. Аращдырмалар эюстярир ки, Инэилтяря азад тижарят сийасятини 1840-жы илдя Д.Рикардонун юлцмцндян 17 ил кечяндян сонра гябул етди. Бундан сонра Инэилтяря 70-жи илляря гядяр дцнйанын ян варлы юлкяси олду. Апардыьымыз тядгигатлара ясасян дейя билярик ки, тижарят ялагяляринин эенишлянмяси йалныз нисби цстцнлцк вя юдянилмяйян тялябляря ясасланмыр. О ейни заманда истещсалчылар вя тажирляр тяряфиндян йарадылан тялябляря дя ясасланыр. Буну даща айдын баша дцшмяк цчцн кичик мисала бахаг. Азярбайжан банансыз вя кофесиз йашайа биляр. Лакин тижарят ялагяляриня эирян тажирляр щямин мящсулларын файда вя ящямиййятини анлайараг онлары юлкяйя эятирилмиш, бу маллара йаранан мараг тялябя чеврилмищ, сонралар харижи тижарят дювриййясинин бюйцк бир щиссясини тяшкил етмищди. Аращдырмайа ясасян дейя билярик ки, бу тяляб зярурятдян дейил, йени таныш олмайан маллара марагдан доьан тялябдир вя йа тялябатдыр. Лакин бу тяляби арзу олунан тялябля гаршылашдырмаг олмаз. Йени зярури маллара йийялянмяк арзусу, жямиййятин сосиал-игтисади инкишафына уйьун олараг инсанларын психолоэийасында, фикирляриндя формалашыр. Сонра бязи габагжыл инсанлар тяряфиндян щяйата кечирилир. Мясялян, цтцлямяк ишинин чох вахт апармасы, ялля палтар йумаьын язиййятли бир иш олмасы, инсанларын шцурларында бу ишин даща асан баша эялмяси арзусуну доьурур. Артыг палтарйуйанларын мейдана эялмяси, тякмиллящдирилмяси сонрадан онлара гурутмаг вя цтцлямяк имканларынын верилмяси вя с. демяк олар ки, эюзлянилян вя йа арзу олунан тялябин юдянилмясидир. Мараглы бурасыдыр ки, биз тяляби йаранма сябябиня эюря 2 йеря айыра билярик, 1-жи тябии шякилдя инсан ещтийажларындан доьан, 2-жи мараглар ясасында йарадылан тяляб. Демяли цмуми тялябат тарихян мювжуд олан вя йарадылан тялябə айрылыр. Беляликля биз дювлятлярарасы тижарят ялагяляринин формалашмасынын бир сыра елементлярини ачыглайа билярик. Тядгигатлара ясасланараг дейя билярик ки, бу елементляр ашаьыдакылардан ибарятдир:

1. Тябии сярвятлярин гейри-бярабярлийи. 2. Жоьрафи иглимин шяраити. 3. Ихтисаслашма дяряжяси.

Заман кечдикжя садя тижарят ялагяляри эенишлянир, онда кямиййят вя кейфиййят дяйишмяляри баш верир. Дювлятлярарасы рягабят эцжлянир. Рягабятя давам эятирмяк вя даща чох газанмаг арзусу садя тижарят ялагялярини юз мажярасындан чыхарыр вя даща эениш сащяляри ящатя етмяйя сювг едир. Тядгигатлара əsasən deyə bilərik ки, бу ися

тяжрцбяли маркетологларын олмасына вя онларын сямяряли ишиня ясасланыр. Marketoloqlara belə tərif verə bilərik, "Маркетинэ менежерлярин саь яли мцяссисянин эялирлярини тямин етмяк мягсядиля бюйцк иш планына малик олан, ейни заманда истещлакчыларла файдалы ялагяляр гуран вя ону идаря едян шяхсдир."

Маркетологлары фяалиййятinə görə 2 група бюлмяк олар: йерли шяраитдя фяалиййят эюстярян маркетологлар вя глобал сявиййяли маркетологлар. Яслиндя маркетологларын ясас вязифяси истещлакчыларла файдалы ялагялярин гурулмасы мясялясидир. Лакин бу вязифялярин глобал сявиййядя йериня йетирилмяси олдугжа мцряккяб бир просесдир. Беля ки, мцяссисялярин глобал сявиййядя фяалиййят эюстярмяси вя газанж эютцрмяси бейнялхалг алямдя рягабят мцбаризясиня давам эятирмяси демякдир. Мцяссисянин бу мцбаризяйя давам эятирмяси бир баша маркетологларын ишиндян, онларын чевик фяалиййятиндян асылыдыр. Айдындыр ки, глобаллашма вя диэяр юлкялярдя игтисади ялагяляря эирмяк щямин юлкяляря интеграсийа олунмаьы тяляб едир. Бу мягсядля дя щяр бир ширкятин маркетологу игтисаді ялагяляр гуражаьы юлкянин мядяниййятини, адят-яняняляриni, психолоъи дурумларыны, елми-техники наилиййятлярини вя сийаси-игтисади дурумуну юйрянмялидир. Тядгигатлара ясасланараг дейя билярик ки, юлкяляр юз иш просеслярини, истещсал шяраитляриni вя истещсал едянляри, ямтяяляри маркетологун юйряндийи мцщитя вя истещсал критерийаларына ясасян формалашдырмалы вя бу заман фяалиййят эюстяряжяйи щяр щансы бир юлкянин игтисади-щцгуги базасына ямял етмялидирляр.

Эюрцндцйц кими щяр бир истещсалчы даща чох газанж эютцрмяк мягсяди иля диэяр юлкялярин тяжрцбясиндян, елми-техники наилиййятляриндян, интеллектуал мцлкиййятдян истифадя етмяк мяжбуриййятиндя галыр. Беляликля харижи тижарят ялагяляри диэяр игтисади ялагяляр йаранмасына сябяб олур. Садя тижарят ялагяляри эетдикжя мцряккяб игтисади ялагяляря дюнцр вя юзц дя бу ялагялярин тяркиб щиссяси олур.

Щяр бир дювлят игтисади ялагяляри юз милли чярчивясиндя тянзимлямяйя чалышыр. Лакин бу ялагяляр инкишаф едиб тядрижян глобал характер алдыьына эюря онун бейнялхалг тянзимлянмясиня ещтийаж дуйулур. Тядрижян бу мцнасибятляри тянзимляйян бейнялхалг тяшкилатлар формалашыр, онун щцгуги базасы йараныр вя заман кечдикжя бейнялхалг инкишаф темпиня уйьун тянзимлянир вя йенилящдирилир. Тядгигатлара ясасланараг дейя билярик ки, "Бейнялхалг мцнасибятляр шяхси мянафелярдян доьан мцхтялиф сащяляри ящатя едян вя кцтляви ящямиййят дашыйан дювлятлярарасы мцнасибятляр системидир."

İlk beynəlxalq təşkilat Vaşinqton konfransında yaradılan millətlər liqası olmuşdur. 1922-ci ildə onun nizamnaməsi dünyanın 44 dövləti tərəfindən imzalanmışdır. Bununla müvəqqəti olsada dünyada əmin - amanlıq bərpa olundu və SSRİ onun proletar inqilabına qarşı mübarizə tədbirləri nəzərdə tuturdu. Lakin iri dövlətlər sülh müqaviləsinin şərtlərinə əməl etmədilər. Məhz buna görə də qlobal təşkilat olan millətlər liqası çox yaşamadı. Araşdırmalar göstərir ki, Millətlər liqasının tərkibinə daxil olan dövlətlər yenidən müharibəyə cəlb olundular. Onların yaratdıqları "Millətlər liqası" beynəlxalq münasibətlər və sivil birgə yaşayış qaydaları öz yerini II dünya müharibəsinə verdi. "Millətlər liqası" formal olaraq fəaliyyətini 1946-cı ilə qədər davam etdirsə də, əslində o öz fəaliyyətini faktiki olaraq 1939-cu ildə başa vurmuşdur. II dünya müharibəsinin vurduğu ağır yaralar xalqları və onları təmsil edən başbilənləri yenidən düşünməyə vadar etdi. Araşdırmalar göstərir ki, müharibənin doğurduğu ağır nəticələrə son qoymaq və daha təhlükəsiz dünya yaratmaq məqsədi ilə dünyanın 50-dən çox dövləti ABŞ-ın San-Fransizko şəhərində toplandı. Bu toplantının əsas məqsədi xalqların kollektiv təhlükəsizliyini, dövlətlərarası ziddiyyətlərin aradan qaldırılması, ölkələrin bir-birləri ilə əməkdaşlığa başlaması, müharibədən sonrakı sərhədlərin və sosial-iqtisadi problemlərin birgə həlli oldu. Bu müzakirədə qurumun adı da müəyyənləşdirildi. Belə ki, 1944-cü il iyun ayının 26-da qurumun adının Birləşmiş Millətlər Təşkilatı olduğunu bəyan etdilər. Bununlada dünya tarixində yeni mərhələ başlandı. BMT-nin nizamnaməsi təsdiqləndi. Bununla da BMT-nin fəaliyyətinin istiqaməti müəyyənləşdirildi.

1.Beynəlxalq və təhlükəsizliyi təmin etmək. 2. Millətlər və təşkilatlar arasında dostluq münasibətlərini yaratmaq. 3. İqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq

problemlərin həllində irqindən, cinsindən, dilindən, dinindən asılı olmayaraq insan hüquqları və əsas azadlıqlarına hörmətlə yanaşmaq və beynəlxalq əməkdaşlığı təmin etmək. 4. Dövlətlərin fəaliyyətinin və ümumi maraqlarının razılaşdırılmasını təmin edən mərkəzə çevirmək.

Beləliklə Beynəlxalq münasibətlər sisteminin 1648-ci vestal sazişindən başlanan formalaşma tarixi ikinci dünya müharibəsindən sonra Yalta-Potstam sülh sazişinin bağlanması və BMT-nin yaranması ilə başa çatdı. Araşdırmalar göstərir ki, BMT-nin nizamnaməsinə imza atan və müxtəlif ictimai-iqtisadi quruluşa malik olan dövlətlər dinc yanaşı yaşamaq, kollektivi sülh və təhlükəsizliyə nail olmaq haqqında saziş və razılaşmaları tezliklə pozmağa başladı. İki sistem -ABŞ və SSRİ arasındakı mübarizə BMT-nin qlobal sülh və əminamanlıq, dostluq siyasətinə zərbə vurdu. 1945-ci ildə ABŞ-da Atom bombasının kəşvi və Yaponyada onu sınaqdan çıxarması BMT-nin nizamnaməsinin gobud şəkildə pozulmasına misaldır. Tezliklə ABŞ-ı BMT-nin fəaliyyətini onun nizamnamədəki şərtlərini özü bildiyi şəkildə idarə etməyə çalışırdı. Lakin onun qarşısında yeganə bir maniə SSRİ dayanmışdır. SSRİ isə öz növbəsində mövqeyini möhkəmləndirməyə , yeni yaranan sosialist dövlətlərin təhlükəsizliyini təmin etməyə və yeni-yeni dövlətlərə sovet ideologiyasını yaymağa cəht edirdi. 1949-cu ildə SSRİ atom bombasını yaratdı və sınaqdan çıxardı. Bununlada tərəflər arasında tarazlaşma və soyuq müharibəyə keçid başlandı. BMT-nin bu qarşıdurmanı aradan qaldırmaq, soyuq silahlar istehsalını azaltmaq və s. cəhətləri boşa çıxırdı. Tədqiqatlar göstərir ki, ilk beynəlxalq təşkilat olan BMT beynəlxalq münasibətləri tənzimləyən, sülhə səs verən qəti addımını 1954-cü ildə atdı. Belə ki, BMT-nin Baş Asambleyasının IX-cu sessiyasında 2 mühüm sənəd imzalandı.

1. Bütün silahların və silahlı qüvvələrin qarşılıqlı azaldılması və tətbiqinin məhdudlaşdırılması. 2. Silahların azaldılması, kütləvi qırğın silahlarının atom, neytron və başqa növlərinin istifadə olunmasının qadağan olması haqqında Qətnamə qəbul etdi. Bu qərar BMT-nin ilk qlobal uğuru idi. Çünki ilk dəfə olaraq Asambleyanın Qətnaməsi dünyanın 2-yə bölünmüş qüvvələri ABŞ və SSRİ-ni bir araya gətirə bildi və qətnamə qlobal səviyyədə təsdiqləndi. Lakin bu qətnamənin hər iki blok tərəfindən qəbul olunmağına baxmayaraq onlar arasında nəinki mübarizə dayandı hətta genişlənərək beynəlxalq münasibətləri öz təsiri altına aldı. ABŞ Beynəlxalq arendaya təsir edərək 2 blok - “Tumen doktrinası” və marşal planı yaratdı. Birinci, dövlətləri SSRİ-nin təsirindən təbii yolla qurtarmaq, ikinci isə Avropa dövlətlərini iqtisadi cəhətdən təsir altına salmaq 1949-cu ildə Qərbi Avropa dövlətləri Vaşinqtonda toplaşaraq 1949-ci il aprelin 4-də Şimali Atlantika blokunun (NATO) yaranması haqqında 12 dövlət saziş imzaladı. SSRİ bu sazişi maraqla qarşıladı və 1949-cu ildə Moskvada OİUS yaradılmasını elan etdi. Bütün bunlar təsirini beynəlxalq münasibətlərin 2 blokda cəmlənməsində göstərdi. Artıq dövlətlər arasında qlobal münasibətlər və inteqrasiya prosesi parçalandı və müxtəlif qütblərdə toplandı. Bu da BMT-nin həmrəylik siyasətinə zərbə vurmuş oldu. Nəhayət 1950-ci ildə üçüncu blok olan “Birtərəflik” bloku yaradıldı. Bu blokun üzvləri müstəmləkəçilikdə azad olan yəni müstəqillik qazanan dövlətləri özündə birləşdirdi. Artıq o öz tərkibində (70-80ci illər) 80 ölkəni birləşdirdi və BMT-nin tərkibində önəmli öz sahibinə çevrildi. Dünyada yaranan üçqütbülük bütün iqtisadi siyasi münasibətlərə də öz təsirini göstərir. Birtərəfli öz tərəfinə çəkmək məqsədi 2 blok arasında yarış başlandı. Hər 3 blok qlobal təşkilat olan BMT tribunasından qlobal məqsədlər üçün deyil, yalnız öz mənafeləri naminə istifadə etdilər.

Araşdırmalar göstərir ki, dünyanı heyrətə salan siyasi-iqtisadi və s. münasibətlərə ciddi təsir göstərən bloklar arasındakı mübarizə 90-cı illərdə SSRİ-nin süqutu ilə başa çatdı. Belə ki, SSRİ 1991-ildə özünü buraxdı. Beləliklə 90-cı illərdən sonra Beynəlxalq münasibətlər həm tərkibinə, həm də xarakterinə görə yeni bir mərhələyə qədəm qoydu. 2 blokun qarşıdurması şəraitində yaranan Beynəlxalq münasibətdləri fərqləndirmək lazımdır. Belə ki, beynəlxalq münasibətlər də dünyanının əksər ölkələri iştirak etməyə bilər. 90-cı illərə qədər beynəlxalq əlaqələr müxtəlif ərazilərdə yəni materiklərdə, qitələrdə yerləşən bir sıra dövlətlərin əməkdaşlığına əsaslanırdı. Yəni özsərhədlərindən kənara çıxan hər bir dövlət Beynəlxalq münasibətlərin iştirakçıları sayılır.Lakin bu münasibətləri regional münasibətlər hesab etmək olmaz. Çünki, burada eyni ərazidə, eyni regionlarda yerləşən dövlətlərin iqtisadi-siyasi münasibətləri deyil, müxtəlif qitələrdə, materiklərdə yerləşən dövlətlərin əlaqələrindən bəhs olunur. Bu cür münasibətlər hər bir dövlətin şəxsi mənafelərinə əsaslansada son nəticədə hər bir iştirakçı bu münasibətdən az və ya çox dərəcədə

bəhrələnirdi. Yəni sonda iştirakçıların məcmu mənafelərini əhatə edirdi. Bu münasibətlərdə dünya dövlətlərinin cəmi 50%-i və hətta azı iştirak edirdi. Buna səbəb dünyanın 2 bloka bölünməsi və geniş mütəmləkəçilik siyasətidi.

Lakin qeyd etdiyimiz kimi 50-ci illərdən başlayan milli azadlıq hərəkatı 70-80-ci illərdə 80 dövlətin müstəqillik qazanması ilə nəticələndi. Digər tərəfdən SSRİ-nin dağılması beynəlxalq münasibətlərdə kəmiyyət və keyfiyyət dəyişmələrinə səbəb oldu. Beləliklə keçmiş beynəlxalq münasibətlər yeni xarakter alır ki,bu da özünü beynəlxalq münasibətlərin öyrənilməsi praktikasında göstərir. Keçmiş beynəlxalq münasibətlər rəsmi dövlətlərarası münasibətlər şəklində öyrənilirdi. Lakin qloballaşan münasibətlər transmilli kooperasiyaların qeyri-hökumətr təşkilatlarının regional arası və sosial münasibətlərin formalaşması ilə müşayiət olunur. Bu haqda professor Əli Həsənov yazır: "Beynəlxalq münasibətlərin və dünya siyasətinin müasir strykturu və akortları elə bir vəziyyətə gəlib ki, çətin ki, təkcə dövlətlərarası rəsmi münasibətləri xarici siyasət əlaqələrinin fəaliyyətini öyrənməklə müasir dünya siyasətini, beynəlxalq münasibətləri qavramaq mümkün olsun". 90-cı illərə qədər beynəlxalq münasibətlərdə beynəlxalq hüququn əsas vəzifəsi suverən dövlətlərin hüquqlarının milli haqlarının qorunması və dövlətlərarası münasibətlərin hüquq normaları əsasında tənzimləmək idisə, qloballaşma şəraitində bu münasibətlər eninə və dərinim inkişaf edərək insan hüququ və azadlığının qorunması , beynəlxalq təhlükəsizlik, qlobal ekoloji təhlükənin qarşısının alınması və sosial tənzimlənmənin həyata keçirilməsi, suverən dövlətlərin iqtisadi və siyasi vəziyyətinin tənzimlənməsi, beynəlxalq yardımların təşkili və s. özündə birləşdirir.Bütün bu deyilənləri nəzərə alsaq qlobal münasibətləri 2 yerə ayıra bilərik:

1. Beynəlxalq münasibətlərin daha da genişlənən, şəxsi mənafeləri əhatə edən 1-ci qrup qlobal münasibətlər. 2. Şəxsi mənafeləri aşaraq qlobal mənafelərə xidmət edən 2-ci qrup qlobal münasibətlər.

Şəxsi mənafelərə əsaslanan qlobal münasibətlər dünya arendasında inkişaf etmiş dövlətlərin zəif və orta inkişaf səviyyəsində olan bir çox dövlətlər üzərində hegomonluğu ilə nəticələnmişdir.Bu münasibətlər özünü hər bir dövlətin lokal inkişafında göstərir. Şəxsi mənafelərə əsaslanan qlobal münasibətlərdə iştirak etmək üçün hər hansı bir dövlət müəyyən resurslara malik olmalıdır. Belə dövlətlər öz iqtisadiyyatlarını günün və ya dövrün tələblərinə uyğun qurmağa cəhd göstərirlər. Araşdırmalara əsaslanaraq deyə bilərik ki, lokal resursların özü də 2 yerə bölünür:

1.Təbii resurslar və insan əməyinin nəticəsi olan resurslar. Təbii resurslara: energetik resurslar, su resurslar, torpaq resursları, mineral resurslar, flora və fauna resursları, iqlim və məkan resursları və əmək ehtiyatları resursları. 2. İnsan əməyi ilə yaradılan resurslara EİT, inovasyalar, intelektual mülkiyyətlər,elmi kəşflər, tarixi təcrübələr və s. göstərmək olar. Aydındır ki, dünya dövlətləri inkişaf səviyyəsinə görə müxtəlif qruplarda birləşdirilir.

1. Sənaye cəhətdən inkişaf etmiş ölkələr. 2. Orta inkişaf səviyyəsinə malik olan ölkələr. 3. Zəif inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələr.

Əgər sənayecə inkişaf etmiş ölkələrin xammala ehtiyacı varsa zəif və orta inkişaf etmiş ölkələrin istehlak mallarına texnikaya, inovatiyon mallara ehtiyacı olur. Hər bir ölkənin lokal iqtisadiyyatının inkişafını bunlarsız təsəvvür etmək mümkün deyil. Müasir qloballaşma şəraitində dövlətlərin lokal inkişafı özlüyündə priorutet sahələrin elmi əsaslarla təşkil olunmasına və lokal uzlaşdırılmasına əsaslanır. Qlobal aləmdə hər bir ölkə özünü müəyyən faktorlarla təmsil edir. Araşdırmalar göstərir ki, beynəlxalq əmək bölgüsü siferasında inkişaf etmiş ölkələr xammal resurslarının idxalçısı, zəif inkişaf etmiş ölkələr isə onun ixracatçısı kimi çıxış edirlər. Xammal ixracatçısı hasilatın həcmini artırmaqla milli iqtisadiyyatın digər sahələrinin inkişafını nəzərdə tuturlar. Bu məqsədlə EİT –ni inkişaf etmiş ölkələrdən baha qiymətə alaraq hasilat sənayə sahələrinə tətbiq edirlər. Beləliklə inkişaf etməkdə olan ölkələrin əksəriyyətinin iqtisadiyyatı birtərəfli inkişaf edir və daha çox istismara məruz qalırlar. Araşdırmalar göstərir ki, əksər hallarda qlobal münasibətlərdən yararlanan İEÖ –lər İEOÖ-in inkişafını müxtəlif vasitələrlə ləngidirlər. Bu haqda Nobel mükafatçısı Corez E Stiqlitz yazır: "Qloballaşmanı tənqid edənlər qərb dövlətlərini çox vaxt riyakarlıqda günahlandırırlar və bu şəxslərin dedikləri tam həqiqətdir. Qərb dövlətləri kasıb ölkələri ticarət manevrlərini ləğv etməyə təhrik edirlər. Lakin özləri isə bu manevrləri saxlamaqda davam edirlər və beləliklə İEOÖ iqtisadiyyatına zərbə vurmuş olurlar. Əlbəttə ABŞ

bunun əsas günahkarlarından biridir və bu mənim razılaşmadığım məsələlərdəndir". Deyilənlərdən aydın olur ki, inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrin təbbi sərvətlərindən layiqincə yararlanır. Nəinki yararalnır həm də bunun üçün zəmin yaradırlar. Eyni zamanda xammal aldıqları ölkələrə daha ucuz emal etdikləri malları baha qiymətə satırlar. Nəticədə dünyanın bir sıra ölkələri daha çox kasıblaşır və qlobal yoxsulluğun səviyyəsi belə ölkələrin hesabına artır. Qloballaşmanın ümumi qlobal mənafelərə xidmət edən 2-ci tərəfi aşağıdakı münasibətləri əhatə edir.

1. İri, orta və zəif inkişaf etmiş ölkələrdə sülhün qorunması və dövlətlərarası ziddiyyətli məsələlərin birgə həlli. 2. Qlobal səviyyədə yoxsulluqla mübarizə.

3. Ekoloji təhlükəsizlik məsələlərinin birgə mübarizəsi və həlli. 4. Epidemiyalarla, təhlükəli xəstəliklərlə birgə mübarizə. 5. İnsan hüquqlarının qorunması. 6. Qaçqın və köçkünlərə çarə.7. Təbii fəlakətlər zamanı göstərilən təmənnasız yardımlar və s.

Apardığımız araşdırmalar belə qənaətə gəlməyə əsas verir ki, qloballaşma prosesinin istiqamətləndirilməsində əsas 2 HAQT fəal iştirak edir. Bunlardan biri planetin çoxmilyardlı hissəsini özündə birləşdirən və ən aparıcı dünyəvi qurum olan BMT-dir. Belə ki, BMT özündə 40-a qədər regional ittifaqları birləşdirir. 2-ci mühüm qlobal təşkilat UDT təşkilatıdır. Bu təşkilatın əsas məqsədi dünya ticarətini liberallaşdırmaqdan ibarətdir. Eyni zamanda BQHT da qlobal münasibətlərin genişlənməsində və inkişafında böyük rol oynayır.

## ƏDƏBİYYAT


1. Teymur Abbasov. "Naxçıvan Muxtar Respublikasında Aqrar Bazarın formalaşması və inkişafının xüsusiyyətləri". Bakı-2005 (səh. 301)
2. Teymur Abbasov. "Kənd təsərrüfatının resurs potensialı və ondan səmərəli istifadənin regional problemləri". Bakı-Elm - 2002 (səh. 186)
3. Məcid Əfəndiyev. "Sosialogiya". "Bakı universial" nəşriyyatı -2009 (səh. 518)
4. Əli Həsənov. "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti". "Azərbaycan" nəşriyyatı - 2005 (səh. 749)
5. Əli Nuriyev. "Regional siyasət və idarəetmənin əsasları". Bakı "Elm" (səh. 513)
6. Bir qrup alim tərəfindən hazırlanmışdır. "Azərbaycan iqtisadiyyatı" (səh. 396)



## ABSTRACT

At present, the foreign policy of Azerbaijan enough to benefit from globalization and culture customs and traditions opportunity to introduce to the world



## РЕЗЮМЕ

Прогресс глобализации стала необкодиностью и создала свои отризательнего аспекта


---


NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* T.Abbasov

**LƏTİFƏ NOVRUZOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 658**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İQTİSADİ İNKİŞAFINDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN ROLU

Respublikamızda həyata keçirilən Regionların iqtisadi inkişaf proqramları Naxçıvan MR-in iqtisadi həyatında da ciddi artıma səbəb olmuşdur. İqtisadi artım əmtəələrin kəmiyyətcə artması ilə yanaşı, onların keyfiyyətcə yüksəlməsinə imkan verməklə, əhalinin həyat səviyyəsinin yaxşılaşmasına şərait yaradır. İl ərzində istehsal olunmuş əmtəə və xidmətlərin əvvəlki dövrə nisbətən kəmiyyətcə və keyfiyyətcə artımı iqtisadi artımı müəyyən edir. Hər bir dövlətin iqtisadi siyasətinin strateji məqsədi iqtisadi artımın təmin edilməsidir ki, onun real göstəricisi Ümumi Daxili Məhsulun artımı ilə xarakterizə olunur.

İqtisadi artımın səmərəliliyini yüksəltmək üçün əmtəə və xidmətlərin keyfiyyəti yaxşılaşdırılmalı, yeni məhsul istehsalı mənimsənilməli, istehsalın ixtisaslaşması və kooperasiyası dərinləşməli, yeni texnologiyanın tətbiqinə keçilməli, istehsal ehtiyatlarından istifadə yaxşılaşdırılmalıdır.

İqtisadi artımın həyata keçirilməsi əhalinin məşğulluğunun təmin edilməsinə, əhalinin maddi rifah halının yaxşılaşmasına, sosial infrastrukturun yüksəlməsinə şərait yaradır. İqtisadi artımı xarakterizə etmək üçün milli gəlir, ümumi milli məhsul, bir nəfərə düşən ümumi daxili məhsul və s. göstəricilərdən istifadə olunsa da, əsas göstərici Ümumi Daxili Məhsul hesab olunur. Ümumi Daxili Məhsul ölkə daxilində müəyyən zaman ərzində istehsal olunan əmtəə və xidmətlərin məcmu dəyəridir.

Ümumi Daxili məhsulun artması hər bir ölkənin, regionun iqtisadi gücünün artması ilə yanaşı, həm də əhalinin sosial vəziyyətinin yaxşılaşmasına, yoxsulluq səviyyəsinin aşağı düşməsinə imkan yaradır.

2014-cü ildə dünyanın bir çox ölkələrində iqtisadi böhran müşahidə olunduğu halda Azərbaycan Respublikasında olduğu kimi Naxçıvan MR iqtisadiyyatında da artım müşahidə olunmuşdur. Belə ki, 2014-cü ildə Muxtar Respublikada Ümumi Daxili Məhsulun həcmi 2013-cü illə müqayisədə 1,3 faiz artaraq 2 mld 388 milyon manata çatmışdır. Onun hər bir nəfərə düşən həcmi 5459 manat təşkil etmişdir. Ümumi Daxili məhsulun tərkibində ilk yeri 33 faiz payla sənaye sahəsi,ikinci yeri 23 faiz payla tikinti, üçüncü yeri 15 faiz payla kənd təsərrüfatı tutmuşdur. Həyata keçirilən dövlət proqramları nəticəsində iqtisadi artımın makroiqtisadi göstəricilərindən olan Ümumi Daxili Məhsul ötən 10 il ərzində 13,9 dəfə, hər bir nəfərə düşən Ümumi Daxili Məhsul 12 dəfə yüksəlmişdir. Hazırda Ümumi Daxili Məhsulun tərkibində özəl bölmə 87 faizlik paya sahibdir. 2014-cü ildə istehsal olunan 886 mln manat sənaye məhsulunun 92,6 faizi özəl sektorun payına düşmüşdür. Kənd təsərrüfatında istehsal olunan məhsulun 99 faizi, nəqliyyatda daşınan yüklərin 97,6 faizi, sərnişin daşımalarının 88,7 faizi özəl bölmənin payına düşür.

Son illərdə ölkədə əhalinin məşğulluq quruluşunda dövlət sektorunun xüsusi çəkisinin azalması, qeyri-dövlət sektorunun, o cümlədən fərdi sektorun xüsusi çəkisinin artması meylinin sürətlənməsi müsbət hal olub, bazar münasibətlərinin formalaşdığını göstərən bir əlamət kimi qiymətləndirilməli və müdafiə olunmalıdır.

Özəl bölmənin inkişafı, bu sektora güzəştli şərtlərlə kreditlərin verilməsini tələb edir. Belə ki, “Sahibkarlığa dövlət maliyyə dəstəyinin göstərilməsi sahələrində əlavə tədbirlər haqqında” ölkə Prezidentinin 1 mart 2005-ci il tarixli fərmanına uyğun olaraq Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyəti daha da təkmilləşdirilmişdir. Sahibkarlığa dövlət dəstəyi baxımından 2000-ci ildə muxtar respublikada Sahibkarlığa Kömək Fondu yaradılmışdır. Yaradılışının ilk ilində sahibkarlara 5 layihə üzrə 200 min manatlıq güzəştli kredit verildiyi halda, bu göstərici 2014-cü ildə 32 mln 733 min

manat təşkil etmişdir. Bu kreditlərin 21 mln 167 min manatı fərdi sahibkarlığın inkişafina, 11 mln 566 min manatı isə yeni istehsal sahələrinin yaradılmasına və genişləndirilməsinə sərf olunmuşdur.

Dünyanın heç bir yerində sahibkarlıq dövlətin köməyi və tənzimlənməsi olmadan inkişaf edə bilməz. Sahibkarlığın inkişaf etdiyi və məşğulluğun səviyyəsinin yüksək olduğu ölkələrdə onların dövlət tərəfindən tənzimlənməsi sosial yönümlü bazar iqtisadiyyatının qanunauyğunluğu kimi qəbul edilir.

Bazar iqtisadiyyatı şəraitində kiçik və orta sahibkarlığın mövcud olması zəruri şərtdir. Kiçik və orta sahibkarlıq inkişaf etmiş ölkələrdə Ümumi Daxili Məhsulun 50-60 faizini yaradır. BMT ekspertlərinin məlumatına görə dünyada əhalinin 50 faizdən çoxu kiçik sahibkarlıqla məşğuldur. ABŞ-da 22 mln, Rusiyada 850 mindən çox kiçik və orta sahibkarlıq subyektləri fəaliyyət göstərir. Beynəlxalq praktikada iqtisadiyyatın normal fəaliyyət göstərməsi üçün əhalinin hər 30-50 nəfərinə bir müəssisə nəzərdə tutulur. Kiçik sahibkarlıq vergi daxilolmalarının ən mühüm mənbələrindən biridir. O, yerli bazarı sənaye, aqrar-sənaye, tikinti, təsərrüfat malları ilə zənginləşdirir.

Muxtar respublikada iqtisadiyyatın və əhalinin Naxçıvan şəhərində toplanmasının qarşısını almaq üçün regionlarda da xırda və orta sahibkarlığın inkişafi diqqət mərkəzində saxlanılır. Belə ki, təkcə 2012-ci ildə sahibkarlara 68 layihə üzrə 13 mln 404 min manat vəsait ayrılmışdır ki, bu layihələrin 12-si Naxçıvan şəhərini, 56-sı isə regionları əhatə etmişdir. Layihələrin 11-i sənaye sektoruna, 3-ü xidmət sektoruna, 54-ü isə kənd təsərrüfatı sektoruna aiddir.

Kiçik və orta sahibkarlığın inkişafi üçün muxtar respublikaya xarici investisiyaların cəlb olunması da hərəkətverici amillərdən olar. Xarici investisiyaların kiçik və orta sahibkarlığın inkişafi baxımından əhəmiyyətini bu şəkildə sıralamaq olar: 1) Dövlət və sahibkarlar iri və böyük layihələrin maliyyələşdirilməsi üçün əlavə maliyyə mənbəyi əldə edirlər. 2) Xarici investisiyalarla bərabər həmin subyektlər tərəfindən ölkəyə bazar iqtisadiyyatı şəraitinə uyğun çoxillik təcrübələr gətirilir. 3) Xarici investisiyalar daxili mənbələr hesabına formalaşan kapital qoyuluşlarını formalaşdırır. 4) İnnovasiya sahələrinin maliyyələşdirilməsinə yönəldilmiş xarici investisiyalar ölkə daxili sahibkarların yeni texnika, texnologiyalara və qabaqcıl idarəetmə metodlarına çıxışını asanlaşdırır.

Xarici investisiya ölkə iqtisadiyyatının və xüsusilə sahibkarlığın inkişafında böyük əhəmiyyətə malikdir. Belə ki, birbaşa xarici investisiyalar soaial-iqtisadi sabitliyin təminində, dünya bazarına çıxışın asanlaşmasında, azad rəqabətin formalaşmasında, əhalinin məşğulluğunun və gəlirlərinin artmasında böyük əhəmiyyətə malikdir.

Xarici investisiyaları tənzimləmək məqsədilə Respublika Nazirlər Kabinetinin 1997-cü il 13 yanvar tarixli sərəncamı əsasında Dövlət İnvestisiya Proqramı işlənib hazırlanmışdır. Proqrama əsasən respublikada xarici və milli sahibkarlığın fəaliyyəti dövlətin nəzarəti altında həyata keçirilir.

Ümumi Daxili Məhsulda özəl bölmənin payının getdikcə yüksəlməsinə baxmayaraq iqtisadiyyatı inkişaf etdirmək üçün dövlətin iqtisadiyyata müdaxiləsi normal və zəruri haldır. Bu inzibati amirlik sistemi kimi yox, zəruri hal kimi qəbul edilməlidir. Belə ki, dövlət iqtisadiyyatının tənzimlənməsinə nəzarət edir, inhisarçılığa və haqsız rəqabətə qarşı çıxır, eyni zamanda gələcək nəsillərin mənafeyini nəzərə alaraq təbii sərvətlərdən plansız istifadənin qarşısını alır, daxili bazarda qiymətlərin sabitliyini qoruyur.

Birbaşa xarici investisiya qoyuluşunda sənaye sahəsinə üstünlük verilir. Halbuki, Azərbaycanda eləcə də Naxçıvan MR-da kənd təsərrüfatı mühüm sahələrdən biridir. Əbəs yerə deyil ki, 2015-ci il respublikamızda kənd təsərrüfatı ili elan olunmuşdur. Muxtar Respublika əhalisinin 70 faizi kənd yerlərində yaşayır, istehsal olunan Ümumi Daxili Məhsulun 15 faizi kənd təsərrüfatının payına düşür. Ərazinin coğrafi mövqeyini nəzərə alaraq, əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi qarşıda duran vacib məsələlərdəndir. Muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalını həyata keçirəcək peşəkar və ixtisaslı kadrlar çatışmadığından bu sahədə mövcud olan problemləri aradan qaldırmaq üçün xarici və müştərək müəssisələrin yaradılması məqsədəuyğun olardı.

Naxçıvan iqtisadiyyatında bu günkü nailiyyətlərin davamlı olması iqtisadi sabitliyin saxlanması üçün maliyyə-kredit və büdcə-vergi sistemi fəal rol oynamalıdır. Qarşıdakı illərdə də sahibkarlıq fəaliyyətinin dəstəklənməsi üçün onların maliyyə təminatının artırılması və güzəştli

kreditlərin verilməsi diqqət mərkəzində saxlanmalıdır. İqtisadi inkişafın həyata keçirilməsində xalqımızın tarixi ənənələri, Naxçıvan coğrafi mövqeyi və digər sosial iqtisadi amillər nəzərə alınmalıdır.

## ƏDƏBİYYAT


1. Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı: Elm, 2004
2. Sadıxov M., Bədəlov N., Sadıxova Q. Maliyyə resursları və maliyyə bazarı. Bakı 2003
3. Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatları.
4. Горфинкель Б.Я, Поляк Г.Б. Швандар В.А. Предпринимательство "Юнити" Москва 2000.



## ABSTRACT

**L.Novruzova**

**The role of small and medium-sized businesses in the economic development of the Nakhichivan Autonomous Republic**

This article talks about the changes taking place in recent years in the economy of Nakhchivan Autonomous Republic and the role of small and medium-sized businesses in this area.



## REЗЮМЕ

**Л.Новрузова**

**Роль малого и среднего предпринимательство в развитии экономики Нахичеванской АР**

В этой статье описывается изменения происходящие в последние годы в экономики Нахичеванской АР и роль малого и среднего предпринимательство в этой сфере.


---


NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor* A.Rüstəmov

**MƏDİNƏ ALLAHVERDİYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*q_fil@hotmail.com*

**UOT: 336.01**

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI

**Açar sözlər:** *Aqrar sahə, dünya iqtisadiyyatı, qlobal, Dövlət Proqramı, torpaq, su, qida məhsulları, inteqrasiya, ərzaq təhlükəsizliyi.*

**Key words:** *Agricultural belt, World Economy, global, the state program, the land, the water, food products, integration, food safness.*

**Ключевые слова:** *Аграрный сектор, тировая экономика, глобальный, Государственная программа, земля, вода, продукты питания, интеграция, продовольственной безопасности.*

Ərzaq təhlükəsizliyinin təmin edilməsi strateji vəzifədir və bunun uğurla həyata keçirilməsi təkcə kənd təsərrüfatının yox, ümumiyyətlə aqrar-sənaye kompleksinin inkişafını tələb edir. Bu gün iqtisadi inkişafın davamlı, dayanıqlı şəkildə qurulması, təmin olunması aqrar sektorun inkişafından asılıdır.

Qloballaşma prosesinin getdikcə dərinləşməsi, ölkəmizin beynəlxalq aləmə inteqrasiya prosesinin, o cümlədən ÜTT-yə və Avropa İttifaqına üzvlük təşəbbüsü, beynəlxalq konvensiyalara qoşulması, aqrar islahatların hazırkı mərhələsi qarşımızda kəndin sosial-iqtisadi simasının dəyişdirilməsi, ərzaq təhlükəsizliyinin daha dolğun təmin edilməsi, dünya bazarında rəqabətədavamlı aqrar məhsulların istehsalı, qabaqcıl texnologiyalara və bazar iqtisadiyyatı mühitində idarəetmə prinsipinə yiyələnmiş kəndli sahibkarların hazırlanması, bitki və heyvan mənşəli ərzaq məhsullarının istehsalı və emalı zamanı Avropa standartlarına uyğunlaşma, Azərbaycanın Qida Məcəlləsinə qoşulması, istehlakçılar üçün ərzaq təhlükəsizliyinin artırılması və aqrar siyasətin əsasını təşkil edən digər üstün istiqamətli tədbirlərin həyata keçirilməsi kimi bir sıra məsul vəzifələr qoyur.

Kənd təsərrüfatı özünün bir sıra xüsusiyyətlərinə görə iqtisadiyyatın digər bölümlərindən fərqlənir. Bu sahənin səciyyəviliyi kənd təsərrüfatı istehsalının bir sıra obyektiv və təbii amillərdən ciddi asılılığından irəli gəlir. Torpaq və su ehtiyatlarının aşınma proseslərinin sürətlənməsi, kənd təsərrüfatı və ərzaq məhsullarına tələb-təklif nisbətinin qeyri-proporsional dəyişməsi, böhran və depressiya halları, kənd təsərrüfatında disparitetlik və s. aqrar sahə üçün əlavə çətinliklər törədir. Bütün bunlar hamısı müasir dövürdə çevik aqrar siyasətin həyata keçirilməsini tələb edir. Aqrar sektorun dayanıqlı və davamlı inkişafının təmin edilməsi, ölkənin ərzaq təhlükəsizliyi üçün etibarlı əsasların yaradılması, habelə milli istehsalçıların dünya bazarlarında artan rəqabətlə ayaqlaşması üçün müasir aqrar siyasət aqrar sektorun qlobal bazarda rəqabətqabiliyyətli olmasına möhkəm baza yaratmalıdır.

Dünya iqtisadiyyatında baş verən qloballaşmaya və qlobal istehlak bazarının konyukturasındakı dəyişmə dinamikasına uyğunlaşmaq üçün aqrar sahə üzrə həm hüquqi-normativ bazanın, həm də istehsal münasibətlərinin beynəlxalq norma və tələblərə uyğunlaşdırılması, beləliklə də milli istehsalın rəqabətə davamlı olmasının təmin edilməsi aqrar siyasətin ən başlıca hədəfi olmalıdır.

Azərbaycan Respublikasından qlobal bazara çıxarıla biləcək kənd təsərrüfatı və ərzaq məhsullarının həm istehsal potensialı, həm də çeşidi xeyli genişdir. Azərbaycanın aqro-iqlim şəraiti, torpaq və su ehtiyatları bu ərazilərdə müasir tələblərə və beynəlxalq standartlara uyğun məhsulların istehsalı üçün yaxşı əsasdır

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə XX əsrin 70-80-ci illərində ölkəmizdə digər sahələrlə yanaşı, kənd təsərrüfatının inkişafının da əsası qoyulmuşdur. Bu sahənin inkişafına yönəlmiş

tədbirlər nəticəsində Azərbaycan ittifaq respublikaları sırasında kənd təsərrüfatının inkişaf göstəricilərinə görə qabaqcıl yerlərdən birini tutmuşdur. Lakin 90-cı illərin məlum hadisələri, bütövlükdə, ölkə iqtisadiyyatını, o cümlədən kənd təsərrüfatını da iflic vəziyyətinə salmış, infrastruktur tamamilə dağıdılmışdır. Belə bir dövrdə ulu öndərin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtması ilə ölkə iqtisadiyyatında yeni inkişaf mərhələsi başlanmış, uğurlu aqrar islahatlar həyata keçirilmişdir. Ötən əsrin 90-cı illərində ilk dəfə Naxçıvan Muxtar Respublikasında həyata keçirilən bu islahatlar sonrakı dövrdə Azərbaycanın bütün ərazisində davam etdirilmiş, kənd təsərrüfatının inkişafı yeni modeldə, özəl təsərrüfatların yaradılması yolu ilə aparılmışdır. Bu dövrdə ulu öndərin rəhbərliyi ilə aqrar sahənin qanunvericilik bazasının yaradılmasına başlanılmış, "Aqrar islahatların əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında", "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının qanunları, Torpaq, Meşə və Su məcəllələri qəbul edilmiş, bir sıra digər normativ-hüquqi aktlar imzalanmışdır.

Ulu öndərin müəyyənləşdirdiyi aqrar islahatlar bu gün də ölkəmizdə uğurla davam etdirilir. Bu inkişafın davamlılığını təmin etmək məqsədilə zamanla ayaqlaşan dövlət proqramları, mütərəqqi qanunlar qəbul olunur, aqrar sahənin inkişafina hesablanmış tədbirlər həyata keçirilir. **"Ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində bizim konkret planımız, proqramımız var. Çalışmalıyıq ki, Azərbaycanda istehlak olunan bütün ərzaq məhsulları Azərbaycanda istehsal edilsin"**, – deyən ölkə Prezidenti cənab İlham Əliyev aqrar-sənaye kompleksinin inkişafını diqqət mərkəzində saxlayır, ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində konkret tədbirlər görülür

Son illər Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələrində olduğu kimi, kənd təsərrüfatının inkişafi istiqamətində də kompleks tədbirlər həyata keçirilir. Muxtar respublikada özəl mülkiyyətə əsaslanan aqrar münasibətlərin formalaşmasının əsası ümummilli liderimizin siyasi fəaliyyətinin Naxçıvan dövründə – ötən əsrin 90-cı illərində qoyulmuşdur. Sonrakı dövrlərdə davam etdirilən bu prosesin ilk mərhələsi 2000-ci ildə başa çatdırılmışdır. 205 kəndi, 132 kolxoz, sovxoz və birlikləri əhatə etməklə aparılan torpaq islahatları nəticəsində 72 min 758 ailəyə və ya 241 min 46 nəfərə torpaq sahəsi verilmişdir. Artıq muxtar respublikada bu sahəni əhatə edən yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması, əkinçiliyin və heyvandarlığın inkişaf etdirilməsi, güzəştli şərtlərlə kreditlərin verilməsi məhsul istehsalının artmasına və nəticə etibarı ilə, ərzaq təhlükə-sizliyinin təmin olunmasına səbəb olmuşdur. Aqrar bölmədə aparılan islahatlar Naxçıvanda kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq, eləcə də emal sənayesinin inkişafına etibarlı zəmin yaratmışdır. Kənd təsərrüfatı sahəsinin inkişafı dövlətimiz tərəfindən daim diqqət mərkəzində saxlanılmış, istehsalın artırılmasına və intensiv amillər hesabına məhsuldarlığın çoxaldılmasına hesablanmış bir sıra sərəncam və qərarlar qəbul olunmuşdur.Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005- 2010-cu illər)", "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada aqrar sahənin davamlı inkişafına təminat verir. Muxtar respublikanın iqlim şəraiti və əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması burada əkinçiliyin inkişafını şərtləndirir. Fermerlərə yanacağın, motor yağının, gübrənin alınmasına çəkilən xərclərin 50 faizinin dövlət tərəfindən ödənilməsi, taxıl əkinlərinə görə subsidiyaların verilməsi, texniki təminatın yaxşılaşdırılması üçün istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnika və gübrələrin satılması əkinçiliyin inkişafında yeni istiqamətlər açmış, əkin sahələrinin və məhsul-darlığın ilbəil artmasına səbəb olmuşdur.Təkcə 2014-cü ilin məhsulu üçün muxtar respublikada 60 min 829 hektar sahədə əkin işləri həyata keçirilmişdir. 2014-cü ilin 9 ayı ərzində muxtar respublikada 109 min 624 ton dənli və dənli-paxlalılar, 4 min 225 ton dən üçün qarğıdalı, 663 ton dən üçün günəbaxan, 63 min 753 ton tərəvəz, 41 min 405 ton kartof, 34 min 339 ton bostan məhsulları, 34 min 495 ton meyvə, 9 min 427 ton üzüm istehsal olunmuşdur. Torpaq sahələrinin normalara uyğun suvarma suyu ilə təmin edilməsi əkinçiliyin inkişafını təmin edən əsas amillərdən biridir. Buna görə də muxtar respublikada irriqasiya sistemləri daim yeniləşdirilir, meliorasiya tədbirləri həyata keçirilir. Bu da torpaq sahələrində su təminatının yaxşılaşdırılmasına, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verir. Suvarma sistemlərinin yaxşılaşdırılması istiqamətində tədbirlər bu il də davam etdirilir. Belə ki, "Kəngərli rayonunda irriqasiya sistemlərinin təkmilləşdirilməsi" layihəsi çərçivəsində yeni suvarma şəbəkəsi qurulur, rayon ərazisində yeni nasos

stansiyasının, suqəbuledici və supaylayıcı hovuzların tikintisi aparılır. Həmçinin aparılan yenidənqurma işləri nəticəsində Uzunoba Su Anbarının həcmi 8 milyon kubmetrə çatdırılmış, nəticədə, Kəngərli rayonunda 3300 hektar torpaq sahəsi əkin dövriyyəsinə qatılmışdır. Azərbaycan Respublikası ilə İslam İnkişaf Bankı arasında imzalanmış müqaviləyə əsasən həyata keçirilən daha bir layihə əsasında bu il Sədərək rayonunda nasos stansiyasının tikintisi başa çatdırılmış, 1500 hektara yaxın torpaq sahəsinin suvarılması yaxşılaşdırılmış-dır. Yüksək keyfiyyətli qida məhsullarının, xüsusilə ət və süd məhsullarının əldə olunması məqsədilə heyvandarlığın inkişafı diqqət mərkəzində saxlanılır. Əsasən, düzən yerlərdə heyvandarlığın ətliksüdlük istiqaməti inkişaf etdirilir. Hazırda muxtar respublikada109 min 822 baş iribuynuzlu mal-qara, 668 min 933 baş xır-dabuynuzlu heyvan saxlanılır. Bundan başqa, muxtar respublikada iribuynuzlu mal-qaranın cins tərkibini daha da yaxşılaşdırmaq və məhsuldar mal-qaranın xüsusi çəkisini artırmaq məqsədilə bu günədək "Naxçıvan Aqrolizinq" ASC tərəfindən 1688 baş, o cümlədən 1181 baş "Holştin-friz", 423 baş "Simmental" və 84 baş "Şvis" cinsli yüksək məhsuldar mal-qara gətirilərək sahibkarlara satılmışdır. Həmçinin əhalinin yumurta və quş ətinə olan tələbatının yerli istehsal hesabına ödənilməsinə də xüsusi diqqət yetirilir, yeni quşçuluq təsərrüfatları yaradılır. Hazırda muxtar respublikada 63 quşçuluq təsərrüfatı fəaliyyət göstərir. Görülmüş işlərin nəticəsidir ki, 2014-cü ilin 9 ayı ərzində diri çəkidə ət istehsalı 14 min 968 ton, süd istehsalı 66 min 399 ton, yun istehsalı 854 ton, yumurta istehsalı isə 60 milyon 984 min ədəd olmuşdur.

Əhalinin sağlamlığının qorunması məqsədilə həyata keçirilən sistemli tədbirlər nəticəsində qida məhsullarının, xüsusilə ət və süd məhsullarının yüksək keyfiyyət göstəricilərinin təmin olunması, heyvan mənşəli xəstəliklərə qarşı vaxtında mübarizə tədbirlərinin aparılması prosesləri uğurla davam etdirilir. Muxtar respublikada Dövlət Baytarlıq Xidməti tərəfindən mütəmadi olaraq mal-qara və quşlar arasında müxtəlif xəstəliklərə qarşı profilaktik peyvəndləmə və dezinfeksiya işləri aparılır, epizootiya əleyhinə və bioloji təhlükəsizliyin qorunması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Kənd təsərrüfatında istehsalın səmərəliliyinin artırılmasına əl əməyinin yüngülləş-dirilməsinə, və məhsulun maya dəyərinin aşağı salınmasına imkan yaradan texnika ilə təchizata da xüsusi diqqət yetirilir. 2005-ci ildə yaradılan "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə muxtar respublikaya müxtəlif təyinatlı kənd təsərrüfatı texnikaları gətirilmiş, lizinq yolu ilə sahibkarlara və torpaq mülkiyyətçilərinə satılmışdır. Təkcə 2014-cü ilin ötən dövründə muxtar respublikaya 235 ədəd kənd təsərrüfatı texnikası alınıb gətirilmişdir .

Əhalini il boyu meyvə-tərəvəz məhsulları ilə təmin etmək muxtar respublikada aqrar sahədə həyata keçirilən əsas tədbirlərdəndir. İritutumlu soyuducu anbarların tikilməsi və istixana komplekslərinin yaradılması ilin istənilən fəslində bazarın tələbinin ödənilməsinə imkan verir. Hazırda muxtar respublikada ümumi tutumu 12 min 150 ton olan 19 soyuducu anbar və sahəsi 52 min 316 kvadratmetr olan 12 istixana kompleksi fəaliyyət göstərir. Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının etibarlı ödənilməsi istiqamətində əlavə tədbirlər də görülür, istehsal olunan malların satışı üçün hərtərəfli şərait yaradılır. Artıq bir neçə ildir ki, istehsalçıların istehsal etdikləri məhsulların satışını təmin etmək üçün kənd təsərrüfatı məhsullarının satış yarmarkaları təşkil edilir. Ümumiyyətlə, həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi olaraq, bu gün tələbatın əsas etibarilə yerli istehsal hesabına ödənilməsinə nail olunmuş, daxili bazarda məhsul bolluğu yaradılmışdır. 2014-cü ilin ilk 9 ayında muxtar respublikada 270 milyon 668 min manatdan çox kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,7 faiz çoxdur. Hazırda əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına tam ödənilməsi üçün dövlət tərəfindən müvafiq tədbirlər həyata keçirilir. Ümumilikdə, cari ilin yanvar-sentyabr ayları ərzində kənd təsərrüfatı subyektlərinə 13 milyon 211 min manatdan çox həcmdə kreditin verilməsi təmin olunmuşdur ki, bu da bir il öncəki müvafiq göstəricidən 35,2 faiz çoxdur. Ötən dövr ərzində də Kənd Təsərrüfatı Nazirliyi və onun strukturuna daxil olan bölmələr tərəfindən torpaq mülkiyyətçiləri və fermerlərlə fərdi izahat və maarifləndirmə işi davam etdirilmiş, torpaqlardan səmərəli istifadə olunması, məhsuldar toxum sortlarının əkilməsi barədə kənd əməkçilərinə məsləhətlər verilmişdir. Bütövlükdə, nümunəvi torpaq islahatı, aqrar-sənaye kompleksinin beynəlxalq təcrübə əsasında yenidən qurulması, meliorasiya və irriqasiya sistemlərinin təkmilləşdirilməsi muxtar respublikamızda ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində atılan mühüm addımlardır.

Muxtar respublika iqtisadiyyatının vacib sahəsi olan **kənd təsərrüfatında ardıcıl islahatlar** və yeni texnologiyaların tətbiqi davam etdiriləcəkdir. Aqrar bölmənin inkişafı istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur.:

- daxili bazarın tələbatının yerli istehsal hesabına ödənilməsi səviyyəsini yüksəltmək üçün ərzaq məhsulları istehsalı həcminin artırılması, tələbatdan artıq istehsal edilən kənd təsərrüfatı məhsullarının ixracının stimullaşdırılması;
- ərzaq və digər kənd təsərrüfatı malları bazarlarının qorunması, yerli istehsal və idxal olunan ərzaq məhsullarının keyfiyyətinə ciddi nəzarətin
davam etdirilməsi;
- aqrar sənaye sektoruna yerli və xarici investisiyaların cəlb edilməsi;
-suvarma sIstemlərinin yenidən qurulması və torpaqların meliorativ vəziyyətinin sağlamlaşdırılması, mövcud su resurslarından istifadə imkanlarının genişləndirilməsi və suvarma-drenaj şəbəkələrinin inkişaf etdirilməsi;
-baytarlıq, texniki nəzarət, sanitar və fitosanitar tədbirlərin gücləndirilməsi;
kənd təsərrüfatı sahəsində sığorta sisteminin inkişaf etdirilməsi;
-daha uzunmüd-dətli və daha çox meyvə-tərəvəz çeşidinin saxlanmasına imkan verən soyuducu anbarların yaradılması;
-aqrar sahədə ixtisaslı kadr potensialının gücləndirilməsi; müasir texnika və texnologiyanın kənd təsərrüfatında tətbiqinə nail olunmasının dəstəklənməsi
Hesab edirik ki, yuxarıda qeyd olunan tədbirlərin həyata keçrilməsi gələcəkdə aqrar sektorun daha da inkişafı ilə nəticələnəcəkdir

## ƏDƏBİYYAT


1. "Qloballaşan Azərbaycan" Bakı 2006
2. Qloballaşmaya doğru Bakı 2006
3. M.M.Mahmudovr, İ.M.Mahmudova Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi Bakı-2011
*4.*"2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"
5 .. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi
6. "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"
*7.* www. *nakhchivan.az*
8. www.azerbaijan
9. www.serqqapisi.az
10. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqr


## ABSTRACT


**Madina Allakhverdieva**

**Development of Agricultural belt in Nakchivan Autonomus Republic in circumstance of globalisation.**

Providing of good safness is a strategic mission and ensuring it with succes, not only development of agricultural belt, but also it demands development of complex of agricultural industry. Today continuous, enduring providing of economic development depends on development of agricultural sector.


## РЕЗОМЕ


**Madina Аллахвердиева**

**Развития сельского хозяство в период глобализации в Нахичеванской АР**

Обеспечение продовольсвенной безопасности является стратегическим фактором, и чтобы с успехом внедрить это требуется не только сельское хозяйство но и развития аграрно-промышленного комплекса. Сегодня для продолжительного экономического развития все зависить от развития аграрного сектора.



NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)
Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* N.Əhmədov

**CAVADXAN QASIMOV**
*AMEA Naxçıvan Bölməsi*
*E-mail: Cavadxan.yusifoglu@mail.ru*

**UOT: 332.01**

# AQRAR SİYASƏT NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SAĞLAM İQTİSADİYYATIN ƏSASIDIR

**Açar sözlər:** *aqrar sektor, bazar iqtisadiyyatı, yeni iqtisadi şərait, milli iqtisadi inkişaf və s.*
**Keywords:** *the agricultural sector, market economy, new economy conditions, national economic development.*
***Ключевые слова:*** *аграрный сектор, рыночная экономика, новые экономические условия, национальное экономическое развитие и т.д.*

XX əsrin 90-cı illərinin əvvəllərində ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri kimi buradan başlatdığı uğurlu iqtisadi siyasət təbii ki, yeni iqtisadi şəraitin yaradılması və inkişafına yönəlmişdi. Bu məqsədlə, 1992-ci il aprel ayının 6-da Naxçıvan MR Ali Məclisi 2 mühüm qərar və təklifləri qəbul etdi. Bunlardan biri "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozların ləğv edilməsi və onların əsasında şəxsi təsərrüfatların yaradılması haqqında" qərar və digəri "Rentabelsiz işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsini nəzərdə tutan təkliflər haqqında" idi.

Məlumdur ki, aqrar islahatlar ümumilikdə ölkəmizin yeni iqtisadi münasibətlərinin formalaşması və inkişafında xüsusi önəm daşımışdır. Məhz bu mənada da Naxçıvan Muxtar Respublikası ölkəmizin milli iqtisadi inkişafında aqrar islahatların beşiyi kimi tarixə düşmüşdür.

Qeyd olunan proseslər nəticəsində Naxçıvan MR bazar münasibətlərinin inkişaf etdiyi region kimi ölkə miqyasında öncül sıralarda dayanırdı. Mənbələr göstərir ki, MR-də mövcud olan 139 təsərrüfatın 119-u və ya 86%-i, 208 kəndin 158-i və 76%-i torpaq islahatının beşiyinə çevrilmişdir (2, s. 63).

Mənbələrə diqqət edəndə görürük ki, 2001-ci ilin uğurlu aqrar islahatları nəticəsində Naxçıvan Muxtar Respublikasında 201 kənddə torpaq islahatı başa çatmışdır. Artıq 1 yanvar 2002-ci il tarixə olan statistik rəqəmlərə əsasən Naxçıvan Muxtar Respublikası üzrə: Şərur rayonunda 23 min 971, Babək rayonunda 10 min 860, Culfa rayonunda 7 min 854, Ordubad rayonunda 4 min 575, Şahbuz rayonunda 4 min 118 və Naxçıvan şəhərində 31 ailə olmaqla, ümumilikdə Naxçıvan MR miqyasında 51 min 409 ailə üçün «Torpağın mülkiyyətə verilməsinə dair» Şəhadətnamələr paylanılmışdır (1, s. 98).

İkinci dəfə siyasi hakimiyyətə qayıdan milli lider 1995-ci il 18 fevral tarixdə "Aqrar islahatların əsasları haqqında" və "Sovxoz və kolxozların islahatı haqqında" Azərbaycan Respublikasının qanunlarını, həmin ilin oktyabr ayında isə Dövlət Mülkiyyətinin Özəlləşdirilməsini nəzərdə tutan eyni adlı Dövlət Proqramını qəbul etdi.

Həmin hüquqi və praktik sənədlər və təcrübələrin ardınca aqrar sektoru daha da təkmil olaraq inkişaf etdirmək üçün qanun, qərar, məcəllə və digər hüquqi sənədlər qəbul edildi ki, bunlardan da bir neçəsini bu cür göstərmək olar: "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının 16 iyul 1996-cı il tarixli Qanunu, "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının 22 dekabr 1998-ci il tarixli Qanunu, "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının 12 mart 1999-cu il tarixli Qanunu, Azərbaycan Respublikasının 25 iyun 1999-cu il tarixli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Torpaq Məcəlləsi", "Torpaq bazarı haqqında" Azərbaycan Respublikasının 7 may 1999-cu il tarixli Qanunu və s (4).

Göründüyü kimi, Heydər Əliyevin siyasi çevikliyi, onun qətiyyətli idarəetmə bacarığı nəticəsində Culfa rayonunun Şurut və Gal kəndlərində başlatdığı torpaq islahatlarının bütünlükdə

ölkəmiz miqyasında gerçək davamı və reallığı idi. Təbii ki, bu, MDB məkanına daxil olan ölkələrin hər biri üçün böyük nümunə idi.

Qeyd edək ki, təkcə 1994-cü ildə kənd təsərrüfatı problemlərinin həllinə və aqrar bölmədə islahatlara dair səkkiz müşavirə keçirilmişdir. Göstərilən ilin dekabr ayının 9 və 10-da Azərbaycan Respublikasının Ali Sovetində Türkiyə, Çin, İsrail, İran, Rusiya və digər ölkələrin nümayəndə heyətlərinin iştirakı ilə "Aqrar islahat: problemlər və onların həlli yolları" mövzusunda keçirilən beynəlxalq konfransda elə aqrar sahədəki islahatların effektivliyini təmin etmək və bu sahədə beynəlxalq təcrübədən yararlanmaq məqsədi nəzərdə tutulurdu. 1994-cü ildə böyük Heydər Əliyevin tapşırığına uyğun olaraq Azərbaycanın Zaqatala və Xızı rayonlarında eksperimentlər aparıldı və istənilən nəticəyə nail olundu. Burda onu qeyd etmək istərdik ki, milli liderin siyasi fəaliyyətinin Naxçıvan MR dövründə bu təcrübə Culfa Rayonunun "Azərbaycan" adına sovxozunda uğurla gerçəkləşdirilmişdir.

Təbii ki, bütün bunlar aqrar sahədə məhsul istehsalçılarının fəaliyyətlərinin stimullaşdırılmasına xidmət etməkdədir. Aqrar sahədə istehsalçılara lazım olan zəruri dövlət dəstəyinin davamlılığını təmin etmək üçün ölkə başçısı cənab İlham Əliyevin böyük xidmətləri vardır. İstifadəçilərə kənd təsərrüfatı texnikalarının verilməsi, onların maliyyə-kredit təşkilatları ilə faydalı və səmərəli əməkdaşlığının yaradılması, digər iqtisadi və texniki təchizatlarla təmin olunması özünün düşünülmüş həllini çoxdan tapmışdır. Bu tədbirlər özünün hüquqi, eyni zamanda iqtisadi əsaslarını ölkə başçısının: 11 fevral 2004-cü il tarixdə təsdiq etdiyi "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafi Dövlət Proqramı", 23 oktyabr 2004-cü il tarixdə imzaladığı "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında", 23 yanvar 2007-ci il tarixdə imzaladığı "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında", 21 avqust 2008-ci il tarixdə imzaladığı "Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi barədə" və bütün bu kimi hüquqi tənzimləmələrlə birlikdə, 20 noyabr 2014-cü il tarixdə "kənd təsərrüfatı məhsulları istehsalçılarının kənd təsərrüfatı texnikası ilə təminatına və heyvandarlığın inkişafina əlavə dəstək haqqında" sərəncamından götürür.

Sərəncama əsasən Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulan Azərbaycan Prezidentinin ehtiyat fondundan "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə kənd təsərrüfatı məhsulları istehsalçılarının kənd təsərrüfatı texnikasına ehtiyacını ödəmək üçün 8 milyon manat və xaricdən damazlıq heyvanların idxalının və heyvandarlıqla məşğul olan təsərrüfatlara 50 faiz güzəştlə lizinq yolu ilə satılmasının həyata keçirilməsi üçün 10 milyon manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur (4).

Məhz milli liderin müəyyən etdiyi müdrik aqrar siyasət hazırda da Naxçıvan Muxtar Respublikasında Ali Məclisimizin Sədri cənab Vasif Talıbov tərəfindən daha da təkmil şəkildə davam etdirilməkdədir. İstənilən qanun, qərar, Fərman, Sərəncam, Dövlət Proqramı Naxçıvan muxtar respublikasının ictimai-siyasi, sosial-iqtisadi həyatında özünün münbit şərait yaratması ilə daha da önəm qazanmaqdadır.

Naxçıvan MR Ali Məclisi Sədrinin 28 yanvar 2005-ci il tarixdə imzaladığı "Naxçıvan Muxtar Respublikasında aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamına uyğun olaraq keçən müddət ərzində muxtar respublikaya 1500-ə yaxın müxtəliftəyinatlı kənd təsərrüfatı texnikası gətirilmişdir (3).

Yüksək qayğı və diqqət üçün münbit zəminə çevrilən bu tədbirlər nəticəsində muxtar republikada cari ilin yanvar-noyabr aylarında 303 milyon 855 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur.

Bütün bu kimi tədbirlər makroiqtisadi siyasətin müvəffəqiyyəti üçün real təsdiqə çevrilmiş və özünü Ümum Daxili Məhsulun strukturunda artım vəziyyəti ilə göstərmişdir. Qeyd edək ki, 2014-cü ilin yanvar-noyabr aylarının sosial-iqtisadi inkişaf göstəricilərinə diqqət edərkən ÜDM-nin istehsal həcminin 2 milyard 81 milyon 307 min 500 manat təşkil etdiyini görürük ki, bu da 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur (3).

## ƏDƏBİYYAT

1. Əhmədov N. H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, 452 s.
2. Nadirov A. A., Nuriyev Ə. X., Muradov Ş. M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı: Elm, 2000, 100 s.
3. http://www.statistika.nmr.az/
4. http://www.e-qanun.az

## ABSTRACT

**Gavadkhan Gasimov**

### THE AGRICULTURAL POLICY OF THE BASIS OF HEALTHY ECONOMY OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The article discusses the role of the agricultural sector in social-economic development of Nakhchivan Autonomous Republic. It is shown that the agricultural sector plays a crucial role in the formation and development of the economic structure of the territory. Also emphasizes that the agricultural sector experienced a period of thorough organization in the all periods of the board of the National leader Haydar Aliyev, thanks to sophisticated political activity.

## РЕЗЮМЕ

**Джавадхан Гасымов**

### АГРАРНАЯ ПОЛИТИКА – ОСНОВА ЗДОРОВОЙ ЭКОНОМИКИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В статье говорится о роли аграрного сектора в социально-экономическом развитии Нахчыванской Автономной Республики. Показано, что аграрный сектор играет решающую роль в формировании и развитии экономической структуры данной территории. Также подчеркивается, что во все периоды правления Национального лидера Гейдара Алиева, благодаря продуманной политической деятельности, аграрный сектор переживал период основательной организации.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* T.Abbasov

**BƏHRAM HƏSƏNOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 336.01**

# LİBERAL İQTİSADİYYATIN TƏŞVİQİ VƏ AQRAR SAHİBKARLIQDA İNNOVASİYALARIN TƏTBİQİ

Azərbaycanda iqtisadi inkişafin qeyri – neft sektorunun prioritetliyinə əsaslanan yolu seçdiyindən aqrar sektorun inkişafi iqtisadi siyasətin önəmli istiqamətidir. Bu baxımdan aqrar sahibkarlığın inkişaf etdirilməsi innovasiyaların tətbiqini zərurətə çevirir.

**Açar sözlər:** *aqrar elm, yararlı torpaq, innovasiyaların tətbiqi, sahibkarlıq fəaliyyəti, bitkiçilik, heyvandarlıq.*

**Key words**: *agricultural science, useful lands, applying of innovations, owners act, growing, cattle-breeding.*

**Ключевые слова:** *аграрная наука, пригодная почва, внедрение инновций, предпринимательская деятельность, растениеводство, животноводство.*

Müstəqil Azərbaycan sosial-iqtisadi inkişafının elə həlledici mərhələsindədir ki, hazırda milli maraqlar baxımından bütün elm sahələri eyni məsafədə dayanır: hər birinin müstəsnalığı, əhəmiyyəti birmənalı qəbul olunur. Hesab edirik ki, respublikanın milli iqtisadi inkişaf modelinin nəzəri-praktik əsaslandırılması baxımından aqrar sektorda həyata keçirilmiş islahatlara, mövcud problemlərə də nəzər salmaq, aqrar elmin qarşısında duran vəzifələri müəyyənləşdirmək zəruridir. Bu zərurəti şərtləndirən həm də odur ki, Azərbaycan qeyri-neft sektorunun prioritetliyinə əsaslanan inkişaf yolu seçməklə yanaşı, tarixən aqrar-sənaye respublikası kimi tanınmış və ixtisaslaşmışdır.

Respublikada bazar təsərrüfatçılıq sisteminə transformasiya prosesi də məhz aqrar sahədən başlamışdır. Ulu öndər Heydər Əliyevin xalqın təkidli istəyi ilə 1993-cü ilin iyununda hakimiyyətə gəlişindən sonra bir çox sahələr kimi kənd təsərrüfatında da 90-cı illərin əvvəllərindən özünü kəskin büruzə verən tənəzzül meyilləri aradan qaldırılmış, səmərəli islahatların əsası qoyulmuşdur. Hər bir vətəndaşın mənafeyi əsas tutulmaqla gerçəkləşdirilən aqrar islahatlar ölkə iqtisadiyyatında bazar münasibətlərinin qurulmasına, torpaq və əmlakın səmərəli istifadə edilməsinə, aqrar bölmənin sahə strukturunun təkmilləşdirilməsinə, sahibkarlığın formalaşması və inkişafi bütünlükdə bazar mexanizminin qanunauyğunluqları və prinsiplərinə tabe etdirilmiş, bu sahədə çoxsaylı normativ-hüquqi aktlar qəbul edilmiş, məhsulun satışı, gəlirlərin bölüşdürülməsi və digər texnoloji proseslərdə mülkiyyət mənsubiyyətindən asılı olmayaraq, kənd təsərrüfatı əmtəə istehsalçılarının təsərrüfat-iqtisadi müstəqilliyi təmin edilmişdir.

Bu kursu keyfiyyətcə yeni mərhələdə uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin çevik və işlək mexanizmlər əsasında gerçəkləşdirdiyi islahatlar nəticəsində respublika aqrar-sənaye kompleksini inkişaf etdirmək, ərzaq təminatını yaxşılaşdırmaq üçün ilk növbədə qanunvericilik bazası təkmilləşdirilmiş, fermerlərə yanacağın, motor yağının, gübrənin alınmasına çəkilən xərclərin 50 faizinin dövlət tərəfindən ödənilməsi, taxıl əkinlərinə görə subsidiyaların verilməsi təmin edilmiş, texniki təminatın yaxşılaşdırılması üçün istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnikanın və gübrələrin verilməsinə başlanılmışdır. Bütün bunların nəticəsi kimi, hazırda kənd təsərrüfatı məhsulları istehsalında özəl bölmənin xüsusi çəkisi 99,7 faizə yüksəlmişdir.

Aqrar sahə SSRİ dövründə olduğu kimi, bu gün də respublika iqtisadiyyatının prioritet inkişaf istiqamətlərindən biridir. Respublikanın ümumi daxili məhsulunun təxminən 8,3 faizi kənd təsərrüfatının payına düşür. İqtisadi fəal 3,8 milyon əhalinin 1,5 milyonundan çoxu, yaxud 39 faizi aqrar sahədə çalışır. Əhalinin təxminən yarısının gəlirləri məhz aqrar sahədə formalaşdığından, qeyri-neft sektorunda bu sahə xüsusi yer tutur. Azərbaycanın zəngin və əlverişli torpaq-iqlim şəraiti, nisbətən ucuz işçi qüvvəsi və ekoloji cəhətdən təmiz məhsul istehsal etmək imkanları dünya

bazarında yüksək rəqabət qabiliyyətinə malik olub keyfiyyətli ərzaq məhsulları istehsalı üçün əlverişli şərait yaradır. Kənd təsərrüfatının dinamik inkişaf etdirilməsi yolu ilə əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatının gerçəkləşdirilməsi təkcə iqtisadi deyil, həm də milli təhlükəsizliklə bağlı strateji məsələdir. Bütün bunlar isə aqrar elmin müasir dövrün tələblərinə uyğun müasirləşdirilməsini, aqrar-sənaye sahəsində elmi-tədqiqat işlərinin keyfiyyətinin yüksəldilməsini, elmi-təcrübi yeniliklərin istehsalata tətbiqini, bir sözlə, innovasiya yönümlü inkişafın təmin edilməsi vacibliyini ön plana çıxarır.

Beynəlxalq təşkilatlar tərəfinddən aparılan hesablamaya görə, 2030-cu ilə qədər dünyada 420 milyon hektar kənd təsərrüfatına yararlı torpaq sahəsi əhalinin, sənaye müəssisələrinin, infrastruktur sistemlərinin yerləşməsi və deqradasiya prosesi ilə əlaqədar aqrar dövriyyədən çıxarılacaq. Bu müddətdə insanların kənd təsərrüfatı üçün yararlı torpaqlara ehtiyacı isə əksinə artacaq. Dünya əhalisinin sayı 8 milyardı ötəcək və insanların indikindən daha çox kənd təsərrüfatı məhsuluna, xüsusilə də yeyinti məhsullarına ehtiyacı olacaq.

Oxşar proses Azərbaycanda da gedir. Rəsmi məlumatlara əsasən, ölkəmizdə kənd təsərrüfatı üçün yararlı torpaq sahəsi 4,768 milyon hektar, əkin yeri 1,843 milyon hektardır. 1970-cı ildə 1,128 milyon hektar sahədə kənd təsərrüfatı məhsullarının yetişdirilməsi kifayət edirdisə 2014-cü ildə bu göstərici 1,421 milyon hektara yüksəlib. O cümlədən, birillik əkin yerləri 863,5 min hektardan 1,2 milyon hektara qədər artıb. 1970-ci ildə Azərbaycan əhalisinin sayı 5,227 miyon nəfər idi. O zaman adambaşına düşən yararlı torpaq sahəsi 0,81 hektar təşkil edirdi. 2014-cü ildə ölkə əhalisinin sayı 9,535 milyon nəfər, adambaşına düşən yararlı torpaq sahəsi 0,51 hektar oldu. Əkin yerlərində də 1970-cı ildən bəri ciddi artımın olmasına baxmayaraq adambaşına düşən sahə 0,26 hektardan 2014-cü ildəki 0,19 hektara qədər geriləyib.

2014-cü ilin məlumatına görə, dünyada adambaşına düşən əkin sahəsi 0,25 hektardır. Yəni, Azərbaycandan daha çoxdur. İllər ötdükcə ölkəmizdə adambaşına düşən əkin yerləri, kənd təsərrüfatında yararlı sahə azalmaqda davam edəcək. Bunun bir səbəbi əhalinin sayının artmasıdırsa, digər səbəbi torpaqlardan kənd təsərrüfatı məqsədi üçün düzgün istifadə edilməməsi ilə əlaqədar torpaqların münbitliyini itirməsidir.

Bu proses ondan xəbər verir ki, Azərbaycanda gələcəkdə yararlı torpaqların sahəsi bir qədər də azalacaq. Belə vəziyyətdə yeganə çıxış yolu kənd təsərrüfatı sahəsi üzrə çalışan sahibkarlara kiçik sahədə daha çox məhsul əldə etmək qabiliyyətinin aşılanmasıdır. Torpaqdan daha səmərəli, daha peşəkar istifadə olmalıdır. Əks təqdirdə onsuz da az olan torpaqların bir hissəsi də sahibarların səhv münsaibəti nəticəsində yararsız vəziyyətə düşəcək. O zaman ölkəmiz üçün ərzaq təhlükəsizliyi daha ağır problemə çevriləcək.

Torpaqdan səmərəli istifadə edilmənin isə bir yolu var. Müəxəssislərin fikrincə, yeganə çıxış yolu kənd təsərrüfatında innovasiyaların tədbiqidir. Hesab edilir ki, Azərbaycanda indi innovasiyalara ən çox ehtiyac duyan sahə məhz kənd təsərrüfatıdır. Mütəxəssislər qəti əmindir ki, aqrar sahənin bütün sektorlarında innovasiyaların tətbiqi həm torpaqların yararlılığını qoruyar, həm də aqrar sahədə sahibkarlıq fəaliyyətinin əlverişliliyi artırar ki, bununla da ölkə əhalisinin kənd təsərrüfatı məhsulları ilə yerli istehsal hesabına təminatı tam həllinin tapar.

İnnovasiya yenilikdir. Lakin hər yenilik innovasiya sayıla bilməz. İnnovasiya elə bir yenilikdir ki, o tədbiq edildiyi sahədə müsbət dəyişikliklərə səbəb olur, səmərəliliyi artırır. Konkret olaraq aqrar sahədən söhbət gedirsə, innovasiya torpağın şumlanmasından başlayaraq, məhsulun əkilməsindən, ona qulluq edilməsindən, suvarılmasından, becərilməsindən, məhsulun saxlanılmasında qədər bütün mərhələləri əhatə etməsi zəruridir.

Hazırda dünyada torpağın şumlanmasının elə bir yeni forması var ki, o torpağın hums qatının (bitkinin yetişməsi üçün mineral maddələrlə zəngin olan torpaq təbəqəsi) qorunmasına xidmət edir və sonradan torpağa daha çox gübrənin verilməsinə ehtiyac qalmır. Azərbaycanda tədbiq edilən şumlama üsulu isə köhnə üsuldur və bu üsulla aparılan şumlama torpağın hums qatını ciddi dərəcədə dağıdır. Buna görə də, bitkinin yetişməsi üçün torpağa böyük miqdarda gübrələrin verilməsi şərtdir.

Əkilən bitkilərin suvarılması məsələsinə də xüsusi diqqət ayrılır. Qabaqcıl təcrübədə əkin sahələrinin damcı və yağış yağdırma üsulu ilə suvarılmasına üstünlük verilir. Ölkəmizdə isə daha

geniş yayılan selləmə usuludur. Selləmə üsulu sudan 10 dəfə artır istifadəyə səbəb olmaqla bərabər əkin sahələrinin şoranlaşması ilə də nəticələnir.

Eyni fikri heyvandarlıq haqqında da demək olar. Azərbaycanda 1,6 milyon baş sağılan iri buynuzlu heyvanın olduğu bildirilir. Bu heyvanlardan il ərzində 1,6 milyon ton süd sağılır. Müqayisə üçün deyək ki, İspaniyada 800 min baş sağılan heyvan var və onlardan bir ildə 6 milyon ton süd alınır.

Bu fakt onu göstərir ki, ölkəmizdə məhsul istehsalının artırılmasının yeganə yolunu sahibkarlar daha çox heyvan saxlamaqda, yaxud kəmiyyəti artırmaqda görür. Halbuki, sahibkarlar yeni innovasiyaları tətbiq etməklə (burada yeni innovasiya daha məhsuldar cinslərin saxlanılması, saxlanma şəraitinin və yemləmənin yüksək standartlara cavab verməsidir) daha az sayda heyvandan daha çox məhsul və həm də daha çox gəlir qazana bilər.

Azərbaycanda son 23 ilin təcrübəsi göstərir ki, yeni innovasiyaların tətbiqini sahibkarların seçiminə buraxmaq olmaz. Vaxt gedir, ötən müddət daha böyük torpaq sahəsinin yararsız hala düşməsinə, əhalinin ərzaq təminatının çətinləşməsinə səbəb ola bilər. Buna görə də mütəxəssislər kooperativ təsərrüfatların yaradılmasına dövlət dəstəyinin göstərilməsini vacib hesab edir. Onların fikrincə, kənd təsərrüfatı üzrə fəaliyyət göstərən fərdi sahibkarlar da dövlət dəstəyinin və kənd təsərrüfatı məhsullarına dövlət sifarişinin olmasını zəruri sayır.

Eyni zamanda dövlət sahibkarlara verdiyi maliyyə dəstəyinin meyarlarında dəyişiklik etməlidir. Hazırkı şərtlərdə dövlət əkilən hər torpaq sahəsinə görə sahibkara 40 manat subsidiya ayırır. Buğda əkinində bu məbləğ 80 manatdır. Amma təcrübə göstərir ki, bu cür subsidiyalaşma siyasəti sahibkarları innovasiyaların tətbiqinə stimullaşdırmır. Mütəxəssislər subsidiya ayrılan zaman üstün texnologiyalardan istifadəyə xüsusi diqqət ayrılmasını tövsiyə edir. Məsələn, Türkiyədə əkin sahəsini damçı və ya yağış yağdırma üsulu ilə suvarmayan sahibkar subsidiya ala bilmir. Dövlət orada qabaqcıl texnologiyalardan istifadə məqsədilə sahibkara dəstək də verir. Eyni təcrübədən Azərbaycanın da istifadə etməsi tövsiyə edilir.

Aqrar sahədə innovasiya problemləri ilə bağlı hər bir ölkədə aqrar sektorda həyata keçirilən innovasiya siyasəti - elmi-texniki istiqamətlərin düzgün seçilməsi, zəruri iqtisadi şəraitin, o cümlədən kənd təsərrüfatına maliyyə dəstəyinin mövcud olması ilə şərtlənir. Belə ki, aqrar sektorda innovasiya sistemi maddi-texniki resursların mövcudluğu və elmi-texniki potensialla müəyyənləşir. İnnovasiya siyasətinin məqsədi məhsulun rentabelli istehsalı, makrosəviyyədə isə innovasiya fəallığının artırılması üçün şəraitin yaradılması, elmi mexanizmlərin formalaşdırılma-sından ibarətdir. Məhz həmin mexanizmlərin köməyi ilə istehsalın təşkilati, iqtisadi, texniki və texnoloji yeniləşdirilməsi prosesi həyata keçirilir.

İnnovasiya fəaliyyətinin səviyyəsi kadrların təhsilindən, texniki-texnoloji hazırlıq səviyyəsindən, baza ixtisasının mövcud olub - olmamasından asılıdır. Bu amil innovasiyanın qavranılmasını və istehsalatda onun istifadəsindən gözlənilən səmərənin əvvəlcədən qiymətləndirilməsini təmin edir. Bazar iqtisadiyyatı şəraitində çoxukladlı kənd təsərrüfatının səmərəliliyi mütəxəssislərin hazırlıq səviyyəsindən və işgüzar keyfiyyətlərindən asılıdır. İstehsalın təkmilləşdirilməsi, sahibkarlıq, menecment, marketinq və qiymətyaratma, vergitutma və maliyyə-kredit təminatı, xarici iqtisadi fəaliyyətin əsasları, habelə hüquq məsələlərinə dair biliklərin mənimsənilməsi praktik mütəxəssis və rəhbər işçi üçün zəruri keyfiyyətlərdir. Kadr ehtiyatlarının zəruri keyfiyyət dəyişiklikləri aqrar sahə mütəxəssislərinin hazırlanmasını, əmək bazarında vəziyyətin dəyişməsi ilə əlaqədar təkrar hazırlıq və ixtisas səviyyəsinin artırılması sisteminin təkmilləşdirilməsini nəzərdə tutur. Bu sistem işçinin bazar konyunkturunun dəyişməsi şəraitində peşəkarlıq baxımından səriştəli və mobil, lazım gəldikdə qısa müddətdə başqa peşə öyrənməyə hazır, informasiya axınından baş çıxara bilən, innovasiyaları qavramağı, daim öz ixtisas səviyyəsini artırmağı bacaran vəziyyətdə olmasına imkan verən biliklər həcmində fundamental baza təhsili almaq konsepsiyasını əsas götürməlidir.

Fikrimizcə, araşdırma və təhlillər göstərir ki, kənddə azad sahibkarlığı inkişaf etdirmək, istehsal vasitələri və torpaq üzərində sahibkarlıq hissini yaratmaq, sərbəst mütərəqqi təsərrüfatçılıq üsullarına keçmək, yeni mülkiyyət münasibətlərini formalaşdırmaq, torpaqdan, texnikadan, sudan və sair maddi ehtiyatlarından səmərəli istifadə etmək yolu ilə məhsul istehsalını artırmaq

mümkündür. Bütün bu məqsədlərin uğurla gerçəkləşdirilməsində isə, ilk növbədə aqrar elm öz sözünü deməlidir. Eyni zamanda, bu sahənin mütəxəssisləri Azərbaycan vətəndaşlarının gələcəkdə ərzaq məhsullarına tələbatının elmi proqnozlarını irəli sürməli, istehsal prosesinin effektivliyini artırmağa xidmət edən, təcrübədə özünü doğruldan yeni metodlar üzərində işləməlidirlər. Bir sözlə, aqrar sahədə effektiv və əsaslandırılmış elmi proqnozların irəli sürülməsi Azərbaycanın ərzaq təhlükəsizliyinin etibarlı təminatı baxımından son dərəcə vacib və aktual məsələdir.

Hər bir ölkənin innovasiya inkişafının səmərəliliyi aqrar sektorda həyata keçirilən innovasiya siyasəti – elmi-texniki istiqamətlərin düzgün seçilməsi, zəruri iqtisadi şəraitin, o cümlədən kənd təsərrüfatına maliyyə dəstəyinin mövcud olması ilə şərtlənir. Dünya iqtisadiyyatının qloballaşması şəraitində Azərbaycanda aqrar bölmənin sabitliyi və dünya kənd təsərrüfatı bazarına inteqrasiyası, ərzaq təhlükəsizliyinin təmini, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, ilk növbədə, səmərəli elmi nailiyyətlərdən istifadə yolu ilə gerçəkləşə bilər.

Aqrar sektorda innovasiya sistemi maddi-texniki resursların mövcudluğu və elmi-texniki potensialla müəyyənləşir. İnnovasiya siyasətinin məqsədi məhsulun rentabelli istehsalı, makrosəviyyədə isə innovasiya fəallığının artırılması üçün şəraitin yaradılması, elmi mexanizmlərin formalaşdırılmasından ibarətdir. Məhz həmin mexanizmlərin köməyi ilə istehsalın təşkilati, iqtisadi, texniki və texnoloji yeniləşdirilməsi prosesi həyata keçirilir. İnnovasiya siyasətinin formalaşdırılmasında bir sıra mühüm amillərin nəzərə alınması vacibdir:

- innovasiya bazarında, iqtisadiyyatda, məhsulların və texnologiyaların çeşidində strateji dəyişikliklərin qabaqcadan proqnozlaşdırılması;
- innovasiya qərarlarına müvafiq münasibət bildirilməsi və onların dəstəklənməsi üçün zəruri tədbirlərin hazırlanması;
- innovasiya dinamikasının ilkin şəraitinin aşkar edilməsi.

İnnovasiya fəaliyyətinin səviyyəsi kadrların təhsilindən, texniki-texnoloji hazırlıq səviyyəsindən, baza ixtisasının mövcud olub-olmamasından asılıdır. Bu amil innovasiyanın qavranılmasını və istehsalatda onun istifadəsindən gözlənilən səmərənin əvvəlcədən qiymətləndirilməsini təmin edir. Bazar iqtisadiyyatı şəraitində çoxukladlı kənd təsərrüfatının səmərəliliyi mütəxəssislərin hazırlıq səviyyəsindən və işgüzar keyfiyyətlərindən asılıdır. İstehsalın təkmilləşdirilməsi, sahibkarlıq, menecment, marketinq və qiymətyaratma, vergitutma və maliyyə-kredit təminatı, xarici iqtisadi fəaliyyətin əsasları, habelə hüquq məsələlərinə dair biliklərin mənimsənilməsi praktik mütəxəssis və rəhbər işçi üçün zəruri keyfiyyətlərdir. Kadr ehtiyatlarının zəruri keyfiyyət dəyişiklikləri aqrar sahə mütəxəssislərinin hazırlanmasını, əmək bazarında vəziyyətin dəyişməsi ilə əlaqədar təkrar hazırlıq və ixtisas səviyyəsinin artırılması sisteminin təkmilləşdirilməsini nəzərdə tutur. Bu sistem işçinin bazar konyunkturunun dəyişməsi şəraitində peşəkarlıq baxımından səriştəli və mobil, lazım gəldikdə qısa müddətdə başqa peşə öyrənməyə hazır, informasiya axınından baş çıxara bilən, innovasiyaları qavramağı, daim öz ixtisas səviyyəsini artırmağı bacaran vəziyyətdə olmasına imkan verən biliklər həcmində fundamental baza təhsili almaq konsepsiyasını əsas götürməlidir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası, 1995
2. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Dərslik. Bakı-2011
3. V.Niftullayev. Sahibkarlığın əsasları. Bakı, 2008
4. “Azərbaycanın statistik göstəriciləri”. Azərbaycan Dövlət Statistika Komitəsi. Bakı 2014.

## ABSTRACT

**Hasanov B.H**

**Development of Literal economy and applying of the agricultural innovations.**

As Azerbaijan selected non-oil sector as the main way, development of agricultural sector is the main way of economical policy. From this side developing agricultural possessor made the applying of innovations necessity.


**РЕЗЮМЕ**

**Гасанов Б.Г**

**Поощрение либеральной эканомики и внедрение инновации в аграрном предпринимательстве**

Так-как Азербайджаном выбран путь экономического развития, основанной на приоритетах развития не нефтяного сектора , развитие аграрного сектора является важнейшим направлением экономческой политики. С этой точки зрения развитие аграрного предпринимательства превращает в необхдимость вндрения инноваций.



NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent* N.Rəhimov

**CEYHUN MAHMUDOV**
*Naxçıvan Dövlət Universiteti*
**TÜKAZBAN HACIYEVA**

**UOT: 658**

# AZƏRBAYCAN RESPUBLİKASINDA NAĞDSIZ HESABLAŞMALARIN MÜASİR İNKİŞAF PROSESİ

**Açar sözlər:** *nağdsız hesablaşmalar, nağdsız ödəniş sistemi, plastik kartlar, POS-terminal, Hökumət Ödəniş Portalı (HÖP)*

**Key words:** the non-cash settlements, the payment system of non-cash, the plastic cards, POS-terminal, the payment portal of government.

**Ключевые слова:** *безналичные расчеты, безналичная система оплаты, пластиковые карты, POS-терминал, Правительственный Платежный Портал (ППП).*

Ölkə iqtisadiyyatını gücləndirmək və inkişaf etdirmək üçün ilk növbədə pul dövriyyəsini yaxşılaşdırmaq lazımdır. Bu da təbii haldır, ona görə ki, bazar iqtisadiyyatı – pul iqtisadiyyatıdır, pul sferasını nizamlamadan sabit iqtisadi artıma nail olmaq mümkün deyil. Maddi nemətlərin əldə edilməsi və xidmət göstərilməsi ilə bağlı bütün sazişlər pul hesablaşmaları ilə nəticələnir. Pul hesablaşmaları – nağd və nağdsız formada pulun öz funksiyalarını yerinə yetirərkən əmtəələrin reallaşmasına xidmət edən, həmçinin qeyri-əmtəə məhsullarının və təsərrüfatda hesablaşmaların hərəkəti formasıdır. Nağd və nağdsız hesablaşmaların köməyi ilə əmtəələrin dövriyyəsi prosesi, həmçinin aktivlərin və borc kapitalının hərəkəti həyata keçirilir. Bankların çoxsahəli şəbəkəsi nağdsız hesablaşmaların geniş tətbiqinə, eləcə də dövlət səviyyəsində onların inkişafının makroiqtisadi proseslərin tənzimləyicisi kimi iştirak etməsinə imkan yaradır.

Respublikamızda bu gün həyata keçirilən sosial-iqtisadi strategiyanın ən əsas prinsiplərindən biri nağdsız hesablaşmaların müasir inkişafını təmin etməkdir. Bunun başlıca səbəbi nağdsız pul hesablaşmaları vasitəsi ilə tədavül xərclərinə əhəmiyyətli dərəcədə qənaət edilməsi, dövriyyə vəsaitlərinin dövriyyəsinin sürətlənməsi, dövriyyədə nağd pulun həcminin azalması, nağd pulun çap edilməsindəki və çatdırılmasındakı gecikmələrin məhdudlaşdırılması və s. kimi üstün xarakterik cəhətlərin olmasıdır.

Azərbaycanda siyasi-iqtisadi müstəqilliyin möhkəmləndirilməsi, büdcə siyasətinin uğurla həyata keçirilməsi, beynəlxalq aləmdə mövqeyinin güclənməsi çoxmilyardlı xarici investisiyaların axınına, iqtisadi əlaqələrin inkişafına səbəb olmaqla yanaşı, nağdsız pul dövriyyəsini genişləndirir. Belə ki, statistik məlumatlara əsasən 2014-cü ildə Azərbaycanda ümumi daxili məhsulda *nağdsız dövriyyənin həcmi 2%-dən 7%-ə yüksəlmişdir*. Eyni zamanda, 2005-2014-ci illərdə ümumi pul dövriyyəsində nağdsız dövriyyənin həcmi 13,5%-dən 27,6%-ə yüksəlmişdir. Lakin hazırkı artım göstəricisini yetərli hesab etmək mümkün deyil.

Ölkədə nağdsız hesablaşmaların inkişafı banklar və kart sahibləri tərəfindən paralel şəkildə həyata keçirilməlidir. Dövlət bu istiqamətdə müəyyən çağırışlar edir və addımlar atır. Lakin əgər müştəri rolunda çıxış edən insanlar ticarət şəbəkələrində kartlar ilə hesablaşma aparmasa, bankomatlar vasitəsilə pulu nağdlaşdırmağa davam etsələr belə təşəbbüslərin dəyəri heçə enə bilər. Başqa sözlə desək, vətəndaşlar özləri nağdsız hesablaşmalarda maraqlı olmalıdırlar.

Qeyd edək ki, ölkəmizdə müasir milli ödəniş sisteminin yaradılması məqsədilə elektron hesablaşma mexanizmi yaradılmışdır. Bank sistemində istifadə edilən elektron hesablaşmaların fəaliyyət mexanizmi plastik kartların istifadəsinə əsaslanır. Bu isə öz növbəsində ödənişlərin real vaxt rejimində elektron qaydada və plastik kartlar vasitəsilə şəffaf, təhlükəsiz, səmərəli reallaşdırılmasına geniş imkanlar açır. Plastik kartlar özündə bankomatlar vasitəsi ilə həyata keçirilən əhalinin ticarət və kütləvi iaşə təşkilatları ilə hesablaşmalarının elektron sistemini və müştərilərlə iş yerlərində aparılan bank hesablaşmaları sistemini birləşdirir. Son dövrlərdə əhalinin mütləq əksəriyyətinin plastik kartlarla təmin edilməsi nağdsız pul hesablaşmalarının kütləviliyi üçün əlverişli şərait yaratmışdır.

Məsələn, hazırda plastik kartlar vasitəsilə bütün dünya üzrə 24 saat ərzində 30 milyondan artıq ticarət və xidmət məntəqəsində alış-veriş etmək, xidmətlərdən faydalanmaq mümkündür.

Fikrimizcə, cəmiyyətimizdə plastik kartlardan istifadə səviyyəsini yüksəltmək üçün ilk növbədə insanların məlumatlandırılması, plastik kartlardan istifadənin üstünlükləri və onlar üçün əhəmiyyətinin təbliğ edilməsi zəruridir. Hər hansı bir konkret məbləğin (vəsaitin) ödənilməsində istifadə edilən müasir texniki imkan – "elektron pul" hansı xüsusiyyətlərinə görə üstünlüyə malikdir. Plastik kartlardan istifadənin üstünlükllərindən bəhs etməzdən əvvəl bir parantez açmaq istərdim. *Qeyd edək ki, muxtar respublikada plaştik kart istifadəçilərinin sayı ilbəil artır. Belə ki, 2008-ci ildə bu rəqəm 80123 olmuşdursa, 2014-cü ilin 8 ayının yekununa görə bu rəqəm 155504 olmuşdur. Başqa sözlə desək, müqayisə edilən bu dövrlər ərzində plastik kart istifadəçilərinin sayı 1,9 dəfə artmışdır. Lakin plastik kartların çoxsaylı imkanlarının olmasına baxmayaraq muxtar respublikada plastik kartlardan əksər hallarda hesabda olan vəsaitin bankomat vasitəsilə nağdlaşdırılması üçün istifadə olunur.*

Halbuki, plastik kartlar bir sıra unikal üstünlüklərə malikdir:

- Plastik kartdan istifadənin rahat olması (rahatlıq)

1. ölkə xaricində və daxilində hər cür alış-veriş əməliyyatları aparmaq imkanının olması, məhsul və xidmətlərin dəyərinin ödənilməsi;
2. konvertasiya əməliyyatı zamanı əməliyyatların istənilən valyutada həyata keçirilməsi;
3. səyahət zamanı nağd pulla bağlı ehtiyacların ödənilməsi. xüsusən xarici səfərlərə gedərkən nağd pul apamağa ehtiyacın olmaması və pulu yerli valyutaya dəyişərkən saxta əskinazları almaq təhlükəsinin olmaması;
4. xarici səfərlərə gedərkən gömrükdən keçirilən pul vəsaitlərinin bəyan edilməsinə ehtiyacın olmaması.
5. müştərinin istəyinə uyğun olaraq eyni kart hesabına bir neçə kart bağlana bilər. Bu yolla eyni ailənin bir neçə üzvü əlavə kart hesabı açmadan öz şəxsi kartı hesabına bu vəsaitlərdən istifadə edə bilər.

- Təhlükəsizlik - ödəniş kartının itməsi və ya oğurlanması zamanı bankı vaxtında məlumatlandırmaqla pul vəsaitlərindən istifadənin qarşısının alınması;
- Vaxta qənaət

1. fərqli ödənişlərin eyni vaxta evdən və ya iş yerindən ayrılmadan yerinə yetirilməsi;
2. vergi və rüsumların, kommunal xərclərin internet vasitəsilə ödənilməsi;
3. mehmanxana nömrələrinin, restoranda stol qeydiyyatının öncədən sifariş edilməsi;
4. avia biletlərinin, mal və xidmətlərin internet vasitəsi ilə alışı.

- Şəxsi büdcənin səmərəli planlaşdırılması

1. pul vəsaitlərinin daxil olması və xərclənməsi barədə hesabatın əldə edilməsi;
2. hesabda olan vəsaitlərə depozit faizlərin hesablanması;
3. ödəniş kartı vasitəsilə həyata keçirilən əməliyyatlar üzrə bonusların əldə edilməsi və ya xərclənən məbləğin müəyyən hissəsinin həyata keçirilən kampaniya çərçivəsində hədiyyə şəklində geri əldə etmək imkanının olması.

*İnsanların nəzərinə plastik kartlardan istifadənin yuxarıda vurğuladığımız üstünlüklərinin çatdırılması, fikrimizcə, nağdsız dövriyyənin həcminə əhəmiyyətli təsir göstərə bilər.*

*Azərbaycanda plastik kartlar hər cür nağdsız ödənişlərə imkan yaradır. Azərbaycanda* «Ata Bank» ASC «Visa» beynəlxalq ödəniş sisteminin üzvü olaraq «Visa Electron», «Visa Classic», «Visa Gold», «Visa Business» və «Visa Platinum» kartlarını emissiya edir. 2012-ci ildən bank, həmçinin, «Maestro», «Master Card Standard», «Master Card Gold» və «Master Card Platinum» kartlarını dövriyyəyə buraxmışdır ki, bu da nağdsız hesablaşmaların əhatə dairəsinin genişləndirilməsinə xidmət edir.

Respublikamızda nağd hesablaşmaların məhdudlaşdırılması və alğı-satqı əməliyyatlarının əsasən nağdsız ödəmələr vasitəsilə aparılması işinə təxminən 8 il əvvəl start verilmişdir. Azərbaycan Respublikası prezidenti İ.H.Əliyevin sərəncamı ilə 2004-cü ilin dekabrında "Azərbaycan Respublikasında Milli Ödəniş Sisteminin inkişafı üzrə 2005-2007-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi nağdsız hesablaşmaların tətbiqi prosesini gücləndirmişdir. İstənilən prosesdə şəffaflıq

yaratmaqla yanaşı, nağd hesablaşmaların məhdudlaşdırılması anti-inflyasiya tədbirlərindən biri kimi də həyata keçirilir ki, bu prosesin tərkib hissəsi POS-terminalların tətbiqidir.

Dövlət Proqramının icrasına başlanılan ötən dövr ərzində Milli Ödəniş Sistemində iştirak edən bankların sayı 44-ə, onların filial və şöbələrinin sayı isə 827-yə çatmışdır. Bütövlükdə həmin banklar tərəfindən quraşdırılmış bankomatların sayı 2006-cı ilə nisbətən 2,7 dəfə artaraq 2168-ə, POS-terminalların sayı isə 21 dəfədən çox artaraq 33.568-ə çatmışdır. POS-terminalların 32 mindən çoxu obyektlərdə, 1000-ə yaxını taksilərdə quraşdirilmışdır. Ümumilikdə 4 kart sistemi - «Azəri Kart», «Milli Kart», «Kapital Kart» vasitəsilə dövriyyəyə 4,58 milyon kart buraxılmışdır. Bunlardan 2,55 milyonu sosial ödəniş kartı, 1,33 milyonu maaş kartı, 0,18 milyonu kredit kartı, 0,55 milyonu digər təyinatlı kartlardır.

Respublikamızda nağdsız hesablaşmaların stimullaşdırılması məqsədilə müəyyən dövr üçün bonus sistemlərinin tətbiq edilməsi məqsədəuyğundur. Bu zaman plastik kartlardan istifadə edərək alğı-satqı edənlərin ödədiyi vəsaitin bir qismi (məsələn, 3 faizi) sonradan həmin şəxsin hesabına qaytarıla bilər. Bu, vətəndaşları nağdsız hesablaşmalardan istifadəyə təşviq edər. Bununla da, vətəndaşlarda plastik kartlardan istifadə ənənəsi formalaşar ki, bu da uzunmüddətli dövr üçün nağdsız hesablaşmalardan istifadə üçün daha çox zəmin yaradacaqdır.

2011-ci ildə www.apus.az Hökumət Ödəniş Portalının (HÖP) yaradılması nağdsız ödənişlərin həcminin artırılması sahəsində həyata keçirilmiş mühüm layihələrdən biri kimi qiymətləndirilir ki, ötən il ərzində həmin sistem vasitəsilə həyata keçirilmiş orta günlük ödənişlərin sayı 64 min, həcmi 1,05 milyon manat olmuşdur. HÖP vasitəsilə vergi və gömrük rüsumlarını, icarə haqlarını, inzibati cərimələri və digər ödənişləri real vaxt rejimində elektron formada ödəmək mümkündür.

Azərbaycanda nağdsız ödəniş sisteminin tətbiqi ilə bağlı digər ölkələrin təcrübəsinə də istinad olunmalıdır. Xüsusən də nağd ödənişlər üçün müəyyən məhdudlaşdırıcı həddin müəyyənləşdirilməsi zamanı xarici təcrübənin öyrənilməsi vacibdir. Lakin bununla yanaşı, əhali arasında maarifləndirmə tədbirlərinin genişləndirilməsi də zəruri məsələlərdən biridir. Fikrimizcə, bu prosesdə dövlət qurumları, biznes strukturları ilə yanaşı, medya və vətəndaş cəmiyyəti institutlarının da fəal iştirakının təmin olunması vacibdir.

Qeyd edək ki, mütəxəssislər əmindir ki, nağdsız hesablaşmaların zaman ötdükcə nağd hesablaşmaları tədavül sferasından sıxışdırıb çıxaracağı labüddür. Çünki bu, dünya tendensiyasının tələbidir. Onların fikirlərinə əsasən onu söyləmək olar ki, nağdsız hesablaşmaların səviyyəsi ölkə iqtisadiyyatının inkişafını müəyyən edən əsas meyarlardan biridir. Yəni iqtisadi tərəqqi nə qədər yüksək olarsa, dövriyyədə bir o qədər az nağd pul olar. Nağd pulun azlığı həm korrupsiyaya, həm vergidən yayınmaya, həm də qara bazara vurulan ciddi zərbədir. Bir sözlə, bütün bunlar əhalinin həyat və yaşam səviyyəsinin yüksəldilməsinə xidmət edən amillərdən biridir.

Nağdsız hesablaşmalar inkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycan üçün də hər cəhətdən səmərəlidir. Müasir dünyada yüksək mədəniyyət göstəricisi kimi qəbul olunan nağdsız ödənişlərin korrupsiya, rüşvətxorluq və vergidən yayınma hallarına qarşı səmərəli mübarizə vasitəsi olduğundan dövlət biznes strukturlarını bu sahədə həyata keçirdiyi tədbirlərə dəstək verməyə çağırmışdır. Nağd hesablaşmalardan fərqli olaraq nağdsız hesablaşmaların üstün cəhəti pul vəsaitlərini nəzarətdən və vergiyə cəlb olunmaqdan gizlətməyin mümkünsüzlüyü, pulun hərəkəti üzərində şəffaflığın təmin olunmasıdır. Nağdsız hesablaşmaların üstünlüklərindən biri də məmur vətəndaş münasibətlərinin tənzimlənməsinə və korrupsiya üçün şəraitin məhdudlaşdırılmasına zəmin yaratmasıdır. Başqa sözlə desək, nağdsız hesablaşmalar korrupsiyaya qarşı dünyada sınaqdan keçmiş metodlardan biri hesab olunur.

Son olaraq qeyd edək ki, Azərbaycan hökuməti ölkədə nağdsız hesablaşmaların dairəsini genişləndirmək məqsədilə əhəmiyyətli addımlar atır. Elə onun nəticəsidir ki, həm nağdsız hesablaşmaların səviyyəsində, həm də bu sahədə insanların biliklərinin artmasında nəzərə çarpacaq inkişaf müşaiyət olunur. Başqa sözlə desək, biz bu gün kağız pullardan tam azad olmağa çalışaraq, daha intellektual bir məsələnin həllinə istiqamətlənmiş texnologiyalardan istifadə edərək, nağdsız hesablaşmaların inkişafını yaxşılaşdırmaq istəyindəyik.

## ƏDƏBİYYAT

1. Prof. E.M.Sadıqov. "Bank əməliyyatları", Dərslik. 2010.
2. Azərbaycan Dövlət Statistika Komitəsi “Azərbaycanın statistik göstəriciləri” Bakı-2014.
3. İ.Ə.Abdullayev, R.V. Əsgərova “Bank işi” Bakı , 2009.
4. F.Kaşiyeva. "Azərbaycan banklarının investisiya fəaliyyətinin prioritet istiqamətləri". Bakı, 2013.
5. Azərbaycan Respublikasında “Nağdsız hesablaşmalar və pul köçürmələri” haqqında Təlimat (19 sentyabr 2002-ci il).

**ABSTRACT**

**Ceyhun Mahmudov**
**Tukazban Haciyeva**

**The modern process of development of non-cash settlements in the Republic of Azerbaijan**

In this article investigated process of development of non-cash settlements, was emphasized the importance of non-cash settlements, revised the actions which was implemented in this direction, and given ideas as recommendations which is possible in our Republic.

**REЗЮME**

**Джейхун Махмудов**
**Tukazban Гаджиева**

**Процесс современного развития безналичных расчетов в Азербайджанской Республике**

В статье расследован процесс развития безналичных расчетов в Азербайджанской Республике, подчеркнуто важность безналичных расчетов, рассмотрены меры принятие в этом направлении, даны более возможные рекомендации.

---

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)
Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* N.Əhmədov

**FAMİL HƏSƏNOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 658**

# İQTİSADİ TƏHLÜKƏSİZLİYİN QORUNMASINDA İNVESTİSİYA SİYASƏTİNİN ƏHƏMİYYƏTİ VƏ VERGİ TUTMANIN SƏMƏRƏLİLİYİ

**Açar sözlər:** *iqtisadi təhlükəsizlik, investisiya siyasəti, vergitutma, maliyyə.*

Dünya iqtisadiyyatının qloballaşması şəraitində cəmiyyətin inkişaf etdirilməsi və onun üzvlərinin rifahının təmin edilməsi mühüm dərəcədə onların fəaliyyətinin təhlükəsizliyindən, bu təhlükəsizliyin həyata keçirilməsindən asılıdır. Bu təhlükəsizliyin vacib tərkib hissəsi kimi İnvestisiya təhlükəsizliyi və iqtisadi təhlükəsizlik çıxış edir. İnvestisiya təhlükəsizliyi isə təsərrüfat obyektlərinin fəaliyyətinin iqtisadi səmərəliliyi ilə, iqtisadi müstəqillik, sabitlik və cəmiyyətin təhlükəsizliyi ilə ayrılmaz şəkildə bağlıdır.Milli iqtisadiyyatın istənilən tərkib hissəsinin, o cümlədən investisiya imkanlarının zəifləməsi özünü bilavasitə iqtisadi təhlükəsizlikdə biruzə verir. Bununla əlaqədar olaraq, iqtisadi artım üzrə dövlət vəzifələri realizə olunduğu zaman investisiya məsələlərinə xüsusi diqqət yetirilməlidir. Azərbaycan iqtisadiyyatının təsərrüfat subyektlərinin, xüsusən milli sahibkarlığın fəallığının inkişaf etdirilməsinin maliyyə-vergi üsullarının müəyyən olunması iqtisadi təhlükəsizliyin təmin edilməsində ən optimal yollardan biri kimi çıxış edir. Təhlükəsizlik anlayışının daha konkret sferasında ciddi tədqiqatlar aparmış rus alimi S.V.Stepaşinə görə iqtisadi təhlükəsizlik-iqtisadiyyatın elə durumudur ki, bu zaman uzun müddətə şəxsiyyətin həyatı və harmonik inkişafi, cəmiyyətin və dövlətin sosial-iqtisadi, siyasi, mənəvi-psixoloji sabitliyi üçün layiqli şərait, bütün növ resursların optimal məsrəfləri ilə təbii amillərin tükənməyə yol açmayan istifadəsi daxili və xarici təhlükələrin təsirinə qarşı tab gətirmək qabliyyəti təmin edilir.

Hazırda ölkə iqtisadiyyatına qoyulan investisiyaların məbləğinin ildən-ilə artması onu tələb edir ki, müxtəlif mənbələrdən olan investisiyalardan səmərəli istifadə etmək lazımdır. Belə ki, ölkə iqtisadiyyatına investisiya axınının cəlb edilməsi çox mühüm əhəmiyyət kəsb edir. Xarici investisiyaların Azərbaycan iqtisadiyyatına yönəldilməsində beynəlxalq və regional iqtisadi təşkilatlarla yanaşı respublikada fəaliyyət göstərən xarici investisiyalı təşkilatlar, firmalar, onların nümayəndəlikləri və s. qurumlar da mühüm rol oynayırlar. Təkcə 2012-ci ildə ÜDM-in həcmi 3,4%, sənaye məhsulunun artımı isə 5,1% artmışdır.Bütün bunlar ÜDM-in həcminin artırılmasında investisiyaların rolu böyük olmasını göstərir və bu istiqamətdə daha çox kapital axınının stimullaşdırılmasını şərtləndirir.

Bir çox iqtisadi ədəbiyyatlarda investisiyalarla bağlı çoxlu elmi interperatasiyalara rast gəlinir. Burada ümumi olan odur ki, "investisiya dedikdə, mənfəət və ya sosial effekt əldə edilməsi məqsədilə sahibkarlıq obyektləri və digər növ fəaliyyətlərə qoyulmuş maliyyə vəsaiti, eləsə də, maddi və intellektual qiymətlər nəzərdə tutulur. İnvestisiya mühiti və onun idarə edilməsində başlıca vasitə olan investisiya siyasəti dövlətin iqtisadi siyasətinin mühüm atributudur. İnvestisiya prosesləri əsas kapitalın artırılması və yeniləşdirilməsi, innovasiyalı inkişafın, struktur təkmilləşmələrin həyata keçirilməsinə və istehsalın səmərəliliyini yüksəldən bu kimi vəzifələrin icrasına yönəldilir. Həmin vəzifələrin müqabilində investorların öhdəlikləri ölkənin iqtisadi təhlükəsizliyinə mühüm təsir göstərir.

Qeyd olunmalıdır ki, investisiya fəallığının aşağı düşməsi,elmi-texniki potensialın dağılmasının əsas səbəbi tikinti məhsullarının həcminin azalması, alt sahələr arasındakı iqtisadi əlaqələrin pozulması, investisiya sferasında strateji istiqamətlərin düzgün müəyyənləşdirilməməsi və eləcə də investisiya fəallığının aşağı düşməsinə istehsal potensialının köhnəlməsinin də güclü təsiri ola bilər. Belə ki, istehsalın texniki səviyyəsinin yüksəldilməsi investisiya, o cümlədən xüsusi investisiya qoyuluşlarının həcmindən birbaşa asılıdır. Bu qeyd olunan göstəricilər respublikanın iqtisadi təhlükəsizliyinə də təsir göstərir. Həmin vəziyyətdən çıxış kimi, vergi mexanizmlərindən səmərəli istifadəni və xarici investisiyaların kompleks şəkildə cəlb olunmasını göstərmək olar.

Xarici investorların maliyyə vəsaitlərinin xarici və daxili təhlükədən qorunması üçün dövlət səviyyəsində tədbirlər görülməlidir. Özəl investisiyalar üçün təhlükə yarada biləcək amilləri aşağıdakı kimi qruplaşdırmaq olar.

-Bank sisteminin qeyri-sabitliyi,

-Fond bazarının fəaliyyətindəki qeyri sabitlik,

-Fiziki şəxslərin və kommersiya banklarının vəsaitlərinin sığortalanmaması,

-Qiymətli kağızlar bazarının fəaliyyətinin beynəlxalq standartlara müvafiq olmaması,

Vergiqoyma sistemi investisiyalaşdırma ilə bağlı qərara, xüsusilə də birbaşa xarici investisiyalara mühüm təsir edici amillərdən biridir. Bütövlükdə investisiya cəlbediciliyi barədə qərarların qəbul olunmasına həm vergi, həm də qeyri vergi amillər təsir göstərir. Həmin amillərin köməyi ilə investisiyalardan potensial gəlirin və riskin müqayisəsi aparılır.

İnvestisiyaların cəlb edilməsinə həm də gəlirlə bağlı olmayan vergilər təsir göstərir. Bazar iqtisadiyyatı ölkələrin əksəriyətində islahatların ilkin mərhələsində vergilər firma gəlir əldə etmədiyi halda da ödənilməli idi. Bu adətən investisiyalaşdırmanın ilkin mərhələsində mövud olan yüksək risklərlə və ya şirkətin operativ xərclərinin artması ilə bağlı əsas məsrəflərin çoxalmasına gətirib çıxarırdı.

Qeyd etmək lazımdır ki, investorun davranışına mühüm dərəcədə vergi sistemi təsir göstərir.Bu tədqiqat işində biz yalnız respublika büdcəsində vergi daxilolmaların mühüm hissəsini təşkil edən gəlirlərlə bağlı vergiqoymanın səmərəliliyi nəzərdə tuturuq.

Vergitutmanın səmərəliliyi dedikdə, sözün geniş mənasında vergilərin üzərinə qoyulmuş sosial-iqtisadi funksiyaların yerinə yetirilməsi başa düşülür. Səmərəli sayılması üçün vergi sistemi ən azı aşağıdakı tələblərə cavab verməlidir:

-dövlətin sosial-iqtisadi və ictimai-siyasi funksiyalarının lazımi səviyyədə yerinə yetirilməsi üçün tələb olunan maliyyə vəsaitləri vergi daxilolmaları hesabına təmin edilmiş olsun;

-istehsal sahələrində yenidənqurma proseslərinin geniş şəkildə baş verməsi üçün tələb olunan maliyyə imkanları təmin edilsin (bu tələb onu göstərir ki, istehsal subyektləri tərəfindən vergilər ödənildikdən sonra onların sərəncamında qalan vəsaitlər iqtisadiyyatın real sektorunda istehsal proseslərinin davam etdirilməsi və inkişafı üçün kifayət etsin);

-dövlətin sosial-iqtisadi inkişaf proqramında nəzərdə tutulan tapşırıqların icrasını təmin edən normalar vergi qanunvericiliyində müəyyən edilmiş olsun.

Mövcud vergitutmanın dar mənada səmərəliliyi dedikdə isə, vergi funksiyalarının yerinə yetirilməsi üçün tələb olunan potensial imkanları özündə təsbit edən sistemdaxili optimal xüsusiyyətlər başa düşülür.

Ümumiyyətlə, hər bir cəmiyyətdə dövlət öz vergisistemini ümumi dövlət maraqlarına əsasən müəyyən edir. İlk növbədə dövlət büdcəsinin, büdcədənkənar fondların və dövlət məqsədləri üçün yaradılmış digər xüsusi fondların gəlirlərinin təmin edilməsi ilə bağlı məsələlər həll edilir, ikinci növbədə isə vergi sistemi vasitəsilə iqtisadiyyata təsir göstərilərək iqtisadi inkişafı, investisiyaları, dotasiyaları və sosial təminatları müəyyən edən bu və ya digər siyasət həyata keçirilir. Bununla da vergi sistemindən sosial-iqtisadi məsələlərin dövlət tənzimlənməsi, iqtisadiyyatın idarə olunması alət kimi istifadə olunur.

Qeyd etmək lazımdır ki, sosial-iqtisadi proseslərin tənzimlənməsində vergilərin böyük rol oynadığına baxmayaraq, dünya təcrübəsində sübut edilmişdir ki, bütün problemləri heç də həmişə vergi sistemi vasitəsilə həll etmək mümkün olmur. Çünki vergilərin tətbiqinin öz təsir sferası vardır, iqtisadi tənzimləmələrdə vergi alətlərindən yalnız onun çərçivəsində istifadə etmək olur. Bu sərhədlərin süni şəkildə genişləndirilməsinə yönəldilən cəhdlər ən yaxşı halda nəticəsiz qala, pis halda isə yeni problemlərin yaranmasına gətirib çıxara bilər. Misal üçün, müasir dövrdə ən mürəkkəb problemlərdən biri iqtisadiyyatın real sektorunda maliyyə potensialının bərpası ilə bağlıdır. Bu problemin həllinə təkcə vergi mexanizmi vasitəsilə nail olmaq qeyri-mümkündür. Bu sahədə maliyyə, kredit, xidmət və valyuta siyasəti, razılaşdırılmış tədbirlər kompleksi və dövlətin əlində olan vasitə və metotlardan istifadə olunmalıdır.

Ümumiyyətlə, təsərrüfat subyektlərinin fəaliyyəti bir çox faktorların təsiri nəticəsində formalaşır. Adətən, vergilər belə faktorların ən başlıcası kimi qəbul edilir. Bununla belə, yüksək

rentabelli sahələrin (neft-qaz, alkoqollu içkilər, tütün məmulatları və s.) misalında görmək olar ki, onların vergi yükünün yüksək olmasına baxmayaraq, həmin sahələr istənilən iqtisadi sistemdə daimi inkişafda olan fəaliyyət göstərməklə investorlar üçün daha cəlbedici olur. Digər tərəfdən, başqa sahələrlə müqayisədə daha çox vergi güzəştləri nəzərdə tutulsa da, aşağı rentabelli (obyektiv səbəblərə görə) sahələr investorlar üçün nisbətən az maraq doğurur (kənd təsərrüfatı, infrastruktur və bir çox hasilat sahələri).

Qeyd olunanlar belə nəticəyə gəlməyə əsas verir ki, müəyyən hallarda vergi mexanizminin təsiri kifayət qədər zəifləyə və ya tam bağlanıla bilər. Vergi sisteminin düzgün qiymətləndirilməməsi və həmçinin onun imkanlarından tam istifadə olunmaması səmərəliliyi aşağı salır və optimal kriteriyaların müəyyən olunmasına maneələr yaradır. Vergi sisteminin imkan və funksiyalarına real olmayan şəkildə qiymətləndirilməsi maliyyə və iqtisadi problemləri həll etmək qabiliyyətini aşağı salmaqla iqtisadi böhranın aradan qaldırılmasına imkan vermir və onun üzərinə düşən problemlər həll edilməmiş qalır. Müasir dövrdə əsas diqqət vergi siyasətinin səmərəliliyinə yönəldilməklə yanaşı, bir sıra digər iqtisadi alətlərdən də (qiymət, pul, kredit və s.) geniş şəkildə istifadə olunur.

Qeyd etdiyimiz kimi, Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsində ARDNF-in rolu olduqca böyükdür. Belə ki, Xarici investisiyaların cəlb olunması prosesi, əsasən, 1994-cü ildən başlanmışdır. Bunun da başlıca səbəbi ölkəmizdə yaranan sabirliyin, təbii sərvətlərin istifadəsi üçün şəraitin təşəkkül tapmasının, hüquqi bazanın formalaşmasında lazımi səviyyənin əldə olunmasının nəticəsi idi. Hər bir investor bu və ya digər ölkəyə sərmayə qoymaq istəyərkən öz strateji maraqlarından çıxış edərək, həmin ölkədəki investisiya mühitinin əlverişliliyi ilə maraqlanırlar. İnvestisiya mühitinin əlverişliliyi isə ölkədəki resurs potensialının səviyyəsindən, investisiya qoyuluşunun risk dərəcəsinin minimum olması və qanunvericiliyin təkmil olunması kimi amillərdən asılıdır.

Azərbaycan Respublikasının Ümümmilli Lideri Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixdə qəbul edilmiş və 29 dekabr 2000-ci il tarixli qərarı ilə təsdiq edilərək Neft Fondunun yaradılması, ilk növbədə 1994-cü ildən başlayaraq, həyata keçirilən neft strategiyası hesabına mümkün olmuşdur.

ARDNF-in xərcləri dövlət büdcəsinin tərkib hissəsidir və dövlət büdcəsi ilə birlikdə Milli Məclisdə müzakirə edildikdən sonra təsdiq edilir.ARDNF-in dövlət büdcəsinə etdiyi transferlər investisiya layihələrinin və sosial proqramların maliyyələşdirilməsinə yönəldilir və beləliklə, respublikamızın iqtisadi təhlükəsizliyini təmin etmiş olur.

Yekunda qeyd etməliyik ki, istər xarici və istərsə də daxili investisiyalar milli iqtisadiyyatın inkişaf strukturuna və tempinə, texnoloji proseslərin intensivləşməsinin iqtisadi-ekoloji xarakterinə, resurslardan istifadənin səmərəliliyinə, gəlirlərin bölüşdürülməsi, bir sözlə, ölkənin iqtisadi təhlükəsizliyinə həlledici təsir göstərməklə, maksimum mənfəət əldə edilməsinə yönəldilir. İnvestorların inkişaf strategiyası baxımından hərtərəfli qiymətləndirilməli və milli maraqlara üstünlük verilməlidir. Ölkəmizin iqtisadiyyatına investisiya axınının gücləndirilməsi yolu ilə onun təsərrüfat subyektlərinin fəallığının artırılması müvafiq maliyyə-vergi üsullarının geniş tətbiqi ilə nail olmaq mümkündür. Eyni zamanda, dövlətin bütün investorlar üçün yaratdığı fəaliyyət mühiti beynəlxalq standartlara daima uyğunlaşdırılmalıdır. Bu prosesdə ARDNŞ-nin imkanları böyükdür. Bu şirkərin maliyyə imkanlarından istifadə etməklə respublikamızda bir sıra irihəcmli investisiya layihələrini həyata keçirmək mümkündür. Bu proses özü-özlüyündə həm də ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasının mühüm amillərindən biri kimi çıxış edir.

## ƏDƏBİYYAT

1. Əliyev R., Novruzov N., Məmmədov M. İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. Bakı: 2003. 440 s.

2. Azərbaycan iqtisadiyyatı. Dərslik. İ.H.Aliyev, S.A.İbadovun rəhbərliyi ilə. Bakı, Ağrıdağ, 1999, 400 s.
3. Azərbaycanın vergi jurnalı. Bakı- 5/2014.212 s.
4. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu.
5. Səmədzadə Z.Ə. (2002) Milli iqtisadiyyat və sahibkarlıq."İqtisadiyyat" qəzeti
6. "Vergilər" qəzeti. 2014-cü il.
7. Azərbaycan Respublikasının regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafi Dövlət Proqramı. Bakı, 14 aprel 2004-cü il
8. Musayev A.F.(2014). Vergi siyasətinin iqtisadi problemləri. Bakı.285 s
9. Azərbaycanın vergi jurnalı. Bakı-2/ 2014. 212 s.

## XÜLASƏ

**Famil Həsənov**

**İqtisadi təhlükəsizliyin qorunmasında investisiya siyasətinin əhəmiyyəti və vergitutmanın səmərəliliyi**

Məqalədə investisiya sahəsində Azərbaycan iqtisadiyyatının təsərrüfat subyektlərinin, xüsusən milli sahibkarlığın fəallığının inkişaf etdirilməsinin bir sıra maliyyə-vergi üsullarının müəyyən olunması, Azərbaycan iqtisadiyyatına investisiya axının gücləndirilməsi ilə onun təsərrüfat subyektlərinin fəallığının artırılması istiqamətində müvafiq üsullar müəyyən edilmişdir. İstər xarici və istərsə də daxili investorların maliyyə vəsaitlərinin xarici və daxili təhlükədən qorunması üçün dövlət səviyyəsində müvafiq tədbirlərin istiqamətləri göstərilmişdir. Ölkənin həyatı üçün strateji əhəmiyyət kəsb edəninvestorların fəaliyyət dairələrinin beynəlxalq standartlara uyğunlaşdırılmasında iri şirkətlərin maliyyə imkanlarının mühüm rol oynamaları şərh edilmişdir.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)
Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* T.Abbasov

**HƏSƏN MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*
*hesenmemmedov@hotmail.com*

**UOT: 332.1**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATININ DAYANIQLI İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Açar sözlər:** *dayanıqlı inkişaf, güzəştli kredit, kənd təsərrüfatı ili,sosial-iqtisadi inkişaf.*
**Key words:** *sustainable development,preferential loans,agricultural year,socio-economic development.*
**Ключевые слова:** *устойчивое развитие, льготные кредиты, сельскохозяйственный год, социально-экономическое развитие.*

Ölkəmizin və onun ayrılmaz hissəsi Naxçıvan Muxtar Respublikanın sosial-iqtisadi inkişafında kənd təsərrüfatının rolu inkar edilməzdir Ölkə iqtisadiyyatında kənd təsərrüfatının özünəməxsus yerinin olması isə heç də təsadüfi deyil. Dövlət əhalinin ərzağa olan daxili tələbatını, əsasən, öz potensialı və imkanları hesabına ödəyə bilməsi üçün regionlarda infrastruktur sahələrinin yaradılması və kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində mühüm islahatlar reallaşdırıb və bu proses davam etdirilir. Eyni zamanda, iqtisadiyyatımızda kənd təsərrüfatı neft və tikinti sahələrindən sonra üçüncü ən böyük sahə olmaqla iş yerləri ilə təminatda ayrıca xüsusi çəkiyə malikdir. Bu sahə kənd yerlərində yoxsulluğun azaldılmasına əsaslı təkan verən sektor olduğundan, kənd təsərrüfatının inkişaf etdirilməsi və müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür, aqrar sektora qoyulan investisiyalar ilbəil artır. Dövlət tərəfindən subsidiyalar ayrılır, aqro xidmət sahələri yaradılır, güzəştli şərtlərlə gübrə, yanacaq paylanılır, lizinq yolu ilə yeni texnikalar verilir. Fermerlərə verilən güzəştli kreditlər hesabına kənd yerlərində yeni istehsal sahələri yaranır(1).

Ölkə iqtisadiyyatının prioritet sahəsi olan qeyri-neft sektorunda, xüsusi əhəmiyyətə malik kənd təsərrüfatı sürətlə inkişaf edir. Kənd təsərrüfatının inkişafına göstərilən qayğı nəticəsində ölkə ərazisində məhsul istehsalının artımı mütəmadi olaraq təmin olunmaqdadır. Bu istiqamətdə qarşıya qoyulan məqsədə müvəfəqiyyətlə çatmaq üçün ölkə prezidentinin təşəbbüsü ilə bu il, 2015-ci təsərrüfat ili "Kənd təsərrüfatı ili" elan edilmişdir. Burada başlıca məqsəd aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmək, bu sahəyə dövlətin inzibati və maliyyə resurslarını səmərəli şəkildə cəlb etmək, innovasiya yolu ilə qabaqcıl texnologiyanın tətbiqi nəticəsində kənd təsərrüfatında məhsul istehsalını artırmaq, kənd təsərrüfatının inkişafına təkan vermək və onun modernləşdirilməsini sürətləndirmək, nəticədə ölkə əhalisinin kənd təsərrüfatı məhsullarına artmaqda olan tələbatını maksimum səviyyədə ödəməkdən ibarətdir (8).

Kənd təsərrüfatının ölkə iqtisadiyyatı üçün əhəmiyyətli sahə olduğunu nəzərə alaraq ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da kənd təsərrüfatının inkişafı məqsədilə dövlət tərəfindən hər il ciddi tədbirlər görülməklə, torpaq mülkiyyətçilərinə daha yaxşı çalışmaq üçün əlverişli şərait yaradılmaqdadır. Bu gün Naxçıvanda aparılan aqrar islahatlar kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq kimi sahələrinin, eləcə də emal sənayesinin inkişafına etibarlı zəmin yaratmışdır. Dövlətimiz tərəfindən kənd təsərrüfatı sahələrinin sürətli inkişafı məqsədilə bir sıra sərəncam və qərarlar qəbul edilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada aqrar sahənin davamlı inkişafı üçün zəmin yaratmışdır. Bütün bunlar hesabına muxtar respublikanın aqrar sahəsində ilbəil iqtisadi artım müşahidə olunmuşdur. Qeyd etmək lazımdır ki, 2014-cü ildə də digər iqtisadi sahələrdə olduğu kimi, kənd təsərrüfatında da iqtisadi artım davam etmişdir(1,2,3).

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına dair statistik məlumatlarına əsasən, demək mümkündür ki, 2014-cü ildə kənd təsərrüfatı məhsulları 2013-cü illə müqayisədə 6,1 faiz artmışdır (8).

Apardığımız tətqiqatlardan aydın olur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın qəbul edildiyi 2008-ci illə müqayisədə bitkiçilik məhsullarının həcmi 2,4 dəfə artaraq 229 milyon 646 min manata, heyvandarlıq məhsullarının həcmi isə 2,1 dəfə artaraq 125 milyon 511 min manata çatmışdır. Bu gün dövlət tərəfindən kənd təsərrüfatı istehsalçılarına və emal müəssisələrinə geniş texniki və maliyyə dəstəyinin göstərilməsi aqrar bölmənin inkişafında mühüm rol oynayır(8).

"Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Azərbaycan Prezidentinin 2007-ci il 23 yanvar tarixli Sərəncamına uyğun olaraq, kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri yanacağın, mühərrik yağının və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsi, buğda səpininin, toxum və ting istehsalının subsidiyalaşdırılması kənd təsərrüfatı istehsalına güclü təkan vermişdir. Bununla yanaşı, ölkəyə xaricdən damazlıq heyvanların gətirilməsi və istehsalçılara lizinq yolu ilə 50 faiz güzəştlə satılması həyata keçirilir.İstehsalın həcmini davamlı olaraq artırmaq məqsədi ilə aqrar sahənin kənd təsərrüfatı maşın və mexanizmləri, mineral gübrələrlə təchizatı mütəmadi olaraq yaxşılaşdırılır. Belə ki, bu günə kimi "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 1505 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq alınaraq muxtar respublikaya gətirilmiş, onun xeyli hissəsi ötən il lizinq yolu ilə məhsul istehsalçılarına yönləndirilmişdir. Təkcə ötən il ərzində aqrar sektorda məhsul istehsal edən sahibkarlara 3867,3 ton mineral gübrə verilmişdir ki, bu da yüksək məhsuldarlıq üçün zəmin yaratmışdır. İnanırıq ki, görülmüş məqsədyönlü tədbirlər nəticəsində gələcəkdə də bu sahədə iqtisadi artım davam etdiriləcəkdir (8).

Muxtar respublikada kənd təsərrüfatının davamlı və dayanıqlı inkişafını bundan sonra da təmin etmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

1.Kənd təsərrüfatı məhsulları istehsal edən fermer təsərrüfatlarında, bir qayda olaraq, uçot-hesabat işlərini nizama qoymaq;

2.Təsərrüfat subyektlərinə hər il uzunmüddətli bank kreditləri ayırmaq və bu zaman zəruri təsərrüfat sahələrinin inkişaf etdirilməsinə üstünlük verən tədbirlər hazırlamaq və bunu təşviq etmək;

3.Muxtar respublika ərazisi, əsasən, dağlıq və dağətəyi relyefə malik olduğundan, Azərbaycanın digər bölgələri ilə müqayisədə, burada kənd təsərrüfatını inkişaf etdirmək məqsədi ilə daha da güzəştli şərtlər tətbiq edilməsinin vacib və əhəmiyyətliliyini nəzərə almaq;

4.Muxtar respublika ərazisində fəaliyyət göstərən kəndli fermer təsərrüfatlarına verilən kreditlərin iqtisadi mexanizmini sadələşdirmək, uzunmüddətli və güzəştli kredit sistemini tətbiq etmək.

5.Kəndli fermer təsərrüfatlarında istehsal olunacaq məhsullara dövlət tərəfindən hasilat normaları qoymaq, istehsal olunmuş məhsulların artıq hissəsinin dövlət tərəfindən tədarük olunaraq, emal müəssisələrinə göndərilməsini təşkil etmək.

6.Dövlət sahibkarları kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yaradılmasına istiqamətləndirməli, hazır məhsulun bazara çıxarılması üçün onlara lazımı dəstək göstərməlidir.

Fikrimizcə, sadaladığımız tövsiyələrin kənd təsərrüfatının inkişafi istiqamətinə tətbiqi bundan sonra da muxtar respublikada dayanıqlı inkişafın təmin olunmasına təkan verər və nəticədə əhalinin maddi və mədəni rifah halı daha da yaxşılaşa bilər.

## ƏDƏBİYYAT

1. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları etibarlı təminatına dair Dövlət Proqramı".
2. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafi Dövlət Proqramı"
3. "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"
4. "Aqrar sahədə islahatların sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 mart 1999-cu il tarixli fərmanı.
5. M.C.Hüseynov Aqrar bölmənin dayanıqlı inkişaf problemləri. Bakı, 2006. səh. 310
6. M.M.Sadıqov Maliyyə potensialı: formalaşma və aqrar sahənin prioritetliyi. Bakı, 2009. səh.294
7. M.M.Sadıqov, M.C.Hüseynov, H.H.Həsənov. Kənd təsərrüfatının maliyyəsi. Gəncə, 2012. səh. 403.
8. http:/www.statistika.nmr.az

**ABSTRACT**

**Hasan Mammadov**

**The directions of the sustainable agricultural development in Nakhchivan AR**

The work deals with the the directions of the sustainable agricultural development in NAR. It is shown that important works ate carried out in the directions of the sustainable agricultural development,investments in the agricultural sector isgrowing every year. As a result,agriculture develops sustainably.

The agrarian reforms in NAR paved the way tobthe development of processing industry,crop and livestock.

Finally,recommendations for sustainable directions agricultural development is given.

**РЕЗЮМЕ**

**Гасан Мамедов**

**Направление устойчивого развития сельского хозяйства в Нахчыванской АР**

Работа посвящена устойчивому развитию сельского хозяйства в Нахчыванской АР. Указано, что с каждым годом растут инвестиции по направлению на развитие сельского хозяйства.Результатом является устойчивое развитие сельского хозяйства в автономной республике.

Аграрные реформы проводимые в Нахчыванской АР создали прочную основу для развития сельского хозяйства, животноводства, а также развития перерабатывающей промышленности.

Наконец, даны рекомендации для устойчивого развития сельского хозяйства.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* N.Əhmədov

# MÜNDƏRİCAT

# TARİX ELMLƏRİ

1. **İsmayıl Hacıyev.** Xarici dövlətlərin Naxçıvanla bağlı siyasətlərində erməni amili..............3
2. **Firudin Rzayev.** Naxçıvanlıların etnogenezi tarixində kəngər türkləri.............................10
3. **Fəxrəddin Cəfərov.** Naxçıvan zəhmetkeşləri 1941-1945-ci illər müharibəsində................17
4. **Vaqif Məmmədov.** XIX əsrdə Naxçıvanda təhsil................................................................27
5. **İlqar Kəngərli.** Naxçıvan maarifi müharibə dövründə (1941-1945-ci illər)......................33
6. **Məmməd Əliyev.** Muzeylər mənəvi sərvətimizdir.............................................................38
7. **Kamal Mahmudov**. 50-ci illərin ortalarında Azərbaycan SSR-də siyasi vəziyyət və siyasi sistemi təkmilləşdirmək cəhdləri..........................................................................................41
8. **Oktay Rzayev.** Müasir gənclik və hərbi-vətənpərvərlik tərbiyəsi.......................................45
9. **Ариф Зейналов.** История изучения русского языка в азербайджане.............................48
10. **Nadir Hüseynbəyli.** Sovet hakimiyyətinin ilk illərində ermənilərin Naxçıvana qarşı ərazi iddiaları və soyqırımı siyasəti.........................................................................................57
11. **Самира Мамедова, Ехтирам Зейналов.** Деятельность Международной Ассоциации Израиль-Азербайджан "Aziz" (1991-2008 Г.)............................................63
12. **Elgün Aslanov.** Qarabağın keçmiş tarixi dövrünə baxış.....................................................67
13. **Arzu Abdullayev.** Naxçıvanda sənətkarlığın tarixi coğrafiyası.........................................70

# SİYASİ ELMLƏR VƏ HÜQUQ

14. **Məmməd Рзайев.** Milli mənlik süuru və müasir şəxsiyyətin mahiyyəti problemi.............73
15. **Qərib Allahverdiyev.** Cəmiyyətdə azadlığın müəyyən dərəcədə məhdudlaşdırılması zərurəti haqqında...........................................................................................................79
16. **Yusif Hüseynov.** "Molla Nəsrəddin" məktəbinin estetikası.................................................84
17. **Qəhrəman Behbudov.**Mirzə Ələkbər Sabir yaradıcılığında inqilabi–demokratik fikir......89
18. **Novruzəli Rəhimov.** Azərbaycan multikulturalizmi milli-mənəvi dəyər kimi...............94
19. **Qərib Əsgərov.** Azərbaycan-NATO əlaqələri: milli təhlükəsizlik konteksində................100
20. **Sevinc Abbasova.** Heydər Əliyev və Azərbaycan Respublikasında gender qanunvericiliyinin təşəkkülünün bəzi məsələləri (1993-1997-ci illər)...............................106
21. **Osman Hacıyev.**Azərbaycan Respublikasında orta sinif cəmiyyətin modernləşməsinin subyekti kimi...................................................................................................................113
22. **Рамиль Асланов.** Современные угрозы информационной безопасности..................119
23. **Elnur Hacalıyev.** Siyasi modernləşmə siyasi proses kontekstində..................................128

# ARXEOLOGİYA VƏ NUMİZMATİKA

24. **Fəxrəddin Səfərli.** Adları epiqrafik abidələrdə aşkar edilmiş görkəmli şəxsiyyətlər......134
25. **Zeynəb Quliyeva.** Naxçıvanın Dəmir dövrü keramikasinin ornamental təhlili.................140
26. **Toğrul Xəlilov.** Ordubad rayonunun son tunc-erkən dəmir dövrü bəzək əşyaları...........145
27. **Ruhiyyə Rzayeva.** Sirabçay hövzəsinin Eneolit dövrünə aid əmək alətləri......................154

# İQTİSAD ELMLƏRİ

28. **Asif Şirəliyev.** Naxçivan regionunda sahibkarliğin inkişafi məsələləri.............................160

**29. Nazim Əhmədov.** Heydər Əliyevin uğurlu inkişaf modeli Naxçıvanda dinamik inkişafı təmin edir.......163
**30. Ağarza Rüstəmov.** Aqrar islahatların nəticələri və Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı istehsalının mövcud vəziyyətinin təhlili.......167
**31. Теймур Аббасов.** Аграр базарда тяляб вя тяклифин мювжуд vязийяятинин гиймятляндирилмяси.......
171
**32. Müslüm Cabbarzadə.** Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf proqramlarında iqtisadi təhlükəsizlik məsələləri.......176
**33. Mehdi Bağırov.** Aqrar sferada əmək vərdişlərinin formalaşmasinda təlim-tədris istiqamətlərinin rolu.......182
**34. Asəf Qəribov.**Qloballaşma və Azərbaycan iqtisadiyyatında inkişafın xarici iqtisadi amilləri.......186
**35. Mehriban İmanova.** Regional siyasət və sənayenin inkişaf istiqamətləri.......190
**36. Nuriyyə İbrahimova.** Naxçıvan Muxtar Respublikasıda aqrar sahənin dayanıqlı iqtisadi inkişafı.......194
**37. Kəmalə Təhməzbəyova.** Глобал мцнасибятлярin formalaşması və инкишаф Истигамятляри.......1
98
**38. Lətifə Novruzova.** Naxçıvan MR-in iqtisadi inkişafında kiçik və orta sahibkarlığın rolu.......203
**39. Mədinə Allahverdiyeva.** Qloballaşma şəraitində Naxçıvan MR-də kənd təsərrüfatının inkişafı.......206
**40. Cavadxan Qasımov.** Aqrar siyasət Naxçıvan Muxtar Respublikasında sağlam iqtisadiyyatın əsasıdır.......210
**41. Bəhram Həsənov.** Liberal iqtisadiyyatın təşviqi və aqrar sahibkarlıqda innovasiyaların tətbiqi.......213
**42. Ceyhun Mahmudov, Tükazban Hacıyeva.** Azərbaycan Respublikasında nağdsız hesablaşmaların müasir inkişaf prosesi.......218
**43. Famil Həsənov.** İqtisadi təhlükəsizliyin qorunmasında investisiya siyasətinin əhəmiyyəti və vergi tutmanın səmərəliliyi.......222
**44. Həsən Məmmədov.** Naxçıvan MR-də kənd təsərrüfatının dayanıqlı inkişaf istiqamətləri.......226